# HEYDƏR ƏLİYEV –
# ALİ SOVETİN SƏDRİ

## (3 CİLDDƏ)

## III CİLD

*(Parlament iclaslarının stenoqramları.*
*1–29 sentyabr 1993-cü il)*

AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİNİN NƏŞRİ

**BAKI – 2023**

**Məsul redaktor:** **Sahibə QAFAROVA,**
*Azərbaycan Respublikası Milli Məclisinin sədri*

**Tərtibçi redaktor:** **Mehman QAİBOV,**
*Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri*

**H 04(23)** **Heydər Əliyev – Ali Sovetin sədri. – Bakı, "Azərbaycan Nəşriyyatı" MMC, 2023 – 466 s.**

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyi münasibətilə nəşr olunmuş bu kitabın III cildində ölkə parlamentinin 1993-cü il 1–29 sentyabr tarixlərində keçirilmiş iclaslarının stenoqramları dərc edilib.

Stenoqramlarda o dövrdə Heydər Əliyevin Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi, ölkənin neft strategiyası ilə bağlı fikirləri və separatizmə qarşı apardığı mübarizə öz əksini tapıb.

Bu kitabda Ulu Öndər Heydər Əliyevin ölkənin Ali Sovetinə sədr seçildiyi günün – 15 iyun gününün Azərbaycan xalqının Milli Qurtuluş Günü elan edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarı dərc olunub.

Kitab siyasətçilər, müasir Azərbaycan parlamentinin tarixi ilə maraqlanan şəxslər və geniş ictimaiyyət üçün nəzərdə tutulub.

H $\frac{4804000000\text{-}004\ (2023)}{M670(07) - 2023}$ **Sifarişlə**

**ISBN 978-9952-33-050-2**

**© "Azərbaycan Nəşriyyatı" MMC, 2023.**

100

*“Gərək heç kəs bunu unutmasın ki, 1993-cü ildə Azərbaycan parçalanmaq, bir ölkə kimi, müstəqil dövlət kimi məhv olmaq təhlükəsi qarşısında idi...*

*1993-cü ildə Azərbaycan yanırdı”.*

***Heydər ƏLİYEV***



*"1993-cü ildə ölkəmizin düşdüyü ağır vəziyyət ölkə həyatının bütün sahələrinə mənfi təsir göstərirdi. Tənəzzülün nəticələrini aradan qaldırmaq, sabitliyə nail olmaq, əlbəttə ki, böyük siyasi təcrübə, bacarıq, cəsarət tələb edirdi. Ulu Öndər Heydər Əliyevin qətiyyəti, onun siyasi müdrikliyi, dünyadakı nüfuzu, cəsarəti və təcrübəsi, Azərbaycan xalqının Heydər Əliyev siyasətinə öz dəstəyini verməsi bu gün Azərbaycanı nəinki bölgədə, dünyada ən dinamik və sürətlə inkişaf edən ölkələrdən birinə çeviribdir".*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***



# *Stenoqramlar*

## AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN İCLASI

*1 sentyabr 1993-cü il*

*Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri* ***Heydər Əliyev*** *sədrlik edir*

**Sədrlik edən.** Axşamınız xeyir olsun, hörmətli Məclis üzvləri, xalq deputatları, qonaqlar, mətbuat nümayəndələri. Milli Məclisin növbəti iclası açıq elan olunur. Rica edirəm, Milli Məclisin üzvləri qeydiyyatdan keçsinlər.

***(Qeydiyyat)***

44 nəfər iştirak edir, yetərsay var.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** 45 nəfər? Çox gözəl. Yetərsay var. Məclis öz işinə başlaya bilər.

İclasın gündəliyini müəyyən etmək lazımdır. Təklif olunur ki, gündəliyə əsas məsələ kimi Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəyə münasibətlə əlaqədar olaraq avqust ayının 29-da keçirilmiş referendumun nəticələri daxil edilsin. Məlumdur ki, Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəy uzun müddət öz vəzifəsini icra etmədiyinə və iş yerindən kənarda olduğuna görə iyul ayının 29-da Milli Məclis geniş müzakirələrdən sonra, müxtəlif təklifləri götür-qoy edəndən sonra ən demokratik yol olan referendumun keçirilməsi haqqında qərar qəbul etmişdir. Bu referendum bir ay müddətində hazırlanıb keçirilməli idi. Artıq avqust ayının 29-da referendum keçirilib və onun nəticələri Mərkəzi Referendum Komissiyası tərəfindən mətbuatda elan olunubdur. Milli Məclis bu barədə qərar qəbul etdiyinə görə, şübhəsiz ki, bu məsələnin nəticəsini də dinləməlidir. Ona görə təklif var ki, bu məsələ gündəliyə daxil olunsun. Xahiş edirəm, münasibət bildirəsiniz.

Mürvət Əliyev, bu təklif barədə danışmaq istəyirsiniz?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Bəli? Bağışlayın, bu təklif barədə sözü olan yoxdur? Onda rica edirəm, Məclis üzvləri bu məsələnin gündəliyə salınmasına münasibətlərini bildirsinlər.

***(Səsvermə)***

Qəbul edildi. 39 nəfər tərəfdardır. Bu məsələ gündəliyə salındı. Kimin təklifi vardır? Buyurun, Mürvət Əliyev.

**Mürvət Əliyev.** Respublikada referendum yüksək səviyyədə keçirildi. Yerlərdə olan yoldaşlar da bilirlər ki, xalqın əhvali-ruhiyyəsi nə vəziyyətdədir. Ona görə mən təklif edirəm ki, ölkədə Prezident seçkilərinin keçirilməsi məsələsi də bugünkü Məclisin gündəliyinə salınsın.

**Sədrlik edən.** Prezident seçkilərinin keçirilməsi, aydındır. Burada bir çox yazılan var. Cümşüd Nuriyev, buyurun.

**Cümşüd Nuriyev.** Hörmətli sədr, hörmətli millət vəkilləri. Bildiyiniz kimi, Azərbaycan praktiki olaraq artıq iki aydan çoxdur ki, Prezidentsiz idarə olunur, onun səlahiyyətləri həyata keçirilir. "Azərbaycan Respublikası Prezidenti seçkiləri haqqında" Qanunun 1-ci maddəsində göstərilir ki, Prezident səlahiyyətlərinin qurtarması vaxtına 90 gün qalmış yeni Prezident seçkiləri keçirilməlidir. Əslində, artıq 70 gündən artıqdır ki, bildiyiniz kimi, Azərbaycan müharibə aparır. Mən Mürvət müəllimin verdiyi təklifin o şəkildə yox, ayrı şəkildə səsə qoyulmasını istəyərdim, yəni Prezident seçkilərinin vaxtından qabaq keçirilməsi məsələsini. Qanunda və Konstitusiyada belə hallar nəzərə alınır.

İkinci bir təklifim də ondan ibarətdir ki, hər halda, Milli Məclisin üzvləri bu sahədə məni müdafiə edəcəklər. Bildiyiniz kimi, dünyada demokratik dövlətlərdə, adətən, seçkilər vaxtı yaş senzi yoxdur. Bizdə Konstitusiyanın 121-ci maddəsinin ikinci bəndində yaş senzi var və bu, birmənalı qarşılanmır. Ona görə mən eyni zamanda təklif edərdim ki, Azərbaycan Konstitusiyasına və "Azərbaycan Respublikası Prezidenti seçkiləri haqqında" Qanuna dəyişikliklər edilməsi də gündəliyə salınsın. Hər iki təklifin səsə qoyulmasını xahiş edirəm. Sağ olun.

**Sədrlik edən.** Xeyrulla Əliyev, buyurun.

**Xeyrulla Əliyev.** Hörmətli sədr, hörmətli millət vəkilləri. Mən də yoldaşların təklifinə qoşuluram və nəzərinizə çatdırmaq istərdim ki, avqustun 29-da Cəlilabad rayonunda keçirilən referendum adi referendum günü deyildi.

**Sədrlik edən.** Xeyrulla müəllim, əgər bu barədə çıxış edəcəksinizsə, mən Sizə söz verərəm. Gündəliyə dair təklifiniz nədir?

**Xeyrulla Əliyev.** Bəli, bu, çox vaxtında irəli sürülmüş təklifdir. Mən də bu təklifi – Prezident seçkilərinin vaxtından əvvəl keçirilməsini müdafiə edirəm.

**Sədrlik edən.** Prezident seçkiləri... Referendum haqqında məruzə olunandan sonra kimin nə təklifi var, deyə bilər. Söz verəcəyəm. Şaitdin Əliyev, buyurun.

**Şaitdin Əliyev.** Hörmətli sədr, hörmətli Məclis üzvləri. Mən də məndən əvvəl çıxış edən millət vəkillərinin fikri ilə razıyam. Təklif edirəm ki, gündəliyə Prezident seçkilərinin vaxtından əvvəl keçirilməsi məsələsi daxil edilsin. Eyni zamanda, bildiyiniz kimi, Azərbaycan Konstitusiyasının 121-2-ci maddəsində və "Azərbaycan Respublikası Prezidenti seçkiləri haqqında" Qanunda yaş həddi məsələsi qoyulmuşdur, prezidentliyə namizədlərin yaş məsələsi. Mən elə bilirəm ki, o vaxt biz onu qəbul edən zaman səhvə yol vermişik. Buna görə də azad, demokratik seçki olsun deyə, insan hüquqlarının pozulması olmasın deyə Azərbaycan Konstitusiyasında və "Azərbaycan Respublikası Prezidenti seçkiləri haqqında" Qanunda dəyişikliklər edilməsi məsələsi gündəliyə daxil edilsin.

**Sədrlik edən.** Sultan Məmmədov, buyurun.

**Sultan Məmmədov.** Respublikada ictimai-siyasi vəziyyət o qədər gərginləşib, iqtisadi böhran o dərəcədə dərinləşib ki, hər yerindən duran kəs padşah olmaq istəyir. Respublikada hökumət böhranının dərinləşməsi bizim hərbi məğlubiyyətimizə səbəb olur. Ona görə mən də təklif edirəm ki, Prezident seçkiləri vaxtından əvvəl keçirilsin.

**Sədrlik edən.** Qalib Qurbanov buyursun.

**Qalib Qurbanov.** Referendum keçirilməsi ilə əlaqədar Zaqatala rayonunda olmuşam, orada seçicilərlə görüşmüşük, camaatın fikrini çatdırmaq istəyərdim. Hökumətin boşluğunu camaat heç cür qəbul etmək istəmir. Tələb ondan ibarətdir ki, tezliklə seçkilər keçirilməlidir, dövlətin başçısı seçilməlidir. Ondan başqa, İqtisadi siyasət komissiyasının üzvü kimi qeyd etmək istəyirəm ki, indiyəcən bir neçə lazımi qanun layihələri verilməyib, Milli Məclisdə onlar müzakirə olunmayıb. Yəqin, bu da onunla əlaqədardır ki, hazırda bizim Prezidentimiz yoxdur. Bu qədər.

**Sədrlik edən.** Tapdıq Kamalov.

**Tapdıq Kamalov.** Hörmətli sədr, hörmətli millət vəkilləri. Referendum dairə komissiyasının sədri çıxış edəndən sonra, sözsüz ki, biz yerlərdə olmuşuq, öz fikrimizi deyəcəyik. Mən də verilən təkliflərə razıyam.

Sözsüz, referendumun gedişi göstərdi ki, yerlərdə uşaqdan tutmuş böyüyə qədər hamı prezident idarə-üsulunun tərəfdarıdır. Mən təklif edirəm ki, bir ay müddətində Prezident seçkiləri keçirilsin. Bunu nə üçün deyirəm? Bəlkə, bəzilərinə ola bilər ki, vaxt az görünsün. Ancaq

mən deyə bilərəm ki, artıq Prezident seçkiləri üçün bütün siyahılar, lazım olan işlər görülüb, hazırdır. Buna heç iki-üç ay vaxt sərf eləmək lazım deyil. Mən təklif edirəm ki, bu məsələ müzakirə olunandan bir ay müddətində Prezident seçkiləri keçirilsin. Sağ olun.

**Sədrlik edən.** Hüseynağa Qəniyev, buyurun.

**Hüseynağa Qəniyev.** Məndən əvvəl çıxış edənlərin təklifləri ilə mən də razıyam. Təbii ki, biz tezliklə vaxtından əvvəl Prezident seçkilərinə getməliyik. Bu, qanunla belədir.

Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktında göstərilir ki, Azərbaycan prezidentli respublikadır və bütün qanunlarda da bunlar öz əksini tapıb. Biz vaxtından əvvəl, özü də bu məsələni çox da gecikdirmədən həll etməliyik. Onsuz da, Azərbaycanda iki aydır Prezident yoxdur, işləmir, Prezident əvəz olunur. Mən hesab edirəm ki, bir ay müddətində biz bu məsələyə baxmalıyıq və məsələnin baxılmasını gündəliyə daxil etməliyik.

O ikinci təklif ki var, "Azərbaycan Respublikası Prezidenti seçkiləri haqqında" Qanunda, həqiqətən də, dəyişikliklər edilməlidir, oradan yaş senzi götürülməlidir. Bununla əlaqədar məsələ gündəliyə daxil olunmalıdır ki, bizim bu haqda işimiz dünya demokratiyasının standartlarına uyğun gəlsin. Mən bu təklifləri müdafiə edirəm.

**Sədrlik edən.** Tofiq Qasımov, buyurun.

**Tofiq Qasımov.** Mən hörmətli deputatların fikrini bir məsələyə cəlb eləmək istəyirəm ki, Azərbaycan Respublikasının Konstitusiyasında Prezidenti vəzifəsindən kənar etmək üçün 121-6 maddəsi var. 121-7 maddəsinə görə, Prezident əgər öz vəzifəsini icra edə bilmirsə, səlahiyyətləri Ali Sovetin sədrinə verilə bilər və üç ay müddətinə Prezident seçkiləri təyin oluna bilər. Azərbaycan Respublikasının Konstitusiyasında Prezidenti referendum yolu ilə kənarlaşdırmaq, yəni ona impiçment hüququ yazılmayıb, nəzərdə tutulmayıb, yoxdur belə bir şey. Bu referendumun nəticəsi, bir növ, mənəvi xarakter daşıyırdı və Prezident bunun əsasında istefa verməlidir. Prezident istefa verəndən sonra, mənə elə gəlir ki, biz gündəliyə Prezident seçkiləri barədə məsələ sala bilərik. Bu gün, məncə, o məsələnin vaxtı deyil, çünki əks halda bu, qanunsuz olur. Sağ olun.

**Sədrlik edən.** Səlvər Aslanov buyursun.

**Səlvər Aslanov.** Heydər müəllim, mən Cümşüd Nuriyevin hər iki təklifi ilə tamamilə razıyam. Uzun-uzadı danışmaq istəmirəm. Xahiş edirəm ki, o iki təklif səsə qoyulsun. Tofiq Qasımovun təklifi ilə isə razı

deyiləm, düz deyil. Ona görə ki referendum göstərdi ki, Əbülfəz Elçibəy işləyə bilməz, həm də o özü də işləmək istəmir. İstəsəydi, çoxdan gələrdi, işləyərdi. Ona görə mən təklif edirəm ki, Cümşüd Nuriyevin hər iki təklifi səsə qoyulsun.

**Sədrlik edən.** Görürəm tabloda çox familiyalar yazılıb, ancaq başa düşürəm ki, təkliflər eynidir. Ona görə, bəlkə, artıq bu təklifləri səsə qoyaq. Necə baxırsınız?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Bəli, müzakirə vaxtı. Səsə qoyaq, gündəliyə düşsün, ya düşməsin? Bəli, təkliflər olub, Mürvət Əliyev, Cümşüd Nuriyev və başqa Məclis üzvləri təklif verdilər ki, növbədənkənar Prezident seçkilərinin keçirilməsi barədə məsələ gündəliyə daxil olunsun. Bu təklifi mən səsə qoyuram. Xahiş edirəm, Məclis üzvləri münasibət bildirsinlər.

***Səsvermənin nəticələri***

| | |
|---|---|
| ***Lehinə*** | ***36*** |
| ***Əleyhinə*** | ***7*** |
| ***Bitərəf*** | ***0*** |
| ***Səs vermədi*** | ***1*** |
| ***İştirak edir*** | ***44*** |

36 nəfər lehinə səs verdi, əleyhinə 7, bitərəf yoxdur, səs verməyib 1, iştirak edir 44 nəfər.

Qəbul edildi. Demək, bu məsələ gündəliyə salındı.

İkinci təklif də var. "Azərbaycan Respublikası Prezidenti seçkiləri haqqında" Qanuna dəyişiklik etmək. Bu təklifin də gündəliyə salınması üçün münasibət bildirməyinizi rica edirəm.

***Səsvermənin nəticələri***

| | |
|---|---|
| ***Lehinə*** | ***40*** |
| ***Əleyhinə*** | ***5*** |
| ***Bitərəf*** | ***0*** |
| ***Səs vermədi*** | ***1*** |
| ***İştirak edir*** | ***46*** |

Lehinə 40, əleyhinə 5, bitərəf yoxdur, səs verməyib 1, iştirak edir 46 nəfər.

Bu məsələ də qəbul olundu.

Gündəlikdə bir məsələ də var, o da Ali Sovetin işçilərinin maaşları haqqındadır. Bunu keçən dəfə gündəliyə salmışdıq, etiraz yoxdursa, indi baxarıq. Buna daha səs verməyə, yəqin ki, ehtiyac yoxdur. Elədirmi? Bir halda ki bu iki məsələ də gündəliyə daxil olundu, təklif var ki, bizim Katibliyə tapşırılsın ki, bu iki məsələ haqqında biz birinci məsələni müzakirə edənə qədər nə sənədlər, layihələr lazımdırsa, hazırlasınlar və müzakirə üçün təqdim etsinlər. Etirazınız yoxdur?

Onda birinci məsələnin müzakirəsinə keçirik. Azərbaycan Respublikasında avqust ayının 29-da keçirilmiş referendumun nəticələri haqqında. Söz verilir Mərkəzi Referendum Komissiyasının sədri Cəfər Vəliyevə.

**Cəfər Vəliyev,** ***Mərkəzi Referendum Komissiyasının sədri.*** Hörmətli sədr, hörmətli Məclis üzvləri. Azərbaycan Respublikası Milli Məclisinin qərarına əsasən, avqustun 29-da Prezident Əbülfəz Elçibəyə etimad göstərilməsi məsələsi üzrə ümumxalq səsverməsi (referendum) keçirilmişdir. Mərkəzi Referendum Komissiyası ümumxalq səsverməsinin təşkili üçün respublikada 84 referendum dairəsi, o cümlədən Naxçıvan Muxtar Respublikasında 7 dairə yaratmışdır. Referendum dairələrində 3134 səsvermə məntəqəsi, bir o qədər də Məntəqə Referendum Komissiyası təşkil olunmuşdur. Azərbaycan Respublikası Milli Məclisinin qərarına uyğun olaraq, referendum komissiyalarının tərkibində respublikada fəaliyyət göstərən siyasi partiyaların və ictimai-siyasi hərəkatların, ictimai birliklərin və təşkilatların real təmsil olunması üçün tədbirlər görülmüşdür. Referendum günü bütün səsvermə məntəqələrində vətəndaşların bu mühüm siyasi tədbirdə iştirak etmək hüququndan istifadə etmələri təmin olunmuşdur. Xankəndidə, Şuşa, Kəlbəcər, Laçın, Xocavənd, Xocalı dairələrində səsvermə hüququ olan vətəndaşlar respublikanın müvəqqəti yaşadıqları şəhərlərində və rayonlarında səs vermişlər. Ermənistanın ölkəmizə təcavüzü nəticəsində hazırda şəhər və kəndlərimizdə sığınacaq tapmış qaçqınların və məcburi köçkünlərin böyük əksəriyyətinin ümumxalq səsverməsində iştirakı təmin olunmuşdur. Respublikadan kənarda yaşayan Azərbaycan vətəndaşları da referendumda iştirak etmişlər.

Bununla yanaşı, referenduma hazırlıq və səsvermə heç də hər yerdə rəvan getməmişdir. Respublikamız, xalqımız üçün, həqiqətən, taleyüklü, siyasi hadisə olan bu tədbirin əleyhinə çıxanlar da vardı. Bəzi yerlərdə səsverməyə gələnləri çaşbaş salmağa, hətta referendumu boykot etməyə cəhd göstərənlər də oldu. Naxçıvan Muxtar Respublikasının

Ordubad və Culfa rayonlarında Xalq Cəbhəsinə mənsub olan yerli hakimiyyət orqanlarının başçıları vətəndaşların referendumda iştirak etmək hüquqlarını kobudcasına pozdular. Onların təzyiqi ilə Azərbaycan qanunları, beynəlxalq hüquq normaları tapdalanmışdır.

Lakin törədilən əngəllərə baxmayaraq, həmin rayonların bir çox vətəndaşları Muxtar Respublikanın digər dairələrində səs verməyə nail olmuşlar. Qoyulan suala respublika referendum komissiyasına getməklə, teleqram və məktublar göndərməklə cavab vermişlər. Culfa rayonunda səs vermək hüququ olan vətəndaşların təqribən 9 min nəfəri, yəni 53 faizi, Ordubad rayonunda isə 5 min nəfəri, yəni 22 faizi öz rəylərini bildirmişlər. Ümumiyyətlə, Naxçıvan Muxtar Respublikasında səs verənlərin 97 faizi, Ordubadda isə 100 faizi Əbülfəz Elçibəyə etimad göstərməmişlər.

Azərbaycanda ümumxalq səsverməsi tam aşkarlıq şəraitində keçirilmişdir, o cümlədən səslərin hesablanmasında ictimaiyyətin iştirakı üçün geniş imkanlar yaradılmışdır. Referendumun gedişini 8 xarici ölkədən gəlmiş 11 nümayəndə müşahidə edirdi. 30-dan çox xarici jurnalistlər referendumun gedişini işıqlandırırdı. Xarici müşahidəçilər ümumxalq səsverməsinin yüksək səviyyədə təşkil olunduğunu qeyd etdilər. ATƏM-in səlahiyyətli nümayəndəsi Jak Russen Mərkəzi Referendum Komissiyasında söhbət zamanı dedi ki, iki aydan artıq vaxt ərzində respublika Prezidentinin öz vəzifələrini yerinə yetirməməsi dünya praktikasında nadir haldır. Təəssüf ki, bir çox ölkələrin bundan xəbəri yoxdur. Jak Russenin fikrincə, fövqəladə vəziyyət şəraitində Azərbaycanda belə bir referendumun keçirilməsi labüd tədbirdir və o özünün bu rəyini ATƏM-ə bildirəcəyini söylədi.

Məlumdur ki, respublikamızda ümumxalq səsverməsi mütəşəkkil surətdə, vətəndaşların müstəsna fəallığı şəraitində keçmişdir. Referendumda 3 milyon 770 min 119 vətəndaş və ya siyahıda olanların 92,02 faizi iştirak etmişdir. Səs verən vətəndaşların 97,5 faizi Əbülfəz Elçibəyə "yox" demişdir. Onun lehinə cəmi 2,1 faiz səs vermişdir. Müqayisə üçün qeyd edim ki, 1992-ci il iyunun 7-də keçirilmiş seçkilərdə seçicilərin 76,3 faizi iştirak etmişdir. Seçki bülleteni alanların yalnız 59,4 faizi Əbülfəz Elçibəyə səs vermişdi.

Mərkəzi Referendum Komissiyasına ümumxalq səsverməsinin hazırlanması və keçirilməsi barədə kobud qanun pozuntuları, konkret faktlar haqqında şikayətlər daxil olmamışdır.

Mərkəzi Referendum Komissiyası ümumxalq səsverməsinə yekun vurmuş, "Siz Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəyə etimad göstərirsinizmi?" sualı üzrə səsvermənin nəticələri dairə referendum komissiyalarının protokollarına əsasən müəyyən olunmuşdur: birinci, səsvermə siyahılarına daxil edilmiş vətəndaşların ümumi sayı 4 milyon 97 min 367 nəfər; ikinci, səsvermə bülletenləri almış vətəndaşların sayı 3 milyon 770 min 199 nəfər, yaxud 92,02 faiz; üçüncü, "hə" cavabı vermiş vətəndaşların sayı 77 min 730 nəfər, yaxud 2,1 faiz; dördüncü, "yox" cavabı vermiş vətəndaşların sayı 3 milyon 673 min 978 nəfər, yaxud 97,5 faiz; etibarsız hesab edilmiş bülletenlərin sayı 16 min 220 nəfər, yaxud 0,4 faizdir.

Əziz yoldaşlar, səs verənlər referenduma çıxarılan məsələyə öz münasibətlərini bildirməklə, xalqın iradəsinin demokratik islahatlar yolu ilə getmək, Azərbaycanın dövlət, siyasi və iqtisadi müstəqilliyini qorumaq əzmini ifadə etmişlər. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Cəfər Vəliyevə sualı olan varmı? Yoxdur, əyləşin, sağ olun. Mən tabloda yazılan qayda ilə Məclis üzvlərinə söz verəcəyəm. Hüseynağa Qəniyev, buyurun.

**Hüseynağa Qəniyev.** Referendumun gedişində mən də iştirak etmişəm. Xarici qonaqlarla, xüsusən Türkiyədən gəlmiş dövlət nümayəndəsi Rüfət bəylə birlikdə Nəsrəddin Tusi adına Pedaqoji Universitetdə, Əhmədli qəsəbəsində, Günəşli, Sabunçu, Bakıxanov, Mərdəkan, Şüvəlan qəsəbələrində, ümumiyyətlə, 11 seçki məntəqəsində referendumun gedişi ilə ətraflı tanış olduq. Hər yerdə referendum haqqında qanunun tələblərinə əməl olunurdu. İnsanlar tam sərbəst şəkildə seçki məntəqələrinə gəlir və öz fikirlərini ifadə edirdilər. Türkiyəli qonağımız bu 11 məntəqədə olandan sonra o getməli idi. Onun özünün proqramına görə, proqramı da özü müəyyən eləmişdi, məntəqələri də özü seçmişdi və biz onun iradəsi ilə hərəkət edirdik, qətiyyən o proqrama müdaxilə etməmişdik, haranı istəmişdi, biz əvvəlcədən o yerlərə də getmişdik.

Günün ikinci yarısında planlaşdırılmışdı ki, Sumqayıta gedək. 11 məntəqədə olandan sonra o mənə dedi ki, referendumun gedişindən tam razıyam, hər bir şey qanunauyğundur və burada heç bir qanun pozuntusu görmürəm, ona görə də ehtiyac hiss etmirəm ki, bir daha gedib Sumqayıtda bu məsələ ilə məşğul olaq. Onun əvəzində xahiş etdi ki, mən şərait yaradım, o, televiziya vasitəsilə müsahibə vermək, fikirlərini bildirmək istəyirdi. Belə də oldu.

Mənə elə gəlir ki, bu hesabat, bu məlumat həqiqətə tam uyğundur. Referendum haqqında bəzən söz-söhbətlər gəzir. Mən çox təəccüb edirəm. Referendum ümumxalq səsverməsidir. Referendumdan başqa heç bir təşkilatın, heç bir qurumun, hətta heç bir dahi adamın xalq haqqında danışmağa, xalqın adından söz deməyə ixtiyarı yoxdur. Təkcə referendum xalqın adından danışa bilər, təkcə referendum xalqın iradəsini tam bütövlükdə ifadə edə bilər. Həmin referendum da keçdi. O hər hansı bir qanundan, hər hansı bir fərmandan yüksəkdir. Mən hesab edirəm, dünyada da belə qəbul olunub ki, referendum demokratiyanı ali formada əks etdirən tam hüquqi bir aktdır. Ona görə də təklif eləyirəm ki, Mərkəzi Referendum Komissiyasının hesabatı nəzərə alınsın.

**Sədrlik edən.** Sağ olun. Tapdıq Kamalov.

**Tapdıq Kamalov.** Hörmətli sədr, hörmətli millət vəkilləri. Bildiyiniz kimi, mən bir rayona təhkim idim. Biz axşam Lerikdə olduq. Ayın 28-də, şənbə günü Lerikdə böyük mitinq keçirildi və o mitinqdə, demək olar ki, bu referenduma münasibət bildirildi. Avqustun 29-da bazar günü səhər saat 9:10-da, demək olar ki, əhalinin 63 faizdən çox hissəsi referendumda səs verdi. Lerik camaatının ağsaqqalları böyük ruh yüksəkliyi ilə bu referendumun təşkilində iştirak etdilər. Mən Lerik rayonunun 20-dən çox kəndində oldum. Bildiyiniz kimi, bu rayonda 65 seçki məntəqəsi var. Camaat, doğrudan da, böyük ruh yüksəkliyi ilə bu referenduma gəlirdi. Bunu nə ilə izah eləmək olar? Mən elə bilirəm, bu zalda elə bir adam tapılmaz desin ki, referendumda hansısa bir təzyiq olub, ya da nöqsanlar olub. Mən elə bilirəm ki, bunu heç kim deyə bilməz. Heydər müəllim, bu, həqiqətdir ki, bütün kəndləri gəzəndə uşaqdan böyüyə qədər hamı Sizi tərifləyir. Elə bil bu, referendum deyil, Prezident seçkiləri idi, Sizə səs verirdilər. Mən məəttəl qaldım ki, həqiqətən, yaşlılardan da çox cavanlar demokratiyadan, aşkarlıqdan danışırdılar.

Keçmiş iqtidar kadr siyasətində o qədər səriştəsiz olub, səhvlər buraxıb ki, bu gün cavanlar da artıq onları müdafiə eləmir. Lerik camaatının ağsaqqalları və ziyalıları adından şənbə günü iclasda müraciət qəbul olunub. Mən onu Sizə təqdim elədim, bilmirəm çatdırıblar, ya yox. Lerik camaatının ağsaqqalları, ziyalıları orada bildirdilər ki, həqiqətən, Əlikram Hümbətov heç də Lerik xalqı demək deyil, 63 minlik əhalini o, təmsil eləyə bilməz. Camaatın bu işdən xəbəri yoxdur.

Nəhayət, hötmətli sədr, mən Sizə bütün o seçicilər adından bildirirəm ki, Lerik camaatı haqqında deyilən iradlar tamamilə haqsızdır.

Mən, həqiqətən, orada gördüm, yenə deyirəm ki, Əlikram Hümbətov o rayonun camaatını pis vəziyyətdə qoyub. Onlar, doğrudan da, bu gün Sizin tutduğunuz yolu müdafiə eləyir və eləcə də onu mitinq zamanı da göstərdilər. Seçki məntəqələrinə gələn insanlar deyirdilər ki, sözsüz ki, biz indiki hakimiyyəti müdafiə eləyirik.

Mənim fikrimcə, bayaq dediyim kimi, prezident seçkiləri də çox yüksək səviyyədə keçəcək, buna heç şübhə ola bilməz. Mənə belə gəlir ki, bu seçkiləri uzatmağa ehtiyac yoxdur. Prezident seçkilərini bir ay müddətində keçirmək lazımdır, buna artıq hazırlıq görülüb. Ona görə də vaxtı yubatmağa ehtiyac yoxdur. Çox sağ olun.

**Sədrlik edən.** Tapdıq müəllimin dedikləri ilə əlaqədar mən mütləq bir neçə kəlmə söz demək istəyirəm. Bəli, heç vaxt ayrı-ayrı şəxslərin, insanların fəaliyyəti, yaxud onların cinayəti, qanun pozğunluğu yaşadığı, yaxud da anadan olduğu kəndi, şəhəri, bölgəni, vilayəti təmsil edə bilməz. Bu, təbii bir haldır. Sadəcə olaraq, Azərbaycanda olan bəzi ağılsız adamların, bəlkə də, ağılsız yox, indi artıq meydana çıxır ki, bu ağılsızlıqdan irəli gələn şey deyil, bu, əvvəlcədən düşünülmüş, Azərbaycanı parçalamaq üçün aparılan siyasətdir və biz qeyd etdik ki, Əlikram Hümbətov da onların əlində bir alətə dönmüşdü. Heç vaxt biz düşünməmişdik ki, Əlikram Hümbətov guya qondarma Talış-Muğan Respublikası elan edərkən o, doğrudan da, bu, rayonların əhalisinin iradəsini ifadə edir. Heç vaxt heç kəs bunu deyə bilməz ki, əgər Əlikram Hümbətov Lerik rayonundandırsa, demək bu, bütün leriklilərin günahıdır, yaxud da ki, talış köklü bir adamdırsa, talış köklü insanların günahıdır, xeyr. Əksinə, mən yenə də bildirmək istəyirəm, artıq bu məsələyə qayıtmağa ehtiyac yoxdur. Belə adamlar bütün Azərbaycan xalqını ləkələyirlər. Belə adamlar bizim respublikanın vəziyyətini ağırlaşdırırlar. Hər kəsin gördüyü iş, şübhəsiz ki, onun özünə məxsusdur və kimsə cinayət edibsə, o cinayətə görə cavabdehdir.

Mən Lerik rayonunun əhalisinin müraciətini məmnuniyyətlə oxudum. Çox tutarlı bir müraciətdir və mənə verdilər, artıq qəzetdə dərc olunub. Bunları biz böyük məmnuniyyətlə qəbul edirik və hesab edirik ki, Lerik rayonu və eləcə də hər bir rayonda cinayətkar da ola bilər, qanunu pozan adam da ola bilər, naxələf adam da ola bilər. O cümlədən Əlikram Hümbətov Lerik rayonundandırsa, bu heç də Lerik rayonuna aid deyil. Lerik rayonunun əhalisi, orada yaşayan insanlar daim hörmətə layiq adamlar olublar, Azərbaycanın hər bir yerində onlara böyük hörmət və rəğbət hissi ilə yanaşırlar.

Biz Milli Məclisdə də bu hissiyyatlarımızı bildirmişik və güman edirik ki, bu, davam edəcəkdir. Lerik rayonunun əhalisi də Azərbaycanın tam, bütöv olması üçün bundan sonra da öz səylərini göstərəcəklər. Söz gəlmişkən deyim ki, əgər Əlikram Hümbətov Lerik rayonunun meşələrində gizlənirsə, onu da, yəqin, özləri tapıb dövlət orqanlarına təslim edəcəklər.

Tofiq Qasımov, buyurun.

**Tofiq Qasımov.** Burada Mərkəzi Referendum Komissiyasının sədri Cəfər Vəliyev çıxış eləyəndə dedi ki, referendum zamanı hər hansı bir qanun pozğunluğu barədə müraciət edilməyib. Özü çox yaxşı bilir ki, bu müraciətin müddəti kifayət qədərdir, yəni hələ vaxt var, ola bilsin ki, belə müraciət olacaq. Hələ, sadəcə, çox az vaxt keçib. Amma bir şeyə sizin diqqətinizi cəlb eləmək istəyirəm ki, referendumun keçirilməsi, yəni buna kompaniya demək olarsa, o kompaniyanın keçirilməsi ərəfəsində respublika rəhbərliyi bütün çıxışlarda dəfələrlə qeyd edirdi ki, referendum xalq tərəfindən ən demokratik, ən ümdə qəbul edilən bir tədbirdir. Mən bununla tamamilə razıyam. Amma qeyd etmək istəyirəm ki, bu referendum demokratik şəraitdə keçirilməyib, onun referendum kompaniyası olmayıb və beləliklə də bu referendumun 16-cı maddəsinin tələbləri tamamilə pozulub. Ona görə ki “Referendum haqqında” Qanunun 16-cı maddəsində qeyd edilir ki, referenduma qoyulan məsələnin lehinə və əleyhinə respublikanın bütün ictimai və siyasi təşkilatları, siyasi partiyaları, ayrı-ayrı şəxslər azad, sərbəst surətdə təbliğat apara bilərlər və bu təbliğat mitinqlər, küçə yürüşləri və digər toplantılar və sair şəklində, eləcə də kütləvi informasiya vasitələrindən istifadə etmək vasitəsilə ola bilər. Bu referendum fövqəladə vəziyyət şəraitində keçirildiyinə görə və həmin maddədə də yazılır ki, əgər referendum keçirilən vaxt fövqəladə vəziyyət tətbiq edilirsə, referendum dayandırıla bilər, yəni dayandırılmalıdır ki, onu başqa vaxt demokratik şəkildə keçirmək mümkün olsun. Amma biz, çox təəssüf ki, referendumla fövqəladə vəziyyəti eyni zamana saldıq. “Fövqəladə vəziyyət haqqında” Qanunun 17-ci maddəsi də “Referendum haqqında” Qanunun 16-cı maddəsini tamamilə qadağan eləyir, yəni biz bu halda Azərbaycan vətəndaşlarının hüquq və azadlıqlarını məhdudlaşdırdıq və onlara sərbəst şəkildə təbliğat imkanı vermədik. Faktiki olaraq bir nəfərin – bizim Prezident səlahiyyətlərini icra eləyən Heydər bəy Əliyevin Azərbaycanda sərbəst surətdə təbliğat aparmaq imkanı olub. Ona görə də mən bu referendumu demokratik keçirilmiş referendum hesab eləmirəm, onun nəticələri də demokratik referendum nəticəsi kimi hesab oluna bilməz. Sağ olun.

**Sədrlik edən.** Şübhəsiz ki, Məclis üzvlərinin hər birinin öz fikrini sərbəst demək hüququ var. Tofiq Qasımovun da öz fikri var, öz fikrini dedi. Ancaq bilirsiniz, mən istəməzdim Tofiq Qasımova cavab verim. Güman edirəm ki, burada Milli Məclisin üzvləri öz çıxışlarında buna münasibətlərini bildirərlər. Sadəcə olaraq, başa düşmürəm, Tofiq Qasımov və onun kimilər nə istəyirlər? Əgər Tofiq Qasımov bu suala cavab verə bilərsə və Tofiq Qasımovun təmsil etdiyi təşkilatlar, adamlar bu suala cavab verə bilərlərsə, gəlin aydınlaşdıraq. Siz nə istəyirsiniz, Tofiq Qasımov? Xahiş edirəm, bu suala cavab verin. Amma bu suala cavab verməzdən əvvəl mən bir-iki məsələni sizin qarşınızda qoymaq istəyirəm ki, cavabınız tamam olsun.

Azərbaycan Prezidenti Əbülfəz Elçibəy xalq tərəfindən ona göstərilən etimadı tapdalayaraq iyun ayının 17-dən 18-nə keçən gecə xəlvəti olaraq dövlət orqanlarına xəbər vermədən, dövlət orqanlarından əlaqəsiz olaraq, sadəcə Xalq Cəbhəsinin müşayiəti ilə Bakıdan Naxçıvana, oradan da xəlvəti Kələki kəndinə gedib. Bu sözlər dəfələrlə deyilib, ancaq siz məni bunu təkrar deməyə məcbur edirsiniz. O vaxtdan indiyə qədər orada yaşayır. Bizim dəfələrlə onunla telefon danışıqlarımız olub. Onu Azərbaycana dəvət etməyimiz, ona verdiyimiz məsləhətlər qəbul olunmayıb, Əbülfəz Elçibəy öz iş yerinə qayıtmayıb. Prezident vəzifəsini yerinə yetirmir. Kələki kəndində oturub, Xalq Cəbhəsinin adamlarını başına yığıb Azərbaycana qarşı təxribat işi aparır. Belə bir şəraitdə iyun ayının 24-də Milli Məclis Azərbaycan Prezidentinin səlahiyyətlərini Ali Sovetin sədrinə verdi. İndi təsəvvür edin, respublika müharibə şəraitindədir. Müharibə də uğursuz gedir. Daxildə sabitlik pozulur, insanların yaşayışı həddindən artıq pis vəziyyətdədir, münasibətlər gərginləşib. Belə bir zamanda xalq tərəfindən seçilmiş Prezident öz yerini harada görür, xalqın içindəmi, öz iş yerindəmi, yaxud da uzaq, əlçatmaz bir dağ kəndində? Belə bir şəraitdə iyun ayının 24-dən indiyə qədər Prezident yoxdur. Onun səlahiyyətləri Azərbaycan Ali Sovetinin sədri tərəfindən həyata keçirilir. Ancaq eyni zamanda Prezident elan edir ki, o var. Həqiqətən də, xalq tərəfindən seçildiyinə görə ona qarşı burada təkliflər olmuşdu. Konstitusiyanın 121-ci maddəsinin 6-cı və 7-ci bəndləri tətbiq olunmadığına görə, o, vəzifəsindən kənar edilmədiyinə görə, özü istefa vermədiyinə görə, Prezident titulunu saxlayıb. Nə etməliydik biz? Bu məsələ müzakirə olundu. Tofiq Qasımov özü də burada qeyd etdi ki, bəli, referendum dünya praktikasında ən demokratik yoldur. Bunu sübut etməyə ehtiyac yoxdur. Əgər xalq Əbülfəz Elçibəyə səs verərək Prezi-

dent seçibsə, xalq da ona münasibətini göstərməlidir. Burada qeyri-adi heç bir şey yoxdur. Ancaq bu müddətdə də dəfələrlə Əbülfəz Elçibəyə məsləhətlər verilib və şəxsən mən onunla dəfələrlə danışmışam, ona bir neçə dəfə demişəm, Əbülfəz Elçibəy, Siz öz vəziyyətinizi təhlil edin, Azərbaycan belə ağır bir durumdadır. Siz bunu düşünün, anlayın, öz şəxsi mənafelərinizi, şəxsi, siyasi ambisiyanızı, eqoist əhvali-ruhiyyənizi Azərbaycanın ümumi mənafeyindən yüksəklərə qaldırmayın.

Mən bu sözləri ona demişəm, mənim vicdanım təmizdir. Bu sözləri başqa şəxslər də ona deyiblər. Rəsul Quliyev də, Afiyəddin Cəlilov da ona telefon eləyib deyiblər. Bizim aramızda olan xarici ölkələrin nümayəndələri vasitəsilə də bu sözləri mən ona çatdırmışam. Bunların heç birindən nəticə çıxmayıb. Referendum təyin olunub. Bir ay hazırlıq keçib, səs verilib. Münasibət bildiriləndən sonra Tofiq Qasımov başlayır ki, fövqəladə vəziyyət şəraitindədir, bu, qanuni ola bilməz. Loru dildə desək, burada cığallıq eləyir, yarayarmı bu? Nədən ötrü bunu eləyirsiniz? Bunu eləyirsiniz ki, Əbülfəz Elçibəy bura gəlsin, gələydi də bu müddətdə. Kim ona mane olurdu? Kim Prezidentə mane ola bilər? Prezident xalqın hüquqlarını qorumalıdır. Onun hüquqlarını ancaq dövlət qoruyur, Konstitusiya qoruyur. Konstitusiya da ona o hüquqları verib. Hansı vaxt o hüquqlardan istifadə eləyəndə ona maneçilik törədilib? Nə üçün bu qədər ədalətsiz danışırsınız? Siz düşünürsünüzmü ki, bu qədər ədalətsizlik ola bilməz.

Referendum fövqəladə vəziyyət şəraitində keçib. Mən Sizdən soruşuram, Tofiq bəy, fövqəladə vəziyyətin hansı elementləri insanların gedib səs verməsinə mane oldu? Fövqəladə vəziyyətin Bakı şəhərində, eləcə də başqa yerlərdə ən böyük elementi odur ki, qadağan saatı var, o saatda insanlar icazəsiz gecə saat 12-dən səhər saat 5-ə qədər tərpənə bilməzlər. Bu vaxt da seçki yox idi. Seçki olub səhər saat 7-dən axşam saat 8-ə qədər. Bu vaxt da fövqəladə vəziyyət şəraitinin hansı məhdudiyyətləri insanları gedib sərbəst öz rəylərini bildirməyə maneçilik etdi? Siz buna cavab verin. Ən nəhayət, bu referendumu keçirməsəydik, biz nə etməliydik? Siz deyirsiniz ki, mətbuatda təbliğat aparmağa imkan verilməyib. Kim sizə imkan verməyib? Qəzetlər yazır, Əbülfəz Elçibəyin çıxışları, müsahibələri dərc olunur. Dəfələrlə Kələki kəndində mətbuat konfransları keçirilib. Kələki kəndinə beynəlxalq telefon çəkilib, onun Amerika ilə də, Türkiyə ilə də, Avropa ilə də danışmağa imkanı var və danışır da. Bunlardan da istifadə eləyir. Müxbirlər, xarici ölkələrin nümayəndələri onun yanına sərbəst gedib gəlir, bütün fikirlərini deyib.

Bundan artıq nə imkan yaratmaq lazım idi? Hansı bir maneçilik oldu ki, buna imkan yaradılmayıb? Hara şikayət olundu? Ali Sovetə, Referendum komissiyasına belə bir şikayət daxil olmayıb. Siz indi iş qurtarandan sonra onu nə üçün ləkələyirsiniz? Mən bunları izah edəndən sonra verdiyim suala qayıdıram. Nə istəyirsiniz, Tofiq Qasımov və sizin kimilər? Nə istəyirsiniz? Buyurun.

**Tofiq Qasımov.** Birincisi, mən bu məsələni hələ referendum təyin olunan gün də demişdim ki, fövqəladə vəziyyət zamanı referendum keçirilə bilməz. Ona görə ki onda o demokratik olmayacaq. İkincisi, mən burada nə Əbülfəz Elçibəyin getməsini yaxşı bir hərəkət kimi qeyd eləməmişəm, nə də demirəm ki, o, Prezidentdir, Prezident kimi qalsın, referendum keçirilməsin. Referendumu mən də təklif eləmişəm. Söhbət referendumun demokratik şəkildə keçirilməsindən gedir. Mənim dediyim o idi.

Fövqəladə vəziyyət şəraitində indi əgər siz Prezident seçkisi də keçirəcəksinizsə və mən yenə də onu demokratik hesab eləməyəcəyəm. Ona görə ki demokratik hüquq və azadlıqlar fövqəladə vəziyyət zamanı 17-ci maddəyə görə məhdudlaşdırılıb. Neçə mitinqi burada dəyənək gücünə dağıdıblar, neçə mitinqə güllə atıblar, bizim zavodlarda gedib görüş keçirmək istəyən, hətta Xalq Cəbhəsində görüş keçirmək istəyən nə qədər adamları tutub aparıblar, sonra onları bir-bir geri qaytarmalı olmuşuq və sair. Dediyim odur ki, referendum fövqəladə vəziyyət şəraitində keçirilmişdir. Mən ona görə dedim. Mən demədim ki, referendum keçirmək lazım deyil. Xahiş edirəm, mənə yerdən mane olmasınlar.

**Yerdən.** *(Eşidilmir.)*

**Tofiq Qasımov.** Sənin vicdanın mənim kimi olsaydı... Sən nəslində mənim kimi vicdanlı adam tapa bilməzsən. Kəs səsini! Mən sizə qanundan deyirəm, sən qanmırsan qanunu, məndə təqsir var?

**Yerdən.** *(Eşidilmir.)*

**Tofiq Qasımov.** Heç bir təzyiq eləyə bilməz, o kimdir? Təkcə rəqəmlər göstərir ki, bu, köhnə qaydada keçirilib. 100 keçirilib, gərək 99 yazaydınız, çaşmışdınız. 18 yazaydınız, qeyrətiniz olaydı, onda da yaltaqlanmayaydınız. 18 faiz yazaydınız. Qeyrətiniz olmayıb, yazmamısınız.

Mənə mane olurlar, göstəriş verin mane olmasınlar. Yəni söhbət ondan gedir ki, dünyada qəbul edilmiş qayda var, bizim də qanunumuz var. Necə ki, Milli Məclis qanunlara etinasızlıq göstərəcək, bu ölkədə sabitlik ola bilməz. Ancaq qanunun aliliyinə nail olmuş bir dövlətdə daxili

sabitlik olur. Ayrı yerdə olmur. Bir-birinə yaltaqlanmaq üçün, bir-birinə yarımaq üçün kimin ağlına nə gəlir danışmalı deyil. Qanun var, qanunun 16-cı maddəsində yazılıb ki, referendum keçirilərkən referenduma qoyulan məsələlər barəsində siyasi partiyaların, ictimai-siyasi təşkilatların və bütün vətəndaşların sərbəst şəkildə təbliğat aparmaq hüququ var. Amma "Fövqəladə vəziyyət haqqında" Qanunun 17-ci maddəsində onlar hamısı qadağan olunub.

**Sədrlik edən.** Axı Siz mənim sualıma cavab vermədiniz. Nə istəyirsiniz? Siz parlamentdə 3 ildən artıqdır oturmusunuz, komissiyanın sədrisiniz. Bu üç ildə Azərbaycan dağılır, indi nə istəyirsiniz? Yox, indi nə istəyirsiniz? Bundan sonra da dağılsın?

Yaxşı, güman eləyirəm ki, mənim verdiyim sualların heç birinə Tofiq Qasımov cavab verə bilmədi. Söz verilir Mürvət Əliyevə. Buyurun.

**Mürvət Əliyev.** Heydər müəllim, mənə elə gəlir ki, bu gün vicdanı olan hər kəs gərək desin, bunu camaat özü də görüb ki, respublikada referendum yüksək fəallıq şəraitində keçib. Camaat həqiqi mənada bezib. Heç bir təsir, heç bir təzyiq olmadan hamı vicdanla, namusla gəlib öz iradəsini müstəqil surətdə bildirib. Mən burada çox danışmaq istəməzdim. Biz şimal rayonlarında olmuşuq – Siyəzən və Dəvəçi rayonlarında. Referendum hər iki rayonda çox yüksək fəallıq şəraitində baş tutmuşdur. Camaatın əksəriyyəti, demək olar ki, 95 faizə qədəri referendumda iştirak eləyib və onun da 97 faizi Prezident Elçibəyə etimadsızlıq göstərmişdir. Burada birmənalı demək lazımdır ki, respublikada referendum yüksək fəallıq şəraitində və demokratik qaydada keçmişdir. Biz yerlərdə bütün məntəqələrdə olmuşuq. Orada heç kəsə heç bir təzyiq göstərilməyib, heç bir təbliğat da aparılmayıb. Camaata deyilib ki, gəlin, vətəndaşlıq borcunuzu yerinə yetirin.

Sözün açığı, camaat cana gəlib. Bu məsələyə son qoymaq lazımdır. Birmənalı şəkildə demək lazımdır ki, bu gün respublikada vəziyyət həddindən artıq dözülməzdir. Ona görə də camaat çarə axtarır, istəyir ki, bu məsələyə son qoyulsun. Nə qədər qarşıdurma olar? Nə qədər özbaşınalıq, nə qədər dərəbəylik olar? Ona görə də camaat referendumda bu cür fəal şəkildə iştirak edib.

Mən hesab edirəm ki, biz Mərkəzi Referendum Komissiyasının bugünkü hesabatını nəzərə almalıyıq, keçməliyik ikinci məsələyə – respublikada Prezident seçkilərinin keçirilməsi haqqında qərar qəbul eləməliyik.

Bir şeyi də demək istərdim ki, Mərkəzi Referendum Komissiyası qısa müddətdə çox böyük hazırlıq işləri görmüşdür. Biz yerlərdə, bu iki rayonun timsalında gördük ki, demək olar, bütün seçki məntəqələri əyani vəsaitlə, müəyyən texniki vasitələrlə təmin olunmuşdu. Ona görə də sözün açığı, Mərkəzi Referendum Komissiyasının işindən mən bir millət vəkili kimi çox razılıq edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Şaitdin Əliyev buyursun.

**Şaitdin Əliyev.** Hörmətli sədr, hörmətli Milli Məclis üzvləri. Hamının yaxşı yadındadır ki, bir neçə vaxt bundan qabaq həmin bu Məclisdə Əbülfəz Elçibəyin Bakını tərk edərək Kələkiyə getməsi, səlahiyyətlərini yerinə yetirməməsi ilə bağlı, eyni zamanda burada Gəncə hadisələri müzakirə olunan zaman bir çox Məclis üzvləri çıxış edərək bildirdilər ki, Prezident öz vəzifəsini icra edə bilmədiyi üçün o, Azərbaycan Konstitusiyasının 121-6-cı maddəsinə əsasən, öz vəzifəsindən azad edilməlidir və təkid olaraq Məclisin üzvləri bu haqda Ali Sovetin sədri Heydər Əliyev yoldaşa müraciət etdilər. Lakin yaxşı yadınızdadır ki, təkcə Heydər Əliyev dəfələrlə burada qeyd etdi ki, bu yolla da getmək olar. Ancaq qoy demokratik olaraq xalq öz sözünü desin. Xalq özü Prezidentə etimad göstərilib-göstərilməməsi haqqında öz sözünü desin. Bununla əlaqədar olaraq referendumun keçirilməsi məsələsi Məclisin qərarı ilə qəbul edildi.

Mən qeyd etmək istərdim ki, burada məndən qabaq çıxış edən Məclis üzvləri, hansı ki, yerlərdə ezamiyyətdə olmuşdular və referendumda iştirak etmişdilər, düzgün söylədilər ki, referendum xalqın birliyinə səbəb oldu. Məsələn, mən şəxsən özüm Göyçay rayonunda referendumun gedişini müşahidə edirdim və referendumdan bir neçə gün qabaq Göyçay rayonunun əhalisi ilə – istər ağsaqqalları, istər gəncləri, istərsə də müxtəlif siyasi partiyaların nümayəndələri ilə görüşlər keçirən zaman onlar hamısı bir səslə referendumun keçirilməsinə tərəfdar olduqlarını və gəlib azad şəkildə səs verəcəklərini bildirdilər. Mən qeyd etmək istərdim ki, referendum keçirilən gün də əhali ilə məntəqələrdə görüşən zaman onlar qeyd etdilər ki, keçən Prezident seçkilərində bu qədər seçici seçkilərdə fəal surətdə iştirak etməmişdi. Bu, bir daha göstərdi ki, xalq öz sözünü azad demək imkanına malik olmuşdur.

Burada Milli Məclisin üzvü, dostumuz Tofiq müəllim çıxış edərək göstərdi ki, qanun pozuntusu olmuşdur, yəni referendum fövqəladə vəziyyətdə keçirilə bilməzdi. Lakin gəlin həyatın gözünə açıq baxaq.

Bilirik ki, torpaqlarımızda müharibə gedir, biz hərbi vəziyyət elan edə bilməzdik. Müharibənin gedişi ilə əlaqədar fövqəladə vəziyyətin elan edilməsi heç kəsə demirdi ki, referendumda iştirak edən zaman onun səs vermәsinә icazә verilmәsin. Mәsәlәn, Göyçayda istәr seçki dairәsindә, istәrsә dә mәntәqәlәrdә bütün partiyaların nümayәndәlәri var idi vә eyni zamanda elә seçki mәntәqәsi yox idi ki, orada Xalq Cәbhәsinin nümayәndәlәri olmasın.

Onu da qeyd etmәk istәyirәm ki, hazırda icra hakimiyyәtindә Xalq Cәbhәsi zamanı seçilәn әsas şәxslәr işlәyirlәr vә ona görә dә mәn Göyçay rayonunun timsalında demәk istәyәrdim ki, hәqiqәtәn, referendum lazımi sәviyyәdә keçdi vә fövqәladә vәziyyәtin referendumun keçirilmәsinә heç bir maneçiliyi yox idi.

Ona görә dә elә bilirәm ki, bu mәsәlәnin heç bir әsası yoxdur. Keçirilmiş referendum bir daha sübut etdi ki, xalq dövlәtçiliyimizin möhkәmlәnmәsini, müharibәnin tezliklә qurtarmasını, ölkәdә sabitliyin tam bәrqәrar olmasını istәyir, bu sahәdә respublikanın indiki rәhbәrliyinin atdığı addımları ürәkdәn bәyәndiyini bildirir.

Referendum Azәrbaycan xalqının monolit birliyinin tәcәssümünә çevrildi. Bir daha sübut olundu ki, Azәrbaycanda yaşayan bütün millәtlәr dostluq şәraitindә yaşayıb. Heç bir tәcavüzkar qüvvә onların arasında nifaq sala bilmәz. Azәrbaycan xalqının referendumda iştirakı vә öz sözünü inamla demәsi buna real sübutdur.

Yerlәrdә olarkәn vә әhali ilә görüşәrkәn hamısı bir sәslә xahiş edirdi ki, Heydәr müәllimә çatdıraq ki, xalq indiki rәhbәrliyin atdığı addımları bәyәnir vә qarşıya qoyulan mәqsәdlәrdә hamı rәhbәrliklә birlәşәrәk vәzifәnin öhdәsindәn gәlmәyә hazırdır. Heydәr müәllim, mәn Göyçayda olarkәn orada müharibә ilә әlaqәdar torpaqları yadelli düşmәnlәrimiz tәrәfindәn işğal edilmiş 6 mindәn artıq didәrgin var idi vә onlarla görüşәn zaman hamısı bir sәslә dedilәr ki, biz indiki ağır vәziyyәti görürük, hәr şeyә dözmәyә hazırıq. Müdrik rәhbәrimizlә bu vәziyyәtdәn çıxmaq üçün dövlәtçiliyimizi möhkәmlәndirmәliyik. Xalq seçki mәntәqәlәrinә gәlәn zaman da, referendum qurtarandan sonra da öz sözünü deyirdi. Deyirdilәr ki, biz bu Prezidentә inandıq, onu seçdik. Prezident vәzifәsinin öhdәsindәn gәlә bilmәdi vә o, bizim inamımızı itirmişdir. Ona görә tәlәb edirdilәr ki, Sizә çatdıraq ki, tezliklә Prezident seçkilәri keçirilsin, yeni Prezident seçilsin vә ümumi rәhbәrlik altında bütün xalqımız müharibәnin tezliklә qurtarmasına nail olsun.

Ona görə də bu gün məndən qabaq çıxış edən millət vəkillərinin təklifinə qoşularaq xahiş edərdim ki, Mərkəzi Referendum Komissiyasının məlumatı nəzərə alınsın və tezliklə – bir ay müddətində Prezident seçkilərinin vaxtından əvvəl keçirilməsi haqqında qərar qəbul edilsin.

**Sədrlik edən.** Tofiq Əzizov, buyurun.

**Tofiq Əzizov.** Hörmətli sədarət, hörmətli millət vəkilləri. İyulun 29-da Məclisin iclasında Prezident haqqında məsələ qoyulanda bir çox Məclis üzvləri qeyd etdilər ki, Prezidentin səlahiyyətləri alınsın və yenidən Prezident seçkiləri keçirilsin. Hörmətli sədr, Siz tələb elədiniz ki, referendum keçirək. Bu, demokratik yoldur. Ancaq indi görürsünüz ki, bizim bəzi demokratlar Əbülfəz Elçibəyi ömürlük Prezident etmək istəyirlər. Referendumu da deyirlər ki, bu, düz deyil. Deməli, bu, o deməkdir ki, heç bir yol yoxdur, bu dövləti idarə etməyin, ancaq Prezident adı daşıyan adam ömürlük Prezident olsun.

Məclisimiz var, millət vəkillərimiz var, xalq bizə inanıb seçib, göndərib ki, biz də bu xalqın məsələlərini həll edək.

Mən burada çox danışmaq istəmirəm, bizim Məclisin üzvləri hamısı seçki məntəqələrində iştirak ediblər. Seçkilərin demokratik keçməsinə heç bir şübhə yoxdur, bu haqda bir daha danışmaq artıqdır. Çünki həm seçkilər haqqında, həm də seçki məntəqələrində olan seçicilərin danışdıqları haqqında burada söyləməli olsaq, bu, çox böyük bir müzakirə olar.

Mən sənayeçilərin adından demək istəyirəm ki, seçki məntəqələrində, zavodlarda fəhlələrlə, ustalarla, müəssisələrin rəhbərləri ilə görüşmüşəm. Onlar deyirlər ki, biz işləmək istəyirik, bu oyunlarda iştirak etmək istəmirik. Hazırda sənayemiz, iqtisadiyyatımız çox çətin bir vəziyyətdədir və bütün bu oyunlar bu məsələlərin həllinə çox mane olur.

Burada mənim həmkarlarım təkliflər verdilər. Mən də o təkliflərin tərəfdarıyam və xahış edirəm, səsə qoyulsun, keçirilən referendumun nəticələri nəzərə alınsın və oktyabrın 3-nə Prezident seçkiləri təyin olunsun. Konstitusiyada dəyişikliklər edək. Mən burada çox danışmaq istəmirəm. Doğrudan da, bu saat respublikada yaranan gərginlikdən nə qədər tez çıxsaq, ölkənin vəziyyətini o qədər tez düzəldə bilərik.

Mən Tofiq müəllimdən çox xahiş edirəm, bunlar lazım deyil, Siz ağıllı adamsınız, mənim Sizə böyük hörmətim var. Fövqəladə vəziyyətdir, Elçibəy də gəlmir, yaxşı, bəs necə eləyək? Ərizəsini yazmır, gəlmir, necə olsun? Bu məsələ həll olunmalıdır axı. Ağıllı adamsınız, Sizə hörmətimiz var, xarici işlər naziri olmusunuz. Axı belə olmaz. Bu, düz deyil. Biz

millət vəkiliyik, seçilmişik, gəlin səsimizi verək, bu məsələni həll edək, qurtaraq. Çox sağ olun. Bağışlayın.

**Sədrlik edən.** Hacıbaba Əzimov buyursun.

**Hacıbaba Əzimov.** Hörmətli sədr, hörmətli millət vəkilləri. Avqustun 29-da Əbülfəz Elçibəyə münasibətlə əlaqədar olaraq referendum keçirilməsini mən tamamilə qanunauyğun hesab edirəm və deyim ki, bu həm də Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktında nəzərdə tutulan bir məsələdir. Orada aydın göstərilir ki, xalqın taleyüklü məsələlərini Azərbaycan Respublikasının parlamenti ümumxalq səsverməsi yolu ilə həll etməlidir.

Son zamanlar Azərbaycan dövlətinin başçısı məsələsinin qeyri-müəyyən bir vəziyyətdə qalması, son bir ildən artıq müddət ərzində Azərbaycan Respublikasının ordu quruculuğunda, kadr siyasətində, milli münasibətlərdə, iqtisadiyyat sahəsində və xüsusilə əhalinin yaşayış vəziyyəti ilə bağlı özünü göstərən son dərəcə acınacaqlı cəhətlər, çox ciddi nöqsanlar Azərbaycanın gələcəyini, taleyini dəqiq müəyyən etmək üçün ümumxalq səsverməsini – referendumun keçirilməsini zəruri edirdi. Mən keçirilən bu referenduma da məhz bu münasibətlə yanaşmağı, bu münasibətlə qiymət verməyi lazım bilirəm və hesab edirəm ki, biz referendumun nəticələrini şübhə altına ala bilmərik. Çünki dediyim kimi, o nöqsanlar – əhalinin busaatkı vəziyyəti, respublika ərazisinin 20 faizinin düşmən tərəfindən işğal olunması, bir milyondan artıq soydaşımızın qaçqın, didərgin vəziyyətə düşməsi, bütün bunlar keçmiş iqtidarın nüfuzunu son dərəcə aşağı salıb. Əlbəttə, belə bir referendumun keçirilməsi Azərbaycan dövlətinin yeni başçısının müəyyən olunmasını, onun ərazi bütövlüyünün, Azərbaycan xalqının taleyinin gələcəkdə daha sanballı əllərə, daha ciddi insanlara tapşırılmasını tələb edir. Bu mənada mən hesab edirəm ki, Mərkəzi Referendum Komissiyasının məlumatı nəzərə alınmalıdır.

Burada bir məsələ də qoyuldu. Həqiqətən də, biz bu ağır vəziyyəti uzun zaman davam etdirə bilmərik, buna dözə bilmərik. Bizim buna nə mənəvi, nə də hüquqi haqqımız yoxdur. Ona görə də Azərbaycan dövlətinin vahidliyini, ərazi bütövlüyünü, xalqın milli birliyini qorumaq üçün respublikada yeni Prezident seçkiləri keçirməliyik və bu, mümkün qədər tez keçirilməlidir ki, biz Azərbaycan xalqının taleyi haqqında daha ciddi şəkildə düşünə bilək. Mənim fikrim budur və istərdim ki, millət vəkilləri öz çıxışlarında bunu nəzərə alsınlar.

**Sədrlik edən.** Firudin Cəlilov, buyurun.

**Firudin Cəlilov.** Hörmətli sədr, hörmətli millət vəkilləri. Referendumdan bir neçə gün əvvəl təhsil sistemində işləyən rəhbər işçilərin, rektorların müşavirəsi oldu. Bundan başqa, on minlərcə peşə məktəbi sistemində çalışan işçilərin nümayəndələrinin respublika müşavirəsi keçirildi. Hər iki müşavirədə Ali Sovetə və xalqa müraciətlər qəbul olundu. Mən o müraciətlərdə referenduma və ümumiyyətlə, son hadisələrə münasibət bildirmişəm. Ancaq orada qoyulan məsələlərin, söylənən çıxışların nə dərəcədə səmimi və doğru olduğunu yoxlamaq üçün referendum günü bir çox məntəqələrə getdim. Məntəqələrin əksəriyyəti orta məktəblərdə, ali məktəblərdə, peşə məktəblərində, texnikumlarda yerləşirdi və doğrudan da, çox səliqəli, sahmanlı hazırlıq işi görülmüşdü. Demək olar ki, təhsil işçiləri o müşavirələrdə dedikləri sözü həyatda doğrultdular.

Mən məntəqədə səs verən əhali ilə söhbət etdim. Hamısı eyni fikri deyirdi, yəni əks fikirdə olan bir adama rast gəlmədim. Hətta xarici dövlətlərdən gələn müşahidəçilərlə də görüşdüm, xüsusilə Türkiyə parlamentinin nümayəndəsi Rüfət bəylə. Hamının fikri eyni idi ki, referendum çox demokratik yolla keçdi, heç bir əyinti, qanun pozuntusu yox idi. Referendumda siyasi partiyalardan müşahidəçilər də var idi. Mən onların nümayəndələri ilə də söhbət elədim, yəni yerlərdə şikayət yox idi. Bu mənada referendum çox qanuni, demokratik yolla keçdi və referenduma gələnlərin içərisində qaçqınları görəndə isə ürəyim ağrıdı ki, qaçqının evi, yurdu yoxdur, amma bu taleyüklü məsələyə öz sözünü demək üçün o da gəlib.

Bütün bunları deməkdə məqsədim odur ki, referendum xalqın sözüdür. Biz Milli Məclisin üzvləri də xalqın sözünə hörmət etməliyik. Xalq öz sözünü deyib, biz də xalqın iradəsinə, onun dediyi, referendumda çıxardığı qərara tabe olmalıyıq, ona hörmət eləməliyik.

Mən təklif edərdim ki, biz Mərkəzi Referendum Komissiyasının sədrinin verdiyi hesabatı təsdiq eləyək. Xahiş edərdim, bu məsələ səsə qoyulsun və həll olunsun. Sağ olun.

**Sədrlik edən.** Kamran Rəhimov, buyurun.

**Kamran Rəhimov.** Hörmətli sədr, hörmətli Milli Məclisin üzvləri. Mən, ilk növbədə, Milli Məclisin üzvlərinin diqqətini bu referendumun yüksək demokratik şəkildə keçməsinə cəlb eləmək istəyirəm. Məgər seçki komissiyalarında, dairə komissiyalarında bütün partiyaların, ictimai

təşkilatların nümayəndələrinin iştirak etməsi demokratiyaya dəlalət etmirmi? İkincisi, bütün partiyaların, bütün təşkilatların üzvlərinin hamısının sərbəst surətdə gəlib seçki məntəqələrində səs verməsinə heç kim mane olmurdu. Bu, demokratiya deyilmi? Ondan başqa, Tofiq müəllim bir fikir də söylədi ki, müxtəlif partiyalara imkan verilmədi ki, onlar öz sözlərini desinlər. Siz bilirsiniz ki, respublikada bir çox müxtəlif partiyalar, ictimai hərəkatlar var, onların hamısının da mətbuat orqanları var. Həmin mətbuat orqanları bu bir ay müddətində, demək olar ki, öz sözlərini sərbəst surətdə deyiblər, istər Xalq Cəbhəsinin, istərsə də başqa partiyaların nümayəndələri. Bu, demokratiya deyilmi? Ondan başqa, bütün xarici nümayəndələrin iştirakının təmin edilməsi, xarici müxbirlərin seçki məntəqələrində seçkiləri demokratik şəkildə müşahidə etməsi bu, demokratiyanın həyata keçirilməsi demək deyilmi? Seçkilərin demokratik keçirilməsini inkar etmək, mənə elə gəlir ki, həqiqətə, gerçəkliyə göz yummaq deməkdir. Mən uzun müddət bu seçkilərdə iştirak etmişəm. Heydər müəllim, onu demək istəyirəm ki, indiki şəraitdə, doğrudan da, seçkilər çox yüksək səviyyədə keçdi, heç kim tərəfindən təkid olunmadı, heç kim çağırılmadı, hər kəs öz qəlbinin iradəsi ilə seçki məntəqəsinə gəldi. Hətta seçki məntəqələrində mənə deyirdilər ki, biz arzu edərdik ki, Elçibəy özü də seçki məntəqələrinə gəlib görərdi ki, bir il bundan əvvəl ona səs verənlər indi ona necə nifrət edirlər, onun əleyhinə nə cür açıq surətdə səs verirlər. Demokratiyadan bundan artıq nə cür danışmaq olar?

Onu da demək istəyirəm ki, Konstitusiyanı, qanunları pozduğuna görə Milli Məclisin Elçibəyi prezidentlikdən azad etmək səlahiyyəti var idi. Ancaq sədrin təkidi nəticəsində biz referenduma getdik. Doğrudan da, indi görürük ki, bu, düzgün hərəkət idi. Mən çox təəccüb edirəm ki, Moskva televiziyası verdi, Elçibəy özü də elə sabahısı günü elan elədi ki, bu seçkilər demokratik şəkildə keçməyib. Bunu demək üçün gərək əsas olsun, sübut olsun. Xalqın referenduma verdiyi səsə bu cür biganə yanaşmağı mən heç cür başa düşmürəm.

Seçkilərdə, doğrudan da, Masallı əhalisinin, demək olar ki, çox böyük əksəriyyəti iştirak elədi. İştirak edənlərin 98,5 faizi Prezidentə etimad göstərmədi. Özü də açıq surətdə, sərbəst şəkildə, heç bir təkid, heç bir təbliğ olmadan. Doğrudur, vaxt az idi, camaat öz iradəsini iki günə də, beş günə də, on günə də deyə bilər. Çünki xalqda artıq o fikir formalaşmışdır. Xalq öz iradəsini çoxdan bildirmək istəyirdi. Məsələn, Masallı rayonunda onlar həm də uydurma Əlikram Hümbətova ideyasına qarşı nifrətlərini də bir daha bildirdilər.

Heydər müəllim, mən onu demək istəyirəm ki, ilk dəfə olaraq Masallıda hələ iyun ayının 7-də onlar Hümbətovun göndərdiyi komendantı qovublar, orada üç nəfər yaralanıb. Mən bunu birinci dəfə orada eşitdim, bunu heç bir mətbuatda, heç yerdə deməyiblər, yəni Masallı camaatı ilk dəfə olaraq öz səslərini qaldırıblar, ilk dəfə olaraq ona etiraz ediblər və nə qədər təkid eləmələrinə baxmayaraq, rayon soveti çağırılmayıb. Demək, xalq öz sözünü deyir, xalq öz fikrini bildirir. Buna görə də mən bu referendumun qısa müddətdə belə səmərəli, mütəşəkkil keçirilməsində Mərkəzi Referendum Komissiyasının işini yüksək qiymətləndirirəm. Rayonlarda da bunu yüksək qiymətləndirirlər, bütün sənədlər vaxtında göndərilib. Mən Mərkəzi Referendum Komissiyasının hesabatını nəzərə almağı təklif edirəm.

Qaldı ikinci məsələ – Prezident seçkilərinin keçirilməsi. Əlbəttə, ölkəni başsız qoymaq olmaz. Prezident seçkiləri qısa müddətdə keçirilməlidir, xalq kimə səs verdiyini, kimi seçdiyini bilməlidir. Ondan başqa, bizim Konstitusiyada dəyişiklik olmalıdır, yəqin, bunu ayrıca müzakirə edəcəyik, Milli Məclisin üzvləri də öz fikirlərini deyəcəklər. Çox sağ olun.

**Sədrlik edən.** Xeyrulla Əliyev, buyurun.

**Xeyrulla Əliyev.** Hörmətli sədr, hörmətli millət vəkilləri. Mən burada gözlənilmədən irəli sürülmüş təklifdən asılı olmayaraq, srağagün Cəlilabad rayonunda referendumun keçirilməsinin səviyyəsi, onun məzmunu və ruhu haqqında hazırladığım arayışı, yaxud onun müəyyən hissələrini oxuya bilərdim. Amma bunu bir kənara qoyub, hətta bayaqkı etmək istədiyim çıxışı da dəyişərək, bir növ, başqa istiqamətdə fikrimi bildirmək istəyirəm. Cəlilabadda, demək olar ki, Bakı–Astara yolunun sağ və sol tərəflərində yerləşən bütün seçki məntəqələrində və Göytəpə çayının sol və sağ sahillərində yerləşmiş dairələrdən ta dağətəyi sonuncu məntəqəyə – Fətullaqışlağa qədər getdim. Doğrudan da, Kamran müəllim demişkən, mən bir çox seçki kampaniyalarında, referendum kampaniyalarında iştirak eləmişəm. Amma bu il avqustun 29-u tamam başqa bir gün idi. Bu, təkcə Əbülfəz Elçibəylə vidalaşma bayramı deyildi. Bu, eyni zamanda respublika Prezidentinin səlahiyyətini həyata keçirən Azərbaycan Respublikası Ali sovetinin sədri Heydər Əliyevin ətrafında xalqın daha sıx birləşməsinə çağırış günü idi. Xalqın, respublikanın Ali Sovetinin sədrinə dərin sevgi və məhəbbət gününün nümayişi idi. Xalq artıq özünün başçısını seçib. Xalq qətiyyən yaşa baxmır. Onların ifadəsincə deyirəm, xalq deyir, yaşa yox, başa fikir verir.

Yadınızda olar, Siz Alar kəndində olubsunuz. Orada seçki məntəqəsində dedilər ki, Heydər Əliyev bizim sovxozda dörd dəfə olub. Hər dəfə gələndə də bütün briqadalardakı nişanlı qızlara nə lazım olduğunu öyrənib, təmin edib. Oradakı görüşlərinizə həsr olunmuş albomu da saxlayırlar. Xahiş edirəm, icazə verin, bəlkə, mən reqlamenti də pozdum. Gördüklərimi deməliyəm. Oranın adlı-sanlı başçısı Bəhruz Kərimovu tapdım, o, böyük rəğbətlə danışdı. Bütün məntəqələrdə, Heydər müəllim, bir dənə də qanun pozuntusuna rast gəlmədik, referendum əhalinin tam siyasi fəallığı şəraitində keçdi.

Mən Tofiq müəllimdən soruşmaq istərdim ki, konkret olaraq onun həmin gün referendumda iştirakına mane olan hansı cəhətlər olub? Demokratik şəkildə öz iradəsini ifadə etməyə ona kim və nə mane olub? Şəxsən Cəlilabadda mən bunu görmədim. 76 nömrəli Cəlilabad Dairə Seçki Komissiyasının 13 üzvündən biri iştirak eləmədi, özü də müxtəlif partiyaların daxil olduğu 13 üzvdən biri komissiyanın işinə gəlmədi, biri isə rəyini verib imtina elədi. Yerdə qalan hamısı, o cümlədən müxtəlif partiyalara daxil olanlar komissiyanın və referendumun nəticələri ilə razılaşdıqlarını bildirdilər. O ki qaldı seçkilərin demokratik keçirilməməsinə, mən bununla qəti razı ola bilmərəm.

Neçə ildən bəri Sizin fəaliyyətinizlə, çox üzr istəyirəm, Sizin iştirakınızla çıxış etməyə bir az çəkinirlər. Amma Siz olmayan yerdə bunu daha cəsarətlə demək olur. Bu gün burada Həsən Həsənov da iştirak edir, o da həmin məclislərdə olub. Heydər müəllim, yadınıza gələr, müxtəlif hadisələrlə bağlı, Nadir Rüstəmovun şeiri ilə bağlı, ayrı-ayrı əsərlərlə bağlı şəxsən mənim Sizinlə mübahisə etmək cəsarətim olub. Necə deyərlər, amma onun üçün də mən cəza almamışam, əksinə, Siz buna müsbət yanaşmısınız. Bir neçə misal da göstərə bilərəm. Eyni zamanda Prezident Əbülfəz Elçibəy iyunun 17-dən 18-nə keçən gecə qaçdıqdan sonra Konstitusiyanın tələblərinə əməl edib, Prezidenti kənarlaşdıra bilərdik. Amma Siz heç bir təzyiqə, heç bir təklifə meyil etmədən məhz referendum yolunu seçdiniz. Yaxud da ondan sonra avqustun 17-dəki qərarlarla əlaqədar olaraq. Həmçinin gündən-günə Prezidentin vəzifələrini ağırlaşdıran amillər oldu, amma Siz bunların heç birini qəbul etmədiniz, məhz referendum yolunu seçdiniz. Yenə də deyirəm, avqustun 29-u xalqın iradəsinin ən parlaq nümayişi günü oldu. Mən təklif edirəm ki, Mərkəzi Referendum Komissiyasının məlumatını təsdiq edək, nəzərə alaq. Sağ olun.

**Sədrlik edən.** Qüdrət Quliyev, buyurun.

**Qüdrət Quliyev.** Hörmətli Heydər bəy, hörmətli millət vəkilləri. Mən Azərbaycanın xalq deputatı Xudaverdi Hənifəyev və hörmətli akademikimiz Fəraməz Maqsudovla birlikdə Azərbaycan Respublikası Ali Sovetinin və ölkədə referendumu keçirən Azərbaycan Respublikası Mərkəzi Referendum Komissiyasının tapşırığı ilə müşahidəçi kimi Naxçıvana yola düşdüm. Ayın 26-dan 27-nə keçən gecə Naxçıvanda bizim təyyarə yerə endi və həmin təyyarədə yerləşən bülletenləri Naxçıvan Mərkəzi Referendum Komissiyasına çatdırmaq üçün müvafiq işləri həyata keçirməyə çalışdıq. Lakin təəssüf ki, bu zaman Naxçıvan Hava Limanında Naxçıvan Xalq Cəbhəsinin dəstəklədiyi silahlı qüvvələr tərəfindən bizim nümayəndə heyətinə təcavüz edildi və biz öz missiyamızı yerinə yetirə bilmədik. Mən bu haqda Azərbaycan Respublikası dövlət katibi Lalə Şövkət Hacıyevanın apardığı mətbuat konfransında ətraflı məlumat verdim və o hadisələri bir daha yenidən təkrar etmək istəmirəm. Ancaq Milli Məclisin üzvü Tofiq Qasımova üzümü tutaraq deyirəm ki, əgər Siz demokratiyadan danışırsınızsa, sizin təşkilata mənsub olan adamların bu kimi hərəkətləri barədə danışsaydınız, daha lüzumlu, daha məqsədəuyğun olardı. Yenə də üzümü Milli Məclisin üzvü Tofiq Qasımova tutaraq belə bir sual vermək istəyirəm. Siz deyirsiniz ki, Prezidentə etimadsızlıq göstərmək üçün referendumda demokratik qaydalar yaradılmalı idi. Prezidentin sözünü deməsi, öz mövqeyini camaata çatdırması üçün təbliğat aparılmalı idi və buna şərait yaradılmayıb. Axı ortaya belə bir sual çıxır, Prezidentə özünü təqdim etmək üçün hansı təbliğat lazımdır? Məgər Prezident hakimiyyətdə olarkən Azərbaycan Respublikasına, Azərbaycan xalqına rəhbərliyi dövründə – qısa bir il müddətində etdiyi hərəkətlər, bunlar bəs deyildimi ki, Azərbaycan xalqı bu hərəkətlər haqqında öz fikirlərini dəqiqləşdirsin. Ya da bunun üçün əlavə bir təbliğat lazım idi ki, camaat bilsin, bu, yaxşı Prezidentdir, ya pis Prezidentdir.

Naxçıvanda 7 dairə və 205 məntəqə təşkil olunmalı idi, lakin Culfada və Ordubadda bəzi qüvvələr tərəfindən həmin məntəqələrin yaradılması üçün şərait yox idi və burada 30 mindən artıq əhalinin səs verməsi, demək olar ki, sual altında idi. Buna baxmayaraq xalqın qəzəbi, nifrəti o qədər dərin idi ki, onlar hətta belə bir vəziyyətdə gəlib Naxçıvanda siyahılar tutub referendumda öz səslərini, öz hüquqlarını bildirdilər və demək olar, bu səs verənlərin 99 faizi keçmiş Prezident Əbülfəz Elçibəyə öz etimadsızlıqlarını göstərdilər. Mən bu referendumu ən obyektiv, ən vaxtında keçirilmiş bir tədbir hesab edirəm.

Çox danışmaq istəmirəm, ancaq bir məsələni də qeyd etmək istəyirəm ki, hörmətli Heydər bəy, bu referendum yalnız Elçibəyə etimadsızlıq referendumu deyildi. Mən Naxçıvanda olarkən bir şeyin şahidi oldum ki, yalnız Naxçıvanda deyil, mənə belə gəlir ki, bütün Azərbaycanda bu belədir. Bu Sizə olan etimadın referendumu idi. Bu, Sizə olan inamın referendumu idi və hətta mən Sizi inandırıram ki, bülletenləri dolduran zaman əksəriyyəti bu ifadələri, bu ürək sözlərini yazırdı, bildirirdi.

Referendum keçirilərkən müxalifətdə olan qüvvələrin bəzi nümayəndələri bizim cəbhə bölgələrində, təəssüf ki, azərbaycanlılara – bizim mənəviyyatımıza, əxlaqımıza layiq olmayan hərəkətlərlə, təbliğatla məşğul olublar. Qoy onlar da bilsinlər ki, həqiqət, reallıq, gerçəklik budur. Bu saat Azərbaycan xalqı vahid bir qüvvə kimi Heydər Əliyevin ətrafında birləşmək üçün hazırdır. Mənə belə gəlir ki, həmin qüvvələr də xalqın fikrini, etimadını nəzərə almalıdırlar. Keçirilən referendum bunun bir daha sübutu oldu. Mənim referendumdan çıxardığım həmin nəticəni xahiş edirəm, bu zalda əyləşən ictimai-siyasi qüvvələrin liderləri özlərinə də təlqin eləsinlər və Sizin ətrafınızda birləşib xalqı bu ağır vəziyyətdən çıxartmaq üçün öz səylərini göstərsinlər.

Çıxışımın sonunda xahiş edirəm ki, referendumun nəticələri bugünkü iclasımızda təsdiq edilsin və bundan irəli gələn müvafiq tədbirlər, yəni növbəti məsələlərlə əlaqədar – Prezident seçkiləri ilə bağlı Milli Məclis öz qərarını çıxarsın. Sağ olun.

**Sədrlik edən.** Rauf İsmayılov.

**Rauf İsmayılov.** Hörmətli sədr, hörmətli millət vəkilləri. Yəqin, yadınızdadır ki, referendum haqqında iyulun 29-da söhbət düşəndə mən referendumun əleyhinə idim. Ona görə əleyhinə idim ki, əvvəldən bilirdim, nəticəsi elə belə olacaq. Bir də mənə belə gəlir ki, Konstitusiyanın 121-6 və 121-7-ci bəndlərinə əsasən, onu biz o vaxtlar kənarlaşdıra bilərdik. Konstitusiyada çox aydın yazılır ki, əgər Prezident bu və ya digər səbəbdən öz vəzifəsinin öhdəsindən gələ bilmirsə, o, parlamentin qərarı ilə vəzifəsindən kənarlaşdırıla bilər. Həmin vəzifə həvalə olunur parlamentin rəhbərinə. Amma yadınızdadır, o vaxt sədr təkid elədi ki, gəlin referenduma gedək. Biz hamımız razılaşdıq. Yəqin, sədr istədi ki, beynəlxalq aləmdə məlum olsun ki, o, kiminsə, yaxud 50 nəfər tərəfindən kənarlaşdırılmalı deyil, ümumxalq arzusu, təkidi ilə öz vəzifəsindən kənarlaşdırılır.

Mən Ali Sovetin rəhbərliyi tərəfindən təhkimçi kimi Tərtərə göndərilmişdim. Bir şeyi nəzərinizə çatdırmaq istəyirəm ki, camaat bunu

məndən xahiş eləmişdi, ona görə canlı yayımda bu sözləri deməyə borcluyam. Sizə məlumat verilmişdi ki, Tərtərdə bu referendumu pozmaq istəyirlər. Seçicilərin əksəriyyəti məndən xahiş elədi, Sizə çatdırım ki, elə bir söhbət olmayıb. Referendum Tərtərdə çox yaxşı təşkil olunmuşdu, çox yaxşı da keçdi və demək istəyirəm ki, əhalinin 98,8 faizi iştirak etdi, 98,7 faizi Elçibəyə etimadsızlıq göstərdi.

Mən ziyalılardan da soruşurdum ki, bu nə deməkdir? Doğrudan da, indiyə qədər Tərtərdə əhalini elə canlı, fəal şəkildə görməmişdim. Mən verdiyim suala ziyalılar cavab verdi, müəllimlərlə söhbətim oldu. Dedilər bu, iqtidara olan nifrətdir. Xalqı çəkib seçki məntəqələrinə gətirən budur. Heç kimin evinə adam göndərilmədi, heç bir yerə bir qutu göndərilmədi, hamı – xəstəsi də, cavanı da, ahılı da öz fikrini bildirirdilər.

Bir şeyi də demək istəyirəm ki, 39 min adam seçkidə iştirak edirdi, onun 5 mini qaçqın idi. İnanın, mən həyəcan keçirirdim ki, bu qaçqınlar ola bilər, gəlib təsir eləsinlər, söz desinlər. Amma bir nəfərdən belə narazılıq görmədim. 5 min qaçqının nifrətinin ən yüksən zirvəsi idi ki, onlar gəlib öz fikirlərini bildirdilər. Mən istəməzdim o sözü deyim, amma deyirəm, bir neçə bülletendə Sizi inandırıram ki, yazılan söyüşləri görsəydiniz... Mən bunu xalqın nifrətinin zirvəsi hesab edirəm.

Sizin nəzərinizə çatdırmaq istəyirəm ki, Tərtər camaatı özünün münasibətini avqustun 29-da bildirdi, özü də yekdilliklə bildirdi. Cəmisi 1 faiz Prezidentə etimad göstərdi. 98,7 faiz etimadsızlıq göstərdi. Mən sizə söyləmək istəyirəm ki, xalqın arzusu bu idi ki, Sizə onların səmimi salamını, təşəkkürünü çatdırım. Onlar xahiş elədilər Sizə bildirim ki, xalq Sizin ətrafınızda möhkəm birləşəcək. Respublikanın düşdüyü bu ağır vəziyyətdə – indiki vəziyyətdə Tərtər camaatı Sizinlə həmrəydir və onların bir arzusu var: Azərbaycan torpaqlarını erməni təcavüzündən xilas eləmək. Mən o fikri sizə çatdırmaq istəyirdim. Çox sağ olun, diqqətinizə görə minnətdaram.

**Sədrlik edən.** Cümşüd Nuriyev, buyurun.

**Cümşüd Nuriyev.** Hörmətli sədr, hörmətli millət vəkilləri. Yəqin ki, xatirinizdədir, millət vəkilləri rayonlara təhkim olunan vaxt referendumun ən çox pozula biləcəyi Şirvan zonasında gözlənilirdi. Mən Milli Məclisdə həmin bölgənin yeganə nümayəndəsiyəm və orada da öz fikrimi bildirdim və indi də həm millət vəkillərinə, həm də sədrə çatdırmaq istəyirəm ki, həmin məlumatların bəzisi Xalq Cəbhəsinin üzvləri tərəfindən, bir də çox təəssüf eləyirəm ki, icra başçısı olmaq istəyən, mən

bunu tam qətiyyətlə deyirəm, rəhbərliyə yalan məlumat verib ki, guya Şirvan zonasında qarşıdurma yaratmaq istəyirdilər. Bu alınmadı.

Məsələ bundadır ki, tarixən şirvanlılar Azərbaycan dövlətçiliyinin fövqündə durub və Azərbaycan dövlətini qoruyan hər bir kəsi kimliyindən asılı olmayaraq, müdafiə eləməyə hazırdırlar, müdafiə də edəcəklər.

Qaldı ki seçkilərin demokratik keçirilməsinə, bir şeyi başa düşə bilmirəm. Mən Əbülfəz Əliyevin hüquqlarının qorunmasının tərəfdarıyam, amma o yol boyu düzülmüş bir milyon qaçqının hüquqlarını kim qorumalıdır? Bu nə söhbətdir ki, demokratiya pozulub. Əbülfəz Əliyevin hüquqları var, amma o qaçqınların hüquqları yoxdur, o şəhidlərin hüquqları yoxdur? 22 aydır müstəqillik elan eləmişik, artıq bu gün ərazilərimizin 22 faizi gedib, onun hamısı son bir ildə gedib. Respublikada 15 faiz qaçqın var. Bu il üzümlüklərin 34 faizi ermənilərin əlində qaldı. 20 min taxılı ermənilər ələ keçirdilər. Hələ mən demirəm ki, onların əlində 9 min hektar taxıl sahəsi qaldı. Hazırda pambıq strateji xammaldır. Bu illərdə biz Qarabağ zonasından pambığı necə yığacağıq, mən bilmirəm. Burada nağıl danışırlar, görə bilmirlər ki, 6 aydan sonra Azərbaycanı nə gözləyir. Demokratiyadan dəm vururlar. Bir ildə onların apardığı siyasət elə onların bütün təbliğatıydı da. Özü də Allaha şükür "TRT-1" televiziyası Əbülfəz Əliyevi axşamacan elə qəşəng təbliğ eləyir ki, onun heç digər təbliğata ehtiyacı yoxdur.

Azərbaycan xalq mahnısı var, "Səni sevəcəyəm, sən sevməsən də". Mən başa düşə bilmirəm, güclədir bu, qardaş, istəmir də xalq, vallah, istəmir, yorulub, billah, yorulub bu camaat. Ona görə bu xalqın adından danışmaq lazım deyil. Getsinlər o rayonlara, görsünlər, bircə nəfəri orada görünə bilirmi?! Ağsuda bir-iki gün qabaq Xalq Cəbhəsi yığıldı, 3 saatdan sonra qorxularından qaçdılar. Referenduma elə birinci Qarabağ qaçqınları gəldi. Siyahıda 31 min adam var idi. İki gün ərzində səsvermədə 2 min qaçqın Ağsuya gəldi. Ayıbdır, heç olmasa, danışmayaq. 1 milyon qaçqın olan yerdə burada demokratiyadan dəm vurulur, boş-boş danışırlar. Getsinlər də o camaatın içinə. İndi də deyirlər prinsiplər pozulub. Hansı prinsiplər? Bəs o adamlar adam deyil? Bəs onların hüquqlarını kim qoruyacaq? Qarabağ nə gündədir? Kimdir onların hüquqlarını qoruyan? Burada insan hüquqlarından dəm vurulur, beynəlxalq aləmdən dəm vurulur. Beynəlxalq müşahidəçilər də iştirak eləyib, rayonlarda da olublar. Yenə də mən o fikri çatdırıram ki, Azərbaycan dövlətçiliyini qoruyan hər bir adamın ətrafında hamı birləşməyə hazırdır, xalq da yorulub. Mən öz adımdan Mərkəzi Referendum Komissiyasına

minnətdarlığımı bildirirəm. Qısa bir müddət ərzində bu qədər qaçqını, bu qədər köçkünü olan bir respublikada belə bir seçkini təşkil elədiyinə görə mən öz adımdan həm Mərkəzi Referendum Komissiyasına, həm rayonlardakı nümayəndələrinə təşəkkürümü bildirirəm. Bir daha sizin nəzərinizə çatdırıram ki, Şirvan zonası haqqında rəhbərliyə verilən məlumat tamamilə səhvdir. O vəzifəyə can atan bir qrup adamın sözləridir və bir də vəzifəsindən əl çəkmək istəməyən, güclə məhəbbət elan eləyənlərin sözləri idi. Sağ olun.

**Sədrlik edən.** İbrahim İbrahimov, buyurun.

**İbrahim İbrahimov.** Hörmətli sədr, hörmətli millət vəkilləri. Azərbaycanda özünün hüquqi, siyasi nəticəsini almış hakimiyyət dəyişməsi ümumi böhranı dərinləşdirdi, onun nəticələrini daha da ağırlaşdırdı. Bu, faktdır ki, son iki ay ərzində Azərbaycanın üç rayonu – Ağdam, Füzuli, Cəbrayıl işğal olunub, 4 rayonu isə işğal altındadır və qaçqınların sayı 800 minə qədər qalxıb. Belə bir məqamda bugünkü məsələyə münasibət bildirməyim mənim üçün çox ağırdır. Qaçqınların çətin vəziyyəti, küçələrə tökülməsi, ağır məhrumiyyətlər içərisində yaşaması həmin məsələnin müzakirəsini ön plana çıxarmalı idi. Amma çox təəssüflər olsun ki, bu gün bu məsələ müzakirə edilir və qaçqınlardan mən üzr istəyirəm.

Bu, tarixi sənəd olacağına görə məcburam ki, bir millət vəkili kimi özümün və təmsil olunduğum təşkilatın mövqeyini izah eləyəm. İyul ayının 29-da biz referendumun hüquqi, siyasi, mənəvi, texniki tərəflərini geniş şəkildə müəyyənləşdirdik, onunla bağlı rəsmi təşkilat kimi özümüzün münasibətimizi bildirdik. Ona görə bu məsələ üzərində geniş dayanmaq istəmirəm. Amma burada bir neçə məsələyə toxunmağı lazım bilirəm. Tez-tez qeyd olunur ki, Əbülfəz Elçibəy iki aydan artıqdır ki, Kələki kəndindədir. Dəfələrlə ona müraciət olunmasına baxmayaraq, Bakıya qayıtmır.

Əbülfəz Elçibəyin Kələki kəndinə getməsinin səbəbləri artıq get-gedə hamıya məlum olur. Doğrudanmı Prezident özünün təhlükəsizliyi baxımından Bakını tərk elədi, yoxsa hansı səbəbdən? Tarix bunun qiymətini verəcək ki, Əbülfəz Elçibəy Azərbaycanda baş verəcək qırğının həddinin genişlənməsinin qarşısını almaq üçün Bakını tərk elədi. Guya deyilirdi ki, biz dəfələrlə telefonla danışmışıq, Əbülfəz Elçibəyi Bakıya dəvət eləmişik. Məlum məsələdir ki, indi hadisələrin mahiyyəti yavaş-yavaş açılır. Əbülfəz Elçibəyi Bakıdan qaçıran amil göz qabağındadır. Təbii ki, onun qayıdışı üçün tam şəkildə zəmanət verilmədi.

O ki qaldı Əbülfəz Elçibəyin təbliğatı ilə bağlı, bəli, mən keçən dəfə Əbülfəz Elçibəyin referenduma münasibətini, onun şərtlərini elan elədim, göstərdim və indi birbaşa canlı yayım olduğuna görə bir daha diqqətinizə çatdırmaq istəyirəm ki, Əbülfəz bəy referenduma getməyə razı idi, bir şərtlə ki, Prezident haqqında qəbul olunmuş qeyri-qanuni qərarlar ləğv edilsin. 24 iyun qərarı ilə Prezident səlahiyyətlərinin Ali Sovetin sədrinə verilməsi mövcud faktdır ki, bu dəqiqə Prezident faktiki Ali Sovetin sədridir və faktiki Prezident yoxdur. Bu qərarın ləğv olunması, Prezident tərəfindən Məclisə təqdim olunmuş seçki haqqında qanunun qəbul edilməsi, seçkilərin vaxtının müəyyənləşdirilməsi və nəhayət, referendumun keçirilməsi. Əbülfəz Elçibəyə etimadsızlıq göstərilərsə, nəticələrdən asılı olmayaraq istefaya getməyə hazırdır.

Tez-tez burada deyilir ki, bir il müddətində guya keçmiş iqtidar çox böyük səhvlər eləyib, Azərbaycanın iqtisadiyyatını ağır vəziyyətə salıb, müharibə böhranını dərinləşdirib. Xatirinizdədirsə, keçmiş iqtidarın dövründə Şaumyan alındı, Ağdərə alındı. Onların müqabilində yalnız Kəlbəcər verildi. Amma son iki ayda mən izah elədiyim və sizə göstərdiyim faktlar özünü doğrultdu. Təbii ki, keçmiş iqtidarın ən böyük günahlarından biri ordunu qura bilməməsi idi. Ordunun qurula bilməməsinin səbəbləri açıqlandı, aydınlaşdırıldı ki, ordunu nə üçün qurmağa qoymurdular, nə üçün imkan vermirdilər. Prezident Əbülfəz Elçibəyin fərmanı ilə orduda Baş nazirin müavini Vahid Əhmədovun rəhbərliyi ilə çox böyük, yüksək səviyyədə komissiya yaradıldı. Orada bütün maliyyə vəziyyəti yoxlanılmalı, bunun nəticələri artıq aşkara çıxarılmalı idi ki, məlum hadisələr baş verdi və bu nəticələr qapalı qaldı.

Göstərilir ki, bir il müddətində ölkədə iqtisadiyyat çox ağır vəziyyətə düşüb. Sual verirəm, Azərbaycan Xalq Cəbhəsi Əbülfəz Elçibəyin timsalında hakimiyyətə gəlmişdi. Yəni doğrudanmı Azərbaycan Xalq Cəbhəsi bütövlükdə həm iqtisadi hakimiyyəti, həm də siyasi hakimiyyəti öz əlinə almışdı? Mən sizə faktlar deyim. Azərbaycan Xalq Cəbhəsi yalnız siyasi hakimiyyəti əlinə almışdı, iqtisadi hakimiyyət isə Azərbaycan Xalq Cəbhəsinin əlində deyildi. Dəfələrlə burada söyləndiyi kimi, gizli iqtisadiyyatı, mafioz qüvvələri bir il müddətində yaratmaq mümkün deyil. İqtisadiyyat keçmiş iqtidarın əlində deyildi. O, gizli iqtisadiyyatın inhisarı altındaydı və burada əyləşən, Əbülfəz Elçibəyin ünvanına o sözləri deyən adamların hamısı Azərbaycan Xalq Cəbhəsi zamanı hakimiyyətdə olmuşdular. Azərbaycan Xalq Cəbhəsi bu gün keçmiş, əski kommunist rejimini bərpa eləyən bütün qüvvələr tərəfindən hakimiyyətdə təmsil olunurdu. Mən sizə

göstərə bilərəm, hökumətdə Vahid Əhmədov – Baş nazirin müavini, Rəsul Quliyev – Baş nazirin müavini, Abbas Abbasov – Baş nazirin müavini. İstədiyiniz qədər bu faktları sadalamaq olar. Yəni doğrudanmı hakimiyyətə bütövlükdə Azərbaycan Xalq Cəbhəsi rəhbərlik eləyirdi? Yox! Bu gün burada danışanların böyük əksəriyyəti günahların hamısını Azərbaycan Xalq Cəbhəsinin, Əbülfəz Elçibəyin üzərinə qoymaqla bir daha sübut eləyirlər ki, özləri də onunla bərabər nə qədər böyük məsuliyyət daşıyırlar.

Mən bu barədə geniş danışmaq istəmirəm. Yəqin ki, referendumun nəticələri ilə bağlı təşkilat kimi öz münasibətimizi bildirmişik, referendum komissiyası yaratmışıq. Qanuna görə, hər hansı bir təşkilat keçirilən hüquqi, siyasi aktı boykot eləyə bilər, onu aktiv və ya passiv boykot eləyə bilər. Azərbaycan Xalq Cəbhəsi, təbii ki, referendumu aktiv boykot eləmişdi. Buna görə də özünün üzvlərini dairə seçki komissiyalarının tərkibinə göndərmişdi. Amma çox təəssüflər olsun ki, Mərkəzi Referendum Komissiyasının qərarı ilə Milli Məclisdə qəbul olunmuş qərar əldə əsas tutularaq 27-28-i Azərbaycan Xalq Cəbhəsi tərəfindən dairə seçki komissiyalarına, məntəqə seçki komissiyalarına göndərilən üzvlər çıxarılmış, müşahidəçilər geri qaytarılmışdır. Bu barədə bizim təşkilatın daxilində yaratdığımız komissiya özünün rəyini bildirib. Biz avqustun 31-də mətbuat konfransı keçirdik, öz mövqeyimizi dedik və təbii ki, həmin komissiyanın rəyi məlumdur. O komissiya öz rəyini Mərkəzi Referendum Komissiyasına göndərəcək. İndi mən sizə Əbülfəz Elçibəyin bəyanatını təqdim eləmək istəyirəm: “Azərbaycan Respublikasının Prezidenti kimi mən Milli Məclisin referendum keçirmək haqqında qərarına öz münasibətimi avqustun 6-da verilmiş bəyanatımda ifadə etmişdim”.

Həmin bəyanatda bu qərar qəbul edilərkən, Azərbaycan Konstitusiyasının və “Ümumxalq səsverməsi (Azərbaycan Respublikasının referendumu) haqqında” Qanunun 15-ci maddəsinin pozulduğu qeyd olunmuş, səsvermənin fövqəladə vəziyyət dövründə demokratik prinsiplərə zidd şəraitdə keçirildiyini və onun nəticələrinin saxtalaşdırılacağına heç bir şübhə qalmadığını bildirmişdim. Avqustun 29-da Prezidentə etimad haqqında referendumun gedişində bütün bunlar təsdiq olundu. Hətta televiziyanın seçki məntəqələrindən hazırladığı reportajlarda da qanun pozuntuları aşkar görünürdü. Bir seçicinin bir neçə nəfərin yerinə səs verməsi, səsvermənin gizliliyi prinsipinə riayət edilməməsi və sair adi hal olmuşdur. Məntəqə komissiyalarının üzvlərinə hər cür təzyiq göstərilmişdir. Səbail rayonunun məntəqələrindən birinin sədri saxtakarlığa yol vermədiyi üçün polis tərəfindən həbs edilib.

**Yerdən.** *(Eşidilmir.)*

**İbrahim İbrahimov.** Bəy, otur! İkiüzlülük eləmə! Sənin ikiüzlülüyünü çox görmüşük. Otur yerinə!

**Sədrlik edən.** Sakit olun.

**İbrahim İbrahimov.** Neçə adama yaltaqlanmısan, bu gün də ona. Sən deyildin Heydər Əliyev haqqında keçən dəfə burada, meydanda danışan? Əclaf, ikiüzlülər, yaltaqlar. Bu dövləti siz məhv edirsiniz, bu dövləti siz dağıdırsınız.

**Sədrlik edən.** Sakit olun, rica edirəm, bir-birinizə mane olmayın.

**İbrahim İbrahimov.** Heydər bəy.

**Sədrlik edən.** Bağışlayın, mən İbrahim İbrahimova imkan verirəm, nə istəyir, qoy desin.

**İbrahim İbrahimov.** Hörmətli Heydər bəy, siz özünüz şahidsiniz ki, mən məclislərdə etikanı gözləyirəm və bütün Məclis üzvləri, yəqin ki, mənim etikadan kənara çıxmamağımın həmişə şahidi olublar və Sizdən çox xahiş edirik ki, Səbail rayonunun seçki məntəqələrindən birinin sədri saxtakarlığa yol vermədiyi üçün polis tərəfindən həbs edilib məntəqədən aparılmışdı.

Kommunizmin tüğyan etdiyi zamanlarda olduğu kimi, bütün dairələrdən səsvermədə seçicilərin az qala 100 faizinin iştirakı haqqında məlumatların göndərilməsi, İmişli rayonunda isə hətta seçicilərin 101 faizinin iştirak etdiyi haqda raport verilməsi referendum adı altında siyasi oyunlar aparıldığından xəbər verir. Yüz minlərcə qaçqının yollarda qaldığı, Qubadlı, Zəngilan, Cəbrayıl rayonlarının əhalisinin düşmən əlindən qaçaraq cənub sərhədlərinə toplaşdığı günlərdə bu şişirdilmiş rəqəmlər hakimiyyət hərislərinə qarşı ikrah hissi yaradır. Respublikanın ən kütləvi ictimai-siyasi təşkilatının, onunla həmrəy olan 20-yə yaxın partiya və cəmiyyətin referendumu boykot etmək haqqında qərar çıxardığı bir şəraitdə belə göstəricilərin özü saxtalaşdırmanın ən gözəl sübutudur.

Dövlət çevrilişi nəticəsində rəhbərliyi ələ keçirmiş qüvvələr siyasi məntiqə və əxlaqa zidd olaraq fövqəladə vəziyyət şəraitində mənim məsləkdaşlarımın bir çoxunun həbsxanalarda saxlandığı, digərlərinin təqiblərə məruz qaldığı, tərəfdarlarının mitinqlərinin vəhşicəsinə dağıdıldığı, mətbuatda sözümü demək imkanımın əlimdən alındığı, siyasi senzuranın gücləndiyi bir zamanda öz qeyri-qanuni hakimiyyətlərini

legitimləşdirmək üçün referendum adı altında siyasi tamahkar qurmalar nəticəsində Azərbaycanda demokratik prinsipləri hörmətdən salır, respublikanın beynəlxalq nüfuzuna ağır zərbə vururlar.

Azərbaycan Respublikasının xalq tərəfindən seçilmiş qanuni Prezidenti kimi mən referendumun saxtalaşdırılmış yekunlarını tanımayacağımı bildirirəm və referendumla pərdələnmiş dövlət çevrilişinin nəticələrini aradan qaldırmaq üçün mübarizəmi bütün demokratik vasitələrlə davam etdirəcəyimi bəyan edirəm. Mən bir daha göstərirəm ki, Azərbaycan Xalq Cəbhəsinin haqqında çox qəribə söz-söhbətlər gəzir, guya onun silahlı dəstələrinin olması göstərilir.

Siz, yəqin ki, Azərbaycan Xalq Cəbhəsinin Ali Məclisinin son qərarına baxmısınız. Həmin Ali Məclisin qərarında Azərbaycan Xalq Cəbhəsi konstruktiv mövqedən çıxış etdiyini bir daha bəyan eləmişdi. Azərbaycan Xalq Cəbhəsi hakimiyyətdə kimin olmasından asılı olmayaraq, Azərbaycanın ərazi bütövlüyünə qarşı yönəldilən bütün cəhdlərin qarşısını almağa, kömək etməyə hazırdır. Azərbaycan torpağının işğalına qarşı mübarizədə bütün qüvvələrə kömək etməyə hazırdır.

Nəzərinizə bir şeyi də çatdırım ki, son zamanlar informasiya vasitələrində guya Azərbaycan Xalq Cəbhəsinin Əlikram Hümbətovu dəstəkləməsi göstərilir. Onu da qeyd edim ki, Ali Sovetin sədrinin fərmanı ilə "Milli Qəhrəman" adı verilmiş – Allah onlara qəni-qəni rəhmət eləsin, qəbirləri nurla dolsun – o adamların ikisi Azərbaycan Xalq Cəbhəsinin üzvü olub...

Bütünlükdə mən bu gün Azərbaycan Xalq Cəbhəsinin İcraiyyə Komitəsinin sədri kimi təşkilatın adından söz verirəm ki, biz mübarizəmizi dayandırmayacağıq. Dediyim o məsələlərdə, yəni Azərbaycan torpaqlarının işğalı məsələlərində, onun ərazi bütövlüyünə qarşı yönəldilən bütün cəhdlərdə biz hakimiyyətdə kimin olmasından asılı olmayaraq, öz köməyimizi göstərməyə həmişə hazırıq. Amma Azərbaycanda insan hüquqlarının, demokratik prinsiplərin pozulmasına qarşı demokratik dinc vasitələrlə həmişə mübarizə aparacağıq və bir daha təkrar edirəm, Azərbaycan Xalq Cəbhəsinin silahlı qüvvələri yoxdur. Azərbaycan Xalq Cəbhəsi ictimai-siyasi təşkilatdır. Azərbaycan Xalq Cəbhəsi respublikada gedən ictimai-siyasi proseslərə özünün müəyyən nüfuzu ilə həm ölkə daxilində, həm də bütün dünyada demokratik bir hərəkat kimi qəbul edilmiş, təsdiq olunmuşdur. Diqqətinizə görə sağ olun, təşəkkür edirəm.

**Sədrlik edən.** İbrahim bəy, mən imkan verdim ki, Siz Əbülfəz Elçibəyin bəyanatını oxuyasınız. Mən buna qiymət vermək istəmirəm. Əbülfəz Elçibəy bu günlərə qədər Azərbaycanın Prezidenti olub. O, indi Azərbaycanın Prezidenti deyil, referendumun nəticələrinə görə, ancaq siyasi xadimdir. Mən çox təəssüf edirəm ki, ya onun özünün, yaxud da ona kömək eləyən adamların səriştəsizliyi nəticəsində Əbülfəz Elçibəyə layiq olmayan belə bir bəyanatı Siz bəyan etdiniz. Mən buna təəccüb edirəm. Çünki belə bir bəyanat Əbülfəz Elçibəyin xalq arasında nüfuzunu heç də qaldıra bilməz. Bu, birinci. Ancaq bizdə söz azadlığıdır, kim nə istəyir, onu deyə bilər, kim nə istəyir, onu yaza bilər. Mənim sadəcə Əbülfəz Elçibəy üçün ürəyim yanır. Çünki bütün nöqsanlarına baxmayaraq, onun müsbət cəhətlərini mən həmişə görmüşəm, qiymətləndirmişəm və Azərbaycanın xalq hərəkatında onun rolu da həkk olunub və o silinməyəcək. Mən bunu heç vaxt nəinki inkar etməmişəm, həmişə bəyan etmişəm. Ancaq Əbülfəz Elçibəyin bu cür yollara getməsi onun indiyə qədər qazandığı siyasi nüfuzu yerə vurur. Bəlkə də, o bunu etmir, ətrafında olan adamlar edirlər. Bunu nə ilə təsdiq eləyə bilərəm?!

Bu bəyanata mən öz münasibətimi bildirirəm. Siz, İbrahim bəy, axı bilirsiniz ki, başqa yerlərdə olmasa da, Naxçıvandakı vəziyyəti mən yaxşı bilirəm. Siz də yaxşı bilirsiniz. Bəs bu adamları niyə aldadırsınız? Siz bilirsiniz ki, mən hər şeyi yaxşı bilirəm. Mən istəmirəm bunu açım. Naxçıvanda Xalq Cəbhəsinin 500-ə qədər silahlı dəstəsi var və bu adamlar 3-4 ildir heç bir yerdə işləmirlər, ancaq yüksək səviyyədə pul alırlar, Naxçıvanda müxtəlif cinayətlər törədirlər, Naxçıvan əhalisini boğaza yığıblar. Axı Siz bunu yaxşı bilirsiniz. Mən Naxçıvanda yaşadığım vaxt onlar mənə nə qədər əziyyət veriblər, Siz bunu yaxşı bilirsiniz. Vaxtında Xalq Cəbhəsinə mənim qədər bağlı olan adam olmayıb. Axı Siz bunu yaxşı bilirsiniz. Siz orada iştirak edirdiniz, sentyabrın 3-də xalq məni Naxçıvan Ali Məclisinə sədr təklif eləyəndə mən sabahısı gün Xalq Cəbhəsindən olan adamları Ali Məclisin sədr müavinləri təyin etdim, yəni təklif etdim və mənim təklifimlə qəbul olundular. Baş naziri Xalq Cəbhəsindən dəvət etdim. İndi orada xüsusi bir hökmranlıq yaradıb.

Culfa rayonunda Ramiz Tağıyev var. Mən Xalq Cəbhəsindən Ali Məclisin müavini olan Qafar Məmmədova göstəriş verdim ki, get ora, onu mütləq sovetə sədr seçdir. Onu seçmək istəmirdilər. Amma onlar buna nə cavab verdilər: silahları işlətmək, güc işlətmək, insanları qorxutmaq, insanları qorxu altında saxlamaq. Mən artıq bunu bir də təkrar etmək istəmirəm. Oktyabrın 24-də daxili işlər nazirinə təzyiq edənlər kimlər

idi? 200 nəfər silahlı. Naxçıvan televiziyasını işğal edənlər kimlər idi? 100 nəfər silahlı, başında da Fərəc Quliyev, Asəf Quliyev və başqaları. Bunlar Sizin gözünüzün qarşısında olan hadisələrdir. Niyə Siz camaatı aldatmaq istəyirsiniz? Nəhayət, Ordubadda camaatı terror altında saxlayırlar. Əgər Əbülfəz Elçibəy demokratik bir adamdırsa, o yaşadığı yerdə camaata azadlıq verməlidir. Ordubadın əhalisi terror altındadır, silah terroru altındadır. Türkiyədən gələn adamlar, hansılar ki, Əbülfəz Elçibəyin yanına gediblər, ondan sonra mənim yanıma gəliblər, onlar mənə danışdılar ki, Culfadan Ordubada gedən yolda 4 dəfə onları saxlayıb yoxlayıblar. Onu eləyən kimlərdir? Yalan deyil.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Hamısı, Hicran, bilirsən, otur! Mən sənə deyirəm otur, kəs səsini! Mən səni də tanıyıram, Ordubadı da tanıyıram. Ordubaddan sənin kimi adamlar çıxdı, Ordubadı biabır elədilər. Otur yerinə! Qanacaqsız, mərifətsiz. Ordubad kimi gözəl yeri sənin kimi adamlar ləkələdilər. Otur yerinə! Bilirsən nə var, Hicran, Ordubadı mən səndən də çox sevirəm. Sən Ordubad üçün bir dənə də iş görməmisən. Mən Ordubadda çox işlər görmüşəm.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Görməmisən, dağıtmısan Ordubadı, əl çəkin bu işlərdən! Mən sizin kimi heç kəsi təhqir etmirəm, kəs səsini! Ordubad rayonunu siz biabır elədiniz. Doğru deyirəm. Əyləşin yerinizə, sakit olun, sakit olun! Mən rica edirəm, oturun yerinizə. Əyləşin! Siz narahat olmayın. Bilirsiniz nə var. Əyləşin! Əyləşin! Rica edirəm. Əbülfəz Elçibəy bu adamlara o qədər imkan verib ki, ona görə bunlar qanunu bu qədər pozurlar, belə hərəkətlər edirlər. Mən bunların hamısını Naxçıvanda görmüşəm, mən buna təəccüblənmirəm. Siz narahat olmayın belə şeylərə. Heç narahat olmayın.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Narahat olmayın! Əyləşin! Mən bunların hamısını görmüşəm. Mən görmüşəm, onların da hərəkətini görmüşəm, həmin bu Hicran Kərimli ilə Fərəc Quliyevin Ordubadda gördüyü işləri... Əyləşin, mənə mane olmayın. Hamısını görmüşəm. Əbülfəz Elçibəyin dəstəyi, İsgəndər Həmidovun göstərişləri ilə gəlib polis idarəsini zəbt etdilər. Polis idarəsinin rəisini qanunsuz olaraq çıxardılar, bunlar elədilər. Bəs onu hansı silahlarla elədilər? Xalq Cəbhəsində olan silahlarla elədilər. Bəli. Mən Naxçıvanda Ali Sovetin sədri kimi heç bir şey edə bil-

mədim, çünki Əbülfəz Elçibəy bunları dəstəkləyirdi. İsgəndər Həmidov da Əbülfəz Elçibəyin dediklərini yerinə yetirirdi. Bunlar hamısı məlum məsələlərdir. Siz narahat olmayın. Mən bunların hamısını görmüşəm. İndi bu cavan oğlanın, hələ dünyada heç bir şey etməmiş, xalq üçün, bəlkə də, öz valideynləri üçün bir şey yaratmamış adamın gəlib bu mərtəbəyə çıxdığı vaxt özünü bu cür tərbiyəsiz aparması məni təəccübləndirmir. Çünki bunlar buna adət ediblər. Bunlar...

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Sakit olun, mənə mane olmayın. Bunlar buna adət ediblər, söyüş, təhqir, insanları silahla qorxutmaq. Sizin xatirinizdə deyilmi? Hicran Kərimli, Siz 1992-ci ilin fevral ayında silahlarla gedib qanunsuz olaraq sərhəd qoşunlarını zəbt elədiniz, onların əlindəki silahları aldınız. Zaqafqaziyadan sərhəd qoşunları vertolyotlarla gəldilər, oranı bombardman edirdilər. Ayıb deyilmi sizə? Sizi orada qırırdılar, Ordubadın əhalisini sizin qanunsuz hərəkətlərinizə görə bombardman eləmək istəyirdilər. Bunlar sizin xatirinizdən çıxıbdırmı? Mən gəldim sizi orada xilas elədim. Zaqafqaziya qoşunları komandanını ora çağırdım, vertolyotla gəlib düşdük ora, oranı bombardman eləməyə 10 dənə vertolyot gəlmişdi.

Fərəc Quliyev, sən və sənin kimi adamlar gedib oradan o silahları oğurladığınıza görə üç nəfər sərhədçini aldadıb kefləndirmişdiniz, silahları qeyri-qanuni almışdınız. Yadınızdan çıxıbmı? Sonra mən çox çalışdım ki, o silahların bir hissəsini onlara qaytarım, o münaqişəni aradan götürüm. Utanmırsan, burada tərbiyəsizlik edirsən? Sən mənim oğlumdan da yaşca kiçiksən. Həyatında hələ valideynlərin üçün heç bir şey eləməmisən. Həmin Ordubad rayonunun yaranmasında, inkişafında, orada sənaye müəssisələrinin, elmi bazanın yaranmasında mən zəhmət çəkmişəm. İndi sən mənim üzümə durursan? Ayıb deyilmi sənə? Utanmırsanmı? Bəli. Həmin Fərəc Quliyev Ordubadda olan silahlı dəstələri gətirdi, Naxçıvanda Daxili İşlər Nazirliyini işğal elədi. Bu mənim gözümün qabağında olan hadisədir. Sən Fərəc Quliyev bir yerdə getdiniz polis idarəsini zəbt etdiniz, polis rəisini oradan çıxardınız, qovdunuz, İsgəndər Həmidov da bunu qərarlaşdırdı və müəllim İlqar, hansı ki, qoymuşduq RANO-nun müdiri, orada işləyə bilmədi, onu gətirdiniz siz polis rəisi elədiniz. Utanmırsan? Başqaları bunları bilmir, amma mən bilirəm axı. Bunlar mənim gözümün qabağında olan məsələlərdir. Xalq Cəbhəsinin qoyduğu dəstələrə görə mən özüm Ordubada gedə bilmirdim. Gedə bilərdim, sadəcə, sizin kimi tərbiyəsiz adamlarla

üz-göz olmaq istəmirdim. Sən deyirsən ki, bu, yalandır, təhqirdir. Utanmırsanmı? Türkiyənin xarici işlər nazirinin birinci müavini Özdən Sambək, Xarici İşlər Nazirliyinin məsul işçisi Candən Azər, bu sözləri onlar mənə deyiblər. Onlar da yalan deyirlər? Vicdanınız olsun. Əgər dünənə qədər yox idisə, heç olmasa, indi vicdanınız olsun.

Nəhayət, burada Qüdrət Quliyev danışdı, iki gün, üç gün qoymadınız təyyarə bülletenləri Naxçıvana gətirsin. Bunu kim elədi? Naxçıvanda həmin o silahlı qüvvələr. O BTR-i Xalq Cəbhəsinin silahlı qüvvələri xalqın pulu ilə almışdı. Gətirib Naxçıvanın hava limanında qoydu, göyə atəş açdı, orada olan əhalini, o təyyarədən düşən sərnişinləri vahiməyə saldılar. Bunları Xalq Cəbhəsi eləmədimi? Xalq Cəbhəsinin sədri Asəf Quliyev və başqaları da gəlib Ali Sovetin sədr müavini Rəşid Həsənovun qolunu burub avtomobilə basdılar, apardılar. Bunu onlar eləmədimi? Silah olmasa, bunu eləyə bilərdilərmi?

Hələ mən orada işləyərkən bir dəfə Rəşid Həsənovu gəlib silah gücü ilə Xalq Cəbhəsinə aparmışdılar. Mən onu azad elədim, gətirdim, istədim günahkarlara cəza verəm. Gəldi, dedi ki, mən onları bağışladım. Ayıb deyilmi sizə? Siz bu camaatı aldada bilərsiniz, amma məni aldada bilməzsiniz. Mən bunların hamısını gözümlə görmüşəm. Sənə, Fərəcə və başqalarına dəfələrlə demişəm, mən sizə oğul münasibəti bəsləyirəm. Əgər bu siyasi həyata atılmısınızsa, gəlin bir şey öyrənin. Amma siz öyrənmək əvəzinə silah işlətdiniz, öyrənmək əvəzinə at oynadırdınız Naxçıvanda, Bakıda, elə hər yerdə. Əbülfəzin ən böyük bədbəxtliyi ondan ibarətdir ki, sizin kimi adamlara inandı və sizin kimi adamlar onu bu günə saldılar.

İki gün təyyarə oraya uça bilmədi. Qüdrət Quliyev gəlib danışırdı. Fərəməz Maqsudov Azərbaycanın ən yüksək səviyyəli elm xadimidir, riyaziyyatçısıdır, professorudur. Ay qardaş, ay oğlum, ay Hicran, sən Fərəməz Maqsudovun Azərbaycan elmi üçün etdiyinin milyondabirini öz həyatında edə bilməmisən. Bəs xatirində deyil, Fərəməz Maqsudov burada çıxış edəndə mən Naxçıvanda idim, televiziya vasitəsilə baxırdım. Fərəc Quliyev onu burada necə təhqir elədi. Fərəməz Maqsudov, yenə də deyirəm, dünya miqyaslı riyaziyyatçıdır. Axı o da naxçıvanlıdır, sənin həmyerlindir. Mən onun həyatını bilirəm, kasıb bir ailədə böyüyüb, ancaq öz fitri istedadına görə gəlib dünya miqyaslı riyaziyyatçı olub. İndi gör dünya nə günə qalıb ki, o cür alimlər bu cür nadanlar tərəfindən təhqir olunur. *(Alqışlar.)*

Əyləşin, mane olmayın mənə!

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** İki gün mən təyyarəni ora göndərə bilmədim. Bağışlayın, sakit olun. Bir halda ki buna məcbur etdiniz, vaxt da keçir, demək istəmirdim, ancaq mən bunları deməyə məcburam. Sonra Əbülfəz Elçibəylə danışdım. O dedi ki, mən göstəriş verəcəyəm. Getdilər, Qüdrət Quliyevi, Fəraməz Maqsudovu təyyarədən enməyə qoymadılar, söydülər, döydülər. Təyyarə qayıtdı geriyə, bülletenlərlə, bunlarla birlikdə. Mən Əbülfəz Elçibəyə telefon etdim, dedim, Əbülfəz bəy, belə şey yaramaz. Bunlar hamısı sənin adınla bağlıdır, niyə bunu edirsən? O nə etdi? Naxçıvandan Asif Kələntərlini, Ali Məclisin sədr müavini Səyavuş Mustafayevi – hansını ki zorla gətirdilər daxili işlər nazirinin müavini təyin elədilər, idman müəllimi idi – dəvət etdi öz yanına, onlara göstəriş verdi, sonra da zəmanət verdi. Bəli, Türkiyənin xarici işlər naziri Özdən Sambək də bu işlərin şahidi idi, o da mənə dedi. Özdən Sambək Ordubada Kələkiyə getdi, mənə dedi ki, o da Əbülfəz Elçibəylə danışıb. O da bu adamları çağırıb, onlara göstəriş verib ki, təyyarə buraxılsın. Sabahısı günü göstəriş verdik ki, təyyarə axşam saat 7-də buradan uçsun. Fəraməz Maqsudov gəldi dedi ki, bəlkə, mən getməyim, artıq mən iki dəfə təhqir olunmuşam. Dedim, yox, get. Mən Amerikanın səfirini qəbul edirdim, cənab Riçard Maylsı. Arxayın oldum ki, təyyarə getdi. Saat 9-dur, mənə telefon elədilər ki, yenə də Xalq Cəbhəsinin silahlı qüvvələri hava limanındadırlar, Naxçıvanın Hava Limanı oradan çıxmayıblar və təyyarənin ora gəlməsinə zəmanət vermirlər. Haradadır bu silahlı qüvvələr, haradandır bunlar? Bunlar kimindirlər? Özü də çoxları sərxoş halda, sərxoşluqdan da başqa digər vəziyyətdə. Bunu görənlər var.

Mən Amerikanın səfiri Riçard Maylsın, onun müavini Robert Finin yanında götürdüm Əbülfəz Elçibəyə telefon elədim, onunla danışdım. Dedim, belə olmaz, Əbülfəz Elçibəy! Axı sən hansı demokratiyadan danışırsan ki, Xalq Cəbhəsi Naxçıvana seçki bülletenlərinin gəlməsinin qarşısını alır? O mənə dedi, mən Asif Kələntərlini, Səyavuş Mustafayevi çağırdım, onlara göstəriş verdim. Bəs onlar niyə etmədilər? Dedim, sən nə cür göstəriş vermisən? Mən ondan xahiş etdim, dedim, 10-15 dəqiqəyə mənə cavab ver. Mən Amerikanın səfiri ilə bir saat ondan sonra da söhbətimi davam etdirdim, amma Əbülfəz Elçibəydən cavab gəlmədi. O silahlı dəstələr də orada oldu. Təsəvvür edin, yalnız o birisi gün ayın 28-də axır başa düşdülər ki, bu qədər də hərc-mərclik, qanun pozğunluğu ola bilməz. Silahlı dəstələrini oradan çəkdilər. Səyavuş Mustafa-

yev, hansı ki Xalq Cəbhəsindəndir. Daxili işlər nazirinin müavini, Vaqif Novruzov da ona zəng eləmişdi. Əbülfəz Elçibəyin də yanına getmişdi. O, Xalq Cəbhəsinin silahlı dəstələrinin, öz dediyinə görə, öhdəsindən gələ bilmədi, ona görə də ərizə verdi, işdən çıxdı. Bəs bu silahlı dəstələr nədir və sonra nə cür oldular?

Sonra həmin gün – ayın 27-də iki dəfə mitinq oldu, gündüz və axşam. Xalq tələb elədi ki, bunlar buradan rədd olsunlar. Sonra nə oldu gecə? Xoy kəndində o mitinqdə çıxış edən adamın körpə balalarını yaraladılar, onun özünə xəsarət yetirdilər, döydülər. Kim elədi onu? Deyin ki, Xalq Cəbhəsi eləməyib? Bəs kim eləyib? Axı o adam mitinqdə çıxış edib, Xalq Cəbhəsinin adamlarının adını çəkib, onları tənqid edib, onlara öz nifrətini bildirib. O gecə onun evinə basqın olub, körpə uşaqlarını yaralayıblar, özünü yaralayıblar, xəsarət alıblar.

Tofiq Qasımov, İbrahim İbrahimov hansı hüquqdan, hansı demokratiyadan danışır. Hicran burada özündən çıxır. Ayıb deyilmi sizə? Bunların hamısı bizim gözümüz qabağında olan hadisələrdir. Ayıb deyilmi sənə?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Mən səni təhqir edirəm? Mən heç kəsi təhqir eləmirəm. Ordubad tarixən məşhur bir yerdir və oradan da çox gözəl adamlar çıxıb, bu gün də orada gözəl insanlar yaşayır. Ancaq hər bir yerdə gözəl adamlarla yanaşı, təəssüf ki, belələri də var. İndi bax bu dövrün ən böyük bəlası da odur ki, belələri baş qaldırıb bütün əhalini əsir-yesir ediblər. Naxçıvanın vəziyyəti budur. Ona görə mən hesab edirəm ki, Ordubadda güclə, Culfada Xalq Cəbhəsinin nümayəndəsi Ramiz Tağıyevin vasitəsi ilə referendumun qadağan olunması, elə bunun özü referendum keçirilməsində qanun pozğunluğunun ən parlaq təzahürüdür.

Sizin danışmağa haqqınız yoxdur, amma danışırsınız, bəyanat verirsiniz, verin, söz deyirsiniz, deyin. Ancaq burada bu cür tərbiyəsiz hərəkətlər etmək, qarışıqlıq yaratmaq, bunu mən qəbul edə bilmərəm. Çünki sizin üçün bu, adət olub, siz bu mövqeləri əldə etmisiniz, ancaq bəsdir! Gəlin qanun-qaydaya, tərbiyəyə, mərifətə, hörmətə uyğunlaşaq. Bəsdir bu tərbiyəsizlik, bəsdir bu qanunsuzluq.

Hacıkərimov, buyurun.

**Şirin Hacıkərimov.** Hörmətli Heydər müəllim, möhtərəm millət vəkilləri, qonaqlar. Mən Azərbaycanın qərb bölgəsində – Qazax, Ağstafa rayonlarında olarkən referendum üzrə Qazaxa təhkim edilmiş parla-

ment üzvü kimi, deputat yoldaşların çıxışı ilə əlaqədar olaraq vaxtı çox almadan, iki kəlmə söz demək istəyirəm. Referendum bir neçə partiyanın nümayəndələrinin iştirakı ilə hazırlanmış komissiyada qanunauyğunluq saxlamaq şərti ilə qanun pozğunluğuna yol verilmədən keçirilmişdir. 76 min əhalisi olan Qazax rayonunun 45 min 3 nəfər səsverməyə qadir seçicilərinin 97,8 faizi referendumda iştirak edib. Yalnız 822 nəfər Elçibəyin tərəfdarı kimi öz fikirlərini çatdırmışdır. İyul ayının 30-dan avqustun 8-nə kimi Bərdə, Ağdam, Yevlax bölgələrində və sonra başqa digər bölgələrdə oldum. Onlar Ali Sovetin sədri Heydər Əliyevə Azərbaycan xalqının son ümid bəslədiyi bir insan kimi baxırlar. Bu, həqiqətdir. Bunu istəsələr də, istəməsələr də hər kəs, hər vicdanlı insan özü görür. Mən demək istəyirəm ki, vəziyyətdən çıxış yolu axtarmaqdansa, hər dəfə burada müəyyən yoldaşların apardıqları o mübaliğəsiz söhbətlər vaxt almaqdan başqa bir şey deyil.

Mən yanıb tökülürəm ki, keçən il aprelin 24-də Qazax rayonundan 6 kənd gedəndə, burada deputat yoldaşlar məni səhv eləməyə qoymazlar, 4-5 deputat yoldaşlarla gedib öz fikrimizi neçə dəfələrlə Müdafiə Komitəsinin sədri, Ali Baş Komandan hesab olunan Elçibəyə çatdırmağımıza baxmayaraq, bir dəfə də olsun soruşan olmadı ki, bu nədir? Yaxşı, əgər ayağımızın altındakı torpaq yavaş-yavaş əldən gedirsə, bu torpağın getməsində kimsə soyuqqanlılıqla vəzifədən yapışıb durubsa, bu torpaqda bizim, ümumiyyətlə, öləndən sonra dəfn olunmağa belə haqqımız varmı? Diri ikən hər kəs özü öz vicdanı qarşısında düşünməlidir. Hamımız bu xalqın oğluyuq, amma hamımız bu xalqa eyni səviyyədə qulluq etməmişik. Edənlərin əlindən tutmaqdansa, ayağından yapışırıq. Birdəfəlik başa düşək ki, qatı düşmənlə qarşı-qarşıya gəlmək nə qədər çətin olsa da, daxildən bir-birimizə mane olmağımız düşməndən də betərdir. Qeyrətli oğlanlarımızın qanı bahasına müdafiə səddi yarandığına baxmayaraq, bəzən görürsən ki, özündən asılı olmayaraq, hərəkətləri ilə həmin insanlara mane olurlar.

Heydər müəllim, mən Sizə Qazax–Ağstafa bölgəsində olarkən ağsaqqallarla, müəllimlərlə, hərbi hissənin zabit və sıravi heyəti ilə, əhalinin əksəriyyəti ilə 35 referendum məntəqəsində olan 209 nəfərlik komissiyanın üzvləri ilə şəxsi söhbətimdən və aldığım təəssüratdan danışmaq istəyirəm. Xalq Sizi yeganə ümid yeri hesab edir. Bunu heç kim Sizi tərifləmək məqsədilə demir. Şəxsən mənim yanımda bir şeir yazıblar. Mən onu burada oxumaq niyyətində deyiləm. Həmin şeirin bircə bəndində deyir ki, Heydər kimi qəhrəmana səxavətin olsun, oğul! Bunu üç günün

içində 72 yaşında olan bir nəfər el ağsaqqalı yazıb. Bu, dünənki, bugünkü fikri izah eləmək üçün deyil. Doğrudan da, vəziyyətimizin çətin bir vaxtında həmrəy olmalıyıq, müdafiəmizlə məşğul olmalıyıq, xalqımızı bəladan qurtarmalıyıq. Hamı deyir, amma əməl eləmir.

Mən də Mərkəzi Referendum Komissiyasının sədrinin hesabatını qənaətbəxş hesab edərəm. Bəzi yoldaşlar, 2-3 nəfər elə bilir ki, Elçibəyi müdafiə edir, müdafiə eləmək lazım deyil. O özü Azərbaycan xalqının suverenliyini müdafiə edən insan kimi bizim qarşımızda çıxış eləməli idi. Amma əfsuslar olsun ki, xalq da onun seçilməsində böyük səhv etmişdir. O özü də böyük səhv addım atmışdır ki, bu işə getmişdir. Mənim əsas fikrim budur.

**Sədrlik edən.** Mən istəməzdim ki, bizim bu böyük müzakirəmiz belə kiçik məsələlərlə davam etsin, ancaq Hicran Kərimlinin burada belə, necə deyərlər, mədəniyyətsiz hərəkəti bunu məcbur edir. İndi mənə gətirib yazı veribdir, xalq deputatı Fikrət Sadıqov. Mən ona söz verirəm. Ancaq o bura gələnə qədər iki-üç kəlmə söz demək istəyirəm. Fikrət Sadıqov ordubadlıdır, uzun müddətdir Bakıda, Sumqayıtda işləyir. İndiki Kimya Birliyinin prezidentidir, böyük mühəndisdir, böyük insandır. Ordubaddan minlərcə və bəlkə də, on minlərcə belə dəyərli insanlar çıxıbdır. Onun qardaşı Nemət Ordubadda Rayon Sovetinin sədri idi. Bax bunlar onu işləməyə qoymadılar, onu oradan uzaqlaşdırdılar. Düzdür, o gəlib Bakıda, başqa bir yerdə öz mühəndisliyini eləyir. Ancaq indi siz müqayisə edin, Fikrət Sadıqov – böyük mühəndis, kimya sənayesində Azərbaycanda yüksək xidmətləri olan adam, Nemət Sadıqov – böyük mühəndis. Hələ o biriləri tanımıram, mən ancaq bu ikisini tanıyıram, onlar ordubadlıdırlar, Ordubadın adını ucaldan bunlardır və bunlar kimi minlərcə professorlar, akademiklər Ordubaddan çıxmış adamlardır. İndi Hicran Kərimli gəlib burada özünü Ordubadın qəhrəmanı kimi göstərmək istəyir. Bilmirəm, Fikrət Sadıqov nə deyəcək, ancaq mən bildiyim sözləri deməliyəm. Buyurun, Fikrət.

**Fikrət Sadıqov.** Əvvəla, Hicran, elə Ordubadda dörd yerdə yoxlayırlar. Sən dedin, yox, yəqin, yadından çıxıb. Mən sənə sayım. Azadçayın üstündə post qurulub. Elədir də? Var. Dəstəbaşında var? Mən Sənə deyim ki, biz Ali Sovetin qərarı ilə bir çox ziyalılar Kələkiyə gedəndə bizi Ordubada buraxmadılar. Dedik ki, Kələkiyə gedirik, icazə verin. Özü də bilirlər ki, ordubadlıyam, tanıyırlar. Dedilər, yox. Kələkidə yoxladılar, sonra getdik Ordubada.

**Sədrlik edən.** Dəstədə yoxlayıblar.

**Fikrət Sadıqov.** Heydər müəllim, Dəstə kəndində yoxladılar. Bizi tanıdıqları üçün Dəstəyə zəng elədilər. Oradan buraxdılar, getdik Ordubada. Ordubadda bizə xüsusi buraxılış vərəqəsi verdilər, yenə deyirəm, bilə-bilə ki, kimik, nəyə görə gedirik. Gəldik, yoxladılar Dəstəbaşı ilə, orada birinci kəndin arasındakı yerdə. Bu, iki. Mənimlə yoldaşlar gedirdilər. Çıxdıq oradan Vənəndə qoruqlar tərəfində, üç. Biri də Kələkinin girişində. Dörd. Bunun nəyi düz deyil? Mən getdim. Məni Ordubadda yoxlayan yerlilərdir. Yoxlayırlar, özü də necə lazımdır, elə yoxlayırlar. Lazım deyil demək ki, orada postlar yoxdur, var. Kimlər yoxlayırlar, onu da sən bilirsən.

İkincisi, Ordubadda olan referendum haqqında demək istəyirəm. Referendum keçirildi. Özü də hamı burada demişdi, Milli Məclis də qəbul eləmişdi. Necə ki, bütün Azərbaycan Milli Məclisə, onun qanunlarına tabedir, eyni zamanda Naxçıvan da. Nədən qorxurdu ki, Ordubadda referendum keçirilmədi? Nəyə görə? Demək, düşündü ki, hamı ona razılıq verəcək, verəydi də. Axı onda daha yaxşı olardı, nəinki indi, cəmisi 2 faiz səs... Onda deyərdi də, orada hamısı deyəydi də, onda Azərbaycanda səsin faizi, heç olmasa, 10 faizə qalxardı. Niyə demədilər? Nəyə görə? Mən onu da bilirəm, bu, Əbülfəz Elçibəyin qərarı deyil ki, orada referendumu boykot eləsinlər. Yox. O özü referenduma razı idi, Ordubad da hamıdan əvvəl razı idi. Bəs niyə keçirmədilər? O adamlar qoymurdular. O adamlara görə indi Ordubadın sənayesi də, təsərrüfatı da, iqtisadiyyatı da bu günə düşüb. İşləyən nə var? Sən ki bilirsən, Ordubadın İpək Fabriki bütün il boyu işləmədi. Buradan gedən mazut hara gedirdi? Bilirdin? Kerosin hara gedirdi? Bilirdin? Harada satılırdı? Bilirdin? Axı biz bu barədə söhbət edirdik. Bilirsən, hər şeyi yaddan çıxarıb indi nəyinsə xatirinə burada belə qışqır-bağırla, təhqiramiz sözlərlə çıxış eləmək lazım deyil. Hamı oturub fikirləşməlidir, öz əqidəsi ilə deməlidir, biz neyləməliyik ki, Azərbaycan düşdüyümüz bu vəziyyətdən çıxsın. Ancaq onun əvəzinə burada belə sözlər demək, bunlar düz deyil. İndi biz elə eləməliyik ki, artıq bir yerə çıxaq. Sənaye də, kənd təsərrüfatı da işləməlidir, ümumiyyətlə, insanlar yaşamalıdırlar. Oranın vəziyyətini mən bilirəm. Sən bilirsən ki, mən bilirəm. Axı bu qədər görülən işləri də demək lazımdır, yada salmaq lazımdır. Nə vaxt görülüb, nə qədər orada İpək Fabrikində, Konserv Zavodunda dəyişiklik oldu, nə qədər orada işlər görüldü, bunları da demək lazımdır. Nə vaxt oldu bunlar? Yadındadır axı. Mənim də yadımdadır. Yaxud da Siz seçkilərdə etimad doğruldanda necə olduq, indi necə nəticə verdi? Bu, Ordubad haqqında.

Heydər müəllim, mən Sumqayıtda referenduma cavabdeh şəxs idim. Burada yoldaşlar demokratiya, demokratiya deyir. Əvvəla, bu referendumda Sumqayıt üzrə Mərkəzi Seçki Dairəsində Prezident seçkilərində olan dairənin üzvləridir və onun sədri də Səlim Məmmədov Xalq Cəbhəsinin aktiv üzvüdür. Burada Xalq Cəbhəsi ilə əlaqəsi olanlar hamısı bilirlər. Əgər orada demokratiya bir balaca pozulubsa və yaxud da kimsə nəsə bir qanun pozubsa, yenə deyirəm, Mərkəzi Seçki Dairəsinin sədri Xalq Cəbhəsinin üzvüdür, niyə bir söz demədi? Hər bir məntəqədə Xalq Cəbhəsinin üzvü var idi, həm məntəqədə komissiyanın üzvü kimi, həm də müşahidəçi kimi. Niyə bir söz demirdilər. Türkiyə səfirliyinin üçüncü katibi, bir də Prezident Aparatından olan şəxslə gəlmişdik ora, seçki dairələrinin əksəriyyətində olduq, azı 15 dairə. Hamısında da cəbhənin üzvlərindən soruşdular. 5 nömrəli məktəbdə cəbhənin bir üzvündən soruşdular ki, necədir? Elə hamısı eyni cavab verdilər ki, gəlirlər də. Bu isə dedi ki, çox təəssüf ki, camaat gəlir də, neyləmək olar. Deyirəm, bəs niyə təəssüf? Deyir, mən sözümü belə dedim də.

İndi burada Sumqayıtdan seçki dairəsindən olanlar da var, onlar da görüblər. Demək, mən yüz faiz deyirəm ki, orada bir dənə də qanun pozuntusu olmayıb. Camaat fəal şəkildə gəlirdi, orada olan nümayəndələrin əksəriyyəti deyirdilər ki, biz nə qədər seçkilərdə olmuşuq, belə aktiv seçki görməmişik. Orada 138 min 65 adam səs verdi. Bunun 96,2 faizi "yox", 3,6 faizi "hə" cavabı verdi. Əgər burada demokratiya olmasaydı, səs verməzdilər də. Özü də bəziləri, məsələn, yaşlı qadındır gəlir, deyir, mənə heç bir şey demə, mən özüm bilirəm nəyə qol çəkəcəyəm, nəyə qol çəkməyəcəyəm. Demək, hamısı ürəklərindən nə keçir, onu edirdilər, ona xətt çəkirdilər. Burada demək ki, demokratiya pozulub, heç bir şey pozulub eləməyib. Camaat öz iradəsini göstərib.

İndi Milli Məclisin üzvlərinin dedikləri kimi, tezləşdirmək lazımdır ki, Prezident seçkiləri də keçirilsin, ölkəni bu vəziyyətdən qurtara bilək, respublikanın əvvəlki günlərinə qayıda bilək. Sağ olun.

**Sədrlik edən.** Əyləşin. Mən məsləhətləşmək istəyirəm. Burada tabloda çıxış üçün yazılanlar çoxdur. Mənə ayrı-ayrı kağızlar da gəlib. Burada xalq deputatlarının bir qismi, Məclis üzvü olmayanlar da çıxış etmək istəyirlər. Ancaq mənə elə gəlir ki, məsələ aydındır, o mənada ki, referendumun nəticəsini heç kəs dəyişə bilməz. Biz, sadəcə olaraq, referendum haqqında qərar qəbul etdiyimizə görə bu, Məclisə təqdim olunur. Ona görə bu çıxışlara ehtiyac varmı?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Yoxdur. Qadınlardan çıxış eləyən olmadı, Leyla Əsgərova – Ağcabədi rayonundan xalq deputatı. O, yazı verib. Bilirsiniz, Ağcabədi indi ön cərgədir. Buyurun, gəlin.

**Arif Rəhimzadə.** Məsələnin üçü də eyni zamanda müzakirə olunsun, sonra qərar qəbul eləyək. Əslində, bu müzakirəni biz başlamışıq. Yaxşı olar ki, bu üç məsələni qarışdırmayın.

**Sədrlik edən.** Buyurun, Leyla xanım.

**Leyla Əsgərova.** Hörmətli sədr, hörmətli xalq deputatları. Milli Məclisdə bugünkü söhbətdən sonra məcbur oldum sizin qarşınızda bir neçə kəlmə söz deyim. Birinci növbədə, mən həm xalq deputatıyam, həm də 29 nömrəli Ağcabədi Seçki Dairəsinin sədriyəm. Mən keçən il Prezident seçkilərində indiki Prezidentə etimad göstərilməsində həmin dairənin sədri olmuşam. Bu gün iradlar tutulur, bəzi yoldaşlar deyir ki, referendum düzgün keçməyib, demokratiya pozulub və seçkilər düzgün aparılmayıb, xalq gəlib öz sözünü düzgün deməyib. Lakin mən buradan demək istəyirəm ki, Azərbaycan xalqı və bu gün Milli Məclisdə iştirak edən deputatlar bilməlidirlər ki, bu il keçirilən referendum seçkiləri düzgün və obyektiv keçirilmişdir.

Həmçinin onu qeyd etmək istəyirəm ki, Ağcabədi rayonunun seçiciləri keçən il də respublikanın Prezidenti seçilmiş Əbülfəz Elçibəyə öz sözlərini demişlər, yəni Ağcabədi zəhmətkeşləri, Ağcabədi seçiciləri, Ağcabədi ziyalıları Əbülfəz Elçibəyə səs verməmişdilər. Onun üçün də biz çox təqiblərə məruz qalmışdıq.

Bu gün iradlar tutulur ki, seçkilər düzgün keçirilməyib. Mən o yoldaşları qınamıram. Ona görə ki ötən il keçirilən Prezident seçkiləri düzgün aparılmamışdı, saxtalaşdırılmışdı. Onların təklifi ilə də razı olmayan dairənin sədri kimi mən təqiblərə məruz qalıb vəzifədən azad olunmuşdum. Onlar iki saat müddətində bülletenlərin gətirilib dəyişdirilməsini təklif eləyirdilər. Ancaq heç vaxt biz o yola getmədik. Ona görə də bu gün o iradlar tutulur. Prezident seçkiləri vaxtı keçirilən seçkilər düzgün keçirilməyib. Bu gün isə referendumda xalq gəlib öz sözünü deyib və düzgün də seçki keçirilib. Əgər yoldaşlar bilmək istəyirsə, Mərkəzi Referendum Komissiyasına müraciət eləyib, o bülletenlərin bəzilərində Əbülfəz Elçibəy haqqında yazılanları oxuya bilərlər. Artıq xalqın canı boğaza yığılıb. Bu xalqın, bu millətin başına kimlər oyun açıb. Bu gün burada çıxış edən xalq deputatları məgər bilmirlər ki, bu millətin,

bu xalqın başına oyun açanlar kimlərdir? Bu gün gələrkən yollarda qaçqınları gördükcə, adamın ürəyi ağrıyır. Bir milyondan artıq Azərbaycan vətəndaşları öz yerlərindən, yurdlarından didərgin olub. Məgər bunları görmürlər?! Hələ bu gün də burada, mən çox üzr istəyirəm, utanmaz-utanmaz danışırlar. Yenə də üzr istəyirəm, hansı qeyrətdən danışırıq ki, Azərbaycan xalqının qadınları ermənin in əlində girovdur. Bu gün yenə də öz iddiamızdan əl çəkmirik. Bəs deyilmi artıq?

Heydər müəllim, bir təklifim var. Mənə elə gəlir ki, burada gedən söhbətlər və Naxçıvanda referendumun pozulmasında Xalq Cəbhəsinin üzvlərinin son dəfə etdikləri hərəkət bu xalqa sübutdur. Artıq bu qurumun haqqında fikirləşmək lazımdır. Bu nə Xalq Cəbhəsidir? Bir ildir, millətin başına oyun açdılar. Bu milləti nə günə qoydular: mənəviyyatımız korlandı, əxlaqımız korlandı. Hansı qeyrətdən, namusdan danışırıq ki, Xalq Cəbhəsi bu milləti müflis vəziyyətinə saldı, iqtisadiyyatımız, siyasətimiz əldən getdi. Nədən danışılır? Xalqı dilənçi vəziyətinə saldılar. Bəs deyil, hələ bu gün də, Heydər Əliyev, Sizdən çox-çox üzr istəyirəm, yenə də bəzi yoldaşlar iddialarından əl çəkmirlər. Ay yoldaşlar, Əbülfəz Elçibəy seçilmişdi də, saxta oldusa da, düz oldusa da, Prezident seçildi də. İdarə eləyəydi də. Kim çıxartdı onu, kim dedi getsin? Yaxşı, burada and içmişdi. Deyirdi xalqı belə mühafizə edəcəyəm, belə qoruyacağam. Bizi pis vəziyyətdə qoydu, qaçdı getdi də. Bundan artıq nə olar? Bir kağız yazıb istefa da vermədi. Xalqın bəzilərinin ona qarşı olan inamını da tamam itirdi. Bundan sonra nə danışırıq, nədən danışırıq, haradan danışırıq. Gəlib oturaydı, Prezidentliyini eləyəydi də, kim nə deyirdi.

Bir şey də demək istəyirəm, Heydər müəllim, Ağcabədi camaatının, Ağcabədi rayonunun ərazisində olan qaçqınların Sizə böyük ümidi var, Sizin siyasətinizi müdafiə eləyirlər. Bunu mən öz adımdan demirəm. Mənə bir xalq deputatı kimi müraciət olunub. Milli Məclisin üzvləri Xanlar müəllim, İnqilab müəllim bu referendumda Milli Məclis tərəfindən oraya ezam olunmuşdular. O yoldaşlar da şahiddir. Onlara da deyilib ki, biz Heydər Əliyevin siyasətini müdafiə eləyirik, onun ətrafında sıx birləşirik və bütün Azərbaycan xalqını onun ətrafında sıx birləşməyə çağırırıq. Bunu yerindən, yurdundan didərgin düşmüş o qaçqınlar, o pis vəziyyətdə olanlar bu referendumda sübut elədilər.

Mən açığını deyirəm ki, biz qısa müddətdə qaçqınların hamısını siyahıya ala bilməmişdik. Eləsi olmuşdu ki, bir günün içərisində qaçıb yerlərindən, yurdlarından gəlmişdilər, onlar hamısı düzgün, obyektiv, pasportu ilə gəlib səs verirdilər. Ağcabədi rayonunda 14,865

nəfər qaçqın gəlib səsvermədə iştirak eləyib. Qaçqın ki gəlib öz sözünü deyib. Bundan sonra hələ yenə də deyirik ki, düzgün keçməyib. Necə keçməyib? Düzgün keçməyib gəlib oturub baxaydınız da. Daha nə deyirsiniz.

Mən yenə də bütün Ağcabədi camaatı adından – onların mənə verdikləri təklifdir – onlar Heydər müəllim, Sizin ətrafınızda sıx birləşirlər, Sizin bütün qaldırdığınız məsələlərin hamısını müdafiə eləyirlər. Yəni onların da təklifidir ki, o təxribatçılara, o cinayətkarlara qarşı qəti tədbir görülməlidir. Deyirlər bundan artıq, qaradan artıq nə olacaq? Azərbaycan xalqının bundan ağır günü olacaqdır? Baxırsan, qaçqınlar hamısı tökülüb yollara. Bunun haqqında fikirləşən yoxdur. Elə deyirlər referendum düzgün keçməyib. Düzgün keçib, lap yaxşı keçib. İnanmırsınızsa, gedib baxaydınız, görəydiniz. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun, təşəkkür edirəm. Xalq deputatı Gülnarə Qurbanova da xahiş eləyib, istəyirəm, ona da söz verim. Buyurun.

**Gülnarə Qurbanova.** Hörmətli sədr, hörmətli millət vəkilləri. Avqustun 28-də deputatlığa namizədliyimi irəli sürmüş 3 nömrəli Şəhər Poliklinikası kollektivinin referendumla əlaqədar keçirdiyi iclasında iştirak etdim. Böyük bir kollektivin bu məsələdə həmrəy olduğunu və keçmiş Prezident seçkisində buraxdıqları səhvi düzəltməyə can atdıqlarını əyani şəkildə gördüm. Avqust ayının 29-da referendumla əlaqədar Bakı Şəhər Yasamal rayonunun bir çox səsvermə məntəqələrinə getdim, camaatın bu siyasi tədbirin keçirilməsində böyük səy göstərdiyinin canlı şahidi oldum. Xüsusilə Yeni Yasamaldakı 286 nömrəli məktəbdə yerləşən səsvermə məntəqəsi diqqətimi cəlb etdi. Çünki burada səs verənlərin əksər hissəsi Azərbaycanın müxtəlif rayonlarından gələn qaçqınlar idi. Doğma yurd-yuvasından didərgin düşmüş, ömrü boyu zəhmətlə qazandıqlarından birdən-birə məhrum olmuş və ən əsası doğmalarını, əzizlərini itirmiş insanların referendumda qoyulan suala cavab verməsi üçün necə böyük həvəslə gəldiklərini görəndə məni heyrət hissi bürüdü. Bu adamların bir neçəsinə: “Belə bir fəallığı necə izah edə bilərsiniz?” sualı ilə müraciət etdim və onlardan eyni cavabı eşitdim: yeni iqtidara inanırıq və hesab edirik ki, referendum torpaqlarımızı qaytarmaq yolunda ciddi addımlardan biridir. Görüb eşitdiklərim bu tədbirin keçirilməsində xalqın siyasi fəallığını göstərdi.

Referendumla əlaqədar görülən hazırlıq işlərinin çətinliyini nəzərə alaraq, hesab edirəm ki, hazırlıq vəziyyətindən istifadə edib Prezident

seçkilərini oktyabrın 3-nə təyin etmək məqsədəuyğun olardı. Diqqətinizə görə minnətdaram.

**Sədrlik edən.** Bizim hüquqşünas professor Murtuz Ələsgərov bir neçə kəlmə söz demək istəyir, yəni fövqəladə vəziyyətlə əlaqədar olaraq referendum keçirilə bilər, ya yox?

**Murtuz Ələsgərov.** Hörmətli sədr, hörmətli millət vəkilləri. Burada məsələnin müzakirəsi ilə əlaqədar olaraq Dövlət quruculuğu və hüquq siyasəti komissiyasının sədri Tofiq Qasımov bildirdi ki, fövqəladə vəziyyət şəraitində referendumun keçirilməsi məqsədəmüvafiq deyil, daha doğrusu, qeyri-mümkündür. Tofiq müəllim, mən dəfələrlə Sizə bu Məclisdə bir hüquqşünas kimi demişəm, yenə də deyirəm. Ən böyük bədbəxtlik, ondan ibarətdir ki, fizik hüquq komissiyasına başçılıq eləyir və qanunu bilmədən burada qanuni mühakimələr yürüdür. Sizə yenə də deyirəm, var imperativ norma, var dispozitiv norma. Mən bu referendumla əlaqədar olaraq yarım saat televiziya vasitəsilə çıxış edib bu məsələləri izah etmişəm. Həmin normaya görə, fövqəladə vəziyyət şəraitində referendum keçirilə də bilər, dayandırıla da bilər. Bu, dispozitiv normadır, yəni könüllü normadır. Qaldı ki, imperativ norma, burada qadağanedici bir şey yoxdur. Əgər nəzərə alsaq ki, fövqəladə vəziyyət şəraitində də referendum keçirilə bilər, yaxud dayandırıla bilər, referendum şəraitində də fövqəladə vəziyyət tətbiq edilə bilər. Qanunda 16-cı və 19-cu maddələrdə bu, nəzərdə tutulmuşdur.

Daha sonra mən demək istəyirəm ki, referendum hüquq ədəbiyyatında ən yüksək hüquqi qüvvəyə malik olan sənəd sayılır. Dünya təcrübəsində geniş yayılıb. Bizdə son illər ərzində bir vaxt SSRİ-nin tərkibində qalmaq haqqında, Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktının təsdiqi ilə əlaqədar və nəhayət, indi keçirilən referendum, burada çıxış edənlərin dediyinə görə, olduqca mütəşəkkil, yüksək səviyyədə keçirilib.

Mən özüm Bakının 5 rayonunda hər dəfə müxtəlif yerlərdə görüşlərdə olmuşam, camaatla görüşmüşəm. Xalqın əhvali-ruhiyyəsindən bilirdim ki, onlar bu referenduma öz istəyi, öz arzusu ilə gəlib. Belə bir misal çəkmək istəyirəm. 1968-ci ildə Fransa Prezidenti Şarl de Qollun təşəbbüsü ilə referendum keçirilib. O, təklif edirdi ki, ölkənin kanton və kommuna bölgüsü dəyişdirilsin, yeni inzibati ərazi bölgüsü qoyulsun. Lakin Fransa xalqı o cür hörmətli Şarl de Qollun referendumunda "yox" cavabı verdi, onu rədd etdi. Onda Şarl de Qoll dedi ki, mənim üçün Al-

lahın hökmü ən böyük hökmdür. Allahdan sonra isə xalqın hökmü mənim üçün ən böyük qanundur. Heç kəsdən soruşmadan papağını başına qoyub Yelisey sarayını tərk etdi. Mən demək istəyirəm ki, referendum yolu ilə qəbul olunan qanun elə bir qüvvəyə malikdir ki, onu heç kəs ləğv eləyə bilməz. Bu, qətidir və onu ancaq referendum vasitəsilə dayandırmaq, ləğv etmək olar.

Söhbət gedir ki, bu məsələ niyə bu qədər geniş söz-söhbətə səbəb olur, müzakirə edilir. Məsələ ondadır ki, millət vəkilləri bilməlidirlər ki, xalq indiki dövrdə respublikanı bu vəziyyətdən qurtarmaq üçün çıxış yolunu bir şəxsdə – Azərbaycan xalqının taleyini, taleyüklü məsələlərini öz üzərinə götürmüş Heydər Əliyevdə görür. Bunu hamı bilir. Ona görə də Azərbaycan xalqının 97,5 faizi, iştirak edənlərin 92 faizi Heydər Əliyevə səs vermişdir. Camaat belə deyir. Bu, Elçibəyin etimadsızlığı deyil. Onlar bilirlər ki, Azərbaycanın bu günündə xalqı bu bəladan qurtarmağa kim layiqdir.

Mən bir məsələ haqqında da danışmaq istəyirəm. İndi, əlbəttə, referendum keçdi, bu qərar qətidir. Burada bunu müzakirə etməyə ehtiyac yoxdur. Ancaq deputatların, xalqın nəzərinə çatdırmaq lazımdır ki, referendumun yekunları bundan ibarətdir: Prezident seçkiləri keçirilməlidir. Qanuna görə, səlahiyyətlərin verilməsindən 3 ay müddətində ölkədə Prezident seçkiləri keçirilməlidir. Lakin məsləhət belə oldu ki, əvvəlcə bu məsələ həll edilsin, ondan sonra ikinci məsələ. İndi nəzərdə tutulmuş müddət olduqca böyükdür. 3 ay müddətində bunu gözləməyə ehtiyac yoxdur. Ona görə də belə bir təklifim vardır ki, Prezident seçkilərini qısa zamanda həyata keçirək. Daha doğrusu, qanunun özündə də, Konstitusiyada da deyilir ki, 3 ay müddətində. Deyilmir ki, 3 aydan sonra. Yəni 3 ay müddəti o deməkdir ki, bir aydan sonra da, iki aydan sonra da onu keçirmək olar. Həm də o qanunla nəzərdə tutulmuş müddət sentyabrın 24-də başa çatır. Ona görə mən də bu gün belə bir təklif irəli sürərdim ki, "Azərbaycan Respublikası Prezidenti seçkiləri haqqında" Qanuna dəyişiklik, əlavələr edilməlidir. Bu müddət qısaldılmalıdır və təxminən bir ay ərzində respublikada yeni Prezident seçkiləri keçirilməlidir. Həm də antidemokratik qanun sayılan Prezident seçkiləri haqqında qanunda bir sıra müddəalar vardır ki, o müddəalar ləğv edilməlidir. Ona görə də Azərbaycan Respublikası Konstitusiyasının müvafiq maddələri dəyişdirilməlidir. Xüsusilə dünya təcrübəsində heç bir yerdə yoxdur ki, Prezident üçün yuxarı yaş senzi müəyyən edilsin. Oturaqlıq senzi vardır. Məsələn, Amerikada 14 il bir ştatın ərazisində daimi yaşa-

yan şəxs Prezident ola bilər. 200 il bundan əvvəl qəbul olunmuş Konstitusiyada amerikalılar özləri də deyirlər ki, oturaqlıq senzi anormal haldır, bunu dəyişmək lazımdır.

Ümumiyyətlə, Konstitusiya hüququnda heç bir məhdudlaşdırıcı senz olmamalıdır. Bu, insan hüquqları haqqında bəyannamələrə də uyğundur. Ona görə də mən təklif edərdim ki, həm yaş senzi, həm də 5 il müddətində oturaqlıq senzi ki nəzərdə tutulur, bunlar ləğv edilsin, Azərbaycan Konstitusiyasında, eləcə də Prezident seçkiləri haqqında qanunda müasir, demokratik qanunvericiliyin, xüsusilə hüquqi dövlətə xas olan xüsusiyyətləri öz əksini tapsın. Mən sizin nəzərinizə bunları çatdırmaq istəyirdim. Sağ olun.

**Sədrlik edən.** Güman edirəm ki, bundan sonra çıxışlara artıq ehtiyac yoxdur. Mən bir də qeyd etmək istəyirəm ki, referendumun nəticələri Məclisə təqdim olunub. Bugünkü müzakirə, sadəcə olaraq, referendumun keçirilməsi və onun nəticələrinə münasibətlə əlaqədardır. Ona görə də burada siyahı böyükdür, yazılanlardan üzr istəyirəm. Güman edirəm ki, əgər bu barədə dəyərli fikirlər varsa, bizim iki məsələmiz də müzakirə olunacaq. O məsələlər də elə bu məsələ ilə bağlıdır, burada çıxışa yazılan millət vəkilləri, Məclis üzvləri öz sözlərini deyə bilərlər.

Bir neçə kəlmə mən də demək istəyirəm. Düzdür, bu sözlər çox deyilib, təkrar olunub. Ancaq bəzi adamların, bizim Məclis üzvlərinin, yaxud da kənardan olan adamların çıxışları bir daha təkrar etməyə məcbur edir. Respublika ağır vəziyyətdə olduğu bir dövrdə Prezident Əbülfəz Elçibəyin heç bir vəchlə öz iş yerini tərk etməsinə bəraət qazandırmaq olmaz. Belə bir fikir ortaya çıxır ki, guya Əbülfəz Elçibəy burada olsaydı, vətəndaş müharibəsi olacaqdı. Yox. Guya Əbülfəz Elçibəy buradan getdi, ona görə vətəndaş müharibəsi olmadı. Elə deyil. Vətəndaş müharibəsini biz ümumi gücümüzlə dayandırdıq. Vətəndaş müharibəsi artıq gəlib son həddə çatmışdı. Toqquşma, qanlı hadisələr Gəncədə yox, Nəvaidə – buradan 100 kilometr məsafədə Gəncədən gələn silahlı qüvvələrlə dövlət tərəfindən göndərilən silahlı qüvvələr arasında artıq olmuşdu, qan da tökülmüşdü, o tərəfdən də, bu tərəfdən də adamlar həlak olmuşdular. O cümlədən bizim Naxçıvandan olan millət vəkillərinə məlumat vermək istəyirəm ki, orada naxçıvanlılar da həlak oldular. Şərur rayonundan Xalq Cəbhəsinin adamları. Onları bura siz gətirdiniz. Onlar Nəvaidə heç nədən həlak oldular. Onları aparıb Naxçıvanda dəfn elədilər.

Artıq qan tökülmüşdü, vətəndaş müharibəsi gəlib son mərhələsinə çatmışdı. Bunu ümumi gücümüzlə, milli həmrəyliyimizlə saxladıq və Əbülfəz Elçibəy də son dəqiqəyə qədər gərək bu yolda öz fəaliyyətini göstərəydi, üzərinə düşən məsuliyyəti hiss eləyəydi. O, məsuliyyət nöqteyi-nəzərindən gərək öz fəaliyyətini davam eləyəydi. Savaş yerindən qaçıb qurtarmaq böyük qəhrəmanlıq deyil. Mən bunu tam qətiyyətlə deyirəm. Əksinə, əgər referenduma gələn adamların əksəriyyəti – 97,5 faizi Əbülfəz Elçibəyə etimadsızlıq göstəribsə, bəlkə, bunun səbəblərindən biri də ondan ibarətdir ki, Əbülfəz Elçibəy son iki ay yarım müddətində bu respublikanın başçısı olub, amma respublikanı başsız qoyub, gedib kənddə oturmaqla belə bəyanatlar verib. Bu hansı hüquq normalarına, hansı mənəviyyat normalarına, hansı adətlərə sığır, heç birinə sığmır. Ona görə də referendum keçirməyə bizi Əbülfəz Elçibəy özü və onu dəstəkləyən qüvvələr, onun ətrafında olan qüvvələr məcbur eləyib. Əbülfəz Elçibəy əgər öz yerini tərk etməsəydi, bu Məclisə gəlsəydi, burada otursaydı, camaata müraciət eləsəydi...

İyun ayının 4-də qanlı hadisələr baş verib. Ayın 6-da, 7-də, 8-də və 9-da bu salonda bu məsələlər müzakirə olunurdu. Xalq Əbülfəz Elçibəydən geniş bir təhlil, yaxud da bir müraciət gördümü, eşitdimi? Onun xalqa müraciəti oldumu? Milləti yığmaq, camaatı həmrəy etmək, xalqı bir yerə toplamaq səyi oldumu? Olmadı axı. Əgər o, haray çəksəydi, əgər o, xalqa müraciət etsəydi, əgər o, doğrudan da, bu hadisələrin öz nöqteyi-nəzərindən qiymətini verə bilsəydi və xalqa bağlılığını göstərsəydi, bəlkə də, bu hadisələr bu cür inkişaf etməzdi. Ona görə də iki ay yarımdan artıqdır ki, Azərbaycan Respublikası başçısız qalıb. Düzdür, biz bu vəzifəni həyata keçiririk. Düzdür, biz bu müddətdə çox işlər gördük, xalqı birləşdirə bildik, xalqda milli həmrəylik yarada bildik. Nə qədər ağır da olsa, bu vəzifələri həyata keçiririk, icra eləyirik. Ancaq xalq tərəfindən seçilmiş adam belə bir zamanda gərək özünü kənara çəkməyəydi.

Şübhəsiz ki, Milli Məclisin üzvləri o vaxt təklif etdilər ki, Konstitusiyanın müvafiq maddələrinə uyğun olaraq Əbülfəz Elçibəy vəzifəsindən kənarlaşdırılsın. Bu təklif oldu. Mən bir sədr kimi bu təklifin həyata keçirilməsinə yol vermədim, hətta onu səsə də qoymadım. Çünki bu məsələnin tam demokratik yolla həyata keçirilməsini istədim və aradım, axtardım, dünya təcrübəsinə müraciət etdim. Siyasətçilərlə, hüquqçularla, beynəlxalq təşkilatlarla məsləhətlər apardım. Ayrı-ayrı dövlətlərin nümayəndələri ilə beynəlxalq təcrübəni öyrənmək üçün, beynəlxalq

hüquq normalarını daha dərindən Azərbaycan şəraitində tətbiq etmək üçün məsləhətlər apardım və hamı bir şeyi dedi ki, referendum ən demokratik yoldur və biz də bu yolla getdik. Bir ay bundan qabaq referendumu təyin etdik və xalq da öz iradəsini, öz rəyini bildirdi. Ona görə mən də belə hesab edirəm ki, avqust ayının 29-da Azərbaycan Respublikasının vətəndaşları ağır şəraitdə yaşamalarına baxmayaraq, müharibə şəraitində olmalarına baxmayaraq, həmvətənlərimizin bir hissəsinin qaçqın vəziyyətində olmasına baxmayaraq, bu referendumda fəal iştirak etdilər, öz münasibətlərini bildirdilər və münasibətlər də ümumən Əbülfəz Elçibəyə etimadsızlıq göstərilməsinin təzahürü oldu.

Bu rəqəmlər, mən hesab edirəm, Azərbaycanda indi olan şəraiti tamamilə əks etdirən rəqəmlərdir. Bu rəqəmlər Əbülfəz Elçibəyin birillik fəaliyyətinə və o cümlədən son dövrdə buraxdığı kobud səhvlərə göstərilən münasibətdir. Mənim fikrimcə, xalqın bu cür ümumi rəyindən sonra ayrı-ayrı adamların, tutaq ki, lap adını Xalq Cəbhəsi qoymuş bir təşkilatın xalqın rəyinin əksinə münasibət göstərməsi onu bildirir ki, zaman gələcək, xalq onlara deyəcək ki, siz Xalq Cəbhəsi deyilsiniz. Xalq Cəbhəsi adını daşımaq üçün, xalqın cəbhəsi olmaq üçün gərək xalqın fikri ilə oturub durasan, xalqın fikrinə istinad edəsən, xalqın fikri əsasında öz siyasi fəaliyyətini aparasan. Düzdür, vaxtilə bu ad xalq tərəfindən qəbul olunub. Ancaq indi xalq öz ümumi rəyini bildirəndən sonra Xalq Cəbhəsinin nümayəndələri və Xalq Cəbhəsi bir təşkilat kimi bunun əksinə fikir söyləyəndə, şübhəsiz ki, o özünü xalqdan ayırır və güman edirəm ki, xalq da gələcəkdə bu barədə öz fikrini bildirəcək.

Mən belə hesab edirəm ki, beynəlxalq hüquq normalarına görə, dövlətçilik prinsiplərinə uyğun olaraq keçirilmiş referendum və onun nəticələri xalqın iradəsidir və ondan yüksək heç bir hökm, heç bir qərar, heç bir qanun ola bilməz və xalqın iradəsinə görə, referendumun nəticələrinə görə Əbülfəz Elçibəy artıq Prezident deyil. Tofiq Qasımovun burada dediyi söz, guya ki bundan sonra gərək Əbülfəz Elçibəy istefa versin, bu, gülüşdən başqa bir şey doğurmur. Bu, sadəcə, bir də onu göstərir ki, respublikanın parlamentində də hüquq komissiyasının sədri əvvəlcə hüquqçu olmasa da, fizik olub. Heç olmasa, bu müddətdə hüquq normalarını öyrənməliydi. Ancaq öyrənməyib və böyük hüquqşünas alim kimi böyük iddialarla burada çıxış eləyir. Bu, gülüncdür.

Xalq öz rəyini deyib. Azərbaycanın 4 milyona yaxın səsvermə hüququna malik olan adamları öz münasibətlərini bildiriblər. Bundan sonra əgər Əbülfəz Elçibəy istefa verməsə, yenə də o, Prezidentdir. Bundan

gülünc bir fikir mən təsəvvür eləmirəm. Bəli, Əbülfəz Elçibəy avqust ayının 29-da keçirilən referendumun nəticələrinə görə, artıq Azərbaycan Respublikasının Prezidenti vəzifəsindən məhrum olunub, xalq onu məhrum eləyib. Azərbaycan Respublikası Milli Məclisinin 24 iyun tarixli qərarına əsasən, Ali Sovetin sədri Prezident səlahiyyətlərini bundan sonra da həyata keçirəcək. Ancaq güman edirəm ki, bu səlahiyyətləri bundan sonra həyata keçirmək daha asan olacaq. Çünki Əbülfəz Elçibəyin Prezident adı artıq onun üzərindən götürüldü.

Burada təklif olunan məsələlərə, yəqin ki, ikinci, üçüncü məsələlərin müzakirəsində baxacağıq. Mən bu barədə öz fikrimi indi demək istəmirəm. Ancaq fürsətdən istifadə edib son günlərdə Azərbaycanın vəziyyəti haqqında bir neçə məlumat və o cümlədən bir neçə fikir söyləmək istəyirəm. Son vaxtlar Azərbaycanla Ermənistan arasında gedən müharibədə uğursuzluqlar olub. Füzuli və Cəbrayıl şəhərləri əldən gedib. Ermənistanın silahlı qüvvələri davamlı hücum edib. Təəssüf ki, silahlı qüvvələrimiz bu hücumların qarşısında dayana bilməyib və çox təəssüf ki, bəzi təxribatçı qüvvələrin apardığı təxribatlar nəticəsində bizim ordu sıralarında nizam-intizamın lazımi səviyyədə olmadığına görə, bəzi sahələrdə döyüş cəsarəti lazımi səviyyədə olmadığına görə, camaatı təhlükəyə, qorxuya, hay-küyə saldıqlarına görə bu bölgələrdə heç bir böyük savaş olmadan əhali də, ordu hissələri də o yerləri tərk ediblər. Təsəvvür edin, mən bir də yada salmaq istəyirəm ki, vətəni hər bir vətəndaş qorumalıdır. Vətəni qorumaq üçün hər bir vətəndaş öz canından keçməyə hazır olmalıdır, öz həyatını qurban verməyə hazır olmalıdır. Əgər vətəndaşlarımız bu cür vətənpərvərlik hissi ilə yaşamasalar, əgər onlar vətən yolunda, torpaq yolunda, dövlət yolunda canlarını qurban verməsələr, onda vətənimiz, torpağımız düşmənlərdən nə cür qorunacaqdır? Təəssüf ki, bizim bu bölgələrdə uğursuzluqlarımızın səbəblərindən biri, ən əsası da ondan ibarətdir ki, döyüşlərə girişməyiblər, döyüş cəsarəti göstərməyiblər. Bəzi yerlərdə təxribatçılar öz işlərini görüblər və beləliklə də, xalqı, camaatı oradan qorxudub çıxarıblar, hətta döyüşmək istəyən adamları – vətənini, torpağını, evini, komasını qorumaq istəyənləri qorxudub, hay-küy salıb oralardan çıxarıblar.

Son günlər Qubadlı rayonunun ətrafında gərgin vəziyyət yaranmışdır. Bunu indi araşdırmaq çətindir. Çünki son günlər Ermənistanın rəhbərliyi ilə, Dağlıq Qarabağda olan qüvvələrlə və Rusiyanın rəhbərliyi ilə intensiv danışıqlarımız olubdur. Bizim tərəfdən vəziyyəti bir cür şərh edirlər, o birisi tərəfdən başqa cür şərh edirlər. Biz çalışırıq ki, bu mə-

sələləri bir-birinə uyğunlaşdıraq, görək, doğrudan da, hansı tərəfdə nə qədər günah var. Bunlara baxmayaraq iki gün bundan öncə Qubadlı rayonunun ətrafında vəziyyət çox gərgin olduğu zaman mən Ermənistanın prezidenti Levon Ter-Petrosyana telefon etdim, Qubadlının təhlükədə olduğunu bildirdim. O isə mənə bu məlumatın səhv olduğunu dedi, guya bizim tərəfdən müxtəlif adamların hücum etdiyini bildirdi. Amma ona baxmayaraq mən yenə də xahiş etdim ki, bu hücum əməliyyatlarını dayandırsınlar.

Rusiya Prezidentinin nümayəndəsi Kazimirov bu işlə daim məşğul olmuşdur. Burada olandan sonra, Yerevanda və Xankəndidə olandan sonra Moskvadan bizimlə əlaqə saxlamışdır. Ancaq bunların hamısına baxmayaraq, Qubadlı rayonunda vəziyyət çox gərginləşdi. Dünən əhali oradan çıxmalı oldu. Düzdür, dünən biz ora təcili Baş nazirin müavini Abbas Abbasovu göndərdik. O, Zəngilandadır, gecə də, səhər də bizimlə əlaqə saxlayıb. Zəngilanın əhalisi öz yerindədir. Dünən mənə telefon etdi, dedi ki, Qubadlının əhalisi artıq çıxıb, icra hakimi də buradadır, Sizinlə danışmaq istəyir. Mən dedim, onunla danışmaq istəmirəm. Əgər Qubadlıdan çıxıblarsa, əgər Qubadlıda döyüş olubsa, orada nə qədər adam həlak olub? Nə qədər adam canını qurban verib? Mən demirəm ki, əliyalın insanlar, sülh şəraitində olan adamlar qurban getsinlər. Xeyr! Ancaq bizim düyüşçülərimiz döyüşməlidirlər və döyüşdə, şübhəsiz ki, həlak olanlar da, yaralananlar da olacaq. Amma orada bunlar yoxdur, cəmisi 4 adam həlak olub. Belə döyüşmək olmaz, vətəni belə müdafiə eləmək olmaz. Eyni zamanda bizə məlumatlar gəlir ki, bir batalyon filankəsindir, o gəlib təxribat aparır. O biri batalyon filankəsindir, o gəlib təxribat aparır. Məsələn, dəqiq məlumat gəlib ki, Rəhim Qazıyev o gün bu məsələlər müzakirə olunandan sonra qaçıb, gah Şəkidədir, gah Qəbələdədir, gah Gəncədədir. Avqust ayının 24-də Qubadlıda olub. İndi sual verilir, Şəki onun vətənidir, ora gedə bilər, Gəncəyə o, tez-tez gedib-gəlir, bu da müəyyən qədər anlaşıla bilər. Qubadlıda onun nə işi var? Nə işi var? Təxribat aparmağa gedib? Bəli, məlum olubdur ki, gedib oradan qoşunların çıxarılmasında təxribat aparıb. Şübhəsiz ki, o, bir ildən artıq müdafiə naziri olub. Orada o zabitlərin, əsgərlərin bir çoxu ilə əlaqəsi var. Bəzən də çox çirkin əsaslar əsasında əlaqəsi var, öz çirkin əməllərini ört-basdır etmək üçün o bu hərəkətlərə qoşulubdur. Hətta bizə məlumat verirlər ki, sonra Qubadlının əhalisi bilib ki, orada Aydın Şükürov adlı adamın evində olub, təxribat təbliğatı aparıb. Ondan sonra Aydın Şükürovu o qədər döyüblər ki, xəstəxanaya düşüb.

Bilirsiniz, dəhşət burasındadır ki, bizim düşmənimiz, torpaqlarımıza təcavüz edənlər tək deyil. Bizim düşmənimiz içimizdə olan adamlardır, Rəhim Qazıyev kimilər, Əlikram Hümbətov kimilər və başqalarıdır və əgər indi bu dəqiqə burada çıxış edən İbrahim İbrahimov, Hicran Kərimli bilmək istəyirlərsə, bunlar da hamısı Əbülfəz Elçibəy və sizlərin günahıdır. Bunu unutmayın! Siz görmürdünüz, Əbülfəz Elçibəy indi mənə telefonla deyir ki, Siz niyə imkan verdiniz Rəhim Qazıyev Məclisdə məni təhqir etdi. Mən dedim, Rəhim Qazıyev elə Siz burada olanda da Sizi təhqir edirdi. Bəs Siz ona niyə imkan verirdiniz? Bu, birinci. İkincisi, mən Sizdən soruşuram, bəs Siz niyə imkan verirdiniz ki, Rəhim Qazıyev kimi adam Azərbaycanın ordusunu, Azərbaycanın torpaqlarını dağıtdı, satdı. Siz niyə buna imkan verdiniz? Əgər Siz dövlət başçısı idinizsə, əgər Siz Prezident idinizsə, həqiqətən, əgər Siz torpaqlarımızı qoruyurdunuzsa, bu adamı nə üçün saxlayırdınız? Dərd də burasındadır. Ona görə biz özümüzü bu daxili düşmənlərdən xilas etməliyik. Biz içimizi təmizləməliyik və güman edirəm ki, nə qədər sıx birləşsək, nə qədər bir-birimizi anlaya bilsək, nə qədər bir-birimizə sağlam münasibət göstərsək, o şəxsi iddialardan, şəxsi mənafelərdən uzaqlaşsaq, respublikanı tezliklə bu vəziyyətdən çıxara bilərik.

Bəli, referendumun nəticələrini mən Əbülfəz Elçibəyə etimadsızlıq göstərilməsi ilə yanaşı, bizim bu iki ay yarım müddətində – Əbülfəz Elçibəyin burada olmadığı bir dövrdə fəaliyyətimizə müsbət münasibət kimi qəbul edirəm. Mən bunu belə qəbul edirəm. Mən belə hesab edirəm ki, vətəndaşlar Əbülfəz Elçibəyə etimad göstərməyərək, eyni zamanda Azərbaycan rəhbərliyini də boş görmək istəmirlər, yəni Əbülfəz Elçibəydən imtina edərək Əbülfəz Elçibəyin yerində başqa bir adamı görüb, ona etimad göstərmək istəyirlər. Bu, referendumun nəticəsini məhz mən belə qəbul edə bilərəm. Ona görə də hesab edirəm ki, biz bu referendumun nəticələrini nəzərə almalıyıq. Əbülfəz Elçibəy artıq Prezident deyil.

Ancaq eyni zamanda sərhədlərdə yaranmış vəziyyət bizdən çox böyük məsuliyyət hissi tələb edir. Sizi inandırıram ki, bu məsuliyyət hissi ilə, bu məsələlərin həll olunması ilə biz məşğuluq. Vəziyyət ağırdır, səbəblər deyilibdir, mən bunları bir daha söyləmək istəmirəm. Son vaxtlar bu məsuliyyəti hiss edərək, bildiyiniz kimi, Ermənistanın, Dağlıq Qarabağın, Rusiyanın rəhbərləri ilə danışıqlar aparıb bu müharibəni, atəşi dayandırmaq, sülh danışıqlarına getmək məqsədini qarşıma məqsəd qoymuşam və bu barədə sizə bildirmək istəyirəm ki, kim mənə nə

deyəcəksə, desin, mən hesab edirəm ki, bu, indi vaxtın zəruri tələbidir və bunun əsasında da mən hərəkət edirəm. Atəşi dayandırmaq lazımdır, sülh danışıqlarına getmək lazımdır. Məhz bu yolla biz indi bu vəziyyətdən çıxa bilərik. Bu danışıqlar, mən yenə də deyirəm, Ermənistanın və Dağlıq Qarabağın rəhbərliyi ilə aparılır. Dağlıq Qarabağın rəhbərliyi ilə Afiyəddin Cəlilov, Rəsul Quliyev, Səfər Əbiyev danışıb. Ermənistanın və Rusiyanın rəhbərliyi ilə şəxsən mən özüm dəfələrlə danışmışam və bunlar indi müəyyən nəticələr verib. Bu danışıqların nəticəsində, bizim səylərimiz nəticəsində artıq bu gündən atəşin dayandırılması haqqında Ermənistan prezidenti Levon Ter-Petrosyan da, Dağlıq Qarabağın rəhbər qüvvələri də bəyanat veriblər. Bu bəyanatları artıq mənə gətiriblər. Bəyanatlarda deyilən fikirlərin, bəlkə, hamısı indi bizim fikirlərimizə uyğun deyil. Ancaq onların əsas məzmunu bundan ibarətdir ki, bizim apardığımız son diplomatik tədbirlərin, danışıqların nəticəsində Ermənistan prezidenti Levon Ter-Petrosyan belə bir bəyanat verib.

*(Rus dilində olan Bəyanatı elan edir.)*

Burada Qubadlı rayonunda olan silahlı qüvvələrin oradan çıxarılması nəzərdə tutulub. Bu bəyanatda da, Dağlıq Qarabağın bəyanatında da göstərilir ki, onlar Qubadlı rayonunda olan silahlı qüvvələrini bu gün oradan çıxarırlar və Qubadlı əhalisinin öz yerlərinə qayıdıb orada yaşamalarına təminat verirlər. Bizim bu danışıqlar davam edir. Yəqin ki, yaxın günlərdə görüşlər olacaq və bu görüşlər əsasında biz sülh üçün, atəşin dayandırılması üçün yeni bir saziş imzalamalı olacağıq.

Ancaq bununla yanaşı, mən bir şeyi də nəzərinizə çatdırmaq istəyirəm. Buradan həm sizə, həm də bütün Azərbaycan xalqına, xüsusən Qarabağ bölgəsində olan əhaliyə müraciət etmək istəyirəm. Dünən və bu gün səhər məlumat gəlir ki, Qubadlıdan, Zəngilandan, Füzulidən, Cəbrayıldan çıxan əhali Beyləqandan keçib bu tərəflərə gəlir. Bilirsiniz, evlərini tərk edən adamların vəziyyətini başa düşürəm. Başa düşürəm var-yoxunu itirən adamların vəziyyətini, başa düşürəm öz qohum-əqrəbasını itirən adamların vəziyyətini. Mən başa düşürəm, ancaq anlamaq lazımdır, bilmək lazımdır ki, bu adamların hamısının Bakıya gətirilməsi heç də Azərbaycanda vəziyyətin rahat həyata keçirilməsinə şərait yaratmayacaq. Biz bu barədə tədbirlər görürük. Tədbirlər də ondan ibarətdir ki, o yaxın bölgələrdə müəyyən düşərgələr, müəyyən şəraitlər yaradılır. Xarici ölkələrin nümayəndələri də bizə yardım edirlər, çadırlar, başqa lazımi avadanlıqlar gətirirlər ki, biz o qaçqınların müvəqqəti yaşayış yerlərində onları təmin edək. Ancaq onların bəzi qohumları, tanışları,

bəzi təxribatçılar tərəfindən o insanların bura gətirilməsi, şübhəsiz ki, doğru deyil. Ona görə də mən qaçqınlara müraciət edirəm. Onlara öz məhəbbətimi, sevgimi bildirirəm, onlara öz ürəyimdə, qəlbimdə olan hissiyyatları çatdırıram.

Bu günlərlə əlaqədar olaraq eyni zamanda, rica edirəm ki, birincisi, öz yerinizi hay-küyə düşüb tərk etməyin. İkincisi, öz vətəninizi, öz torpağınızı, öz evinizi qorumağa qadir olun, cəsarətiniz çatsın. Üçüncüsü də, əgər imkan olmadığı halda, öz yerinizdən çıxırsınızsa, ətraf yerlərdə məskunlaşın. Ancaq təəccüblü burasındadır ki, mənə dünən axşam da, bu gün də xəbər verdilər ki, hətta bizim ordunun hissələri də texnika ilə Beyləqan tərəfə qaçıb gəliblər. Mən bu gün səhər tezdən Surət Hüseynovu və bəzi rəhbər şəxsləri Beyləqana göndərdim, həm qaçqınlarla məşğul olmaq üçün, həm də orada bu məsələləri həll etmək üçün. Bunları mən etdim, bu tədbirləri gördüm. Eyni zamanda bu danışıqları aparıram və güman edirəm ki, biz o bölgədə sülhün yaranmasına, atəşin dayandırılmasına şərait əldə edəcəyik. Ancaq xahiş edərdim ki, bizim ordu hissələri öz əsgər borclarını layiqincə yerinə yetirsinlər, vətəndaşlarımız öz evlərini, öz kəndlərini, öz yaşadıqları yerləri qoruya bilsinlər. Ən nəhayət, o qaçqın düşmüş, didərgin düşmüş vətəndaşlara müraciət edib onlara bildirmək istəyirəm ki, biz əlimizdən gələn tədbirləri görəcəyik ki, onların vəziyyəti, heç olmasa, bir balaca normal şəkildə olsun. Bütün köməkləri edəcəyik, ancaq mən xahiş edirəm, sakit olun, xahiş edirəm, təmkinli olun, xahiş edirəm, dözümlü olun. Bizim xalqımız tarixən, əsrlər boyu çox böyük imtahanlardan çıxıb, bu imtahandan da çıxacaq, ancaq dözümlü olmaq lazımdır, mətin olmaq lazımdır, cəsarətli olmaq lazımdır. Torpağı qorumalıyıq, vətənpərvərlik, döyüşkənlik hissiyyatını özümüzdə daha da cəmləməliyik, toplamalıyıq. Güman edirəm ki, mənim bu səsimə bütün Azərbaycan vətəndaşları səs verəcək və biz hamımız birləşib o təxribatçı qrupları öz sıralarımızdan çıxaracağıq. Rəhim Qazıyev kimi Azərbaycan xalqının düşmənlərini öz sıralarımızdan çıxaracağıq və xalqımız birləşəcək. O didərgin düşmüş adamlar əmin olsun ki, öz yerlərinə qayıdacaqlar. Biz bu yolda çalışacağıq.

Mən istərdim, bu məsələnin müzakirəsini qurtaraq, qərar layihəsi var, onu sizə təqdim edirəm. Xahiş edirəm, oxuyasınız. Buyurun.

**Afiyəddin Cəlilov.** *Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəyə etimad göstərilməsi haqqında 1993-cü il avqustun 29-da keçirilmiş ümumxalq səsverməsinin (referendumun) yekunları haqqında Azərbay-*

*can Respublikası Mərkəzi Referendum Komissiyasının məlumatı barədə Azərbaycan Respublikası Milli Məclisinin qərarı. Layihə.*

*Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəyə etimad göstərilməsi haqqında 1993-cü il avqustun 29-da keçirilmiş ümumxalq səsverməsinin (referendumun) yekunları haqqında Azərbaycan Respublikası Mərkəzi Referendum Komissiyasının məlumatını dinləyərək qeyd edir ki, referendum respublikanın bütün bölgələrində tam demokratik şəkildə, vətəndaşların xüsusi fəallığı, həmrəyliyi şəraitində olduqca yüksək səviyyədə keçirilmişdir. Bununla da referendum Azərbaycan Respublikasında yaşayan bütün vətəndaşların birliyini, demokratiyaya sadiq olduqlarını bir daha təsdiq etmişdir. Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:*

*Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəyə etimad göstərilməsi haqqında 1993-cü il avqustun 29-da keçirilmiş ümumxalq səsverməsinin (referendumun) yekunları haqqında Azərbaycan Respublikası Mərkəzi Referendum Komissiyasının məlumatı nəzərə alınsın.*

**Sədrlik edən.** Burada çıxış edənlər də, mən də qeyd etmişdim ki, ən yüksək qərar referendumun nəticələridir. Milli Məclis bunu sadəcə nəzərə alır. Belə bir qərarın qəbul olunmasına etiraz yoxdur ki? Yoxdur. Onda rica edirəm, Məclis üzvləri bu layihəyə müsbət münasibətlərini bildirsinlər.

***(Səsvermə)***

Qəbul olundu. Beləliklə, birinci məsələni biz qurtardıq.

Təklif var ki, fasilə elan edək. 20, ya 30 dəqiqə? 20 dəqiqə. 20 dəqiqəlik fasilə elan olunur.

***(FASİLƏDƏN SONRA)***

**Sədrlik edən.** Məclis üzvlərindən rica edirəm, qeydiyyatdan keçsinlər.

***(Qeydiyyat)***

43 nəfər iştirak edir, yetərsay var. İkinci məsələ ilə bağlı biz tapşırdıq ki, Katiblik hazırlıq görsün. Şübhəsiz ki, bu barədə məruzə etməyə ehtiyac yoxdur. Bir halda ki bu məsələnin gündəliyə salınması Məclis üzvləri tərəfindən qaldırılıb və artıq bir neçə çıxışlarda da səslənib, güman edirəm ki, onu müzakirə etmək olar. Kimin bu barədə, yəni Prezident seçkilərinin keçirilməsi haqqında nə fikri var? Artıq Prezident yoxdur, Prezident seçkilərinin keçirilməsi haqqında kimin nə fikri var, buyursun, desin.

Xeyrulla Əliyev, buyurun.

**Xeyrulla Əliyev.** Hörmətli millət vəkilləri, hörmətli sədr. Bu məsələ artıq birinci müzakirələr zamanı deyildi, təkliflər irəli sürüldü. Xalq referendum zamanı öz sözünü deyib. Doğrudan da, əslində, biz Prezidentə etimad məsələsinə münasibətimizi bildirməklə ölkə başçısına münasibətimizi bildiririk. Biz vahid rəhbərlik görürük. Özü də çox yüksək fikirlər söyləyirlər. Heydər Əliyev, Sizin hər bir hərəkətiniz, hər bir addımınız xalqın yaddaşında möhkəm...

**Yerdən.** *(Eşidilmir.)*

**Xeyrulla Əliyev.** Yox, ümumiyyətlə, bilirsiniz, gəlin, bir az ədalətli olaq, imkan verin, danışaq. Xahiş edirəm, çünki burada demokratiyadan danışılır. Mən rayonda olanda da etiraf etdim ki, biz keçmiş kommunistlər deyək, nə deyirsiniz, deyək, Heydər Əliyev, Sizi pis müdafiə edirik, təbliğat aparmırıq. Deyirsiniz belə, mən müqayisə eləmirəm. Əbülfəz Elçibəy haqqında on beş gün deyildi çıxışlar edirdik, kitab çıxdı. Heydər Əliyev haqqında təkcə ümumdünya mətbuatını demirəm, son vaxtlardakı qəzet müsahibələrini bir yerə yığsaq, əməlli-başlı bir kitab olar. Yeri gəlmişkən, Arkadi Volskinin avqustun 7-dəki müsahibəsində çox gözəl fikirlər deyilir. Heç bizim mətbuat ona fikir vermir. Yaxud "Российский фермер" qəzetində Sizinlə müsahibədə bir yerini xatırlayırsınız? Ona görə mən bayaq Həsən Həsənovun adını çəkdim. Heydər müəllim, orada Siz deyirsiniz ki, belə bir əhvalat oldu. Bir dəfə yığışdılar başıma, dedilər ki, Siz bu memarlıq məsələlərini niyə belə yaxşı bilirsiniz? Yadınızda varsa, o zaman Moskvada Nizaminin 840 illik yubileyi keçirilirdi. 1981-ci il dekabrın təxminən 3-ü ya 4-ü idi. Səhəri gün Mərkəzi Memarlar Evində Azərbaycan günü keçirildi və Siz orada 25-30 dəqiqəlik bir çıxış etdiniz. O zaman Memarlar Evinin foyesində Azərbaycanın o dövrdə şəhərsalma nailiyyətlərinə həsr olunmuş layihə və maketlər nümayiş etdirilirdi. Siz elə bil zaldan layihə və maketləri seyr edir, danışırdınız. Bu vaxt zalın orta sıralarından 2-3 ziyalı ayağa qalxıb təklif elədilər ki, Sizin o çıxışınız videoyazıya köçürülsün və Memarlar Evinə hədiyyə verilsin.

**Yerdən.** *(Eşidilmir.)*

**Xeyrulla Əliyev.** Bir dəqiqə, xahiş edirəm. Ondan sonra 1982-ci ilin oktyabr ayında, əvvəlində...

**Sədrlik edən.** Xeyrulla müəllim...

**Xeyrulla Əliyev.** Xahiş edirəm, Heydər müəllim, icazə verin...

**Sədrlik edən.** Bir dəqiqə, bağışlayın, üzr istəyirəm. Bilirsiniz...

**Xeyrulla Əliyev.** Sizin yanınızda demək olmur, özünüz də bunları demirsiniz. Sağlıq demirəm, yox, xahiş edirəm, düz başa düşün. Sağlığı başqası deyir. Bir dəfə dediniz ki, bəli, Kommunist Partiyasının sıralarında rəhbər mövqe tutmusunuz, amma hər yerdə Azərbaycan vətəndaşı kimi işləmisiniz. 1970-ci illərdə hakimiyyətə, siyasi rəhbərliyə yeni gələndə o zaman Nərimanovçuluğu təbliğ edənləri məhşər ayağına çəkirdilər, amma Siz gələndən sonra 1957–1960-cı illərdə burada Nəriman Nərimanovun heykəlini ucaltdınız və eyni zamanda bunu gedib Rusiyanın orta göbəyində Ulyanovskda da qaldırdınız. Bu, vətəndaşlıq deyildi?

**Sədrlik edən.** Sonra da Nərimanova görə bizi məhşər ayağına çəkdilər də.

**Xeyrulla Əliyev.** Çəkirdilər, dözürdünüz. Mən yenə deyirəm, xalqın iradəsini, xalqın sözünü çatdırıram ki, xalq öz Prezidentini müəyyən edir və xahiş edirik ki, Prezident seçkiləri vaxtından qabaq, ən geci oktyabrın 3-nə təyin olunsun. Mən xalqın sözünü deyirəm.

**Sədrlik edən.** Təşəkkür edirəm. Mənim həyatımda belə səhifələr çoxdur: memarlarla, yazıçılarla görüşmək, haradasa heykəl qoymaq, haradasa abidə qoymaq. Düz deyirsiniz, Taqanroqda da, Ulyanovskda da Nəriman Nərimanovun heykəlini qoyduq, böyük bir prospekt də yaratdıq. Daşkəndin yaxınlığında böyük bir şəhər yaratdılar, adını Nərimanabad qoydular. Bunların hamısı, şübhəsiz ki, Azərbaycan xalqını ölkə hüdudlarından kənarda daha da tanıtmaq üçün, Azərbaycan xalqının qabaqcıl adamlarının, şücaətli döyüşçülərinin xatirəsini əbədiləşdirmək üçün olan işlərdir və bu da bizim borcumuz idi. Mən hesab edirəm ki, öz borcumu yerinə yetirmişəm. Əgər indi bunu unudanlar varsa, unutmayanlar da var. Şübhəsiz, amma söhbət bundan getmir. İndi söhbət ondan gedir ki, Prezident seçkiləri keçirilməlidir, ya yox? Söhbət bundan gedir. Siz söhbəti başqa tərəfə yönəltdiniz. Bu yazılanlar nə demək istəyir? İstəyirlər Prezident seçkiləri keçirilsin... Yaxşı, yazılıblar, qoy hər kəs bir-iki kəlmə söz desin. Səlvər Aslanov.

**Səlvər Aslanov.** Burada Gülnarə xanımın təklifi oldu, özü də konkret təklifi oldu, oktyabrın 3-ü. Mən xahiş edirəm, elə bu təklifi səsə qoyaq. Mən həm Gülnarə xanımın təklifini dəstəkləyirəm, həm də Heydər müəllim, ayın 27-də bizim universitetdə böyük müşavirə keçirilmişdi, orada da bu, səsləndi. Ona görə də mənim on minlik kollektiv adın-

dan ixtiyarım var deyim ki, biz Prezident seçkilərinə getməliyik, özü də oktyabrın 3-də.

**Sədrlik edən.** Buyurun, ancaq Prezident seçkiləri bir adamın adına bağlı deyil ki, Prezident seçkiləri haqqında biz qərar qəbul edəndən sonra xalq kimi Prezident seçəcək, onu da seçəcək. Ona görə gəlin Prezident seçkiləri haqqında qərar qəbul olunması barədə müzakirə aparaq.

Tofiq Əzizov, buyurun.

**Tofiq Əzizov.** Mən çıxışımda demişdim və bir də təkrar eləyirəm ki, bu çətin vaxtda dövləti başsız qoymaq olmaz. Təklif eləyirəm, oktyabrın 3-də – bazar günü Prezident seçkiləri keçirilsin və xahiş edirəm, səsə qoyulsun.

**Sədrlik edən.** Yaxşı. Sultan Məmmədov, buyurun.

**Sultan Məmmədov.** Mən də belə hesab edirəm ki, respublikamızın bu ağır vəziyyətə düşməsinin əsas səbəbi ölkədə olan hakimiyyət böhranıdır. Hakimiyyət böhranının dərinləşməsi, ayrı-ayrı siyasi liderlərin siyasi oyunbazlıqla məşğul olması, həqiqətən, respublikanı çox ağır vəziyyətə salıb. Azərbaycanı bu vəziyyətdən çıxartmaq üçün mütləq Prezident seçkiləri keçirilməlidir. Elə bir şəxs Prezident seçilməlidir ki, hər yerindən duran o vəzifəyə göz dikməsin.

**Sədrlik edən.** Tapdıq Kamalov, buyurun.

**Tapdıq Kamalov.** Mənə belə gəlir ki, respublikada Prezident idarəüsulu qalmalıdır və buna görə də mütləq Prezident seçkilərinə getməliyik. Bayaq verdiyim təklif kimi Prezident seçkiləri bir ay müddətində keçirilməlidir. Buna referendumda görülən işlər imkan verir. Sağ olun.

**Sədrlik edən.** Şaitdin Əliyev.

**Şaitdin Əliyev.** Hörmətli Məclis üzvləri, hörmətli sədr. Burada konkret təklif irəli sürüldü. Mən də oktyabrın 3-də Prezident seçkilərinin keçirilməsinin tərəfdarıyam. Çünki bundan qabaq referendum məsələsini müzakirə edən zaman burada hamı öz sözünü dedi. Xalq tezliklə dövlət başçısını yerində görmək istəyir, yəni Prezidentin tezliklə seçilməsini istəyir. Ona görə təklif edirəm, oktyabrın 3-ü Prezident seçkiləri günü təyin edilsin. Eyni zamanda təklif edirəm ki, Prezident seçkiləri günü təyin edilməklə bərabər, Azərbaycan Respublikası "Azərbaycan Respublikası Prezidenti seçkiləri haqqında" Qanunda müəyyən dəyişikliklər olunsun. Yəqin ki, biz həmin dəyişikliklər barədə müzakirəmizi, sözümüzü sonra deyəcəyik.

**Sədrlik edən.** Asya Manafova, buyurun.

**Asya Manafova.** Hörmətli sədr, hörmətli xalq deputatları. Həqiqətən, bu saat vətən torpağı əldən gedir, bu saat yerlərdə anarxiya, özbaşınalıq hökm sürür. Bircə misal deyim. Mən Qobustan rayonunda olmuşdum. İcra hakimiyyəti başçısının müavinindən soruşuram ki, icra hakimiyyətinin başçısı kimdir? Deyir bizdə üç nəfərdir – biri möhürlüdür, biri yerində oturandır, biri də səlahiyyətləri idarə edəndir – mənəm. Yerlərdə belə anarxiyaların qarşısını almaq üçün hökmən Prezident seçkilərinə getməliyik və təcili olaraq bu məsələni qısa müddət ərzində – bir ay müddətində həll eləməliyik. Mənə elə gəlir ki, bu saat millət ümid çırağını referendumun keçirilməsində görürdü, kimə münasibət bildirəcəyini camaat indidən çatdırdı.

Mən ümidvaram ki, Prezident seçkiləri də çox yüksək səviyyədə keçəcək. Yoldaşların təklifi ilə razıyam. Bir daha çığır-bağır salıb bu gün demokratiyadan danışanlar birdəfəlik nöqtə qoymalıdırlar və bilməlidirlər ki, dövlət başçısı kim olmalıdır, kim onu idarə edə bilər və bu məsələ birdəfəlik həll olunmalıdır. Təcili, bir ay müddətində Prezident seçkiləri keçirilsin. Çox sağ olun.

**Sədrlik edən.** Hüseynağa Qəniyev.

**Hüseynağa Qəniyev.** Mənə elə gəlir ki, mütləq Prezident seçkilərinə getməliyik və Prezident seçkilərinə getməməyə bizim ixtiyarımız da yoxdur. Bu, qanunla təsbit olunmuş bir məsələdir. Konstitusiya Aktında da, qanunlarda da bu göstərilir. Ancaq söhbət onun vaxtından gedə bilər. Mənə elə gəlir ki, elə optimal variant oktyabr ayının 3-dür. Mən də bu təklifə tərəfdaram. Həm də belə bir təklif də pis olmazdı ki, Mərkəzi Seçki Komissiyasına tapşıraq ki, Prezident seçkilərinin keçirilməsi, təbliğat üçün namizədlərin irəli sürülməsi və sair, özləri müəyyənləşdirsinlər.

**Sədrlik edən.** Deputatlardan Məclis üzvü olmayan Araz Əlizadə mənə xüsusi yazı göndərib ki, bu məsələ ilə bağlı ona söz verim.

**Araz Əlizadə.** Hörmətli sədr, hörmətli millət vəkilləri. Mən dəfələrlə burada çıxış edərkən Sizi milli barışığa çağırmışam. Əgər o zaman bizim kiçik partiyamızın sözünə baxsaydılar, əgər o zaman biz bir-birimizi vəzifə uğrunda döyüşlər üçün didməsəydik, bəlkə də, bu gün düşmən Azərbaycan ərazisinin əksəriyyətini almazdı. Əgər noyabrın 26-da dediyim təklif qəbul edilsəydi ki, Azərbaycanda hakimiyyət vahid əldə birləşməlidir, o vahid əl dəmir intizamla respublikanı idarə etməlidir,

respublikada ərzaq, maddi-təchizat və sair kart sisteminə keçməlidir, respublikada siyasi partiyaların fəaliyyəti dayandırılmalıdır, mətbuatda hərbi senzura qoyulmalıdır. Vaxtilə bu sözlər qəbul edilsəydi, mənə elə gəlir ki, bu cür ağır məğlubiyyətlər olmazdı. Bu təkliflə martın 6-da da çıxış etmişəm. İyunun 9-da burada çıxış edəndə dedim ki, tez-tələsik eləyib Milli Məclisi bağlamaq qardaş qırğınına getməkdir, vətəndaş müharibəsini rəsmi elan etməkdir. Dedim ki, hörmətli Milli Məclis üzvləri halva-halva deməklə ağız şirin olmaz. Doğrudan da, ağız şirin olmadı, qardaş qırğını oldu, qan töküldü.

Mən bu gün də, onda da demişdim ki, koalision hökumət yaranmalıdır. Heç kəs fikirləşməsin ki, biz sosial demokratlar hakimiyyət uğrunda mübarizə aparırıq, yəni hakimiyyət hərisiyik. Biz əvvəldən də deyirik ki, o koalision hökumətdə iştirak etməyəcəyik.

Bu gün Azərbaycanın üstünü qara buludlar alıb. Heç vaxt Azərbaycanın vəziyyəti indiki kimi ağır olmayıb. Əlbəttə, Prezident seçkiləri keçirilməlidir. Bütün hakimiyyət Prezidentin əlində cəm edilməlidir. Yenə də mən təklifimi deyirəm ki, Prezident seçkilərindən sonra Milli Məclismi, Ali Sovetmi respublikada hərbi vəziyyət elan etməlidir. Çünki bizdə müharibə gedir. Yenə də o təkliflər hamısı yerinə yetirilməlidir. Əgər bunları etməriksə, kimi istəyirsiniz Prezident seçin. Referendumun nəticələrini təsdiq etmək üçün saatlarla hamımız eyni sözü deyiriksə, mənə elə gəlir ki, biz respublikanın məsələlərini həll edə bilməyəcəyik.

O ki qaldı bizim partiya konstruktiv müxalifətdə qalacaq. Lakin artıq iqtidardan getmiş, özlərini keçmiş demokrat adlandıran cəbhəçilərə üzümü tutub deyirəm ki, kimin keçisi mələsə də, hələ sizin keçiniz susmalıdır. Çünki burada deputatları da döymüsünüz. Silah yolu ilə dövlət çevrilişi etmisiniz, bütün hüquq normalarını pozmusunuz. İndi hüquqdan kim danışsa da, siz susmalısınız.

O ki qaldı mən olmayarkən, əfsus ki, adını çəkməyi özümə həqarət sayıram, o adamlar burada çıxış eləyib deyiblər ki, Azərbaycan Sosial Demokrat Partiyasının Talış-Muğan Respublikasının elan edilməsində rolu olub. Yalandır, ağ yalandır. Birinci, respublikada Talış-Muğan Respublikasını pisləyən, bəyanatla çıxış edən partiya bizimki olub. Bəli, Əlikram Hümbətov bir il dörd ay bizim partiyanın üzvü olub, ondan qabaq 15 ilə yaxın Kommunist Partiyasının üzvü olub, yaxın 2 ildə Azərbaycan Xalq Cəbhəsinin üzvü olub. Ondan sonra neçə ay Azərbaycan Xalqlarının Birliyi Partiyasının üzvü olub. Nə oldu, heç kəs yada düş-

mür, bir sosial demokratlar yada düşür? Bəli, biz onu müdafiə etmişik, 20 Yanvardan sonra. Yanvar hadisələri xalqımıza qarşı təcavüz idi. Müdafiə etmişik, onun həbsdən azad olunmasına nail olmuşuq. Heç kəsi bir günü ilə mühakimə etməzlər. Bəli, o, böyük siyasi səhvə, cinayətə yol verib. Amma onun əvvəlki Xalq Cəbhəsində və yaxud silahların Azərbaycanda qalıb Rusiyaya daşınmamasında, sonradan Ermənistana verilməməsində öz rolu olub.

Daha bir məsələni də demək istəyirəm. Burada şayiələr davam edir. Yenə də ikitirəlik yaratmaq istəyirlər. Filankəs hərbi çevriliş etmək istəyir. Həmin o filankəs hərbi çevriliş etmək istəsəydi, keçmiş Mütəllibov silah gücü ilə öz hakimiyyətini qoruya bilərdi. Əgər ona gücü çatmayıbsa, əlbəttə, hərbi çevriliş eləməyə də gücü çatmayacaq. Onun adının hallandırılmasını mən yaxşı hal hesab etmirəm. Azərbaycan xalqının oğludur, gəlsin, otursun Azərbaycanda, Azərbaycanın qanunları ilə yaşasın.

Mən bir daha sizin hamınızı Prezident seçkilərinə səs verməyə çağırıram. Ümid edirəm ki, siyasi mübarizə mədəniyyət çərçivəsində keçəcək. Bu heç birimizi düşmənçiliyə gətirib çıxarmayacaq.

Onu da demək istəyirəm ki, Azərbaycan Sosial Demokrat Partiyası bu seçkilərdə öz namizədini irəli sürməyəcək. Çünki bu gün biz bilirik ki, Azərbaycan xalqının əsas rəyi Heydər Əliyevədir. Boş-boşuna mübarizə aparmaq fikrində deyilik. Milli barışığa çağırırıq və istərdik ki, Prezident seçkiləri də normal, demokratik şəraitdə keçsin. Prezident olmaq qabiliyyəti olan şəxs gəlsin otursun respublikanın başında, dəmir əllə dəmir intizam yaratsın və respublikanı bu böhrandan çıxarsın. Uğurlar diləyirəm. Çox sağ olun.

**Sədrlik edən.** Firudin Cəlilov, buyurun.

**Firudin Cəlilov.** Referendum seçkiləri təzə qurtarıb, məntəqələr yerində, seçicilərin sayı məlumdur. Ona görə Prezident seçkiləri nə qədər tez kiçirilsə, o qədər yaxşı olar. Çünki hakimiyyət böhranı artıq gündən-günə artır. Əgər biz Prezident seçkiləri ilə bağlı seçki qanununda dəyişiklik eləməliyiksə, mənə elə gəlir ki, artıq onun da səsə qoyulmaq vaxtıdır.

Mən də çıxış edən deputatların sözünə qüvvət verirəm ki, bu seçkiləri nə qədər tez keçirsək, o qədər böhranlı vəziyyətdən tez çıxmaq mümkün olacaq. Sağ olun.

**Sədrlik edən.** Qalib Qurbanov.

**Qalib Qurbanov.** Son vaxtlar Milli Məclisin iclasında biz, əsasən, siyasi və hərbi böhran problemləri ilə məşğuluq. Uzun müddətdir imkanımız da yoxdur ki, iqtisadi məsələlərlə də məşğul olaq. Halbuki hamımıza iqtisadi böhran da aydındır, bəlkə də bu, digər məsələlərdən daha gərgin vəziyyətdədir. Bir nəfər, mən Heydər Əliyevi nəzərdə tuturam, uzun müddətdir iki vəzifəni aparır. Hamımız da bilirik ki, Heydər müəllimin iş günü 15-20 saata gəlib çatır. Ancaq yenə də bir adam böyük yükün altından heç cür çıxa bilməz. Mən hesab edirəm ki, Prezident seçkiləri keçirilməlidir.

Onu da deməliyik ki, yerlərdə olarkən məlum oldu ki, etimadsızlıqdan da çox, bəlkə də, xalq məntəqələrə Heydər Əliyevə görə gəlirdi. Mənim də təklifim ondan ibarətdir ki, oktyabrın 3-də Prezident seçkilər, keçirilsin. Bu qədər.

**Sədrlik edən.** Sağ olun. Mürvət Əliyev.

**Mürvət Əliyev.** Prezident seçkilərinin keçirilməsi haqqında təklifin gündəliyə salınmasını mən irəli sürmüşdüm. Deputat yoldaşlar, hamısı bu təklifi müdafiə elədilər. İkinci bir təklif yoxdur. Ona görə də xahiş edirəm ki, bu məsələni səsə qoyasınız.

**Sədrlik edən.** Qüdrət Quliyev.

**Qüdrət Quliyev.** Hörmətli Heydər bəy, hörmətli millət vəkilləri. Mən deyilən təkliflərin hamısı ilə razıyam. Amma bir fikrimi qeyd etmək istəyirəm. Bundan öncə çıxışımda da dedim. Referendum onu sübut etdi ki, Azərbaycan xalqı həmin referenduma bir o qədər Elçibəyə etimadsızlıq göstərmək üçün deyil, məhz Heydər Əliyevə etimad göstərmək üçün çıxmışdı. Sanki bu, Prezident seçkiləri idi və xalq öz ağsaqqalının timsalında gələcək dövlət başçısını görmək istəyirdi. Odur ki, bu nöqteyi-nəzərdən mən təklif edərdim ki, müvafiq qərar qəbul edildikdən sonra Milli Məclis xalqın rəyini nəzərə alsın. İlk namizədi biz bu gün bu Məclisin iclasında irəli sürək və həmin namizədimiz Prezident səlahiyyətlərini icra edən Ali Sovetin sədri Heydər Əliyev olsun.

**Sədrlik edən.** Mirhəmzə Əfəndiyev.

**Mirhəmzə Əfəndiyev.** Mən də məndən əvvəl çıxış edən deputatların fikri ilə tam şərikəm və elə hesab edirəm ki, respublikanın düşdüyü bu ağır vəziyyətdə, hakimiyyət böhranında mütləq biz Prezident seçkilərinə getməliyik. Tezliklə – oktyabrın 3-dən gec olmayaraq Prezident seçkilərinə gedək. Xahiş edirəm, deyəsən, müzakirələr kəsilmişdir, mənim təklifim səsə qoyulsun.

**Sədrlik edən.** Prezident seçkiləri ilə əlaqədar başqa təklifi olan varmı? Yoxdur. Onda, yəqin ki, bizdə müəyyən qərar layihəsi hazırlanıb, buyurun.

**Afiyəddin Cəlilov.** Hörmətli sədr, hörmətli millət vəkilləri. Milli Məclisin tapşırığı ilə müvafiq qərar layihəsi hazırlanıb. İcazənizlə onu sizə təqdim edək. Azərbaycan Respublikası Prezidentinin növbədənkənar seçkilərinin keçirilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarı. Layihə.

Ermənistan Respublikasının beş ildən bəri davam edən açıq hərbi təcavüzünün güclənməsi, Azərbaycan Prezidenti Əbülfəz Elçibəy başda olmaqla Azərbaycan Xalq Cəbhəsinin hakimiyyətə gəldiyi bir il ərzində yol verdiyi böyük nöqsanlar, bacarıqsız siyasi və hərbi rəhbərliyi, fərsiz milli siyasəti cəbhələrdə uğursuzluqlara, çoxlu insan tələfatına, Azərbaycan Respublikası ərazisinin xeyli hissəsinin itirilməsinə səbəb olmuş, yüz minlərcə vətəndaşı öz torpağında qaçqına çevrilmiş, respublikanın həyatının bütün sahələrində ağır böhranı daha da dərinləşdirmiş, cəmiyyətin və ordunun parçalanmasına, qanunsuz silahlı dəstələrə arxalanan cürbəcür separatçı hərəkatların baş qaldırmasına gətirib çıxarmış, nəticə etibarilə xalqı olmazın müsibətlərə düçar etmişdir.

Düşünülmüş iqtisadi və sosial siyasətin olmaması, Azərbaycanın milli sərvətlərinin və təbii ehtiyatlarının vəhşicəsinə talanması, siyasi ambisiyalar ucbatından milli mənafelərə zidd olaraq mövcud iqtisadi əlaqələrin kəsilməsi ilə birlikdə kadr siyasətindəki böyük səhvlər Azərbaycanın iqtisadi potensialının dağılmasına, respublikada iqtisadiyyatın bütün sahələrinin tənəzzülünə, xalqın müflisləşməsinə gətirib çıxarmışdır.

Xarici düşməni dəf etmək üçün xalqın sıx birləşməsinin tələb olunduğu bir şəraitdə Azərbaycan Prezidenti Əbülfəz Elçibəyin və onun ətrafında olan şəxslərin boş vədləri, milli həmrəylik çağırışları ilə xalqa zidd əməli fəaliyyəti arasındakı uçurum mənəvi dəyərlərin itirilməsinə, milli birlik ideallarının puç olmasına, vətənin və xalqın taleyinə etinasızlıq şəraitinin yaranmasına səbəb olmuşdur.

Xalqın etimadını itirmiş rejimi qoruyub saxlamaq məqsədilə Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına zidd olaraq 1993-cü il iyunun 4-də Gəncədə öz vətəndaşlarına qarşı silahlı qüvvələrin tətbiq edilməsi barədə qəbul edilmiş qərar belə siyasətin məntiqi nəticəsi olmuşdur. Gəncə şəhərində baş vermiş qanlı hadisələri təhqiq

etmək üçün Azərbaycan Respublikası Milli Məclisinin yaratdığı deputat-istintaq komissiyası belə bir qənaətə gəlmişdir ki, yaranmış vəziyyətə görə məsuliyyət ən əvvəl Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəyin üzərinə düşür. “1993-cü il iyunun 4-də Gəncə şəhərində baş vermiş hadisələri təhqiq edən deputat-istintaq komissiyasının yekunu barədə” Azərbaycan Respublikası Milli Məclisinin 1993-cü il 16 iyul tarixli qərarında Gəncə şəhərində baş vermiş qanlı hadisələr Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəyin və digər yüksək vəzifəli şəxslərin əvvəlcədən xüsusi düşünülmüş və planlaşdırılmış siyasətinin nəticəsi hesab edilmiş, onlar tərəfindən Azərbaycan Respublikasının Konstitusiyasının və qanunlarının kobudcasına pozulması kimi qiymətləndirilmişdir.

Respublikanı idarə etmək imkanını tamamilə itirən Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəy 1993-cü il iyunun 17-dən 18-nə keçən gecə qəflətən, dövlət orqanlarının rəhbərlərinə xəbər vermədən Bakı şəhərini tərk edib Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunun Kələki kəndinə getmişdir. Beləliklə, Bakı şəhəri...

**Yerdən.** *(Eşidilmir.)*

**Afiyəddin Cəlilov.** Mən, birinci növbədə, sizi intizama dəvət etmək istəyirəm. Fikrinizi sonra deyərsiniz.

Beləliklə, Bakı şəhərindən kənarda olan və dövlət orqanları ilə əlaqəsini itirən Prezident Əbülfəz Elçibəy, əslində, öz Konstitusiya vəzifələrini daha yerinə yetirməyə qadir olmamışdır. Bununla əlaqədar Azərbaycan Respublikasının Milli Məclisi 1993-cü il iyunun 24-də “Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Qədirqulu oğlu Əliyevin (Elçibəyin) Azərbaycan Respublikasının Prezidenti vəzifələrini daha icra edə bilməməsi və Azərbaycan Respublikası Prezidentinin səlahiyyətinin Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əlirza oğlu Əliyevə keçməsi haqqında” qərar qəbul etmişdir.

1993-cü il iyulun 29-da Azərbaycan Respublikasının Milli Məclisi demokratiya, xalq hakimiyyəti, xalq iradəsinin aliliyi prinsiplərini əsas tutaraq, Azərbaycan Respublıkasının Prezidenti Əbülfəz Elçibəyə etimad göstərilməsi haqqında 1993-cü il avqustun 29-da ümumxalq səsverməsi (referendum) keçirmək barədə qərar qəbul etmişdir. 1993-cü il avqustun 29-da səsvermədə seçicilərin 92,02 faizi iştirak etmiş, onların 2,1 faizi Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəyə etimad göstərilməsinin lehinə, 97,5 faizi isə onun əleyhinə səs

vermişdir. Xalqın ali iradəsinin təzahürü olan ümumxalq referendumu göstərmişdir ki, Azərbaycan Respublikası xalqının böyük əksəriyyəti Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəyə və onun yeritdiyi siyasətə etimad göstərməkdən imtina etmişdir. Bununla da "Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Qədirqulu oğlu Əliyevin (Elçibəyin) Azərbaycan Respublikasının Prezidenti vəzifəsini daha icra edə bilməməsi və Azərbaycan Respublikasının Prezidenti səlahiyyətinin Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əlirza oğlu Əliyevə keçməsi haqqında" Azərbaycan Respublikası Milli Məclisinin 1993-cü il iyunun 24-də qəbul etdiyi qərarın əsaslı olduğu bir daha təsdiq edilmişdir.

Bütün bunlar Azərbaycan Respublikasında yaranmış son dərəcə ağır hərbi, ictimai-siyasi və sosial-iqtisadi vəziyyəti aradan qaldırmağı, dövlətçiliyi, hüquq və qanunçuluğu möhkəmləndirməyi, Azərbaycan xalqının mütləq çoxluğunun müdafiə edəcəyi legitim hakimiyyəti formalaşdırmağı, mərkəzi respublika, yerli hakimiyyət və idarəetmə orqanlarının dəqiq və ahəngdar fəaliyyətini təmin etməyi, ölkə iqtisadiyyatını böhran vəziyyətindən çıxarmağı, bundan ötrü təxirəsalınmaz tədbirlər görməyi tələb edir.

Yaranmış vəziyyətdə Azərbaycan Respublikasının dövlətçiliyini möhkəmləndirmək, respublikanın ərazi bütövlüyünü qorumaq, milli mənafelərin müdafiəsi naminə xalqın birliyini təmin etmək məqsədilə Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

1. Azərbaycan Respublikası Konstitusiyasının 121-7-ci maddəsinə və "Azərbaycan Respublikası Prezidenti seçkiləri haqqında" Azərbaycan Respublikası Qanununun 6-cı maddəsinə uyğun olaraq Azərbaycan Respublikası Prezidenti seçkiləri 1993-cü il oktyabrın 3-nə – bazar gününə təyin edilsin.

2. Müəyyən edilsin ki, Azərbaycan Respublikası Prezidenti seçkiləri üzrə Mərkəzi Seçki Komissiyasının səlahiyyətlərini XII çağırış Azərbaycan Respublikası xalq deputatları seçkiləri üzrə Mərkəzi Seçki Komissiyası həyata keçirir.

3. Azərbaycan Respublikası xalq deputatları seçkiləri üzrə Mərkəzi Seçki Komissiyasına tapşırılsın ki, Azərbaycan Respublikası Prezidenti seçkilərinin təşkil edilməsi və keçirilməsi üçün respublika ərazisində rayonların, rayon bölgüsü olmayan respublika tabeli şəhərlərin, şəhərlərdə rayonların sərhədləri çərçivəsində seçki dairələri yaratsın.

Yevlax, Lənkəran, Şəki və Şuşa şəhərlərində və rayonlarda Prezident seçkiləri keçirilməsi üçün iki dairə (şəhər və rayon dairələri) əvəzinə bir dairə – Yevlax, Lənkəran, Şəki və Şuşa dairələri yaradılır.

4. Müəyyən edilsin ki, Azərbaycan Respublikası Prezidenti seçkiləri üzrə dairə seçki komissiyalarının səlahiyyətlərini Azərbaycan Respublikası xalq deputatları sovetləri deputatlarının seçkiləri üzrə son seçkilər dövründə yaradılmış rayon və şəhər (Bakı və Gəncə şəhərlərindən başqa respublika tabeli şəhərlər) seçki komissiyaları həyata keçirirlər.

Yevlax, Lənkəran və Şəki şəhərlərində dairə komissiyalarının səlahiyyətlərini sonuncu çağırış yerli xalq deputatları sovetləri deputatlarının seçkiləri üzrə Yevlax, Lənkəran və Şəki şəhərlərinin və rayonlarının birləşmiş şəhər və rayon seçki komissiyaları yerinə yetirirlər.

5. Naxçıvan Muxtar Respublikası Ali Məclisi, rayon və şəhər xalq deputatları sovetləri seçki məntəqələrinin təşkil olunmasını və Azərbaycan Respublikası Prezidenti seçkiləri üzrə məntəqə seçki komissiyalarının yaradılmasını təmin etsinlər.

6. Azərbaycan Respublikası vətəndaşlarının və Azərbaycan Respublikası qanunvericiliyinə müvafiq surətdə qeydə alınmış siyasi partiyaların seçki komissiyalarının tərkibində real təmsil olunmaları üçün lazım gələrsə, mərkəzi və dairə seçki komissiyalarının tərkibində dəyişikliklər edilməsi məqsədəuyğun sayılsın.

7. Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının rayon və şəhər xalq deputatları sovetləri və onların rəyasət heyətləri "Azərbaycan Respublikası Prezidenti seçkiləri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq səsvermə məntəqələrinin ən geci 1993-cü il sentyabrın 7-dək, məntəqə seçki komissiyalarının ən geci 1993-cü il sentyabrın 13-dək təşkilini təmin etsinlər.

Bakı və Gəncə şəhərlərindəki xalq deputatları sovetlərinin səlahiyyətlərinə xitam verilmiş rayonlarda Azərbaycan Respublikası Prezidenti seçkiləri üzrə səsvermə məntəqələrini və məntəqə seçki komissiyalarını rayonların icra hakimiyyəti başçıları Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə uyğun surətdə təşkil edirlər.

8. Azərbaycan Respublikasının qoşun hissələrində bir qayda olaraq səsvermə məntəqələri yaradılmır.

Respublika Silahlı Qüvvələrində xidmət edən Azərbaycan Respublikası vətəndaşları özlərinin Prezident seçkilərində iştirak etmək hüququnu hərbi hissələrin olduqları şəhərlərin və rayonların ərazisindəki

səsvermə məntəqələrində həyata keçirirlər. Dairə və məntəqə seçki komissiyaları həmin şəxslərin siyahılarını qoşun hissələrinin komandanlığı ilə birlikdə müəyyənləşdirməli və onların Prezident seçkilərində iştirak etməsini təmin etməlidirlər.

9. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Azərbaycan Respublikasının hüdudlarından kənarda yaşayan Azərbaycan Respublikası vətəndaşlarının Azərbaycan Respublikası Prezidentinin seçkilərində iştirakını təmin etməkdən ötrü Azərbaycan Respublikasının xaricdəki səfirliklərində və səlahiyyətli nümayəndəliklərində səsvermə məntəqələrinin və məntəqə seçki komissiyalarının vaxtında təşkili məsələlərini Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası ilə birlikdə həll etsinlər.

10. Respublikanın şəhər, rayon xalq deputatları sovetləri, onların rəyasət heyətləri, rayon və şəhər icra hakimiyyəti başçıları respublikanın səsvermə hüququ olan vətəndaşlarının – hələ mənzil qeydiyyatı olmayan qaçqınların və məcburi köçkünlərin Prezident seçkilərində iştirakını təşkil etsinlər. Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi və Qaçqınlar Cəmiyyəti mənzil qeydiyyatı olmayan qaçqınların və məcburi köçkünlərin siyahılarının 10 gün müddətində müəyyənləşdirilməsi üçün dairə seçki komissiyalarına əməli köməklik göstərsinlər.

11. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Prezident seçkilərinin gedişini və ona yekun vurulmasını müşahidə etmək üçün xarici dövlətlərin parlamentlərinə, hökumətlərinə, ictimaiyyətinə və beynəlxalq təşkilatlara müraciət edib onların nümayəndələrini respublikaya dəvət etsinlər.

12. Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikası Prezidenti seçkilərinin maddi, maliyyə təminatı, nəqliyyat və rabitə müəssisələri və təşkilatları tərəfindən seçki komissiyalarına xidmət göstərilməsi məsələlərini həll etsin.

**Sədrlik edən.** Qərar əsasən qəbul oluna bilərmi? Onda rica edirəm, əgər əsasən qəbul oluna bilərsə, xahiş edirəm, münasibət bildirilsin.

***(Səsvermə)***

Əsasən qəbul olundu. İndi kimin əlavəsi, düzəlişi, qeydi var?

Tofiq Qasımov.

**Tofiq Qasımov.** Sadəcə olaraq, mən istəyirdim qeyd eləyəm ki, burada qərar hissəsinin saxlanılması tamamilə kifayətdir. O preambula

hissəsi, demək olar ki, “Tarixi Nadir” yazılıb. Mənə elə gəlir ki, onun olmağı lazım deyil. Ona görə ki, qərarda göstərilən maddələrin heç birinə hüquqi baxımdan heç bir şey vermir. Xüsusilə də qərar elə şəkildə yazılıb ki, oradan görünür qərarın nəticəsi referendumun nəticəsinin əsasında yazılmayıb, 121-7 maddəsi əsasında yazılıb. Bu da onu göstərir ki, elə mən bayaq dediyim məsələ də, doğrudan, həmin şəkildəymiş. Hüquqşünaslar onu nəzərə alar. Sağ olun.

**Afiyəddin Cəlilov.** Tofiq bəy, Siz və digər millət vəkilləri gündəliyə bu məsələnin düşməsini bu səpkidə təqdim etdiniz. Azərbaycan Respublikası Prezidentinin növbədənkənar seçkilərinin keçirilməsi haqqında və dediyiniz preambula da dediyiniz növbədənkənarlığı əsaslandırır. Biz belə hesab edirik ki, Milli Məclis təqdim olunmuş bu layihəni müdafiə etsin. Sağ olun.

**Sədrlik edən.** Kamran Rəhimov, buyurun.

**Kamran Rəhimov.** Mənə elə gəlir ki, mütləq bu qərar əsaslandırılmalıdır, giriş hissəsində olduğu kimi onlar deyilməlidir. Çünki bu, əsaslandırılmasa, referenduma əsaslanmasa, əlbəttə, nəyə görə biz qərara gəlirik, onda o öz əsasını tapa bilməz. Ancaq orada bir söz işləndi ki, Prezident Elçibəy bundan sonra öz vəzifəsini icra edə bilməz. O özünü heç Prezident də adlandıra bilməz, nəinki icra edə bilməz. O sözlər oradan çıxarılsın. Lazım deyil. O daha Prezident deyil.

**Sədrlik edən.** Bəli, bu, tamamilə düzdür. Çünki artıq referendumdan sonra bu təklif nəzərə alınsın. İnqilab Nadirov.

**İnqilab Nadirov.** Mənə elə gəlir ki, orada qərar layihəsində verilən preambula düzgündür. Hələ, bəlkə də, bir az genişləndirilməlidir, bəlkə də, az yazılıb. Orada fikir irəli sürülür ki, “Prezident”, o sözün yerinə “keçmiş Prezident” sözü yazılmalıdır. Artıq o bizim üçün keçmiş Prezidentdir, bu gün Prezident deyil. Ona görə də onun adını yazmalıyıq, “keçmiş Prezident”.

Üçüncüsü də mən təklif edirəm ki, bu, əlavələrlə birlikdə səsə qoyulub qəbul edilməlidir. Sağ olun.

**Sədrlik edən.** Cəfər Vəliyev.

**Cəfər Vəliyev.** Dairələr və məntəqələr haqqında bəzi qeydlərim var. Mən sabah rəsmi təqdim eləyərəm.

**Sədrlik edən.** Yaxşı. Oradan kimsə söz istəyir. Buyurun.

**Əli Əliyev.** Tofiq Qasımovun yenə hüquqi məsələlərə dair verdiyi rəy Milli Məclisin bugünkü qərar layihəsində öz əksini tapıb. Bu Prezi-

dent seçkilərini biz növbədənkənar adlandırsaq, böyük səhvə yol vermiş olarıq. Bu heç də növbədənkənar seçki deyil. Bundan başqa, bəzi deputatlar burada çıxışlarında səsləndirdilər ki, bu, vaxtından qabaq keçiriləcək Prezident seçkiləridir. Məncə, bunu vaxtından qabaq Prezident seçkiləri adlandırmaq olmaz. Bu Prezident seçkiləri vaxtındadır, o nöqteyi-nəzərdən ki, Prezident Əbülfəz Əliyevin öz daimi iş yerindən qaçması iyun ayının 17-dən 18-nə keçən gecə olmuş və bu fakt Milli Məclisin 24 iyun 1993-cü il tarixli qərarı ilə təsbit edilmişdir. Əgər həmin dövrdən biz hesab eləsək ki, Prezident öz səlahiyyətlərini həyata keçirə bilmir, yəni Konstitusiyaya görə, o öz səlahiyyətlərini həyata keçirə bilmədiyi halda 3 ay müddətində Prezident seçkiləri keçirilməlidir. Həmin vaxt iyunun 24-dən hesablandıqda bu müddət – 3 ay müddəti sentyabrın 24-də tamam olur. Oktyabrın 3-nə təyin olunmuş Prezident seçkiləri nə vaxtından qabaq, nə də növbədənkənar adlandırıla bilməz, yeni Prezident seçkiləri kimi qiymətləndirilməlidir.

**Sədrlik edən.** Etibar Məmədov, buyurun.

**Etibar Məmmədov.** Deməli, "Azərbaycan Respublikası Prezidenti seçkiləri haqqında" Qanuna görə, seçki 3 ay ərzində keçirilməlidir. Əgər o, bir aydan sonraya təyin olunubsa, mənim fikrimcə, qanunda nə isə dəyişiklik olunmalıdır. Fövqəladə vəziyyəti Azərbaycanın bugünkü vəziyyəti ilə izah eləyib əsaslandırmaq olar. Ancaq qanunda, mənim fikrimcə, dəyişiklik eləməmiş bunu etmək olmaz. Əgər hüquqşünaslar əsaslandırırlarsa, təklif verilməlidir ki, qanunda dəyişiklik olsun. O barədə ayrıca qərar olmalıdır.

**Sədrlik edən.** Bu barədə qərar layihəsi var, indi təqdim olunacaq. Başqa söz deyən yoxdur? Buyurun. Danışmaq istəyən yoxdur.

**Mirağa Cəfərquliyev.** Heydər müəllim, deputat Əliyev orada bir söz işlətdi ki, bunu növbədənkənar saymaq olmaz, elə növbəti seçkidir. Mən isə hesab edirəm ki, qərar layihəsini Afiyəddin müəllim oxudu, o qərar layihəsində düz yazılıb, hüquqi cəhətdən də düzdür, növbədənkənardır. Ona görə ki bizim qanunda yazılıb ki, Prezident hər 5 ildən bir seçilə bilər. Əgər o öz səlahiyyətlərini düzgün yerinə yetirsəydi, 5 il keçsəydi, bu, növbəti seçki olardı. Ona görə layihədə dəyişiklik etmək lazım deyil.

**Sədrlik edən.** Yaxşı, aydındır. Güman edirəm ki, biz bu əlavələrlə, qeydlərlə qanun layihəsini bütövlükdə səsə qoya bilərik. Nəzərə alarıq ki, bu qeydlər, əlavələr burada öz əksini tapacaq. Etiraz etmirsiniz? Ona görə, xahiş edirəm, Məclis üzvləri münasibət bildirsinlər. Buyurun.

*(Səsvermə)*

Ümumən qəbul olundu.

Növbəti məsələ. Konstitusiyada və "Azərbaycan Respublikası Prezidenti seçkiləri haqqında" Qanunda dəyişiklik edilməsi məsələsidir. Layihə varmı? Buyurun.

**Afiyəddin Cəlilov.** "Azərbaycan Respublikası Prezidenti seçkiləri haqqında" Azərbaycan Respublikası Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə Azərbaycan Respublikasının Qanunu. Layihə.

Hörmətli millət vəkili Etibar Məmmədovun irəli sürdüyü məsələ ilə əlaqədar olaraq biz əvvəl bu dəyişiklikləri etmək üçün Azərbaycan Respublikası Konstitusiyasına (Əsas Qanununa) dəyişiklik edilməsi haqqında layihəni sizə təqdim edirik. Belə bir kiçik layihə təqdim olunur.

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır: 1978-ci il aprelin 21-də...

**Sədrlik edən.** Axı biz Prezident seçkiləri haqqında qərar qəbul etdik. Prezident seçkiləri haqqında qanuna dəyişikliklər etmək lazımdır. Ona görə istərdim, bu məsələni təqdim edəsiniz.

**Afiyəddin Cəlilov.** İzn verin, ardıcıllıqla təqdim eləyim.

"Azərbaycan Respublikası Prezidenti seçkiləri haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə Azərbaycan Respublikasının Qanunu. Layihə.

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

1. "Azərbaycan Respublikası Prezidenti seçkiləri haqqında" 1991-ci il iyunun 26-da qəbul edilmiş Azərbaycan Respublikası Qanununa aşağıdakı dəyişikliklər və əlavələr edilsin:

1. 1-ci maddənin beşinci hissəsi aşağıdakı redaksiyada verilsin: "Azərbaycan Respublikasının yeni Prezidentinin növbəti seçkiləri vəzifədə olan Prezidentin səlahiyyətinin qurtarması vaxtına 90 gün qalmış təyin edilir. Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikasının Konstitusiyasını və Azərbaycan Respublikasının qanunlarını pozduğu halda, Azərbaycan Respublikası Ali Soveti tərəfindən vəzifədən götürüldükdə və ya Azərbaycan Respublikası Prezidenti bu və ya başqa səbəblərə görə öz vəzifələrini daha icra edə bilmədikdə onun səlahiyyəti Azərbaycan Respublikası Ali Sovetinin sədrinə keçdikdə Azərbaycan Respublikasının yeni Prezidentinin növbədənkənar seçkiləri keçirilir. Bu halda Azərbaycan Respublikası Prezidentinin seçkisi Azərbaycan

Respublikası Ali Sovetinin növbədənkənar Prezident seçkisi haqqında qərarının qəbul edildiyi gündən sonra bir ay müddətində keçirilir".

2. 4-cü maddənin altıncı hissəsində "siyasi birliklərin" sözləri "siyasi partiyaların" sözləri ilə əvəz edilsin.

3. 5-ci maddənin üçüncü hissəsində "SSRİ-nin və Azərbaycan Respublikasının dövlət büdcələrinin" sözləri "Azərbaycan Respublikasının dövlət büdcəsinin" sözləri ilə əvəz edilsin.

4. 6-cı maddənin ikinci hissəsində "Azərbaycan Respublikası Ali Sovetinin Rəyasət Heyəti" sözləri "Azərbaycan Respublikasının Ali Soveti" sözləri ilə əvəz edilsin.

5. 7-ci maddənin birinci, ikinci, üçüncü, dördüncü və beşinci hissələri aşağıdakı redaksiyada verilsin:

"Azərbaycan Respublikası Prezidentliyinə namizədlər göstərmək təşəbbüsü ilə öz namizədliyini irəli sürmək istəyən Azərbaycan Respublikasının tam fəaliyyət qabiliyyəti olan vətəndaşı, Azərbaycan Respublikasının tam fəaliyyət qabiliyyəti olan ayrı-ayrı vətəndaşları, habelə Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq surətdə qeydə alınmış siyasi partiyalar çıxış edə bilər.

Azərbaycan Respublikası Prezidentliyinə öz namizədliyini irəli sürmək istəyən Azərbaycan Respublikasının tam fəaliyyət qabiliyyəti olan vətəndaşı, Azərbaycan Respublikasının tam fəaliyyət qabiliyyəti olan ayrı-ayrı vətəndaşları, habelə Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq surətdə qeydə alınmış siyasi partiyalar "Azərbaycan Respublikası xalq deputatları seçkiləri haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə müvafiq qaydada Azərbaycan Respublikası Prezidentliyinə bilavasitə namizədlər göstərmək hüququna malikdirlər. Bu şərtlə ki, göstərilən namizəd Azərbaycan Respublikası seçki hüququna malik olan azı 20 min vətəndaş tərəfindən müdafiə edilsin. Göstərilən namizədi müdafiə üçün vətəndaşların imzaları Azərbaycan Respublikası Prezidenti seçkiləri üzrə Mərkəzi Seçki Komissiyasının müəyyən etdiyi müddətdə "Azərbaycan Respublikasının ümumxalq səsverməsi (referendumu) haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq surətdə toplanır.

Namizədlər siyasi partiyalar tərəfindən irəli sürüldükdə, həmin siyasi partiyaların qurultaylarında, konfranslarında, yaxud onların respublika orqanlarının plenumlarında onların Nizamnamələrinə və Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə müvafiq surətdə irəli sürülür.

Azərbaycan Respublikası Prezidentliyinə namizədlər göstərmək hüququna malik olan Azərbaycan Respublikasının tam fəaliyyət qabiliyyəti olan hər bir vətəndaşı, habelə hər bir siyasi partiya Azərbaycan Respublikası Prezidentliyinə bir namizəd göstərə bilər. Azərbaycan Respublikası Prezidentliyinə namizədlərin bu qayda pozulmaqla göstərilməsi etibarsız hesab edilir.

Azərbaycan Respublikası Prezidentinin növbəti seçkisi keçirildikdə Azərbaycan Respublikası Prezidentliyinə namizədlərin göstərilməsi seçkilərə 60 gün qalmış başlanır və 45 gün qalmış başa çatır. Azərbaycan Respublikası Prezidentinin növbədənkənar seçkisi keçirildikdə isə Azərbaycan Respublikası Prezidentliyinə namizədlərin göstərilməsi seçkilərə 25 gün qalmış başlanır və 15 gün qalmış başa çatır".

6. 8-ci maddənin birinci hissəsi aşağıdakı redaksiyada verilsin:

"Azərbaycan Respublikası Prezidentinin növbəti seçkiləri keçirildikdə Azərbaycan Respublikası Prezidentliyinə namizəd göstərilənləri Azərbaycan Respublikası Prezidenti seçkiləri üzrə Mərkəzi Seçki Komissiyası namizəd göstərilməsi haqqında sənədlərin və səsə qoyulmağa onun yazılı razılığı daxil olduğu andan etibarən 5 gün ərzində, lakin Azərbaycan Respublikası Prezidenti seçkilərinə ən geci 40 gün qalmış qeydə alınır. Azərbaycan Respublikası Prezidentinin növbədənkənar seçkisi keçirildikdə isə namizəd göstərilməsi haqqında sənədlərin və səsə qoyulmağa namizədin razılığının daxil olduğu andan etibarən 3 gün ərzində, lakin seçkilərə ən geci 12 gün qalmış qeydə alınır".

8-ci maddənin ikinci hissəsinin birinci abzası aşağıdakı redaksiyada verilsin:

"Azərbaycan Respublikası Prezidentliyinə öz namizədliyini irəli sürmüş Azərbaycan Respublikasının tam fəaliyyət qabiliyyəti olan vətəndaşının ərizəsi, yaxud Azərbaycan Respublikasının tam fəaliyyət qabiliyyəti olan ayrı-ayrı vətəndaşlarının müraciəti, yaxud siyasi partiyanın qurultayının, konfransının və ya onun respublika orqanının plenumunun iclasının "Azərbaycan Respublikasının xalq deputatları seçkiləri haqqında" Azərbaycan Respublikası Qanununun və "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə müvafiq surətdə rəsmiləşdirilmiş protokolu".

8-ci maddənin beşinci hissəsi aşağıdakı redaksiyada verilsin:

"Azərbaycan Respublikası Prezidentliyinə namizədi qeydə almaqdan Mərkəzi Seçki Komissiyasının imtina etməsindən Azərbaycan Respubli-

kası Prezidentliyinə öz namizədliyini irəli sürmüş Azərbaycan Respublikasının tam fəaliyyət qabiliyyəti olan vətəndaşı, Azərbaycan Respublikası Prezidentliyinə namizəd irəli sürmüş Azərbaycan Respublikasının tam fəaliyyət qabiliyyəti olan ayrı-ayrı vətəndaşları və siyasi partiyalar Azərbaycan Respublikasının Ali Məhkəməsinə şikayət verə bilərlər. Azərbaycan Respublikasının Ali Məhkəməsi şikayətə 7 gün müddətində baxır və onun qərarı qəti olur".

7. 11-ci maddənin adında və birinci hissəsində "Azərbaycan Respublikası Prezidenti" sözləri "Azərbaycan Respublikası Prezidentinin növbəti" sözləri ilə əvəz olunsun.

8. Qanuna aşağıdakı məzmunda 11-1-ci maddə əlavə edilsin:

"Maddə 11-1. Azərbaycan Respublikası Prezidentinin növbədənkənar seçkilərinin təşkili.

Azərbaycan Respublikası Prezidentinin növbədənkənar seçkisi Azərbaycan Respublikasının Prezidentinin seçkiləri üzrə Mərkəzi Seçki Komissiyası tərəfindən rayonların, şəhərlərdə rayonların və rayon bölgüsü olmayan şəhərlərin sərhədləri daxilində təşkil edilən seçki dairələri üzrə keçirilir.

Azərbaycan Respublikası Prezidentinin növbədənkənar seçkisi keçirildiyi halda, aşağıda göstərilən müddətlərdə və "Azərbaycan Respublikası xalq deputatları seçkiləri haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq olaraq:

– seçki məntəqələri seçkiyə ən geci 25 gün qalmış təşkil edilir;
– Mərkəzi Seçki Komissiyası seçkiyə ən geci 28 gün qalmış yaradılır;
– dairə seçki komissiyaları seçkiyə ən geci 25 gün qalmış təşkil edilir;
– məntəqə seçki komissiyaları seçkiyə ən geci 20 gün qalmış təşkil edilir;
– seçici siyahıları hamının tanış olması üçün seçkiyə 5 gün qalmış təqdim edilir".

9. 18-ci maddə aşağıdakı redaksiyada verilsin:

"Maddə 18. Seçkilərdə qalib gəlmiş Azərbaycan Respublikası Prezidentliyinə namizədin Azərbaycan Respublikası Prezidenti vəzifəsinə başlaması.

Seçkilərdə qalib gəlmiş Azərbaycan Respublikası Prezidentliyinə namizəd Azərbaycan Respublikası Prezidenti seçkiləri üzrə Mərkəzi Seçki Komissiyası tərəfindən seçkilərin nəticələrinin rəsmən elan olundu-

ğu gündən Azərbaycan Respublikası Prezidenti seçilmiş hesab edilir və Azərbaycan Respublikası Ali Sovetinin iclasında and içəndən sonra Azərbaycan Respublikası Prezidenti vəzifəsinə başlayır.

II. Bu qanun imzalandığı gündən qüvvəyə minir.

**Sədrlik edən.** Layihə əsasən qəbul oluna bilərmi? Xahiş edirəm, münasibət bildirəsiniz.

**Səsvermənin nəticələri**

| | |
|---|---|
| ***Lehinə*** | ***40*** |
| ***Əleyhinə*** | ***2*** |
| ***Bitərəf*** | ***0*** |
| ***Səs vermədi*** | ***2*** |

Qəbul edildi. Lehinə 40, əleyhinə 2, bitərəf yoxdur, səs verməyib 2.

İndi qəbul olunmuş qərara kimin əlavələri, qeydləri var? Tofiq Qasımov, buyurun.

**Tofiq Qasımov.** Dəyişikliklər çox olduğuna görə bu qeydlər yaxşı olardı yazılı şəkildə veriləydi. Birinci, mənim qeydim ondan ibarətdir ki, mütləq əvvəl Konstitusiyada dəyişiklik edilməli idi, sonra seçki qanununda. Çünki misal üçün, yaş senzinin götürülməsi əvvəl Konstitusiyada dəyişilməlidir.

**Sədrlik edən.** Tofiq müəllim, axı yaş senzinin götürülməsi, rus demişkən, "частный вопрос". Biz növbədənkənar Prezident seçkiləri haqqında qərar qəbul eləyirik və onunla əlaqədar seçkilər haqqında qanuna dəyişikliklər edirik. Ona görə də...

**Tofiq Qasımov.** Onun içərisində o məsələ var axı. Çünki orada yazılıb ki, yaş göstərilmədən fəaliyyət qabiliyyəti olan Azərbaycan Respublikası vətəndaşı. Yəni artıq o norma dəyişdi. Dəyişdisə, Konstitusiyada uyğun dəyişiklik eləmək lazımdır.

**Sədrlik edən.** Mən bilmirəm bunun fərqi nədir. Əgər mənim fikrimi bilmək istəyirsinizsə, mən istəmirəm yaş senzi məsələsi bundan qabağa düşsün.

**Tofiq Qasımov.** Mən başa düşürəm, amma məsələ ondadır ki...

**Sədrlik edən.** Ola bilər ki, yaş senzi qalsın. Bizim birinci qərarımız oldu ki, bir ay müddətində növbədənkənar Prezident seçkiləri keçirilsin, ikinci də, onun üçün qanunda dəyişikliklər olsun. Bəlkə də heç yaş senzini götürmək lazım deyil.

**Tofiq Qasımov.** Yox, axı seçki qanununda da həmin yaşın – yuxarı-aşağı hədd vardı. Onu oradan götürdüksə, o deməkdir ki, biz artıq onu dəyişdirdik. Konstitusiya da daha yüksək norma olduğuna görə əvvəl Konstitusiyada dəyişməlidir, sonra seçki qanununda. Mən deyirdim ki, Konstitusiyada olan uyğun maddəni də dəyişək. Ayrı bir şey demirəm. Bu, bir. İkincisi də, Konstitusiyanın 121-7 maddəsində deyilir ki, 3 aya qədər Prezident seçkiləri keçirmək. Seçki 3 ay müddətində keçirilməlidir. Bu o demək deyil ki, 3 aydan qısa müddətdə keçmək olmaz, yəni 3 aydan o yana keçmək olmaz, 4 aya keçirmək olmaz. Söhbət ondan gedir. Ona görə də onu 1 ay eləyib dəyişmək lazım deyil. O, əvvəlki kimi qalsın.

**Sədrlik edən.** Tofiq bəyin bu fikri dəyərli fikirdir. Ona görə bunu nəzərə almaq lazımdır. Arif Rəhimzadə.

**Arif Rəhimzadə.** Mən istəyirəm, bir balaca arayış verim. Orada “əmək qabiliyyətli” yazılmır, yazılır “fəaliyyət qabiliyyətli”. Bu, yaşla əlaqədar deyil. Bu o deməkdir ki, tutaq ki, bu, ruhi xəstədir, o adam seçkidə iştirak eləyə bilməz. Burada yaş məsələləri nəzərdə tutulmur. Odur ki bu məsələyə Heydər müəllim, Siz dediyiniz ardıcıllıqda baxılmalıdır.

O ki qaldı 3 aydan çox olmamaq, axı orada yazılıb. 45 gün qalmış namizədlərin, sonra 15 gün ərzində o namizədlər irəli sürülür və istər-istəməz orada iki ay söhbəti var. Madam ki biz bunu bir ay deyirik, demək, bu hamısı yenidən baxılmalıdır.

**Sədrlik edən.** 1 ay olanda namizədin irəli sürülməsi, onun qeydə alınması və digər başqa mərhələlər 1 ay içərisində olur, 3 ay olanda 3 ay içində uzanır. Ona görə də bu dəyişikliklər olmalıdır ki, seçkinin 1 ayda keçirilməsi üçün bu müddətlər qısalsın. Ona görə də bu olmalıdır. Bu, nəzərə alınar. Şaitdin Əliyev, buyurun.

**Şaitdin Əliyev.** Heydər müəllim, verilən qərar layihəsi ilə, qanundakı dəyişikliklərlə tam razıyıq. Lakin orada bir məsələni istərdim ki, əgər lazım bilinərsə, əlavə olunaydı. Orada göstərildi ki, hər kəs özünün şəxsi namizədliyini verə bilər. Əgər hər kəs öz namizədliyini təklif edirsə, burada göstərilir ki, namizədliklərlə əlaqədar çəkilən xərclər ictimai təşkilatlar, yaxud ayrı-ayrı əmək kollektivləri tərəfindən verilir. Əgər şəxs öz namizədliyini irəli sürürsə, yaxşı olar ki, orada bir söz də əlavə olunsun “şəxsin öz hesabına”.

**Sədrlik edən.** Öz hesabına. Hələ ki biz gəlib o səviyyəyə çatmamışıq. Amerikada öz hesabına keçirirlər.

Daha başqa əlavə varmı? Bu əlavələrlə birlikdə bütövlükdə səsə qoyuruq. Xahiş edirəm, münasibətinizi bildirəsiniz.

**Səsvermənin nəticələri**

| | |
|---|---|
| ***Lehinə*** | ***40*** |
| ***Əleyhinə*** | ***2*** |
| ***Bitərəf*** | ***0*** |
| ***Səs vermədi*** | ***2*** |

Qəbul edildi. Lehinə 40 nəfər, əleyhinə 2, bitərəf yoxdur, səs verməyib 2. Qəbul olundu.

Bütün dəyişikliklər sabah redaktə ediləndə nəzərə alınacaq. İndi, nəhayət ki, Konstitusiyada dəyişiklik edilməsi haqqında. Mən başa düşürəm, bu dəyişiklik nədən ibarətdir. Bunu təkid eləyirlər. Bir halda ki təkid eləyirlər, onda mən müzakirəyə verəcəyəm. Baş prokuror Əli Ömərov danışmaq istəyir, buyursun.

**Əli Ömərov,** ***Azərbaycan Respublikasının Baş prokuroru.*** Hörmətli sədr, hörmətli millət vəkilləri. Mən avqustun 30-da Milli Məclisə Azərbaycan Respublikası Konstitusiyasının 110-cu maddəsi əsasında, yəni qanunvericilik təşəbbüsü qaydasında Konstitusiyamızda hökm sürən, bəzi insan hüquqlarını pozan müddəaların dəyişdirilməsi barədə təqdimat vermişəm. Çox təəssüf hissi ilə qeyd eləmək istəyirəm ki, bu gün o məsələləri qaldıran deputat yoldaşların əksəriyyəti o vaxt Konstitusiyamızda antihumanist qərarın qəbul olunmasını bir səslə qəbul elədilər. Mən həqiqəti deyirəm, açıq danışmaq istəyirəm. Çox yaxşı ki, ovaxtkı çıxışların hamısının qeydiyyatı var, 4-5 nəfər, bəlkə də, 10 nəfər deputat həmin qərarın əksinə çıxış elədi. Çünki bu heç kimə sirr deyil ki, o vaxt Konstitusiyada qəbul olunan bu antihumanist müddəa Mütəllibova xoş gəlsin deyə və bu gün xalqımızı fəlakətdən xilas eləməyə yeganə qadir olan Heydər Əliyevin Prezident seçkilərində iştirak etməsinin qarşısına sədd çəkmək məqsədilə edilmişdi.

Ona görə də bu gün mən Milli Məclisə qanunvericilik təşəbbüsü qaydasında Konstitusiyanın 121-2-ci maddəsində və "Azərbaycan Respublikası Prezidenti seçkiləri haqqında" Qanunun dəyişdirilməsi barədə təqdimat yazmışam. Təqdimatı sizin müzakirənizə verirəm və xahiş edirəm, tərəfdar olasınız. Azərbaycan Respublikası Konstitusiyasının 121-2-ci maddəsinə əsasən, Azərbaycan Respublikası Prezidenti vəzifəsinə yaşı 35-dən aşağı, 65-dən yuxarı olmayan Azərbaycan Respublikası vətəndaşı seçilə bilər.

Dövlət başçısı vəzifəsinə seçilmək üçün aşağı yaş həddinin müəyyən edilməsi həmin şəxsin həyat və iş təcrübəsi, yetkinləşməsi baxımından özünü doğruldursa, yuxarı yaş həddinin müəyyənləşdirilməsi daha zəngin təcrübəyə əsaslanan müdrikləşmiş şəxsləri bu məsul vəzifəyə seçilmək imkanından məhrum etmək deməkdir. Konstitusiyanın bu müddəası və onun əsasında qəbul edilmiş "Azərbaycan Respublikası Prezidenti seçkiləri haqqında" Azərbaycan Respublikası Qanununun 1-ci maddəsi 10 dekabr 1948-ci il tarixli İnsan Hüquqları Bəyannaməsinə, "Vətəndaşlıq və siyasi hüquqlar haqqında" beynəlxalq pakta, dünya qanunvericilik praktikasına və "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikası Qanununa ziddir. Belə ki, İnsan Hüquqları Bəyannaməsinin 2-ci maddəsinə əsasən, bütün insanlar heç bir statusuna fərq qoyulmadan bəyannamədə elan olunmuş hüquq və azadlıqlara malikdirlər.

Bəyannamədə nəzərdə tutulmuş hüquqlardan biri də Konstitusiyanın 21-ci maddəsində təsbit edilmişdir. Həmin maddəyə əsasən, hər kəs öz ölkəsinin ictimai işlərinin qurulmasında birbaşa və ya azad seçilmiş nümayəndələr vasitəsilə iştirak etmək hüququna malikdir.

Lakin Konstitusiyanın 121-2-ci maddəsinə əsasən, 65 yaşına çatmış Azərbaycan Respublikasının vətəndaşları heç bir əsas gətirilmədən bu hüquqlardan qeyd-şərtsiz məhrum edilmişlər. Bu isə beynəlxalq hüquq normalarına ziddir.

Belə ki, Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktının 19-cu maddəsinə əsasən Azərbaycan Respublikası İnsan Hüquqları Bəyannaməsinə qoşulmuşdur. Bundan başqa, dünya hüquq təcrübəsində heç bir dövlətin qanunvericiliyində Prezident və digər yüksək səviyyəli şəxslərə seçkilərə son yaş həddi müəyyən edilməmişdir. Bu vəzifələrə seçilmək üçün ancaq aşağı yaş senzi nəzərdə tutulmuşdur. Xarici dövlətlərin Konstitusiyasına əsasən, Amerika Birləşmiş Ştatlarında 35 yaşa, Almaniyada və Yunanıstanda 40 yaşa, İtaliyada 50 yaşa çatmış vətəndaşlar heç bir yuxarı yaş həddi ilə məhdudlaşmadan Prezident seçilə bilərlər. Göründüyü kimi, bu ölkələrdə Prezident vəzifəsinə daha çox yaşı olan vətəndaşların seçilməsi qanunlaşdırılmışdır. Fransa və Yaponiya konstitusiyalarında müvafiq olaraq Prezident və Baş nazir seçilmək üçün heç bir yaş məhdudiyyəti müəyyən edilməmişdir.

Beynəlxalq hüquq aləmində vahid praktika kimi tətbiq olunan bu qaydadan imtina Azərbaycan Respublikası qanunvericiliyində insan

hüquqlarının pozulması ilə nəticələnmişdir. Ona görə də yuxarıda göstərilənlərə əsasən, Azərbaycan Respublikası Konstitusiyasının 110-cu maddəsini rəhbər tutaraq, qanunvericilik təşəbbüsü qaydasında xahiş edirəm: Azərbaycan Respublikası Konstitusiyasının 121-2-ci maddəsinin birinci hissəsinə və "Azərbaycan Respublikası Prezidenti seçkiləri haqqında" Azərbaycan Respublikası Qanununun 1-ci maddəsinin ikinci hissəsində dəyişikliklər edilsin və onlardan "65-dən yuxarı" sözləri çıxarılsın.

**Sədrlik edən.** Əyləşə bilərsiniz. Bunu müzakirə etməyə ehtiyac varmı? Yoxdur. O layihə sizdə var? Xahiş edirəm, bu təklifə münasibət bildirilsin.

**Səsvermənin nəticələri**

| | |
|---|---|
| ***Lehinə*** | ***41*** |
| ***Əleyhinə*** | ***0*** |
| ***Bitərəf*** | ***0*** |
| ***Səs vermədi*** | ***2*** |

Qəbul olundu. Lehinə 41 nəfər, əleyhinə yoxdur, bitərəf yoxdur, səs verməyib 2 nəfər.

**Qəbul olundu.** Buyurun, deyir qanunda da dəyişiklik lazımdır. Buyurun.

**Afiyəddin Cəlilov.** Bir dəqiqə, bağışlayın.

"Azərbaycan Respublikası Prezidenti seçkiləri haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikası Milli Məclisinin qərar layihəsi.

1. "Azərbaycan Respublikası Prezidenti seçkiləri haqqında" Azərbaycan Respublikası Qanununa aşağıdakı dəyişikliklər və əlavələr edilsin:

1-ci maddənin ikinci hissəsi aşağıdakı redaksiyada verilsin:

"Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikasının o vətəndaşı seçilə bilər ki, yaşı 35-dən aşağı olmasın və bu qanuna müvafiq surətdə Azərbaycan Respublikası Prezidenti seçkilərində iştirak etmək hüququna malik olsun".

2. Bu qanun imzalandığı gündən qüvvəyə minir.

**Sədrlik edən.** Səsə qoyaq. Xahiş edirəm, münasibət bildirin.

***(Səsvermə)***

Cümşüd Nuriyev.

**Cümşüd Nuriyev.** Hörmətli sədr. Burada konstitusion dəyişiklik olduğuna görə, əvvəlcə Konstitusiyada o hissə dəyişdirilməlidir. Çünki orada "Azərbaycan Respublikasında 5 il daimi yaşamış olsun". Bu, səhv etmirəmsə, Konstitusiyada var.

**Sədrlik edən.** 5 il Azərbaycanda yaşamış olsun?

**Cümşüd Nuriyev.** Bəli, çünki bu, qanundan çıxarılır. Əgər Konstitusiyada varsa, orada da dəyişiklik olunmalıdır. Yoxdursa...

**Sədrlik edən.** Əgər varsa, onda gəlin çıxaraq. Yoxdursa... Deyirlər yoxdur. Onda, xahiş edirəm, bu layihəyə münasibət bildirilsin.

***Səsvermənin nəticələri***

| | |
|---|---|
| ***Lehinə*** | ***40*** |
| ***Əleyhinə*** | ***0*** |
| ***Bitərəf*** | ***0*** |
| ***Səs vermədi*** | ***3*** |

Qəbul olundu. Lehinə 40 nəfər, əleyhinə yox, bitərəf yox, səs verməyib 3 nəfər.

Səfa Mirzəyev, Siz nə buyurursunuz?

**Səfa Mirzəyev.** *(Əvvəli eşidilmir.)*

**Sədrlik edən.** Eşidilmir səsiniz.

**Səfa Mirzəyev.** Çox sağ olun, Heydər müəllim. Cümşüd müəllimin əlavəsi ilə əlaqədar onu qeyd etmək istəyirəm ki, Azərbaycan Respublikasının Konstitusiyasında Prezidentliyə namizədin 5 il Azərbaycan Respublikasında daimi yaşamaq senzi yoxdur. Bu, Konstitusiyada yoxdur, ancaq qanunda var və verilən layihədə həmin qanundan bu senz çıxarılır. Ona görə də Konstitusiyada heç bir əlavə və dəyişiklik etmək lazım deyil.

**Sədrlik edən.** Amma qanunda etmək lazımdır?

**Səfa Mirzəyev.** Bəli.

**Sədrlik edən.** Bunu da elədik.

**Səfa Mirzəyev.** Bəli.

**Sədrlik edən.** Yaxşı. Bu məsələ ilə əlaqədar kimsə danışmaq istəyir? Burada Firudin Cəlilov, Əzizov... Yox, bir halda ki yaş senzi ilə əlaqədar məsələləri də qəbul elədik. Mən sadəcə onu demək istəyirəm ki, insan hüquqlarının pozulması aradan götürüldü. Amma istəməzdim ki, ancaq bu mənim hüquqlarımın pozulması kimi qəbul olunsun. O, ümumiyyətlə,

65 yaşdan yuxarı olan yaşlı insanların hüquqlarının bərpa olunmasıdır. Çünki Azərbaycanda 65 yaşdan yuxarı yaşlı adamlar çoxdur və şübhəsiz ki, onların hüquqları indiyə qədər belə çox əsassız olaraq pozulmuşdur. Mən hesab edirəm ki, bütün 65 yaşdan yuxarı yaşlı adamların hamısının hüquqlarını bərpa etməklə Milli Məclis böyük, xeyirxah iş görübdür.

Ancaq o ki qaldı mənə, olan olub, keçən keçib. Mənim o vaxtlar Prezident olmaq iddiam olmayıb, heç bu 65 yaşı qoysaydılar da, qoymasaydılar da, mənim elə arzum olmayıb. Ona görə də, sadəcə olaraq, deyirlər, xain xoflu olar. Bilirsiniz, nədənsə qorxublar, onlar bunu qoyublar. Ancaq bilin ki, əgər bunu mənimlə əlaqələndiriblərsə, mənim bu işə münasibətim olmayıb. Mən bunu bildirmək istəyirdim.

Firudin Cəlilov, nə demək istəyirsiniz? Buyurun.

**Firudin Cəlilov.** Bayaqdan yazılmışam, yadımdan çıxdı. Səfa müəllim deyən məsələni qeyd etmək istəyirdim. O, mənim yadımdadır, Dzerjinski adına klubda bu məsələ qoyulanda, 5 il yaşayış senzini Sizinlə bağlı elədilər ki, yəni o, neçə ildir burada yoxdur. Ona görə istədim, onu oradan çıxarsınlar.

**Sədrlik edən.** Götürüldü.

Tofiq Əzizov. Siz, buyurun.

**Tofiq Əzizov.** Heydər müəllim, xahiş edirəm, mən bu məsələdə maraqlı deyiləm, ancaq maaş məsələsi bu gün həll olunsun.

**Sədrlik edən.** Bəli, indi, bu dəqiqə həll olunacaq. Qalib Qurbanov.

**Qalib Qurbanov.** Həmin maaş məsələsidir.

**Sədrlik edən.** Maaş məsələsi, buyurun. Bütün maaş məsələləri, həm bu Ali Sovetin, həm Prezidentin, həm də Aparatın hamısının. İyulun 1-dən. Arxayın olun, indi geciksə də, bu, iyulun 1-dən olur. Necə?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Bir sözlə, maaşların artırılması haqqında məsələni səsə qoyuram. Etirazınız yoxdur? Münasibətinizi bildirin.

***(Səsvermə)***

Qəbul edildi. Ali Məhkəmənin sədr müavini əlini qaldırdı. Məhkəmə işçiləri də buraya aiddir.

Qəbul edildi.

Xahiş edirəm, izn verin, bir neçə kadr məsələləri haqqında Məclisin razılığı lazımdır. Prezident səlahiyyətini həyata keçirərək mən bir ne-

çə kadr barədə Milli Məclisə təkliflər verirəm. Bilirsiniz ki, indiyə qədər bizim iqtisadiyyat naziri yoxdur. Yəqin ki, Əli Məsimov vəzifəsini aparmır, ancaq biz bu barədə qərar qəbul eləməmişik, fərman verməmişik. Ona görə də Əli Əhməd oğlu Məsimovun iqtisadiyyat naziri və eyni zamanda Baş nazirin birinci müavini vəzifəsindən azad olunması haqqında mən istəyirəm, Milli Məclisin razılığını alım. Etiraz yoxdur? Xahiş edirəm, münasibətinizi bildirəsiniz.

***(Səsvermə)***

Qəbul edildi.

İqtisadiyyat naziri vəzifəsinə, eyni zamanda Baş nazirin müavini vəzifəsinə Səməd Şahbaz oğlu Sadıqov təqdim olunur. İndi o, iqtisadiyyat nazirinin birinci müavini vəzifəsində işləyir. Tanıyırsınız Şahbazovu? Çoxdan işləyir. Etiraz edən yoxdur? Onda xahiş edirəm, münasibət bildirəsiniz.

***(Səsvermə)***

Qəbul olundu. Deməк, Milli Məclis buna razılıq verir.

İndi Baş nazirin müavini vəzifəsində Kamal Nəriman oğlu Vəliyev işləyir. Mən təklif edirəm, Milli Məclis razılıq versin ki, Kamal Nəriman oğlu Vəliyev bu vəzifədən azad olunsun. Bağışlayın, Kamil. Əgər sual yoxdursa, xahiş edirəm, münasibətinizi bildirəsiniz.

***(Səsvermə)***

Qəbul olundu.

Bildiyiniz kimi, son vaxtlar Azərbaycanda mədəniyyət, təhsil, elm sahələri çox geri qalıbdır. Bunlara lazımi diqqət yetirilməyib. Bu da son illərin ən böyük bəlasıdır. Güman edirəm ki, biz bunların qarşısını almalıyıq. Mədəniyyət, təhsil, elm kimi sahələr bizim Azərbaycan xalqının həm milli xüsusiyyətlərini, həm intellektual potensialını, həm də mədəniyyətini yüksəldən sahələrdir. Bu sahələrdə, bildiyiniz kimi, keçmiş dövrdə respublikada çox işlər görülmüşdür. Azərbaycan teatrı, musiqisi, elmi inkişaf etmiş, böyük elmi institutlar yaradılmış, 1945-ci ildə Azərbaycan Elmlər Akademiyası yaradılmış, Azərbaycan ədəbiyyatının, mədəniyyətinin digər sahələrində çox böyük nailiyyətlər əldə edilmişdir. İndi artıq bilirsiniz, bu dəmir pərdə götürüləndən sonra, xüsusən müstəqillik əldə edəndən sonra biz başqa ölkələrlə, xüsusən Şərq ölkələri ilə müqayisə edəndə daha dərindən dərk edə bilirik ki, Azərbaycanın mədəniyyət, elm, təhsil sahələri bu illərdə nə qədər yüksəlmişdir.

Ancaq təəssüf ki, öz nailiyyətlərimizə lazımi qədər qiymət verə bilməmişik. Son illərdə heç bir əsası olmadan bu da pisdir, o da pisdir... Bir təsəvvür edin, bəzi adamlar hətta deyirdilər ki, o adam əgər Moskva universitetini qurtarıbsa, bu bizim üçün yaramaz, çünki onda milli ruh yoxdur, bu adam Leninqrad universitetini qurtarıbsa, o bizim üçün yaramaz, çünki bunda milli ruh yoxdur...

Mən Naxçıvanda işləyəndə biz milli ordu yaratmaq istəyirdik. İndi yenə deyəcəyəm, bağışlasınlar məni, Xalq Cəbhəsindən olan mənim həmkarlarım gəlirdilər ki, bu zabiti orduya götürmək olmaz, çünki o, rus ordusuna qulluq edib, orada təhsil alıb, bunda milli ruh yoxdur. Deyirəm, ay qardaş, axı bizim özümüzün ordumuz, hərbi məktəbimiz olmayıb, nə üçün bunda milli ruh yoxdur, haradan alaq bu milli ruhu?! Əliağa Şıxlinski, Mehmandarov, yaxud Naxçıvanski kimi generallarda, yaxud başqalarında milli ruh yox idimi? Bunlar da rus ordusuna, əvvəl çar rus ordusuna xidmət etmiş adamlardır. O vaxtlar hərbi məktəbləri qurtarmış adamlardır.

Bilirsiniz, bu son illərdə belə dəhşətli hallara rast gəldik. Bəlkə də, xalqın özünü dərk etməsi üçün biz bu mərhələni də keçməli idik ki, bu adamlar görsünlər ki, onlar xalqın qarşısında böyük cinayət törədiblər, səhv ediblər. Məsələn, əgər bizim opera teatrımız 1909-cu ildə Üzeyir Hacıbəyovun böyük xidmətləri nəticəsində yaranmışdırsa, indi teatrımız nə vəziyyətdədir? Yaxud da Azərbaycan baleti. Azərbaycan baleti ilk dəfə Şərq ölkələrində balet kimi bizdə yarandı. Mənim xatirimdədir, 1970-ci illərdə şəxsən mən bu işlərlə çox ciddi məşğul olaraq, Azərbaycanda balet sənətini inkişaf etdirmək üçün xoreoqrafiya məktəbinin böyük binasının tikilməsi ilə məşğul oldum. Ona görə yox ki, mən istəyirəm sizə şəxsi xidmətlərimi deyəm, buna ehtiyac yoxdur. Ancaq bunu yada salıram ona görə ki, ürəyim yanır, bizim baletimiz nəinki bu səviyyədə qalmasın, inkişaf etsin. İndi balet yoxdur, dağılıb gedib. Simfonik orkestr nə vəziyyətdədir? Yaxud da ki başqası. Nə əldə etdik? Bir şey yaratmadıq, ancaq yarananı da dağıtdıq. Biz keçmişi söyürük, döyürük. Yaxşı, simfonik orkestr. Biz burjuaziya cəmiyyətinə qayıdırıqsa, Avropanın burjuaziya cəmiyyətinin lap mərkəzində yaranmış bir musiqi sənətidir, indi bunu dağıtmaqla nə etdik? Biz Azərbaycan xalqının, Azərbaycan milli mədəniyyətinin hansı sahəsini düzəltdik?

Ona görə də məni bir vətəndaş kimi, bir azərbaycanlı kimi, bu məsələlərlə uzun müddət yaxından məşğul olan adam kimi bunlar çox nara-

hat edir. Mən bu sahəni gücləndirmək təklifini verirəm və güman edirəm ki, biz bir çox tədbirlər görməliyik ki, bu sahələr inkişaf etsin.

Ona görə də mən təklif edirəm ki, Baş nazirin bu sahələr üzrə müavini vəzifəsinə Elçin İlyas oğlu Əfəndiyev təqdim olunsun. Elçin Əfəndiyevi tanıyırsınız, yazıçıdır, mədəniyyət xadimidir, uzun müddətdir Azərbaycanda fəaliyyət göstərir. Əgər buna qarşı bir etiraz yoxdursa, xahiş edirəm, münasibət bildirəsiniz.

***(Səsvermə)***

Qəbul olundu.

Bizim xarici işlər naziri yoxdur. Tofiq Qasımov xeyli müddət bundan qabaq vəzifəsindən azad olunub. Ancaq mən sizə bildirmək istəyirəm ki, nəinki xarici işlər naziri, heç Xarici İşlər Nazirliyi də yoxdur. Siz təsəvvür edin ki, bu adamlar, hansılar ki, Azərbaycanın müstəqilliyi uğrunda belə canfəşanlıq ediblər, o adamlar Azərbaycanın müstəqilliyini dünya miqyasında təsdiq etmək üçün və o müstəqillik yolunda Azərbaycan Respublikasının fəaliyyətini təmin etmək üçün ən vacib olan Xarici İşlər Nazirliyinin təşkil olunması ilə məşğul olmayıblar. Tofiq Qasımov bir ilə yaxın xarici işlər naziri olub. İndi desin görək, Xarici İşlər Nazirliyini nə cür təşkil edib? Orada bir müavin yoxdur, təkcə Salamovdur, o da orada Nuh əyyamından qalan adamdır. Mən həqiqəti deyirəm. Düzdür, bu, gülməlidir, ancaq həqiqət də bundan ibarətdir. Yox, mən demirəm ki, o, pis adamdır. Hələ Azərbaycan müstəqil olmadığı bir dövrdə, Xarici İşlər Nazirliyinin böyük bir funksiyası olmadığı bir vaxtda Salamovu təyin eləmişdilər. Orada elə başlarını girləyirdilər.

O vaxtlar Azərbaycan müstəqil dövlət deyildi, bizim Xarici İşlər Nazirliyinin də böyük bir fəaliyyəti yox idi. Yaxşı, Azərbaycan 1991-ci il avqustun 31-də bu salonda Müstəqillik haqqında bəyanat, 1991-ci il oktyabrın 18-də Müstəqillik haqqında Konstitusiya Aktı qəbul etdi. 1991-ci il dekabrın 29-da müstəqillik haqqında referendum keçirildi. Demək, görürsünüz, bu mərhələlər nə qədər ləng gedib. 1993-cü ilin artıq yarısından çoxu keçib, müstəqilik. Bəs Xarici İşlər Nazirliyi niyə təşkil olunmayıb? Bəlkə, o biri rejim bunu təşkil edə bilməyib? Bəs bu rejim, hansı ki, Azərbaycanın müstəqilliyindən ötrü özünü öldürürdü, niyə bunu təşkil etməyib? İndi mən iki ay yarımdır burada işləyirəm. Xarici dövlətlərdən hələ o qədər çox gəlib-gedən də yoxdur. Bir o deyil ki, işləməyə bir adam yoxdur. İndi Tofiq Qasımov bunu nə cür qiymətləndirir qiymətləndirsin. Mən bunu Azərbaycanın müstəqilliyinə böyük bir zərbə

kimi qiymətləndirirəm. Ona görə də təklif edirəm ki, bu gün xarici işlər naziri vəzifəsi haqqında Məclis razılıq versin, fərman verib təyin eləyək. Həsən Həsənovu mən xarici işlər naziri təklif edirəm. Sualı, etirazı olan yoxdur? Onda xahiş edirəm, münasibət bildirəsiniz.

***(Səsvermə)***

Qəbul olundu.

Müdafiə naziri haqqında. Müdafiə naziri Dadaş Rzayev iyun ayının 14-də, ya 15-də vəzifəsindən azad edilib, ondan sonra müdafiə naziri təyin olunmayıb. Mən sizə məlumat vermişdim ki, Surət Hüseynovla – Baş nazirlə biz bu barədə müzakirələr apardıq və belə bir fikir meydana çıxdı ki, müdafiə nazirinin təyin olunmasında tələsməyək, layiqli bir namizəd tapaq. Çünki burada son 3-4 il ərzində beş müdafiə naziri təyin olunub, azad olunub, təyin olunub, azad olunub. Elə bu da bizim Azərbaycanın müdafiə qüvvələrinin, ordusunun belə pis vəziyyətdə olmasının səbəblərindən biridir. Ancaq təəssüf ki, mən təkliflər ala bilmədim. Sizə bir daha çatdırmışdım ki, böyük bir səhvə yol verildi. Baş nazir, ümumiyyətlə, mənimlə, Məclislə razılaşmamış Vahid Musayevi gedib özbaşına orada müdafiə naziri təqdim etmişdir. Mən bunun qarşısını aldım. Vahid Musayev Lənkəran hadisələri ilə əlaqədar artıq cinayət məsuliyyətinə cəlb olunub. Ancaq indi təsəvvür edin, Müdafiə Nazirliyində bir Səfər Əbiyevdən savayı heç kəs yoxdur. O həm Baş qərargahın rəisidir, həm də müdafiə naziri vəzifəsini icra edir, heç kəs yoxdur. Ona görə bu barədə təklifim var. Bir azərbaycanlı general var, o heç vaxt Azərbaycanda xidmət etməyib. Ancaq 30 ilə yaxındır ki, orduda xidmət edir. Məmmədrəfi İsmayıl oğlu Məmmədov general-mayordur, 1963-cü ildən keçmiş sovet ordusunda, indiyə qədər də Rusiya ordusunda xidmət edir. Məmmədov buradadırmı? Xahiş edirəm, bura gələsiniz. Özünüz haqqında nə deyə bilərsiniz, bəlkə, suallar var?

**Məmmədrəfi Məmmədov.** Deyə bilərəm.

**Sədrlik edən.** Əgər Azərbaycan dilində danışmaq çətindirsə, rus dilində danışın, eybi yoxdur.

**Məmmədrəfi Məmmədov.** Baş üstə. Rus dilində. *(Tərcümeyi-halını danışır).*

**Sədrlik edən.** Mən Məmmədovla söhbət eləmişəm və bu vəzifənin nə qədər məsuliyyətli olduğunu ona bildirmişəm. O bu məsələnin onun üzərinə nə qədər böyük məsuliyyət qoyduğunu dərk edir. Mənimlə söhbətində deyib ki, bu vəzifəni məsuliyyətlə öz üzərinə götürməyə hazır-

dır. Mən bunu sizə çatdırmaq istəyirəm. Çünki çox mühüm vəzifədir. İndiki dövrümüzdə çox ağır vəzifədir. Ona görə Məmmədova bu sualı bir neçə dəfə vermişəm, bəlkə də, dəfələrlə ki, Siz özünüzü bu işə qadir hesab edirsinizmi? Bu işi bacara biləcəksinizmi? Bu işin öhdəsindən gələ biləcəksinizmi? Şübhəsiz ki, bizim köməkliyimizlə, bizim rəhbərliyimizlə, Məmmədov söz verir ki, bunların hamısını yerinə yetirməyə o hazırdır və qadirdir. Elədir? Başqa sözü, sualı olan varmı? Yoxdur. Əyləşin. Onda, xahiş edirəm, Məmmədrəfi İsmayıl oğlu Məmmədovun müdafiə naziri təyin olunması üçün münasibətinizi bildirəsiniz.

***(Səsvermə)***

Qəbul edildi.

Bir məsələni də istəyirəm Milli Məclisin razılığı üçün sizə təqdim edim. Vaxtilə bizdə Ali Təhsil Nazirliyi, Maarif Nazirliyi olub. Sonra birləşib olub Təhsil Nazirliyi. Sonra ayrılıb Ali Təhsil Nazirliyi, Maarif Nazirliyi olub. Təklif var ki, bu nazirliklər birləşsin, bir nazirlik olsun. Bu barədə sualı, sözü olan varmı? Kim bu təklifə tərəfdardır, xahiş edirəm, münasibət bildirsin.

***(Səsvermə)***

Qəbul edildi.

Beləliklə, bu iki nazirlik birləşirsə, deməli, bizdə bir nazirlik olacaq – Təhsil Nazirliyi. Maarif naziri vəzifəsində olan Hacıyev haqqında bu yaxınlarda mən onun azad olunması barədə fərman vermişdim, bu, elan olunub. Güman edirəm, buna etiraz yoxdur. Etiraz yoxdur ki? Bu artıq ləğv olunub, mənim fərmanım verilib. Xahiş edirəm, buna münasibət bildirilsin.

***(Səsvermə)***

Qəbul edildi.

Ali Təhsil Nazirliyi ləğv olunduğuna görə bizim hörmətli alimimiz Firudin Cəlilov da, şübhəsiz ki, bu vəzifədən azad edilməlidir. Çünki bu nazirlik yoxdur. Ancaq bu haqda mən fərman verməliyəm. Xahiş edirəm, bu məsələyə də münasibətinizi bildirəsiniz. Firudin Cəlilov böyük alimdir, hörmətli adamdır, Məclisin də üzvüdür. Güman edirəm ki, Firudin Cəlilov bizim sıralarımızda öz yerində olacaq və lazımi vəzifədə də olacaq. Ancaq yeni yaranmış nazirliyə, nazir vəzifəsinə mən Lidiya Rəsulovanı təklif edirəm. Lidiya Rəsulovanı tanıyırsınız. Azərbaycanda 20 ilə yaxındır ki, ən məsul, ən yüksək vəzifələrdə işləyib. Son vaxtlar

ictimai təminat naziri olub. Bunu da ona çox görüblər. Mən şəxsən Lidiya Rəsulova haqqında çox yüksək fikirdəyəm. Çox sədaqətli, çox bilikli və idarəetmə təcrübəsinə malik olan adamdır. Xahiş edirəm, Lidiya Rəsulovanın bu vəzifəyə təyin olunması üçün münasibətinizi bildirəsiniz.

***(Səsvermə)***

Qəbul edildi.

Bizim Milli Bankın...

**Firudin Cəlilov.** Vaxtilə bu nazirlik bölünəndə, millət vəkilləri şahiddirlər ki, mən nə qədər çalışdım, amma yenə 12 nəfər əleyhinə səs verdi, buna baxmayaraq keçdi. Onun köhnə adı Xalq Təhsili Nazirliyidir, amma təhsil qanununda biz qəbul eləmişdik ki, Təhsil Nazirliyi olsun. Bütün blanklar, möhürlər belə getmişdi. Nədənsə təhsil qanunu çap olunanda, işçilərdən kimsə ora "xalq" sözünü artırıb. Sonradan Məclisdə müzakirə edib "xalq" sözünü oradan çıxardıq. Yəni bir o söz maneçilik törədir. Ona görə təklif edirəm ki, "xalq" sözü oradan çıxsın, olsun Təhsil Nazirliyi.

**Sədrlik edən.** Firudin müəllim, elə biz eyni fikirdəyik də. Mən də Təhsil Nazirliyi dedim. Çox sağ olun ki, Siz mənim fikrimi müdafiə etdiniz.

Milli Bank haqqında təklif var. Mən təklif edirəm ki, Cavanşir Əyyub oğlu Abdullayev Azərbaycan Milli Bankının prezidenti vəzifəsindən azad edilsin. Məclisin buna razılığını istəyirəm. Bir sual yoxdursa, xahiş edirəm, münasibət bildirilsin. Sual var? Kimin sualı var? Qalib Qurbanov buyursun.

**Qalib Qurbanov.** Heydər müəllim, Milli Bank nə Prezidentin, nə də Nazirlər Kabinetinin tabeliyində deyil. Milli Bank ancaq Milli Məclisin tabeliyindədir. Mən hesab edirəm ki, biz pul-kredit sisteminin hazırkı vəziyyətini müzakirə etməliyik. Ümumiyyətlə, nəzərinizə çatdırmaq istəyirəm ki, Milli Bank tamam dağılıb. Bilmirəm ora namizəd kimdir və orada nəyi qəbul eləmək niyyətindədir?

Biz Məclisdə bu vəziyyəti müzakirə eləyib, sonradan ora namizəd verməliyik. Mənim təklifim bundan ibarətdir.

**Sədrlik edən.** Cümşüd Nuriyev, buyurun.

**Cümşüd Nuriyev.** Hörmətli sədr, hörmətli millət vəkilləri. Məclisin növbəti iclasının gündəliyində büdcənin müzakirəsi var. Onda pul-kredit siyasəti də müzakirə ediləcək. Onu bu gün müzakirə eləməyə ehtiyac duyulmur. Sağ olun.

**Sədrlik edən.** Bəli, mən də belə fikirdəyəm ki, doğrudan da, bizim maliyyə və bank işimiz çox ağır vəziyyətdədir. Şübhəsiz ki, biz vaxt tapıb onu müzakirə edəcəyik. Ancaq indi bankın prezidentinin dəyişdirilməsi o demək deyil ki, biz bunu müzakirə etməyəcəyik, müzakirə edəcəyik. Bunu müzakirə etmək üçün də, müəyyən material əldə olunması üçün də bankın prezidentinin dəyişdirilməsini təklif edirəm. Bu da Məclisin səlahiyyətindədir. Ona görə bunu Məclisə təqdim edirəm ki, öz münasibətini bildirsin.

***(Səsvermə)***

Qəbul edildi.

Milli Bankın prezidenti vəzifəsinə mən Qalib Ağabala oğlu Ağayevi təklif edirəm. Tanıyırsınız, vaxtilə işləyib, təcrübəli adamdır. Buradadır. Sualınız var? Etirazınız yoxdur? Onda əyləşə bilərsiniz. Mən xahiş edirəm, münasibətinizi bildirəsiniz.

***(Səsvermə)***

Qəbul edildi.

Qalib Ağayev Milli Bankın prezidenti vəzifəsinə təsdiq olundu. Kadr məsələləri bu qədər. Prokurorun da təklifi var. Buyurun.

**Əli Ömərov.** Azərbaycan Respublikasının Milli Məclisinə. Azərbaycan Respublikasının sabiq müdafiə naziri, xalq deputatı Rəhim Həsən oğlu Qazıyevin cinayət məsuliyyətinə cəlb olunması və haqqında həbs qətimkan tədbirinin seçilməsi üçün razılıq alınması barədə təqdimat.

Şuşa rayonunun müdafiəsinin olduqca yarıtmaz təşkilinin nəticəsi olaraq 1992-ci il mayın 8-də erməni hərbi birləşmələri tərəfindən işğal edilməsi faktına görə 1992-ci il mayın 10-da və Laçın rayonunun işğal edilməsi faktına görə isə 1992-ci il mayın 19-da Azərbaycan Respublikası Prokurorluğu tərəfindən cinayət işləri qaldırılmışdır. Hər iki cinayət işi 1992-ci il sentyabrın 30-da birləşdirilərək eyni icraatda istintaq edilir.

Müəyyən edilmişdir ki, Şuşanın lazımi səviyyədə müdafiə olunmadığını əvvəlcədən bilən erməni hərbi birləşmələri artilleriya və ağır hərbi texnikadan istifadə edərək 1992-ci il may ayının 7-dən 8-nə keçən gecə Şuşanı müxtəlif istiqamətlərdən atəşə tutub hücuma keçmişlər. Müdafiəçilər düşmənə ciddi müqavimət göstərmədiyindən mayın 8-də Şuşa işğal edilmişdir. Elə bu qayda ilə mayın 18-də Laçın rayonu da erməni silahlı birləşmələri tərəfindən işğal olunmuşdur. Erməni silahlı bir-

ləşmələrinin tərkibində rus və digər xarici millətlərdən olan muzdlular iştirak etmişlər. Şuşa və Laçın rayonlarının işğalı zamanı xeyli yaşayış evləri, inzibati və təsərrüfat binaları, tarixi abidələr dağıdılmış, yüzlərcə adam, o cümlədən qocalar və azyaşlı uşaqlar həlak olmuş, yaralanmış və əsir götürülmüşdür. Dövlət, ictimai əmlak, eləcə də vətəndaşların əmlakı, silah, döyüş sursatı, hərbi texnika məhv edilmiş, ələ keçirilmişdir. Bununla da suveren Azərbaycan Respublikasının mənafeyinə ağır nəticələrə səbəb olan mühüm maddi və mənəvi ziyan dəymişdir.

Müharibə vaxtı və fövqəladə vəziyyətdə Şuşada hakimiyyət böhranının olması mayın əvvəllərindən başlayaraq orada olan hərbi qulluqçuların qısamüddətli məzuniyyətə buraxılıb qüvvələrin azaldılması, müdafiənin zəiflədilməsi, nizam-intizamın və vahid komandanlığın olmaması, rota, batalyon və polk komandirlərinin briqada komandirinə tabe olmayıb əmrləri icra etməmələri respublika rəhbərliyinə, xüsusilə də bu sahə üzrə məsuliyyət daşıyan Müdafiə Nazirliyinə və şəxsən Rəhim Qazıyevə məlum olsa da, tədbir görülməmişdir. Cinayət işinin materialları ilə sübuta yetirilmişdir ki, Rəhim Qazıyev respublika Prezidentinin 18 fevral 1992-ci il tarixli fərmanı ilə Şuşa fövqəladə vəziyyət rayonunun komendantı təyin olunub, daha sonra isə 17 mart 1992-ci il tarixdə müdafiə naziri təyin edilib. Respublika silahlı qüvvələrinə rəhbərlik etdiyi dövrdə Şuşa və Laçın rayonlarının düşmən təcavüzündən müdafiəsi üçün tədbirlər görməmiş, əksinə, qulluq mövqeyindən sui-istifadə edib mənsub olduğu və himayədarlıq etdiyi Azərbaycan Xalq Cəbhəsi üzvlərinin hüquqazidd hərəkətlərinin qarşısını almamış, hərbi biliyi, səriştəsi və təcrübəsi olmayan yaxın adamlarını komandir vəzifələrinə təyin etmişdir. Elə həmin şəxslər də heç bir məsuliyyət hissi dərk etmədən vahid komandanlığa tabe olmamış, briqada komandirinin əmrlərini yerinə yetirməkdən açıqcasına imtina edib, polkları özbaşına tərk etmiş və hərbi qulluqçuları döyüş mövqelərindən buraxmışlar.

Bununla yanaşı, Rəhim Qazıyev və onun tabeliyində olmuş digər vəzifəli şəxslər tərəfindən Müdafiə Nazirliyi sistemində dövlət əmlakının külli miqdarda mənimsənilməsinə gətirib çıxaran ciddi qanun pozuntuları aşkar edilmişdir. Rəhim Qazıyevin əməllərində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 255-ci maddəsinin (v) bəndində nəzərdə tutulan cinayət tərkibi vardır. Lakin o, Azərbaycan Respublikasının xalq deputatı olduğundan Milli Məclisin razılığı alınmalıdır. "Azərbaycan Respublikası xalq deputatının statusu haqqında" Azərbaycan Respublikası Qanununun 34 və 35-ci maddələrinə əsasən, Rəhim Həsən

oğlu Qazıyevin cinayət məsuliyyətinə cəlb olunmasına və haqqında həbs qətimkan tədbirinin seçilməsinə razılıq verməniz xahiş edirəm.

Bununla bərabər hörmətli sədr, bir şeyi də xatırlatmaq istəyirəm ki, iyul ayının 17-də belə bir təqdimatla mən İxtiyar Şirinov, Sülhəddin Əkbərov və İsa Qəmbərov barədə də müraciət eləmişdim. Orada da məsələlər həmin qaydada qoyulmuşdu, lakin keçmiş qərarda həbs qətimkan tədbirinə razılıq verilməsi qalıb. Xahiş edirəm, əgər mümkünsə, bu gün mənim bu təqdimatıma baxarkən onların da barəsində həbs qətimkan tədbirinə razılıq verilsin və 1993-cü il iyulun 17-dən həmin anlayış qüvvədə hesab edilmiş olsun.

**Sədrlik edən.** Sualı olan varmı? Yoxdur. Bizim Mandat və etika komissiyası bu barədə nə deyə bilər? Mandat və etika komissiyasının sədri.

**Tahir Əliyev, *Milli Məclisin Mandat və etika komissiyasının sədri.*** Azərbaycan Respublikasının Milli Məclisinə. Azərbaycan Respublikasının xalq deputatı Rəhim Həsən oğlu Qazıyevin barəsində həbs qətimkan tədbiri seçilməsinə razılıq verilməsinə dair Milli Məclisin Mandat və etika komissiyasının rəyi.

Azərbaycan Respublikasının Lənkəran, Astara, Masallı, Lerik, Yardımlı, Cəlilabad və Biləsuvar rayonlarında yaranmış vəziyyət haqqında Azərbaycan Respublikası Milli Məclisinin 17 avqust 1993-cü il tarixli 672 nömrəli qərarı ilə respublika əhalisi arasında, eləcə də sərhəd bölgələrində apardığı siyasi təxribatlara, Əlikram Hümbətov qiyamında bilavasitə iştirak etdiyinə, Azərbaycan Respublikasının ərazi bütövlüyünü parçalamağa, dövlətçiliyə xəyanətə görə Rəhim Həsən oğlu Qazıyev Milli Məclisin üzvlüyündən azad edilmiş və onun məsuliyyətinin müəyyənləşdirilməsi Azərbaycan Respublikası Prokurorluğuna tapşırılmışdır.

Bundan sonra Azərbaycan Respublikasının Baş prokuroru Əli Ömərov "Azərbaycan Respublikası xalq deputatlarının statusu haqqında" Qanunun 34 və 35-ci maddələrini rəhbər tutaraq Azərbaycan Respublikasının Milli Məclisinə müraciət edib, Şuşa və Laçın rayonlarının müdafiəsinin təşkili zamanı etdiyi cinayətlərə, habelə onun tabeliyində olmuş digər vəzifəli şəxslər tərəfindən Müdafiə Nazirliyi sistemində dövlət əmlakının külli miqdarda mənimsənilməsinə gətirib çıxaran ciddi qanun pozğunluğuna yol verdiyinə görə Azərbaycan Respublikasının xalq deputatı Rəhim Həsən oğlu Qazıyevin Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 255-ci maddəsinin (v) bəndi ilə nəzərdə tutulan

cinayət əməlinə görə barəsində qətimkan tədbiri seçilməsinə razılıq verilməsini xahiş etmişdir.

Milli Məclisin Mandat və etika komissiyası təqdimatı müzakirə edərək Azərbaycan Respublikasının xalq deputatı Rəhim Həsən oğlu Qazıyevin barəsində həbs qətimkan tədbirinin seçilməsinə razılıq verilməsini mümkün hesab edir.

**Sədrlik edən.** Bu barədə sualı olan varmı? Yoxdur. Onda bu məsələni, yəni Baş prokurorun, Mandat və etika komissiyasının təkliflərini səsə qoyuram. Xahiş edirəm, münasibət bildirilsin.

***(Səsvermə)***

Qəbul edildi.

Əli Öməravun başqa xahişi də var. Mən bu barədə onu deyə bilərəm ki, İxtiyar Şirinovla Sülhəddin Əkbərov, onlar Gəncədə cinayət etdikləri vaxt cinayət yerində tutulublar. Ona görə də o vaxt onların Milli Məclis üzvlüyündən azad edilməsi haqqında qərar qəbul etdik. Əli Öməräv deyir ki, gərək onlar barədə qətimkan tədbirinin görülməsi haqqında da Milli Məclisin qərarı olsun. Çünki onlar xalq deputatlarıdırlar. Bəlkə də, Əli Öməravun bu təklifini qəbul etmək olar. Etiraz yoxdur ki? Tofiq Qasımov, buyurun.

**Tofiq Qasımov.** Bilirsiniz, Heydər bəy, bu məsələ barədə, doğrudan da, Milli Məclisin qərarı qəbul olunanda orada yazılıb ki, Milli Məclisin üzvlüyündən çıxarılsın. Milli Məclisin üzvlüyündən çıxarılmaq deputat statusunu dəyişmir deyə, əslində, o, bir şey vermir.

**Sədrlik edən.** Həm Milli Məclisin üzvlüyündən çıxarılsın, həm də cinayət məsuliyyətinə cəlb edilməsinə razılıq verilsin deyilib.

**Tofiq Qasımov.** Amma barəsində qətimkan tədbiri kimi həbs cəzasının tətbiq olunmasına razılıq verilsin yoxdur. Qərarların heç birində bu yoxdur. İsa Qəmbər və o iki nəfər haqqında olan qərarlarda yoxdur. Mən qeyd eləmək istəyirdim ki, gələcəkdə belə şeylər olanda birinci cümlə mütləq "onun deputat toxunulmazlığı götürülsün" şəklində olmalıdır. Yəni Məclisdən çıxarılır, çıxarılmır, ondan asılı olmayaraq, birinci şərt kimi mütləq deputatın deputat toxunulmazlığı götürülməlidir. Ondan sonra onun məsuliyyətə cəlb edilməsinə və barəsində qətimkan tədbiri seçilməsinə razılıq olmalıdır.

Məsələ burasındadır ki, bu adamları orada tutublar. Onların hər ikisi, xüsusilə Sülhəddin ora təsadüfən düşüb, onu ora çağırıblar. Yəni söhbət on-

dan gedir ki, bu adamlar artıq iki aydır qanunsuz olaraq, yəni Milli Məclisin razılığı olmadan deputat olan vaxtda həbs olunublar. Söhbət ondadır ki, bu adamların deputat toxunulmazlığı götürülməmiş, Milli Məclis razılıq verməmiş həbs olunublar və qanunsuz uzun müddət saxlanılıblar.

O biri tərəfdən də sivilizasiyalı dövlətlərin heç birində Məclis sədri respublika prokuroru kimi vəzifəli şəxsləri əgər onlar adam öldürməyiblərsə, ağır cinayət törətməyiblərsə, adətən, həbsə almır. Ona görə də mənə elə gəlir ki, bu gün bu məsələni burada arxa tarixlə düzəltsək, bu, düzgün olmaz. Mən təklif eləyirəm ki, bizim bir neçə Məclisin deputatına müraciətimiz vardı. Məclisə də belə bir müraciət təqdim olunub. Əslində, bu adamların bizə zaminə verilməsini xahiş eləyərdik, yəni onlar bir yana getməmək şərtilə Bakıda qalsınlar, bir yana getsələr də, şəxsən mən onların əvəzinə cavab verməyə hazıram. Bu daha düzgün olardı.

**Sədrlik edən.** Güman edirəm ki, bu məsələni geniş müzakirə etməyə ehtiyac yoxdur. Bəlkə, Tofiq Qasımovun bu sözünə hüquqi nöqteyi-nəzərdən baxsınlar. Bəlkə, bu daha uyğun olar ki, bizim Milli Məclis qərar qəbul eləsin ki, bunların deputat toxunulmazlığı götürülsün.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Yoxdur belə qanun? Bəs qanunda nə var?

**Əli Ömərov.** Haqqında həbs qətimkan tədbiri seçilə bilməz, məhkəmə qaydasında, inzibati qaydada cəzalandırıla bilməz. Ona görə də mən Tofiq Qasımovun dediyi bir sözlə də razı deyiləm ki, o vaxt iyul ayının 17-də təqdimat həmin qaydada burada şərh olundu və deputatların müzakirəsinə verildi. Sadəcə olaraq, "həbs qətimkan tədbiri seçilməsi" sözü yaddan çıxıb qalıb.

O ki qaldı zaminə vermək məsələsinə, Milli Məclis ona həbs qətimkan tədbiri seçilməsinə razılıq verərsə, o artıq istintaq orqanının özünün səlahiyyətinə aiddir ki, mən onun həbs qətimkan tədbirini öz səlahiyyətlərim daxilində dəyişə bilərəm. İsa Qəmbərov haqqında olduğu kimi.

**Sədrlik edən.** Təklif belədir, İxtiyar Şirinov, Sülhəddin Əkbərov cinayət üstündə tutulduqlarına görə, mən hesab edirəm, Milli Məclis bu gün razılıq verə bilər ki, onlar haqqında qətimkan tədbiri görülsün.

İsa Qəmbərova gəldikdə isə biz razılıq vermişdik ki, o, cinayət məsuliyyətinə cəlb olunsun. O artıq həbsdən azad olunub. Ona görə mənə belə gəlir ki, bu məsələni təzədən müzakirə etməyə ehtiyac yoxdur. Amma İxtiyar Şirinova mən hesab edirəm ki, biz razılıq verməliyik ki, qətimkan tədbiri ona tətbiq olunsun. Amma köhnə tarixdən yox, bu-

günkü gündən. Ona görə də mən xahiş edirəm, İxtiyar Şirinov haqqında bu təklifə münasibətinizi bildirəsiniz. Ayrı-ayrı səsə qoyacağam.

***(Səsvermə)***

Qəbul edildi.

Eyni təklif Sülhəddin Əkbərov haqqında. Xahiş edirəm, münasibətinizi bildirəsiniz.

***(Səsvermə)***

Qəbul edildi.

Mən öz fikrimi demək istəyirəm. Deputatların toxunulmazlığını biz qorumalıyıq. Bu, çox mühüm məsələdir. Əvvəllər Milli Məclisin icazəsi olmadan ayrı-ayrı deputatlar həbs olunmuşdu, saxlanılmışdı, bəzisi buraxılmışdı. Bunlar qanun pozğunluğudur, bunlara yol vermək olmaz, Konstitusiyanın pozulmasıdır. Sizi əmin etmək istəyirəm ki, mən Ali Sovetin sədri kimi deputatların hüquqlarının qorunmasını təmin etməyə çalışacağam və belə hallara yol verməyəcəyəm.

İsa Qəmbərovun haqqında Əli Ömərov deyir ki, o vaxt prokurorun təqdimatında yazılmışdı ki, qətimkan tədbiri qəbul olunması haqqında Milli Məclis razılıq versin. Mən qəsdən ona razılıq vermədim, çünki bu gün sizə deyirəm, İsa Qəmbərovun həbs edilməsinin tərəfdarı deyildim. İsa Qəmbərovun həbs olunmasından xəbərim olmayıb və sonra da mən, hər halda, öz səylərimi göstərdim ki, o, azad olunsun. Amma bu o demək deyil ki, İsa Qəmbərov cinayət etməyib. Şübhəsiz ki, biz iyulun 6-da Milli Məclisdə qəbul etdiyimiz qərarda göstərdik ki, İsa Qəmbərov da başqa vəzifəli şəxslər kimi 4 iyul hadisələrində günahkardır və şübhəsiz ki, o, qanun qarşısında cavab verməlidir. Amma bu o demək deyil ki, onu həbs etmək lazımdır. Mən onun tərəfdarı olmamışam, onun həbs edilməsindən xəbərim olmayıb. Biləndən sonra isə onun azad edilməsi üçün lazımi tədbirlər görmüşəm və buna da nail olmuşam. Ona görə də indi İsa Qəmbərov barəsində qətimkan tədbirinin görülməsi haqqında qərar qəbul edilməsinin əleyhinəyəm və bu məsələni səsə qoymayacağam.

Əli Ömərov, qurtardı. Mən heç bir şey qanunlaşdırmayacağam. Özünüz bilərsiniz. O şeyə ki mən Ali Sovetin sədri kimi razı olmamışam, mən onu qanunlaşdıra bilmərəm. Mən əgər razı olsaydım, onu müzakirəyə çıxarardım. Razı olmamışam, ona görə də qanunlaşdıra bilmərəm. Bu işlərə özünüz baxarsınız. Sağ olun.

Gələn iclas sentyabrın 3-də olacaq.

## AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN İCLASI

*3 sentyabr 1993-cü il*

*Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri* ***Heydər Əliyev*** *sədrlik edir*

**Sədrlik edən.** Axşamınız xeyir, hörmətli Məclis üzvləri, deputatlar, qonaqlar, mətbuat nümayəndələri. Milli Məclisin növbəti iclasına başlayırıq.

Rica edirəm, Məclis üzvləri qeydiyyatdan keçsinlər.

***(Qeydiyyat)***

40 nəfər iştirak edir, yetərsay var.

İclasın gündəliyinə aid məsələləri təqdim etmək istəyirəm. Bildiyiniz kimi, Rusiya Federasiyasının rəhbərliyi bir neçə ay bundan öncə və son vaxtlar Azərbaycan Respublikasının rəhbərliyinə – həm dövlət başçısına, həm də Azərbaycanın parlamentinə müraciət etmiş və Rusiya vətəndaşı olan və vaxtilə Qarabağ bölgəsində döyüşlərdə iştirak etdiklərinə görə tutulub, sonra yüksək cəzaya məhkum olunmuş 5 nəfər Rusiya vətəndaşının Rusiyanın sərəncamına verilməsi məsələsinə baxılmasını xahiş etmişdir. Bu məsələyə əvvəlcə respublikanın keçmiş Prezidenti baxıb, ancaq deyəsən, parlamentdə müzakirə edilməyib, qəti cavab verilməyibdir. Bu müddətdə, yəni biz indi parlamentdə işlədiyimiz vaxtda bu barədə yenə də müraciətlər olunub və son dəfə iki gün bundan öncə Rusiyanın Prezidenti Boris Yeltsinlə mən telefonla danışanda yenə də bu mövzuya toxunuldu, ona görə də bu barədə məsələyə baxılmasının gündəliyə salınmasını xahiş edirəm. Əgər bununla bağlı sual, etiraz yoxdursa, mən istərdim ki, bu məsələnin gündəliyə salınmasına Məclis üzvləri öz münasibətlərini bildirsinlər.

***(Səsvermə)***

Qəbul edildi. 32 nəfər lehinə səs verdi. Demək, məsələ gündəliyə salınır.

Çin Xalq Respublikasının Azərbaycanda səfirliyi təsis olunubdur və səfir də burada fəaliyyət göstərir. Bu böyük dövlətlə Azərbaycan Respublikası arasında müəyyən iqtisadi əlaqələr yaranıb, diplomatik əlaqə-

lər də onların tərəfindən yaradılmaqdadır, yəni yaradılıb, onlar öz səfirliklərini burada təşkil ediblər və səfir də buradadır. Şübhəsiz ki, belə bir ölkə ilə Azərbaycan Respublikasının diplomatik əlaqələrinin yaranması və ümumiyyətlə, gələcəkdə bütün əlaqələrin inkişaf etməsi üçün biz də addım atmalıyıq. Ona görə təklif var ki, Azərbaycan Respublikasının Çin Xalq Respublikasında səfirliyinin təsis edilməsi məsələsinə baxılsın və bu məsələnin də mən gündəliyə daxil olunmasını təklif edirəm. Əgər bu barədə də sual, yaxud başqa bir etiraz yoxdursa, xahiş edirəm, Məclis üzvləri öz münasibətini bildirsinlər.

***(Səsvermə)***

Qəbul edildi.

3-cü məsələ şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqındadır. İzahata ehtiyac yoxdur, təklif edirəm, bu məsələ gündəliyə salınsın. Xahiş edirəm, münasibətinizi bildirəsiniz.

***(Səsvermə)***

Qəbul edildi.

4-cü məsələ. Azərbaycan Respublikasının "İqtisadi Əməkdaşlıq Təşkilatının təsis edilməsi haqqında" İzmir Müqaviləsinə qoşulması barədə. Bu da məlum məsələdir. Rica edirəm, bu məsələnin gündəliyə salınmasına münasibət bildirilsin.

***(Səsvermə)***

Qəbul edildi.

5-ci məsələ. Azərbaycan Respublikasının Ümumdünya Meteorologiya Təşkilatının Konvensiyasına qoşulması haqqında. Xahiş edirəm, bu məsələnin gündəliyə salınmasına da münasibət bildirilsin.

***(Səsvermə)***

Qəbul edildi.

Sonra, respublikanın baş prokuroru dünən bir təklif vermişdir, bilmirəm, o müqavilə layihəsi var, yoxsa yox? Haradadır Əli Ömərov?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Bəli?

**Yerdən.** Prezident Aparatına deyiblər. Bütün günü axtardılar, tapa bilmədilər.

**Sədrlik edən.** Bəs nə cür olur? Yaxşı, Siz deyirsiniz ki, belə bir müqavilənin layihəsi var.

**Əli Ömərov,** ***Azərbaycan Respublikasının baş prokuroru.*** Var, bəli. Tofiq Qasımov...

**Sədrlik edən.** Buradadır. Mən də Sizdən xahiş elədim ki, bu gün ona baxaq, indi Siz gəlmisiniz, deyirsiniz ki, veriblər Prezident Aparatına, axtarıblar, tapa bilməyiblər. Onun, yəqin ki, surəti sizdə olardı, siz özünüz də tapaydınız onu.

**Əli Ömərov.** Bizdə yoxdur. Xarici İşlər Nazirliyində olub. Tofiq Qasımovla Hikmət Çətin imzalayıblar. Tofiq Qasımov da dedi, verib Prezident Aparatına. Mən Ali Sovetin Beynəlxalq şöbəsinə də dedim, onlar da axtardılar, tapa bilmədilər.

**Sədrlik edən.** Xarici işlər naziri Həsən Həsənov buradadırmı?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Bəs niyə dəvət olunmayıb? Xahiş edirəm, onu dəvət edəsiniz. Gərək o, dəvət olunaydı. Nə üçün dəvət olunmayıb? Tez.

Tofiq bəy, indi, bəlkə, Siz eşitmədiniz, Əli Ömərov bir neçə dəfə deyib, dünən axşam da mənə telefon etmişdi ki, burada baxılmaq üçün bir müqavilə layihəsi verilib – Azərbaycanla Türkiyə arasında, bir də, bu gün mənə dedilər ki, Azərbaycanla Rusiya Federasiyası arasında müqavilə. Mənə dünən deyib, mən də demişəm ki, bu gün gündəliyə sala bilərik, ancaq indi soruşuram, deyir ki, Prezident Aparatında axtarıb tapa bilmirlər onu. Bəlkə, Siz bunu bilirsiniz. Buyurun, Tofiq Qasımova mikrofon açın.

**Tofiq Qasımov.** Deməli, Türkiyə ilə Azərbaycan arasında belə bir müqavilə imzalanıb. Elə o vaxtdan təxminən bir ay, ay yarım sonra Xarici İşlər Nazirliyi tərəfindən Prezident Aparatına göndərilib, çünki Prezident Aparatından bura təsdiqə gəlməlidir. O müqavilə bu vaxta qədər Prezident Aparatında saxlanıb, təsdiqə gəlməyib, səbəbi də məlum deyil. Xarici İşlər Nazirliyinin Hüquq-Müqavilə İdarəsində onun əsli var, istənilən vaxt onu oradan götürmək olar.

Bu gün saat 2-də bizim komissiyanın iclası vardı, gəlib məndən soruşdular ki, o müqavilə harada ola bilər? Mən dedim, Hüquq-Müqavilə İdarəsindən soruşun, bir də Prezident Aparatında olmalıdır, yəni onu bu gün üçün qabaqcadan hazırlamaq barədə mənə heç kim heç nə deməyib. Mən özüm də onu tapıb gətirdə bilərdim.

O ki qaldı Rusiya ilə imzalanmış müqavilə, o müqaviləni ədliyyə nazirləri öz aralarında imzalayıblar, yəni dövlətlərarası müqavilə kimi im-

zalanmayıb. Onun da bir nüsxəsi mütləq Xarici İşlər Nazirliyində olmalıdır, ola bilər, bir nüsxəsi də Ədliyyə Nazirliyində olsun. Əgər o da təsdiq üçün verilibsə, deməli, Prezident Aparatı təqdim eləməlidir. Prezident Aparatı tərəfindən vaxtında təqdim olunmamış o cür çoxlu müqavilələrimiz var, o cümlədən iki müqaviləmiz də Amerika ilə imzalanmış müqavilədir, yəni onları biz vaxtında Prezident Aparatına təqdim eləmişik ki, versin Milli Məclisə. Sağ olun.

**Sədrlik edən.** Mən hamıdan xahiş edirəm, bir təklifi verəndə o təklif axıra çatdırılsın. Bizim baş prokuror Əli Ömərov mənə iki-üç dəfə bu barədə öz fikrini bildirib. Mən də hər dəfə demişəm ki, əgər belə bir sənəd varsa, çıxarın ortaya, biz baxaq. Dünən axşam da mənə telefon edib ki, sabah Milli Məclisin iclası olacaq, xahiş edirəm, bu məsələyə baxaq. Mən də deyirəm, gətirin baxaq. Axı belə şey yaramaz. Əgər bir təşəbbüsdə bulunursunuzsa, onu axıra çatdırın. Mən hesab eləmirəm ki, məsələn, Baş prokuror elə bu təklifi verməklə gərək işini qurtaraydı. Bunu axıra çatdıraydı, tapaydı, orada tapılmırdı, burada tapaydı, burada tapılmırdı, orada tapaydı. Yaxud da ki tamam tapılmırsa, onda mənə deyəydiniz ki, bu tapılmadı, bu gün buna baxmayaq. Mən verilən hər bir təklifə çox məsuliyyətlə yanaşıram. Dünən bu təklif verilib, mənim də yadımdan çıxmayıb. Lalə xanım, Siz buyurun. Mikrofon verin.

**Lalə Şövkət Hacıyeva.** Bu gün o sənədləri arayıblar və sənədlər yoxdur. Sənədlər ya itib, ya onları kimsə götürüb. Prezident Aparatında bu sənədlər yoxdur. Mənə bu gün belə arayış veriblər.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Yaxşı, sakit olun. Demək, məsələ belədir. Biz indi Xarici İşlər Nazirliyinə tapşırıq verək ki, o sənədi orada axtarsınlar. Tofiq Qasımov deyir ki, orada ola bilər. Onun surəti olsun. Sonra, Rusiya ilə əlaqədar Tamerlan Qarayev deyir ki, o bizim Ali Sovetdə olmalıdır, ona görə də xahiş edirəm, Katibliyə göstəriş verək ki, onların ikisinə də baxsınlar. Əgər etiraz etmirsinizsə, biz bu məsələləri müzakirə edənə qədər sənədlər gəlib çatmış olsa, baxılmaq üçün hazır olsa, biz onlara baxarıq. Etiraz yoxdur? Etibar bəy, buyurun.

**Etibar Məmmədov.** Deməli, Milli Məclisin keçən iclasında gündəliyə müharibə gedən rayonlarda yaranmış vəziyyətlə bağlı məsələ daxil edilmişdi, ancaq o biri məsələlərin müzakirəsi uzandığı üçün o məsələyə baxılmadı. Mümkünsə, xahiş edirəm, keçən dəfədən qalmış məsələnin müzakirəsi bugünkü gündəliyə salınsın.

**Sədrlik edən.** Müharibə gedən rayonlarda vəziyyət, ya ümumiyyətlə, vəziyyət?

**Etibar Məmmədov.** Müharibə gedən rayonlarda vəziyyət. Rayonların adları da göstərilmişdi gündəlikdə. Sonra o Lənkəran məsələsinin müzakirəsi uzandığı üçün o məsələnin müzakirəsi yaddan çıxdı.

**Sədrlik edən.** Bilirsiniz, bizim keçən gündəlikdə məsələ belə deyildi. Lənkəran məsələsi ilə yanaşı, respublikada ictimai-siyasi vəziyyət, o cümlədən müharibənin gedişi ilə əlaqədar vəziyyət – məsələ belə qoyulmuşdu. Doğrudan da, Lənkəranda olan vəziyyətlə əlaqədar bizim Məclisin iki gün, avqust ayının 16-da və 17-də iclası keçirildi və vaxt olmadı, o məsələ qaldı. Ondan sonra, təəssüf ki, bizim bu cəbhə bölgələrində vəziyyət, demək olar, hər gün dəyişir. Keçən iclasda mən məlumat verdim ki, Qubadlı rayonunda yaranmış vəziyyətlə əlaqədar – oradan qaçqınlar gəlib, Beyləqandadırlar, oradan bu tərəfə gəlirlər – hətta biz belə bir qərara gəldik və Nazirlər Kabinetinə göstəriş verdik ki, ora əlavə nazirlər göndərilsin və vəziyyətlə əlaqədar Baş nazir Surət Hüseynov iki gün bundan öncə o istiqamətdə hərəkət etdi. Dünən Beyləqanda olub, o qayıdan kimi mənə bu barədə məlumat verdi.

Ola bilər, bunu xüsusi bir məsələ kimi indi müzakirəyə qoymağa imkanımız yoxdur, ancaq mən istəyirəm, belə bir ortaq təklif irəli sürəm. Mən istərdim ki, biz birinci məsələyə baxanda Afiyəddin Cəlilova söz verək, son günlərdə bizim Ermənistanla, Dağlıq Qarabağda olan qüvvələrlə danışıqlarımız və əldə olunan sazişlər haqqında məlumat versin. Qubadlı rayonu ilə əlaqədar dünən gecə yarıya qədər və bütün günü həm Yerevanla, həm Xankəndi ilə, həm də Moskva ilə danışıqlar aparılıb, bunların nəticəsi haqqında – bizim Baş nazirin birinci müavini Zəngilanda oturub, o mütəmadi olaraq bizimlə əlaqə saxlayır – bu barədə məlumat verilsin.

Rusiyanın Xarici İşlər Nazirliyinin bəyanatı var. Türkiyənin Baş naziri Tansu Çillər dünən mənə telefon etmişdi, artıq bu gün Türkiyənin dövlət rəhbərliyinin yaranmış vəziyyət haqqında bəyanatı var. Mən istərdim ki, o bəyanatlar da Məclis üzvlərinə çatdırılsın. Bəlkə, bu məsələyə biz bu baxımdan toxunaq? Amma o rayonlardakı vəziyyəti bu gün geniş müzakirə etmək imkanı yoxdur. Əgər biz bu barədə məlumatları dinləsək, birinci məsələ ətrafında müəyyən bir fikir mübadiləsi aparsaq, mənə belə gəlir ki, bu gün üçün yetərli olar. Əgər Etibar Məmmədov etiraz etmirsə, biz məsələyə bax bu baxımdan yanaşaq. Etirazınız yoxdur?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Onda gəlin bax belə də nəzərdə tutaq. Tofiq Qasımov, buyurun.

**Tofiq Qasımov.** Deməli, mən bir şeyi diqqətinizə çatdırmaq istəyirdim. Rusiya ilə müqavilə məsələsində, mən bilən, belə razılığa gəlinmişdi ki, həmin müqavilələr Rusiya və Azərbaycan parlamentləri tərəfindən eyni vaxtda ratifikasiya edilsin. O baxımdan indi çox maraqlıdır ki, artıq Rusiya tərəfi o müqaviləni ratifikasiya eləməyə hazırdır, yoxsa yox? Onu da bilmək lazımdır. Mən buna diqqətinizi cəlb eləmək istəyirdim.

**Sədrlik edən.** Yaxşı. Asya Manafova buyursun.

**Asya Manafova.** Hörmətli sədr, bu gün Ali Sovetin qarşısında yığılmış Qubadlı rayonunun nümayəndələri həm Sizə, həm də Milli Məclisin üzvlərinə müəyyən problemlərin çatdırılmasını xahiş ediblər. Əgər imkan olarsa, birinci məsələ ilə əlaqədar mənə söz verərsiniz, iki kəlmə o barədə deyərəm. İstəyirsinizsə, indi. Necə məsləhətdir?

**Sədrlik edən.** Yox, elə birinci məsələ bütün bunların hamısını əhatə edəcəkdir, yəni biz birinci məsələnin çərçivəsini genişləndirdik, ona görə də bunların hamısını əhatə edəcəkdir. Siz də bu məsələnin müzakirəsində həm məlumatınızı, həm də ki öz fikirlərinizi söyləyə bilərsiniz.

Yaxşı, onda gəlin, qəbul olunmuş gündəliyin müzakirəsinə keçək. Birinci məsələ üzrə söz kimə verilir? Ramiz Fətəliyev, buyurun.

**Ramiz Fətəliyev.** Deməli, hörmətli sədr, işin mətləbini Sizin yadınıza salım. Bu barədə məhkəmədən sonra, türkcə desək, çox konular, olaylar oldu, Rusiya tərəfindən konkret, konstruktiv təkliflər olmadı. Onun üçün nümayəndələr gəldilər, Rusiyanın xalq deputatları getdilər, prokurorla da, hakimlə də, elə o hərbçilərin özləri ilə də görüşdülər, belə bir şey oldu. Amma son zamanlar Rusiya dövlətinin ən yüksək pilləsindən şəxsən Heydər müəllimə həm xahiş, həm təklif gəldi və bizim komissiya bu təkliflərə baxdı və sizə belə bir müraciət qəbul etdi. Deməli, müraciət də, müvafiq qərar layihəsi də sizə paylanıb, amma canlı yayımdır, onun üçün icazə versəniz, mən bunu oxuyaram ki...

**Sədrlik edən.** Nəyi oxuyacaqsınız?

**Ramiz Fətəliyev.** Bizim Milli Məclisə müraciətimizi və qərar layihəmizi.

**Sədrlik edən.** Sizin müraciət.

**Ramiz Fətəliyev.** Sizə paylanıb o, amma canlı yayımdır, istəyirəm, oxuyum.

**Sədrlik edən.** Sizə nə paylanılıb, mən bilmirəm. Siz nəyi oxumaq istəyirsiniz, mən başa düşmədim.

**Ramiz Fətəliyev.** Deməli, Azərbaycan Respublikasının Milli Məclisinə. Azərbaycan Respublikası Milli Məclisinin İnsan hüquqları və millətlərarası münasibətlər daimi komissiyası erməni silahlı qüvvələri sıralarında xidmətləri zamanı Azərbaycan Respublikası ərazisində təxribatlar törətmiş, ağır cinayətlər işləmiş və Azərbaycan Respublikası Ali Məhkəməsinin Hərbi kollegiyası tərəfindən məhkum edilmiş Rusiya Federasiyasının vətəndaşları Yevstiqneyevin, Kudinovun, Lisovoyun, Simeonun, Tukişin və Filippovun hazırda Dağlıq Qarabağda əsirlikdə saxlanılan 5 nəfər azərbaycanlı hərbi qulluqçularla, 9 nəfər girovluqda saxlanılan azərbaycanlılarla və əsirlikdə olan pilot Çistyakovla (məhkum edildikdən sonra) dəyişdirilməsi barədə və gələcəkdə belə halların qarşısının ciddi surətdə alınacağı barədə zəmanət vermələri haqqında Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əliyevlə müraciətlərini və Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin, Baş Prokurorluğunun, Milli Təhlükəsizlik Nazirliyinin rəylərini nəzərə alaraq, Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında hüquqi yardım və əməkdaşlıq haqqında bağlanmış müqaviləyə müvafiq qaydada aşağıdakı qeyd-şərtlə təklif olunan dəyişilmənin keçirilməsinə razılığını bildirir:

1. Azərbaycan Respublikası məhkum olunmuş Rusiya Federasiyasının vətəndaşları Yevstiqneyevi, Kudinovu, Lisovoyu, Simeonu, Tukişi və Filippovu Rusiya Federasiyasının hökumət orqanlarına təqdim edir.

2. Dağlıq Qarabağda əsir saxlanılan 5 nəfər azərbaycanlı hərbi qulluqçular, 9 nəfər girovluqda saxlanılan azərbaycanlılar, onlarla birlikdə və eyni vaxtda Rusiya Federasiyasının vətəndaşı Çistyakov və Ukrayna Respublikasının vətəndaşı Beliçenko Azərbaycan Respublikasının hökumət orqanlarına təqdim edilir. Azərbaycan Respublikası Milli Məclisinin İnsan hüquqları və millətlərarası münasibətlər daimi komissiyası Rusiya Federasiyasının dövlət orqanlarının təkliflərinin göstərilən qeyd-şərtlə qəbul edilməsini məqsədəuyğun hesab edir.

Mən iki məqamı xırdalamalıyam. Birincisi, pilot Çistyakov haqqında təklif belədir ki, o, məhkəmədən sonra bizə verilsin. Bizim komissiya, yəni Qəniyev, Timoşenko və mən qarşılıqlı təklif vermişik ki, ya məhkəmə bu prosedurdan tez olsun, ya da o, məhkəməsiz verilsin, çünki məhkəmə, bilirsiniz, 1 il də çəkə bilər, 2 il də, 3 ay da, 4 ay da və sair. İkinci məqam. Pilot Biliçenko Ukrayna vətəndaşıdır, ona görə də onların tərəfindən belə bir

fikir irəli sürülmüşdü ki, həmin pilot Ukrayna vətəndaşı olduğuna görə Ermənistan, Dağlıq Qarabağ Ukrayna ilə danışıqlar aparacaq. Amma biz belə hesab etdik ki, o bizim zabitdir, bizim tərəfin adamıdır və bizim tərəfdən, bir növ, mənəviyyatsızlıq olardı ki, onun tərəfini saxlamayaq. Bu cür.

Deməli, biz müvafiq qərar layihəsi də hazırlamışıq. Mənə elə gəlir ki, qərar layihəsini də oxuyum, sonra suallar olsa...

**Sədrlik edən.** Oxuyun.

**Ramiz Fətəliyev.** Qərar layihəsi. Azərbaycan Respublikasının Milli Məclisi Rusiya dövlətinin Azərbaycan Respublikası Ali Məhkəməsinin Hərbi kollegiyası tərəfindən məhkum edilmiş Rusiya Federasiyası vətəndaşları Yevstiqneyevin, Kudinovun, Lisovoyun, Simeonun, Tukişin və Filippovun Dağlıq Qarabağda əsirlikdə saxlanılan 5 nəfər azərbaycanlı hərbi qulluqçularla, 9 nəfər girovluqda saxlanılan azərbaycanlılarla və əsirlikdə olan Rusiya Federasiyasının vətəndaşı Çistyakovla dəyişdirilməsi barədə Azərbaycan Respublikası Ali sovetinin Sədrinə müraciətini və Azərbaycan Respublikası Milli Məclisinin İnsan hüquqları və millətlərarası daimi komissiyasının rəyini nəzərə alaraq, qərara alır:

1. Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında hüquqi yardım və əməkdaşlıq haqqında bağlanmış müqavilənin normalarına müvafiq qaydada Azərbaycan Respublikası Ali Məhkəməsinin Hərbi kollegiyası tərəfindən məhkum olunmuş Rusiya Federasiyasının vətəndaşları Yevstiqneyevin, Kudinovun, Lisovoyun, Simeonun, Tukişin və Filippovun Dağlıq Qarabağda əsirlikdə olan 5 nəfər azərbaycanlı hərbi qulluqçularla, 9 nəfər girovluqda saxlanılan azərbaycanlılarla, Rusiya Federasiyasının vətəndaşı Çistyakovla və Ukrayna vətəndaşı Biliçenko ilə dəyişdirilməsinə razılıq verilsin.

2. Azərbaycan Respublikası Milli Məclisinin bu qərarı haqqında Rusiya dövlətinə məlumat verilsin.

Bu qədər.

**Sədrlik edən.** Sualı olan? Kimin sualı var, buyursun. Tofiq Qasımov, buyurun.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Hə, çıxış edəcəksiniz. Hacıbaba Əzimov, buyurun.

**Hacıbaba Əzimov.** Mənim sualım belədir ki, 1-ci maddə, başa düşürük, nə deməkdir. Bu 2-ci maddə ki, məlumat verilsin, buna ehtiyac varmı?

**Ramiz Fətəliyev.** Bəli, bu, beynəlxalq qanunlar əsasında prosedurun bir hissəsidir.

**Hacıbaba Əzimov.** Bu qərar oldu. Qərar aydındır. Bu məlumat veriləcək.

**Ramiz Fətəliyev.** Məlumat verilməlidir.

**Hacıbaba Əzimov.** Bizim qərarımızda da olmalıdır?

**Ramiz Fətəliyev.** Onların borcu deyil axı, bizi izləsinlər, nə ilə məşğul oluruq. Onun üçün gərək onlara biz xəbər verək. Təbii şeydir.

**Sədrlik edən.** Başqa sualı olan yoxdur. Onda əyləşə bilərsiniz.

Tofiq Qasımov buyursun. Çıxış etmək istəyir.

**Tofiq Qasımov.** Hörmətli millət vəkilləri. Bu məsələyə Rusiya Federasiyasının Prezidenti Boris Nikolayeviç Yeltsinin, Ali Sovetin sədri Ruslan Xasbulatovun müraciətləri əsasında və Rusiya parlament nümayəndə heyətinin bura gəlişi vaxtı Dövlət quruculuğu və hüquq siyasəti komissiyası ilə İnsan hüquqları və millətlərarası münasibətlər komissiyasının birgə iclasında baxılmış və uyğun qərar çıxarılmışdı. Məsələ burasındadır ki, bu adamlar barəsində artıq məhkəmənin çıxardığı qərar var və bu qərara əsasən, onlar ən ağır cəzaya məhkum ediliblər. Ona görə də bu adamların qanuni şəkildə Rusiyanın ədalət məhkəməsinə verilməsi məsələsi ancaq məhkəmənin qərarına qədər olmalı idi. Bu olmayıbdırsa, indi yeganə bir yol belə ola bilərdi ki, həmin adamların Prezident tərəfindən əfv edilməsi məsələsi qoyulsun, yəni onların üzərindən güllələnmə cəzası götürülə bilərdi və o cəza 20 il həbs cəzası ilə əvəz edilə bilərdi. Bu gün hüquqi cəhətdən ancaq bu şeyi eləmək olar.

İkincisi, qərarda Rusiya ilə Azərbaycan arasında hüquqi əməkdaşlıq barədə müqaviləyə istinad edilir. Bayaq dediyim kimi, o müqavilə nə Rusiyada, nə də Azərbaycanda ratifikasiyadan keçməyib. Ratifikasiya olunmadığına görə onun əsasında bu gün biz o əsirləri vermək məsələsini, mənə elə gəlir ki, həll eləyə bilmərik. Özü də o vaxt Rusiyanın parlament nümayəndə heyəti ilə danışıqda belə razılığa gəlinmişdi ki, Rusiya tərəfi keçən dəfə leytenant Mukin məsələsində olduğu kimi, onları aparıb millət qəhrəmanı kimi təqdim eləməyəcək, əksinə, onları, doğrudan da, cəzalarını çəkməyə məhkum edəcək, yaxud da onların barəsində ədalət mühakiməsi həyata keçirəcəkdir.

Bildiyiniz kimi, keçən dəfə leytenant Mukin barədə belə bir şey olmadı. Danışıq olmuşdu ki, onlar mətbuatda, televiziyada və sair muzdlu əs-

gər məsələsini pisləyəcəklər və parlamentdə muzdlu əsgər kimi iştirakı pisləyən və qadağan eləyən qanun qəbul edəcəklər. Bu məsələlər nəzərdə tutulmuşdu. Mənə elə gəlir ki, Rusiya Federasiyasının televiziyası ilə bu hərəkətləri pisləyən ancaq bir veriliş oldu, ondan sonra nə qanunvericilik səviyyəsində, nə də ayrı bir səviyyədə başqa tədbirlər görülmədi.

Biz də indi bu addımı atanda, əlbəttə, belə çıxır ki, biz muzdlu əsgər kimi gəlib bizim vətəndaşlarımızı öldürən adamlara, bir növ, bəraət qazandırırıq, bir növ, onlara tərəf çıxmış oluruq. Bu baxımdan bu o qədər də asan məsələ deyil. Burada dəyişdirilən girovlar məsələsi də göstərilib. Əgər yaxından diqqət versəniz, o vaxt Dağlıq Qarabağın qondarma hökuməti bəyanat vermişdi ki, guya Dağlıq Qarabağda olan bütün azərbaycanlı əsirlərin və girovların hamısını ona dəyişməyə hazırdır, amma bu gün 7 nəfər çıxdı ortaya və əlavə bir-iki məsələ. Ola bilsin ki, bu məsələni bir az da müzakirə eləməyə ehtiyac var. Bunun hüquqi cəhətdən hansı şəkildə edilə biləcəyi məsələsini, mən elə bilirəm ki, müzakirə eləməyə ehtiyac var. Çox sağ olun.

**Sədrlik edən.** Sabir Rüstəmxanlı.

**Sabir Rüstəmxanlı.** Hörmətli sədr, hörmətli millət vəkilləri. Bu məsələ çoxdan gündəlikdədir, müzakirə olunur və mənə elə gəlir ki, bu gün atılan addım Rusiya ilə Azərbaycanın indi yaxşılaşmağa doğru gedən münasibətlərinin ümumi kontekstində çox məntiqli və yerində görünür, Azərbaycan dövlətinin humanist bir addımı kimi qiymətləndirilməlidir. O ki qaldı bu söhbətin müxtəlif təbəqələrdə, müxtəlif səviyyələrdə müzakirəsinə, demək olar ki, Rusiya tərəfindən bütün nazirliklərdən, bütün mərtəbələrdən Azərbaycana müraciətlər var idi. Məsələn, bir dəfə Rusiyanın mətbuat və informasiya naziri mənə çox geniş məktubla müraciət eləmişdi ki, günahsız rus uşaqlarıdır, bunları bağışlamaq lazımdır. Mən də çox geniş məktub yazdım ki, biz çoxdandır, sizinlə tanışıq, bir-birimizə hörmətimiz var, amma təəssüflənirəm ki, son 5 ildə Azərbaycanda bu qədər qanlar tökülüb, siz 5 nəfər rus uşağına ölüm cəzası kəsiləndən sonra Azərbaycanı yada salırsınız, məktub yazırsınız. Bəs bizim 20 yanvarda tökülən qanlarımız, Xocalı, bir ziyalı kimi, hüquqşünas kimi, hər halda, sizi narahat eləməli idi. Heç olmasa, bircə dəfə başsağlığı teleqramınız, heç olmasa, bircə dəfə kəsərli məktubunuz ola bilərdi, yəni adi insani duyğular və həmkarlıq bunu tələb eləyir.

Biz sonra əlaqə saxladıq, məktub, hər halda, çox diqqətlə qarşılanmışdı, müəyyən təsir də göstərmişdi. Mənə elə gəlir ki, bugünkü aksi-

ya hər şeydən əvvəl siyasi bir aksiyadır. Azərbaycan bu aksiyanı həm Rusiya mətbuatında, həm də dünya mətbuatında kifayət qədər səsləndirməyi bacarmalıdır, o cəhətdən bu qərar layihəsində elə məhkum olunmuş deyilib üstündən keçilməsini mən düzgün başa düşmürəm. Mənə elə gəlir ki, burada yazılmalıdır, ən ağır cəzaya, ölümə məhkum olunmuş Rusiya Federasiyasının vətəndaşları dəyişdirilir və bəlkə də, bu dəyişdirilməzdən əvvəl hökmən onların söhbəti olmalıdır. Yəni onu demək istəyirəm ki, Azərbaycan dövləti bu humanist addımı atır və bundan sonra onların ən böyük cəzası əfv olunur, onlar bağışlanır və dəyişdirilir. Mənə elə gəlir ki, bu qərar layihəsində iki anı, iki məqamı nəzərdə tutmaq olardı ki, siyasi cəhətdən bizim addımın mənası daha aydın ifadə olunsun.

**Sədrlik edən.** Mirmahmud Fəttayev.

**Mirmahmud Fəttayev.** Hörmətli millət vəkilləri, hörmətli sədr. Məsələ gündəliyə salınanda lehinə səs verənlərdən biri mən idim. Bu gün Prezidentin səlahiyyətlərini icra edən Ali Sovetin sədrinin müstəsna səlahiyyətidir ki, onları, yəni 6 nəfəri bağışlasın. Mənim fikrim belədir və bu gün ərazisində müharibə gedən, hər gün də uduzan bir dövlətin vətəndaşlarının, millət vəkillərinin nə mənəvi, nə siyasi haqları yoxdur ki, bu qərarı qəbul eləsinlər. Siyasi cəhətdən və hərbi cəhətdən uduzduğumuza görə.

Bir neçə müddət bundan əvvəl mətbuatda bar-bar bağıraraq Salatın Əsgərovanın qatilləri olan bu adamların haqqında ictimai rəy yaradan bizlər bu gün onları bağışlaya bilmərik. Mənəvi haqqımız yoxdur, ona görə ki torpaqlarımızı itiririksə, şəhidlərimizin ruhu, şahidlərimizin ahı bu hərəkəti bizə bağışlamaz. Mənə elə gəlir ki, bu bizim siyasi cəhətdən də uğursuz hərəkətimiz olar. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Arif Rəhimzadə.

**Arif Rəhimzadə.** Hörmətli sədr, hörmətli millət vəkilləri, mən Mirmahmud bəyin dediyi ilə heç razılaşa bilmərəm. Əlbəttə, Ali Sovetin sədri, Prezidentin vəzifəsini həyata keçirən Heydər Əliyev yoldaş bu məsuliyyəti öz üzərinə götürə bilərdi, bəlkə, bu məsələni özü də həll eləyə bilərdi, ancaq mən hesab eləyirəm, bu elə böyük bir məsələdir ki, biz gərək burada məsuliyyətdən qaçmayaq, bu məsələyə birmənalı münasibətimizi bildirək. Əlbəttə, müharibə gedir və müharibə Azərbaycan üçün çox uğursuzdur. Elə bunun özü bizi bu gün vadar eləyir ki, bu qərarı qəbul eləyək və burada şəhidlərin ruhuna istinad etmək, mən hesab

eləyirəm, sadəcə olaraq, bir spekulyasiyadır. Biz gərək dirilər haqqında fikirləşərək bu qərarı qəbul eləyək.

Biz bilirik ki, bu gün müharibədə biz heç bir müqavimət göstərə bilmirik və bizim bugünkü qərarımız, siyasi qərarımız, mən hesab eləyirəm ki, münasibətlərin yaxşılaşdırılmasında, müharibənin aparılmasında müəyyən köməyə səbəb olacaq və gərək Milli Məclis məsuliyyət altından qaçmasın və öz rəyini bildirsin. Mən hesab edirəm ki, bugünkü ağır vəziyyətdə Azərbaycan ərazisinin böyük bir hissəsinin getməsi bizi vadar eləyir ki, biz bu qərarla razılaşaq.

**Sədrlik edən.** Şirin Hacıkərimov, buyurun.

**Şirin Hacıkərimov.** Hörmətli sədr, hörmətli millət vəkilləri, bu məsələ ilə bağlı Anikiyev başda olmaqla Rusiya Federasiyasının nümayəndə heyəti bura gələndə mən və millət vəkili Vaqif Qasımov o nümayəndələri müşayiət etmişik. Odur ki, xahiş edirəm, düzgün başa düşün, millət vəkili kimi bizim də bu işə qarışdığımızı xahiş etdiklərinə görə o vaxt məsuliyyəti öz boynumuza götürərək, millətimin 1 milyonunun Rusiyada yaşamasını nəzərə alaraq, neçə yüz cavan uşaqlarımızın ermənilərin əlində əsir qaldığını bilərək, gücümüzün nə səviyyədə olmasını dərk eləyərək, mən özüm də xahiş eləmişdim ki, müstəsna səlahiyyəti kimi Prezident Əbülfəz Elçibəy özü bu məsələni həll eləsin, amma buna baxmayaraq bu gün hər iki səlahiyyət Heydər müəllim, Sizin əlinizdə olsa da, təkcə Siz deyil, burada oturan millət vəkilləri kimi biz hamımız məsuliyyəti öz üzərimizə götürərək dərin düşünməliyik.

6 nəfər rus hərbçisinin nə vaxt, necə bizim əlimizə düşməyini təfsilatı ilə bilirəm. Lazım olsa, hərbi kollegiyanın üzvləri burada sizə geniş məlumat verə bilər. Bir şeyi dərk eləməliyik ki, onların 6 nəfərinin əvəzinə bizə verilən əsirlərin arasında, görürsünüz ki, o millətdən olan nümayəndələr də var. Biz açıq danışmalıyıq, düzünü deməliyik, mütəxəssislərdən biz də istifadə edirik, etmişik də. Xahiş edirəm, düzgün başa düşün. Biz tərəfdən də müəyyən sahələrdə mütəxəssislərdən istifadə olunduğunu dərk eləyərək mən xahiş edərdim, millət vəkillərinin hər biri öz fikrini deməklə bərabər ağır günümüzdə müdriklik, səbir, düzgün münasibət göstərsin, bu işi axıra çatdıraq. Mən xahiş edərdim ki, Rusiya Federasiyasına olan tələblərimizi də orada yazın, yəni Rusiya parlamenti bütün rus xalqına başa salmağı öz boynuna götürür ki, gələcəkdə bu cür azmış, pul gücünə hərəkət edən insanları bura gəlməyə qoymasınlar.

**Sədrlik edən.** Asya Manafova.

**Asya Manafova.** Hörmətli sədr, hörmətli xalq deputatları. Bu gün müzakirə olunan məsələ siyasi cəhətdən çox sanballı məsələdir. Biz bilirik ki, həmin məhkum olunmuş vətəndaşların respublika qarşısında cinayəti olduqca böyükdür. Digər tərəfdən də biz yaddan çıxarmalı deyilik ki, bu gün respublikada gedən müharibənin və müharibədə uduzmağımızın səbəblərindən biri bizim münasibətlərin yaxşılaşdırılmasına getməməyimizdir. Mənə belə gəlir ki, bu gün Rusiya kimi bir dövlətin müraciətinə biz etinasız baxa bilmərik. Düzdür, bizim üçün nə qədər ağır, nə qədər çətin olsa da, bu gün razılaşmalıyıq ki, əgər qalib gəlmək istəyiriksə, əgər torpaqlarımızı geri almaq istəyiriksə, əgər ermənilərin təcavüzü altında qalmış qadınlarımızın, qızlarımızın, gənclərimizin geri qaytarılmasını istəyiriksə, biz bu addıma getməliyik. Düzdür, mən yenə də deyirəm, çox ağır addımdır, heç zaman mən razı ola bilməzdim ki, vətənimə xain çıxanların əfv edilməsinə razılıq verək, amma məcburiyyət qarşısında qalmışıq, bunu biz danmalı deyilik və bunu bütün camaata bildirməliyik. Həqiqətən, belə bir addımın bütün yükü yalnız sədrin öhdəsinə qoyulmamalıdır, bütün millət vəkilləri bunu öz boynuna götürməlidirlər.

Bu məsələni bu günlərdə verilmiş Qubadlının timsalında mən bir daha izah eləmək istəyirəm. Mətləbdən kənar olsa da, çox xahiş edirəm, bu məsələyə diqqətinizi yetirəsiniz. Bu gün neçə-neçə qaçqın Ali Sovetin qarşısına gəlmiş, çox xahiş eləmişdir ki, mən Heydər Əliyevə, Məclis üzvlərinə onların bəzi tələblərini çatdırım. Birincisi, Qubadlının döyüşsüz təslim olması faktının həqiqətə uyğun olmadığını, rayonun mühasirədə qaldığını, köməyin vaxtında gəlib çatmadığını söyləyiblər. Qubadlılılar nə respublikanın digər regionlarında yerləşmək, nə də yardım istəmədiklərini bildirmiş, yalnız hərbi kömək göstərilərsə, Qubadlıya qayıdacaqlarını, rayonda qalmış taxılın, mal-qaranın, camaatın ev əşyalarının talan olunmasının qarşısını almaq üçün var qüvvələrini sərf edəcəklərini bildirmişlər. Onlar Qubadlı rayonunun taleyi barədə vaxtlı-vaxtında rəsmi məlumatın verilməsini, dövlət səviyyəsində onlarla əlaqə saxlayan konkret şəxsin müəyyənləşdirilməsini, ağır vəziyyətdə olanlara kömək göstərilməsini xahiş etmişlər. Rayonda fəaliyyət göstərən hərbi batalyonların komandirlərinin tərkibinin təhlil edilməsində təkid edirlər. Belə ki, həmin komandirlərin 4-nün Rəhim Qazıyevin tərəfdarları olduqları üçün yerlərdə təxribatla məşğul olduqlarını bildirmişlər və barələrində tədbir görülməsini tələb edirlər. Onlar Nəvai–Bakı yolunda postlarda camaatı incidənlər, respublikanın bu ağır vəziyyətinə

baxmayaraq, şəxsi mənfəətini güdənlər haqqında ciddi tədbirlər görülməsində təkid edirlər.

Qubadlı sakinlərinin bu tələblərini sizə çatdırmaqla mən bir daha müzakirə etdiyimiz məsələyə qayıtmaq istəyirəm. Belə ki, bütün bu çaşqınlıqların, qanunsuzluqların qarşısını tezliklə almaq üçün biz müəyyən hallarda güzəştə getməliyik. Bizim başqa əlacımız yoxdur. Biz bunu başa düşməliyik. Ona görə də mən tərəfdarıyam ki, bu gün müzakirə olunan məsələyə müsbət rəy bildirilsin.

**Sədrlik edən.** Asya xanım, qubadlılıların müraciətini dinlədik. Rica edirəm, bizim Katibliyə verəsiniz və tapşırıram ki, o mütləq mətbuatda dərc olunsun. Çünki mən keçən iclaslarda da demişəm, tək Qubadlı deyil, hər gün biz içimizdə olan xəyanətlərə rast gəlirik, o cümlədən artıq Rəhim Qazıyevin adını çəkmək belə böyük bir nifrət hissi doğurur, adam onun heç adını çəkmək istəmir. Həmin bu müraciətdə də deyilir, onun ora getməsi, orada təxribat işləri aparması, bilirsiniz, xalqa bundan artıq xəyanət ola bilməz.

Mən təəccüb edirəm ki, bizim Daxili İşlər Nazirliyi və Milli Təhlükəsizlik Nazirliyi indiyə qədər savadsızlıq, bacarıqsızlıq göstərirlər. Mən bu gün Vaqif Novruzova və Nəriman İmranova xüsusi xəbərdarlıq eləmək istəyirəm, əgər siz bu işi bacara bilmirsinizsə, onda deyin ki, bacara bilmirik. Bu qədər təxribatlara dözmək olmaz axı. Siz oradan Əlikramı qaçırtdınız, tuta bilmirsiniz, burada Rəhim Qazıyev, nə olub ki, Azərbaycanın torpağında tutula bilmir, orada təxribat yaradır, burada təxribat yaradır. Yəqin ki, sizin içinizdə də o təxribatçılar var, sizin tapşırıq verdiyiniz adamlar Sizin göstərişlərinizi yerinə yetirmirlər. Bunu artıq Qubadlıdan, o bölgədən gələn adamların hamısı deyir. Hamı görür, hamı danışır. Amma bizim hüquq-mühafizə orqanları və xüsusən Daxili İşlər Nazirliyi və Milli Təhlükəsizlik Nazirliyi bu barədə fəaliyyətsizlik nümayiş etdirirlər. Mən bir də rica edirəm, Katiblik bu müraciəti alsın və dərc etsin. Rəsul Quliyev, buyurun.

**Rəsul Quliyev.** Hörmətli millət vəkilləri, burada söylənilənlər doğrudur, həqiqətən, çox şəhidlər vermişik, xüsusilə axırıncı il yarımda şəhidlərin sayı, yəqin, 10 mini keçir. Bu qədər şəhidlər verilməsinə kimsə nə vaxtsa cavab verəcək, hökmən verəcək. Şəhidlərin olması, torpaqların verilməsi axırıncı il yarımda, bir ildə aparılan səhv siyasətin nəticəsində baş verib. Bu siyasətə görə də indi burada oturub əvvəlki siyasəti davam etdirənlər və onların rəhbər işdə işləyənləri, sözsüz ki, cavab verəcəklər

və verməlidirlər. Azərbaycanın verdiyi itkilər, şəhidlər bu adamlar üçün azdır. Gərək hökmən bu davam eləyə, gərək hökmən Azərbaycan qanın içində üzə. Onda özünü azərbaycanlı adlandıran adamlar, bəlkə, başa düşə ki, səhv eləyirlər.

Bunun qarşısını almaq, indiyə qədər aparılan səhv siyasətin yönünü döndərmək üçün təşəbbüs göstərilir, görürsünüz, buna necə müqavimət göstərirlər. Çünki şəhid vermək lazımdır, Mirmahmud müəllim, gərək çoxlu şəhid verilsin. Gör bunlar nə qədər qeyri-obyektiv insanlardır ki, Salatının ölməsini 5 nəfərin tutulması ilə əlaqələndirirlər. Bilirsiniz, bu cür təxribat xarakterli çıxışlara da cavab verməlidir, bu şəxslər xalqın qarşısında cavab verməlidirlər. Mən sayıram ki, atılan addım siyasi bir addımdır, burada nə deyilən kimi, ürəyimiz yandı, nə də təslimçilik var. Bu, siyasi bir addımdır, bunu başa düşmək və bu siyasi addımı, necə deyərlər, təsdiqləmək lazımdır. Sağ olun.

**Sədrlik edən.** Respublikanın Baş prokuroru Əli Ömərov.

**Əli Ömərov.** Hörmətli sədr, hörmətli millət vəkilləri, bu məsələnin komissiyada müzakirəsi zamanı məni də dəvət eləmişdilər. Mən Rusiya Federasiyası Ali Soveti sədrinin müraciəti ilə tanış olduqda bir daha yəqin etdim ki, bu məsələnin müsbət həllinin həm siyasi, həm də böyük hüquqi əhəmiyyəti var. Siyasi əhəmiyyəti ondan ibarətdir ki, Rusiya Federasiyası Ali Sovetinin sədri öz məktubunda öhdəlik götürür ki, əgər bu məsələlər düzgün həll olunarsa, Rusiya hökuməti Rusiya vətəndaşlarının, o cümlədən Rusiya ordusunda xidmət eləyən hərbi qulluqçuların göstərilən qəbildən olan münaqişələrdə bir daha iştirak etməsinin qarşısını alacaqdır. Hüquqi əhəmiyyəti ondan ibarətdir ki, qanunda da var, əgər qarşısı alınan zərər vurulan zərərdən daha əhəmiyyətlidirsə, qanunla o, cinayət hesab olunmur.

Mən demirəm ki, bu vətəndaşlar törətdikləri cinayətə görə tam bağışlanılmalıdır. Məsələnin qoyuluşunun özü də, çox təbii ki, belə deyil. Sadəcə olaraq, məhkəmənin müstəsna cəza olan ölüm cəzası kəsməsi haqqında hökmünün icrası dayandırılır. Rusiya Federasiyası həmçinin öhdəlik götürür ki, həmin şəxslər törətdiyi cinayət əməllərinə görə qanunvericiliyin tələbləri səviyyəsində müvafiq qaydada məsuliyyətə cəlb olunacaqlar.

Bundan əlavə, mən bir şeyi də xatırlatmaq istəyirəm. Deputat Tofiq Qasımov bayaq çıxışında dedi ki, guya Rusiya ilə Azərbaycan arasında hüquqi yardım haqqında heç bir müqavilə yoxdur. Mənə çox qəribə gə-

lir. Belə çıxır ki, hüquqşünaslar çıxış edəndə Nyuton qanunundan, yaxud Con Leys qanunundan danışmalıdırlar ki, burada oturanlar görsünlər, biz də fizikadan bilirik. Lakin hüquqşünaslar yaxşı bilirlər ki, hər bir qanunun zamana görə qüvvəsi vardır. Bununla əlaqədar mən Azərbaycan Respublikası Ali Sovetinin sədri İsa Qəmbərin imzası ilə təsdiq olunmuş Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında hüquqi yardım haqqında qanunu oxumaq istəyirəm.

Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında hüquqi yardım, mülki, ailə və cinayət işləri üzrə hüquqi münasibətlər haqqında müqavilənin təsdiq edilməsi barədə. Azərbaycan Respublikasının Milli Məclisi qərara alır: Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında hüquqi yardım, mülki, ailə və cinayət işləri üzrə hüquqi münasibətlər haqqında 1992-ci il 22 dekabr tarixli müqavilə təsdiq edilsin. Azərbaycan Respublikası Ali Sovetinin sədri İsa Qəmbər. Bakı şəhəri, 3 mart 1993-cü il. Yəni demək istəyirəm ki, dəqiq bilmədiyiniz bir şeyi danışmaq məsələləri qəlizləşdirmək və kəskinləşdirməkdən başqa bir şey deyildir.

**Sədrlik edən.** Ramiz Fətəliyev.

**Ramiz Fətəliyev.** Heydər müəllim, mən bir də söz aldım, ona görə ki bəzi deputatların məsuliyyətsiz çıxışlarından bizim xalqda yanlış təsəvvür yarana bilər ki, bəlkə, yüngül xahişlər olub, ya nə isə məsuliyyətsiz təkliflər olur, biz də elə-belə bu qərarı çıxarmışıq. Rusiya dövlətinin təklifində bu şəxslərin ədalət mühakiməsinə verilməsi və bundan sonra belə halların qarşısının alınacağına dair təminatlar var. Özü də yenə də təkrar edirəm, Rusiya dövlətinin ən yuxarı pilləsindən. Bu bir.

İkincisi, söhbət bağışlamaqdan getmir, söhbət 6 hərbçinin müvafiq orqanlara təhvil verilməsindən gedir. Bu səhvə də yol vermək olmaz. Canlı yayımda getdi ki, bağışlamaq. Bağışlamaq söhbəti yoxdur burada.

Axırıncı, bilirsiniz, biz hərdənbir bəzi sözlərlə şifahi alver edirik. Mənim üçün də şəhidlərin ruhu müqəddəsdir. Ondan müqəddəs heç nə yoxdur. Amma 16 nəfər ki dəyişməni gözləyir, onlar şəhid deyildir, onlar sağdırlar, onlar diridirlər. Onlar durur, onların anaları var, balaları var, əzizləri var. Biz bu addıma getməsək, onlar da şəhid ola bilərlər. Mən soruşuram, bu vəziyyət kimə xeyirlidir? Belə bir məsələ kimin üçün faydalı ola bilər? Əlbəttə, insan taleyindən söhbət gedəndə riyaziyyat yersizdir, amma vulqar riyaziyyat da bizə əsas verir, sual verək: 16 çoxdur, ya 6? Çox sağ olun.

**Sədrlik edən.** Vaqif Qasımov, buyurun.

**Vaqif Qasımov.** Hörmətli Məclis üzvləri, hələ iyun ayının əvvəlində Rusiya Federasiyası Ali Sovetinin Millətlərarası Şurası sədrinin müavini Anikeyevin başçılığı ilə Rusiya parlamentinin bir sıra deputatları iki respublika arasında parlamentlərarası münasibətləri müzakirə etmək üçün Bakıya gələrkən bizə müraciət etdilər ki, Ruslan Xasbulatovun xahişi ilə Rusiya silahlı qüvvələrinin 6 nəfər keçmiş hərbi qulluqçusunu əfv etmək barədə məsələ də müzakirə olunsun. Onlar qeyd etdilər ki, göstərilən Rusiya vətəndaşları özlərinin birbaşa rəhbərlərinin təqsiri və öz ağılsızlıqları üzündən dost Azərbaycan Respublikasının qanunlarını pozmuş, Rusiya ilə Azərbaycan arasında əsrlərdən bəri davam edən mehriban qonşuluq münasibətlərinə öz hərəkətləri ilə ləkə vurmuşlar. Rusiya parlamentinin üzvləri muzdluluğu pisləyərək əmin etdilər ki, belə hallara yol verilməməsi üçün ən qısa müddətdə tədbirlər görüləcək, hərbi qulluqçuların cinayət hərəkətlərinə cəlb edilməsində Rusiya tərəfindən günahkar olanlara isə ciddi cəza veriləcək. Bunu nəzərə alaraq, Şirin müəllim də qeyd etdi, Milli Məclisin üç komissiyasının sədrləri və birinin sədr müavini Rusiya parlamentinin 4 üzvü ilə birgə sabiq Prezidentə müraciət etdilər, lakin o bizim müraciətimizə heç bir münasibət bildirmədi.

Xasbulatov tərəfindən təsəlli məktubu göndərilib və məktub da mətbuatda dərc olunub. O vaxt Tofiq müəllim bizim müraciətə qol çəkməkdən imtina etdi. Bu gün burada Əli Ömərov da dedi ki, həmin müqavilə bizim parlament tərəfindən hələ martın 3-də ratifikasiya edilib, qanun qəbul edilib, mənim də Rusiya parlamentinin müvafiq komissiyalarının sədrləri ilə danışığıma görə, bu məsələ hazırlanıb, yaxın vaxtlarda Rusiya parlamentində təsdiq ediləcəkdir. Mən özüm həbsxanaya getmişəm, 6 nəfərlə söhbət etmişəm. Onlar dərindən kədərləndiklərini, bu barədə gedib Rusiyada lazımi çıxışlar edəcəklərini bildiriblər. Onların Rusiya məhkəməsinə təhvil verilməsinin siyasi əhəmiyyətini, Rusiyada yaşayan yüz minlərcə soydaşımızın bizim komissiyaya çoxsaylı müraciətlərini nəzərə alaraq xahiş edirəm ki, bu gün bu məsələyə müsbət baxılsın. Milli Məclisin üzvlərini mən buna dəvət edərdim.

**Sədrlik edən.** Mən bir məlumatı əlavə etmək istəyirəm. Rusiyanın Xarici İşlər Nazirliyinin rəhbərləri mənə bildiriblər ki, Rusiyanın Prezidenti Boris Yeltsin iki dəfə telefonla Əbülfəz Elçibəyə müraciət edib. Rusiya parlamentinin rəhbəri Xasbulatov əvvəllər də məktub göndərib, sonra da məktub göndərib. Yalnız təəssüf doğuran cəhət burasıdır ki,

Rusiya dövlətinin başçısı Boris Yeltsinin iki dəfə Əbülfəz Elçibəyə müraciət etməsi baxımsız qalıb, yəni nəticəsiz qalıb. Ya "hə", ya da "yox" demək lazım idi. Ancaq böyük bir dövlətin başçısının digər bir dövlətin başçısına müraciətinə diqqətsizlik etmək, sadəcə olaraq, o dövləti, yəni bizim dövləti hörmətdən salmaqdır. Ona görə də görürsünüz, həm Rusiyanın parlamenti müraciət edib, həm də Rusiyanın Prezidenti müraciət edib, indi biz işlədiyimiz dövrdə yenidən Rusiya parlamentinin rəhbəri Xasbulatov müraciət eləyib, Rusiyanın Prezidenti Boris Yeltsin müraciət eləyib, xarici işlər naziri müraciət edib. Bu qədər müraciətlər var, ona görə mən istəyirəm, ümumi məlumat hamıda olsun ki, bu, sadəcə olaraq, bir instansiyanın müraciəti deyil, Rusiya dövləti rəhbərlərinin hamısının müraciətidir.

Qalib Qurbanova söz verilir, buyursun.

**Qalib Qurbanov.** Hörmətli sədr, hörmətli millət vəkilləri, məhkum olunmuş 6 rus hərbçisi ətrafında Rusiyada geniş anti-Azərbaycan kampaniyası keçirilir. Biz hərtərəfli siyasi blokada şəraitində olduğumuz üçün bütün bunları nəzərə almaya bilmərik. Bundan başqa, böyük, qüdrətli dövlətin başçısı, parlamentin rəhbəri bizə dönə-dönə müraciət eləyib. Xahiş edirəm, bütün bunları nəzərə alaraq qərar layihəsini səsə qoyaq.

**Sədrlik edən.** Tapdıq Kamalov.

**Tapdıq Kamalov.** Hörmətli sədr, hörmətli Azərbaycan xalqı, biz, millət vəkilləri, bu çox mühüm və məsuliyyətli işi boynumuza ona görə götürürük ki, respublikamız öz tarixində belə bir çətin dövr yaşamayıb. Mən sual vermək istəyirəm, əgər biz bu qərarın əleyhinə getsək, nə udarıq, bu qərarı qəbul eləsək, nə udarıq? Mənə belə gəlir ki, əleyhinə getsək, biz mənəvi cəhətdən, bəlkə də, udarıq, ancaq əleyhinə getsək, siyasi cəhətdən bizə çox ağır başa gələr.

Mən başa düşürəm, biz şəhidlərin ailələri və xatirələri qarşısında dəfələrlə baş əyirik, bunlar bizim axırıncı qurbanlarımız olsun, ancaq gəlin dərindən fikirləşək, bu gün bizim başqa çıxış yolumuz yoxdur, onsuz da, biz təklənmişik, bizi heç kim müdafiə eləmir. Əgər bu gün bu güzəştə getməsək, bəlkə də, bizi bundan ağır günlər gözləyir. Mənim təklifim odur ki, düzdür, bunlar canidirlər, necə deyərlər, cəzalarını alacaqlar. Ancaq bu gün bizə təqdim olunmuş qərar layihəsi ilə mütləq razılaşmaq lazımdır. Çox sağ olun.

**Sədrlik edən.** Şaitdin Əliyev.

**Şaitdin Əliyev.** Hörmətli sədr, hörmətli millət vəkilləri, 5 ildir ki, bizim torpağımızda elan edilməmiş müharibə gedir və bu müharibənin gedişi ərzində biz minlərcə şəhidi qurban vermişik, onlar bizim ölkəmizin azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda vuruşublar. Bu gün Milli Məclisin gündəliyinə salınmış məsələ, doğrudan da, elə bir məsələdir ki, təkcə Milli Məclisə deyil, bütün xalqımıza aiddir, hətta deyərdim ki, dünya ictimaiyyətinə aiddir. Dəfələrlə biz dünya ictimaiyyətinə sübut etməyə çalışmışıq ki, bizim torpaqlarımızın işğal edilməsində iştirak edənlər təkcə erməni silahlı qüvvələri deyil. Erməni silahlı qüvvələrinin tərkibində başqa xarici dövlətlərin nümayəndələri, eyni zamanda Rusiyanın hərbi qulluqçuları iştirak edirlər. Məhz Rusiyanın 6 nəfər keçmiş hərbi qulluqçusunun tutulması və onlara ölüm cəzası kəsilməsi buna real sübutdur.

Burada doğru qeyd etdilər ki, həmin bu 6 nəfərin bizim övladlarımızın qətlə yetirilməsində əli olmuşdur və bu artıq sübut edilmişdir, lakin bu gün biz məsələyə real baxmalıyıq. Bizim respublikaya Rusiya Ali Sovetinin sədri Xasbulatovun, Rusiya Prezidentinin səlahiyyətli nümayəndəsi Kazimirovun, Rusiya Federasiyasının xalq deputatı Açalovun müraciətləri, burada qeyd edildi, Rusiyanın bir çox başqa müraciətləri olmuşdur. Rusiyanın 6 nəfər keçmiş hərbçisi haqqında qərarı mən elə bilirəm ki, nə qədər də çətin olsa, qəbul etməliyik. Lakin müraciətləri nəzərə alaraq, bu qərarı qəbul etməklə dövlətimiz humanistliyini göstərir. Burada aydın göstərilir ki, biz onları heç də bağışlamırıq, beynəlxalq hüquq normalarına uyğun olaraq Rusiyanın ədalət məhkəməsinə veririk və onların əvəzinə girovluqda saxlanılan əsir azərbaycanlıların, eyni zamanda 1 rusun və 1 ukraynalının geri alınması məsələsi qoyulur.

Mən elə bilirəm ki, bu gün biz bu qərara səs verməliyik, lakin bununla bərabər mən də bir məsələni qeyd etmək istərdim. Biz bu humanist hərəkətimizi, yəni biz 6 nəfərin Rusiyanın ədalət məhkəməsinə verilməsi məsələsini bütün dünya ictimaiyyətinə mətbuatımız vasitəsilə, bütün başqa kanallarla çatdırmalıyıq ki, belə bir humanist addım atırıq, lakin bununla dünyaya sübut olunmalıdır ki, Azərbaycan təkcə ermənilərlə vuruşmur, başqa xarici dövlətlərin nümayəndələri də erməni silahlı qüvvələrinin tərkibində bizə qarşı vuruşur. Mən elə bilirəm ki, yəqin, bizim bugünkü müzakirəmiz Rusiya Federasiyasının Ali Sovetinə çatdırılacaq və Rusiya Federasiyasının Ali Soveti, onun sədri Xasbulatov və Rusiya Prezidenti Yeltsin dərindən düşünməlidirlər ki, bundan sonra belə hallara yol verməyəcəklər. Onlar öz müraciətlərində yazdıqlarına əməl

etməlidirlər. Ona görə də mən elə bilirəm ki, Məclisə təqdim edilmiş qərara səs verməliyik.

**Sədrlik edən.** Xeyrulla Əliyev.

**Xeyrulla Əliyev.** Hörmətli sədr, hörmətli millət vəkilləri, bu məsələ ilə əlaqədar çıxışlarımızda biz bəzən özümüzü çox pis vəziyyətə qoyuruq. Biz blokadada olduğumuzu, müharibədə uduzduğumuzu, uğursuzluqları nəzərə alaraq qərar qəbul eləsək, nə alarıq, nə qazanarıq, razı olmasaq, itirərik kimi ifadələri işlətməklə özümüzü lap zəlil kimi göstəririk. Mənə belə gəlir ki, bu, lazım deyil, sadəcə olaraq, siyasət sahəsində yeni baxışlarla hərəkət eləməliyik və bu baxışları görüb dərk eləməliyik. Rəsul Quliyev dedi, bu, humanist bir addımdır və biz heç bir şeyi bağışlamırıq, sadəcə olaraq, bir dövlətin humanist hərəkətini, humanist təklifini humanistcəsinə başa düşüb ona əməl eləyirik. İndiyə qədər hüquqi cəhət, hüquqi vəziyyət deyə-deyə milləti, xalqı bu günə çıxarmışıq, nə qazanmışıq? Mənə elə gəlir ki, təqdim olunmuş qərar layihəsini biz qəbul eləməliyik. Bir sözlə, tez-tez qanunlara istinad eləyirik, qanunları yaradan insanlardır, o qanunlara Milli Məclis düzəliş də eləyə bilər. Caviddə var: "Kim kəsərsə, tökülən qan izini, qurtaran dahi odur yer üzünü". Biz çalışmalıyıq ki, yeni qanlar tökülməsin. Sağ olun.

**Sədrlik edən.** Yusif Səmədoğlu.

**Yusif Səmədoğlu.** Hörmətli Heydər müəllim, hörmətli millət vəkilləri, əvvəlcədən deməliyəm ki, mənim də bu qərara prinsipial etirazım yoxdur, bu həm siyasi aksiyadır, həm də humanist aksiyadır. Amma nəzərinizə çatdırmaq istəyirəm ki, nə Rusiya Federasiyasının parlamenti, nə də Prezidentinin ətrafı, onun aparatı yekrəng tərkibdə deyil, həm parlamentdə, həm də Prezident aparatında ermənipərəst qüvvələr, anti-Azərbaycan qüvvələr son dərəcə ciddi fəaliyyətdədir. Buna görə də mənə elə gəlir ki, biz bu siyasi və humanist aksiyanı həyata keçirəndən sonra dövlətimizin rəhbərləri gələcək danışıqlarında Rusiya hökumətinə, Rusiya parlamentinə birdəfəlik bildirməlidirlər ki, artıq belə hallar sistem şəklinə düşə bilməz. Əgər belə hal bir daha təkrar olunacaqsa, onda Azərbaycan, yəqin ki, bu cür siyasi aksiyadan, humanist aksiyadan imtina etməli olacaqdır.

Mən bu fikirləri yalnız ona görə deyirəm ki, burada sözaltı məna şəklində belə bir vəziyyət yarandı ki, bu saat bizim Rusiya ilə bu sahədə aparacağımız danışıqlar artıq Rusiya parlamentinin, Prezident aparatının Ermənistana fəal köməyinin qabağını alacaq. Bu elə deyil. Mənə elə gəlir ki, bunu biz nəzərə almalıyıq və mən yenə əvvəlki fikrimi təkrar eləyirəm

ki, prinsipial olaraq mənim bu qərara heç bir etirazım yoxdur və mən bu qərarın lehinə səs verəcəyəm. Çox sağ olun.

**Sədrlik edən.** Daha çıxışa yazılanlardan? Buyurun, xalq deputatı Abbasov.

**Aslan Abbasov.** Hörmətli sədr, burada səslənən fikirlərin əksəriyyəti qaldırılan məsələnin mahiyyətinə uyğundur, mən də o fikirlə razıyam, amma bir fikir yaddan çıxdı ki, Azərbaycan xalqı öz böyüklüyünü göstərib, bağışlamağı qarşısına məqsəd qoyur. Bağışlayan öz böyüklüyünü göstərib bağışlayır. Bağışlamaq məsələsi bizim xalqımız tərəfindən atılan addım olduğuna görə, mənə belə gəlir ki, biz də buna getməliyik və onların səhv addımlarını bağışlamalıyıq. Biz bunu Rusiya hökumətinin xatiri üçün deyil, yalnız Azərbaycan xalqının böyüklüyü xatirinə eləyirik və buna da getməliyik.

İkinci məsələ. Qərar layihəsinin 2-ci bəndinə dair belə bir fikrimi bildirmək istəyirəm – başabaş dəyişmə, 6 nəfərin 6 nəfərə dəyişməsi. Mənə belə gəlir ki, bu bəndi çıxarsaq, daha yaxşı olar. Biz nəyisə bağışlayıb kimisə dəyişmirik, öz humanist addımımızı atırıq və bu qərarı humanist addım nöqteyi-nəzərindən qəbul eləməliyik. Ola bilər ki, biz Rusiya dövlətinə və ya Ukrayna dövlətinə elə bir məsələ ilə müraciət edək ki, nəinki 6 adamın, 600 adamın da verilməsinə, yaxud böyük bir dövlət siyasətinin həyata keçirilməsi üçün əhəmiyyəti olan bir amilin müsbət həllinə nail ola bilərik. Sağ olun.

**Sədrlik edən.** Eldar İbrahimov, xalq deputatı.

**Eldar İbrahimov.** Hörmətli sədr, hörmətli millət vəkilləri. Bu məsələyə biz gərək insan hüquqlarının beynəlxalq müdafiəsi baxımından yanaşaq, çünki bu elə bir məsələdir ki, dünya səviyyəsində olan incə bir siyasətdir. Mən bu yaxınlarda, demək olar ki, bu ilin əvvəlində, fevralın 4-də İtaliyada, Romada böyük bir beynəlxalq konqresdə iştirak edərkən şahid oldum ki, bir çox dövlətlərdə ölüm cəzası götürülüb, ölüm cəzası yoxdur və doğrudan, deyəndə ki, bir çox dövlətlərdə hələ ölüm cəzası qalıb, adama gülürlər. Biz böyük qonşu dövlət olan Rusiyanın Prezidentinin, onun Ali Sovetinin sədri Xasbulatovun müraciətlərini nəzərə alaraq bu məsələyə hökmən müsbət yanaşmalıyıq. Bu mənim şəxsi fikrimdir, beş-altı nəfərin ölüm cəzasından azad olunması gələcəkdə 5-6 min azərbaycanlını ölüm cəzasına məhkum olunmaqdan xilas eləyir. Bu baxımdan Azərbaycan xalqı humanist xalqdır və biz bu məsələdə öz böyüklüyümüzü, humanistliyimizi göstərməliyik.

**Sədrlik edən.** Mürşüd Məmmədov.

**Mürşüd Məmmədov.** Hörmətli sədr, Rusiya Prezidenti Boris Nikolayeviç Yeltsinin və Rusiya Ali Sovetinin sədri Ruslan Xasbulatovun müraciətini mən oxumuşam, Yeltsinin Azərbaycan Prezidentinə əvvəlki müraciətindən də xəbərdaram. Mənə elə gəlir ki, məsələni uzatmadan belə bir fikrə gəlməliyik ki, bu gün müzakirə olunan məsələnin mənəvi-siyasi tərəfi əsas götürülməlidir. Deputatlardan Mirmahmud Fəttayevin, Arif Rəhimzadənin, Asya Manafovanın və başqa yoldaşların çıxışlarında toxunuldu, mən də belə hesab edirəm ki, burada söhbət fövqəldövlətin mənafeyindən və onun Azərbaycan dövlətinə müraciətindən gedir.

Biz indi Azərbaycanın hansı siyasi-hərbi durumda olduğunu nəzərə almalıyıq. Torpaqlarımız gedir və biz mümkün qədər çalışmalıyıq ki, bu böyük dövlətlə mümkün olan optimal əlaqələri qoruyub saxlayaq və gələcək itkilərin qarşısını almaq üçün mütləq belə bir qərarı qəbul eləyək.

Mən işin mənəvi tərəfini başa düşürəm ki, Azərbaycana qarşı çox böyük cinayət törədilib. Bunu Rusiya hökumətinin başçıları da bilir. Lakin söhbət ondan gedir ki, 16 nəfər azərbaycanlı geri qaytarılır, 16 nəfər azərbaycanlı bu dəqiqə ölüm-olum qarşısında qalıb. Belə hesab edirəm ki, onların geri qaytarılması, heç olmasa, 16 Azərbaycan ailəsinə sevinc gətirəcək. Nəhayət, Milli Məclis bu qərarı, yəni müsbət qərarı çıxarmaqla yanaşı, belə hesab edirəm ki, Rusiya Federasiyası Ali Sovetinin sədrinə və Rusiya Prezidentinə müraciət qəbul eləməlidir. Yəni Azərbaycan parlamenti ümidvar olduğunu bildirməlidir ki, gələcəkdə Rusiyanın muzdlu əsgərləri Ermənistan və Azərbaycanın qarşıdurmasında iştirak etməyəcəklər. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Deputat Cəfərquliyev.

**Mirağa Cəfərquliyev.** Hörmətli sədr, mən hüquqi cəhətdən bir məsələni millət vəkillərinin nəzərinə çatdırmaq istəyirəm. Nə millət vəkillərində, nə də xalqda bu cinayətkarlar haqqında yanlış fikir yaranmasın. Bizim Ali Məhkəmənin Hərbi kollegiyası artıq öz sözünü deyib. Onlar məhkum olunublar, özü də ən ağır cəza çıxarılıb, söhbət onları dəyişməkdən, Rusiya dövlətinə verməkdən gedir. İndi məsuliyyət qalır Rusiya dövlətinin üstündə ki, onların haqqında nə ölçü götürüləcək. Hərçənd biz görürük, Rusiya hökuməti də müraciət eləyərək deyir ki, onların haqqında ölçü götürəcəklər.

Mən 15 ilə qədər Rusiya ərazisində işləmişəm, oxumuşam, mən bilirəm ki, vətəndən uzaq yerlərdə azərbaycanlıların vəziyyəti necədir. O

vaxtlar hələ dinc dövr idi, amma indi biz müstəqil dövlətlərik. İndi Rusiyanın ərazisində çoxlu azərbaycanlı vətəndaşlarımız yaşayır. Çox gözəl dedilər millət vəkilləri, onları da yaddan çıxarmamalıyıq. Eyni zamanda burada millət vəkilləri düz dedilər, biz dövlətlərarası siyasətdə çox böyük səhvlərə yol vermişik. Əgər doğrudan da, biz gələcəkdə istəyiriksə ki, öz müstəqil dövlətimizi qoruyaq, dövlətlərlə münasibətlərimizi düzgün quraq, müəyyən şeyləri bağışlamağı da bacarmalıyıq. Ona görə mən belə hesab edirəm ki, o dəyişməyə millət vəkilləri, Milli Məclis razılıq versə, hüquqi cəhətdən də heç bir qanun pozuntusuna yol verilmir və mənim zənnimcə, düz dedilər, bu da bizim xalqımızın ədalətli bir xalq olduğunu göstərəcək. Çox sağ olun.

**Sədrlik edən.** Hacıbaba Əzimov, buyurun.

**Hacıbaba Əzimov.** Hörmətli Məclis, hörmətli millət vəkilləri. Mənə elə gəlir ki, təklif olunan qərar layihəsini əsasən qəbul eləmək olar və Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycanda yaranmış siyasi-hərbi vəziyyəti nəzərə alıb müəyyən güzəştə gedə bilər və məhkum olunmuşlarla girov götürülmüş azərbaycanlı hərbçilərin dəyişdirilməsi məsələsini və başqa məsələləri həll eləyə bilər. Bununla bərabər, mən hesab eləyirəm ki, Milli Məclis çox ciddi bir qərar qəbul eləyir, çox məsuliyyətli bir qərar qəbul eləyir və bu qərarın giriş hissəsində məhkum olunmuş şəxslərin nə üçün məhkum olunduğu və onların nə kimi cinayətlər işlədiyi hökmən qeyd olunmalıdır. Qərar layihəsində onların nə üçün məhkum olunduğu, hansı cinayətləri törətdiyi göstərilməyib.

Mənə elə gəlir ki, giriş hissəsində bu, hökmən öz əksini tapmalı və bilinməlidir ki, həqiqətən, belə böyük cinayətlər törətdiklərinə baxmayaraq, Milli Məclis həmin adamların dəyişdirilməsinə razılıq verir və bu razılığı verməklə həm çox böyük bir prinsipial siyasi hərəkət eləyir, həm də gələcəkdə Azərbaycana qarşı Rusiya hərbi hissələrinin qulluqçuları tərəfindən törədilə biləcək hər hansı cinayət hərəkətlərinə yol verilməyəcəyini nəzərə alır.

Qərarın 2-ci bəndində qeyd olunur ki, Milli Məclis bu qərar haqqında Rusiya Federasiyasının Ali Sovetinə məlumat versin. Mən bayaq sual da verdim, mənə elə gəlir ki, 2-ci bənd daha ciddi, daha dəqiq yazılmalıdır. Orada biz yazmalıyıq ki, Azərbaycan Respublikasının Milli Məclisi Rusiya Federasiyasının Ali Sovetinə təklif edir ki, Azərbaycan Milli Məclisinin bu humanist hərəkətlərini nəzərə alıb, gələcəkdə Azərbaycan Respublikası ərazisinə qarşı Ermənistan Respublikasının təcavüzkar qüvvələri

tərkibində rus hərbi hissələrinin qulluqçularının iştirakının qarşısını almaq üçün lazımi tədbirlər görsün. Mənə belə gəlir ki, 2-ci bənddə məhz belə bir fikri yazmaqla Rusiya Federasiyası Ali Sovetinin diqqətini bu məsələyə daha çox cəlb etmiş olarıq və gələcəkdə belə halların qarşısını almaq üçün, bir növ, onları səfərbər etmiş olarıq. Sağ olun.

**Sədrlik edən.** Şübhəsiz, müzakirə olunan məsələ həm mühüm məsələdir, həm də mənəvi nöqteyi-nəzərdən çətin məsələdir. Aydındır ki, respublikamız uzunmüddətli müharibə şəraitindədir. Döyüşlərdə itkilər veririk, şəhidlər olur, Azərbaycan xalqına böyük mənəvi və maddi zərərlər dəyib. Hər bir şəhid, müharibədə həlak olan, yaxud yaralanan hər bir Azərbaycan vətəndaşı bütün Azərbaycan xalqının ürəyində olan bu yaranı daha da genişləndirir, daha da ağrıdır. Ona görə də belə bir dövrdə bizim respublikaya qarşı hərbi təcavüzdə iştirak etmiş adamların kimliyindən asılı olmayaraq, hansı ölkəyə mənsub olduğundan asılı olmayaraq müqəddəratının həll edilməsi, şübhəsiz ki, həm çox məsuliyyətlidir, həm də əgər belələri cinayətkar kimi məhkum olunubsa, onların haqqında qərar qəbul etmək ondan da məsuliyyətlidir.

Bunların hamısını, güman edirəm ki, bizim parlament tam aydınlıqla nəzərə alır. Şəxsən mən də bu hissiyyatı keçirirəm. Eyni zamanda məmnuniyyət hissi ilə qeyd etmək olar ki, müzakirədə iştirak edən Məclis üzvlərinin, deputatların əksəriyyəti irəli sürülən təklifə müsbət münasibət göstərdilər, yəni bu məsələnin Rusiya Federasiyası rəhbərliyinin müraciətini nəzərə alaraq onların xahişi istiqamətində həll olunmasına öz müsbət münasibətlərini bildirdilər. Güman edirəm ki, bu çıxışlar düzgün istiqamətdə olan çıxışlardır.

Bir şeyi də istəyirəm bildirəm ki, Rusiyanın Prezidenti Boris Yeltsin, Rusiya parlamentinin sədri Ruslan Xasbulatov bizə müraciət etdikdə, şübhəsiz, bu şəxslərin tamamilə bağışlanmasını deyil, sadəcə olaraq, Rusiya dövlətinin sərəncamına verilməsini xahiş etmişlər. Güman edirəm ki, Rusiya dövləti və onun müvafiq ədliyyə orqanları onların məsələsinə qanun çərçivəsində baxacaqlar.

Eyni zamanda onların xahişi ilə əlaqədar olaraq, Rusiyanın Xarici İşlər Nazirliyi Ermənistan Respublikasının və Dağlıq Qarabağın hakim dairələrinin razılığı ilə belə təklif veriblər ki, əgər o 6 nəfər yüksək cəzaya məhkum olunmuş, indi Azərbaycanda həbsdə olan keçmiş Rusiya hərbi qulluqçuları Rusiya dövlətinə verilsə, bunun müqabilində Rusiyanın vətəndaşı pilot Çistyakov – indi o, Xankəndidə həbsdədir, ona görə həbsə düşüb ki, bu

müharibədə Azərbaycanın tərəfində iştirak eləyib və Ermənistanın silahlı qüvvələri tərəfindən ələ keçirilib, indi həbsdədir, yəni o, Rusiyanın vətəndaşı olaraq bu müharibədə bizim tərəfdən iştirak eləyib – onun işinə məhkəmədə baxılandan sonra Rusiyanın sərəncamına veriləcək. Biz bu addımımızla nəinki Rusiyanın hərbi qüvvələrinə mənsub olan 6 nəfər hərbi qulluqçunu Rusiyaya qaytarırıq, eyni zamanda pilot Çistyakov da bizim tərəfdən bu müharibədə iştirak etmiş adamdır, indi orada həbsxanadadır, onun da azad olunub, yaxud da ki azad olunmasa, məhkəmədən sonra Rusiya dövlətinin sərəncamına verilməsini təmin edəcəyik. Sonra Ukraynanın vətəndaşı pilot Biliçenko. O da Azərbaycan tərəfindən bu müharibədə iştirak etdiyinə görə artıq Ermənistan tərəfindən həbs olunub. Rusiyanın Xarici İşlər Nazirliyi bizə zəmanət verir ki, belə halda pilot Biliçenko da Rusiyaya veriləcək, bilavasitə Ukraynanın rəhbərliyi ilə danışıqlar aparılandan sonra Ukraynaya qaytarılacaq. Bütün bunların hamısının müqabilində 5 Azərbaycan hərbi qulluqçusu – onların siyahısı bizə veriləcək, indi Ermənistan tərəfindən həbsdədirlər – Azərbaycana qaytarılacaq, 9 nəfər azərbaycanlı – düzdür, onlar hərbi qulluqçu deyil, ancaq indi Dağlıq Qarabağdadırlar – onlar da Azərbaycan tərəfinə qaytarılacaqlar.

Yəni demək istəyirəm ki, eyni zamanda belə şərtlərə bağlanır və bu şərtlər onu göstərir ki, əgər biz, doğrudan da, humanist bir addım atmış olsaq, həm Rusiyanın 6 vətəndaşını, yaxud Rusiya ordusuna mənsub olan hərbi qulluqçuları Rusiyanın sərəncamına verəcəyik, həm də Rusiyanın vətəndaşı olan, amma bizim tərəfdən iştirakına görə həbsxanaya düşmüş, Ermənistanda qalmış Çistyakov Rusiyaya qaytarılacaq, bizim tərəfdən hərəkət etmiş, indi Ermənistanda həbsxanada olan Ukrayna vətəndaşı Bilinçenko öz vətəninə qaytarılacaq. İndi hansı səviyyədə olur-olsun, məhkum olunacaq, necə olacaq? Eyni zamanda bizim 5 hərbi qulluqçumuz qayıdacaq. Onların da ailəsi var, uşağı var, qohum-əqrəbası var. 9 vətəndaşımız qayıdacaqdır. Mən bunların hamısını sizə çatdıraraq istərdim biləsiniz ki, biz belə bir addımı atarkən, şübhəsiz, bunun müqabilində də addımlar atılır, qarşılıqlı addımlar atılır və bu addımları biz, yəqin ki, atmalıyıq.

Burada qeyd etdilər ki, bu adamların əfv olunması, yaxud da ki, Rusiya tərəfinə verilməsi Prezidentin səlahiyyətlərini həyata keçirən Ali Sovetin sədrinin müstəsna səlahiyyətidir. Bu doğrudur, bu belədir, ancaq mən bu məsələni parlamentin müzakirəsinə verərkən heç də məsuliyyəti öz üzərimdən başqasının üzərinə qoymaq istəmirəm. Burada məsuliyyətdən söhbət getmir. Bir halda ki mənə belə bir səlahiyyət verilibdir,

mən bu səlahiyyətlərdən bunun məsuliyyətini hiss edərək istifadə etməyə qadirəm. Yalnız əgər bu məsələyə parlament baxırsa və bizim ictimaiyyət də indi parlamentin gedişini izləyirsə, biz öz hərəkətlərimizi, öz qərarlarımızı heç kəsdən gizlətmədən, məsləhətləşərək aşkarlıq yolu ilə, açıq-aydın, ümumi fikir, ictimai rəy əsasında qəbul etməyi daha doğru sayırıq. Ona görə də mən hesab edirəm ki, bu məsələnin müzakirə olunması çox mühüm bir hadisədir və öz tərəfimdən məmnuniyyətlə qeyd etmək istəyirəm ki, parlamentin üzvləri və ümumiyyətcə, parlament bu məsələlərə sağlam münasibət göstərirlər.

Qərar layihəsi, mənim də fikrim belədir ki, ciddi redaktə olunmalıdır. Ola bilər ki, bu hazırlananda bu məsələnin dərin əhəmiyyətini burada o qədər də əks etdirə bilməyiblər. Elə bunu hazırlayan bizim Məclis üzvlərinə tapşırılsın ki, müzakirə ilə əlaqədar olaraq, müzakirədən irəli gələn fikirləri əks etdirərək bu qərar layihəsini redaktə etsinlər. Burada irəli sürülən hər bir təklif çox dəyərlidir. Qərarla yanaşı, biz Rusiyanın Prezidenti Boris Yeltsinə, Rusiya parlamentinin sədri Ruslan Xasbulatova cavab məktubu göndərək və cavab məktubumuzda, şübhəsiz ki, qərarda qəbul olunan müddəaları bildirək və eyni zamanda əgər lazımi fikirlər varsa, onları da bildirək. Şübhəsiz ki, bizim bu addımımız həm humanist addımdır, həm də dövlətçilik nöqteyi-nəzərindən əhəmiyyətli, eyni zamanda məsuliyyətli bir addımdır, ona görə də bizim Xarici İşlər Nazirliyi, bütün mətbuat orqanları, ictimai təşkilatlar gərək bizim bu qərarımızın əhəmiyyətini lazımi səviyyədə təbliğ edə bilsinlər, gərək bizim bu qərar Rusiyada və nəinki Rusiyada, Azərbaycanın hüdudlarından kənar ölkələrin hamısında lazımi səviyyədə təbliğ olunsun. Bu məsələ ilə Prezident Aparatı da məşğul olmalıdır, Ali Sovetin müvafiq orqanları da, mətbuat orqanları da, Xarici İşlər Nazirliyi də məşğul olmalıdır. Güman edirəm ki, onlar öz vəzifələrini artıq bu gün bildilər.

Beləliklə, əgər etiraz yoxdursa, bütün bu fikirləri cəmləyərək, bu qərarı əsasən, yaxud da ki, artıq müzakirə aparıldı, dəyişikliklərlə birlikdə səsə qoyaq. Mən verilən təkliflərin burada əks olunmasını nəzərə alaraq bütövlüklə bu qərarı, layihəni səsə qoyuram. Kim istəyir, buna münasibətini bildirsin, buyursun.

***(Səsvermə)***

Qəbul edildi. Rica edirəm ki, bu qərarın redaktəsi və bunun tamamilə buraxılması sabahdan gec olmasın və bu işlə məşğul olan şəxslər, xahiş edirəm, gecikdirməsinlər.

Gündəliyin 2-ci məsələsinə keçməzdən əvvəl mən sizə dedim ki, bu məsələnin ətrafında biz bir neçə məsələni də müzakirə etməliyik, ona görə də mən istərdim, bu barədə Afiyəddin Cəlilov məlumat versin.

**Afiyəddin Cəlilov.** Hörmətli sədr, hörmətli millət vəkilləri. Bildiyiniz kimi, avqust ayının son on günü hərbi əməliyyat zonalarında Azərbaycan Respublikası üçün çox gərgin olmuşdur. Avqustun 20-si, 21-i, 22-si, 23-ü Ermənistanın işğalçı ordusu tərəfindən Azərbaycanın Cəbrayıl və Füzuli bölgələrində edilən ağır həmlələr nəticəsində bu rayonların əhalisi qaçqın düşmüş və bu rayonlar Ermənistan silahlı qüvvələri tərəfindən zəbt olunmuşdur. Avqustun 23-nə keçən gecə yaranmış vəziyyət Azərbaycan Ali Sovetinin sədri Heydər Əliyevin yanında geniş müzakirə olunarkən Heydər Əliyev dərhal Moskvaya zəng etmiş və Rusiya Prezidentinin xüsusi tapşırıqlar üzrə səfiri, Rusiya Federasiyasının Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi üzrə səlahiyyətli nümayəndəsi Vladimir Kazimirovu xüsusi olaraq Bakıya dəvət etmişdir.

Kazimirov avqustun 24-də Bakıya gəlmiş, həmin gecə Heydər Əliyevlə görüşmüşdür. Görüşdə bu bölgədə yaranmış vəziyyət geniş təhlil olunmuşdur. Söhbətin əsas məğzi ondan ibarət olmuşdur ki, quduzlaşmış erməni işğalçı ordusu Azərbaycanın bu bölgəsinə ağır həmlələr edir və Füzuli, Cəbrayıl rayonlarını zəbt eləmişdir. Heydər Əliyevin tapşırığı ilə Kazimirov və Azərbaycanda yerləşən bir sıra səfirliklərin nümayəndələri ilə biz Füzuli rayonunda olduq, qaçqınların vəziyyəti ilə tanış olduq və Ermənistan tərəfindən edilən qeyri-bərabər, çox ağır həmlələr nəticəsində Füzuli rayonunun və Cəbrayıl rayonunun işğalını gözümüzlə gördük.

Bütün bunlara baxmayaraq, Zəngilan rayonuna Ermənistanın Qafan və Gorus rayonları tərəfindən və Dağlıq Qarabağ tərəfindən zərbələr endirilməsi davam edir.

Avqustun 23-də Azərbaycan Prezidentinin səlahiyyətlərini icra edən Azərbaycan Ali Sovetinin sədri Heydər Əliyevin Rusiya Xarici İşlər Nazirliyinə bu həmlələrlə əlaqədar verdiyi bəyanatdan sonra Rusiya Xarici İşlər Nazirliyində brifinq keçirilmişdir.

Bu brifinqdə yayılmış məlumatdan aydın olduğu kimi, Rusiya Prezidentinin xüsusi nümayəndəsi Kazimirov avqustun 24-də Azərbaycanda olarkən Azərbaycanın bu bölgələrində yaranmış vəziyyəti təhlil etdikdən sonra Yerevana getmiş, oradan Stepanakertə getmiş və yenidən Ba-

kıya qayıdaraq öz səfərinin nəticəsini Heydər Əliyevə məruzə etmişdir. Bizim mövqe ilə Kazimirovun mövqeyi tamamilə uzlaşır və belə qərara gəlinmişdir ki, bölgənin özündə, Füzuli rayonunda erməni tərəfi ilə Azərbaycan tərəfinin görüşü keçirilsin. Biz verdiyimiz vədə sadiq qaldıq, amma erməni tərəfi bu təklifi rədd etdi. Hadisələr son dərəcə sürətlə inkişaf edirdi, avqustun 28-də, 29-da, 30-da erməni həmlələri artıq Qubadlı rayonuna yönəlmişdi, Zəngilan rayonunda da ağır vəziyyət yaranmışdı. Avqustun 30-da Kazimirovun iştirakı ilə belə bir təşəbbüs ortaya çıxdı ki, atəşin dayandırılmasına yönəlmiş bir sıra tədbirlər görülsün. Bu tədbirlərdən biri erməni hərbi dəstələri ilə bizim Azərbaycanın Müdafiə Nazirliyi arasında olan danışıqlar idi. Qarşıda nəzərdə tutulan Ermənistan–Azərbaycan dövlətlərarası görüşü və o görüşdə imzalanan protokol haqqında söhbət gedirdi.

Artıq ayın 30-da Qubadlıda hadisələr çox dəhşətli şəkildə inkişaf edirdi. Bununla əlaqədar olaraq, Azərbaycan Ali Sovetinin sədri Heydər Əliyev həm Rusiyaya, həm də Ermənistana yaranmış vəziyyətə dair bəyanatlar verdi. Atəşin dayandırılması ilə əlaqədar bu bəyanatların nəticəsində avqustun 30-da Dağlıq Qarabağ, Azərbaycan və Ermənistan arasında belə bir razılıq əldə olundu ki, ayın 30-da saat 17-dən – düzdür, bu bir az keçmiş tarix idi – atəşin dayandırılmasına yönəlmiş tədbirlər görülsün. Lakin ayın 30-da atəş dayanmadı və Azərbaycan rəhbərliyi yeni cəhdlər göstərərək nəhayət, ayın 31-də atəşin dayandırılmasına nail oldu. Azərbaycan rəhbərliyinin həyata keçirdiyi tədbirlər və göstərdiyi cəhdlər nəticəsində Ermənistan Prezidenti Levon Ter-Petrosyan sentyabrın 1-də bəyanatla çıxış etdi. Bəyanatda Ermənistan rəhbərliyi Dağlıq Qarabağı atəşin dayandırılması barədə razılığa əməl edərək təxirə salınmadan əvvəlki təmas xəttinə qayıtmağa çağırır.

Bu bəyanat sentyabrın 1-də Rusiya Xarici İşlər Nazirliyinə daxil olub. Levon Ter-Petrosyanın bəyanatı ilə əlaqədar olaraq, Dağlıq Qarabağda bu işlərə rəhbərlik edən şəxslər də öz bəyanatlarını veriblər.

Bu bəyanatlardan sonra, həqiqətən, döyüş bölgələrində nisbi sakitlik əldə olunmuşdu, lakin buna baxmayaraq Heydər Əliyevin tapşırığı ilə Zəngilanda bu məsələlərlə məşğul olan Baş nazirin müavini Abbas Abbasovun dünən verdiyi məlumata görə, dünən də, bu gün də ardı-arası kəsilmədən kiçik atışmalar müşahidə olunur, amma ümumən götürsək, əldə olunmuş razılıq bu bölgədə hələlik həyata keçirilir. Bununla əlaqədar olaraq Heydər Əliyevin Rusiya xarici işlər nazirinə növbəti bəyanat verməsi və şəxsən Kazimirovun qarşısında bir sıra məsələlər qoyması

Rusiya Xarici İşlər Nazirliyinin ikinci bir bəyanatının ortaya çıxmasına səbəb olmuşdur. Bu bəyanatı da sizin nəzərinizə çatdırıram.

Bəyanatı rus dilində elan edir. *(Ruscadan tərcümə)*

### *Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin nümayəndəsinin bəyanatı*

*Dağlıq Qarabağ ətrafında hərbi-siyasi vəziyyət kifayət qədər mürəkkəb olaraq qalır. Qarabağ silahlı birləşmələrinin İranla sərhədə doğru irəliləməsi Azərbaycanın Cənub-Qərb bölgələrindən qaçqın axınını artırmaqla yanaşı, münaqişəni onun qəbuledilməz beynəlmiləlləşmə sərhədinin çox təhlükəli səviyyəsinə gətirib çıxarıb. İran və digər ölkələrin kütləvi informasiya vasitələri İran silahlı dəstələrinin su anbarını və digər sərhəd obyektlərini qorumaq adı ilə Azərbaycan sərhədini keçməsi barədə məlumat yayıblar. Bu mesajlar beynəlxalq ictimaiyyətin, qonşu ölkələrin və ilk növbədə, münaqişə iştirakçılarının özlərinin maraqlarının ehtiyatlılığa, balansa, hərbi əməliyyatların BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinə və mübahisəli məsələlərin siyasi həllinin gücləndirilməsinə uyğun olaraq dərhal dayandırılmasına yönəldiyi bir dövrdə ab-havanı daha da gərginləşdirir. Rusiyanın yardımı ilə bu il sentyabrın 10-dək atəşkəs rejiminin bərpasına dair razılaşmanın əldə olunması, qan tökülməsinin dayandırılması üçün əməli addımların atılmasına imkan yaradıb. Atəşkəsin ilk günü – avqustun 31-də Azərbaycanın Qubadlı rayonu istiqamətində gedən döyüşlərdə, çox təəssüf ki, pozuntular baş verib, Qubadlı rayon mərkəzi və ona yaxın kəndlər ələ keçirilib. Sentyabrın 1-də Ermənistan prezidentinin çağırışı və vasitəçinin təkidi ilə Dağlıq Qarabağ rəhbərliyi bu ərazidəki qüvvələrini əvvəlki mövqelərə çəkmək barədə qərar qəbul edib.*

*Rusiya Xarici İşlər Nazirliyi bir daha münaqişə tərəflərini əldə edilmiş razılaşmaya ciddi əməl etməyə, beynəlxalq ictimaiyyətin dəstəyi ilə barışıq üçün məsuliyyət və xoş niyyət nümayiş etdirməyə çağırır.*

Bu, ayın 1-də baş vermiş hadisələr ilə əlaqədar edilmiş müraciətdir. Hadisələrlə əlaqədar olaraq, mən bunları sizə dəqiq çatdırmaq istəyirəm. Şübhəsiz, indi bütün respublika Məclisin iclasına baxır. Azərbaycan Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Ali Sovetinin sədri Heydər Əliyevin bu bəyanatdan sonra Rusiya Xarici İşlər Nazirliyinə növbəti müraciəti olmuşdu və həmin müraciət avqustun 30-da, 31-də və sentyabrın 1-də Qubadlı rayonu ərazisində baş vermiş döyüşlərin, hərbi münaqişənin xronologiyasını Azərbaycan Ali Sovetinə

təqdim etmək məqsədi güdür. Bununla əlaqədar olaraq, Rusiya Xarici İşlər Nazirliyi Heydər Əliyevin irəliyə sürdüyü bu vəzifəni yerinə yetirib və Azərbaycan Ali Sovetinə hərbi əməliyyatların necə keçirildiyinə dair xronologiya da təqdim etmişdir.

Bunları sizə çatdıraraq mən ikicə kəlmə demək istəyirəm. Heydər müəllim, mənə 2 dəqiqə vaxt verin. Mən 1-ci məsələ ilə əlaqədar olaraq öz fikrimi demədim. 1-ci məsələ ilə əlaqədar təqdim olunmuş qərar layihəsini müdafiə edirəm, amma niyyətim var idi, fikir söyləyim, onu elə bu məsələ ilə əlaqədar söyləmək istəyirəm. İndi bizim orduda, əhali arasında çox ağır vəziyyət yaranıb. Bu bölgələrdə əhali və ordu arasında aparılan təxribat və xəyanətlər nəticəsində əhali və ordu çaşqın qalıb, hərcmərclik hökm sürür. Mən birmənalı çatdırmaq istəyirəm ki, yaranmış bugünkü vəziyyət son bir il yarımda Azərbaycanda aparılmış primitiv, səbatsız siyasətin nəticəsidir.

Azərbaycan rəhbərliyinin çox gərgin əməyi, həyata keçirdiyi tədbirlər, Heydər müəllim, ayrı-ayrı dövri mətbuat orqanlarında, ayrı-ayrı şəxslərin mülahizələrində birmənalı əks olunmur. Mənim də adım hallanır, bu problemlə məşğul olmağı tapşırdığınız respublikanın digər rəhbər vəzifəli şəxslərinin də adı hallanır. Mən fürsətdən istifadə edib demək istəyirəm, son bir il yarımda Azərbaycanda daxili və xarici siyasət, doğrudan da, çox primitiv səviyyədə idi və o primitizmə əsaslanan yalançı vətənpərvərlik, yalançı vətən hissi, xalq hissi, ordu hissi bu gün respublikanı gətirib bu vəziyyətə çatdırıb. Mən heç kimə burada kompliment demək niyyətində deyiləm. Bu bir həqiqətdir ki, on ildən artıqdır, Azərbaycanda yüksək səviyyəli siyasət hökm sürmür, nə daxili, nə xarici. Nəhayət, Azərbaycanı belə bir ağır və gərgin vəziyyətdən ancaq yüksək səviyyəli xarici və daxili siyasət qurtara bilər.

Mən belə hesab edirəm ki, bu ali və böyük siyasət naminə biz indi yaranmış belə bir ağır vəziyyətdə ermənilərlə danışıqlara getməliyik, müharibəni dayandırmalıyıq və Azərbaycanda əmin-amanlığı bərqərar etməliyik. Burada ikinci bir rəy ola bilməz. Mən öz fikrimi deyirəm və güman edirəm ki, bu gün Azərbaycan Respublikasında mövcud olan böhranı, orduda, ayrı-ayrı bölgələrdə hökm sürən hərc-mərclik ancaq bu ali siyasət nəticəsində aradan qaldırıla bilər. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Afiyəddin Cəlilov son vaxtlar yaranmış vəziyyəti və görülən tədbirləri Milli Məclisə qısaca bildirdi. Biz keçən iclaslarda da bu barədə ətraflı məlumatlar vermişik, müharibə ilə əlaqədar Ermənistan

silahlı qüvvələrinin Azərbaycana davamlı təcavüzü nəticəsində bizim rayonların, kəndlərin bir hissəsinin dağılması, işğal olunması ilə bağlı yaranmış vəziyyət, görülən tədbirlər haqqında açıq-aydın məlumatlar vermişik. Biz heç bir şeyi gizlətmirik. Əvvəlki məlumatlarda da mən sizə çatdırmışam, indi də bildirmək istəyirəm ki, belə bir şəraitdə biz mütləq diplomatik tədbirləri gücləndirməli idik və bu yolla da gedirik. Biz Rusiya ilə mütəmadi danışıqlar aparmaq, Ermənistanın rəhbərləri ilə bilavasitə danışıqlar aparmaq fikrinə gəlmişdik və bilirsiniz ki, bunu həyata keçiririk.

Ən nəhayət, vəziyyətin gərgin olduğunu nəzərə alaraq, mənim tapşırığımla bizim həm hərbi nazirlik, həm də Afiyəddin Cəlilov Dağlıq Qarabağda olan qüvvələrlə də bilavasitə danışıqlar aparmaq göstərişi almışdılar və bu danışıqları aparmışlar. Məhz bu danışıqların nəticəsində biz avqustun 31-dən atəşin dayandırılması və sentyabrın 10-na qədər atəşin tamamilə kəsilməsi sazişini əldə etmişik. Ola bilər ki, indi bu saziş bəzi yerlərdə yenə də pozulsun, çünki əvvəllər də biz bir-iki dəfə qısa müddətə atəşin dayandırılması haqqında sazişlər əldə etmişdik. Bu sazişlər pozulmuşdu, ola bilər, yenə də haradasa pozulsun, ancaq güman edirik ki, əgər biz, doğrudan da, bu mövqedə ciddiyyətlə, qətiyyətlə dura bilsək, yavaş-yavaş sülh danışıqlarına gedə bilərik. Bu danışıqlarda bizim qoyduğumuz tələblər ondan ibarətdir ki, atəş dayansın, sülh danışıqları başlansın və Ermənistanın qoşunları işğal olunmuş torpaqlardan çəkilsinlər. Birinci növbədə, son hadisələr Qubadlı rayonu ətrafında olmuşdur. Söz vermişdilər ki, dünən axşama qədər Qubadlı rayonundan Ermənistanın silahlı qüvvələri tamamilə çıxacaqdır və ondan sonra Qubadlı əhalisi, yaxud da ki, əhalinin bir hissəsi rayona öz kəndlərinə, öz yerlərinə qayıda bilərlər. Abbas Abbasov Zəngilanda oturub, bu işlərlə ciddi məşğul olur və onun bu gün səhər verdiyi məlumatdan belə görünür ki, artıq Qubadlıya qayıtmaq üçün müəyyən imkanlar yaranıb. Düzdür, əvvəl bizə verilən müddətdən sonra, çünki dünən axşam gərək bu həll oluna idi.

Əgər biz bu sahədə əlaqələrimizi davamlı aparsaq, güman edirəm ki, buna nail ola biləcəyik. Eləcə də Füzuli, Cəbrayıl rayonları ilə bağlı biz bu cür danışıqlar aparırıq və yenə də deyirəm, bizim bu danışıqlara getməyimiz, bilavasitə Dağlıq Qarabağda olan qüvvələrlə müəyyən səviyyələrdə əlaqəyə girməyimiz bir məqsəd daşıyır ki, işğal olunmuş torpaqlardan Ermənistanın silahlı qüvvələri çəkilsin və sonra isə biz geniş miqyasda sülh danışıqları apara bilək. Bu sazişlər əsasında bizim nüma-

yəndələr Dağlıq Qarabağın nümayəndələri ilə bu yaxın vaxtlarda görüşməlidirlər. Biz görüş yerini döyüş bölgəsində müəyyən etmişdik. Təklif etmişdik, Füzuli, ya Cəbrayıl tərəfdə olsun. Onlar buna razı olmadılar, sonra Tbilisidə görüşmək təklifi meydana çıxdı, ona da yenə Ermənistan tərəfi razı olmadı, sonra Moskvada görüşmək təklifi meydana çıxıbdır, əgər belə bir saziş əldə olunarsa, fikrimiz var ki, bizim nümayəndələr bu görüşə getsinlər və atəşin kəsilməsini və gələcək tədbirləri müzakirə etməyə başlasınlar. Güman edirəm ki, həyata keçirilən bu tədbirlər zamanın, bu günün tələblərindən və zərurətindən irəli gələn tədbirlərdilər.

Qaçqınların vəziyyəti ilə bağlı, mən sizə dedim ki, biz güclü tədbirlər görürük. Baş nazir Surət Hüseynov dünən Beyləqanda olmuşdur, ondan bir gün qabaq milli təhlükəsizlik naziri Nəriman İmranov orada olmuşdur, bir neçə nazir indi də oradadır. Dünən mən Nazirlər Kabinetində qısa bir görüş keçirərkən yenə də göstəriş verdim ki, nazirlərdən və komitə sədrlərindən, yaxud onların müavinlərindən ibarət bir qrup qaçqınların olduqları yerlərə getsinlər, onların yerləşdirilməsi, müəyyən tələbatının təmin edilməsi işləri ilə məşğul olsunlar. Bu işlər də aparılır və mən istərdim ki, bütün bu apardığımız tədbirləri sizə bəyan edərək, bilək ki, sizin fikriniz necədir. Bunlar doğrudur, yoxsa doğru deyil. Bu yolla getməliyik, yaxud da ki, digər bir yolumuz var. Bizim bu tədbirlərimiz, addımlarımız bəyənilir, yoxsa bəyənilmir? Mən istərdim, bu barədə parlament öz münasibətini bildirsin.

2-ci məsələ. Bununla əlaqədar olaraq sentyabr ayının 7-də Moskvada müstəqil dövlətlərin başçılarının görüşü olacaqdır. Bizə, Azərbaycanın rəhbərliyinə bu görüşdə iştirak etməyə dair dəvətnamə gəlibdir. Mən sizə dedim ki, mənim Rusiya Prezidenti Boris Yeltsinlə telefon danışıqlarım olubdur, son danışıq srağagün olubdur. Bu dəvətnamə ilə əlaqədar da bizim aramızda fikir mübadiləsi olubdur. Mən belə fikirləşirəm ki, biz bu dəvəti qəbul etməliyik və o görüşə getməliyik. İstərdim ki, parlament bu barədə öz fikrini bildirsin. Əgər bu fikir müsbət olarsa, mənə bu barədə lazımi səlahiyyətlər versin.

Bu görüşdə bir çox məsələlər müzakirə olunacaqdır. Onun gündəliyi bizə gəlib çatıbdır. Biz, şübhəsiz ki, Müstəqil Dövlətlər Birliyinin üzvü deyilik, ancaq son zamanlar bizə çox suallar verilir – Azərbaycan bu birliyə girəcək, ya girməyəcək? Heydər Əliyevin bu barədə fikri nə cürdür? Mən isə həmişə demişəm ki, mənim fikrim parlamentin, bütün dövlətin fikri olmalıdır, mənim tək fikrim ola bilməz. Mən, bəlkə, adi vətəndaş kimi əvvəllər öz fikrimi deyə bilərdim, amma indi dövlət başçısı vəzifə-

sini icra edən bir adam kimi, parlament rəhbəri kimi müstəqil bir fikir deyə bilmərəm. Ona görə də mən istəmirəm ki, bu məsələ geniş müzakirə olunsun, ancaq müəyyən qədər fikir mübadiləsi aparılsın, çünki bəzi adamlar hesab edir ki, Müstəqil Dövlətlər Birliyinin qapısı elə açıqdır, kim istəyir, ora girə bilər. Əsla belə deyil. O birliyin də öz qanunları var, ondan asılı deyil ki, kim istəyir, ora girsin. Eyni zamanda ondan asılıdır, istəyən dövlət ora daxil ola bilər, yoxsa yox. Onların özlərinin daxili qanunları var. Ancaq parlament buna razılıq verərsə, bizim bu görüşdə iştirak etmək fikrimiz var.

Razılıq olub ki, bu görüşdən öncə, ayın 7-dən qabaq mən Rusiyanın Prezidenti Boris Yeltsinlə görüşəcəyəm. Bu görüşdə, şübhəsiz ki, biz Azərbaycanla Rusiya arasında əlaqələr haqqında müəyyən fikir mübadiləsi aparacağıq və xüsusən Ermənistanla Azərbaycan arasında gedən müharibə məsələsi bizim söhbətimizin əsas mövzusu ola bilər. Ola bilər, Rusiya Prezidenti başqa məsələlər də irəli sürsün, ancaq orada proseslər elə gedə bilər ki, biz müəyyən mövqe tutmalı olarıq. Nə şəkildə olursa olsun, Azərbaycan Respublikasının nümayəndəliyinin, əgər buna səlahiyyət verilərsə, mənim Müstəqil Dövlətlər Birliyinin 7 sentyabr görüşündə iştirak etməyim lazımdır. Ancaq o görüşdə iştirak edərkən orada olan şəraitlə əlaqədar nə addımlar ata bilərik? Bəlkə, bu barədə parlamentin üzvləri öz fikirlərini desinlər, öz məsləhətlərini, təkliflərini versinlər. Əgər ümumi bir fikrə gələ biləriksə, bu barədə mənə səlahiyyətlər, bir az diplomatik dildə desək, müəyyən mandat verilsin. Afiyəddin Cəlilovun verdiyi məlumatlara bu məlumatları və fikirləri əlavə edərək, mən rica edərdim ki, Məclis üzvləri öz çıxışlarında münasibətlərini bildirsinlər.

Artıq burada yazılanlar var. Hüseynağa Qəniyev buyursun.

**Hüseynağa Qəniyev.** Heydər müəllim, bizim müharibədə uğursuzluqlarımızın kökünü bu günün özündə axtarmaq, əlbəttə, heç də düzgün olmazdı. Bu ilin fevralında Milli Məclisin bir iclası keçirildi. Yəqin ki, həmin iclas Milli Məclisin üzvlərinin hamısının yadındadır. Həmin iclasda müharibə ilə əlaqədar problemlərimizi həll edirdik və mənim başa düşdüyümə görə, o iclasda 4 tezis irəli sürülmüşdü. Birinci, müharibədə vəziyyət. İkinci, ordu quruculuğu vəziyyəti. Üçüncü, müharibənin perspektivi. Dördüncü, Rusiyaya münasibət. Demək, bu məsələyə biz fevral ayında baxmışıq, özü də ona qapalı iclas adı verdik, ona görə də camaatın bundan xəbəri yoxdur. Milli Məclisin üzvü kimi mən də orada çıxış elədim. İclasda çox dəyərli təkliflər də verildi və ümumiyyətlə, o dövrdə rəhbərlikdə olan adamlar həmin suallara belə cavablar verdilər ki, mü-

haribədə vəziyyət çox acınacaqlıdır, amma müharibəni davam etdirməliyik. Yaxın müddətdə ordu yarada bilmərik. Bu, iqtidar tərəfindən, onun ayrı-ayrı nümayəndələri tərəfindən açıq şəkildə etiraf olunan fikir idi və eyni zamanda belə bir fikir bildirildi ki, yaxın vaxtda müharibədə heç bir müvəffəqiyyət gözlənilə bilməz, lakin bununla belə biz müharibəni davam etdirməliyik.

Rusiyaya münasibətə gələndə isə belə bir fikir irəli sürüldü ki, Rusiya ilə münasibəti dəyişmək olmaz, MDB-yə münasibəti dəyişmək olmaz, çünki bu, boyunduruqdur. Mən həmin Milli Məclisdə öz fikirlərimi bildirdim və son sözüm belə oldu ki, burada deyilənlər və qərar məndə çox böyük narahatlıq və nigaranlıq hissi yaradır və mən bu hisslərlə də Milli Məclisdən çıxıb evimə gedirəm. Günlər keçdikcə həmin nigaranlıq özünü göstərdi. O dövrdə problemlərin düzgün, real olmayan təhlili bax bu gün öz ağır bəhrələrini verir.

Siz çox düzgün təklif irəli sürürsünüz. Həqiqətən də, müharibəni siyasətlə həll eləmək lazımdır. İndiki şəraitdə müharibəni ancaq siyasətlə həll eləməkdən başqa bizim yolumuz yoxdur. Mən sizin bu fikrinizlə tam şərikəm və sizi müdafiə edirəm. İkinci tərəfdən, MDB-nin iclası ayın 7-də olacaq, Moldaviyanın Prezidenti də ora gedəcək, o da bu məsələyə həmişə başqa münasibət bəsləyirdi. Bir çox başqa dövlətlər də bu məsələyə yanaşmalarını yenidən götür-qoy edib fikirlərini və münasibətlərini aydınlaşdırmaq istəyirlər. Mən hesab edirəm, bu da çox düzgün məsələdir və Milli Məclisin üzvü kimi istərdim ki, şəxsən Siz orada iştirak edəsiniz və böyük səlahiyyətlərlə oraya gedəsiniz. Mənə elə gəlir ki, Sizin böyük səlahiyyətlərlə orada şəxsi iştirakınız bu məsələlərin düzgün aydınlaşdırılmasına çox böyük kömək edər və biz Azərbaycan dövlətçiliyinin bu sahədə siyasətinin istiqamətlərini düzgün müəyyənləşdirə bilərik. Mən bu məsələlərin hər ikisinə tərəfdaram və onları müdafiə edirəm.

**Sədrlik edən.** Üzr istəyirəm, verdiyim məlumatlara kiçik bir əlavə də etmək istəyirəm. Rusiyanın son bəyanatında İran İslam Cümhuriyyətinin bu münaqişəyə qarışması təhlükəsindən narahatlıq bildirilir, ancaq bir bu deyil, ümumiyyətlə, bir çox xarici ölkələrdə İran İslam Cümhuriyyətinin bu münaqişəyə qarışması haqqında mətbuatda yazılar gedir, narahatlıqlar bildirilir və mənə də bu barədə suallar olub. Şübhəsiz, biz istərdik ki, bu məsələlər bizim öz daxilimizdə olsun. Mən bu suallara cavab verərkən bir şeyi demişəm, sizə də demək istəyirəm ki, indi Ermənistanın silahlı qüvvələri artıq İranla Azərbaycan arasında olan sər-

hədə yaxınlaşıblar. Qaçqınların çox hissəsi Araz boyu sərhəddə, yaxud, vaqonlarda yaxud da ki, elə-belə, açıq havada qalıblar.

Mən xarici dövlətlərdən mənə bu barədə sual verən adamlara bildirmişəm ki, Arazın o tayında azərbaycanlılar yaşayır və bizdə olan məlumata görə, orada azərbaycanlılar çox həyəcan içindədir, çünki bu tayda olan azərbaycanlıların vəziyyətini görürlər. Orada körpülər var və körpü olmasa da, Arazı o tərəfə, bu tərəfə keçmək indi çətin bir məsələ deyil. Ona görə də mən bildirmişəm, şübhəsiz, biz istəməzdik ki, başqa bir dövlət bu işlərə qarışsın, ancaq eyni zamanda mən heç vaxt heç bir şeyə təminat verə bilmərəm, çünki biz sərhədləri lazımi qədər qoruya bilmirik. Əgər müəyyən qüvvələr, könüllülər, yaxud digər insanlar başqa yerlərdən gəlib bizim əraziyə keçsə, biz özümüzü heç Ermənistanın silahlı qüvvələrindən qoruya bilmirik, indi başqa yerdən nə cür qoruyacağıq? Ona görə də mən bu işlərə təminat verə bilmərəm və güman edirəm ki, yaranmış vəziyyətdən gərək başqa dövlətlər hamısı da özləri üçün nəticə çıxarsınlar.

Mən bu məlumatı əlavə olaraq sizə vermək istəyirdim, eyni zamanda Afiyəddin Cəlilov bir balaca unutdu, mən istəyirəm ki, Türkiyə hökumətinin verdiyi bəyanat və Türkiyə Prezidentinin mətbuat mərkəzinin verdiyi bəyanat – dünən Türkiyənin Baş naziri hörmətli Tansu Çillər də mənə bu barədə telefon etmişdi – bu bəyanatlar ilə də siz tanış olasınız. Bunlar, şübhəsiz ki, mətbuatda verilir, ancaq Məclis üzvlərinin bilavasitə bilməyi daha da yaxşıdır. Buyurun.

**Afiyəddin Cəlilov.** Türkiyə Respublikası Prezidentinin mətbuat xidməti tərəfindən Heydər Əliyevə göndərilmiş məlumat haqqında. Türkiyə Respublikası Prezidentinin sədrliyi ilə və Baş nazirin, dövlət nazirinin və Baş nazirin müavininin, milli müdafiə nazirinin, daxili işlər nazirinin, xarici işlər nazirinin və Baş Qərargah rəisinin iştirakı ilə bu gün keçirilmiş iclasda Azərbaycan–Ermənistan münaqişəsi ilə bağlı son hadisələr nəzərdən keçirilmiş, getdikcə böyüyən erməni təcavüzü, regiondakı sülhü və əmin-amanlığı ciddi şəkildə – türkcə yazılıb burada – mənası bundan ibarətdir, ciddi şəkildə ağırlaşdığını qeyd edən bir... Burada bir az pis oxunur, üzr istəyirəm, bağışlayın, bu bölgədə bir böyük...

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Bilirsiniz – mane olmayın – təəssüf ki, bizim hər yerdə, o cümlədən Ali Sovetdə də, mətbuat orqanlarında da bu katiblik işi, kağız yazmaq, çap eləmək işi o qədər bərbad vəziyyətdədir ki, yazılan

şeyi oxumaq olmur. Oxuya bilmir, verim sizin hamınıza, hansınız oxuya bilərsiniz onu? İş burasındadır, elə çap edirlər, bizim mətbuat orqanlarımız üçün elə gətirirlər ki, onu oxumaq üçün bilmirəm, nə lazımdır.

Bu, bilirsiniz, teleqraf mətnidir, hərflər üst-üstə düşüb, mənası ondan ibarətdir ki, böyük qarmaqarışıqlıq yaranıb, ermənilərin işğal etdikləri ərazidən dərhal, qeyd-şərtsiz və tamamilə çıxmaları zərurəti iclasda qeyd olunmuşdur. Döyüşlərin dayandırılması üçün, ilk növbədə, region ölkələrinin, bütün beynəlxalq ictimaiyyətin təsir vasitələrindən istifadə olunmalıdır. İclasda istər Türkiyənin öz təhlükəsizliyinin, istər dost və qardaş Azərbaycanın torpaq bütövlüyü və müstəqilliyinin qorunmasına, istərsə də regionda sülh və əmin-amanlığın bərqərar olunmasına yönəlmiş tədbirlər müəyyənləşdirilmişdir. Bunu Türkiyənin Azərbaycandakı səfiri təqdim edib.

İndi bura nə cür yazılıb, o cürdür. Amma bunu oxumaq, doğrudan da, mümkün deyil. Afiyəddin Cəlilova mükafat vermək lazımdır ki, bunu oxuya bildi.

Bu məlumatlar, rica edirəm ki, sizi məsələnin əsas məzmunundan yayındırmasın, sadəcə olaraq, bu məlumatları mən sizə çatdırmaq istədim ki, daha da geniş təsəvvür yaransın, ancaq qoyulan məsələlərə münasibətinizi bilmək istəyirəm. Bir də təkrar edirəm, həm son vaxtlar yaranmış vəziyyətlə əlaqədar görülən tədbirlərə, keçirilən görüşlərə, əlaqələrə və onların bundan sonra nə şəkildə olmasına, bu sazişin əldə olunmasına, həm də Müstəqil Dövlətlər Birliyinin dəvəti ilə əlaqədar mənim dediyim fikirlərə, xahiş edirəm, münasibət bildirilsin. Cümşüd Nuriyev.

**Cümşüd Nuriyev.** Hörmətli sədr, hörmətli millət vəkilləri. Bilirsiniz ki, bütün müharibələrin sonunda danışıqlar olur və bu danışıqlar da həmişə sülh müqavilələrinin bağlanmasına gətirib çıxarır. Azərbaycan müharibədə uduzsa da, Azərbaycanı buna vadar edən siyasət olub. Mən bu fikri bir də qeyd edirəm ki, Azərbaycan Bermud siyasi üçbucağının içərisində yerləşir və aparılmış siyasət, həmin tərəzinin gözünün əyilməsi Azərbaycanı bu vəziyyətə salıb.

Məsələ bundadır ki, hazırda biz müharibədə uduzuruq və bu elə qəbul olunmamalıdır ki, Azərbaycan xalqı döyüşə bilmir, vuruşa bilmir və bizim heç bir gücümüz yoxdur. Əslində, mən bir də bu fikrin üstünə qayıdıram ki, Azərbaycanın hər cür imkanları var, çox təəssüf, aparılan siyasət xalqı ağır vəziyyətə salıb, o cümlədən ordunu da. Ordunun vaxtında

yaradılmaması, müxtəlif variantlara əl atılması, bu birbaşa canlı yayım olduğuna görə müəyyən məsələlərə toxunmaq, məncə, o qədər yerinə düşmür. Hər halda, Azərbaycan dövlətinin indiki rəhbərliyi bu addımları atmalıdır. Bir şeyi də nəzərə almaq lazımdır ki, təcavüzün genişlənməsi yeni ərazilərin zəbt olunmasına gətirib çıxaracaq və bu gün zəbt olunmuş ərazilər bir ildən, üç ildən, beş ildən sonra bərpa edilməlidir, buna isə yüz milyardlarla manat pul tələb olunacaq və belə bir gələcəyi indidən görmək lazımdır. Sülh danışıqları sahəsində ağıllı addımların atılması, əlbəttə, qəbul olunmalıdır, yəni bizim özgə yolumuz yoxdur.

Qaldı ki Azərbaycanın MDB-də iştirakına dair danışıqlara, iki ildir, Azərbaycan bu qurumdan imtina edib. 1991-ci il dekabrın 21-də biz MDB-yə getməkdən imtina elədik. 22 ay müddətində Azərbaycanda hər 132 gündən bir Prezident dəyişib, hər 100 gündən bir Baş nazir, hər 90 gündən bir müdafiə naziri dəyişib və demək olar ki, Azərbaycanda sabitlik yoxdur. Azərbaycanda demokratiya anarxiyaya çevrilib, Azərbaycan iqtisadi cəhətdən çox ağır vəziyyətə düşüb. Belə ki, 1993-cü ildə Azərbaycanın büdcəsi 36 milyard rubl kəsirlə planlaşdırılmışdı, artıq 7 ay ərzində bu 47 milyarda çatıb və ilin axırına proqnozla 119 milyard rubl kəsir gözlənilir. Bu istənilən bir dövlət üçün, əslində, iqtisadi iflas deməkdir. Lakin bundan çıxış yolları da var və bu yollar hazırda komissiyalarda da müzakirə olunur. Bunlar onunla bağlıdır ki, Azərbaycanın müasir dünya standartına cavab verən öz texnologiyası yoxdur, əsasən, xammal ixrac edir və Azərbaycan üçün ən ucuz bazar Rusiya və SSRİ-nin keçmiş respublikalarıdır. Uzun müddət ərzində yaranmış həmin iqtisadi əlaqələri biz kəsərək birdən-birə populistcəsinə elan elədik ki, siyasi cəhətdən müstəqillik, amma siyasi müstəqillikdən öncə dövlətin iqtisadi müstəqilliyi lazımdır və iqtisadi cəhətdən müstəqil olmayan dövlət heç vaxt siyasi cəhətdən öz müstəqilliyini qoruyub saxlaya bilmir. Bu iqtisadi müstəqilliyi əldə etmək üçün addım-addım hərəkət etmək lazım idi, çox təəssüf ki, Milli Məclisin üzvləri kimi hamımız belə bir səhv addımı atdıq.

Azərbaycanda heç bir dünya standartlarına uyğun gəlməyən pul-kredit siyasəti yürüdüldü. Manatla rublun eyni vaxtda dövriyyədə olmasının hazırda nəyə gətirib çıxardığı məlumdur. Dövriyyədə nağd pulun olmaması, bundan başqa, saldonun gözlənməməsi xüsusilə Azərbaycanın xammal ehtiyatlarının xarici dövlətlərə çıxarılmasında özünü göstərir. Azərbaycan bütün xarici dövlətlərlə mənfi saldoya gəlib çıxıb. Bu, MDB dövlətlərinə də aiddir. Hələlik müasir texnologiyası olmayan, il ərzində

xaricdən ümumi idxalın cəmi 4-6 faizi miqdarında müasir texnologiyası olan bir dövlətin birdən-birə hər cür əlaqələri kəsməsi, əlbəttə ki, belə bir nəticələrə gətirib çıxaracaqdı. Bundan başqa, oktyabrın 1-dən Rusiya bütün maliyyə kanallarının bağlanması məsələsini qoyub, bu, hər halda, Rusiyanın özünün apardığı siyasətdir və o öz siyasətini həyata keçirməlidir. Bu bir il ərzində, təkcə 1993-cü ildə Azərbaycanın Rusiya banklarına artıq 21 milyard rubldan çox debitor borcları var. Ola bilər, 1993-cü ildə, yaxud 1994-cü ildə bunu müəyyən qədər yola vermək mümkündür, yəni hələlik əvvəlki illərdə yığılmış ehtiyatı xərcləyirik, amma bizim əsas iri müəssisələrin dayanması təhlükəsi var, onlar kütləvi şəkildə dayanacaqlar. Ona görə ki qurulmuş uzunmüddətli iqtisadi inteqrasiya birdənbirə pozulub. Heç bir iqtisadi əlaqə saxlanılmır.

MDB dövlətləri ilə bağlanılmış müqavilələr lazımi səviyyədə olmadığına görə Azərbaycan öz iqtisadi potensialını hələ də qoruya bilmir. MDB ilə bağlı danışıqlarda – indi burada müxtəlif cür don geydirə bilərlər – heç kim Azərbaycanın müstəqilliyini, hər halda, tapdamaq istəmir. Söhbət iqtisadi əlaqələrdən gedir və çox təəssüf ki, Azərbaycanda iqtisadi əlaqələrlə siyasi əlaqələri qarışdırırlar. Azərbaycan bu iqtisadi əlaqələrdə mütləq iştirak eləməlidir və bundan ötrü də dövlət başçısının orada iştirakı vacibdir. Siz müşahidəçi sifəti ilə deyil, dövlət başçısı kimi, bütün səlahiyyətləri olan dövlət başçısı kimi iştirak eləməlisiniz. Azərbaycan dəfələrlə müşahidəçi kimi iştirak eləyib və bunun həm siyasi, həm də iqtisadi nəticələri artıq Azərbaycana məlumdur. Ona görə də mən elə başa düşürəm ki, Milli Məclisin üzvləri dövlət başçısının addımını müsbət qarşılayacaq və bütün lazımi səlahiyyətlərin ona verilməsini təmin eləyəcəklər. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Zəngilan rayonundan deputat Güllər Bədəlova burada iştirak eləyir, xahiş edir, ona söz verək. Həm Zəngilandan olduğuna görə, həm də qadındır, hörmət eləyək.

**Güllər Bədəlova.** Hörmətli sədr, hörmətli millət vəkilləri. Bu gün respublikamızın cənub-qərb zonasında yaranmış vəziyyət hamıya məlumdur. Artıq Zəngilan rayonu, cənub-qərb bölgəmiz, Ermənistanla sərhəd bölgəmiz blokada vəziyyətinə düşüb. Bu hamıya aydın məsələdir. Əhalinin, demək olar ki, uşaqlardan və qocalardan ibarət olan hissəsini Zəngilandan çıxarmağa məcbur olmuşuq, orada yaranmış vəziyyət bizi və rayon rəhbərliyini buna məcbur eləyib. Mən artıq dərəcədə xahiş edirəm, arxayın olmayın ki, Zəngilan rayonunda bu gün sakitlikdir. Bu, təbii bir haldır, ona görə ki bu dəqiqə ermənilərin başı qarışıb Qubad-

lı–Cəbrayıl zonasında dövlət əmlakını, adamların şəxsi əmlakını talan etməyə.

Bu gün Zəngilan rayonunu müdafiə eləmək üçün çalışmalıyıq. Gərək dövlət səviyyəsində bütün tədbirlər görülsün ki, Zəngilan rayonu Ermənistan ordusu tərəfindən işğal olunmasın. Heydər bəy, Sizin siyasi sahədə gördüyünüz bütün işlər xalq tərəfindən böyük rəğbətlə qarşılanır. Eyni zamanda Zəngilan camaatı da Sizə böyük hörmət bəsləyir. Bu gün mən Sizə onların sözlərini çatdırmaq istəyirəm. Onların yeganə ümidi budur ki, Zəngilan torpağına, eləcə də Qubadlı camaatı öz torpağına qayıtsınlar. Onlar torpaqlarından çıxmağa məcbur olublar. 3-4 gün bundan əvvəl Məclisdə olan belə bir söhbət Qubadlı camaatının böyük narazılığına səbəb olub ki, Qubadlı əhalisi döyüşmədən Qubadlını tərk eləyib. Bu düzgün fikir deyil. Qubadlı camaatı döyüşüb. Artıq orada 700 yaralı qeydə alınıb, 50-yə yaxın adam ölüb. Onlar narazı qaldılar ki, o Məclisdə, heç olmasa, ölənlərin xatirəsini bir dəqiqəlik sükutla yad eləyəydilər. Bu, Qubadlı camaatı üçün də bir təskinlik olardı.

Mən bir şeyi də xahiş eləmək istəyirəm ki, həm Qubadlı qaçqınlarının, həm Cəbrayıl, Zəngilan qaçqınlarının, həm də Füzuli qaçqınlarının respublikanın müəyyən ərazisində dövlət səviyyəsində yerləşdirilməsinə bütün dövlət idarəetmə orqanları kömək eləsinlər. Ona görə ki onlar kortəbii surətdə rayonlarda yerləşdirilir. Artıq Beyləqanda, İmişlidə camaat sahələrdə günün altında qalıbdır, onların əksəriyyətinin, heç olmasa, ərzaq sarıdan təminatı yoxdur, səhiyyə sarıdan təminatı yoxdur. 3-4 aydır ki, həmsərhəd bölgələrdə camaat əmək haqqını ala bilmir, pensiyasını ala bilmir, onlar ac-susuz vəziyyətdədirlər. Qaçqın kimi onlara İmişlidə, Beyləqanda əmək haqqını təmin eləmək üçün kömək göstərilsin.

Bir məsələni də demək istəyirəm ki, bütün camaatın arzusu odur, münaqişə yalnız sülh yolu ilə həll olunsun. Mən öz fikrimi də demək istəyirəm, eləcə də Zəngilanın seçicilərinin fikrini demək istəyirəm ki, Azərbaycan dövlətinin MDB dövlətlərinə qoşulması bizim üçün yaxşı olar ki, pis olmaz. Amma bu şərtlə ki, Azərbaycan Respublikasının ərazi bütövlüyünün, dövlət müstəqilliyinin, suverenliyinin qorunması təmin olunsun. Çox sağ olun.

**Sədrlik edən.** Güllər xanım, mən məlumat verdim, bir də təkrar etməyə məcburam ki, Baş nazirin müavini Abbas Abbasov və onunla da bərabər bir çox adamlar məhz bu məqsədlərə görə Zəngilanda oturub-

lar, gündə, ola bilər ki, 10 dəfə o mənimlə telefonla danışır, məlumat verir. Bu gün də mənim onunla telefon əlaqələrim olub, bilirəm ki, orada elektrik yoxdur, camaat qaranlıqdadır və bir o deyil, başqa çətinliklər də çoxdur. Bunların hamısını biz bilirik və tədbirlər görürük.

Qaçqınların vəziyyəti haqqında Sizin verdiyiniz məlumatlar tamamilə həqiqətəuyğundur. Ona görə də mən sizə bildirdim, dünən göstəriş verdik ki, Nazirlər Kabinetindən nazirlər, komitə sədrləri, nazir müavinləri getsinlər və Rəsul Quliyev dünən mənə məlumat verdi ki, xeyli adam gedib. Baş nazir Surət Hüseynov dünən orada olub, gecə qayıdıb. Bir halda ki bu məsələni bir də qaldırırsınız, Nazirlər Kabinetinə, Baş nazir Surət Hüseynova və onun müavinlərinə bir də göstəriş verilir ki, bir o bölgədən deyil, başqa yerlərdən olan qaçqınların vəziyyəti ilə daha da ciddi məşğul olsunlar. İndi əlimizdən gələn imkanlardan tam istifadə edək ki, qaçqınların vəziyyətini bir balaca yüngülləşdirək.

Eyni zamanda mən hesab edirəm, Güllər xanımın təklifini gərək qəbul edək. Bir Qubadlıda deyil, bizim başqa bölgələrdə də son günlərdə həlak olmuş vətəndaşlarımızın ruhunu yad edərək bir dəqiqəlik sükut edək.

***(Hamı ayağa qalxır.)***

Allah həlak olanlara rəhmət eləsin.

Tofiq Əzizov, buyurun.

**Tofiq Əzizov.** Hörmətli sədr, hörmətli millət vəkilləri. Bu axırıncı zamanda irəli sürülən danışıqlara getmək, müharibəni danışıqlarla bitirmək fikri, mən elə hesab edirəm ki, düzgün istiqamətdir, bu yolla getmək lazımdır. Danışıqları daha da gücləndirmək lazımdır. Biz indi danışıqlara hansı səbəblərə görə gedirik, mən o məsələlərin üzərində dayanmaq istəmirəm. Bu çox müzakirə olunub və hamıya bəllidir. Mən istəyirəm, bütün sənayemiz haqqında, sənaye müəssisələrimizin düşdüyü çətinliklər haqqında bir-iki söz danışım. Əgər 1992-ci ildə buraxılan məhsul 1991-ci ilə nisbətən 24 faiz azalmışdısa, bu ilin 7 ayı ərzində buraxılan məhsul yenə də 12 faiz azalıb. Bu heç də o demək deyil ki, necə işləmək lazımdır, yadımızdan çıxıb, zavodlarımız işləmək istəmir, fəhlələrimiz işləmək istəmir. Xeyr. Hamı işləmək istəyir və məhsul buraxılışını artırmaq istəyir, ancaq hamı bilir ki, bizim sənayemiz Rusiya sənayesi ilə inteqrasiya olunmuşdu və biz on illər boyu Rusiya sənayesi ilə sıx bağlıyıq, həm xammal, həm kompleklәşdirmə, həm də cihazlar məsələsində. Bunu bir-iki ilə həll etmək olmaz. Bu çətinliklər bizim sənayeni bu gün çox çətin bir vəziyyətə gətirib.

Mən bir də deyirəm, buraxılan məhsulumuz azalıb. O qədər azalıb ki, xalq üçün buraxılan məhsul bu saat bir manat müqabilində 17 qəpikdir. Əgər bu, 17 qəpikdirsə, biz məhsulun buraxılışını artırmasaq, bizim manatımız inflyasiya olunacaq və biz daha da çətin bir vəziyyətə düşəcəyik. Bunun həlli üçün, mən hesab edirəm ki, Moskvada iclasda iştirak etmək vacibdir. Rusiya ilə iqtisadi müqavilələr bağlamalıyıq, bu məsələlər həll olunmalıdır və bundan bizim əhalinin yaşayışı, zavodların vəziyyəti, buraxılan məhsullar çox asılıdır.

Hörmətli Heydər müəllim, iş o yerə gəlib çatıb ki, mən götürürəm öz müəssisəmizi, bizə xammal verirlər, 200 min rus rublu lazımdır ki, ezamiyyətə işçi göndərək. Biz banklarda 200 min rublu tapa bilmirik və bu məsələlər çətindir. Bir bizim müəssisə deyil, çox müəssisələr belə çətin vəziyyətə düşüblər. Siz uzun müddət Rusiyanın, bağışlayın, SSRİ-nin Nazirlər Kabineti sədrinin birinci müavini işləmisiniz, iqtisadi məsələlərlə yaxşı tanışsınız və Sizin orada iştirak etməyiniz, mən hesab edirəm ki, vacibdir. Siz burada səlahiyyət məsələsini qaldırdınız, mən hesab edirəm ki, Siz hansı səlahiyyəti istəsəniz, mən millət vəkillərindən də xahiş edirəm, özüm də deyirəm, o səlahiyyətlərə mən səs verəcəyəm və Sizdən xahiş edirəm, bizim sənaye müəssisələri naminə bu məsələni Moskvada həll edəsiniz və biz sakitcə işimizə başlayaq. Bu qədər. Çox sağ olun.

**Sədrlik edən.** Firudin Cəlilov.

**Firudin Cəlilov.** Hörmətli Heydər bəy, bu cür ciddi məsələnin atüstü müzakirəsi, əlbəttə, məni narazı salır. Əvvəla, bu, gündəliyə salınmalı idi, ikincisi də mən xahiş eləyərdim ki, bunu yalnız Məclis üzvlərinin iştirakı ilə qapalı iclasda müzakirə eləyək, çünki orada elə məsələlər var ki, biz açıq deyə bilmirik, xüsusilə Moskvanın göndərdiyi emissarların oturduğu bir zalda. Sənaye dayanıb, hər şey dayanıb, minlərcə, milyonlarca bəhanə gətirmək olar. Bu niyə dayanıb, hamımız bilirik, niyə dayanıb. Əgər yeni Türkmənçay müqaviləsinə bizi sürükləyirsinizsə, biz onu geniş müzakirə eləməliyik.

Ona görə mən təklif edirəm ki, bu məsələnin müzakirəsini dayandıraq, qapalı iclasda açıq söhbət eləyək. Təbii ki, Heydər bəy, Siz getməlisiniz, Sizin buna ixtiyarınız, səlahiyyətiniz var. O sənədə qol çəkməlisiniz, amma biz burada bilməliyik ki, hansı məsələlərdir, çünki qayıdıb burada ratifikasiya olunmalıdır. Bu zalda heç vaxt heç kim deməyib ki, biz Rusiya ilə iqtisadi əlaqələri qıraq, mədəni əlaqələri qıraq, qonşuluq əlaqələrini qıraq, heç kimin burada elə bir təklifi olmayıb. Biz iqtisadi

əlaqəyə də getməliyik, mədəni əlaqəyə də – bütün sahələrdə, normal cəmiyyətlərdə olduğu kimi. Ona görə mən yenə təklif edirəm ki, bu çox ciddi məsələdir, çünki elə şeylər var ki, biz açıq deyə bilmirik, bu məsələni ancaq qapalı iclasda müzakirə eləmək olar. Sağ olun.

**Sədrlik edən.** Bilirsiniz, ola bilər ki, qapalı iclasda da müzakirə eləyək, ancaq mənim fikirlərim həmişə açıqdır, ona görə də mən həmişə açıq deyirəm. Biz bu dəqiqə hansısa bir birliyə getməkdən söhbət aparmırıq. Ona görə də Siz əsassız olaraq belə bir təlaşa düşməyin, bu bir. İkincisi, Firudin müəllim, dəfələrlə mən demişəm, əgər mənim fikrimi bilmək istəyirsinizsə, Azərbaycan bundan sonra heç vaxt müstəqilliyini itirməməlidir. Siz deyirsiniz ki, kimsə sizi Türkmənçay müqaviləsinə sürükləyir, çox səhv eləyirsiniz. Bəlkə, kimsə sürükləmək istəyir. Ancaq bir halda ki mən hələ Azərbaycanın Ali Sovetinin sədri kimi və dövlət başçısının vəzifəsini icra eləyən şəxs kimi buradayam, mən keşikdə durmuşam, narahat olmayın.

Ancaq Rusiya ilə münasibətləri normal vəziyyətə salmaq heç də yenidən ya Rusiyanın tərkibinə daxil olmaq, ya da yenidən Sovet İttifaqını bərpa etmək deyil. Siz xatırlamalısınız ki, 1991-ci il mart ayının 7-də, günü də yadımdadır, mən bu salonda çıxış etdim ki, Azərbaycan referenduma getməməlidir. Onda məni burada Sizin gözünüzün qabağında təhqir etdilər, yadınızdadırmı? Azərbaycan müstəqil dövlət olmalıdır – mən bunu o vaxt dedim. İndi nə olub ki, iki il keçəndən sonra mən gəlim, fikrimi dəyişim. Ancaq müstəqil dövlət kimi yaşamaq üçün müstəqil dövlətin sağlam xarici siyasəti olmalıdır. Bu xarici siyasət ümumdünya prosesləri, regionlarda, geopolitik çərçivələrdə gedən siyasətlərlə uyğunlaşmalı siyasət olmalıdır. Birtərəfli siyasət ola bilməz. Ona görə də burada heç kim Azərbaycanı Türkmənçay müqaviləsinə sürükləmir. Heç də belə deyil.

İstəyirsiniz, bağlayaq, iclası qapalı eləyək, ancaq burada nə var ki, bunu qapalı edək, nə sirr var ki, deyim. Mən hesab edirəm, müzakirə davam eləyə bilər, indi əgər ehtiyac olsa, xüsusi məsələlərin müzakirəsini biz sonra qapalı iclasda davam etdirə bilərik, ancaq indi mən millət vəkillərinə və Məclis üzvlərinə söz verirəm. Rəsul Quliyev buyursun.

**Rəsul Quliyev.** Deməli, dünyada elə bir dövlət yoxdur ki, Azərbaycanın ərazi bütövlüyü barəsində bəyanat verməsin. Dünyada elə bir dövlət də yoxdur, deməsin ki, ermənilər tutduğu torpaqlardan çıxmalıdır. Özü də bunu çoxdan da deyiblər. Bəs niyə indiyə kimi sülh danışıqları-

na getməmişik? Bunun səbəbini araşdırmaq lazımdır. İndiyə qədər sülh danışıqlarına getməli idilər və bu məsələ sülh danışıqları yolu ilə həll olunmalıydı. Sülh danışıqlarına ona görə gedilməyib ki, Azərbaycanın daxilində anarxiya olsun, müxtəlif qüvvələr müharibə adı ilə varlansınlar, camaatı soysunlar, ondan-bundan pul yığsınlar. Onun üçün sülhə getməyiblər, bir. İkincisi, sülh danışıqlarına ona görə gedilməyib ki, sülh olandan sonra gərək bu xalqa deyəsən, axı niyə o pis vəziyyətdə yaşayır. Bunun qorxusundan qoy müharibə olsun, mən hakimiyyətdə olum deyiblər. Çünki sülh bağlanarsa, sabah gərək cavab verəsən ki, millət niyə bu vəziyyətdə yaşayır. Axı dövlətin başında milləti bu vəziyyətdən çıxarmağa qabiliyyəti olan şəxslər olmayıb. Ona görə də sülh danışıqlarına getməyiblər.

Bu sülh danışığına hökmən getmək lazımdır, çünki yenə deyirəm, bütün dünya dövlətləri hamısı Azərbaycanın ərazi bütövlüyünü, hətta Ermənistan Azərbaycanın ərazi bütövlüyünü təsdiq eləyir, bütün dünya dövlətləri bəyan eləyir ki, ermənilərin hamısı tutduqları bu ərazilərdən çıxarılmalıdır və Dağlıq Qarabağ məsələsi Azərbaycanın daxili məsələsidir. Belə olan şəraitdə nəyə görə sülhə gedilməməlidir? Sülhə hökmən gedilməlidir, bu, lazımlı məsələdir.

Qaldı Müstəqil Dövlətlər Birliyinə münasibət məsələsi, dünyada belə bir praktika var, indi məsələn, Avropa dövlətləri birliyi yaranıb. Türkiyə hökuməti neçə illərdir çalışır ki, Avropa dövlətləri birliyinə düşsün, ora düşə bilmir. Çünki Avropa dövlətləri birliyinin olmasının çox müsbət xüsusiyyətləri var. Məsələn götürək, Fransada 30-40 faiz başqa dövlətlərin kapitalı var, Almaniyada 25 faiz və sair. Kapitalın azad hərəkəti – yəni sivil ölkələrin hamısında belə bir şey var. Yaxşı, bir-birinə bağlı olan ölkələrdə, müstəqil ölkələrdə, Müstəqil Dövlətlər Birliyi dediyiniz birlikdə bu iqtisadi inteqrasiya nəyə görə pozulmalıdır? Nə məqsədlə pozulmalıdır? Bu məqsəd də aydındır.

Firudin müəllim deyir ki, atüstü, bu atüstü deyil, iki ildir, bu barədə söhbət gedir. Burada hansı atüstündən söhbət gedir. Nəyə görə Müstəqil Dövlətlər Birliyinə girmək istəməyiblər? Müstəqil Dövlətlər Birliyinə daxil olmayanda bu ölkələr ilə biz müqavilələr bağlamışıq, dövlətlərarası müqavilələr. Dövlətlərarası müqavilələrə baxsanız, görərsiniz ki, dövlətlərarası bağlanan müqavilələr də bu gün işləmir. Fərrux müəllim deyə bilər, çünki o mexanizm yoxdur. O mexanizmin olmaması da süni surətdə yaradılıb və süni surətdə yaradılan mexanizmin olmaması gətirib çıxarır korrupsiyaya, müxtəlif neqativ işlərə.

Tək Müstəqil Dövlətlər Birliyindən söhbət getmir. Bunun iqtisadi ittifaqına və sairəyə daxil olmaq çox tezliklə lazımdır. Bu, müstəqilliyi itirmək deyil, bu, Tükmənçay məsələsi deyil. Mən başa düşmürəm, biz EKO-nun üzvü olanda niyə bu, Türkmənçay sayılmır, amma şimal tərəflə bir qurum Türkmənçay sayılır. Bu düzgün söhbət deyil. Mən hələ əksinə fikirləşirəm. Biz indidən fikirləşməliyik ki, bizi Avropa dövlətləri birliyinə qəbul eləsinlər. Burada nə var ki? Müstəqilliyin özünü başa düşmək, anlamaq lazımdır. Hansı şəkildə müstəqil ola bilərsən? Müstəqil olmaq o deməkdir ki, hansısa bir quruma daxil olursan, hansısa bir quruma daxil olmursan? Məsələn, Avropa dövlətlər birliyinə Fransa da daxildir, Almaniya da daxildir, İngiltərə də daxildir. Bosniya barəsində hərəsinin öz siyasi fikri var. Bu nə deməkdir? Məgər onlar müstəqil deyil, yaxud bu quruma daxil olanlar hamısı bir söz deməlidir? Elə şey yoxdur, qəti sürətdə yoxdur, ona görə də mən sayıram ki, Müstəqil Dövlətlər Birliyinə münasibət bizdə pozitiv şəkildə həll olunmalıdır. Hökmən bu ölkələr arasında kapitalın azad gedişi olmalıdır. Gələcəkdə biz çalışmalıyıq, əksinə, bizim kapitalın hərəkəti Avropaya da keçsin. Bu, sivilizasiyanın əsasıdır, bunsuz necə yaşamaq olar? Ona görə də mən sayıram ki, dövlət başçısı kimi Sizə Moskvada bütün səlahiyyətləri vermək lazımdır və oradakı vəziyyətdən asılı olaraq qərar çıxarmalısınız.

Amma mən sizə deyim, bizim bir ildə apardığımız siyasət ona gətirib çıxarıb ki, hələ bu o demək deyil, bizi Müstəqil Dövlətlər Birliyinin hansısa bir ittifaqına buraxacaqlar. Ora daxil olmaq üçün hələ böyük mübarizə aparmaq lazımdır. Onu siz özünüz görəcəksiniz, qəbul eləməyəcəklər, heç kim orada hazır dayanmayıb ki, Azərbaycansız yaşaya bilmir.

**Sədrlik edən.** Mən yenə də müdaxilə etməyə məcburam, çünki bilirsiniz, dünya siyasəti böyük bir meşədir. Siyasətlə məşğul olmaq və bu siyasətdə sağlam fikirlər irəli sürmək üçün gərək geniş dünyagörüşün və dünyanın hər tərəfinə baxmağa imkanın olsun. Təəssüf ki, son dövrdə Azərbaycanda siyasətlə məşğul olan ayrı-ayrı şəxslərdə bu əyalət əhvali-ruhiyyəsi daha üstündür – ancaq öz komamda, öz kəndimdə, mənim kəndimdən yaxşısı yoxdur, mənim kəndimdən, komamdan, yaxud da ki mənim şəhərimdən, yaxud da ki Azərbaycanın içində olan şeydən başqası yoxdur. Kənarı görmürlər, ona görə də belə hadisələr baş verir.

Burada Türkmənçay, Gülüstan müqavilələri yada düşəndə mənim bir az gülməyim gəldi, axı Türkmənçay, Gülüstan müqavilələri Azərbaycanla Rusiya arasında bağlanmamışdı ki, Rusiya ilə İran arasında bağlanmışdı. İndi deyəndə ki, Rusiya ilə əlaqələrimizi yaxşılaşdırmaq istəyi-

rik, bəli, deyirlər ki, bizi sürükləyib Türkmənçay müqaviləsinə aparırlar. Onlar ya Türkmənçay müqaviləsinin nə olduğunu bilmirlər, ya da ki, indiki siyasətimizin nə cür olduğunu bilmirlər, mən yenə də başqa mənbələrə istinad etmək istəmirəm.

Dünən Türkiyədən canlı yayımla Böyük Millət Məclisinin iclası verilirdi. Mən qısa bir müddət ona baxdım. Türkiyənin Prezidenti Süleyman Dəmirəl çıxış edirdi, sovet rus imperatorluğunun dağılması haqqında danışırdı və bunu müsbət hal kimi deyirdi. Bu imperatorluq dağılandan sonra müstəqil dövlətlərin vəziyyəti haqqında danışırdı və bu dövlətlərin Rusiya ilə münasibətlərinin olmasını onlar normal qəbul edirlər, çünki o da qeyd etdi, bu heç də o demək deyil ki, yenidən Sovetlər İttifaqı yaranacaq, yaxud da ki, Rusiyaya daxil olacaqlar. Eyni zamanda çıxışının çox hissəsini Türkiyə ilə Rusiya arasında əlaqələrin daha da genişləndirilməsinə, inkişaf etdirilməsinə həsr etmişdi. Türkiyə Amerikaya bağlıdır, NATO-nun üzvüdür, eyni zamanda çıxışının çox hissəsi o təklif idi.

Mən sizə məlumat verdim ki, dünən Türkiyənin Baş naziri hörmətli Tansu Çillərlə mən söhbət edirdim, telefonla danışırdım, mən ona məlumat verdim, o da dedi ki, Rusiya dövlətinin dəvəti ilə sentyabrın 8-9-da Moskvada olacaq, Türkiyə ilə Rusiya arasındakı münasibətlər haqqında danışıqlar aparacaq. Yeni Baş nazirdir və nəzərə alın ki, onun ilk xarici səfəri Moskvaya, Rusiyayadır. Mən bununla demək istəyirəm ki, Türkiyə Rusiyanı prioritet istiqamət sayır. Ancaq sadəcə olaraq, gerçəklik bundan ibarətdir, ona görə mən yenə də deyirəm, həmişə müxtəlifliyin tərəfdarı olmuşam, bir fikrə istinad etmək niyyətində deyiləm, hər bir fikirdən fayda götürmək arzusundayam, bundan sonra da bunun arzusunda olacam və heç bir əks fikri də mən qeyri-normal bir şey kimi qəbul etmirəm, ancaq gərək bu fikirlərimiz sağlam istiqamətdə olsun. Səlvər Aslanova söz verilir.

**Səlvər Aslanov.** Heydər müəllim, Afiyəddin müəllimin verdiyi məlumatı, əlbəttə, millət vəkilləri bilməlidirlər, xalqımız da hər şeyə qulaq asdı. Əlbəttə, bu iki-üç ayın ərzində çox qüvvə sərf olunub ki, bu danışıqlar başlansın. Danışıqlar başlansın, amma biz silahlı qüvvələrimizi də – əgər bu qüvvələr varsa – hazır saxlamalıyıq. Danışıqlara getməliyik, danışıqlar olmalıdır, bunsuz olmayacaq, bu indi hamıya aydındır.

O ki qaldı ikinci məsələ – Moskvaya getmək məsələsi, bu məsələyə bir neçə dəfə burada baxılıb, baxılmamışdan qabaq da bəzi yoldaşların bir sıra çıxışları olubdur. Ondan sonra bizə bircə o qalmışdır ki, deyək

"hə", ya "yox". Biz də Sizinlə razıyıq, amma indi ki Siz belə açıq məsləhətləşirsiniz, mən hesab eləyirəm ki, Siz Moskvaya getməlisiniz, özü də mütləq getməlisiniz, Rusiyanın rəhbərliyi ilə də oturub baş-başa, açıq-açığına söhbət aparmalısınız.

Burada Rəsul Quliyev düzgün deyir, nə oldu, Amerikada iclas keçirilir, buradan tez 3-4 nəfər qaçıb gedir o iclasa, Pakistanda iclas keçirilir, konqres keçirilir, nə bilim, iqtisadi müşavirə keçirilir, hamısı qaçır buradan oraya, amma buradan-buraya, Moskvaya biz necə getməyək? Sual oluna bilər, Moskva bizə nə eləyibdir? Əgər bu vaxta qədər incidibsə, indi kim deyirsə, müstəqilliyimizi itirə bilərik, müstəqilliyimizi itirməyə qoymazlar, ona görə ki xarici ölkələrin hamısı Azərbaycanla əlaqələr yaratmaq istəyirlər.

Baxın görün, Ukrayna 50 milyonluq ölkədir, qüdrətli bir dövlətdir, SSRİ-də ikinci dövlət idi. Hər gün, hər həftə gah Krımda, gah Yaltada Yeltsinlə oturub söhbət eləyirlər, nə isə danışırlar, nəyəsə gedirlər. Niyə biz gedə bilmirik, biz, nədir, hamıdan ağıllıyıq? Bu ağıllılığı biz bir ilin, iki ilin ərzində gördük.

Mandatdan söhbət gedir, mandatınız lap geniş olmalıdır, özü də konkret. Dövlət başçısısınız, biz də Sizə deyirik, mən də millət vəkili kimi, Milli Məclisin üzvü kimi Sizdən xahiş eləyirəm, gedin danışın, elə eləyin ki, camaatımız, xalqımız əmin-amanlığa çıxsın. Çox sağ olun.

**Sədrlik edən.** Zeynalov, buyurun.

**Fərrux Zeynalov.** Hörmətli sədr, hörmətli millət vəkilləri, mən də məsələyə münasibətimi bildirmək istəyirəm. Bəzi hörmətli deputatlarımız söyləyirlər ki, biz vaxtı ilə böyük səhvlərə yol vermişik, amma demək istəyirəm ki, biz vaxtında da bunun mahiyyətini, əhəmiyyətini başa düşürdük, bu müqavilələri, yəni o şərtləri qoruyub saxlamaq istəyirdik, bu zal buna şahiddir. Bir təchizat naziri kimi, Heydər müəllim, nəzərinizə çatdırmaq istəyirəm ki, bilavasitə respublikalar arasında müqavilələr əsasında təchizatla bizim nazirlik məşğuldur, amma mən çox təəssüf eləyirəm, həm də başa düşürəm ki, vəziyyətin gərginliyi ilə əlaqədar biz bu məsələ ilə biz ciddi məşğul olmuruq, yəni Ali Sovet çərçivəsində bu məsələlər müzakirə olunmur. Bu gün biz gücümüzü iqtisadi məsələlərə verməliyik, amma bilirik, əlaqələr kəsilib, respublikanın öz daxilində qiymət siyasəti, pul siyasəti, keyfiyyətsiz mallar... Ümumiyyətlə, biz bəzi məsələləri MDB çərçivəsində respublikalar ilə bağlayırıq, amma demək istəyirəm ki, bundan istifadə eləyib özümüz də öz əlimizlə çox şeyi dağıtmışıq.

Ona görə də mən çox təəssüf eləyirəm ki, bu gün heç kəsin hesabatı yoxdur, heç kim gördüyü işlər üçün cavabdehlik daşımır. Mən xahiş eləyirəm, yaxın gələcəkdə Milli Məclisdə bütün nazirliklərin hesabat verməsi məsələsi qoyulsun. Kim nə ilə məşğul olubdur, bunlar hamısı aydınlaşdırılmalıdır.

Bilirsiniz, bütün küçələrdə alverlər gedir, ticarət gedir, amma banklarda camaatın maaş almasına pul yoxdur, asanlıqla pul dövlət iqtidarından çıxıb şəxsi sektora keçib, bunun da müəyyən səbəbləri olubdur.

Bir nazir kimi mən Sizə demək istəyirəm ki, ən vacib məhsullar üçün banklarda pul tapılmır. Bizim alverçi səviyyəsində hörmətimiz yoxdur. Respublikada küçə malları üçün həmişə pul tapılıb, pullar keçirilib, hansı yollarlasa gətirilib, amma dövlət təchizatı ilə məşğul olan idarələrin vəziyyəti gün-gündən ağırlaşıb, ona görə də biz xahiş eləyirik, iqtisadiyyatla əlaqədar məsələlər ciddi nəzarətə götürülməlidir. O ki qaldı MDB çərçivəsində səlahiyyət, mənə elə gəlir ki, heç uzun müzakirəyə ehtiyac yoxdur. Hansı formada olmalıdır, bunu Siz hamıdan yaxşı bilirsiniz, biz Sizə inanmalıyıq, bu müzakirələrdə iştirak eləmək səlahiyyəti Sizə verilməlidir. Sağ olun.

**Sədrlik edən.** Qüdrət Quliyev, buyurun.

**Qüdrət Quliyev.** Hörmətli Heydər bəy, hörmətli millət vəkilləri. Bu bir həqiqətdir ki, Ermənistanın Azərbaycana hərbi müdaxiləsi nəticəsində hərbi-siyasi vəziyyət get-gedə gərginləşməkdə davam edir və əgər belə gedərsə, bu münaqişə beynəlxalq miqyas ala bilər. Qonşu Türkiyənin və İranın rəsmi dairələrinin verdiyi məlumatlar bunu bir daha sübut edir ki, əgər ermənilər və onları dəstəkləyən qüvvələr Azərbaycanda işğalçılıq siyasətinə son qoymasalar, regionda hadisələrin davamı məcrasından çıxa bilər, dünya çox dəhşətli bir fakt qarşısında qala bilər. Sözsüz ki, bu həqiqəti Qafqazda böyük siyasətin tərəf-müqabilləri olan super dövlətlər yaxşı başa düşürlər, amma bu o demək deyil ki, Azərbaycan hadisələrin tənzimlənməsində, hərbi münaqişənin aradan qaldırılmasında xarici dövlətlərə arxayın olmalı və ya seyrçi mövqe tutmalıdır, əksinə, Azərbaycan Respublikası fəal xarici və daxili siyasət zəminində geosiyasətə məqsədyönlü, səmərəli şəkildə müdaxilə etməlidir.

Bu səbəbdən bizim xarici siyasətin əsas istiqamətlərindən biri də sanballı sülhməramlı danışıqlar olmalıdır, Milli Məclis millət başçısı hörmətli Heydər Əliyevə belə bir siyasətin həyata keçirilməsi üçün lazım olan mandatı və geniş səlahiyyətləri etibar etməlidir. Azərbaycanda

sülhü bərqərar etmək, Azərbaycan xalqını düşdüyü fəlakətlərdən qurtarmaq, torpaqlarımızın işğalına son qoymaq və ermənilər tərəfindən işğal edilmiş ərazilərimizi geri qaytarmaq üçün biz bütün yolları labüd saymalıyıq, maraqlı tərəflərlə, mən deyərdim ki, lazım gəlsə, hətta şeytanın özü ilə də ittifaqa getməliyik.

Xarici siyasətdə son zamanlar mövcud olmuş diletantizm və Heydər müəllim, Sizin təbirinizlə desək, plüralizm sülh danışıqlarında Dağlıq Qarabağ ermənilərini inkar edirdi, burada aparılan danışıqların son nəticəsini heçə endirirdi. Roma görüşləri, ATƏM çərçivəsində fəaliyyət heç bir səmərə vermirdi. Ona görə Dağlıq Qarabağ ermənilərini təmsil edən tərəflə də danışıqlar məqsədəuyğundur və böyük danışıqlar çərçivəsində bu siyasət də davam etdirilməlidir.

Müstəqil Dövlətlər Birliyinə gəldikdə isə bu barədə məndən qabaq çıxış etmiş millət vəkilləri geniş danışdılar, mən bu barədə uzun fikir söyləmək fikrində deyiləm, bir şeyi qeyd etmək istəyirəm ki, bu amil bir ildir, az qala xortdan kimi qələmə verilmişdir. Respublikanın xarici siyasətində millətçilik ehkamları o qədər güclənmişdir ki, MDB adını tutanlar az qala xalq düşməni elan edilə bilərdi, səbəbi nə idi, hamımıza bəllidir. Bu səbəbdən də, mənə belə gəlir ki, dövlətimizin başçısı və bütün dövlət instansiyaları MDB ilə əlaqədar siyasət yürütməlidir, Moskvada nəzərdə tutulmuş danışıqlarda hansı sifətlə istəyir – müşahidəçi və başqa sifətlə bizim iştirakımız vacibdir.

**Sədrlik edən.** Mürşüd Məmmədov, buyurun.

**Mürşüd Məmmədov.** Hörmətli sədr, məsələnin iqtisadi aspektlərindən Tofiq Əzizov və Fərrux Zeynalov danışdılar, mən işin ancaq bir məqamına toxunmaq istəyirəm. Bildiyiniz kimi, Ermənistanla Rusiya arasında təhlükəsizlik haqqında müqavilə var. Sabah Azərbaycan MDB-yə, bu müvəqqəti dövlətlər birliyinə daxil olandan sonra Azərbaycan–Ermənistan qarşıdurmasında Rusiya hansı mövqeyi tutacaq? Əgər Ermənistanla Rusiya arasında qarşılıqlı təhlükəsizlik haqqında ikitərəfli müqavilə varsa, mən Sizin şəxsən Yeltsinlə görüşünüzü dəstəkləyirəm və hesab edirəm ki, bu görüş çox vacibdir, biz başda Rusiya olmaqla MDB dövlətləri ilə münasibətləri keyfiyyətcə yeni bir mərhələyə qaldırmalıyıq.

Bu, tarixi zərurətdir, yəni bu tarixi reallıqla hesablaşmaq lazımdır. Amma belə hesab edirəm ki, Yeltsinlə görüşdən sonra Rusiya və Azərbaycan tərəfləri maraqlandıran problemləri qarşılıqlı surətdə müzakirə edəndən sonra görək MDB Azərbaycana və Azərbaycanın tarixi inkişaf

perspektivinə nə verə bilər və nə verəcək. Ondan sonra Siz Milli Məclisdə görüş barədə məlumat verərsiniz. Elə bilirəm ki, MDB-yə qəbul olunmaq haqqında məsələni biz Milli Məclisdə geniş və hərtərəfli müzakirə edərik, çünki bizdə belə bir dəb, ənənə yaranıb, dövlət başçısı hər hansı bir məsələyə Milli Məclisin münasibətini bildirməsini tələb və xahiş eləyəndə dərhal hamımız deyirik ki, getməliyik və sair, amma indi bunu fikirləşmək lazımdır, çünki Kravçuk özü də, başqa dövlət başçıları da MDB-yə müvəqqəti bir qurum kimi, simbioz kimi baxırlar. Belə bir şəraitdə bu gün girək və bir ildən sonra, beş aydan sonra da çıxaq... Odur ki elə əvvəlcədən fikirləşmək lazımdır. Sağ olun.

**Sədrlik edən.** Mürşüd müəllim, mən Sizin sözlərinizə çox hörmətlə yanaşıram, ancaq sadəcə, bir şeyi soruşmaq istəyirəm. Dediniz ki, Ermənistanın Rusiya ilə qarşılıqlı təhlükəsizlik haqqında müqaviləsi var. Əlavə etmək istəyirəm ki, Müstəqil Dövlətlər Birliyi, bildiyiniz kimi, bir neçə ay bundan öncə Daşkənddə toplaşanda Kollektiv təhlükəsizlik haqqında müqavilə imzalayıblar, bunu, yəqin ki, bilirsiniz, elədirmi? Bilirsiniz. İndi Sizdən soruşuram, Siz son dövrdə Azərbaycanın siyasətində çox fəal adamlardan birisiniz, Azərbaycanın kiminlə qarşılıqlı təhlükəsizlik haqqında müqaviləsi var, kiminlə? Hansı bir dövlətlə var? Varsa deyin, özü də o halda ki, beş ildən artıqdır, müharibə aparır, yəni müharibə aparmağa məcburdur, Azərbaycana təcavüzlər var.

Müstəqil dövlət olandan sonra hansı dövlətlə biz qarşılıqlı müdafiə sazişi, müqaviləsi bağlamışıq, yaxud da ki, hansı dövlətlə dostluq və əgər bir-birinə hücum olarsa, kömək etmək haqqında müqavilə – belə beynəlxalq normalar var, yəqin, bilirsiniz – hansı dövlətlə bağlamışıq? İndi Siz fikirləşin, Azərbaycan təkbaşına nə eləyə bilər? Mən bununla onu demək istəmirəm ki, Azərbaycan kiminləsə harasa girməlidir, ya girməməlidir, yox, mən sadəcə, Sizin dediklərinizdən çıxan məna əsasında bunları deyirəm. Siz qorxursunuz, bəli, girəcəyik. Simbiozdur, nədir, filandır, biz bundan danışmırıq, ancaq bax Sizin öz dediyiniz sözlərdir. İndi o tərəfin uzaqgörənliyinə baxın, onların qarşılıqlı təhlükəsizlik müqaviləsi var, siz bilirsiniz ki, Ermənistan artıq Ermənistanda olan Rusiya qoşunlarını Rusiyanın hərbi bazası kimi qanuniləşdiribdir. Siz bunu da bilirsiniz, Gürcüstanda Rusiyanın qoşunları var, indi oradan məlumat gəlir ki, Rusiya o qoşunları Rusiyanın hərbi bazası kimi qanuniləşdirmək istəyir və belə hiss olunur ki, Gürcüstanın rəhbərliyi də buna razılıq verir. Belə olan halda, Azərbaycan nə eləsin, bunu düşünürsünüz, yoxsa yox?

Yenə də deyirəm, bilirsiniz, bizim bəzi jurnalistlər var, oradan-buradan bəzi şeylər qırtıblar, bağışlayın, bir az kobud da olsa, mən bu sözü işlətməliyəm, oradan-buradan nə isə qırtıblar, özlərini çox böyük siyasətçi hesab edirlər. Bəli, bizim çox aşağı səviyyədə olan politoloqlarımız var, özlərini milləti başqasından daha çox sevən adam kimi nümayiş etdirmək istəyənlər var, elələri var və təəssüf ki, son illərdə meydan bunların əlində olub və bunlar da iki-üç dənə populist söz deyən kimi bu siyasətdən, bu məsələlərdən məlumatı olmayan adamlar onlara əhsən deyiblər, sağ ol deyiblər. Bəziləri elə bu yollarla gəlib parlamentə çıxıblar, bəziləri bu yollarla ayrı-ayrı vəzifələr tutublar, ancaq mən dəfələrlə demişəm, hər bir dövlətin aparıcı qüvvəsi onun intellektual insanları olmalıdır. Mən başqa söz demək istəmirəm, sadəcə, bu sözlərlə Sizin çıxışınıza bir balaca əlavə etmək istədim, bağışlayın. Mirmahmud bəy buyursun.

**Mirmahmud Fəttayev.** Hörmətli Heydər müəllim, hər dəfə hər hansı məsələ müzakirə olunanda mən şəxsən belə hisslər keçirirəm ki, Sizin apardığınız iclasda söz deməyim, ona görə ki son söz yenə də bir sədr kimi istər-istəməz Sizin olur, məsələyə bu və ya digər formada öz münasibətinizi bildirirsiniz, sonra da adam çətinlik çəkir, təkrar söz ala bilmir. Yenə də söz Sizin olur, Sizin dediyiniz həm Milli Məclis üzvləri tərəfindən, həm də tamaşaçılar tərəfindən qanun kimi qəbul edilir, amma bütün bunlara baxmayaraq, Sizin bayaq xatırlatdığınız 1991-ci il 7 mart tarixli çıxışınız, Azərbaycanın bugünkü vəziyyəti və bayaq dediyiniz bir məsələ, bizim sülh danışıqlarına getməyimiz məsələsi istər-istəməz məni vadar edir ki, bu məsələyə münasibətimi bildirim.

Rəsul bəy burada MDB-ni Avropa dövlətləri birliyi ilə müqayisə edir, bu çox bağışlanmaz bir işdir, müqayisə ediləsi məsələ deyil. Müstəqil Dövlətlər Birliyi bir şeydir, Avropa dövlətləri birliyi tamam başqa şeydir. Bayaq dediyiniz o sülhməramlı addım, yəni bizim ermənilərlə danışığa getməyimiz həddindən artıq məsuliyyətli və çətin məsələdir, MDB məsələsi də onun kimi. Sizin sələflərinizin bəziləri MDB məsələsində öz siyasi karyerasını qurban verib, bu məsələnin çətinliyinin Sizin üçün bir tərəfi də odur. Xalqımız həmişə bütövlükdə, bəziləri Sizin dediyiniz o populist şəkildə, bəziləri düşünərək, bəziləri siyasi, iqtisadi, hüquqi cəhətlərini dərindən başa düşüb izah edərək MDB məsələsinə öz münasibətlərini bildiriblər. Bu gün dediyiniz məsələ, yəni sülhməramlı addıma getmək, bayaq Afiyəddin bəyin oxuduğu dövlətlərin müraciətləri, bəyanatları, 2 gün bundan əvvəl burada "Dağlıq Qarabağ

Muxtar Respublikasından" ilk dəfə olaraq Sizin tərəfinizdən məlumat verilməsi – bütün bunlar bu 2-3 gün ərzində belə bir məsələni bizim beynimizdə həkk etməyə sərf olunmuşdur ki, biz Müstəqil Dövlətlər Birliyinə gedəcəyik.

Bugünkü iqtidarın siyasi kursu bəlli olur – artıq biz "Dağlıq Qarabağ muxtar respublikasını" tanımalı oluruq. Çox acınacaqlı olsa da, belədir, amma bunun başqa bir tərəfi də var. Bu gün məni ən çox narahat eləyən o məsələdir ki, bizim cənub-qərb bölgəsində vəziyyətin gərginləşməsi ilə əlaqədar olaraq Rusiya xarici işlər nazirinin verdiyi bəyanatda Türkiyə qoşunlarının Azərbaycan sərhədlərini keçməsi haqqında məlumatla əlaqədar gələcəkdə rus qoşunlarının Azərbaycanın cənub sərhədlərində yerləşdirilməsi məsələsi qoyulur. Bu o deməkdir ki, gələcəkdə Azərbaycanın, deməli, İran və Türkiyə ilə sərhədlərində bu qoşunların yerləşdirilməsi nəzərdə tutulur.

Nəhayət, Sizin dediyiniz məsələyə – sentyabrın 7-də Moskvada keçiriləcək Müstəqil Dövlətlər Birliyi dövlət başçılarının iclasınamı, yoxsa müşavirəsinəmi Azərbaycan dövləti rəhbərliyinin dəvət olunmasına, bütün bunlara mənim birmənalı cavabım var, bu cavab da ondan ibarətdir ki, Azərbaycan Respublikasının həm Rusiya ilə, həm də Özbəkistanla, Gürcüstanla, Qazaxıstanla və digər respublikalar, Pribaltika respublikaları ilə ikitərəfli iqtisadi müqavilələri var. Həmin müqavilələrin işləməməsi haqqında burada sözlər səsləndi, düzdür, ola bilsin, onun elə səbəbləri var ki, biz tərəfdəndir, yəni elə məsələlər var ki, həmin məsələlərin həlli Azərbaycan dövlətindən asılıdır, amma keçmiş SSRİ respublikaları, Siz də gözəl bilirsiniz və bizim hamımızdan da yaxşı bilirsiniz ki, bu saat Azərbaycanın düşdüyü vəziyyətdədir, yəni ondan bir o qədər də fərqli deyildir, bəzi respublikaları çıxmaq şərti ilə. Belə olan halda, əlbəttə, bizim indiki iqtisadi vəziyyətimizin bu şəkildə olmasının səbəbi məhz Müstəqil Dövlətlər Birliyinə getməməyimizdir deyilməsi, mən çox üzr istəyirəm, yaxşı səslənmir. Ona görə də mən Müstəqil Dövlətlər Birliyinin iclasına Sizin müşahidəçi kimi də, bu gün Azərbaycan dövlətini təmsil edən bir şəxs kimi də getməyinizi istəmirəm, həm də biz hələlik o birlikdə təmsil olunmadığımıza görə istəmirəm. Bu mənim şəxsi fikrimdir. Əlbəttə, onsuz da, bayaq dediyim kimi, bu məsələ səsvermə yolu ilə qəbul olunacaq, amma istəməzdim ki, dövlət rəhbəri kimi Sizin xarici siyasətdə ilk addımınız Müstəqil Dövlətlər Birliyi ilə bağlansın. Ola bilər ki, biz oraya müşahidəçi qrup göndərək, indi ona hansı səlahiyyətlər verəcəyiksə, öz işimizdir, yəni Məclisin öz işidir.

Fürsətdən istifadə eləyib bir məsələni də mən qeyd eləmək istəyirəm. Sizin bütün çıxışlarınızda, harada olmasından asılı olmayaraq, hər hansı bir məsələdə uğursuzluqları, yaxud çatışmazlıqları keçmiş iqtidarla bağlayırsınız. Bu da təbii haldır, yəni ki, Sizin gəlib qəbul elədiyiniz Azərbaycan dövlətçiliyinin ümumi mənzərəsi bu idi, amma keçmiş iqtidarın kadr siyasətində son nəticə Siz Heydər Əliyevsiniz, yəni Siz özünüz də keçmiş iqtidarın Prezidenti Əbülfəz Elçibəyin dəvəti ilə buraya gəlmisiniz. Siz dəfələrlə bunu demisiniz. Şəxsən Sizə hörmət bəsləyən bir şəxs kimi deyim ki, bu gün mənim seçicilərimin fikirləri haçalanır.

Siz o məşhur çıxışınızı burada xatırladığınız üçün deyirəm, bəziləri Sizin üçün vertolyot dəvət eləyərkən və bilirəm, çox yaraşmaz söhbətlər olarkən, Sizin vəzifədə olmadığınız dövrdə mən indiyə qədər işlədiyim üç kollektivin üçündə də Sizin təbliğatçınız olmuşam, amma bu gün mənim seçicilərim məni anlamırlar və həmin kollektivdə qəribə söhbətlər eləyirlər, deyirlər ki, bəs Siz əvvəllər Əliyevin təbliğatçısı, müdafiəçisi olmusunuz, bu gün isə onun əleyhinə gedirsiniz. Mən bunu onunla əsaslandırıram ki, Sizin və bizim əqidə ayrılığımız var, amma müstəqillik üçün, suverenlik üçün hamımızın fikri birdir. O nöqteyi-nəzərdən, həmin o keçmiş hissləri əsas tutaraq mən bu fikirləri söyləməyi özümə borc bildim. Bir millət vəkili kimi mənim məsləhətim, yəqin, nəzərə alınmayacaq, ona görə ki səs çoxluğu ilə Siz ora göndəriləcəksiniz. Mən öz fikrimi deyirəm, gələcək siyasi karyeranıza xələl gəlməsin deyə Müstəqil Dövlətlər Birliyi Ayaz Mütəllibovun adı ilə bağlı olduğuna görə və bu gün Heydər Əliyevin adının ora həkk edilməsinin əleyhinə olaraq məsləhət bilməzdim. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sabir Rüstəmxanlı, buyurun.

**Sabir Rüstəmxanlı.** Mən bizim fikirlərimizin və ümumiyyətlə, millət vəkillərinin münasibətlərinin həddindən artıq maksimalist xarakter daşımasından çox narahat oluram. Yəni biz ancaq qütbləri tanıyırıq, mənfi qütb, müsbət qütb, ağ ya qara. Ağla qaranın arasında onlarca rəngin olduğunu nədənsə unuduruq. Yəni müəyyən suallar var ki, o suallara ümumi cavablar olur, biz nədənsə ancaq hə, yox cavabını bilirik. Bu mənada mən hesab eləyirəm ki, bu gün çox ciddi məsələlər haqqında söhbət gedir. Onlardan biri Qarabağ ətrafında baş verən hadisələrdir. Biz ermənilərlə münasibətlərimizdə bundan sonra hansı yolu tutmalıyıq. İkincisi, köhnə respublikaların hansı ilə əlaqə saxlamalıyıq. Deməli, ümumi ahəngdən, rəhbərliyə münasibətdən asılı olaraq biz kütləvi şəkildə deyirik ki, gedirik, ya da kütləvi şəkildə deyirik ki, getmirik, ermə-

nilər barəsində hamımız deyirik ki, sona kimi müharibə, ya da hamımız kütləvi şəkildə sülh danışığını nədənsə heç cür qəbul eləyə bilmirik. Axı bunların hamısı paralel şəkildə də aparıla bilər, yəni müharibə ilə yanaşı, sülh də ola bilər, deyək ki, müstəqil dövlətlə yanaşı, müstəqil dövlətin başqa dövlətlər ilə danışıqları da ola bilər, yəni müstəqilliyi qorumaq olar, həm də ayrı dövlətlər ilə münasibətləri qorumaq olar.

Bu gün bütün bu addımlar hamısı çarəsizlikdən atılır, yəni əgər Azərbaycanın bugünkü dövləti və hakimiyyəti ermənilərlə danışığa gedirsə, bu, xoş gündən deyil. Bunu hamımız başa düşürük və dərk eləyirik. Əgər bizim əxlaqımız, döyüş qüdrətimiz, yüz dəfə dediyimiz qəhrəmanlıq ənənələrimiz gəlib bugünkü günə çıxsaydı və Azərbaycanın ordusu olsaydı, on illər ərzində iqtisadiyyatı, mənəviyyatı gətirilib bu günə çıxarılmasaydı, bu gün Azərbaycanın hər hansı rəhbəri çox böyük sevinclə, qüdrətli ordunun başçısı kimi, qüdrətli bir dövlət başçısı kimi, qüdrətli bir xalqın başçısı kimi burada tamam ayrı bir mövqe tutardı, qalib gəlib qələbə marşı çalardı, amma gəlib elə bir yerə çıxarmışıq ki, bu gün bu danışıqlar qaçılmazdır.

Bu mənada mən bilirəm ki, indi o danışıqlara gedilməlidir, amma eyni zamanda ayrı tədbirlər də görülməlidir, çünki bu danışıqların sonu Azərbaycan torpağının hər hansı bir hissəsini itirilməsi ilə nəticələnə bilərsə, onu xalq və tarix heç vaxt bizə bağışlamaz. Qaldı ki o danışıqlar nəyə görə bu yerə gəlib çatdı, danışıqlar hansı səviyyədə gedəcək, mənə elə gəlir ki, bu, dövlətin başında dayanan adamdan asılıdır. Təəssüf ki, bizim millətin, biz bunu dəfələrlə demişik, bu xalqın hər şeyi var, ağlı var, sərvəti var, ondan sonra, torpağı var, Allah bu millətə hər şey verib, amma heç vaxt bu millətin dədəsi olmayıb, böyüyü, ailə başçısı olmayıb, ona görə də ailə başçısı olmayanda ailə üzvləri hərəsi bir yana baş alıb gedir, qruplaşma, ondan sonra, dəstəbazlıq, yerlibazlıq yaranır.

Mənə elə gəlir ki, düzgün siyasət aparılsa, bunların bir hissəsi tədricən aradan çıxar və Azərbaycan, nəhayət, möhkəm bir qanunçuluq içərisində özünü idarə eləyə bilər və o vaxt istənilən dövlətlə danışıqlar müsbət nəticə verə bilər. Qaldı ki Moskvaya getmək, yəni bu dəqiqə uduzan bir xalqın, çətin bir vəziyyətdə olan bir xalqın rəhbəri kimi danışıqlara getmək, mən başa düşürəm ki, çox vacibdir. Belə bir dövlətin rəhbəri olmaq xoşbəxtlik deyil, amma hər halda, hesab eləyirəm ki, o danışıqlarda bizim vaxtilə müşahidəçilərimiz olub və mən Mirmahmud bəyin o fikri ilə razı deyiləm ki, dövlətin rəhbəri getməsin, ayrı-ayrı adamlar getsin. Ayrı adamlar vaxtilə gediblər və onun nəticəsini də görmüşük. Bir var,

orada müşahidəçi kimi Heydər Əliyev iştirak eləsin, bir də var, deyək ki, komissiya rəhbərlərindən biri iştirak eləsin. Hər halda, bu vəziyyəti görmək lazımdır.

MDB-nin çoxlu sənədləri var, o vaxt onlar öyrənilmədi, ümumiyyətlə, o birliyin quruluşu nədir. Onlar öyrənilməsə, heç bir qərar çıxarmaq olmaz.

Mənə elə gəlir ki, qətiyyən o birliyə qoşulmaqdan danışa bilmərik. Son illərdə Azərbaycanın ən böyük nailiyyəti, yəni bütün məğlubiyyətlərimizlə yanaşı, bizim müstəqillik aktımızdır. Dəfələrlə Ali Sovetin sədri özü də buradan elan edib ki, mən bu müstəqilliyin tərəfdarıyam və sona kimi də tərəfdarı olaraq qalacağam. Bir halda ki belədir, onda müstəqillik aktı qorunmaqla bütün məclislərdə iştirak eləmək olar. Mənə elə gəlir ki, bunun xeyri də ola bilər və buna tam dəqiq inanıram ki, sabah Prezident seçkiləri olacaq, mən hesab eləyirəm ki, cənab Heydər Əliyev, belə deyək, müstəqil olmağı, köhnə sovetlər birliyinin tərkibində köhnə tərzdə yaşayan bir Azərbaycanın deyil, müstəqil Azərbaycanın Prezidenti olmağı üstün tutar. Ancaq bu müstəqilliyin qorunması üçün, mən yenə hesab eləyirəm ki, iqtisadi müqavilələrə, sonra, bir sıra ayrı müqavilələrə, hərbi müqavilələrə getmək lazımdır. Bunun ayrı yolu yoxdur. Əgər biz bu gün yalnız öz siyasi iddialarımızla oturub fikirləşsək ki, mənim idealım, mənim fikrim budur, bu xətlə getməliyik, onda xalqın ümumi idealı unudular. Bütün xalq qorunmalıdır, ayrı-ayrı təşkilatlar deyil. Bu gün xalqın ümumi mənafeyi düşünülməlidir, ayrı-ayrı adamların siyasi ambisiyaları deyil. Mənim fikrim bu qədər.

**Sədrlik edən.** Tofiq Qasımov, buyurun.

**Tofiq Qasımov.** Mənə elə gəlir ki, biz burada çox geniş aspektdə məsələlər qoymuşuq, burada 3 müxtəlif məsələnin müzakirəsi gedir. Ona görə mən istəyərdim ki, bunlara dair öz fikrimi açıqlamazdan əvvəl bəzi məsələləri xatırladım. Mənə elə gəlir ki, Azərbaycan Respublikasının Prezidenti səlahiyyətlərini tam həcmdə icra edən bir şəxsin hansısa bir toplantıda iştirak eləmək üçün parlamentdən səlahiyyət istəməsi, ümumiyyətlə, bizim Konstitusiyamıza hansısa baxımdan ciddi bir əlavə akt kimidir, ona görə ki Konstitusiyaya görə, Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini icra edən şəxsin müxtəlif dövlətlərlə danışıqlar aparmaq hüququ var, beynəlxalq müqavilələr imzalamaq hüququ var və sair, yəni bu səlahiyyət ancaq bir halda lazımdır ki, orada hər hansı konkret məsələ müzakirə olunacaq. Misal üçün, deyək ki, Müstəqil Döv-

lətlər Birliyinə girmək məsələsi, iqtisadi ittifaqa qoşulmaq məsələsi, ya hansısa başqa bir konkret məsələ müzakirə olunursa, onda, doğrudan da, biz Prezidentə əlavə səlahiyyətlərin verilməsi məsələsini müzakirə edə bilərik. Mənə elə gəlir ki, əslində, bütövlükdə bu səlahiyyətlərin hamısı Prezidentin səlahiyyətləri daxilindədir və bu gün burada biz ona göstəriş verməli deyilik. İmzalanan müqavilənin təsdiq olunması, yəni ratifikasiyası vaxtı Milli Məclis öz sözünü deməlidir, öz mövqeyini göstərməlidir və bildirməlidir ki, bu yarayır, yoxsa yaramır. Bunları mən Moskvada keçiriləcək tədbirdə iştirakla bağlı deyirəm. Mən elə bilirəm ki, buna mane olan heç bir hüquqi norma yoxdur, əlavə heç bir səlahiyyət lazım deyil.

Mənim bildiyimə görə, əvvəllər bizim Milli Məclisin 2 qərarı olub, biri ondan ibarət olub ki, biz, deməli, Müstəqil Dövlətlər Birliyinə qoşulmuruq, ikincisi ondan ibarət olub ki, biz Müstəqil Dövlətlər Birliyinin bütün tədbirlərində Azərbaycanın nümayəndəsinin müşahidəçi kimi iştirakına razı olmuşuq və bunu qəbul eləmişik. Dövlətin başçısı da orada iştirak edirsə, aydındır ki, o, tək müşahidəçi kimi iştirak etməyəcək, orada danışıqlar da apara bilər, təkcə Rusiya ilə deyil, Müstəqil Dövlətlər Birliyinə daxil olan o biri dövlətlərin başçıları ilə danışıqlar apara bilər və lazım olsa, sazişlər imzalaya bilər və sair. Yəni bu baxımdan mənə elə gəlir ki, biz bu məsələyə çox ciddi əlavə fikir verməli deyilik.

O ki qaldı məsələnin məğzinə, mənə elə gəlir ki, orada qoyulan məsələ üç dövlətin, yəni Rusiyanın, Ukraynanın və Belorusiyanın, ola bilər ki, mən düzgün bilmirəm, vahid bir iqtisadi ittifaq yaratması ilə bağlıdır. Yerdə qalan dövlətlərin, mənə elə gəlir ki, hamısı, hətta Müstəqil Dövlətlər Birliyinə daxil olan dövlətlər də orada hələlik müşahidəçi sifəti ilə çıxış edəcəklər. Əgər orada müzakirə olunanda onları da qəbul eləsələr, başqa məsələlər olsa, onda ola bilər ki, onlar tərəfdaş kimi çıxış eləsinlər.

O ki qaldı burada olan bəzi çıxışlara ki, guya Azərbaycanın belə pis vəziyyətə düşməsi ancaq ona görədir ki, o vaxt Müstəqil Dövlətlər Birliyinə qoşulmamışıq, Rusiya ilə iqtisadi ittifaqa girmək istəməmişik və sair, guya hərbi sahədə də vəziyyətin xarablaşması ona görədir ki, biz sülh danışıqlarına getməmişik, diqqətinizi ona cəlb eləmək istəyirəm ki, hələ biz iqtidara gəlməmişdən əvvəl də, Mütəllibovun vaxtında da ATƏM çərçivəsində bu sülh danışıqları davam edirdi. Hələ aprel ayından başlayaraq danışıqlar aparılırdı, Romada ATƏM çərçivəsində sülh danışıqları aparılmışdı, yəni Azərbaycan Dağlıq Qarabağ məsələsinə dair sülh danışıqlarını aparmaqdan bir gün də imtina etməyib. Əgər söh-

bət Dağlıq Qarabağın rəhbərliyi ilə danışıqlardan gedirsə, hə, bu başqa məsələ. Dağlıq Qarabağın rəhbərləri ilə indiyə qədər birbaşa danışıqlara gedilməyib. Gedilməyib ona görə ki onlar "Dağlıq Qarabağ respublikası"nın rəhbərləri statusunda danışıqlar aparmaq istəyirdilər, bu qurum da Azərbaycanın parlamenti tərəfindən ləğv edilib. Gedib onlarla bir masa ətrafında oturub söhbət eləmək parlament tərəfindən ləğv edilmiş və mövcud olmayan bir qurumun statusunu tanımağa ekvivalent bir şeydir, amma qeyri-rəsmi şəkildə danışıqlar istənilən səviyyədə aparıla bilər, onların statusunu tanımamaq şərti ilə aparıla bilər və istənilən səviyyədə sülh danışıqlarını arası kəsilmədən aparmaq dövlətin borcudur, dövlət rəhbərlərinin borcudur. Buna da heç kimin, mənə elə gəlir ki, iradı olmalı deyil. Azərbaycanın düşdüyü indiki vəziyyətdə sülh danışıqları, bəlkə də, yeganə imkandır ki, bu vasitədən istifadə eləmək olar.

Burada Baş nazir təqdim olunan vaxt mən öz çıxışımda qeyd elədim ki, bizim ordumuz bizdən əvvəlki iqtidarın düzgün olmayan siyasəti nəticəsində hər bir icra başçısının, nə bilim, Prezidentin özünün yanında, başqa yerdə özünə dəstə düzəltməsi yolu ilə qurulduğuna görə və sonradan biz də nizami ordu düzəldə bilmədiyimizə görə və digər səbəblərdən ordu bölünüb ayrı-ayrı hissələrə, hər hissənin başında bir nəfər durur, o da özünü siyasi xadim kimi aparır, hakimiyyət davası gedir, o hakimiyyət davası bu gün də davam edir və ona görə də ordunun ağzını, başını bir yerə yığıb müdafiəmizi təşkil edə bilmirik. Ən sadəsi odur ki, hər kəs desin, ondan əvvəl gələn iqtidar təqsirkardır. Nə olar, iqtidar təqsirkar olsun, amma bu gün biz bu vəziyyətdən çıxmağın yollarını müzakirə eləmirik.

Ağdam məsələsi müzakirə olunanda mən yenə çıxış elədim, dedim ki, yüz illik, iki yüz illik rus imperiyasının, ondan sonra, yüz il də bundan sonra bütün baş verəcək səhvlərin, nöqsanların hamısının 1 il hakimiyyətdə olan iqtidarın boynuna qoyulmasına mən razıyam, özümün də boynuma qoyulmasına mən razıyam və istənilən səviyyədə ona cavab verib cəzasını çəkməyə də hazıram. Ağdam gedəndən sonra mən dedim, axı biz, birinci növbədə, müzakirə eləməliyik ki, indi ordumuzda vəziyyət necədir? Biz ordunun necə başını bir yerə yığıb o biri rayonların müdafiəsini təşkil edə bilərik? Bunu nə yolla edəcəyik? Biz yenə də ancaq məlumat verməklə məşğuluq. Keçmiş iqtidar 1 ildən artıq müddətdə Goranboyu, Ağdərəni alıb, Kəlbəcəri vermişdisə, sonra da Ağdərənin bir hissəsini verib Ağdərənin mərkəzini hələ saxlamışdısa, axırıncı 2 ayın ərzində 5 rayon gedib, qalan 5-i də getmək ərəfəsindədir. Niyə? Ona görə

ki biz burada bunun səbəbini müzakirə eləmək istəmirik. Adını qoymuşuq ki, kimlərsə təxribat aparır.

Köhnə iqtidarın ən böyük səhvi, mən hesab edirəm, ondan ibarət idi ki, təxribatçıların heç birinə cəza verilmirdi. Yaxşı, indi də təxribatçılar var, bu təxribatçılar aşkar olunsun, biri, ikisi cəzalandırılsın. Axı onun əvəzində nə edirlər? Misal üçün, bu gün hərbi qüdrətimizin olmadığı bir vaxtda, öz ölkəmizi müdafiə edə bilmədiyimiz bir vaxtda dalbadal batalyonları ləğv edirik, indiyə qədər 12 batalyon ləğv edilib. Nəyə görə? Əgər bizim elə böyük gücümüz varsa, niyə bu gün ordunu dağıdırıq?

**Sədrlik edən.** Kim ləğv eləyib?

**Tofiq Qasımov.** Bilmirəm. Misal üçün, indi ikisi, srağagün biri gəlmişdi. Dünən də biri, yəni bunu yoxlamaq lazımdır.

**Sədrlik edən.** Hansı batalyon ləğv edilib?

**Tofiq Qasımov.** Deməli, 799 nömrəli hərbi hissənin xüsusi təyinatlılar batalyonu ləğv edilib. Dedilər ki, onun komandiri həbs olunub, onun iki müavini, biri İmanov Tofiq Yəhya oğlu, o biri Əhmədov Fazil, komissiya sədri kimi mənim qəbuluma gəlmişdilər. Deyir, bu xüsusi təyinatlı dəstənin 42 nəfər zabiti və praporşiki olub, 570 nəfər şəxsi heyəti.

**Sədrlik edən.** Nə üçün ləğv olunub?

**Tofiq Qasımov.** Elə onlar da gəlib soruşdular ki, nə üçün ləğv eləyiblər? Xahiş elədilər ki, mən bunu Sizə çatdırım. O gün imkan olmadı, mən Sizə çatdıra bilmədim. Belə qərara gəldik ki, komissiyanın iclasında baxaq, sonra Məclisə təqdim edək. Yəni söhbət ondan gedir ki, biz bu gün bir az o işlərlə də məşğul olmalıyıq, çünki Baş nazir məsələsi burada müzakirə olunanda mən dedim ki, bizim hərbi qüdrətimiz yoxdur, bu gün biz hərbi yolla bu məsələləri həll eləyə bilmərik, mütləq sülh yolu ilə eləməliyik. Baş nazirimiz isə özünün proqramını təqdim edəndə dedi ki, bizim yolumuz hərbi yoldur, qüdrətimiz də var və bu yaxınlarda alınan torpaqlarımızı da geri qaytaracağıq. Amma görünür, nəsə buna mane olur, bunu biz burada müzakirə eləməliyik, ya qapalı, ya da açıq şəkildə.

Mən xahiş edirəm, biz sərhəd zonalarında baş verən hadisələri müzakirə edəndə bunları da müzakirə edək. Təxribatçıları da axtaraq tapaq, onların da bir-bir cəzasını verək, eyni zamanda görək o yerdə qalan hissənin ağzını bir yerə yığa bilirikmi? Əgər biz öz torpağımızı indi qalan həcmdə də olsa, müdafiə edə bilməsək, nə qədər sülh danışıqlarına gediriksə, gedək, o biri tərəflər onu pozacaq. Mən etiraz etmirəm, sülh danışıqlarına gedək, hər səviyyədə gedək, amma onlar hiss edəndə

ki, bizim özümüzün torpağımızın qalan hissəsini də olsa, müdafiə edib saxlamaq imkanımız yoxdur, onlar bu danışığı pozacaqlar, daim pozublar bizim zəifliyimiz üzündən, ona görə də mən elə bilirəm ki, bu gün sülh danışıqlarına getmək lazımdır.

Deməli, Sizin səfəriniz barədə. Buna tam səlahiyyətiniz var, heç kim buna qarışa bilməz ki, gedin, ya getməyin. Amma mən hesab edirəm ki, bu gün biz ordumuzun vəziyyətini də müzakirə eləməliyik, heç olmasa, ayrıca bir qapalı iclasda. Xahiş edirəm, bununla məşğul olaq. Sağ olun.

**Sədrlik edən.** Əhədov Nurəddin buyursun.

**Nurəddin Əhədov.** Möhtərəm sədr, möhtərəm millət vəkilləri. Azərbaycanın hər hansı bir quruma daxil olmasından və ya bu qurumla münasibətlərini qurmasından söhbət gedirsə, mənə elə gəlir, əvvəlcə bu quruma daxil olan ölkələrin hər birinin ayrılıqda Azərbaycana olan münasibətini öyrənmək lazımdır. İndi konkret biz bilmədik, söhbət MDB-yə daxil olmaqdan gedir, yoxsa onun daxilində hansısa bir təşkilatın yaradılmasından gedir, amma hər halda, ümumi şəkildə MDB-yə olan münasibətimi bildirmək istərdim.

MDB adlanan qurumda, yəni Müstəqil Dövlətlər Birliyində əsas istiqamətverici qüvvə Rusiya dövləti sayılır və mən çıxışımda Rusiya dövləti deyəndə sadə zəhmətkeş rus xalqını nəzərdə tutmayacağam, Rusiyanın rəhbərliyində olan ermənipərəst siyasi qüvvələri nəzərimdə tutub bir neçə kəlmə bu barədə deyəcəyəm. Təbii ki, mənim rus xalqına zəhmətkeş bir xalq kimi öz xalqım qədər böyük hörmətim var. Bu siyasi işlərdə də rus xalqı iştirak etmir, onun siyasi elitası iştirak edir. Rusiyanın Azərbaycana münasibəti barədə XIX–XX əsrlərdən danışmaq istəməzdim, təkcə 1988-ci ildən bəri baş verən hadisələrə qısaca öz münasibətimi bildirmək istərdim. 1988-ci ildə Dağlıq Qarabağda ilk proses başlayanda Rusiyanın siyasi elitası erməniləri müdafiə elədi. 1989-cu ildə azərbaycanlılar kütləvi şəkildə Ermənistandan qovulanda Rusiyanın siyasi elitası yenə də erməniləri müdafiə elədi. 1990-cı ildə Azərbaycan xalqı bir balaca ayağa qalxıb öz hüquqlarını müdafiə eləmək istəyəndə Bakıya qoşun yeridildi. Nəhayət, 1992-ci ildə Xocalı soyqırımında 366-cı alayın iştirakı da təsdiq olundu. Bu baxımdan bizim Rusiyanın siyasi elitasından və ya deyək ki, onun ermənipərəst siyasi dairələrindən narazı qalmağımıza əlimizdə ciddi əsas vardır.

Yenə ümidimiz Rusiyanın demokratik qüvvələrinədir, yəni demokratik qüvvələr, ola bilər ki, haçansa bizim münasibətlərimizi normal-

laşdırmağa kömək edəcəklər, amma hazırda məsələ faktiki olaraq bu cürdür. İkinci, MDB-də iştirak edən dövlətlərdən biri Ermənistandır. Ermənistanın Azərbaycana münasibəti bizə məlumdur. Bu dövlət bizimlə açıq-aşkar düşmənçilik münasibətindədir. Adamlarımızı qırır, torpaqlarımızı işğal edir, hər cür vəhşiliklə məşğul olur. Bu barədə geniş danışmağa ehtiyac yoxdur, hamının bu barədə kifayət qədər məlumatı var. Azərbaycan MDB-nin tərkibində digər dövlətlərlə həmişə mehriban münasibətdə olub, amma son vaxtlar Azərbaycan xalqının başına gətirilən faciələrə həmin dövlətlərin hansı biri özünün müsbət münasibətini bildirib, yəni bizi müdafiə edib? Mən elə bir ciddi müdafiə görməmişəm. Dünyanın ucqar, uzaq ölkələrindən bizi müdafiə edən səslər gəlir, amma MDB-nin daxilində olan ölkələr bizim bu ədalətli işimizə, heç olmasa, bir quru sözlə, bəyanatla kömək etmirlər, bizə arxa durmurlar.

Belə olan halda Azərbaycan xalqı, doğrudan da, dilemma qarşısında qalır. Dünya birliyinə arxalansın, dünyanın demokratik institutlarına arxalansın, BMT-yə, ATƏM-ə və sair beynəlxalq təşkilatlara arxalansın, yoxsa hələ ki üzərində imperiyapərəst qüvvələr olan MDB-yə arxalansın? Belə bir sual meydana çıxır. Başqa bir sual da meydana çıxır ki, əgər Azərbaycan MDB-yə daxil olarsa, bu, Azərbaycanın daxilindəki böyük problemləri həll edəcək, yoxsa nəticə bundan da pis olacaq? Bu suallara cavab tapmamış MDB-yə daxil olmaq və onun içərisində yaranmış hər hansı bir təşkilatda iştirak etmək məsələsini həll etmək çox çətindir. Özü də elə bir zamanda ki, xalqımız böyük faciə içindədir. Hər gün torpaqlar zəbt olunur, hər gün insan tələfatı baş verir, əhali gözüyaşlıdır, böyük qaçqınlar ordusu yaranıb və bu qaçqınlar ordusu, bütün xalq bu dəqiqə məsələnin ciddi şəkildə həllini gözləyir və burada uzaqgörənlik göstərib məsələni qəti şəkildə bəyan etmək çox çətindir.

Hər halda, mən hesab edirəm ki, nəinki bütün dünya ölkələri ilə, həm də MDB ölkələri ilə iqtisadi, mədəni əlaqələr yaratmaq lazımdır, Rusiya ilə də əlaqələr yaratmaq lazımdır, o biri üzvlər ilə də. Azərbaycan xalqı həmişə özünün beynəlmiləlçi və digər müsbət keyfiyyətləri ilə fərqlənmiş xalqdır. Həmişə Azərbaycan xalqı bu keyfiyyətləri ilə seçilib, amma bizim bu keyfiyyətlərimizi düzgün başa düşmürlər. Bizim düzgün qiymətimizi vermirlər. Mən belə hesab edirəm ki, bu məsələyə bir qədər ciddi yanaşmaq lazımdır və belə hesab edirəm ki, bizə qarşı düşmənçilik aparan Ermənistan dövlətinin olduğu birliyə bizim də üzv olmağımız düzgün deyil. Sağ olun, diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** İnqilab Nadirov buyursun.

**İnqilab Nadirov.** Hörmətli sədr, hörmətli millət vəkilləri. Bu gün bizim burada müzakirə etdiyimiz məsələ çox vacib, çox ciddi və günün tələbindən irəli gələn məsələdir. Ona görə də bu məsələni biz çox geniş surətdə müzakirə eləməliyik və eyni zamanda hər kəs öz fikrini konkret bildirməlidir. Mənə belə gəlir ki, bu məsələnin müzakirəsində tarixi sadalamağa o qədər də ehtiyac yoxdur. Bədii təsvirlərə yol verməyə də ehtiyac yoxdur. Burada hər kəs öz şəxsi fikrini Milli Məclisin üzvü kimi çox konkret bildirməlidir.

Burada konkret suallar verildi və o suallara mən konkret cavab vermək istəyirəm. Birinci sual verildi ki, indiki iqtidarın həyata keçirdiyi tədbirlərə, yəni sülh tədbirlərinə, sülh danışıqlarına münasibət necədir? Mən ona konkret cavab vermək istəyirəm ki, hazırda gedən müharibədə bizim uğursuzluqlarımızı, hazırlıqsızlığımızı, keçmiş iqtidarın buraxdığı nöqsanları və sair nəzərə alaraq, indi aparılan sülh danışıqları müsbətdir, sülh danışıqlarına mənim münasibətim müsbətdir. Bu danışıqları aparmaq lazımdır, lakin dəfələrlə cəbhədə baş verən uğursuzluqlarımızın – bəzən də bunları təxribat adlandırırıq – qarşısı alınmalıdır. Bu, həqiqətən də, belədir. Mən o qaynar nöqtələrdə olmuşam və bunun şahidi də olmuşam, öz çox ciddi narazılığımı bildirmək istəyirəm ki, həmin təxribatçılara qarşı görülən tədbirlər çox səthidir, günün tələblərindən çox geri qalır. Ona görə də mən istəyirəm ki, Milli Məclis bu məsələyə öz münasibətini bildirsin, çünki biz müharibə aparırıq. Müharibə aparan dövlət müharibənin qanunları ilə yaşamalıdır və buna görə də o təxribatçılar öz layiqli cəzalarını almalıdırlar. Bu mənim şəxsi fikrimdir.

İkinci sual belə qoyuldu ki, ayın 7-də Moskvada görüş keçiriləcək, Müstəqil Dövlətlər Birliyində dövlətimizin, respublikamızın rəhbərliyinin iştirakına münasibət necədir? Mən əvvəla, bir məsələni demək istəyirəm. Referendum keçirilərkən mən də Qarabağa, Ağcabədiyə getmişdim. Orada qaçqınlarla çox görüşlərim oldu, xüsusilə İmişli ərazisində yerləşən Füzulidən, Cəbrayıldan olan qaçqınlarla, Ağcabədi ərazisində olan Ağdamlı qaçqınlarla, Bərdə ərazisində Ağdamdan olan qaçqınlarla görüşlərim oldu. Mən Milli Məclis üzvlərinə təklif eləmək istəyirəm ki, bu iclas qurtarandan sonra kimlər o zonada olmayıblarsa, mən onlardan bir yoldaş kimi xahiş edirəm, maşın götürsünlər, ezamiyyə götürsünlər, başqa qaynar nöqtələrə getmələrini demirəm, adicə çıxsınlar Sabirabad, İmişli, Beyləqan, Ağcabədi, Bərdə tərəflərə, bax, bu yolla getsinlər, onda görərlər ki, bizim millətimiz nə gün çəkir. Onda bilərlər ki, Rusiya ilə münasibət nədir, Türkiyə ilə münasibət nədir, bu gün xalqın taleyi necə-

dir, xalq hansı vəziyyətdə yaşayır. Onda həmin nöqteyi-nəzərdən yanaşarlar. Mən o zonada olmamış yoldaşlardan təkrar xahiş edirəm, həmin zonada olsunlar.

Ona görə də, yoldaş Əliyev, Siz burada səlahiyyət istədiniz, mən bunu belə deməzdim, Sizin bütün səlahiyyətlə oraya getməyə haqqınız var, çünki seçicilərlə görüşlərim zamanı mənə tam aydın oldu ki, bütün Azərbaycan xalqı Sizə öz doğma atası kimi baxır, sizi ümid yeri bilir, ona görə də Siz tam səlahiyyətlə orada gedib iştirak etməlisiniz və orada tam səlahiyyətlə iştirak edib qayıdandan sonra burada, Milli Məclisdə Sizin oradakı görüşləriniz barədə geniş surətdə müzakirə aparılmalıdır. Çox sağ olun.

**Sədrlik edən.** Vahid Əhmədov, buyurun.

**Vahid Əhmədov.** Hörmətli sədr, hörmətli millət vəkilləri. Mən iki saat bundan qabaq Ukraynadan qayıtmışam, Kiyevdən. Orada Ukraynanın Baş naziri, onun bütün müavinləri ilə görüşüb iqtisadi münasibətlərlə əlaqədar müəyyən müqavilələr imzalayıb, kontraktlara qol çəkmişik. Ukraynada olduğum bir həftə ərzində digər məsələləri də həll etməyə nail olmuşuq. Onu da qeyd etmək istəyirəm ki, Ukraynanın Ali Sovetində həmin bu məsələ çox ciddi müzakirə olunurdu. Deputatların əksəriyyəti, o cümlədən Ukraynanın Baş naziri, hökuməti faktiki olaraq ayın 7-də tam səlahiyyətli nümayəndə kimi həmin iclasda iştirak etmək tələbini irəli sürmüşdü. Mən gələn kimi aeroportda eşitdim ki, bu məsələyə Milli Məclisdə baxılır, ona görə də bu məsələ ilə əlaqədar öz münasibətimi bildirmək üçün birbaşa Milli Məclisə gəldim.

Əvvəla, qeyd eləmək istəyirəm ki, burada iqtisadiyyatla əlaqədar bir sıra iradlar irəli sürüldü. SSRİ dağılandan sonra iqtisadiyyatın aşağı düşməsi ümumi bəladır, bunu sübut etməyə ehtiyac da yoxdur. Ümumiyyətlə, bütün ölkələrdə iqtisadiyyat aşağı düşüb, amma Azərbaycanda yaranmış gərgin iqtisadi vəziyyət heç də o demək deyil ki, biz digər respublikalardan daha ağır şəraitdəyik. Mən sizin nəzərinizə çatdırmaq istəyirəm ki, artıq Ukraynada vəziyyət həddən artıq gərgindir. Bir litr benzinin qiyməti 550 rubldur, ayın 10-dan çörəyin qiyməti təqribən 150 rubla qaldırılacaq. Vəziyyət həddən artıq gərgindir və bu məsələlər orada da çox ciddi müzakirə olunur.

Burada dedilər ki, yaxşı olardı, dövlət başçısı ayın 7-də həmin iclaslarda müşahidəçi kimi iştirak eləsin. Mən bunun tamamilə əleyhinəyəm, çünki respublika Prezidentinin göstərişi ilə mən bir neçə dəfə MDB-nin

həmin iclaslarında müşahidəçi kimi iştirak eləmişəm. Təsəvvür edin ki, bütün nümayəndə heyətləri stolun arxasında əyləşir, amma bizə kənarda əlavə stol qoyurlar, orada əyləşirik. Heç bir sənədə qol çəkməyə də ixtiyarımız yoxdur. Yalnız otururuq, qulaq asırıq, qayıdırıq, gəlirik.

Mən bu iclaslarda mütəmadi iştirak edib qayıdandan sonra iqtisadiyyatla əlaqədar bütün təkliflərimizi Prezidentə təqdim etmişdim və onda məsələ qoymuşdum ki, heç olmasa, iqtisadiyyatla əlaqədar məsələləri MDB çərçivəsində həll etmək üçün bu məsələ parlamentə çıxarılsın və hökumətin hansısa nümayəndələri ilə birlikdə parlamentə müəyyən səlahiyyət verilsin ki, iqtisadiyyatla əlaqədar məsələləri MDB çərçivəsində həll etmək mümkün olsun, çünki bu, bilirsiniz ki, gömrük siyasəti ilə, qiymət siyasəti ilə əlaqədardır, ümumi iqtisadi məkanla əlaqədardır ki, biz ondan, demək olar, kənarda qalmışıq. Hətta bu il biz Moskvada Rusiya ilə kljninqlə əlaqədar 500 milyon dollarlıq müqavilə bağlayanda çox böyük əziyyətdən sonra, 4 dəfə Çernomırdinlə görüşdükdən sonra, nəhayət, Çernomırdin qərar verdi ki, Azərbaycanı bu gömrük vergisindən azad eləsinlər və bizi klininqə saldılar.

Ümumiyyətlə, qeyd eləmək istəyirəm ki, bu gün Azərbaycanın MDB-yə girib-girməməsi məsələsi qoyulmayıb. Söhbət, əsasən, ondan gedir ki, Azərbaycanın dövlət rəhbəri, o cümlədən bu gün prezidentin səlahiyyətlərini icra edən Ali Sovetinin sədri Heydər Əliyev orada tam səlahiyyətli bir şəxs kimi, dövlət rəhbəri kimi iştirak eləməlidir və bütün məsələlərdə bir dövlət rəhbəri kimi öz münasibətini bildirməlidir. Orada Rusiyanın Prezidenti, Ukraynanın Prezidenti və bütün prezidentlər iştirak edəcəklər və orada görüşlər olacaq, sonra ümumi bir qərara gələcəklər, amma ayın 7-də keçirilən iclasda əsas məsələ iqtisadi ittifaqdan ibarətdir. İqtisadi ittifaqın sənədləri Azərbaycan hökuməti tərəfindən öyrənilib, biz həmin sənədlərə baxmışıq, mən deyərdim ki, orada elə bir qorxulu şey yoxdur. Həmin sənədlər ekspertizadan keçirilib və ümumiyyətlə, iqtisadi ittifaq barəsində bizim fikrimiz müsbətdir. O iqtisadi ittifaqa daxil olmaq olar, amma müəyyən müddəalar var ki, onların üzərində işləmək lazımdır. Onu da bilirsiniz ki, bu yaxınlarda Türkmənistan da qərar qəbul elədi ki, ortaq üzv kimi iqtisadi ittifaqa girmək lazımdır.

Burada iqtisadiyyatın müəyyən hissələrindən söhbət getdi, müəyyən əlaqələndirməyə çalışdılar, amma mən bu işlə uzun müddət məşğul olduğum üçün hesab edirəm ki, hörmətli sədr, Siz MDB-nin ayın 7-də keçirilən iclasında tam səlahiyyətli bir dövlət rəhbəri kimi iştirak eləməlisiniz və orada Azərbaycanın mənafeyinə uyğun olan bütün məsələlərə

öz münasibətinizi bildirməlisiniz. Bunu heç də belə anlamaq lazım deyil ki, Azərbaycan bu gün MDB-yə daxil olur, ya daxil olmur. Əvvəla, burada məndən əvvəlki natiqlər qeyd elədilər, Azərbaycanı MDB-də heç də gözləmirlər. Guya qapılar açıqdır və Azərbaycan bu gün gəlsin MDB-yə daxil olsun, yaxud gedən kimi MDB-yə qəbul edəcəklər, çünki orada vəziyyət olduqca gərgindir, həddən artıq ağırdır. Orada indiyədək qəbul olunmuş qərarların hamısının yerinə yetirilməsi, demək olar ki, sual altındadır və bu gün MDB-yə daxil olan dövlət də, daxil olmayan dövlət də özünün müstəqil iqtisadi siyasətini aparır. Mən yenə öz fikrimdə qalıram və hesab edirəm ki, dövlət rəhbəri kimi Siz orada iştirak eləməlisiniz. Xahiş edərdim ki, biz bunu yekunlaşdıraq, səsə qoyaq və səlahiyyətli nümayəndə kimi Siz orada iştirak edəsiniz.

**Sədrlik edən.** Yusif Səmədoğlu buyursun.

**Yusif Səmədoğlu.** Hörmətli Heydər müəllim, hörmətli millət vəkilləri. Mən fikrimi qısa deyəcəyəm, çünki Azərbaycanın da tarixi bizə bəllidir, Rusiyanın da tarixi bizə bəllidir, bu barədə tarixi ekskursları təkrar eləməyə ehtiyac yoxdur. Mən belə başa düşürəm, bu gün Azərbaycan Respublikası elə bir vəziyyətdədir ki, onun siyasətini yalnız bu günün çərçivəsinə, yaxud sabahın çərçivəsinə yerləşdirməklə biz heç bir şey udmayacağıq. Biz, bəlkə, onilliklərin perspektiv strateji siyasətini düşünməliyik, çünki bu gün söhbət təkcə Ermənistan–Azərbaycan müharibəsindən getmir. Söhbət Azərbaycanın bir dövlət kimi varlığından gedir və Azərbaycan xalqının fiziki soyqırımının qarşısını almaqdan gedir. Bunu dərk edərək, mən belə fikirləşirəm ki, Ermənistanla sülh danışıqları, diplomatik danışıqlar davam etdirilməlidir. Bu bir. Bununla yanaşı, yəqin ki, bizim Nazirlər Kabineti ölkənin müdafiə qüdrətini daha da möhkəmləndirmək istiqamətində öz işlərini davam etdirəcəkdir, bu da iki.

MDB məsələsinə gələndə, demək istəyirəm ki, məhz bayaq gətirdiyim dəlillərə görə, bu gün hər saatın, hər dəqiqənin öz hökmü var. Mənə elə gəlir ki, biz Heydər Əliyevə istədiyi mandatı verməliyik və o mandat onun əlində olandan sonra orada, MDB-də Azərbaycan xalqının tam səlahiyyətli nümayəndəsi kimi iştirak edə bilsin. Mənim sözüm qısaca bundan ibarətdir. Çox sağ olun.

**Sədrlik edən.** Qurbanov Qalib.

**Qalib Qurbanov.** Heydər müəllim, burada, yəqin ki, bütün arqumentlər artıq deyildi. Bir şey əlavə eləmək istəyərdim. Birincisi, Sizin oraya getməyinizin əksinə danışan deputatlar, əsasən, onu nəzərdə tu-

turlar ki, yenidən biz boyunduruğa girə bilərik, SSRİ hansısa bir şəkildə bərpa oluna bilər və sair. Mən bir məsələyə sizin fikrinizi yönəltmək istəyərdim. Artıq Rusiyanın özündə dezinteqrasiya prosesləri o qədər inkişaf edib ki, SSRİ-nin hansısa bir şəkildə bərpasından söhbət də gedə bilməz. İndi orada təkcə muxtar respublikalar, muxtar vilayətlər deyil, həm də ayrı-ayrı vilayətlər özlərini respublika adlandırırlar. Orada ayrı-ayrı vilayətlər öz iqtisadi və başqa siyasətlərini hazırlayırlar. Ona görə mən də hesab edirəm ki, Siz orada tam səlahiyyətli nümayəndə kimi iştirak eləməlisiniz və bu mandatı biz Sizə verəcəyik. Bu qədər.

**Sədrlik edən.** Fətəliyev Ramiz yazıldı. Etibar Məmmədov da.

**Ramiz Fətəliyev.** Etibar Məmmədov məndən tez əlini qaldırmışdı, onun üçün ədalətlə Etibar olmalıdır.

**Sədrlik edən.** Buyursun Etibar Məmmədov.

**Etibar Məmmədov.** Deməli, burada Məclisin üzvləri bir neçə məsələni bir-birinə qarışdırdılar və mən çox təəssüflənirəm ki, Məclisin bəzi üzvləri birdən-birə çox böyük həvəslə MDB-ni müdafiə mövqeyindən çıxış eləməyə başladılar. Onların yadına salmaq istəyirəm ki, birincisi, bu məsələ gündəliyə salınmayıb, burada MDB məsələsi müzakirə olunmur. İkincisi də, həmin Milli Məclis üzvlərinin yadına salmaq istəyirəm ki, Milli Məclisin iclaslarının gedişi stenoqrama alınır və stenoqramlar da, şükür Allaha ki, hələ arxivlərdədir. Milli Məclisdə bu məsələ iki dəfə müzakirə olunub və nə bitərəf qalan olub, nə də əleyhinə olan olub, yekdil səslə MDB məsələsi qəbul olunmayıb və indi deyəndə ki, biz MDB-yə getməliyik, hansısa dövlət dağıldı, Milli Məclisin üzvlərinin yadına salmaq istəyirəm ki, Məclisin üzvlərinin yarıdan çoxu həmin hökumətin üzvləri idi. Onlar özləri dağıdıblar, indi kimin boynuna atmaq istəyirlər? Azərbaycanın iqtisadiyyatını MDB-yə girməmək dağıtmadı, Azərbaycanın iqtisadiyyatını rəhbərliyin səriştəsiz siyasəti, özbaşınalıq halları dağıtdı.

Burada bəziləri Rusiya ilə münasibətləri MDB məsələsi ilə qarışıq salmaq istəyirlər. Rusiya ilə münasibətlər, əlbəttə, tarixi münasibətlərdir, iqtisadi əlaqələrimiz tarixi əlaqələrdir və iqtisadi cəhətdən elə bağlılıq var ki, bunları qırmaq Rusiyaya az zərər gətirir, Azərbaycana isə olduqca böyük zərər gətirir. Bunu sübut eləməyə ehtiyac yoxdur.

Bəziləri deyirlər, inteqrasiya, Avropa ölkələri inteqrasiya eləyib, ümumi bazar yaranıb, Avropa Birliyi yaranıb. Axı tarixə nəzər salmaq lazımdır. Həmin dövlətlər o birliyi yaratmamışdan qabaq hansı inkişaf

yolu keçiblər, hansı inkişaf səviyyəsinə çatandan sonra həmin birliyi yaradıblar. Türkiyəni həmin birliyə qəbul eləmirlər, məhz ona görə qəbul eləmirlər ki, Türkiyə həmin inkişaf səviyyəsinə çatmayıb. Avropa Birliyinə adambaşına düşən gəlirin müəyyən səviyyəsinə çatan ölkələr qəbul oluna bilir. Türkiyə həmin səviyyəyə çatmadığı üçün hələlik qəbul olunmur, əlbəttə ki, bunun başqa siyasi, etnik, dini tərəfləri də var.

Ona görə də Heydər müəllim, Siz burada deyəndə ki, hansı səlahiyyətlər verilir, Siz Prezidentin səlahiyyətlərini həyata keçirən şəxs kimi Konstitusiyaya uyğun bütün səlahiyyətlərə maliksiniz, ancaq əlavə səlahiyyətlər istəyirsinizsə, Siz deməli idiniz ki, hansı səlahiyyətlər verilməlidir və ondan sonra həmin səlahiyyətlərin, yəni Prezidentin səlahiyyətlərini aşan səlahiyyətlərin verilib-verilməməsi müzakirə oluna bilərdi. Elə-belə isə, əlbəttə ki, Moskvaya getmək də olar, bütün ölkələrlə danışıqlar aparmaq da olar, bütün müqavilələri bağlamaq da olar, bu, Prezidentin səlahiyyətindədir, ancaq mən bir şeyi başa düşmürəm. Deyirlər ki, müşahidəçi sifəti ilə getmək olmaz. Bəs hansı sifətlə getmək olar? Əgər ölkəmiz MDB-nin üzvü deyilsə, bizim dövlətin başçısı orada müşahidəçidən başqa hansı sifətlə iştirak eləyə bilər? Ona görə də mənim fikrim belədir ki, müstəqil bir dövlətin başçısı kimi, Siz Moskvada iclasda iştirak eləyə bilərsiniz, həmin Müstəqil Dövlətlər Birliyi adlanan qurumla istənilən danışıqları aparmaq səlahiyyətinə maliksiniz, MDB-yə daxil olan dövlətlərlə, xüsusən Rusiya ilə istənilən danışıqları aparmaq və hər hansı müqavilələri, sazişləri bağlamaq səlahiyyətinə maliksiniz, ondan sonra həmin müqavilələrin ratifikasiyası məsələsi Məclisdə müzakirə oluna bilər.

Qaldı ermənilərlə danışıqlar məsələsinə, əlbəttə, mən onu da anlayıram ki, vəziyyət ağırdır, bütün müharibələrdə həmişə danışıqlar da olmalıdır, ancaq bu danışıqlar heç də o demək deyil ki, danışıqlar başlayırsa, Azərbaycanın müdafiəsinin gücləndirilməsi, ordu quruculuğu məsələsi ikinci plana keçməlidir, yaxud hərbi əməliyyatlara üstünlük veriləcəksə, diplomatik danışıqlar ikinci plana keçməlidir. Bunlar paralel surətdə getməlidir, çünki Azərbaycan ordusunun qurulması, Azərbaycanın müdafiəsinin təşkili təkcə Dağlıq Qarabağ erməniləri ilə, yaxud Ermənistanla müharibə ilə əlaqədar deyil. Azərbaycan dövlət kimi yaşamaq istəyirsə, özünün ordusu da olmalıdır, silahlı qüvvələri də olmalıdır və bu sahədə də iş getməlidir. İndiyə qədər işlərin zəif getməsi, yarıtmaz getməsi heç də o demək deyil ki, bizim əl-qolumuz yanımıza düşməlidir, biz soyumalıyıq və bu işlərə biganə qalmalıyıq. Sadəcə, bu

işlərin təşkilinə yenidən başlanılmalıdır və Azərbaycan bütün qüvvəsini bu sahəyə sərf eləməlidir. Mən inanıram ki, xalq heç də ümidini tamamilə itirməyib, təslimçilik əhvali-ruhiyyəsində deyil. Sadəcə olaraq, rəhbərliyin dəyişməsindən sonra xalqda müəyyən ümidlər yaranıb, həmin ümidləri söndürmək yox, daha da ruhlandırmaq lazımdır və xalqın qüvvəsinə arxalanaraq bütün problemlərimizi biz həll eləməliyik.

**Sədrlik edən.** Vaqif Qasımov buyursun.

**Vaqif Qasımov.** Yəqin ki, Etibar müəllimin dediklərindən sonra mən çıxış etməzdim, ancaq keçən il Milli Məclisin Müstəqil Dövlətlər Birliyinə öz münasibətini bildirən iclasında iştirak etməmişəm və öz münasibətimi bildirməmişəm, buna görə də bir neçə söz demək istərdim. Bugünkü müzakirə göstərir ki, Milli Məclisin bir çox üzvləri MDB-nin nizamnaməsi ilə tanış deyildirlər, ona görə də nizamnamədən bəzi məqamları sizin diqqətinizə çatdırmaq istərdim. Birinci növbədə, nəzərinizə çatdırıram ki, MDB-nin yaradılması barədə müqavilə yüksək tərəflər üçün onun ratifikasiya edildiyi andan qüvvəyə minir. Nizamnamənin 1-ci bəndində deyilir ki, birlik dövlət deyil və onun milli məsələlər barədə heç bir səlahiyyəti yoxdur. 3-cü maddədə deyilir ki, MDB-yə daxil olan dövlətlər öz münasibətlərini dövlət sərhədlərinin toxunulmazlığı, mövcud sərhədlərin qəbul edilməsi, kənar ərazilərin zəbt edilməməsi, dövlətlərin ərazi bütövlüyü və ərazilərin işğal edilməsi cəhdlərindən imtina və sair prinsiplərə əsaslanaraq qururlar. Dövlət başçıları şurasının qərarları konsensusla qəbul edilir. Rəsul müəllim də dedi ki, birliyin üzvü olmaq üçün böyük mübarizə aparmaq lazımdır. Üzvlük barədə maddədə deyilir ki, birliyə üzvlər yalnız MDB-yə daxil olan bütün dövlətlərin razılığı ilə qəbul edilə bilər. Ona görə də hələ proqnozlaşdıra bilmərik ki, MDB-yə daxil olan bütün dövlətlər icazə verəcəklər ki, biz bu birliyin üzvü olaq.

Bizim üçün ən maraqlısı 7-ci maddədir, orada söhbət parlamentlərarası əməkdaşlıqdan gedir. Qeyd etməliyəm ki, bizdə parlamentlərarası əməkdaşlıq çox aşağı səviyyədədir. Heydər müəllim, baxmayaraq ki üç dəfə Rusiya parlamentindən buraya rəsmi nümayəndələr gəlib, bizimlə öz parlamentlərarası münasibətlərini qurublar, onların çağırışına rəğmən bizim parlamentin üzvləri bir dəfə də Moskvada olmayıblar.

Mən MDB-yə daxil olan dövlətlərin Parlamentlərarası Assambleyanın bütün iclaslarında iştirak etmişəm. Mənə öz həmkarlarım həmişə deyirdilər ki, vaxt gələcək, səni ayağından asacaqlar. Mən bu gün heç

də təəssüflənmirəm və bu gün yenə öz sözümü demək istəyirəm ki, bu, bütün dünyaya, keçmiş SSRİ-yə daxil olan bütün respublikalara öz sözümüzü demək üçün böyük bir imkandır. Mənə elə gəlir ki, Milli Məclisinin qərarı ilə Siz müşahidəçi kimi getməlisiniz, ancaq Sizə elə bir səlahiyyət verilməlidir ki, orada iclasın gedişindən asılı olaraq öz səlahiyyətiniz daxilində sərbəst qərara gələsiniz. Mən hesab edirəm ki, bu işdə mütləq iştirak eləmək lazımdır.

**Sədrlik edən.** Rəsul Quliyev buyursun.

**Rəsul Quliyev.** Mən istəyirəm, bir arayış verim, çünki böyük siyasətə girmək üçün hökmən gərək belə şeyləri biləlhər. Mirmahmud müəllim elan elədi ki, Rəsul Quliyev Avropa dövlətləri birliyi ilə MDB-ni müqayisə etməklə çox böyük səhvə yol verdi. Bilirsiniz, bunu nəyə görə deyir? Ona görə deyir ki, nə Avropa dövlətləri birliyinin nizamnaməsini bilir, nə də MDB-nin. Nə onu oxuyur, nə də bunu. O adam başa düşmür ki, MDB Avropa dövlətləri birliyinin nizamnaməsinin bazasında yaranıb. Elə-belə deyir də. Bu, bir.

İkinci. Etibar bəy söylədi ki, Avropa Birliyinin yaranması tarixçəsini bilmək lazımdır. Elan elədi ki, Türkiyəni onlar ona görə qəbul eləmirlər ki, Türkiyənin iqtisadi səviyyəsi çox zəifdir, gərək o vəziyyətə qalxa, ondan sonra onu qəbul eləyələr. Çox böyük səhvdir, çünki Avropa dövlətləri birliyinə Portuqaliya kimi bir ölkəni qəbul eləyiblər. Portuqaliyada iqtisadi səviyyə Türkiyədəki iqtisadi səviyyədən iki dəfə aşağıdır. Yunanıstanı qəbul eləyiblər, Yunanıstanda həyat səviyyəsi Almaniyadan üç dəfə aşağıdır. Avstriyanı qəbul etməyiblər, baxmayaraq ki onun həyat səviyyəsi Almaniya, Fransa, İngiltərə səviyyəsindədir. Qəbul eləməyiblər, ona görə ki Fransa ona səs vermir. Türkiyəni yeganə olaraq Kipr hadisələrinə görə qəbul eləmirlər. Həm də Türkiyəni oraya qəbul eləmək Avropada olan 6 milyonluq türk ordusu qarşısında bütün baryeri götürməkdir. Əgər iqtisadi vəziyyətin eyniliyi əsasında dövlətlər birliyi yaratmaq fikri varsa, onda MDB onun üçün ən gözəl nümunədir, çünki burada iqtisadi vəziyyət hamıda eyni cürdür. Bunu söyləmək istəyirdim. Sağ olun.

**Sədrlik edən.** Yaxşı. Fətəliyev Ramiz.

Ramiz Fətəliyev. ...

**Sədrlik edən.** Firudin Cəlilov, Siz ikinci dəfə söz alırsınız, buyurun.

**Firudin Cəlilov.** Reqlamentə görə olar, Heydər bəy, mən həmişə az danışıram. Bayaq mən təklif elədim ki, bu məsələnin müzakirəsini qapa-

lı keçirək, yəni təxminən bilirdim ki, bu aspektdə gedəcək. Heydər bəy, bu cür ciddi məsələlərin, super dövlətin bizə olan münasibətinin müzakirəsi belə açıq gedirsə, bu, sadəcə, yaxşı deyil.

**Sədrlik edən.** Biz bu dövlətin münasibətindən danışmırıq ki. Biz deyirik ki, Rusiya ilə münasibətlərimizi yaxşılaşdırmalıyıq.

**Firudin Cəlilov.** Yox, təbii, amma o məsələni açıqlayanda çox şeylər ortaya çıxır. İkincisi, bir arayış vermək istəyirəm. Sizin replikanızdan mən tutdum ki, guya mən Türkmənçay müqaviləsini deyəndə Sizi nəzərdə tutmuşam. Siz özünüz başladınız ki, mən həmişə müstəqillik tərəfdarıyam. Əstəğfürullah, mən o sözü deyəndə Sizi nəzərdə tutmuram və son vaxtlar dəfələrlə mətbuatda da, televiziyada da demişəm ki, millətin yeganə ümid yeri Sizsiniz, o ümidi sönməyə qoymaq olmaz. Mən ona görə qapalı keçirək deyirəm ki, Türkmənçay müqaviləsinə, 1920-ci il müqaviləsinə sürükləyən qüvvələr var, onları xırdalayaq, adlarını çəkək. Bunlar Moskvada da var, burada da var. Bəs təxribat aparanlar kimdir? 5 ildir bu millətin içində təxribat aparanlar həmin qüvvələrdir, ona görə mən təklif edirdim ki, bu məsələni qapalı iclasda müzakirə edək. Sağ olun.

**Sədrlik edən.** Yaxşı, mənə belə gəlir ki, məsələ kifayət qədər müzakirə olundu. Fikirlər əksərən eyni istiqamətdədir, ancaq şübhəsiz ki, Məclisin bəzi üzvləri başqa fikirdədirlər, amma onların da fikirləri, yenə ümumən götürsən, elə bir-birinə uyğun fikirlərdir. Mən burada istərdim, Məclis üzvləri 2 məsələyə münasibət bildirsinlər. Birinci, Ermənistanla aparılan danışıqlar. Rusiyanın vasitəsilə son vaxtlar Dağlıq Qarabağda olan qüvvələrlə danışıqlar aparırıq. Mən belə başa düşdüm ki, onlara etiraz eləyən yoxdur və qəbul edirəm ki, Məclis üzvləri, ümumən bu istiqamətdə hərəkəti bəyənirlər. Bunun davam etdirilməsi üçün bizə səlahiyyət verirlər, yəni bizim hərəkətimizə etiraz etmirlər. Mən bunu belə qəbul edirəm, ancaq mən təəssüf edirəm, bəzi adamlar deyirlər ki, yox, sülhlə danışaq, amma ordunu da qurmalıyıq, müharibəni də eləməliyik. Kim buna etiraz eləyir ki? Əgər bizim güclü ordumuz olsaydı, biz güc mövqeyindən çıxış eləyərdik. Güc mövqeyindən çıxış eləyərdik, axı biz öz ərazimizi qoruyuruq, başqasının ərazisinə girməmişik, öz ərazimizi müdafiə eləyirik. İşğal olunmuş torpaqların geri qaytarılması üçün müharibə aparırıq və təəssüf ki, nəinki geriyə qaytara bilmirik, hətta daha çox torpaqlar işğal olunur.

Ona görə də bunu heç kəs inkar etmir, ancaq çox təəssüflər olsun, indi biz elə bir vəziyyətdəyik ki, bu gün ordunu qurmaq haqqında danışı-

rıq. Amma ordunu üç il bundan qabaq qurmaq lazım idi. Üç il bundan qabaq. O tərəf ordunu əvvəlcədən də qurdu, öz tədbirlərini də gördü və başqa ölkələrin imkanlarından da ağıllı istifadə etdi, üstünlük əldə etdi. Bu məlum məsələdir. Mən bunu açmaq istəmirəm. Ona görə də bunlar heç də biri bir-birini inkar etmir, sadəcə olaraq, aparılan müdafiə tədbirləri davam etməlidir, müdafiə gücümüzü möhkəmləndirməliyik, torpaqların geri qaytarılmasına nail olmalıyıq, amma eyni zamanda atəşin kəsilmə müddətini uzadaraq danışıqlar aparıb işğal olunmuş müəyyən qədər torpaqları sülh yolu ilə geri qaytarmağa çalışmalıyıq. Söhbət bundan gedir.

Mən belə başa düşürəm ki, burada ümumi fikir müsbət oldu. Mən şübhə etmirəm ki, bu məsələni səsə qoymaq lazımdır. İndi bizdə qərar layihəsi yoxdur, bunun qısaca məzmununu mən sizə dedim, kim bu tədbirlərin aparılmasına müsbət münasibət göstərir, bunları bəyənir və bundan sonra da bütün başqa tədbirlərlə yanaşı, bu istiqamətdə davam etməyin tərəfdarıdır, xahiş edirəm, münasibətini bildirsin.

***(Səsvermə)***

Qəbul edildi.

O biri məsələ haqqında mən burada, xatirinizdədir, dedim ki, məsləhətləşmək lazımdır. Ümumi fikir daha ağıllı ola bilər. Bəzi Məclis üzvləri deyirlər ki, Prezidentin, yaxud da ki, Prezident səlahiyyətlərini icra edən adamın əlində hər bir səlahiyyət var. Mən bunu yaxşı bilirəm ki, var. Ancaq belə bir səlahiyyət olsa da, Məclisə hörmət edib, Məclis üzvləri ilə məsləhətləşmək pisdir, ya yaxşıdır? Bəs niyə bunu irad tuturlar, niyə deyirlər ki, bu lazım deyil, hüquq belə gəldi, səlahiyyət belə getdi, axı mən də bunu lazım bilmirəm. Mən, sadəcə olaraq, istəyirəm ki, hər şey sadə olsun, aşkar olsun. Bu, bir.

İkincisi, mən ona görə səlahiyyət verilsin, mandat verilsin dedim ki, son vaxtlar beş dəfədir, biz Rusiya ilə danışığa gedirik. Düzdür, bir dəfə görüş olub, Azərbaycanın Prezidenti də gedib. Moskvada görüş olub, ancaq münasibətlər tənzimlənməyib, siz bunu bilirsiniz. Ona görə də indi danışıqlara gedirik. Eyni zamanda müstəqil dövlətlərin görüşü var, biz oraya dəvət olunmuşuq.

İndi mən başa düşürəm, dövlət başçısının vəzifəsini icra edən şəxs kimi səlahiyyətimiz var, amma bu barədə sizin də fikrinizi bilmək lazımdır. İndi ora gedirik, əlbəttə ki, dəvət olunmuşuq, bizi necə qəbul edəcəklər, o cür də olacaq. İndi buradan deyək ki, yox, biz müşahidəçi kimi

gedəcəyik, yaxud başqa şəkildə gedəcəyik, axı bu, artıq söhbətdir.

Bir halda ki dəvət edirlər, mən məsələni belə qoyuram – dəvət qəbul olunsun? Olunsun və dəvət qəbul olunandan sonra biz baxmalıyıq, Azərbaycan orada hansı şəkildə iştirak edəcəkdir və onlar Azərbaycanın orada hansı şəkildə iştirak etməsini lazım biləcəklər? Orada iştirak edərkən biz hansı çərçivədə hərəkət etməliyik?

Ona görə mən bu məsələni sizin müzakirənizə çıxardım. Burada müstəqil dövlətlərin qurumuna girib-girməməkdən söhbət getmir. Mən əvvəlcə də bunu dedim ki, onların öz qanunu var, qapı hamı üçün də açıq deyil. Ancaq bu barədə müəyyən danışıqlar aparmaq və ab-havanı öyrənmək, Məclisin də fikrini öyrənmək, yəqin ki, lazımdır və heç də artıq deyil. Ona görə də mən belə başa düşürəm ki, bizim nümayəndə heyətinin, o cümlədən mənim orada iştirak etməyimizə etiraz yoxdur və bu barədə səlahiyyət və mandat verilir. Orada görüşlər, şübhəsiz, Rusiyanın Prezidenti Boris Yeltsinlə və başqa dövlət başçıları ilə görüşlər nəticəsində mövcud olan vəziyyətə uyğun öz siyasətimizi aparmaq üçün də etiraz yoxdur və bizə səlahiyyətlər və mandat verilir, elədirmi? Ona görə mən xahiş edirəm, buna da münasibət bildirilsin.

***(Səsvermə)***

Qəbul edildi.

Mən güman edirəm, üzrlü hesab edilər ki, biz uzun müddət fasiləsiz işləyirik, ancaq mən rica edirəm, bir 20 dəqiqə fasilə elan edəndən sonra qalan məsələlər çox vaxt almayacaqdır, gəlin bu məsələlərin hamısına baxaq. Etiraz yoxdur ki? 20 dəqiqəlik fasilə.

***(FASİLƏDƏN SONRA)***

**Sədrlik edən.** Məclis üzvlərindən rica edirəm, qeydiyyatdan keçsinlər.

***(Qeydiyyat)***

Yetərsay var, davam eləyə bilərik.

Növbəti məsələ Azərbaycan Respublikasının Çin Xalq Respublikasında Səfirliyinin təsis edilməsi haqqındadır. Etiraz yoxdur ki?

**Yerdən.** Səsə qoyulsun.

**Sədrlik edən.** Onda xahiş edirəm, münasibətinizi bildirin.

***(Səsvermə)***

Qəbul edildi.

Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında. Sosial siyasət komissiyası. Sultan Məmmədov, buyurun.

**Sultan Məmmədov.** Şəhid ailələrinə edilən güzəştlər və şəhid adlarının əbədiləşdirilməsi haqqında qanun layihəsi Milli Məclisin ötən iclasında müzakirə edilmiş, birinci oxunuşda qəbul edilmişdir. Bir sıra deputatlar qanun layihəsinə təklif və əlavələr irəli sürmüşlər. Qanun layihəsi Sosial siyasət komissiyasının iclasında təkrarən müzakirə edilmiş, həmin təkliflərin müəllifləri deputatlardan Tapdıq Kamalov, Füzuli Axundov və başqaları müzakirədə iştirak etmişlər. Təkliflərin bir qismi nəzərə alınmış, qanun layihəsi yenidən işlənilmiş və sizin müzakirənizə verilmişdir. Mən deputatlardan xahiş edirəm, respublikamızda müharibə gedir, hər gün şəhid veririk, bu qanunun əhəmiyyətini nəzərə alıb ona səs versinlər.

**Sədrlik edən.** Sual yoxdur ki? Onda səsə qoyuruq, xahiş edirəm, münasibət bildirilsin.

***(Səsvermə)***

Qəbul edildi.

Azərbaycan Respublikasının İqtisadi Əməkdaşlıq Təşkilatının təsis edilməsi haqqında İzmir müqaviləsinə qoşulması barədə. Xarici işlər komissiyası. Yusif Səmədoğlu.

**Yusif Səmədoğlu.** Buradan olarmı?

**Sədrlik edən.** Olar, əlbəttə, olar.

**Yusif Səmədoğlu.** Hörmətli millət vəkilləri, Xarici işlər komissiyası Azərbaycan Respublikasının İqtisadi Əməkdaşlıq Təşkilatının təsis edilməsi haqqında 1987-ci il martın 12-də imzalanmış İzmir müqaviləsinə, həmin müqaviləyə əlavə və düzəlişlər edilməsi haqqında 1990-cı il 18 iyun tarixli və 1990-cı il 28 noyabr tarixli protokollara qoşulması barədə qərar layihəsini təqdim edir. Qərar layihəsi bütün deputatlara paylanmışdır, əgər ehtiyac varsa, oxuyum.

**Sədrlik edən.** Ehtiyac yoxdur. Kimin bu qərar layihəsinə düzəlişi, qeydi, əlavəsi var? Buyurun, Sabir müəllim.

**Sabir Rüstəmxanlı.** Burada yazılıb ki, Azərbaycan Respublikasının İqtisadi Əməkdaşlıq Təşkilatının təsis edilməsi... Belə çıxır ki, bu, Azərbaycan Respublikasının əməkdaşlıq təşkilatıdır, o sözlərin yeri dəyişilməlidir, Azərbaycan Respublikası arxaya keçirilməlidir, onda daha dəqiq ola bilər.

**Sədrlik edən.** Bəli, yazılanlara Siz də düzəliş verin, mən də oxuyanda gördüm ki, burada bir balaca ilişirəm, çünki bu, Azərbaycan Respublikasının deyil. Aydındır ki, Azərbaycan Respublikasının buna qoşulmasıdır, amma sözlərin yerini dəyişmək lazımdır. Doğru deyirsiniz.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Bilirsiniz, bu artıqdır, gəlin bunu müzakirə eləməyək, Sabir müəllimin dediyini qəbul eləyək və tapşıraq ki, bu düzəldilsin. Etiraz yoxdur ki?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Onda bu layihəni səsə qoyuram, xahiş edirəm, münasibətinizi bildirin.

***(Səsvermə)***

Qəbul edildi.

Azərbaycan Respublikasının Ümumdünya Metrologiya Təşkilatının Konvensiyasına qoşulması haqqında. Bu da Xarici işlər komissiyasına aiddir. Yusif Səmədoğlu bu barədə nə deyə bilər? Etiraz yoxdur ki?

**Yerdən.** Yoxdur.

**Sədrlik edən.** Layihəyə düzəliş yoxdur, onda icazə verin, səsə qoyaq. Xahiş eləyirəm, münasibətinizi bildirəsiniz.

***(Səsvermə)***

Qəbul edildi.

Biz gündəliyi müzakirə edəndə bir məsələ əlavə olundu – Türkiyə ilə bizim müqaviləmiz haqqında. Dedilər ki, axtarırlar, tapa bilmirlər. Artıq bunlar hamısı tapılıb, sizə paylanıb. Kimin bu layihəyə dəyişikliyi, yaxud əlavəsi, qeydi var?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Bəli, razılaşdırılıb. Səsə qoyuram, xahiş edirəm, münasibət bildirilsin.

***(Səsvermə)***

Bu da qəbul edildi.

Bir məsələni də sizin müzakirənizə vermək istəyirəm. Artıq məlumdur ki, Tamerlan Qarayev Azərbaycan Respublikasının Çin Xalq Respublikasında səfiri vəzifəsinə təyin olunubdur, ona görə də biz Tamerlan Qarayevin Ali Sovetin sədrinin birinci müavini vəzifəsindən azad olunması məsələsinə baxmalıyıq. Bu barədə bir sözü, sualı olan varmı?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Yoxdur. Onda mən bu təklifi səsə qoyuram. Başqa işə keçdiyinə görə Tamerlan Qarayev Azərbaycan Respublikası Ali Soveti sədrinin birinci müavini vəzifəsindən, Məclis üzvlüyündən azad edilsin. Xahiş edirəm, buna münasibət bildirilsin.

***(Səsvermə)***

Qəbul edildi.

Tamerlan Qarayevə yeni vəzifədə uğurlar arzulayaq.

Məsələlər bitdi, ancaq bir təklif də vermək istəyirəm. Milli Məclisin sayı 51 nəfərdir. Keçən dəfə Rəhim Qazıyev Məclisin tərkibindən xaric olunub, Tamerlan Qarayev Çin Respublikasına getdiyinə görə indi 1 yer də boşaldı. Mən hesab eləyirəm, bu 2 yeri biz doldursaq, yaxşı olar. Təklif edirəm, Gülnarə Qurbanovanı Milli Məclisin üzvü seçək. Gülnarə xanımı hamınız tanıyırsınız. Etirazı, sualı olan yoxdur ki?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Onda bu təklifi səsə qoyuram. Kim Gülnarə Qurbanovanın Milli Məclisin üzvü seçilməsinin tərəfdarıdır, xahiş edirəm, səs versin, yaxud münasibətini bildirsin.

***(Səsvermə)***

Qəbul edildi.

Gülnarə Qurbanova Milli Məclisin üzvü seçildi. Təklif edirəm, Samur Novruzov Milli Məclisin üzvü seçilsin. Samur Novruzovu tanıyırsınız. Bilmirəm, buradadır, yoxsa yox. Etiraz yoxdur, odur ki səsə qoyuram, xahiş edirəm, münasibət bildirilsin.

***(Səsvermə)***

Qəbul edildi.

Samur Novruzov Milli Məclisin üzvü seçildi. Tahir Əliyev, Siz nə isə demək istəyirsiniz? Tahir Əliyevə mikrofon verin, xahiş eləyirəm.

**Tahir Əliyev.** Heydər müəllim, Arif Hacıyev uzun müddət Milli Məclisin iclaslarında iştirak eləmir, ona görə də mən hesab eləyirəm ki, onun məsələsini də səsə qoymaq, onu Milli Məclisin üzvlüyündən azad etmək, oraya ağıllı bir yoldaş seçmək lazımdır. Bunu təklif edirəm.

**Sədrlik edən.** Təklif, hesab eləyək ki, doğru təklifdir, çünki birincisi, doğrudan da, Arif Hacıyev Milli Məclisin işində iştirak etmir, bir də ki, elə bu məsələlərdə onun günahları da olubdur. Ona görə əgər etiraz

yoxdursa, mən bu təklifi səsə qoyuram. Kim Arif Hacıyevin Milli Məclisin üzvü vəzifəsindən azad olunmasının tərəfdarıdırsa, xahiş eləyirəm, münasibətini bildirsin.

***(Səsvermə)***

Qəbul edildi.

Beləliklə, məsələlər qurtardı. Buyurun, Tamerlan Qarayev.

**Tamerlan Qarayev.** Mən iki kəlmə müraciət eləmək istəyərdim. Söhbət ondan gedir ki, təbii, biz uzun müddət çox gərgin bir vaxtda əməkdaşlıq eləmişik. Bu Milli Məclisin özünün yaradılmasında, bilirsiniz ki, mənim də rolum olub. Çox təbiidir ki, indi Milli Məclisdən gedəndə də müəyyən müraciətlə çıxış eləməli idim. Amma bu gün iclasın gedişində mənə bir xəbər çatdırıldı və mən yalnız bu xəbəri sizə çatdırmaqla kifayət edəcəyəm. Çox düşündüm ki, hansı şərhlərlə, hansı sözlərlə çatdırım, amma mənə elə gəlir ki, elə sadəcə, bu məlumatı sizə çatdırsam – siz hələ bir müddət fəaliyyət göstərəcəksiniz – Azərbaycanın hələ ki ən çətin bir vaxtında bu məlumatdan nəticə çıxardıb öz fəaliyyətinizdə bəlkə də müəyyən dönüş yarada bildiniz.

İclasın gedişində Salatın Əsgərovanın anası zəng elədi. Mənə bildirdilər ki, o mənimlə danışmaq istəyir. Salatının anası Leyla xanım xəbər verdi ki, bu gün 1-ci məsələnin müzakirəsi zamanı tamamilə yersiz olaraq, bəlkə də, düşünülmədən, bəlkə də, səhvən Salatının adı çəkildi. Səhvən elə başa düşərək ki, guya siz Salatının qatillərini dəyişmək istəyirsiniz, Salatının atasının ürəyi partlayıb vəfat edib. Mən artıq söz deməyəcəm.

Arzu eləyirəm ki, bu çətin vaxtda siz həmrəy olasınız, vəziyyətdən çıxış yolları tapasınız, amma həmişə bu məlumatı ağlınızda saxlayıb nəzərə alasınız, burada hər bir sözünüzə, hər bir hərəkətinizə fikir verəsiniz. Əməkdaşlığa görə çox sağ olun. Gələcəkdə, təbii ki, görüşəcəyik. Sizə müvəffəqiyyət arzulayıram.

**Sədrlik edən.** Allah Salatın xanımın atasına rəhmət eləsin. Sağ olun.

## AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN İCLASI

*13 sentyabr 1993-cü il*

*Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri* ***Heydər Əliyev*** *sədrlik edir*

**Sədrlik edən.** Sabahınız xeyir, hörmətli Məclis üzvləri, deputatlar, qonaqlar, mətbuat nümayəndələri! Milli Məclisin növbəti iclasına başlayırıq. Rica edirəm, Məclis üzvləri qeydiyyatdan keçsinlər.

***(Qeydiyyat)***

42 nəfər iştirak edir. Yetərsay var.

Bugünkü iclasın gündəliyinə təklif olunan məsələlər: birincisi, Azərbaycan Respublikasının nümayəndə heyətinin Rusiya Federasiyasına, Moskvaya səfərinin yekunları, Rusiya Federasiyasının rəhbərliyi ilə aparılan danışıqlar, əldə olunan nəticələr haqqında məlumat və bu məsələnin müzakirə olunması.

İkincisi, Rusiyada, Moskvada olarkən bizim Türkiyə Cümhuriyyətinin Baş naziri xanım Tansu Çillərlə görüşümüz olubdur, bu görüş haqqında Milli Məclisə məlumat verməyi mən lazım bilirəm.

Üçüncüsü, iki gün bundan öncə Amerika Birləşmiş Ştatlarının Dövlət Departamentinin səlahiyyətli səfiri, keçmiş Sovetlər İttifaqına aid olan müstəqil dövlətlər üzrə idarənin rəhbəri və Amerika Birləşmiş Ştatlarının Prezidenti Bill Klintonun xüsusi nümayəndəsi kimi Bakıda səfərdə olmuş cənab Talbotla görüş, bu görüşün və danışıqların nəticələri haqqında.

Məsələlərin üçü də elə bir-birinə yaxın və bir-birinə bağlı məsələlərdir. Mənim bu məsələlərin üçünü də birlikdə sizə çatdırmaqda məqsədim ondan ibarətdir ki, ümumi təsəvvür olsun. Şübhəsiz ki, gündəliyin hər məsələsi ayrılıqda səsə qoyulub qəbul olunmalıdır.

Demək, birinci məsələ – Azərbaycan Respublikasının nümayəndə heyətinin Moskva səfəri və onun yekunları haqqında. Xahiş edirəm, bu məsələnin gündəliyə salınması haqqında Məclis üzvləri münasibətlərini bildirsinlər.

***(Səsvermə)***

Qəbul edildi.

İkinci məsələ – Türkiyənin Baş naziri xanım Tansu Çillərlə Moskvada görüş, aparılan danışıqlar haqqında. Bu məsələnin gündəliyə salınmasına, xahiş edirəm, münasibət bildirilsin.

***(Səsvermə)***

Qəbul edildi.

Üçüncüsü, Amerika Birləşmiş Ştatlarının nümayəndəsi cənab Talbotla görüş, danışıqlar və Amerika Birləşmiş Ştatlarının Prezidenti Bill Klintonun göndərdiyi məktub haqqında. Rica edirəm, Məclis üzvləri bu məsələnin də gündəliyə salınması haqqında münasibətlərini bildirsinlər.

***(Səsvermə)***

Qəbul edildi.

Gündəliyə əlavələr, dəyişikliklər varmı, yoxsa yox? Yoxdur. Onda bu məsələlərin müzakirəsinə başlamaq olar. Bu üç məsələnin üçü də bir-biri ilə sıx bağlı olduğuna görə belə təklif var ki, bunlar haqqında ümumi məlumat verilsin, əlavə məlumatlar da verilə bilər və bu üç məsələ bir yerdə müzakirə olunsun. Şübhəsiz ki, bu məsələlər haqqında qərarlar ayrı-ayrılıqda qəbul oluna bilər. Belə bir qaydaya etiraz yoxdur ki? Yoxdur. Onda izin verin, mən məlumat verim.

Bildiyiniz kimi, nümayəndə heyətinə mən başçılıq etmişəm və danışıqları əsas mən aparmışam. Belə bir fikir var ki, məndən əlavə, Moskva səfəri, Moskva görüşləri, bəzi iqtisadi məsələlər, həm də o biri məsələlər haqqında əlavə məlumat üçün Baş nazirin müavini Abbas Abbasova, xarici işlər naziri Həsən Həsənova da söz verilsin. Mən təklif edirəm ki, bu qaydada məlumatlar verilsin.

Bildiyiniz kimi, biz Azərbaycan Respublikasının nümayəndə heyətinin Rusiya Prezidenti Boris Yeltsinlə əldə olunmuş razılığa əsasən Moskvaya getməsi və orada danışıqlar aparılması haqqında məsələni Milli Məclisin iclasında müzakirə etdik və Milli Məclis belə bir səfərin zəruri olduğunu qeyd etdi və bu barədə lazımi qərar qəbul etdi. Bununla yanaşı, biz Rusiya Federasiyasının Prezidenti Boris Yeltsinin və Rusiya parlamentinin sədri Ruslan Xasbulatovun Azərbaycan Respublikasının rəhbərliyinə göndərilmiş məktublarını da müzakirə etdik. Rusiya Federasiyasının vətəndaşları, Rusiya ordusunun 6 nəfər hərbi qulluqçusu, vaxtilə Azərbaycanda həbs olunmuş və məhkum olunmuş adamların aqibəti haqqında Milli Məclisdə məsələ müzakirə olundu və qərar qə-

bul olundu. Rusiya Federasiyasının rəhbərliyinin xahişini nəzərə alaraq, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında münasibətlərin bundan sonra normallaşması naminə və eyni zamanda humanist bir mövqedən hərəkət edərək Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan Respublikasının ərazisində cinayət törətdiklərinə görə həbs olunub məhkum olunan Rusiya Federasiyasının 6 nəfər hərbi qulluqçusunun Rusiya Federasiyasının sərəncamına verilməsi haqqında qərar qəbul etdik.

Biz Milli Məclisin razılığı və qərarı əsasında həm Milli Məclisin nümayəndə heyətinin Rusiya Federasiyasına, Moskvaya səfər edib Rusiya Federasiyasının rəhbərləri ilə danışıqlar aparması, həm də Azərbaycanda həbs cəzası çəkən Rusiya Federasiyası ordusunun hərbi qulluqçularının Rusiya dövlət orqanlarının sərəncamına verilməsi haqqında qərarlarla Moskvaya yola düşdük. Bu artıq sizə mətbuatdan, bizim bu görüşlər və onların nəticələri haqqında Moskvada və Bakıda verilmiş mətbuat konfranslarından məlumdur. Fəqət mən hesab edirəm ki, nümayəndə heyəti Milli Məclisin qərarı əsasında Moskvada danışıqlar aparıb, ona görə də nümayəndə heyəti və şəxsən mən nümayəndə heyətinin başçısı kimi, Milli Məclis qarşısında hesabat verməliyəm, bu danışıqların məzmunu və nəticələrini bildirməliyəm. Milli Məclis, şübhəsiz ki, bunların hamısına öz qiymətini verməlidir, ona görə də müəyyən qədər təkrar olsa da, bəzi məsələləri sizə çatdırmağı vacib bilirəm.

Bildiyiniz kimi, səfər sentyabr ayının 5-dən 8-nə qədər oldu. Moskvada Rusiya rəhbərliyi Azərbaycan nümayəndə heyətini qonaqpərvərlik və səmimiyyət şəraitində qəbul etdi. Azərbaycan Respublikasının Daimi Nümayəndəliyinin fəaliyyəti və Rusiyanın dövlət orqanları ilə birgə apardığı işlər nəticəsində artıq biz Moskvaya gələrkən orada bizim görüşlərimiz və konkret proqramımız haqqında əvvəlcədən dəqiq məlumatımız var idi. Bizim Rusiya Federasiyasının rəhbərləri ilə görüşlərimiz və danışıqlarımız bu proqram əsasında olmuşdur.

Bildiyiniz kimi, birinci görüş sentyabr ayının 6-da Rusiya Federasiyasının Prezidenti cənab Boris Yeltsinlə olmuşdur. Özünün arzusu ilə Boris Yeltsinlə görüş təkbətək olmuşdur. Görüşümüz təxminən bir saat çəkmişdir və sizə məlumat verə bilərəm ki, görüşdə biz Azərbaycan və Rusiya arasındakı münasibətlərə aid olan, demək olar, bütün məsələlərə toxunmuşuq. Bu məsələlər barəsində fikir mübadiləsi, müzakirələr aparmışıq. Burada bizim mövqeyimiz – Milli Məclisdə bu məsələ bizim üçün artıq aydınlaşdırılıbdır – ondan ibarət olmuşdur ki, Azərbaycan Respublikası

ilə Rusiya Federasiyası, müstəqil dövlətlər arasında münasibətlər bundan sonra daha yüksək səviyyəyə qalxmalıdır, daha çoxsahəli və çoxşaxəli olmalıdır. Azərbaycan və Rusiya arasında bu münasibətlər bundan sonra müstəqil dövlətlər kimi qarşılıqlı mənfəət nöqteyi-nəzərindən inkişaf etməlidir.

Doğrudur, bilirsiniz, keçən ilin oktyabr ayında Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəy və onunla bərabər nümayəndə heyəti Moskvada olmuşdur, Rusiya Prezidenti Boris Yeltsin və başqa dövlət rəhbərləri ilə görüşlər olmuşdur, müqavilə bağlanmışdır. Yalnız o müqavilənin bağlandığı vaxtdan keçən dövr göstərir ki, bu müqavilənin müddəaları, şərtləri lazımi səviyyədə yerinə yetirilməmişdir. Sizə çatdırmaq istəyirəm ki, Rusiyanın rəhbərliyi və şəxsən Rusiya Prezidenti Boris Yeltsin mənimlə söhbətdə bunun səbəblərinin Azərbaycan tərəfində olduğunu bildirmişdir. Mən bildirdim ki, Azərbaycan Respublikasının parlamenti, ictimaiyyətin əsas hissəsi indi artıq Azərbaycanla Rusiya arasında bütün sahələrdə əlaqələrin genişlənməsinə, inkişaf etməsinə tərəfdardır və bunu Azərbaycan Respublikasının müstəqil dövlət kimi, həm iqtisadiyyatının, həm də həyatının başqa sahələrinin inkişaf etməsi üçün mühüm bir amil kimi qəbul edirlər. Ona görə də biz bu təkliflərlə, bu fikirlə gəlmişik və bu məqsədlərə nail olmaq üçün burada, Moskvada danışıqlar aparmaq istəyirik.

Boris Yeltsin bu məsələlərin hamısını məmnuniyyətlə qəbul etdi. O, bəyan etdi ki, belə mövqe Rusiya Federasiyası tərəfindən də bildirilir və Rusiya Federasiyasının dövlət orqanları, Prezident kimi şəxsən Boris Yeltsin müstəqil Azərbaycan dövləti ilə bundan sonra daha sıx əlaqələr saxlamaq və bütün sahələrdə əməkdaşlığı genişləndirmək, inkişaf etdirməyin tərəfdarıdır.

Birinci növbədə, biz iqtisadi əlaqələrin genişləndirilməsi və inkişaf etməsi məsələsini müzakirə etdik. Bu barədə bizim fikrimiz eyni oldu. Rusiya Prezidenti tərəfindən bu məsələlərə heç bir mənfi münasibət müşahidə olunmadı, əksinə, onunla biz bu barədə eyni fikirdə olduq. O bildirdi ki, bu barədə Rusiyanın Baş naziri Çernomırdinə və başqa dövlət orqanlarına lazımi göstərişlər verilib, konkret bu məsələlər həm Baş nazirlə, həm də başqa rəhbərlərlə həll olunmalıdır. Rusiyanın Prezidenti bütün sahələrdə, bir də qeyd edirəm, iqtisadi sahədə əməkdaşlığın genişlənməsinə, inkişaf etməsinə tərəfdardır.

Bir şeyi mən unutdum, bəlkə, bunu öncə deməliydim. Mən söhbətimizin əvvəlində Boris Yeltsinin Azərbaycan Respublikasının rəhbərliyi-

nə, keçmiş Prezident Əbülfəz Elçibəyə və indi bizə müraciəti ilə əlaqədar olaraq parlamentdə məsələnin müzakirə olunduğunu bildirdim və mənim Boris Yeltsinin məktubuna cavab məktubumu, parlamentin Rusiyanın Azərbaycanda cəza çəkən 6 nəfər hərbi qulluqçusunun Rusiya dövlətinin sərəncamına verilməsi haqqında qərarını ona təqdim etdim və bu barədə ona məlumat verdim. Bildirdim ki, bu qərarı qəbul etmək bizim üçün o qədər də asan bir məsələ deyildir, çünki məlumdur, Ermənistan silahlı qüvvələrinin Azərbaycan Respublikasına təcavüzü davam edir. Bu hərbi qulluqçular keçən ilin axırında Kəlbəcər rayonunda yaxalanıb, sonra məhkəmə tərəfindən məhkum olunublar, ancaq ondan sonra da erməni silahlı qüvvələrinin Azərbaycan ərazisinə hərbi təcavüzü davam edir və nəticədə Azərbaycan Respublikasının torpaqlarının bir qismi işğal olunubdur. Bu dövrdə Azərbaycan Respublikasının vətəndaşları həlak olublar, şəhid olublar, şəhərlər, kəndlər işğal olunubdur, viran olubdur, yandırılıbdır, dağıdılıbdır, əhalisi qaçqın düşübdür. Şəhid olanların ailələri, onların qohumları, yaxın adamları, şübhəsiz ki, Ermənistan silahlı qüvvələrinin vəhşicəsinə apardıqları təcavüz hərəkətlərindən çox hiddətləniblər. Belə bir şəraitdə bu cinayətkarların, canilərin həbsdən azad olunması deyil, Azərbaycan Respublikasının sərəncamından Rusiya Federasiyasının sərəncamına verilməsi məsələsi, şübhəsiz ki, mənəviyyat cəhətindən çox çətin və ağır bir məsələdir, yalnız, demək, mən qeyd etdiyim prinsipləri rəhbər tutaraq bu qərarın parlament tərəfindən qəbul olunması mümkün oldu. Mən bu məlumatı Boris Yeltsinə çatdırdım, məktubumuzu və qərarı ona verdim.

Boris Yeltsin bunu çox böyük məmnuniyyətlə qəbul etdi, anlatdı ki, bizim bu humanist aktımız, eyni zamanda onların müraciətinə hörmətlə yanaşmağımız onlar və Rusiya ictimaiyyəti tərəfindən qiymətləndiriləcəkdir. Bu mövzuya sonra bir də qayıtmamaq üçün demək istəyirəm ki, bu mövzuda söhbətlər həm Rusiya parlamentinin başçısı Ruslan Xasbulatovla, həm Rusiyanın Baş naziri Viktor Çernomırdinlə, həm xarici işlər naziri Andrey Kozırevlə, həm də müdafiə naziri Pavel Qraçovla da oldu. Onlar hamısı bizim bu qərarımızı, bu addımımızı çox məmnuniyyətlə qəbul etdilər.

Boris Yeltsinlə danışıqlarımızın məzmununa qayıdaraq qeyd etmək istəyirəm ki, bütün sahələrdə, demək, iqtisadiyyat, texniki, mədəniyyət, elm sahələrində Azərbaycanla Rusiya arasındakı münasibətlərin genişlənməsi məsələsi birmənalı qəbul olundu, yəni onlar da eyni fikirdədirlər və bu barədə bizim danışıqlarımız sonra başqa dövlət adamları ilə də davam etdi.

Boris Yeltsinlə danışıqlarımızın çox hissəsi Azərbaycanla Ermənistan arasında gedən müharibə, Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan Respublikasının torpaqlarının işğal olunması və bu sahədə Rusiyanın rolu haqqında oldu. Bu məsələ çox geniş müzakirə olundu. Mən Rusiyanın Prezidenti Boris Yeltsinə böyük bir xəritə arxasında vəziyyəti tam izah etdim və xəritədə göstərdim ki, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti artıq tamamilə, demək olar ki, Ermənistan silahlı qüvvələrinin əlindədir. Son dövrdə, son illərdə aparılan müharibə nəticəsində keçmiş Dağlıq Qarabağ vilayətinin hüdudlarından kənarda olan Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı rayonları da işğal olunubdur. Bu rayonların ərazisindən yüz minlərlə didərgin gəlib Azərbaycanın başqa yerlərində ağır vəziyyətdə yaşayırlar. İşğal olunmuş bu rayonların bütün var-dövləti dağıdılır, qarət olunur, bir çox kəndlər yandırılır. Demək, Ermənistan silahlı qüvvələri tərəfindən artıq, sadəcə olaraq, vəhşilik, barbarlıq hərəkətləri mövcuddur və bunu sübut etmək üçün böyük dəlillər lazım deyil.

Mən bildirdim ki, Rusiya dövləti dünya miqyasında böyük bir dövlət, söz sahibi olaraq, eyni zamanda Azərbaycanın şimal qonşusu, Qafqaz regionu ilə daim bağlı olan bir dövlət kimi, həm Azərbaycanla, həm də Ermənistanla keçmişdə uzun müddət yaxın əlaqədə olduğuna görə bu problemə, şübhəsiz, biganə qala bilməz. Bu proseslərin belə bir istiqamətdə inkişaf etməsinə biganəlik, yaxud birtərəfli münasibət Rusiya dövlətinə də böyük bir dövlət kimi, şübhəsiz ki, şöhrət, hörmət qazandıra bilməz. Ona görə də mən Rusiyanın Prezidentini dəvət etdim ki, Rusiya bu məsələlərə ciddi münasibət bildirsin və münasibət sözdə yox, əməli işdə olsun. Azərbaycanla Ermənistan arasında gedən bu müharibənin, Ermənistanın təcavüzlərinin, hərbi əməliyyatlarının dayandırılmasında Rusiyanın yaxından iştirakı təmin olunsun. Mən bildirdim ki, Rusiyanın Xarici İşlər Nazirliyi və ümumiyyətlə, dövlət orqanları bu işlərlə məşğul olurlar. Bildiyiniz kimi, Rusiyanın Xarici İşlər Nazirliyinin xüsusi səlahiyyətli səfiri Vladimir Kazimirov bu işlərlə daim məşğul olur. Dəfələrlə keçmiş vaxtlarda və indi biz işləyən dövrdə də Azərbaycanda da, Ermənistanda da, Dağlıq Qarabağda da olubdur. O, son vaxtlar atəşin dayandırılması üçün vasitəçilik edir və bir neçə dəfə atəşi dayandırmaq üçün bağlanmış kiçik sazişlərin iştirakçısıdır.

Bir halda ki Rusiya bu məsələlərdə iştirak edir, demək, tam iştirak etməlidir və birtərəfli olmamalıdır. Şübhəsiz, bu fikirləri Rusiyanın Prezidentinə çatdıraraq mən daim qeyd edirdim ki, Azərbaycan müstəqil bir

dövlətdir və müstəqil dövlət kimi Rusiya dövləti ilə tam, bərabərhüquqlu əlaqələr saxlamaq istəyir və saxlayacaqdır. Rusiyanın Azərbaycanla Ermənistan arasında gedən müharibədə rolu, şübhəsiz ki, Azərbaycanın müstəqilliyinə toxunmamaq şərti ilə olmalıdır. Eyni zamanda mən bu məlumatları verərək, bu müddəaları irəli sürərək Rusiya Prezidentinə bildirdim ki, Azərbaycan bütün məsələlərin həll olunmasında beynəlxalq təşkilatlara çox böyük ümid bəsləyir. Beynəlxalq təşkilatların fəaliyyəti ilə bu məsələlərin həll olunmasını istəyir, bu məsələlər Birləşmiş Millətlər Təşkilatının və xüsusilə onun Təhlükəsizlik Şurasının iclaslarında müzakirə olunub. Kəlbəcər rayonu işğal olunandan sonra Təhlükəsizlik Şurasının 822 nömrəli qətnaməsi qəbul olunub. Yalnız bu qətnamə indiyə qədər yerinə yetirilməyib. Ağdam rayonu Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunandan sonra Təhlükəsizlik Şurasının 853 nömrəli qətnaməsi qəbul olunub. Bu qətnamə də indiyə qədər yerinə yetirilməyib. Bu müddətdə Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, Rusiya Xarici İşlər Nazirliyi, Türkiyənin, başqa dövlətlərin başçıları, yaxud onların xarici siyasətlə məşğul olan idarələri Ermənistan silahlı qüvvələrinin Azərbaycana təcavüzü ilə bağlı cürbəcür bəyanatlar veriblər. Yalnız bu bəyanatlar heç bir nəticə verməyib və nəhayət, Amerika Birləşmiş Ştatları, Rusiya və Türkiyə Ermənistanla Azərbaycan arasında müharibənin dayandırılması, məsələnin sülh yolu ilə həll olunması, xüsusən Kəlbəcər rayonundan Ermənistan silahlı qüvvələrinin dərhal çıxarılması haqqında bir neçə ay bundan öncə təşəbbüsdə bulunublar. Ancaq təəssüf ki, bu təşəbbüs də öz əməli nəticəsini verməyib.

Bu məsələ eyni zamanda ATƏM çərçivəsində müzakirə olunur. Son bir il, bəlkə, bir ildən də artıq bir müddətdə ATƏM və onun tərkibində Dağlıq Qarabağ problemi ilə əlaqədar yaradılmış Minsk qrupu fəaliyyət göstərir. Minsk qrupu bir neçə dəfə qərarlar qəbul edib. Minsk qrupunun nümayəndələri Bakıda, Yerevanda, Dağlıq Qarabağda olublar, konkret təkliflər veriblər, bu təkliflər Azərbaycan Respublikasının rəhbərliyi tərəfindən, hətta Ermənistan Respublikasının rəhbərliyi tərəfindən qəbul olunubdur, ancaq Dağlıq Qarabağda olan qüvvələr bu təkliflərin həyata keçirilməsinə imkan verməyiblər. Beləliklə də mötəbər və məşhur beynəlxalq təşkilatlar, yəni Birləşmiş Millətlər Təşkilatı, onun Təhlükəsizlik Şurası, ATƏM və onun Minsk qrupu indiyə qədər apardıqları tədbirlərin heç bir əməli nəticəsinə nail ola bilməyiblər.

Ona görə də mən Rusiyanın Prezidentinə bildirdim ki, Rusiya həm Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının daimi üzvü, həm

ATƏM-in üzvü, həm də Azərbaycan və Ermənistana sərhəd nöqteyi-nəzərindən yaxın bir dövlət və bu regionda, şübhəsiz, geosiyasi və ümumi marağı olan bir dövlət kimi, bu məsələlərin həllində gərək ədalətli, obyektiv mövqe tutsun və bu məsələlərin həll olunması üçün təsirli tədbirlər görsün. Mən Rusiya Prezidentinə bildirdim ki, son vaxtlar Ermənistan silahlı qüvvələri Azərbaycanın Füzuli, Cəbrayıl və Qubadlı rayonlarını işğal edərək artıq Azərbaycanla İran arasındakı sərhədlərə gəlib çıxıblar. Bu hərbi əməliyyatlar İran İslam Respublikasında da çox böyük narahatlıq doğurub. İran İslam Respublikasında və xüsusən onun Azərbaycanla həmsərhəd olan vilayətlərində milyonlarca azərbaycanlı yaşayır, onlar Azərbaycanda gedən bu hadisələrə biganə qala bilmirlər, orada xalq arasında böyük canlanma var və sərhədi bu tərəfə keçib, bu savaşda, bu müharibədə iştirak etmək əzmindədirlər. Türkiyə hökuməti Ermənistan silahlı qüvvələrinin Azərbaycana davamlı təcavüzündən çox narahatdır, bu barədə ciddi bəyanatlar verib, hətta Türkiyənin dövlət başçıları əgər Ermənistanın bu cür təcavüzləri davam etsə, Azərbaycana qoşun yeritmək fikirlərini də meydana atıblar. Ona görə də bunlar hamısı Ermənistanla Azərbaycan arasında gedən müharibənin beynəlmiləlləşməsinə səbəb olacaqdır, onları nəzərə almaq, təsirli tədbirlər görmək lazımdır.

Rusiyanın Prezidenti bizim məlumatları çox diqqətlə dinlədi – güman edirəm, vəziyyətin nə qədər gərgin və ağır olduğunu mən ona çatdıra bildim – öz tərəfindən söz verdi ki, lazımi orqanlara göstəriş verəcəkdir, bu məsələlərlə ciddi məşğul olsunlar. Dedi ki, xüsusən xarici işlər naziri Andrey Kozırevə, müdafiə naziri Pavel Qraçova göstəriş verəcəkdir və doğrudan da, həmin gün o göstərişlər Prezident Boris Yeltsin tərəfindən verilmişdir. O bu məsələlərdə Rusiyanın daha da fəal rol oynayacağını bildirdi.

Bu məsələlərlə yanaşı, bizim danışıqlarımızda Azərbaycanın Müstəqil Dövlətlər Birliyinə münasibəti məsələsinə də toxunuldu. Rusiyanın Prezidenti bizim bu barədə fikrimizi bilmək istədi və eyni zamanda bildirdi ki, Azərbaycan Müstəqil Dövlətlər Birliyinə daxil deyil, Ermənistan Müstəqil Dövlətlər Birliyinə daxildir. Eyni zamanda Ermənistan Müstəqil Dövlətlər Birliyinin Kollektiv təhlükəsizlik müqaviləsinə də daxildir, ona görə də bizim bu məsələlərə münasibət bildirməyimiz onun üçün çox lazımdır. Mən Rusiya Prezidentinə məlumat verdim ki, bu məsələ Azərbaycanın parlamentində müzakirə olunub. Biz bu məsələni müzakirə eləyəndə sizə məlumat vermişdik, sentyabrın 7-də Moskvada Müstəqil Dövlətlər Birliyi ölkələrinin rəhbərlərinin görüşü nəzərdə tu-

tulmuşdu. Biz də bu görüşə dəvət olunmuşduq və respublikanın parlamenti, yəni Milli Məclis Azərbaycan nümayəndə heyətinin sentyabrın 7-də Müstəqil Dövlətlər Birliyinə üzv dövlətlərin başçılarının görüşündə iştirak etməsinə razılıq vermişdi və eyni zamanda orada vəziyyətdən asılı olaraq bu məsələyə münasibət bildirilməsi haqqında mənə Ali Sovetin sədri kimi müəyyən səlahiyyətlər verilmişdir.

Bundan istifadə edərək mən Boris Yeltsinə bildirdirm ki, bu məsələ parlamentdə müzakirə olunub, parlamentdə ümumən Azərbaycanın Müstəqil Dövlətlər Birliyinə daxil olmasına etiraz olmamışdır. Etiraz edənlər də var, Azərbaycanda bu məsələyə münasibət birmənalı deyil və bunun da obyektiv səbəbləri var. Ancaq Azərbaycanın parlamenti, Milli Məclisi, əksəriyyət bu təşəbbüsün, yaxud biz addım atarıqsa, bunun tərəfdarıdır, ona görə də biz bu məsələyə bir də qayıda və bu məsələni qəti müzakirə edib sizə bildirə bilərik. Boris Yeltsin mənə bir də çatdırdı ki, növbəti görüşdə Müstəqil Dövlətlər Birliyinin iqtisadi birlik konsepsiyası müəyyən olunacaq – Kollektiv təhlükəsizlik müqaviləsi artıq xeyli vaxt bundan öncə imzalanıb – beləliklə, Müstəqil Dövlətlər Birliyi həm siyasi, həm iqtisadi, həm də şübhəsiz, Kollektiv təhlükəsizlik müqaviləsi olduğuna görə müəyyən qədər ölkələrin qarşılıqlı təhlükəsizliyini təmin etmək üçün münasibətləri tənzimləyən bir qurumdur. Buna görə də Boris Yeltsin belə bir fikir söylədi ki, əgər Azərbaycan Müstəqil Dövlətlər Birliyinə daxil olsa, onda Rusiyanın, ümumiyyətlə, Cənubi Qafqaz regionunda Azərbaycanla olan münasibətləri, eyni zamanda beş ildən artıq gedən müharibədən çıxış yollarının axtarılmasında Rusiya daha da fəal iştirak eləyə bilər.

Boris Yeltsinlə danışıqlarımızda başqa məsələlərə də toxunuldu. Hesab edirəm ki, mən əsas məsələlər haqqında sizə məlumatlar verdim, bizi maraqlandıran əsas məsələlər bundan ibarətdir. Bu məlumatı yekunlaşdıraraq çatdırmaq istəyirəm ki, Rusiya Prezidenti, ümumiyyətlə, Azərbaycanın indi Rusiya Federasiyası ilə münasibətlərinin inkişaf etməsi, genişləndirilməsi, yaxınlaşdırılması üçün bizim atdığımız addımları məmnuniyyətlə qəbul etdi.

Söhbətimizin sonunda mən təklif etdim, bizim görüşümüz müəyyən sənədlə nümayiş etdirilsin və belə bir razılığa gəlindi ki, birgə kommunike dərc olunsun, bu kommunikedə göstərilsin, Azərbaycanla Rusiya arasında aparılan danışıqların məzmunu və gələcək perspektivi nədən ibarətdir. O kommunike artıq sentyabr ayının 8-də dərc olunub, mətbuatda var, mən bunu sizə çatdırmaq istəmirəm. Bəlkə, xarici işlər naziri Həsən

Həsənov çıxış edəndə, bu kommunikeni rəsmən sizə təqdim etmək üçün mən rica edirəm ki, kommunikenin mətnini oxusun. Ancaq bu kommunikedə bir əsas məsələ var, bunu mən sizə çatdırmaq istəyirəm, o haqda da münasibət bildirilməlidir. O da ondan ibarətdir ki, keçən ilin oktyabr ayında Azərbaycanla Rusiya arasında bağlanmış müqavilə bir tərəfdən, Azərbaycan–Rusiya arasındakı münasibətləri istənilən səviyyədə təmin etmir, belə bir fikirdəyik. Biz müəyyən qədər bu müqaviləyə nəzər saldıq və az da olsa təhlil edə bildik, onu başqa müqavilələrlə də müqayisə etdik. Ona görə də kommunikedə belə bir fikir söylənildi ki, gələn görüşdə, ola bilər, Rusiya ilə Azərbaycan arasındakı münasibətlərin daha da inkişaf etmiş səviyyəyə qaldırılması üçün daha bir ciddi sənəd imzalana bilər. Bu fikir də bu kommunikedə göstərilib, mən bunu sizə çatdırıram ki, Məclis üzvləri bu məsələyə öz münasibətlərini bildirsinlər.

Bildiyiniz kimi, həmin gün Rusiyanın xarici işlər naziri Andrey Kozırevlə, sonra parlamentin başçısı Ruslan Xasbulatovla və günün axırında müdafiə naziri Pavel Qraçovla bizim görüşlərimiz oldu. Bu görüşlərimiz də çox məhsuldar, məzmunlu oldu və bu görüşlərə xeyli vaxt sərf olundu. Demək olar ki, biz bütün məsələləri müzakirə etdik. Xarici işlər naziri Andrey Kozırev və müdafiə naziri Pavel Qraçov bildirdilər ki, mənim Prezident Boris Yeltsinlə görüşümdən sonra o, həm xarici işlər naziri Andrey Kozırevə, həm də müdafiə naziri Pavel Qraçova xüsusi göstərişlər verib və bizim danışıqlar o göstərişlər əsasında gedirdi.

Andrey Kozırevlə və Pavel Qraçovla olan danışıqlar, birinci növbədə, şübhəsiz ki, Azərbaycanla Rusiya arasında münasibətlərin yaxşılaşması, genişlənməsi, inkişaf etməsi barədə olmuşdur. Eyni zamanda Boris Yeltsinlə bizim apardığımız danışıqların mövzuları, yəni iqtisadi əlaqələr, xüsusən Azərbaycan–Ermənistan arasında müharibə və bu müharibənin dayandırılması, atəşin kəsilməsi, sülh danışıqlarının aparılması, erməni silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş torpaqlarından çıxarılması məsələləri müzakirə olunurdu. Şübhəsiz ki, bizim Andrey Kozırevlə, Pavel Qraçovla ümumi danışıqlarımızdan əlavə mənim onlarla təkbətək danışıqlarım da oldu, bu danışıqlarda məsələlər daha da açıqcasına müzakirə edildi və bu nəticəyə gəlindi ki, Azərbaycanla Ermənistan arasında gedən müharibədə Rusiya öz fəal rolunu göstərməyə hazırdır, ancaq Azərbaycan indiyə qədər bu barədə Rusiyanın roluna lazımi qiymət verməyib. Ona görə də Rusiya bu barədə, bəlkə də, bizim istədiyimiz kimi iştirak etməyib. Amma eyni zamanda – bunu siz televiziyadan da, Pavel Qraçovun mətbuat nümayəndələrinə verdiyi məlumatdan da,

yəqin, eşitdiniz – onların narazılığı ondan ibarət olmuşdu ki, xüsusən Azərbaycan Müstəqil Dövlətlər Birliyinə, orada mövcud olan Kollektiv təhlükəsizlik müqaviləsinə daxil deyil, Ermənistan isə daxildir. Ona görə də Rusiyanın Ermənistana kömək etməsi – bunu tam açıq deməsələr də, sözlərindən belə çıxdı – təbii bir haldır. Çünki onların müqaviləsi var.

Ancaq onu da sizə çatdırmaq istəyirəm ki, Ermənistan Respublikası 1991-ci ilin mart ayında Sovetlər İttifaqının saxlanılması haqqında referendumda iştirak etmədi və Sovetlər İttifaqının saxlanmasına səs vermədi. Azərbaycan referendumda iştirak etdi və Sovetlər İttifaqının saxlanmasına səs verdi. Sovetlər İttifaqı dağılan kimi – xatirinizdədirsə, bu, 1991-ci ilin dekabr, yaxud noyabr ayında baş verdi – 20 gün sonra Ermənistan Rusiya ilə dostluq əlaqələri haqqında müqavilə bağladı. Bu müqavilədə belə bir müddəa var ki, Ermənistanla Rusiya bir-birinin təhlükəsizliyini təmin etmək üçün öz üzərilərinə öhdəliklər götürürlər.

Azərbaycan vaxtilə Sovetlər İttifaqının saxlanmasının tərəfdarı oldu və bunun nəticəsi də nə oldu, bunu bilirsiniz. Sovetlər İttifaqı dağılandan, Azərbaycan öz müstəqilliyini əldə edəndən sonra, əgər Ermənistan Rusiya ilə müqaviləni 1991-ci ilin dekabrında bağladısa, Azərbaycan Rusiya ilə müqaviləni 1992-ci ilin oktyabr ayında bağladı və bu müqavilədə Ermənistanla Rusiya arasında təhlükəsizliyə aid olan o müddəa yoxdur. Bu incəlikləri sizə çatdırmaq istəyirəm, çünki bunları bilmək lazımdır. Məclis üzvləri, bizim parlament bu barədə məlumat alandan sonra, yəqin ki, Azərbaycanın apardığı xarici siyasətin nə qədər düzgün, nə qədər sağlam və Azərbaycanın müstəqilliyini təmin etmək üçün nə qədər yararlı olduğunu daha düzgün qiymətləndirə bilərlər. Mən bu sözləri deyərək bir də qeyd etmək istəyirəm ki, Azərbaycan müstəqil dövlətdir, Azərbaycan öz müstəqilliyini əldə edib və bu müstəqillik Azərbaycan üçün böyük bir tarixi hadisədir. Ancaq müstəqillik eyni zamanda müstəqil dövlət kimi, bütün dövlətlərlə bərabərhüquqlu əlaqələr saxlanmasını tələb edir.

Mən bu mövzuya bir də qayıdacağam, ancaq indi Rusiya ilə əlaqədar olaraq bu məsələni bir də bildirmək istəyirəm ki, bu əlaqələrin Rusiya ilə, başqa qonşu dövlətlərlə, yaxud ərazi nöqteyi-nəzərdən Azərbaycandan uzaq olan dövlətlərlə Azərbaycan üçün nə qədər mənfəətli olub-olmamasını gərək Azərbaycanın xarici siyasəti, dövlət siyasəti düzgün təyin eləyə bilsin. Bu səbəblərə görə də mən belə anladım, Müdafiə Nazirliyində bizə dedilər və bu, məlumdur ki, Ermənistanda Rusiyanın qoşunları var. O qoşunlar Ermənistanda artıq Rusiyanın hərbi bazası statusunu

alıblar, hətta bilmirəm, nə qədər dəqiqdir, belə deyirlər ki, Ermənistan Respublikası o qoşunların saxlanılma xərcini tamamilə öz üzərinə götürüb. Onlar da, şübhəsiz, Rusiya ilə Ermənistan arasındakı münasibətlərin daha da yaxın olması üçün şərait yaradıb.

Dünən Moskvadan "Ostankino" telekompaniyasının "İtoqi" verilişində bizim orada görüşlərimiz haqqında, Türkiyənin Baş naziri Tansu Çillərin Moskva səfəri haqqında məlumat veriləndən sonra bir icmalçı çıxış elədi – düzdür, o, bir neçə təhrifə də yol verdi, bunu, bilmirəm, siz izlədiniz, ya izləmədiniz – belə bir söz söylədi ki, guya Azərbaycanla Ermənistan arasında hərbi münaqişə gücləndikcə, Türkiyə Ermənistan tərəfinə hərbi hissələr toplayır, qoşunlar yığır, filan, beşməkan eləyir. Ancaq eyni zamanda icmalçı da qorxuducu bir xəbərdarlıq etdi, ancaq Türkiyə də nəzərə alır ki, Rusiyanın Gürcüstanda iki, Ermənistanda bir motoatıcı diviziyası var, əgər Türkiyə oraya qoşun çıxarırsa, Rusiya da orada var. Bilirsiniz, şübhəsiz, icmalçı, bəlkə də bu məsələni qızışdırmaq, kimisə qorxutmaq üçün deyirdi – sir-sifətindən görsənirdi ki, hansı millətə mənsub olan adamdır, bunu da, yəqin, müəyyən eləmək çətin deyil – ancaq bunların hamısını nəzərə almamaq, sadəcə olaraq, bir məhdudiyyət, qapalı çərçivə içərisində çarpışmaq, vuruşmaq, toqquşmaqdır. Elə müstəqil qışqıra-qışqıra dünya siyasətindən təcrid olmaq Azərbaycanı gətirib bu vəziyyətə salıb. Bir sözlə, Andrey Kozırevlə və Pavel Qraçovla danışıqlarımızın ümumi mövzusu bundan ibarət oldu və o danışıqlarda eyni zamanda, Azərbaycanın Müstəqil Dövlətlər Birliyinə münasibəti məsələsi qaldırıldı və buna burada apardığımız müzakirələr və bizə verilən səlahiyyətlər əsasında münasibət bildirildi. Siz bunu eşitdiniz, mən bu danışıqların çoxunu açmaq istəmirəm, ancaq bir şeyi ki televiziyada eşitmisiniz, bunu sizə desəm, şübhəsiz, sirr açmıram...

Andrey Kozırev danışıqlarla yanaşı, bizim nümayəndə heyətinə yemək də verdi, bu da bir protokol əlaməti idi, bunu, sadəcə olaraq, məlumat kimi sizə çatdırmaq istəyirəm. Andrey Kozırevlə görüşəndən sonra biz Rusiyanın parlamentində olduq. Parlamentdə Ruslan Xasbulatovla çox geniş söhbətimiz oldu, mən bizim hərbi qulluqçular haqqında olan qərarımızı və məktubumuzu ona təqdim etdim, o çox məmnuniyyətlə qəbul etdi. Ruslan Xasbulatov parlament tərəfindən Azərbaycanla Rusiya arasında münasibətlərin genişlənməsi üçün səylər göstərəcəyinə söz verdi və eyni zamanda Azərbaycanla Ermənistan arasındakı müharibə ilə bağlı parlamentin fəaliyyətinin bundan sonra gücləndirilməsi haqqında da söz verdi.

Eyni zamanda Ruslan Xasbulatov məsələ qaldırdı ki, vaxtilə Rusiya parlamenti bir neçə dəfə Azərbaycan parlamentinə nümayəndə heyəti göndərib, parlamentlərarası ittifaq yaratmaq təşəbbüsündə olub. Ancaq çox təəssüflə qeyd etdi ki, Rusiya parlamentinin bu təşəbbüsü nəticəsiz qalıb, Azərbaycan parlamenti bu təşəbbüsə heç baxmayıb, müzakirə etməyib, cavab verməyib. Qeyd etdi ki, sizin özünüz bilərsiniz, ancaq Azərbaycan Respublikasının parlamenti ilə Rusiya parlamenti arasında parlament ittifaqının yaranmasının Azərbaycana nə kimi zərəri ola bilər, əksinə, bunun xeyri ola bilər. Belə bir parlamentlərarası ittifaq çərçivəsində Azərbaycan parlamentinin üzvləri gəlib Rusiya parlamentində çıxışlar edə, öz mövqeyini bildirə bilər və xüsusən Ermənistanın təcavüzü haqqında öz mövqelərini bildirə bilərlər. O, çox təəssüflə qeyd etdi ki, Azərbaycan nə üçün özünü bu imkanlardan da məhrum edib, dedi, mən bunu anlaya bilmirəm. Bildirdi ki, parlament daim Azərbaycan Respublikasına müsbət münasibət göstərməyə çalışıb, yalnız Azərbaycan parlamenti nədənsə bu təşəbbüslərə cavab verməyibdir və bu məsələlər də həll olunmamış qalıbdır. Mən orada söz verdim və güman edirəm ki, bizim parlament bunu müdafiə edəcəkdir və bu gün bu məsələni qərarımızda da qeyd etməliyik. Xahiş edirəm, katiblik bunu nəzərə alsın ki, qərar hazırlananda bu müddəa ora salınsın. Biz bu məsələyə mütləq müsbət münasibət bildirməliyik.

Rusiya parlamenti ilə Azərbaycan parlamenti arasında parlamentlər ittifaqı yaratmalıyıq və Rusiya parlamentinin bu imkanlarından biz səmərəli istifadə etməliyik. Doğrudan da, Rusiyanın parlamenti bizim üçün böyük bir tribunadır, bilirsiniz ki, çox döyüşkən parlamentdir, orada cürbəcür qruplar, cürbəcür fraksiyalar var, onların öz daxili işidir, ancaq hər halda, Rusiyanın ictimai-siyasi həyatında Rusiyanın parlamenti indi çox geniş fəaliyyət göstərir və Rusiya ictimaiyyətinin böyük diqqət mərkəzindədir. Belə bir imkandan, belə bir tribunadan, məclisdən istifadə etmək bizim üçün həmişə faydalı olar. Buna biz nə üçün getməmişik, bilmirəm, ancaq öz tərəfimdən buna cavab verə bilərəm. Cavab ondan ibarətdir, bizim Azərbaycan Respublikası müstəqillik əldə edəndən sonra, xüsusən bu son dövrdə müstəqilliyimiz yalnız ondan ibarətdir ki, biz içimizdəyik, kənardan heç kəsi qəbul eləmək istəmirik, heç kəslə əlaqə saxlamaq istəmirik, biz özümüz özümüzdən savayı heç kəsi saymırıq, heç kəsi özümüzdən üstün hesab etmirik. Bax bu xəstəlik, heç də müstəqilliyi təmin etməyən və xüsusən bu son ildə Azərbaycan parlamenti və dövlət rəhbərliyində hökm sürən bu xəstəlik, çox təəssüf, Azərbaycanı

bu imkanlardan da təcrid edibdir. Mən hesab edirəm ki, verdiyim məlumatlar bu fikirləri tamamilə sübut edir.

Sonra, ikinci gün Rusiyanın Baş nazirinin müavini Sergey Şaxrayla görüşdük. Bilirsiniz ki, Sergey Şaxray həm Baş nazirin müavinidir, həm də Rusiya Federasiyasında Millətlərarası Münasibətlər Komitəsinin sədridir. Ona görə də onunla bizim görüşümüz çox lazımlı bir görüş idi və bütün bu məsələləri biz onunla da müzakirə etdik. Sergey Şaxray da bizim fikirlərimizi obyektiv qəbul etdi və öz tərəfindən bildirdi ki, bu məsələlərin həll olunmasında mühüm rol oynamağa çalışacaqdır. Onun bir təklifi olmuşdur, o təklifə də biz müsbət münasibət göstərdik ki, razılıq olarsa, Cənubi Qafqaz respublikaları – Gürcüstan, Azərbaycan, Ermənistan və Rusiya respublikalarının nümayəndələri görüşsünlər və bəzi məsələləri müzakirə etsinlər. Mən belə bir görüşün əleyhinə deyiləm, bu mənim şəxsi fikrimdir. Bu məsələ müzakirə olunmayıbdır, ancaq Sergey Şaxray tərəfindən irəliyə sürüldüyünə görə mən buna müsbət münasibət bildirdim, güman edirəm ki, parlament də bu məsələyə baxıb öz münasibətini deyə bilər. Hesab edirəm ki, Rusiya ilə ikitərəfli münasibət bizim üçün heç də zərər verməz, Gürcüstan Respublikası ilə də münasibətlərimiz pis deyil. Bildiyiniz kimi, Gürcüstanın rəhbəri Eduard Şevardnadze bura gəlmişdi, onunla görüş, söhbətlər olmuşdur, onların nümayəndələri bir neçə dəfə buraya gəliblər, ona görə də əgər belə bir təklifi həyata keçirə bilsək, bizim parlament buna razılıq versə, biz bundan heç bir şey itirmərik.

Baş nazir Viktor Çernomırdinlə danışıqda Azərbaycan Respublikasının nümayəndə heyəti, demək olar ki, bütün tərkibdə iştirak etdi. Yəni mənimlə yanaşı, Baş nazirin müavini Abbas Abbasov, xarici işlər naziri Həsən Həsənov, maliyyə naziri, bizim dövlət bankının prezidenti və başqa şəxslər iştirak etdilər. Rusiya tərəfindən çox geniş nümayəndə heyəti var idi. Viktor Çernomırdinlə ətraflı söhbət apardıq, burada da eyni mövzulara toxunuldu. Birinci, ümumiyyətlə, Rusiya ilə Azərbaycanın münasibətlərinin inkişaf etməsi, genişlənməsi, xüsusən iqtisadiyyat sahəsində. İkinci, Azərbaycanla Ermənistan arasında gedən müharibə və bu müharibənin dayandırılması, işğal olunmuş torpaqlardan Ermənistanın silahlı qüvvələrinin çıxması və danışıqların aparılması. Üçüncü, Müstəqil Dövlətlər Birliyinə Azərbaycanın münasibəti və başqa məsələlər.

Mən sizə çatdırmaq istəyirəm ki, bütün görüşlərdə mən geniş, böyük miqyaslı xəritədən istifadə edirdim və bildirmək istəyirəm ki, o xəritədə bütün bu mənzərəni həm Rusiyanın Prezidentinə və bütün başqa gö-

rüşdüyümüz dövlət orqanlarının rəhbərliyinə göstərəndə, bilirsiniz, bu daha güclü təsir bağışlayırdı və Ermənistan silahlı qüvvələrinin Azərbaycana təcavüzünün miqyasını və nəticələrini əyani surətdə göstərirdi. Çernomırdinin yanında da bu nümayiş etdirildi və orada iqtisadi məsələlərə dair bir neçə danışıqlar aparıldı, hətta bir müqaviləyə dərhal imza atıldı. Mən söz verəcəm, Baş nazirin müavini Abbas Abbasov geniş məlumat verəcəkdir.

Sonra Viktor Çernomırdinlə bizim təkbətək söhbətlərimiz oldu, orada da mən bu məsələlər haqqında çox ciddi danışıqlar apardım. Hesab edirəm ki, bu danışıqlarımız da çox əhəmiyyətli və səmərəlidir. Moskvanın meri, yəni Moskva hökumətinin başçısı Yuri Mixayloviç Rıjkovla da bizim görüşümüz oldu. Bildiyiniz kimi, Yuri Mixayloviç Rıjkov bundan öncə Bakıya gəlmişdi, burada biz onunla danışıqlar aparmışdıq, Moskva hökuməti ilə Azərbaycan arasında müstəqil müqavilə bağlamışdıq, bu müqavilə həm bizim tərəf üçün, həm də Moskva üçün çox əhəmiyyətli bir müqavilədir və bu müqavilə artıq indi həyata keçirilir. Yenə də deyirəm, iqtisadi nöqteyi-nəzərdən və eyni zamanda Moskva ilə Azərbaycan arasında mədəni, elmi, texniki əlaqələrin genişlənməsi, inkişaf etdirilməsi üçün onun çox xeyri ola bilər. Ona görə də biz Yuri Mixayloviç Rıjkovla da görüşdük, söhbətlər apardıq və o da Azərbaycanın mənafelərini müdafiə etmək üçün bütün imkanlarından istifadə edəcəyinə söz verdi, Rusiya rəhbərləri ilə görüşlərimiz əsas bundan ibarət oldu.

Bir neçə dəfə şəxsən mənim rəhbər adamlarla, Rusiyanın siyasi xadimləri, indi Rusiyanın siyasi həyatında rol oynayan şəxslərlə şəxsi görüşlərim oldu. Bu görüşlər də, mənə belə gəlir, Azərbaycanın indiki vəziyyətini Rusiya ictimaiyyətinə, siyasi dairələrinə, Rusiyada fəaliyyət göstərən ayrı-ayrı partiyalara daha dəqiq çatdırmaq üçün bir vasitə idi və mən bu vasitədən də istifadə etdim. Hesab edirəm ki, bu görüşlər də faydalı idi.

Bir nəticəni qeyd etmək istəyirəm ki – biz bunu əvvəl də hiss edirdik, indi də hiss edirik – Azərbaycan bir tərəfdən informasiya blokadasındadır, ikinci tərəfdən də Azərbaycan özü özünü informasiya blokadasına salır. Azərbaycana düşmən münasibət bəsləyən dövlətlər, siyasi qurumlar, yaxud düşmən yox, mənfi münasibət göstərən dövlətlər, qurumlar, ayrı-ayrı dövlətlərin tərkibində olan dairələr Azərbaycanın məhdud vəziyyətdə saxlanması, Azərbaycanda olan həyati gerçəkliyin, vəziyyətin dünya miqyasında çatdırılmasına maneçilik törədirlər, bu, təbii bir haldır. Çünki siz bunu yaxşı bilirsiniz, əgər Azərbaycan beş ildən artıqdır

qonşusu Ermənistanla müharibə şəraitindədirsə, Ermənistanın bütün dünya miqyasında informasiya və lobbi imkanları çox genişdir, belə bir halda Azərbaycan buna münasib olmasa da, bunu nəzərə alaraq gərək öz imkanlarını bu müddətdə genişləndirəydi və çalışaydı ki, o səviyyəyə çatmasa, heç olmasa, müəyyən səviyyəyə çatsın. Azərbaycanın düşdüyü bu ağır, çətin vəziyyətdən, Azərbaycanın, demək olar ki, Ermənistan tərəfindən hərbi təcavüzə məruz qalması və buna yardım edən dövlətlər tərəfindən tamamilə əzilməsi və başqa hallar dünya ictimaiyyətinə, başqa dövlətlərə məlum olsun, çatdırılsın. Bu baxımdan, əgər başqa dövlətlərdə, tutaq ki, Amerikada, Fransada bizim imkanlarımız o qədər geniş deyilsə, Rusiyada imkanlarımız, bəlkə, Ermənistanın imkanları qədər deyilsə də, yenə də var, ancaq çox təəssüf, bunlardan istifadə olunmayıb. Biz, sadəcə, hesab eləmişik ki, elə Sovet imperiyasını, Rusiyanı söyməklə, rus imperiyası iki yüz ildir Azərbaycanı istismar etdi, kölə vəziyyətində saxladı, deməklə hər şeyi uduruq. Bu sözlərdə həqiqət var, bu sözləri deyən adamlara mən irad tutmuram, ancaq bunlarla da biz indi özümüzü bu vəziyyətdən xilas edə bilmirik. Ona görə də vəziyyətimizin bütün başqa sahələri ilə yanaşı, ən dəhşətli vəziyyət ondan ibarətdir ki, biz bir tərəfdən bizə mənfi münasibət göstərən, düşmən olan qüvvələr tərəfindən məhdudlaşdırılmışıq, yəni bizim imkanlarımız çox sıxılıbdır, daralıbdır. İkinci tərəfdən də biz bu informasiya blokadasını yarmaq, ondan çıxmaq və dünya miqyasında, o cümlədən Rusiya kimi böyük bir dövlətin, Rusiya ictimaiyyətinin, Rusiya informasiya orqanlarının imkanlarından istifadə edərək Azərbaycanın həqiqi vəziyyətini həm Rusiyada, həm də bütün dünyada tanıtmaq, bildirmək, təbliğ etmək üçün az fəaliyyət göstərmişik, demək olar ki, heç fəaliyyət göstərməmişik.

Bəzən dardüşüncəli, xəyalət təfəkkürü ilə yaşayan adamlar belə hesab edirlər ki, bəli, gedib Rusiyanın siyasi xadimi ilə görüşsən, danışsan, bu, qəbahətdir, bu, günahdır, sən Rusiyaya satıldın, sən Rusiyanın, nə bilim, agentisən, yaxud sən, nə bilim, Azərbaycana xəyanət edirsən, filan edirsən, beşməkan edirsən. Bilirsiniz, ancaq xəyalət təfəkkürü ilə yaşayan adamlar belə düşünə bilər. Çünki indiki dövrdə Azərbaycanın siyasətində xəyalət təfəkkürü, öz-özünü təcrid etmək təfəkkürü üstündür. Ona görə də dünya bizi nəinki az tanıyır, bəlkə, bəzi yerlərdə heç tanımırlar da. Ona görə də biz Moskvada olan vaxt, imkan dairəsində o şəraitdən istifadə edib, Azərbaycandakı vəziyyəti müəyyən qədər təbliğ etməyə çalışdıq. Mən bunu bizimlə gedən şəxslərə də tövsiyə etmişdim, özüm də bu sahədə müəyyən işlər görməyə çalışdım və buna görə də bə-

zi siyasi xadimlərlə də qeyri-rəsmi görüşlərim oldu. Görüşlərdə məqsəd ancaq və ancaq Azərbaycanın indiki belə ağır vəziyyətini anlatmaq, ədalət və həqiqi demokratiya naminə Azərbaycana müsbət münasibət göstərilməsinə nail olmaq idi.

Müstəqil Dövlətlər Birliyinə daxil olmaq məsələsi, mən dediyim kimi, bütün görüşlərdə öz əksini tapmışdır və bilirsiniz, mətbuat konfransında da bu barədə suallar verildi. Mən görürəm, Azərbaycanda da müəyyən təbəqələr arasında müəyyən rəy irəliyə sürülür, hətta indi Xalq Cəbhəsi başqa bir şey tapa bilmir, xalqı mitinqlərə dəvət edir və ona görə bizi ittiham etmək istəyir və sair. Ona görə də bu məsələ tamamilə açıqlanmalıdır, ola bilər, bu gün də, sabah da bu məsələyə tam aydın münasibət bildirilməlidir.

Mən öz fikrimi deyirəm, Azərbaycan müstəqil dövlətdir, heç vaxt öz müstəqilliyinə zərər toxundurmağa, zərbə vurmağa imkan verməməlidir, yəni Azərbaycan öz müstəqilliyini daim qorumalı, inkişaf etdirməli, tam müstəqilliyə nail olmalıdır. Müstəqillik bir ondan ibarət deyildir ki, müstəqillik bayrağı qaldırıldı, yaxud elan olundu ki, Azərbaycan müstəqil dövlətdir, yox, mən qeyd etmişəm və bir də qeyd edirəm, müstəqilliyi təsdiq edən dövlət atributları var. Dövlətin dövləti qorumaq imkanına malik olan ordusu olmalıdır, ancaq müstəqillik, müstəqillik qışqıran adamlar bu 5 il müddətində bu ordunu yarada bilməyiblər. Xüsusən 1990-cı ildən sonrakı dövrdə, demək olar ki, tam müstəqilliyini əldə edəndən və Xalq Cəbhəsinin qüvvələri 1992-ci ilin, demək olar ki, mart ayından hakimiyyətə gələndən sonra ordunu yarada bilmədiyindən Azərbaycan Ermənistanla aparılan müharibədə məğlubiyyətlərə uğrayıbdır.

Əgər Azərbaycanın müstəqilliyini sübut edən, təmin edən və qoruyan ən böyük atributlardan biri olan ordusu yoxdursa, demək, bu müstəqillik hələ tam müstəqillik deyildir.

Azərbaycanın müstəqilliyini təmin edən atributlardan biri xarici siyasətdir. Azərbaycanın sağlam, düşünülmüş, uzaqgörən xarici siyasəti olmalıdır. Elə xarici siyasəti olmalıdır ki, Azərbaycanı dünya dövlətləri birliyinə bağlasın, bütün dövlətlərlə əlaqəsini, mənafeyini təmin etsin və Azərbaycanın yalnız de-yure yox, dünya miqyasında, həqiqətən, bir müstəqil dövlət kimi tanınmasını təmin edə bilsin. Azərbaycanın indiyə qədər belə sağlam, düşünülmüş xarici siyasəti olmayıbdır, Azərbaycanın xarici siyasətini aparmaq üçün xarici siyasət aparatı yoxdur. Azərbayca-

nın, şübhəsiz, xarici siyasəti, onun strategiyası dövlət tərəfindən təyin olunur, onun konkret addımları dövlət tərəfindən təmin olunur, ancaq bu xarici siyasətin aparılması üçün təkliflərin hazırlanması, işlənilməsi, dövlətə təqdim olunması bu aparat tərəfindən təmin olunur. Nədir bu aparat, Xarici İşlər Nazirliyi. Azərbaycanda Xarici İşlər Nazirliyi sıfırdır, parlamentin xarici işlər üzrə komissiyası nədən ibarətdir, üç-dörd nəfərdən, hansı bir önəmli təklif veribdir, hansı təşəbbüslərdə bulunub, Azərbaycanın xarici siyasətinin əsas istiqamətləri parlamentdə bir dəfə də olsun müzakirə olunubmu? Parlament bu məsələlərə öz fikrini bildiribmi? Məsələn, bir neçə müqavilə bağlanıbdır, keçən il elə oktyabr ayında Rusiya ilə müqavilə bağlanıbdır, bu, parlamentə təqdim olunubmu? Parlament buna baxıbmı? Parlament buna münasibət göstəribmi? Ancaq onu deyə bilərəm ki, Rusiya parlamentində baxılmayıbdır. İndi bunun səbəbləri nədir? Ona görə də, demək olar ki, Azərbaycanın müstəqilliyini sübut edən, yaxud təmin edən əsas atributlardan biri – xarici siyasət və onun aparatı ən aşağı bir səviyyədədir.

Azərbaycan əgər xarici siyasət aparmaq istəyirsə, Azərbaycanın xarici ölkələrdə güclü səfirlikləri olmalıdır. Bəli, bir neçə ölkədə səfirliklər yaradıblar, ora Xalq Cəbhəsinin heç səriştəsi olmayan adamlarını doldurmaqla, onlara, sadəcə olaraq, vəzifə verməklə bu xarici siyasəti aparmaq olarmı? Bizim İranda bu dəqiqə səfirliyimiz qalıbdır, bu gün səhər mənim yanıma İranın səfiri gəlibdir, deyir ki, qurtarın bu səfirliyi, orada bir-biri ilə vuruşurlar. 4-5 nəfər adam göndərilib ora, Xalq Cəbhəsinin üzvləridir, kimlərdir, nə bilim, bu onunla vuruşur, o bununla vuruşur, bir-biri ilə dava aparırlar. İranda o səfirlik yaranmamışdan dağılmışdır, deyir, xahiş eləyirik, sizin orada səfirliyinizə bir adam göndərin, oranı təmizləyin, viza vermirlər, filan vermirlər, camaat orada qalıbdır. Bu cür xarici siyasət olmaz. Bizim üçün ən yaxın dövlətdir, yəni sərhəd, iqtisadi əlaqələr, insani əlaqələr etibarilə ən yaxın dövlətdir. Birinci, orada səfirlik bu son vaxtlar yaranıb, ikincisi, yaranandan da ora dağılır.

Elə Türkiyəni, bizim oradakı səfirliyimizi götürək, səfir bir neçə dəfə mənə telefon eləmişdir, deyir ki, Xalq Cəbhəsinin neçə nəfər heç bir səriştəsi olmayan adamını gətirib doldurublar bura, bunlar da bir iş görmək əvəzinə, gedib orada cürbəcür təşkilatlarla əlaqəyə giriblər, nə bilim, Azərbaycanın əleyhinə işlər görürlər. Bilirsiniz, indi geri çağırmaq çətin deyil, hər bir şey eləmək olar, ancaq mən sizə vəziyyəti izah edirəm. Bizim üçün ən yaxın, necə deyərlər, qardaş ölkə Türkiyədə bizim səfirliyimiz var, o cümlədən İstanbulda olan konsulluğumuz. Mən o konsula

bir-iki dəfə telefon elədim, dedim, konsulun ixtiyarı yoxdur, gedib mitinqlərdə çıxış eləsin, sən, ola bilər ki, Xalq Cəbhəsinin mitinqlərində çıxış edirdin, şair idin, şeir oxuyurdun, filan eləyirdin, konsul dövlət işçisidir, konsulun ixtiyarı yoxdur, gedib o mitinqdə, bu mitinqdə çıxış eləsin. Bu gün Xanım bir mitinq çağırır, nə bilim, o birisi gün başqa bir adam mitinq çağırır, gedib mitinqlərdə şeir oxusun, yaxud çıxışlar eləsin, ayıb deyilmi, bu, dövləti ləkələyir. Hansı müstəqil dövlətdən söhbət aparmaq olar ki, oraları bazara döndəriblər.

Başqa ölkələrdə isə bizim səfirliyimiz yoxdur. Vaşinqtonda bizim səfirliyimiz var, yoxdur, mən bilmirəm. Azdan-çoxdan Birləşmiş Millətlər Təşkilatında bizim nümayəndəmiz Həsən Həsənov orada fəaliyyət göstərirdi, onu da dartıb gətirdik bura, o da belə. İndi baxın, ay qardaşlar, ay müstəqillik uğrunda bar-bar bağıranlar, bəs siz guya bu müstəqilliyi 70 il gözləmisiniz, indi əlinizə keçibdir, niyə bu aparatı yaratmamısınız, nə üçün bu müstəqillik üçün bu işləri görməmisiniz? Yaxud elə götürək bizim Moskvada olan təmsilçimizi. Daimi nümayəndəliyimiz kimlərdən ibarətdir, ancaq burada bir prinsip var, Xalq Cəbhəsinin üzvü olsun. Bir nəfər adam göndərmişdilər ora, deyirlər, bu, ömründə elmi institutda laborant vəzifəsindən yuxarıya qalxmayıb, indi gedib Rusiya kimi böyük bir dövlətdə Azərbaycan Respublikasının müstəqilliyini təmsil edir. Qabaq belə olub da, böyük vəzifələrdə əvvəl laborant vəzifəsində işləyən adamlar olub, Baş nazir də vaxtı ilə laborant olubdur, nə bilim, Fəlsəfə İnstitutunda laborant olubdur, heç olmasa, bir baş elmi işçi olsaydı, deyərdim ki, baş elmi işçi vəzifəsinə gəlib çatıb.

İndi bu da, deyirlər, nə bilim, Botanika İnstitutunda haradasa laborant imiş, nə imiş, gəlib sonra Xalq Cəbhəsində orada meydanda danışıb, filan eləyib, indi gedib oturub Moskvada, nə ilə məşğuldurlar? Sonra daimi nümayəndə göndərmişik – professor, Akademiyanın üzvü, böyük bir institutun rəhbəri Ramiz Rzayevi, qısa müddətdə çox böyük işlər görüb. Nə üçün görə bilib, çünki bu adam uzun illərdir böyük bir kollektivə, Akademiyanın böyük bir institutuna rəhbərlik eləyir, bu adam uzun illərdir böyük bir elmi idarənin, Akademiyanın tərkibində akademik kimi fəaliyyət göstərir. Əlbəttə ki, bunun səviyyəsi də, dünyagörüşü də var, bu, Rusiyanın da, Türkiyənin də, İngiltərənin də, Amerikanın da yerini bilir. Ancaq bu, nə var, nə yox ki, Xalq Cəbhəsindəndir, götür göndər, o da gedib orada naməlum işlərlə məşğuldur. Bir o deyil ki.

Vaxtilə Moskvada böyük bir mehmanxana tikdirdik, indi, bağışlayın, mən özümü tərifləmək istəmirəm, nə qədər mən əziyyət çəkdim o daimi

nümayəndəliyin binasını yaratmaq, mehmanxana tikdirmək üçün. Birini tikdirdik, balaca oldu, ondan sonra böyük bir mehmanxana tikdirmək qərarına gəldik. Burada, Azərbaycanda işləyəndə Moskvanın rəhbərliyinin, Moskva Partiya Komitəsinin katibinin, Moskva Sovetinin sədrinin, hətta SSRİ-nin rəhbərlərinin yanına getdik ki, orada bizə yer versinlər, mehmanxana tikdirək, bizim adamlar getsinlər, qalsınlar. İndi onun yarısından çoxunu veriblər kommersiya strukturlarına, bəs belə də şey olar, satıblar. Düzdür, həqiqət naminə demək lazımdır, bunu əvvəlkilər də, Mütəllibovun vaxtında da satıblar, bunlar da eyni istiqamətlərdə hərəkət ediblər, bu məsələlərdə müxalif fikirlər yoxdur, bu məsələlərdə eyni istiqamətdir, indi bu cür siyasət aparmaq olmaz. Ona görə də əgər müstəqillikdən danışırıqsa, bizim xarici siyasətimiz həm dövlət səviyyəsində, demək istəyirəm, dövlət başçısı səviyyəsində, həm parlament səviyyəsində, həm də Xarici İşlər Nazirliyi səviyyəsində sıfır dərəcəsindədir.

Həsən Həsənovu ora təqdim eləyəndə mən getdim, axı burada kim var, parlamentdə də demişdim, düzdür, orada adam çoxdur, zalda oturmuşdular, amma kim nə işlə məşğuldur məlum deyil. İndi Həsən Həsənov da gəlib mənə məlumat verir ki, nə qədər burada çətinliklərlə rastlaşıb, çünki çox işlər görmək lazımdır. Ona görə də biz müstəqilliyimizi təmin etmək üçün gərək ağıllı, düşüncəli siyasət aparaq. Bu baxımdan, mən, sadəcə olaraq, bir neçə mövzuya toxundum ki, bu fikrimi dəqiqləşdirim, ancaq, şübhəsiz, Azərbaycanın bütün dövlətlərlə gərək bərabərhüquqlu əlaqəsi olsun, Türkiyə, İran, qonşu Gürcüstan, Rusiya, Amerika, Avropa dövlətləri, ərəb dövlətləri, müsəlman dövlətləri, türkdilli dövlətlərlə də, Orta Asiya dövlətləri ilə də bərabərhüquqlu əlaqələri olmalıdır, ancaq bunlar olmayıbdır.

Orta Asiyanı, Qazaxıstanı Azərbaycan tamamilə silibdir, baxmayaraq ki orada nə qədər azərbaycanlı yaşayır. İndiyə qədər də Özbəkistanda, Qazaxıstanda, Türkmənistanda da rəhbər işlərdə çoxlu azərbaycanlılar işləyib, yaşayırlar, amma biz özümüzü onlardan təcrid etmişik. Rusiyada bir milyona yaxın azərbaycanlı yaşayır, demişik ki, Rusiya bizim düşmənimizdir, Rusiya ilə heç bir əlaqə lazım deyil. Ukrayna ilə guya bir balaca əlaqə düzəltmək istəyirik, bizim Prezident də gedib ora, müqavilə bağlayıb, amma nəticəsi nədir? Belarusiya tamam yaddan çıxıbdır. Amerikaya çox böyük bel bağlamışıq və doğrudan da, bu, düzgün yoldur. Mən bunu inkar etmirəm və mən də bunun tərəfdarıyam və biz də bunu davam edəcəyik, ancaq bununla da münasibətlər axı lazımi səviyyədə olmayıb.

Məsələn, mənə Amerikadan gələn adamlar deyirlər, Amerikanın səfiri də mənə deyir ki, sizin orada lobbiniz olmalıdır. Amerikanın həyatı mətbuatdır, informasiya orqanlarıdır. Orada gərək Azərbaycan təbliğ olunsun, Azərbaycan təmsil olunsun. Elə bir gedib orada səfirin oturmağı ilə Amerikada Azərbaycan tanınmır ki, çox yerdə tanınmır. Həsən Həsənov orada bir il yaşayıb, o, çıxışında yəqin bu barədə daha da geniş məlumatlar verəcək.

Bu baxımdan mən hesab edirəm ki, xarici siyasət sahəsində böyük səhvlər buraxılıbdır və bu səhvlər düzəldilməlidir və xarici siyasətdə dövlətlər həmişə həm ikitərəfli müqavilələr bağlayırlar, həm də cürbəcür ittifaqlara daxil olurlar. Məsələn, təsəvvür edin, Amerika kimi böyük bir dövlət, dünya miqyasında ən güclü bir dövlət təkbaşına hərəkət etmədi, onun bir neçə ittifaqı var. NATO kimi böyük bir ittifaqı, Amerika dövlətlərinin ittifaqı, başqa ittifaqlar. Bu belədirmi? Keçmiş Sovetlər İttifaqını götürün. Varşava müqaviləsi və ayrı-ayrı dövlətlərlə, qrup dövlətlərlə ayrı-ayrı ittifaq. İndi Müstəqil Dövlətlər Birliyi yaranıb, bura keçmiş SSRİ-yə daxil olan, indi müstəqil dövlətlərin bir çoxu daxil olub. Biz ora da daxil olmamışıq.

İndi gəlin xarici siyasətdən danışaq. Azərbaycan hansı ittifaqda var? İslam dövlətlərinin iqtisadi ittifaqında var. Başqa hansı ittifaqda var? Axı bu ittifaqların çoxu, eyni zamanda ortaq kollektiv təhlükəsizlik xarakteri daşıyır. Azərbaycanın hansı dövlətlə ortaq kollektiv təhlükəsizlik müqaviləsi var? Hansı bir ittifaqa, yəni bir birliyə daxil olub ki, orada kollektiv təhlükəsizlik təmin olunsun? Hansı? Göstərin. Yoxdur. Əgər bizim Türkiyə ilə kollektiv təhlükəsizlik müqaviləmiz olsaydı, İranla bir kollektiv təhlükəsizlik müqaviləmiz olsaydı, deyərdik, heç olmasa, qonşularımızla var. İndi təsəvvür edin, Ermənistanla biz beş ildir müharibə aparırıq, Ermənistan həm bu Müstəqil Dövlətlər Birliyinə girib, həm də Rusiya ilə Ermənistan arasındakı müqavilədə kollektiv təhlükəsizlik şərtləri var. Ermənistanın ərazisində Rusiyanın qoşunları hərbi baza statusu alıb. Azərbaycanın ordusu yoxdur, var bəlkə də. Doğrudan da, indi adı var, amma siz bilirsiniz, o nə vəziyyətdədir.

Müdafiə naziri buradadırmı?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Dəvət olunmayıb. Niyə dəvət eləməmisiniz? Mən anlamıram, keçən dəfə soruşdum ki, Həsən Həsənov niyə gəlməyib? Deyir, məni dəvət eləməyiblər. İndi müdafiə naziri burada yoxdur, belə böyük

bir məsələ həll olunur, müdafiə naziri dəvət olunmayıb. Bizim bu Aparat işləmir, bu Ali Sovetin Aparatı işləmir. Dəvət eləyin onu bura. Tez. İndi görürsünüz, bu Ali Sovetin Aparatı da nə vəziyyətdədir. Deməк, sədr bir şey desə, onu edəcəklər, deməsə... Axı təsəvvür edin, mən hər bir şeyi deyə bilmərəm ki, bu adam dəvət olunmalıdır, bu adam dəvət olunmamalıdır. Burada məsələlər müzakirə olunur, bu Aparat bu Məclisin iclasını hazırlayır. Bu bilməlidir ki, müdafiə naziri burada olmalıdır. Ona görə də indi bu məsələləri müzakirə edərkən və o cümlədən Müstəqil Dövlətlər Birliyinə münasibət bildirərkən, mən istərdim ki, bu məsələlərə də siz fikir verəsiniz. Bu vəziyyətə fikir verəsiniz. Əgər bunlara fikir verməsək, yəni Azərbaycan dünya miqyasında öz müstəqilliyini təmin etmək üçün müstəqil xarici siyasət apararaq onu əhatə edən dövlətlərlə və dünyada çox böyük gücə və xüsusi çəkiyə malik olan dövlətlərlə lazımi münasibətlər yarada bilməsə, bir müstəqil dövlət kimi fəaliyyət göstərməkdə çox çətinliklər çəkəcəkdir.

Bizim Müstəqil Dövlətlər Birliyinə olan münasibətimizdən sonra bu məsələ burada müzakirə olunmuşdur, parlamentdə elə bir qəti etirazlar yox idi. Şübhəsiz, ola bilməz ki, hamı eyni fikirdə olsun, bəzi adamlar öz fikirlərini dedilər, amma buna, ümumiyyətlə, parlamentin etirazı yoxdur. Ancaq indi görsənir ki, daha başqa imkan yoxdur, Azərbaycan Xalq Cəbhəsi xalqı yenə də çaş-baş salır, Müstəqil Dövlətlər Birliyinə girmək olmaz, yaxud bu, xəyanətdir, artıq vərəqələr hazırlayıb yazırlar, paylayırlar. Heydər Əliyev xəyanət edir, nə bilim, elə biz deyirdik ki, Heydər Əliyev Azərbaycanı Rusiyaya bağlayacaq, filan eləyəcək, beşməkan edəcək. Bilirsiniz, mən Xalq Cəbhəsinin rəhbərlərinə məsləhət görərdim ki, artıq ağıllarını başlarına yığsınlar. Heydər Əliyev Azərbaycan xalqına heç vaxt xəyanət etməyibdir və heç vaxt da xəyanət etməyəcəkdir. Onu biləsiniz. Heydər Əliyev öz həyatını Azərbaycan xalqının yolunda hər dəqiqə şəhid etməyə hazırdır. Ancaq əgər biz Azərbaycanın müstəqilliyini geniş miqyasda təmin etmək üçün siyasi addımlar atırıqsa və bu addımları da biz təkbaşına yox, parlamentdə müzakirə edib, parlament tribunasından kim nə istəyir, onu desin, ediriksə, daha bu demokratiya imkanlarını qoyub, küçələrə çıxmaq, camaatı mitinqlərə çağırmaq, cavan-cavan qadınları oradan-buradan dartıb gətirib, onların əlinə vərəqə verib, orada-burada yaymaq ki, onları polis orada tutsun, burada tutsun, elə bu özü Azərbaycan xalqına xəyanətdir. Güman edirəm, bu mövzuda mənim verdiyim bu ətraflı məlumat artıq yetər və yəqin, parlament üzvləri bu barədə öz fikirlərini söyləyəcəklər.

Biz müzakirədən əvvəl dedik ki, gündəlikdə üç məsələ var. Bu məsələlərin üçünü də bir yerdə müzakirə etmək üçün mən iki məsələ haqqında da məlumat verim, ondan sonra ümumi müzakirə edərik və xahiş etmişdim ki, Moskva səfəri ilə və başqa məsələlərlə əlaqədar olaraq mənim məlumatımdan sonra Abbas Abbasov və Həsən Həsənov da məlumat versinlər.

İkinci məsələ. Biz Moskvada olarkən Türkiyənin Baş naziri xanım Tansu Çillər sentyabrın 8-də Moskvaya gəldi və o, Moskvaya gəlməmişdən qabaq bizim Ankara ilə əlaqəmiz var idi, onlar bilirdilər ki, mən Moskvadayam və Moskvada görüşmək haqqında bizim danışığımız və razılığımız olmuşdu. Bu razılıq əsasında xanım Tansu Çillər Moskvaya gələndən bir-iki saat sonra bizim onunla görüşümüz oldu. Türkiyənin Baş naziri, xarici işlər naziri, Baş naziri müşayiət edən müşavirləri ilə bizim Türkiyənin səfirliyində görüşümüz oldu. Bu görüşdə mən Türkiyənin Baş naziri Tansu Çillərə Moskva səfəri haqqında geniş məlumat verdim və öz mülahizələrimizi bildirdik. Baş nazir Tansu Çillər o gün Çernomırdinlə və sabahısı gün, yəni sentyabrın 9-da Boris Yeltsinlə görüşməli idi. O da bilirdi ki, bu görüşlərdə Ermənistanın Azərbaycana təcavüzü, Azərbaycanın indiki vəziyyəti çox geniş yer tutacaqdır və bu məsələləri çox kəskin qoyacaqdır. Bizim ümumi görüşümüzdən savayı, təkbətək görüşlərimiz də oldu və bizim bu barədə fikrimiz tamamilə eyni idi və biz eyni istiqamətdə hərəkət edirdik.

Mən hesab edirəm ki, bizim bu görüşümüz Azərbaycan ilə Türkiyə arasındakı olan dostluq və qardaşlıq münasibətlərinin yeni bir mərhələsi, yeni bir addımı idi və bu görüşü xüsusən Türkiyə tərəfi istəmişdi və mən də bu görüşün arzusunda idim. Mən, sadəcə olaraq, onların nə vaxt Moskvaya gəlməyini bilmirdim və öz proqramımızla onların proqramının uyğun gələcəyini bilmirdim. Artıq məlum olandan sonra ki, biz Moskvada nə qədər qalacağıq, Tansu Çillər Moskvaya nə müddətə gələcək, artıq bizim aramızda danışıq oldu və biz müəyyən etdik ki, mütləq görüşməliyik, yəni bu görüş həm Türkiyə tərəfinin təşəbbüsü ilə, həm də bizim, şəxsən mənim təşəbbüsümlə olub. Bu görüşdə biz bir daha Türkiyənin, Azərbaycanın indiyə qədər əldə etdiyi dostluq və qardaşlıq əlaqələrinin bundan sonra möhkəmlənməsi və inkişaf etməsi haqqında bəyanat verdik. Bu barədə bizim danışıqlarımızdan sonra mətbuat nümayəndələri qarşısında Baş nazir Tansu Çillər və mən qısa çıxış etdik və bizim birgə hərəkət etməyimiz, xüsusilə Azərbaycanla Ermənistan arasında müharibə ilə əlaqədar tədbirlərimizin bundan sonra birgə davam

etməsi haqqında razılığımız, danışıqlarımız oldu. Mən Ermənistanın Azərbaycana təcavüzü ilə əlaqədar tutduğu prinsipial mövqe münasibətilə Türkiyənin Baş nazirinə öz minnətdarlığımızı bildirdim və əmin olduğumuzu bildirdim ki, Türkiyə bundan sonra da bu məsələlərdə prinsipial mövqedə olacaqdır və Azərbaycanla Türkiyə arasındakı münasibətlər bundan sonra daha da yüksək səviyyədə inkişaf edəcəkdir.

Güman edirəm ki, bu danışıqların detallarına toxunmağa ehtiyac yoxdur, məna bundan ibarətdir ki, bu danışıqlarda həm Türkiyə rəhbərliyi, həm də Azərbaycan rəhbərliyi tərəfindən Türkiyə ilə Azərbaycan arasındakı münasibətlərin bundan sonra daha da inkişaf etməsi bəyan edildi. Xüsusən Türkiyə–Rusiya və Azərbaycan–Rusiya münasibətlərində eyni istiqamətdə hərəkət etmək və bu münasibətləri quraraq bizim tədbirlərimizi razılaşdırmaq haqqında eyni fikirdə olduq.

Mən sizə bildirmək istəyirəm ki, bu günlərdə Türkiyənin xarici işlər naziri Hikmət Çətin buraya gələcəkdir, Moskva səfəri haqqında geniş məlumat verəcəkdir. Ancaq bunu da bildirmək və xüsusən indi bizim bu siyasətimizə ləkə salmaq istəyən bəzi adamlara, o cümlədən Xalq Cəbhəsinin nümayəndələrinə çatdırmaq istəyirəm ki, biz Rusiya ilə münasibətlərimizi yaxşılaşdırmaq istiqamətində addımlar atarkən heç də bunun Türkiyə ilə Azərbaycan, ya Amerika ilə Azərbaycan arasında münasibətlərə zərər vurmasına yol verməyəcəyik və bu heç belə ola bilməz. Çünki Xalq Cəbhəsinin yaydığı vərəqələrdə göstərilir ki, Heydər Əliyev xəyanət edibdir, Rusiya ilə, İranla əlaqəyə giribdir, demək, bütün Amerika ilə, nə bilim, Türkiyə ilə olan əlaqələri qırır və Azərbaycanı satır, filan, beşməkan. Bu cür belə həyasız, deyə bilərəm, belə tərbiyəsiz sözlərin işlənməsi, təəssüf ki, bizim bu təşkilata artıq məxsus olan bir şeydir. Mən buna artıq təəccüb etmirəm. Çatdırmaq istəyirəm ki, hələ biz Rusiya ilə münasibətləri qurmağa başlayarkən, Türkiyənin rəhbərləri ilə daim əlaqəmiz var, Türkiyənin Prezidenti Süleyman Dəmirəllə, Türkiyənin Baş naziri Tansu Çillərlə, Türkiyənin xarici işlər naziri Hikmət Çətinlə bu barədə bizim daim məsləhətləşmələrimiz olub. Əgər mədəni dildə desək, opponentlərin nəzər-diqqətinə çatdırmaq istəyirəm ki, Türkiyə Azərbaycanla yaxın əlaqəsi olan bir dövlət kimi, Azərbaycan Respublikasının Müstəqil Dövlətlər Birliyinə daxil olmasına və Azərbaycanla Rusiya münasibətlərinin inkişaf etməsinə nəinki etiraz etmir, hətta bunlara tərəfdar çıxır və bu fikir Tansu Çillərlə mənim Moskva görüşümdə bir daha təsdiq olundu.

Srağagün mən Ankara ilə, Türkiyənin Baş naziri Tansu Çillərlə telefonla danışmışam, ondan sonra xarici işlər naziri Hikmət Çətinlə danış-

mışam. Dünən Türkiyənin Prezidenti Süleyman Dəmirəllə telefonla danışmışam. Tansu Çillər və Hikmət Çətin Moskva səfəri və Azərbaycanla Ermənistan arasında olan müharibə haqqında ətraflı məlumatlar verdikləri, öz fikirlərini ciddi bildirdikləri barədə mənə məlumatlar veriblər. Bu günlərdə xarici işlər naziri Hikmət Çətin Bakıya gələcəkdir, bizim danışıqlarımız davam edəcəkdir. Ona görə də mən hesab edirəm, bizim Moskvada Türkiyənin Baş naziri Tansu Çillərlə, xarici işlər naziri Hikmət Çətinlə görüşümüz çox əhəmiyyətli görüşdür, mən buna xüsusi əhəmiyyət verirəm və fikirləşirəm ki, parlament də buna öz münasibətini bildirər, çünki bu məsələni də biz xüsusi məsələ kimi gündəliyə salmışıq.

Nəhayət, üçüncü məsələ haqqında məlumat vermək istəyirəm. Mən qeyd etdiyim kimi, sentyabr ayının 11-də Amerika Birləşmiş Ştatlarının Dövlət Departamentində rəhbər vəzifədə olan səlahiyyətli səfir, Amerika Birləşmiş Ştatlarının Prezidenti cənab Bill Klintonun şəxsi nümayəndəsi kimi Talbot Bakıya gəlmişdir. O, Bakıya gəlməmişdən əvvəl Türkiyədə, Ankarada olmuş, orada Türkiyənin rəhbərləri ilə görüşlər keçirmişdir. Ankaradan Bakıya gəlmiş, buradan Alma-Ataya uçdu, onun söylədiyinə görə, oradan Yerevana, sonra Moskvaya gedəcəkdir. O bura gəlməmişdən öncə Amerika Birləşmiş Ştatlarının səfiri bizə onun proqramını verdi və bildirdi ki, onun bizimlə iki saat müddətində danışmaq vaxtı var, çünki onun səfəri davam etməlidir. Biz də bununla razı olduq. Saat 1-dən 3-ə qədər vaxt ayırdıq ki, Talbotla görüşək, söhbət edək. Sentyabr ayının 11-də saat 1-də mən Talbotu qəbul etdim, ancaq bizim söhbətimiz iki saat yox, təxminən beş saata qədər davam etdi. Söhbət ona görə belə uzandı ki, bu söhbət zamanı Talbot tək deyildi, o, böyük bir nümayəndə heyəti ilə gəlmişdi, Amerika Birləşmiş Ştatlarının müdafiə nazirinin müavini, Milli Təhlükəsizlik Şurasının üzvü və bir neçə başqa şəxs onun nümayəndə heyətinin tərkibində idi. Nümayəndə heyəti 8 nəfərdən, özü də yüksək vəzifəli şəxslərdən ibarət idi. Hətta müdafiə nazirinin müavini bizim Talbotla rəsmi söhbətimiz bitəndən sonra şəxsən mənimlə də bir balaca söhbət edəndə dedi ki, mən dünən gecə yarıya qədər Kaliforniyada Rusiyanın müdafiə naziri Qraçovla bir neçə saat söhbət etmişəm, ondan sonra da bütün gecəni yol gəlmişəm, gəlib burada Sizinlə görüşüm və Sizinlə də söhbət edim.

Yəni demək istəyirəm ki, bu nümayəndə heyəti çox yüksək səviyyəli və yüksək tərkibli nümayəndə heyəti idi və siz artıq televiziya verilişlərindən bildiniz ki, cənab Talbot bildirdi, onun burada dediyi sözlər, verdiyi bəyanatlar Amerika Birləşmiş Ştatları, Bill Klintonun fikirləridir. O,

Bill Klintonun təklifi, göstərişi ilə Azərbaycana gəlib və Bill Klintonun mənə, yəni Ali Sovetin sədri Heydər Əliyevə məktubunu da mənə təqdim etdi. Bu məktub artıq dünən televiziya vasitəsilə ictimaiyyətə çatdırılıb. Mən rica edəcəyəm ki, Həsən Həsənov o məktubu bir də rəsmi surətdə Məclisə təqdim etsin.

Söhbətimizdə bütün sahələrə, xüsusən Amerika ilə Azərbaycan arasında olan münasibətlərə toxunuldu. Amerika Birləşmiş Ştatlarının əsas prinsipləri – demokratiya, bazar iqtisadiyyatı və üç prinsip ki o, saydı, demək, sülh, dövlətlər arasında sülh, cəmiyyətdə sülh. Bu prinsipləri cənab Talbot bizə çatdırmaq niyyətində oldu və çatdırdı. Bildirdi ki, Amerika çox arzu edir, Azərbaycan bir demokratik dövlət kimi, bu prinsiplərə uyğun olaraq, gələcəkdə öz dövlətini və cəmiyyətini qursun və beləliklə də Azərbaycanla ABŞ arasında dostluq əlaqələri bundan sonra daha da sürətlə inkişaf edə bilər.

Bir daha qeyd edirəm, söhbətimiz çox geniş, ətraflı oldu və söhbətimizdə xüsusi məsələ Ermənistanla Azərbaycan arasında müharibə məsələsi oldu. Biz cənab Talbota və bütün nümayəndə heyətinə xəritə arxasında Ermənistan silahlı qüvvələrinin Azərbaycana etdiyi təcavüzü, işğal etdiyi torpaqları və Azərbaycanın düşdüyü vəziyyəti çox geniş aydınlaşdırdıq və başa saldıq. Azərbaycanda artıq bir milyona qədər qaçqının mövcud olduğu, bunun Azərbaycanın iqtisadi, ictimai-siyasi vəziyyətini həm ağırlaşdırmasına, həm də gərginləşdirməsinə səbəb olduğunu bildirdik. Bildirdik ki, biz Amerika Birləşmiş Ştatlarından dünyanın ən böyük dövləti, dünya siyasətində çox böyük rolu olan, xüsusi çəkisi və böyük təsiri olan bir dövlət kimi, Ermənistanın təcavüzünün dayandırılması üçün təsirli tədbirlər görməsini xahiş edirik və biz bunu gözləyirik. Bildirdik ki, biz daim Amerika Birləşmiş Ştatlarının Bakıdakı səfiri ilə əlaqədəyik və ona Azərbaycanda olan vəziyyət haqqında məlumatlar veririk. Bildirdik ki, sərhəd bölgələrində, o cümlədən qaçqınların yaşadıqları bölgələrdə insanların nə vəziyyətdə olduqlarını Amerika Birləşmiş Ştatlarının həm səfirliyinin işçiləri, həm də mətbuat nümayəndələri öz gözləri ilə görüblər və Amerika kimi demokratik prinsiplər həyata keçirən, dünyada demokratiya nümunəsi kimi tanınan bir dövlət, şübhəsiz ki, belə bir vəziyyətə dözməməlidir və lazımi tədbirlər görməlidir. Mən belə güman edirəm, mən danışıqlar aparırdım, bunu, ola bilər, bizim danışıqları müşahidə edən adamlar daha da yaxşı duya bildilər. Bizim bu danışıqlarımız Amerikadan gəlmiş nümayəndə heyətinə müəyyən təsir etdi, onların Azərbaycan, ümumən, Azərbaycanla Ermənistan arasında

müharibədə kimin günahkar olması haqqında təsəvvürlərini obyektiv səviyyəyə qaldırmağa, Azərbaycanın indiki vəziyyəti haqqında obyektiv, düzgün təsəvvür yaranmasına kömək etdi.

Mənə belə gəlir ki, bizim bu danışıqlarımız Azərbaycanın müstəqilliyini təmin etmək, Azərbaycanın həm daxili, həm də xarici siyasətini Amerika Birləşmiş Ştatlarının rəhbərliyinə, onun Prezidentinə, Konqresinə çatdırmaq üçün çox yaxşı bir imkan oldu. Mən söhbətimizin sonunda belə bir qənaətə gəldim, biz bu söhbətdən səmərəli istifadə edə bilərik və məmnunam ki, Talbot, qeyd etdiyim kimi, Dövlət Departamentində keçmiş Sovetlər İttifaqına daxil olan bütün dövlətlər üzrə məsul vəzifə daşıyan, Amerika Prezidenti Bill Klintona yaxın olan və bilavasitə ona məlumat verə bilən bir adamdır. Ona görə də belə bir yüksək vəzifəli şəxsin Azərbaycana gəlməsi və təxminən beş saat müddətində bizimlə söhbət aparması, bizim səylərimiz nəticəsində indiki vəziyyətimiz haqqında daha düzgün, doğru təsəvvür alması, mənə belə gəlir ki, müsbət bir haldır. Mən şəxsən bu söhbətin yekunlarından çox razıyam.

Talbot Bill Klintonun mənə göndərdiyi məktubu təqdim etdi. O məktub, şübhəsiz, birmənalı qəbul edilə bilməz, yəqin ki, onun mətni ilə bu gün tanış olandan sonra parlament üzvləri də bu barədə öz fikirlərini deyə bilərlər. Ancaq buna baxmayaraq bu məktubda Azərbaycana münasibət nöqteyi-nəzərindən çox müsbət müddəalar, müsbət hallar var və mən bu məktubu Amerika Birləşmiş Ştatları tərəfindən müstəqil Azərbaycan Respublikasına qarşı atılmış bir müsbət addım kimi qəbul edirəm. Cənab Talbot söz verdi ki, bütün bu danışıqlarımız nəticəsində həm Yerevanda, həm də Moskvada olarkən öz münasibətlərini bildirəcəklər və xüsusən Ermənistanla Azərbaycan arasında gedən bu müharibə barəsində öz mövqelərini daha da dəqiqləşdirəcəklər. Onu da bildirmək istəyirəm ki, cənab Talbot bizim Moskva səfərimizin məzmunu, apardığımız danışıqlarla çox ətraflı maraqlanırdı, mən ona məlumat verdim.

Həm Türkiyənin Baş naziri, həm də Amerika Birləşmiş Ştatlarının nümayəndəsi bir şeydə çox maraqlı idilər, bizim Rusiya ilə danışıqlarımız və Rusiyanın Ermənistanla Azərbaycan arasında müharibədə vasitəçi rolu oynaması təkcə Rusiyanın burada iştirakı ilə olacaq, yaxud başqa dövlətlər də və xüsusən beynəlxalq təşkilatlar da iştirak edəcək. Mən həm Türkiyənin Baş naziri xanım Tansu Çillərə, həm Amerikanın nümayəndəsi cənab Talbota məlumat verdim ki, biz bütün bu danışıqları həm Rusiya ilə, həm Amerika ilə, həm Türkiyə ilə, həm də İran ilə, başqa dövlətlərlə apararaq, eyni zamanda beynəlxalq təşkilatların və xüsusən Birləşmiş

Millətlər Təşkilatının, onun Təhlükəsizlik Şurasının, ATƏM-in Minsk qrupunun fəal rolunu bundan sonra da görmək istəyirik və bu təşkilatların fəal roluna ümid bəsləyirik. Eyni zamanda cənab Talbota və xanım Tansu Çillərə də bildirdim ki, Amerika Birləşmiş Ştatlarının, Rusiyanın və Türkiyənin Azərbaycan–Ermənistan münasibətləri ilə əlaqədar, Azərbaycan torpaqlarının Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunması ilə əlaqədar müştərək təşəbbüsləri kağız üzərində qalmamalıdır. Həm Amerika Birləşmiş Ştatları, həm Rusiya, həm də Türkiyə artıq bu barədə əməli fəaliyyətə keçməlidirlər. Bu sözləri mən həm Tansu Çillərə, həm də cənab Talbota bildirdim.

Mən bir də qeyd etmək istəyirəm ki, cənab Talbotla və ümumiyyətlə, Amerikanın nümayəndə heyəti ilə bizim görüşümüz və danışıqlarımız səmərəli, əhəmiyyətli oldu. Cənab Talbot da Azərbaycanın Rusiya ilə münasibətlərinin yaxşılaşmasına müsbət yanaşdı və bildirdi ki, əgər Azərbaycanın Müstəqil Dövlətlər Birliyinə daxil olmaq fikri olsa, bu fikrə əks, mənfi münasibət göstərməməlidirlər.

Mən bütün bu məlumatları sizə təqdim edərək istərdim ki, həm Azərbaycanın Milli Məclisinin, həm də ictimaiyyətinin – biz bütün bu iclasımızı canlı yayım vasitəsi ilə Azərbaycanın ictimaiyyətinə çatdırırıq – bizim son dövrdə xarici siyasət sahəsində atdığımız addımlar və apardığımız tədbirlər haqqında düzgün məlumatları olsun. İndi özlərini müxalifətə çəkmiş qüvvələr, birinci növbədə, Xalq Cəbhəsi bilsin ki, biz bu tədbirləri apararaq, Azərbaycan Respublikasının xarici siyasətini gücləndirərək, onu çoxsahəli edərək və Azərbaycanın müstəqilliyini daha da möhkəmləndirmək, inkişaf etdirmək üçün lazımi tədbirlər görərək Azərbaycan Respublikasının, Azərbaycan xalqının mənafeyi uğrunda çalışırıq və heç vaxt biz Azərbaycanın müstəqilliyinə, xalqın mənafeyinə xəyanət etməyə yol verməriк. Bu cür təhqirlərə, bu cür təhriflərə yol vermək olmaz.

Yenə də deyirəm, Azərbaycanda artıq demokratiya üçün tam imkanlar yaranıb. Mən cənab Talbotla danışıqlarımda dəfələrcə qətiyyətlə dedim ki, Azərbaycan demokratik dövlət kimi bundan sonra daha da sürətlə, demokratik prinsiplər əsasında inkişaf edəcək, biz həm dövlətin, həm də parlamentin imkanlarından istifadə edərək Azərbaycanda demokratik, sivilizasiyalı cəmiyyətin qurulması üçün çalışacağıq. Azərbaycanda bütün siyasi partiyaların azad fəaliyyət göstərməsinə imkanlar yaradılıb və bu imkanlar bundan sonra da yaradılacaq və Azərbaycanda insan hüquqları qorunub və qorunacaq və bu barədə heç kəsin şübhəsi olmasın.

Azərbaycan bazar iqtisadiyyatı yolu ilə gedəcək, bu yoldan Azərbaycan dövlətini artıq heç kəs sapındıra bilməz. Mən bunu Moskvada da mətbuat konfransında dedim və cənab Talbota da bildirdim ki, Azərbaycan heç vaxt kommunist rejiminə qayıda bilməz, kommunist rejimi Azərbaycanda bərpa oluna bilməz və buna nə biz, nə də ictimaiyyət imkan verə bilməz və bu yolun, yəni demokratiyanın, siyasi plüralizmin yolçusu, bazar iqtisadiyyatının yolçusu, sadəcə olaraq, bir Xalq Cəbhəsi deyil, artıq bütün Azərbaycan xalqıdır, Azərbaycan ictimaiyyətidir, Azərbaycanın bütün siyasi partiyalarının ümumi fikridir və heç kəs bunu özünə çıxmasın, heç kəs bu yolun sahibkarı, yaxud hökmdarı olduğu iddiasında olmasın. Biz bu yolla getmişik və bu yolla da gedəcəyik.

Biz sülh tərəfdarıyıq, cəmiyyətimizdə sülh, milli həmrəylik və dövlətlər arasında sülh bizim əsas prinsiplərimizdir və ona görə də biz indi Ermənistanın hərbi təcavüzünün qarşısını almaq və Azərbaycanı bu təcavüzdən müəyyən qədər xilas etmək üçün sülh danışıqlarına üstünlük veririk və buna görə də biz Dağlıq Qarabağda olan qüvvələrlə birbaşa danışıqlarla da buna razılıq vermişik. Dünən də, bu gün də bu məsələ barəsində Moskvada Rusiyanın vasitəçiliyi ilə Azərbaycanın nümayəndəsi Afiyəddin Cəlilov və Dağlıq Qarabağ qüvvələrindən olan nümayəndə də iştirak edir, danışıqlar aparılır və ola bilər, şübhəsiz, parlament bu məsələyə də münasibətini bildirməlidir. Bunlar hamısı demokratiyanın əsas prinsiplərinə uyğun olan hərəkətlərdir və siyasətdir. Biz bu siyasəti aparırıq və bütün bu fikirləri, bu məlumatları da sizə təqdim edərək parlamentin münasibətini bilmək istərdim.

Artıq bilmirəm, neçə vaxtdır mən sizə məlumat verirəm. İki saat. Biz 12-nin yarısında başlamışdıq iclasa, indi ikinin yarısıdır. Bəlkə, indi tənəffüs elan eləyək? Mənə kimin sualları varsa, tənəffüsdən sonra verərsiniz. Tənəffüsdən sonra isə Abbas Abbasov və Həsən Həsənov əlavə məlumatlar verəcəklər. İki saatadək tənəffüs. Mən Məclis üzvlərindən soruşdum, iki saat tənəffüs olunur.

***(FASİLƏDƏN SONRA)***

**Sədrlik edən.** Xahiş edirəm, qeydiyyatdan keçək.

***(Qeydiyyat)***

34 nəfər iştirak edir, yetərsay var.

Lakin mən çox təəccüb edirəm və güman edirəm ki, Məclis üzvləri də nizam-intizama riayət etməlidirlər. Ümumiyyətlə, respublikada nizam-intizamın həddindən artıq pozulduğu elə Məclisdə də özünü göstərir.

Tənəffüs elan edəndə bəziləri dedilər ki, iki saat çoxdur, amma artıq iki saatdan çox vaxt keçib, Məclis üzvləri toplanmırlar. Bizim bu Aparatın işçiləri də özləri üçün nəticə çıxarmalıdırlar, biz gəlib oturub gözləyirik, tablo yanmır. Belə qanun-qaydayla, belə nizam-intizamla respublika, şübhəsiz, belə vəziyyətə düşməliydi, ancaq gəlin danışaq ki, demokratiya, birinci növbədə, nizam-intizam, qanun-qaydaya riayət etmək deməkdir. Məclis üzvləri bu barədə bütün ictimaiyyətə, respublikanın əhalisinə nümunə göstərməlidirlər və onu da unutmamaq lazımdır ki, bizim artıq Məclisin iclasları canlı yayımla bütün əhaliyə çatdırılır.

Mən etiraz eləmirəm, bizim Məclis üzvləri bir yerdə çox otura bilmirlər, iki saat vaxtında üç dəfə bayıra çıxıb qayıdırlar. Bəlkə də, indi bu, təbii tələblərdən meydana gəlir, ancaq eyni zamanda, hər halda, iki saat elə böyük vaxt deyil ki, adamlar oturub qanun-qaydaya riayət etsinlər. Hər halda, parlamenti bazara döndərmək lazım deyil.

Əlavə məlumat üçün söz Baş nazirin müavini Abbas Abbasova verilir.

**Abbas Abbasov,** ***Azərbaycan Respublikası Baş nazirinin müavini.*** Hörmətli sədr, hörmətli Məclis üzvləri, hörmətli qonaqlar. Rusiya səfərində rəsmi dövlət nümayəndə heyətinin tərkibində mən də olmuşam. Azərbaycan Respublikası Ali Sovetinin sədri hörmətli Heydər Əliyev aparılan, görülən işlər haqqında hərtərəfli məlumat verdi. Ali Sovet sədrinin rəhbərliyi ilə Rusiya hökumətinin rəhbərləri istər Prezident, istər Xarici İşlər, Müdafiə nazirlikləri, istərsə də Moskva şəhərinin meri səviyyəsində, Rusiyanın digər rəhbərləri ilə görüşlər haqqında geniş və ətraflı məlumatı hamınız dinlədiniz.

Qeyd etmək istəyirəm ki, demək olar, uzun illərdir Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında yaranmış soyuq münasibət, əlbəttə, birinci növbədə, ümumi siyasi iqlimdən əlavə iqtisadi iqlimə də çox mənfi təsir göstərmişdir. Rusiya rəhbərləri ilə görüşlərdə, xüsusən Heydər Əliyevin Rusiya Prezidenti Yeltsinlə, başqa rəhbərlərlə görüşündən sonra, həqiqətən, onların bizə münasibətində ciddi dəyişikliklər hiss olunurdu. Keçmişdə olduğu kimi, iki ölkə arasında o səmimiyyət, baxmayaraq Azərbaycan indi müstəqil bir dövlət kimi özünün həm siyasətini, həm də iqtisadiyyatını müstəqillik təməli üzərində aparır, arada olan bütün narazılıqlar, çəkişmələr, müəyyən rəhbərlərin qəlbində qalmış o hisslər bu görüşlərdə tamamilə başqa formada özünü təzahür etdirirdi. Bizim nümayəndə heyətinin üzvləri Azərbaycan Respublikasının maliyyə naziri Saleh Məmmədov, Azərbaycan Respublikası Milli Bankının

sədri Qalib Ağayev Baş nazir Çernomırdinlə görüşdə iqtisadiyyata dair bir neçə mühüm məsələni şərh etdik və Rusiya hökumətinin rəhbərləri qarşısında qoyduq.

Bildiyiniz kimi, informasiya vasitələrinin verdiyi məlumata görə, Moskvada olarkən biz bir müqaviləyə də imza atdıq. Heydər müəllim Bakıya qayıdandan sonra da biz öz işçi qrupumuzun işini davam etdirdik. Mən bununla, iqtisadi məsələlərlə bağlı Milli Məclisə məlumat vermək istəyirəm.

Birinci məsələ. Azərbaycan Respublikasının Milli Məclisinin müzakirə və təsdiq etdiyi məsələlərdən biri kimi keçmiş SSRİ-nin xarici borclarının və aktivlərinin sıfır variantı haqqında müzakirə keçirildi və biz müəyyən şərtlərlə həmin müqaviləyə imza atdıq. Bildiyiniz kimi, bu məsələ uzun müddət idi, tənzimlənməmiş qalırdı və respublikanın iqtisadiyyatına heç də müsbət təsir göstərmirdi. Bütün vasitələrdən istifadə etməyimizə baxmayaraq, xarici ölkələr bizimlə heç bir maliyyə-kredit münasibətlərinə girmək istəmirdilər. Bir neçə ay əvvəl bu məsələ parlamentdə müzakirə olunub və Nazirlər Kabinetinə sıfır variantının qəbulu həvalə olunmuşdu. İstəyirəm, nəzərinizə çatdırım ki, bu müqaviləyə əsasən, keçmiş SSRİ-nin xarici borclarında Azərbaycanın payının bütövlükdə Rusiyaya keçməsi məsələsi təsdiq olunur və bu borcları Rusiya Federasiyası hökuməti ödəməlidir. Eyni zamanda Azərbaycanın payına düşən alınacaq vəsaitlər Rusiya Federasiyasının nəzdində qalmalıdır. Həmin müqavilə, yəqin ki, yaxın günlərdə Milli Məclisin müzakirəsinə veriləcək və bununla bağlı mən Milli Məclisin üzvlərinin diqqətini bir məsələyə cəlb etmək istəyirəm. Bu müqavilədə Rusiya Federasiyasının Xarici İqtisadi Valyuta Bankında Azərbaycanın 62 milyon dollara yaxın vəsaiti dondurulmuşdur. Bu məsələ uzun illər həll olunmurdu, danışıqlar zamanı bu məbləğin fiziki şəxslərə verilməsi məsələsi müsbət həll olunub. Bunu sizin nəzərinizə çatdırmaq istəyirəm.

İkinci, hüquqi şəxslərə, yəni müəssisələrə, təsərrüfatlara qalan valyuta borcunun ödənməsi üçün biz Rusiyanın iqtisadi sahədə olan nazirliklərinin rəhbərləri ilə çox gərgin iş apardıq. Onlar qeyd etdilər ki, hazırda bu valyuta mənbəyi bankda yoxdur. Ancaq buna baxmayaraq biz əlavə bir məktubla Rusiyanın Baş naziri Viktor Stepanoviç Çernomırdinə müraciət etdik və müraciətdə qeyd olundu ki, bu vəsait mütləq Azərbaycanın hüquqi şəxslərinə ödənilməlidir, və o bu məsələdə bizə yaxından köməklik edəcəyini bildirdi. Qeyd etmək istəyirəm, demək olar, həmin sıfır variantında bütün müqavilələr keçmiş respublikalarla bir şərtlə bağla-

nılıb ki, valyuta fonduna heç bir ölkənin müdaxiləsi ola bilməz, ancaq Azərbaycan Respublikası yeganə respublikadır, həmin maddəni bu müqavilədən çıxara bilmişdir.

İkinci məsələ Rusiya və Azərbaycan hökumətləri arasında qeyri-ticarət ödəmələri haqqında idi. Bilirsiniz ki, bu, çox mühüm məsələdir və əlbəttə, bizim qeyri-ticarət ödəmələrimizə çox mənfi təsirlər göstərir. Bildiyiniz kimi, iki ölkə arasında çox sıx əlaqələr mövcuddur və onların bir çoxu qeyri-ticarət xarakteri daşıyır. Misal üçün, nəzərinizə çatdırmaq istəyirəm, ezamiyyə xərcləri, tələbə və aspirantların təhsil xərcləri, xəstələrin müalicə xərcləri, nəqliyyat, rabitə, turizm xərcləri və sair. Bu xərclərin ödənməsi qaydaları üzrə qeyri-ticarət ödəmələri haqqında müqaviləyə də biz imza atdıq və bu müqavilə də Milli Məclisin müzakirəsinə təqdim edilib.

Əsas məsələlərdən biri Azərbaycan və Rusiya arasında kreditlərin dövlət borcu kimi rəsmiləşdirilməsi oldu. Mən bir daha qeyd etmək istəyirəm ki, Rusiya Federasiyasında olan dövrdə bütün məsələlərdə istər respublikanın birinci şəxsi, istərsə də nümayəndə heyətinin üzvləri tərəfindən birinci növbədə, yalnız Azərbaycanın müstəqilliyinin qorunması, müdafiə olunması prinsiplərinə əsaslanılmışdır. Bildiyiniz kimi, 1992-ci il iyulun 1-dən Rusiya bütün respublikalarla bank münasibətlərini müxbir hesabları ilə həyata keçirir. Həmin dövrdən indiyədək Azərbaycan Rusiyadan 20,8 milyard rubl texniki kredit almışdır, bu hamınız üçün məlumdur. Biz bunun rəsmiləşdirilməsi üzrə müzakirələr keçirdik. Bu kreditin faizlərini Rusiya tərəfindən təklif olunan LIBOR + 2, – LIBOR London birjasında pul bazarı üzrə kreditin faizi deməkdir – hazırda bu faiz təqribən 3,1 faiz təşkil edir. Qeyd etmək istəyirəm ki, digər respublikalar bizim əldə etdiyimiz bu nəticəni əldə edə bilməmişlər, çünki hamısının, demək olar, borc faizləri, LIBOR + 1, yaxud LIBOR +2, yaxud da LIBOR +2,5 olmuşdur. Biz isə razılığa gəlmişik ki, Azərbaycanın iqtisadi vəziyyətinin çətin olmasını, müharibə şəraitində olmasını nəzərə alaraq Azərbaycana müəyyən güzəştlər olunsun. Bu güzəştlər də Rusiya hökuməti, Rusiya İqtisadiyyat Nazirliyi və digər rəhbərlər tərəfindən müsbət qəbul olunmuşdur. Deməli, bunun hesabına, bizim maliyyə nazirinin, Milli Bankımızın prezidentinin hesablarına görə Azərbaycan 3,7 milyon rubl irəli düşmüşdür. Eyni zamanda ödəmə müddətlərini sazişdə nəzərdə tutulan 1994–1996-cı illər müddətindən 1994–1997-ci illərə çatdıra bilmişik, yəni ödəmə müddəti bir il uzadılmış, belə bir güzəşt olunmuşdur. İstəyirəm, qeyd eləyim ki, başqa respublikalarda bu məsələ yalnız konkret 1994–1996-cı illərdə müəyyənləşdirilmişdir.

Həmçinin son pul islahatı zamanı bizə verilən emissiya ilə yığdığımız pullar arasında fərqi və Rusiya müəssisələrinin bizim müəssisələrə olan 14 milyard rubl məbləğində borclarını da nəzərə almağı təklif etmişdik. Rusiya tərəfi bu təklifi hələlik qəbul etməmiş və eyni zamanda 1992-ci il iyulun 1-nə qədər filiallararası dövriyyə üzrə yığılan saldonu da, 15,9 milyard rublu dövlət borcu kimi qəbul etməyi təklif etmişdir. Bunları sizin nəzərinizə çatdırmaqda bir məqsədim var ki, yəni biz Rusiyada elə gözübağlı hansı sənədi bizə təqdim etmişlərsə, o sənədi müzakirə etməmiş, dərinliklərini öyrənməmiş bir sənədə qol çəkməmişik. Rusiya tərəfi digər respublikalarla eyni qaydada rəsmiləşməni dəlil kimi gətirirdi. Təbii ki, bunlar diskussiya xarakterli məsələlərdir və hər iki tərəfin razılığı ilə məsələnin yenidən işlənməsini məqsədəuyğun saydıq. Yəni bu gün Azərbaycan Respublikasının Milli Bankı, Azərbaycan Respublikası Maliyyə Nazirliyi tərəfindən ekspert qruplarının Rusiya Federasiyasının həm Mərkəzi Bankında, həm də Maliyyə Nazirliyində bu məsələləri axıradək işləyib qaydasına qoymaları həllini tapmışdır.

Dördüncü məsələ Rusiyadan 1993-cü il üçün ixracat kreditinin alınması idi. Siz bilirsiniz ki, bu gün Azərbaycan iqtisadiyyatına ən mənfi təsir göstərən məsələlərdən biri Rusiya Federasiyasında bizim pulumuzun, vəsaitimizin olmamasıdır. Bir də Azərbaycandan Rusiyaya pul ödəmələrinin yerinə yetirilməsi məsələsi çox ciddi maneçiliklər törədir. Məhz buna görə, Azərbaycan hökuməti adından biz Rusiya hökumətinə müraciət etmişik ki, ümumi qaydada bütün keçmiş SSRİ-nin respublikalarına verildiyi kimi, Azərbaycan Respublikasına da kreditlər müəyyənləşdirilsin. Rusiya Federasiyasının Nazirlər Sovetində bu məsələni Baş nazirin müavini Şoxinlə müzakirə edərkən qeyd olundu ki, kreditlərin verilməsi haqqında saziş yalnız o vaxt işləyə bilər ki, Azərbaycan hökuməti borclar haqqında sazişi imzalayıb təsdiqləsin. Bu sazişin işlənməsində başlanğıc üçün 10 milyard rubl məbləğində kredit alınması barədə razılıq əldə etdik. Yəni kreditin LIBOR + 1 faizi ilə. Ödəmə müddəti bütün respublikalar üçün əgər 1994-cü ildən başlayırdısa, Azərbaycan Respublikası üçün yenə də güzəşt olunub, ödəmələrin yerinə yetirilməsi 1995-ci ildən başlanacaq.

Mən qeyd etmək istəyirəm ki, bu gün biz Rusiya ilə ümumi borclar məsələmizi müsbət həll etmək üçün Azərbaycan Respublikasının müəssisələrinin, təşkilatlarının Rusiya Federasiyasında təqribən 17 milyard rubl vəsaiti yatır. Biz bu vəsaitin gətirilməsini təcili bir surətdə təmin etməliyik. Yəni müəssisələr, təşkilatlar, nazirliklər səviyyəsində bu gün

hesablama mütəxəssisləri təcili olaraq ezamiyyətlərə göndərilməli və həmin təşkilatlarla ümumi mübadiləni həll etməli, Milli Banka, Maliyyə Nazirliyinə məlumat verməlidirlər. Biz nəyə görə 17 milyard rubl pulumuzu Rusiyanın banklarına, müəssisələrinə səpələməliyik. Özümüz də boğazımız əlimizdə gedib dilənçi şəklində yalvarırıq, bizə pul, bizə vəsait verin, hansısa malı almaq üçün Rusiyada pulumuz ola-ola biz o qapı, bu qapını döyürük. Mən belə hesab edirəm ki, bunun bütün təqsiri bizim nazirliklərdə, onların müəssisələrində, həmin nazirliklərin rəhbərlərində və müəssisə rəhbərlərindədir. Belə etsəydik, əlbəttə, bizim heç bir borca ehtiyacımız da qalmazdı.

Digər tərəfdən, təklif edirəm, biz Türkiyədən aldığımız 250 milyon dollar kreditin hesabına 10 milyon dollar ayıra, buna alınan malları Rusiyada sataraq, Azərbaycana lazım olan malları ala bilərik ki, bu da daha səmərəli nəticə verə bilər. Nəzərinizə çatdırmaq istəyirəm ki, respublikada pul dövriyyəsi sahəsində çox gərgin, olduqca ağır bir vəziyyət yaranmışdır. 1993-cü il sentyabrın 1-nə olan vəziyyətə görə, təkcə əmək haqqı üzrə vaxtı ötmüş borclar təqribən 30 milyard rubl təşkil eləyir.

Hörmətli sədr, bir az kəskin də olsa, mən bu məsələyə öz fikrimi bildirmək istəyirəm. Yaranmış vəziyyətin həm obyektiv, həm də subyektiv səbəbləri var. Obyektiv səbəblər müharibə, istehsalın tənəzzülü və digər səbəblərdir. Subyektiv səbəbləri sadalasaq, bunlar, əlbəttə, obyektiv səbəblərdən qat-qat üstün gəlir. Məsələn, respublikanın şəhər və rayonlarının küçələrində ayrı-ayrı şəxslər bir çox malların satışı ilə məşğul olurlar. Bu heç kim üçün sirr deyil. Bütün kəndlərin, rayonların ərazisində hərə qapısının ağzında bir dükan açıb. Mənim kommersiya təşkilatlarına heç bir etirazım da yoxdur, yəni əgər bunlar qanuni şəkildə fəaliyyət göstərirlərsə, bu, bəyənilməlidir. Ancaq Azərbaycanın dövlət dükanları hamısı boş qalıb, birinci növbədə, ikinci növbədə, dövlət dükanlarında alış-veriş yoxdur, çünki respublikanın özünün həmin istehsal olunan məhsulları qapılarda, küçələrdə fərdi adamlar tərəfindən satılır. Bunun hamısını bilirsiniz, təbiidir ki, həmin malların satışından əldə edilən pullar bankların kassalarına daxil olmur və şəxslərin sərəncamında qalır. Yəni bu gün bankda dövriyyə yoxdur. Satılan mallar isə hansılardır? Bunu qeyd etmək istəyirəm. Respublikada istehsal olunan əsas mallar – şampan şərabları, konyak, araq, pivə, fanta, pepsi-kola, mineral sular və sair, yəni biz bunların dövlət mağazalarında satışını təmin eləyə bilmərikmi? Bəs bizim aidiyyəti orqanlarımız hara baxırlar? Buna görədir ki, əgər 1990-cı ildə dövriyyəyə buraxılmış hər yüz rublun 93 rublu bank-

ların kassalarına qayıdırdısa, bu il dövriyyəyə buraxılmış hər yüz rublun ancaq 30 rublu bankların kassalarına daxil olub. Bu, çox dəhşətli, çox faciəli bir haldır.

Bizim ən əsas məsələlərimizdən biri – gömrüklə, gömrük qanunları ilə əlaqədar olan məsələlərə çox ciddi diqqət yetirdiyimizi nəzərə alaraq, biz Rusiya Federasiyasının Gömrük Komitəsinin sədri ilə səfirlikdə görüşdük, onun müavinləri ilə və işçi qrupları ilə çox ətraflı, geniş iş apardıq. Məlum olduğu kimi, hazırda MDB ölkələrindən fərqli olaraq, Rusiya Federasiyası Azərbaycan üçün ciddi gömrük məhdudiyyətləri qoymuşdur, bu da iki ölkə arasında iqtisadi münasibətlərin ləngidilməsi deməkdir. Uzun müddət bu problemlə məşğul olunmamışdır ki, bu da böyük itkilərlə nəticələnmişdir. Buna görə də biz bu məsələni həm Rusiya Nazirlər Sovetində Heydər Əliyevlə Baş nazir Çernomırdinin yanında olarkən qaldırmışdıq, həm də Rusiya Gömrük Komitəsinin sədri Kruqlovla görüşlər zamanı müzakirələr keçirdik. MDB ölkələri üçün nəzərdə tutulan bütün güzəştlərin Azərbaycana da tətbiq olunmasına razılıq aldıq.

Mən bu gün Azərbaycan Respublikası Gömrük Komitəsinin sədri Tahir Əliyevlə də görüşüb söhbət etmişəm, o da bizim orada apardığımız işlə tam razıdır. Belə razılığa gəlmişik ki, təcili surətdə Rusiya Gömrük Komitəsinin rəhbərliyi ilə Azərbaycan Gömrük Komitəsinin rəhbərliyinin görüşü keçirilsin, müzakirələr aparılsın və Azərbaycan Respublikasına digər MDB ölkələrinə daxil olan ölkələr kimi güzəştli gömrük qayda-qanunları tətbiq olunsun. Çünki Azərbaycanın iqtisadiyyatında gömrük məsələləri tam həll olunmamış qalmışdır və bunlar da iqtisadiyyata mənfi təsir göstərməyə bilməz. Yəni yaxın günlərdə bizim Gömrük Komitəsinin işi nəticəsində bilavasitə həm ümumi gömrük müqaviləsinə, həm də Rusiya ilə Azərbaycan arasında ikitərəfli gömrük müqaviləsinə imza ata bilərik.

Bildiyiniz kimi, Moskva meriyası ilə Azərbaycan Respublikası arasında imzalanmış sazişin illik əmtəə dövriyyəsinin həcmi yüz milyarddan artıqdır. Bunların vaxtında, çevik bir surətdə yerinə yetirilməsi məsələsi müəyyən amillərdən, yəni vaxtaşırı alınan mallardan, pul mübadiləsinin yerinə yetirilməsindən asılıdır. Məhz buna görə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası hökuməti arasında imzalanmış sazişlərdən irəli gələrək Moskva hökuməti ilə bağlanmış sazişdə Azərbaycanla Moskva arasında müştərək bankın yaradılması qərara alınmışdır. Bu əlaqələrin təşkili üçün hər iki tərəf bir həftə ərzində müvafiq müvəkkil banklarda qarşılıqlı müxbir hesab açmalıdırlar. Lap elə bir ay müddətində Bakıda

ortaq bank və onun Moskvada filialı açılsın. Bu məsələ Moskva hökumətinin birinci müavini Bakirovun yanında müzakirə olunmuş və müvafiq protokol imzalanmışdır.

Əsas məsələlərdən, bu gün Azərbaycan iqtisadiyyatının, demək olar ki, taleyini həll eləyən məsələlərdən biri. Uzun illər, yəni 70 ildən artıq SSRİ-nin tərkibində, hazırda MDB ölkələrinin tərkibinə daxil olan bütün ölkələrlə yekdil bir iqtisadi məkanda çalışmışıq. Bu iqtisadi əlaqələrin qırılması, iqtisadi inteqrasiyanın pozulması, əlbəttə, iqtisadiyyatımızda baş verən nəticələr hamınızın gözünün qarşısındadır. Hörmətli Heydər Əliyev öz informasiyasında qeyd etdi ki, bizim əsas məsələlərdən biri də ümumi əməkdaşlıq birliyinin yaradılmasında Azərbaycan hökumətinin, Azərbaycanın iştirakının təmin olunmasıdır. Yəni bu iqtisadi məkanda bir müstəqil ölkə, müstəqil xalq kimi iştirakımızın təmin olunması məsələsidir. Bilirsiniz ki, neçə aydır, bu birliyin yaradılması üzərində iş gedir. Birliyin əsas təşəbbüskarları Rusiya Federasiyası, Ukrayna və Belarusiya respublikaları olmuşlar. İndi isə həmin birliyin yaradılması işində, demək olar ki, bütün Orta Asiya respublikaları – Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan, Tacikistan respublikaları öz iştiraklarının təmin edilməsini təsdiq etmişlər, Moldova, hətta bizim bədnam qonşularımız ermənilər də. Yəni bu gün Azərbaycanın müstəqilliyini, suverenliyini qoruyub saxlamaq etibarı ilə parlamentimiz, Milli Məclisimiz bir daha fikirləşib özünün – bu mənim təklifimdir – bu məsələyə müsbət rəyini bildirməlidir. Çünki biz artıq bir dəfə təklənmişik, bu təklənmənin nəticəsi də bu gün hamımız üçün aydındır və göz qabağındadır.

Hazırda Minsk şəhərində bu məsələyə, iqtisadi birliyə dair ekspert qrupu işləyir. Biz Moskvadan Minsk ilə əlaqə saxladıq, müqavilənin layihəsini aldıq, elə Moskvada olarkən mütəxəsisslərlə bu məsələni müzakirə etdik. Birliyin – sizə məlumat verirəm – təqribən bütün müddəaları Avropa Birliyinin ilkin variantı kontekstində qurulub. Ümumi gömrük zonasının yaradılması, işçi qüvvəsinin, malların və xidmətlərin sərbəst hərəkət etməsi razılaşdırılmış, maliyyə, büdcə, vergi, pul-kredit, xarici ticarət, gömrük və valyuta siyasətinin yeridilməsi, təsərrüfat sahəsində ahəngdar qanunvericilik sisteminin təşkil olunması nəzərdə tutulur. Birliyə rubl zonasından kənarda qalan dövlətlər üzv ola bilərlər. Keçmiş SSRİ ölkələri ilə sıx əlaqədə olan Azərbaycan Respublikası üçün bu birlik, mən qeyd etdim, çox faydalı ola bilər. Bu gün bütün digər ölkələr keçmiş SSRİ-nin zəngin bazarına girməyə çox cəhd göstərirlər. Bu bazarı əldən verməyi bizə heç kim bağışlamayacaq. O ki qaldı bu birliyə rubl zona-

sında qalıb-qalmayaraq daxil olmaq məsələsinə, qeyd etmək istərdim ki, çox mürəkkəb problemdir. Biz onun geniş müzakirəsini, təbliğatını təşkil etməli və müvafiq qərara gəlməliyik.

Rusiya Federasiyasına rəsmi səfərin axırıncı günündə işçi qrupumuzun üzvləri, Azərbaycan Respublikası İnterpolunun rəisi Eldar Həsənov, Azərbaycan Respublikası Baş prokurorunun birinci müavini Eldar Məmmədov və mən Rusiya Federasiyasının Baş prokuroru Valentin Georgiyeviç Stepanovla da görüşmüşük. Görüş zamanı Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında hazırlanmış – bilirsiniz, Rusiya Federasiyasında uzun müddət bu məsələyə müsbət baxılmamışdır – respublikanın rəhbərliyinin tapşırığı əsasında bu görüşdə bu məsələyə çox ciddi yanaşılmış, inzibati orqanlar arasında qarşılıqlı əməkdaşlıq və kömək haqqında sazişin bağlanması üçün Rusiya Federasiyası Ali Sovetinin sədri Ruslan Xasbulatovun imzası alınmışdır. Bu məsələnin Rusiya Federasiyası Ali Sovetinin gündəliyinə salınıb, ratifikasiya edilməsi qərara alınmışdır. Mən bütün sənədləşməni gətirmişəm, dünən təqdim etmişik. Ümidvarıq ki, yaxın günlərdə Milli Məclis bu məsələyə də özünün fikrini, rəyini bildirəcəkdir. Azərbaycan Respublikası İnterpolunun rəisi Eldar Həsənov Rusiya Federasiyasının Daxili İşlər Nazirliyinin rəhbərləri ilə görüşüb, demək olar ki, Daxili İşlər nazirlikləri arasında müqavilənin tam surətdə hazırlanıb imzalanmasına dair bütün məsələləri həll etmişdir.

Çıxışımın sonunda mən istəyirəm, Milli Məclis üzvlərinin nəzərinə çatdıram, siz bilirsiniz, uzun bir müddətdir Rusiya Federasiyası ilə Azərbaycan Respublikası hökumətinin qərarına əsasən mən iqtisadi ticarət əlaqələrinin yaradılması üzrə birgə komissiyanın sədriyəm. Sizə çox səmimi demək istəyirəm, neçə dəfədir mən Rusiyada olmuşam, Rusiya rəhbərləri ilə görüşmüşəm, hətta bildiyiniz kimi, yeddi dəfə Müstəqil Dövlətlər Birliyinin müşavirələrində müşahidəçi, yaxud iştirakçı kimi Azərbaycan hökumətini təmsil eləmişəm, ancaq bu səfərki kimi səmimi, sanballı, səviyyəli görüşün birinci dəfədir şahidi olmuşam. Yəni bütün Rusiyanın rəhbər qurumlarında, rəhbər təbəqələrində, siyasi, iqtisadi qurumlarında bir həftə ərzində söz-söhbət yalnız Azərbaycan haqqında gedirdi.

Mən qeyd etmək istəyirəm ki, əgər biz bu gün birmənalı ümumi iqtisadi məkana daxil olan ölkələrlə əlbir olmasaq, Azərbaycanın aqibəti, əlbəttə, ağır olacaqdır. Demək olar, bütün görüşdüyümüz rəhbər şəxslər hamısı çox səmimi qeyd ediblər ki, bu günə kimi Azərbaycan rəhbərliyi,

Azərbaycan hökuməti tərəfindən məsələlər belə səriştəli, belə peşəkarcasına Rusiya hökuməti, Rusiya rəhbərləri qarşısında qoyulmamışdır. Mənim bir arzum var. Bizim gördüyümüz işin ahəngi, həqiqətən, çox böyük idi. Biz, demək olar, nə Heydər Əliyevin özü, nə Həsən Həsənov, nə mən, nə də nümayəndə heyətinin digər üzvləri bir dəqiqə də olsun, orada boş qalmamışıq, bütün lazım olan vasitələrdən istifadə etmişik ki, bu gün Ermənistanla yaranmış bu münaqişədə nə isə müsbət bir nəticə əldə eləyək. Arzu eləyirəm və ümidvaram ki, bu nəticələr də bu qısa müddətdə əldə olunacaqdır. Diqqətinizə görə təşəkkür eləyirəm.

**Sədrlik edən.** Abbas Abbasova sualı olan varmı? Yoxdur. Əyləşin.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Var? Kim? Kamran Rəhimov, buyurun.

**Kamran Rəhimov.** Heydər Əliyevin çıxışından sonra aydın oldu ki, sizin danışıqlarınız, doğrudan da, çox yüksək səviyyədə keçib və respublikamız üçün çox əhəmiyyətlidir. Mən indi inandım ki, Milli Məclis belə bir qərar çıxarmaqda, bizim nümayəndələrin Moskvaya getməsinə razılıq verməkdə, doğrudan da, çox düzgün hərəkət eləyib. Ancaq məni bir şey maraqlandırır, Siz dediniz, iqtisadi əlaqələr yaradacağıq, bunlar hamısı düz, gələcəkdə müəssisələr işləyəcək. Ancaq bütün bunlara baxmayaraq, Siz dediniz ki, bizim bütün bu dövlət dükanlarının hamısı, demək olar ki, xüsusi mağazalara çevrilib, gəlir xüsusi adamlara gedir. Bu gün Masallıda da yolboyu hər evin qapısında dükan var, demək olar ki, benzindən tutmuş hər şey satılır. Yaxşı, Baş nazirin müavinisiniz, bunu Siz də deyirsiniz, Siz də gileylənirsiniz. Yaxşı, buna qarşı nə vaxt bir tədbir görüləcəkdir? Nə vaxt bunun qarşısı alınacaqdır? Nə vaxt bizim dövlət müəssisələrinin buraxdığı mallar bizim dövlət mağazalarında satılacaqdır, xüsusi adamlara getməyəcəkdir? Belə bir tədbir nə vaxt görüləcək, kim görəcək? Nə vaxta kimi biz gileylənəcəyik?

**Abbas Abbasov.** Hörmətli Kamran müəllim, Siz düzgün sual verirsiniz, mən Sizinlə razıyam. Mən çıxışımda da qeyd etdim ki, bu məsələlərlə məşğul olan aidiyyəti orqanlar var. Mən bu sözümü çox məsuliyyətlə təkrar eləyirəm, bu orqanlar qəti tədbir görməlidirlər. Respublikada bir milyona yaxın qaçqın var, bu gün dövlətin öz ərazisində istehsal elədiyi məhsulun qapıların ağzında satılmasına görə biz qaçqınlara o ödəmələri təyin eləyə bilmirik, yalnız ona görə ki bankda dövriyyə yoxdur, o pulun hamısı şəxsi adamların cibində yığılıb qalır. Baş nazirin müavini kimi, mən də öz fikrimi, öz rəyimi sizin müzakirənizə verirəm. Mən xahiş

eləyirəm, o aidiyyəti orqanların rəhbərləri özləri üçün nəticə çıxarsın və tədbir görsün.

**Sədrlik edən.** Yenə sual varmı? İbrahim İbrahimov buyursun.

**İbrahim İbrahimov.** Hörmətli Abbas bəy, Siz, ümumiyyətlə, iqtisadi məsələlərlə bağlı orada danışıqlar apardığınıza görə mən birbaşa öz sahənizə aid olan sualla Sizə müraciət eləmək istəyirəm. İki ildən artıqdır ki, Müstəqil Dövlətlər Birliyi fəaliyyət göstərir. Əgər məlumatınız varsa, bu iki il müddətində Müstəqil Dövlətlər Birliyinin iqtisadi coğrafiyasındakı dəyişiklik barəsində və həmin dövlətlərin iqtisadiyyatında, heç olmasa, makrostabillik yaranıbmı və Azərbaycanın iqtisadiyyatı ilə onların iqtisadiyyatı arasındakı fərqləri, çox xahiş eləyirəm, izah eləyərdiniz.

**Abbas Abbasov.** Mən Sizin sualınıza bir kəlmə ilə cavab verərdim ki, Müstəqil Dövlətlər Birliyinin iqtisadi coğrafiyası indi yaranmaq dövründədir, çünki iqtisadi saziş haqqında ümumən qərarlar qəbul olunub, ancaq Müstəqil Dövlətlər Birliyi arasında ümumi konseptual birlik hələ yaradılmayıbdır. İndi bu məsələ bütün respublikaların parlamentlərinin müzakirəsinə verilibdir. Mən də iqtisadiyyatla məşğul olan bir rəhbər kimi, öz fikrimi bildirdim ki, biz bu birliyə daxil olsaq, bu iqtisadi coğrafiyada Azərbaycan da öz yerini tapa bilər.

**Sədrlik edən.** Sabir Rüstəmxanlı, buyurun.

**Sabir Rüstəmxanlı.** Hörmətli Abbas bəy, həmin danışıqlar günündə kitab sərgisi ilə bağlı öz xəttimizlə mən də Moskvada olmuşam, doğrudan da, danışıqların hansı səviyyədə getməsi barədə Sizin dediyiniz sözlərlə mən də razıyam və bu danışıqlar nəticəsində Azərbaycana maraq müəyyən dərəcədə artmışdır. Bu, təbii ki, hamımızı maraqlandırır. Amma bilirsiniz, burada Azərbaycan iqtisadiyyatını bütünlüklə bu müqavilələrlə, Müstəqil Dövlətlər Birliyinə girməklə bağlamaq, bütün öz daxili problemlərimizi ancaq belə birliklə əlaqələndirmək, mənə elə gəlir ki, yenə bizim köhnə xəstəliyimizin bir əlamətidir.

Mirzə Cəlilin bir sözü var, yadınızdadırsa, deyir ki, “bu darı – Avropa dövlətləri – başqa darıdır, onu cırıq çuvalda, cırıq kisədə saxlamaq olmaz, ancaq müsəlmanı saxlamaq olar, saman kimidir, onu lap ən sökük bir çuvala da yığsan, orada saxlamaq olar”. Söhbət bundan gedir ki, mən üzr istəyirəm, Siz hər şeyi onunla bağlayırsınız, Moskvanın özündə bu dəqiqə zavodların yarısı dayanıb, işləmir. Müstəqil Dövlətlər Birliyinə girən bütün respublikalarda dövlət müəssisələrinin bir çoxu işləmir, amma buna baxmayaraq iqtisadiyyatında müəyyən inkişaf, irəliləyiş varsa,

bu o deməkdir ki, iqtisadiyyatlarının sahibidirlər. Mən istəyirəm, siz bu sahəyə rəhbərlik eləyən bir adam kimi, çox böyük prinsipiallıqla, məsuliyyətlə yanaşasınız, camaatımız yenə belə bir ümid eləsə ki, ora girən kimi iqtisadi cəhətdən hər şeyimiz həll olunacaq, bu bizə çox böyük bir ziyan gətirə bilər. Mən bizim dərdimizi başa düşürəm, gəlin o dərdi nəzərə alaq. Biz respublikamızı itirmək təhlükəsi qarşısındayıq, əsas məsələ budur, yoxsa iqtisadiyyat, işləyə bilmirik, buna ümidimizi bağlayırıq ki, sabah girəcəyik həmin birliyə və bütün işlərimiz düzələcək.

**Abbas Abbasov.** Sabir müəllim, mən Sizin çəkdiyiniz misala bir misal çəkmək istəyirəm, bu da bizim dədə-baba misalımızdır. Deyir: "Səndən hərəkət, məndən bərəkət". Yəni bu gün "halva-halva" deməklə ağızda şirinlik olmayacaqdır. Siz narahat olmayın, mən Sizinlə razıyam ki, birinci növbədə, bizim müəssisələrimizin mövcud imkanlarından istifadə eləmək lazımdır. Siz qeyd eləyirsiniz ki, Rusiyanın da zavodlarının yarısı işləmir, ona görə işləmir ki, arada birlik, iqtisadi birlik yoxdur, ona görə də işləmir, bizim də zavodlar işləmir, Belarusiyanın da zavodları işləmir. Bizim ümumi iqtisadiyyatımızın inteqrasiyası bir təməl üzərində qurulmuşdur, bizim texnologiyalarımız eynidir, eyni olub, bizim səviyyəmiz eyni olub, bizim bazamız da eyni olubdur. Bu gün mən sizə demirəm ki, gəlin gedək Avropa Birliyinə daxil olaq, hətta biz ora da daxil ola bilərik, ora da çox aşağı səviyyədə inkişaf eləmiş ölkələr daxil edilmişdir. Ancaq bu gün birlik nə deməkdir, yəni bir-birinə təkan verməkdir, mən çıxışımda heç də demədim ki, bizim bütün problemlərimiz yalnız birliyə daxil olsaq həll oluna bilər. Yəni, birinci növbədə, özümüzdə hərəkət olmalıdır, özümüzdə hərəkət olmalıdır ki, o hərəkətlə də biz o birliyə daxil ola bilək. Yoxsa birliyə daxil olub özümüz də oturub gözləyək ki, kimsə gətirib bizə çörək verəcək, belə şey yoxdur, iqtisadiyyatda belə şey yoxdur.

**Sədrlik edən.** Daha sual yoxdur, əyləşə bilərsiniz.

**Abbas Abbasov.** Təşəkkür edirəm.

**Sədrlik edən.** Xarici işlər naziri Həsən Həsənov, buyurun.

**Həsən Həsənov,** ***Azərbaycan Respublikasının xarici işlər naziri.*** İcazə verin.

**Sədrlik edən.** Buyurun, buyurun.

**Həsən Həsənov.** Hörmətli sədr, hörmətli millət vəkilləri, icazənizlə mən səfər nəticəsində qəbul olunan kommunikeni Milli Məclisə rəsmi təqdim edim.

***Azərbaycan–Rusiya birgə rəsmi məlumatı.***

*Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Ali Sovetin sədri Heydər Əliyev bu il sentyabrın 5-dən 8-dək Moskvada əməli səfərdə olmuşdur. Heydər Əliyev Rusiya Federasiyasının Prezidenti Boris Yeltsinlə görüşmüşdür, Rusiya Federasiyası Ali Sovetinin sədri Xasbulatov, Nazirlər Sovetinin sədri Çernomırdin, Nazirlər Sovetinin sədr müavini, Dövlət Federasiya və Millətlərin İşləri Komitəsinin sədri Şaxray, xarici işlər naziri Kozırev, müdafiə naziri Qraçov, Moskvanın bələdiyyə rəisi Rıjkov ilə söhbətlər olmuşdur.*

*Görüşlər əməli xarakter daşımış, tam qarşılıqlı anlaşma şəraitində keçmişdir. Azərbaycan–Rusiya münasibətlərinin bütün kompleksi müzakirə edilmiş, dövlət suverenliyinə və müstəqilliyinə, ərazi bütövlüyü və sərhədlərin pozulmaması prinsiplərinə qarşılıqlı hörmət əsasında bu münasibətlərin yaxşılaşması təsdiq edilmişdir. Azərbaycan–Rusiya dövlətlərarası münasibətlərin səviyyəsinin yüksəldilməsinə, iki ölkə arasında siyasi, iqtisadi və digər əlaqələrin daha da inkişaf etdirilməsi və dərinləşdirilməsi üçün bütün mövcud imkanlardan hər vasitə ilə istifadə olunmasına, bölgədə və beynəlxalq meydanda qarşılıqlı fəaliyyətin və əməkdaşlığın qarşılıqlı surətdə yüksəldilməsinə çalışdıqlarını bildirmişlər. Şərtləndirilmişdir ki, yaxın vaxtlarda Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında ənənəvi dostluq münasibətlərini və hərtərəfli bərabərhüquqlu əməkdaşlığı təsvir edən sanballı siyasi müqavilə imzalanmışdır. Qarşılıqlı əməkdaşlıq bu münasibətləri Moskvada əldə edilmiş prinsipial razılaşmalara uyğun olaraq, yeni konkret məzmunla uyğunlaşdıracaqdır.*

*Keçmiş SSR İttifaqının xarici dövlət borcunun və aktivlərinin tənzimlənməsi haqqında saziş imzalanmışdır. Baş nazirlərin müavinlərinə tapşırılmışdır ki, 1993-cü il üçün Azərbaycana dövlət krediti verilməsi haqqında sazişin, habelə texniki kreditlər üzrə borcun Azərbaycan Respublikası hökumətinə dövlət krediti kimi yenidən rəsmiləşdirilməsi haqqında sazişin layihələrini hazırlasınlar. Azərbaycan ərazisində hərbi əməliyyatların gücləndirilməsindən, onların Azərbaycanın cənub sərhədlərində kiçik rayonları əhatə etməsindən dərin qarşılıqlı narahatlıq ifadə olunmuşdur ki, bütün bunlar da Azərbaycan Respublikasının yeni-yeni ərazilərinin işğalına və qaçqınların kütləvi artımına gətirib çıxarmış və Cənubi Qafqazda ağır humanitar vəziyyət, sülh və təhlükəsizlik üçün yeni qorxu yaratmışdır.*

*Rusiya Federasiyası və Azərbaycan Respublikası bölgədə sülhün bərpa edilməsinə çalışdıqlarını və BMT Təhlükəsizlik Şurasının 822 və 853 nömrəli qətnamələrinə müvafiq surətdə Dağlıq Qarabağda, Azərbaycan Respublikasının digər rayonlarında faciəli silahlı münaqişənin siyasi vasitələrlə aradan qaldı-*

*rılmasına, ən əvvəl atəşin və qan tökülməsinin dərhal dayandırılmasına, qəsb edilmiş bütün ərazilərdən işğalçı qüvvələrin tamamilə çıxarılmasına nail olmaqda, habelə hərbi əməliyyatların yenidən başlamasını istisna edən etibarlı təminatlar hazırlanmasında fəal əməkdaşlıq etməyə hazır olduqlarını təsdiq etmişlər. Rusiya tərəfi Azərbaycanda mühakimə olunmuş altı nəfər keçmiş hərbi qulluqçusunun Rusiyanın ədalət mühakiməsinin ixtiyarına verilməsi haqqında qərar qəbul edildiyinə görə Azərbaycan parlamentinə öz minnətdarlığını bildirmişdir.*

*Yekdilliklə qeyd edilmişdir ki, Moskvada keçirilmiş görüş və söhbətlər Rusiya və Azərbaycan xalqlarının rifahı naminə, qarşılıqlı etimadın və qarşılıqlı surətdə faydalı əməkdaşlığın bərpası işində mühüm mərhələ olmuşdur. Moskva, 8 sentyabr 1993-cü il.*

İcazənizlə, hörmətli sədr və hörmətli millət vəkilləri, mən istərdim, bu kommunikenin bəzi maddələrini şərh edəm. Qeyd etmək istəyirəm ki, gördüyünüz kimi, Rusiyanın müxtəlif rütbəli, daxili və xarici siyasətdə müxtəlif yerlər tutan bütün şəxsləri Azərbaycan–Rusiya əlaqələrində eyni fikirdən və eyni mövqedən çıxış elədilər, Rusiya tərəfi Azərbaycan dövlətinin ərazi bütövlüyünü və sərhədlərinin toxunulmazlığını bir daha bu kommunikedə qeyd etdi, dövlətlərarası münasibətlərin daha yüksək səviyyəyə qaldırılması bir daha qeyd olundu.

Mən bir daha xatırlatmaq istəyirəm, Çernomırdinin yanında görüş olarkən Çernomırdin belə bir cümlə işlətdi, dedi: "Biz Azərbaycan tərəfi ilə, demək olmaz ki, heç danışıqlara girmirdik. Bu bir il yarım ərzində bir neçə dəfə Azərbaycan tərəfindən danışıqlar olub, amma açıq-aydın demək istəyirik, biz axıracan başa düşmədik, Azərbaycan bizdən nə istəyir? Məsələni necə qoyur və hansı mövqedədir?" Bu baxımdan bu danışıqlar həddindən ziyadə çox konkret idi. Rusiya sənədlərində ilk dəfə olaraq Azərbaycan torpaqlarının zəbt olunması qeyd olundu, indiyə qədər Rusiya bu məsələnin üstündən ötəri keçirdi. Dağlıq Qarabağ problemi ətrafında Rusiya ilə Azərbaycan arasında əməkdaşlıq etmək haqqında da razılıq əldə olundu. Bu məsələnin nə dərəcədə vacib olduğunu mən sonra deyəcəyəm. İşğalçı qoşunların təcili surətdə zəbt olunmuş torpaqları azad etməsi haqqında da razılıq əldə olunub. Heydər Əliyev dedi, mən bir daha qeyd etmək istəyərdim ki, Rusiya rəhbərləri açıq-aydın bu işdə fəal fəaliyyətə keçməklərini qeyd elədilər. Dağlıq Qarabağın Azərbaycana mənsubiyyəti Rusiya dövlət sənədlərində, demək olar ki, ilk dəfə qeyd olundu. İndiyə qədər Rusiya Dağlıq Qarabağ və Azərbaycanın digər regionları cümləsini, demək olar ki, heç işlətmək istəmirdi.

Azərbaycana kredit vermək məsələsi də, qeyd edə bilərəm ki, çox operativ şəkildə, elə danışıqlar gedən zaman həll olundu. Adları çəkilən şəxslərdən əlavə, qeyd etmək istəyirəm, şəxsən Heydər Əliyev Rusiyanın onlarca görkəmli siyasi və ictimai xadimi ilə görüşdü, Azərbaycanın mövqeyini bir daha onlara çatdırdı. Qeyd edə bilərəm ki, bizim rəsmi tərəf müqabilimizdən, Rusiyanın adları çəkilən hazırkı dövlət xadimlərindən başqa, Rusiya ictimaiyyəti, Rusiyanın bir neçə siyasi xadimləri arasında, demək olar, bu söhbətlər nəticəsində tərəf-müqabil əldə elədik. Heydər Əliyev 200-dən artıq jurnalistə 4 saata yaxın müsahibə verdi. Təxminən təsəvvür edin, 200 jurnalist 4 saatlıq müsahibəni nə dərəcədə dünyaya yayacaqlar, Azərbaycanın mövqeyi dünyaya hansı dərəcədə bir də tanıtdırılacaq.

Altı rus əsgərinin Rusiyaya qaytarılması müsbət qarşılandı. Mən bunu ona görə xüsusi ilə qeyd edirəm ki, mən hələ buradan uzaqlarda olarkən eşitdim, bundan əvvəlki həmin addım Rusiyada nə cür qarşılanmışdı. Heydər müəllim, nəzərinizə çatdırmaq istəyirəm ki, artıq biz Xarici İşlər Nazirliyi ilə danışdıq və bu günlərdə, yəqin, bunların təqdimatı ilə bir yerdə Azərbaycanın Ermənistanda olan adamları ilə dəyişmə gedəcək və azərbaycanlıları Rusiyanın şəhərlərinin birində Azərbaycana təhvil verəcəklər.

Qeyd etmək istərdim ki, 1992-ci ildə Azərbaycanla Rusiya arasında qəbul olunan müqavilədə Dağlıq Qarabağ problemi öz əksini tapmamışdır. İki tərəf, yəni Azərbaycan və Rusiya tərəfi bunu müxtəlif səbəblərlə izah edirdi. Bunların səbəbləri qalsın, amma bir amil açıq gözə çarpırdı ki, indiyə qədər Rusiya ilə Azərbaycan arasında Qarabağ probleminin həllində, demək olar, heç bir məsələdə ümumi mövqe yox idi. Bu kommunikedən və bu danışıqlardan sonra biz görürük ki, bir sıra məsələlərdə ümumi mövqe vardır, yəni Azərbaycan torpağı zəbt olunub, iki tərəf də bunu təsdiq edir. Azərbaycan torpağını zəbt edən qoşunlar təcili olaraq onu tərk eləməlidirlər. Bu da təsdiq olunub və bu, əsas amillərdir və bundan başqa, deməli, digər göstəricilər vardır.

Həmin kommunikedə qarşılıqlı etimadın bərpası yolunda bu danışıqların mühüm mərhələ olduğu bir daha qeyd olunur. Ümumiyyətlə, dövlətlər arasında qarşılıqlı etimad ən vacib amillərdəndir, çünki biz bilirik, insanlar arasında da qarşılıqlı etimad əlaqələri yaratmaq üçün ən böyük amildir və mən xüsusi qeyd etmək istərdim ki, bu qarşılıqlı etimadın əsas və həlledici amili məhz Heydər Əliyevin şəxsiyyətidir. Məhz Heydər Əliyevi Rusiyanın bütün rütbədə olan dövlət xadimləri cəsarətli,

sözübütöv, dövlət işində səriştəli, inama layiq, tarix sınağından mərdliklə çıxan bir şəxsiyyət kimi qiymətləndirib qarşıladılar. Mənə belə gəlir ki, Azərbaycanla Rusiya arasında qurulan gələcək siyasətimiz məhz bu təməl üzərində qurulacaqdır, bizim isə hamımızın borcudur ki, bu təmələ hərə öz payını versin.

Azərbaycanla Rusiya münasibətlərinin üstüörtülü, naməlum mövqelərdə qalmasını əsas istəyənlərdən biri də erməni tərəfidir, çünki dünya diplomatiyasının sınaqdan keçmiş bir üsulu, çox məşhur bir formulası var. O da ondan ibarətdir ki, rəqibi olan kəs onun müttəfiqindən uzaqlaşmamalı, ona yaxınlaşmalı, onunla əlaqəyə girməli, hətta rəqibin müttəfiqini özünə müttəfiq eləməlidir. Mən belə qiymətləndirirəm, bu səfər və bu səfərin üzərində qurulmuş gələcək siyasətimiz məhz bunun üstündə qurulubdur ki, Rusiya indiyə qədər rəqibimizin birmənalı müttəfiqi idi, indi biz hesab edirik, Rusiya həmçinin Azərbaycanın müttəfiqi olmalıdır.

Moskvada Türkiyənin Baş naziri Tansu Çillər və xarici işlər naziri Hikmət Çətinlə də görüş oldu. Görüş vaxt baxımından təsadüfən olsa da, yəni təsadüfən eyni vaxta salındığına baxmayaraq, mənə belə gəlir ki, bu görüş həm məntiqi idi, həm də labüd idi. Danışıqlarda iki qrup məsələ müzakirə olundu. Heydər Əliyev ətraflı söylədiyinə görə mən ancaq tezis şəklində demək istəyirəm.

Birinci, Rusiya ilə əlaqələri möhkəmləndirmək həm Azərbaycan üçün, həm də Türkiyə üçün əlverişli və vacibdir. İstər ikitərəfli əlaqələr, Türkiyə–Rusiya, Azərbaycan–Rusiya, istərsə də bu əlaqələrin üçbucağı, yəni Rusiya–Türkiyə–Azərbaycan əlaqələri.

İkinci, Azərbaycanla Türkiyənin qardaşlıq və dostluq əlaqələri heç bir qüvvə vasitəsi ilə pozula bilməz və həmin əlaqələr yeni mərhələyə qaldırılacaq. Bayaq Heydər Əliyev Hikmət Çətinin gəlməyini qeyd etdi. Heydər müəllim, nəzərinizə çatdırıram, məlumat gəldi ki, ayın 17-də Hikmət Çətin bura danışıqlara gəlir.

İcazənizlə, mən MDB-yə aid bir kəlmə də qeyd etmək istəyirəm. 1992-ci il ərzində MDB-nin hansı yolla gedəcəyi çox mübahisəli və naməlum idi. Artıq MDB 1993-cü ilin yanvar ayının 22-də öz Nizamnaməsini qəbul edib. MDB-nin nə olduğu, hansı yolla getməyi və dövlətlərin müstəqilliyini poza biləcəyi və ya poza bilməməyi əgər yanvar ayının 22-nə qədər naməlum və çoxmənalı idisə, indi artıq açıq-aydındır və mən həmin sənədlə tanış olmuşam və öz tərəfimdən qeyd etmək istərdim ki, MDB-nin Nizamnaməsinə əsasən, müstəqil dövlət istər daxili siyasətdə, istər xari-

ci siyasətdə, istərsə də iqtisadi siyasətdə öz müstəqilliyini tamamilə saxlayır. Bundan başqa, MDB-nin bir üstünlüyü vardır ki, ondan ermənilər istifadə elədilər, biz isə həmin o üstünlükdən istifadə eləmədik, yəni Kollektiv təhlükəsizlik müqaviləsi. Kollektiv təhlükəsizlik müqaviləsi məhz Rusiya ilə Ermənistan arasında, deməli, münasibətlərin əsasını təşkil edirdi və Qraçov açıq-aydın bunu qeyd elədi.

Heydər müəllim, icazənizlə, mən indi ya Amerika məsələsinə, ya da suallara keçə bilərəm.

**Sədrlik edən.** Buyurun, keçin o biri məsələyə.

**Həsən Həsənov.** Mən istərdim, Klintonun Heydər Əliyevə yazdığı məktubu oxuyam, amma oxumazdan əvvəl bir məsələyə fikrinizi cəlb etmək istəyirəm. SSRİ dağılandan sonra ABŞ hökuməti yeni müstəqil dövlətlərə xüsusi yardım proqramını Konqresə təqdim etmişdi. ABŞ Konqresi bu proqramı 1992-ci ilin oktyabr ayında qəbul etmiş və ABŞ Prezidenti onu qanun kimi imzalamışdı. Qanunun rəsmi adı "Azadlığı Müdafiə Aktı"dır. Mən istəyirəm, hamı bu sözü yadında saxlasın, "Azadlığı Müdafiə Aktı", çünki bu, Amerikanın bizə aid olan çox vacib bir qanunudur. Həmin qanuna əsasən, ABŞ tərəfindən yeni müstəqil dövlətlərə bir neçə milyard dollar həcmində müxtəlif yollarla yardım göstərilməkdədir. Söhbət təxminən on beş milyarddan gedir. Lakin Azərbaycan bundan məhrum edilmişdir. Səbəbi həmin qanuna 907 nömrəli maddənin əlavə olunmasıdır. Mən istərdim, bu maddəni olduğu kimi, sitat şəklində oxuyum. Birləşmiş Ştatların yardımı bu və ya digər aktlar çərçivəsində Azərbaycan dövlətinə o zamana qədər göstərilməyəcək ki, Prezident Konqresə müraciət edib Azərbaycan hökumətinin Ermənistana və Dağlıq Qarabağa qarşı blokadalarının və digər güc işlətmələrinin dayandırıldığını bildirsin.

Heydər müəllim, Siz təklif etdiniz ki, Amerikanın lobbi sistemi haqqında mən ətraflı məlumat verim. Mən hazıram, amma mən istərdim, o, xüsusi bir toplantıda olsun. İndi isə mən bir məsələni qeyd etmək istəyirəm ki, Azərbaycanın Ermənistana nisbətən lobbisinin zəif olması, daha doğrusu, lobbisinin heç olmaması bu əlavənin səbəblərindən biridir. Erməni diasporasının Azərbaycan diasporasına nisbətən daha mütəşəkkil olması səbəblərdən biridir və nəhayət, ən başlıcası, Azərbaycanın Amerika Birləşmiş Ştatları ilə məqsədyönlü, dövlət səviyyəsində, düşünülmüş, real və uzunmüddətli siyasi əlaqələr proqramının olmamasından irəli gəlmişdir. Mən istərdim ki, hörmətli millət vəkilləri bunu bilsinlər

və Azərbaycan–Amerika əlaqələrinin müasir səviyyəsini qiymətləndirərkən bu amilləri nəzərə alsınlar.

Mən istərdim, indi məktubu oxuyum. “11 sentyabr 1993-cü il. Zatialiləri Azərbaycan Respublikası parlamentinin Spikeri Heydər Əliyevə. Hörmətli cənab Spiker! Bu yaxınlarda göndərdiyiniz məktublara cavab olaraq Dağlıq Qarabağın erməni qüvvələri tərəfindən Azərbaycana qarşı edilən son hücumlar, həmçinin öz torpaqlarından qovularaq ağır vəziyyətə düşmüş yüz minlərcə azərbaycanlı ilə əlaqədar öz dərin həyəcanımı Sizə ifadə etmək istərdim. Sizə məlum olduğu kimi, ABŞ bu yaxınlarda hər birinə, Beynəlxalq Qırmızı Xaç Komitəsinə və BMT-nin Qaçqınlar üzrə Ali Komissiyasına Azərbaycandakı qaçqınlara kömək etmək məqsədi ilə bir milyon dollar ayırmışdır. Biz daha sonra, xüsusi ilə yaxınlaşan soyuqlarla əlaqədar dinc əhalinin günahsız qurbanlarına kömək etmək məqsədi ilə başqa imkanlar da axtaracağıq.

Yaxınlaşan qışın Qafqaz xalqları üçün ötən qışdan daha ağır olacağı məni düşündürür. Bölgədəki münaqişə nəticəsində daşınma yollarının pozulması müəyyən qədər Ermənistan və Naxçıvanı ətraf mühitdən təcrid etmişdi. Bundan əlavə olaraq, bu əhalinin daha çox məhrumiyyətlərə düçar olan hissəsinə, məsələn, Gürcüstandakı və Azərbaycanın həmçinin digər hissələrindəki qaçqınlara kömək etməyi çətinləşdirir. Gürcüstanın limanlarından gedən dəmiryollarının kəsilməsi nəticəsində keçən həftə vəziyyət daha da ağırlaşmışdı. Bizim siyasətimiz həmişə həm Ermənistanın, həm də Azərbaycanın dinc əhalisi üzərində ağır yük olan Dağlıq Qarabağ münaqişəsinin nəticələrini maksimum yüngülləşdirmək məqsədi güdmüşdür. Elə bilirəm ki, Naxçıvanın ötən qışda düşdüyü ağır vəziyyəti yadınıza salmaq artıq olardı. Biz Azadlığı Müdafiə Aktının 907 nömrəli maddəsi çərçivəsində əldə etdiyimiz kiçik imkanlardan istifadə edərək razılaşdırılmış səylər nəticəsində Naxçıvana zəruri tibbi yardım göndərmişik.

Cənab Spiker! Bu qışda heç kəsin belə ağır məhrumiyyətlərlə üzləşməməsi məqsədilə mən Sizi ABŞ və digər qonşu dövlətlərlə sıx əməkdaşlıq etməyə çağırıram. Biz yalnız humanitar yardım, ərzaq, tibbi ləvazimat, geyim və soyuqdan qorunmaq məqsədilə Ağstafa, İcevan və oradan Yerevan–Naxçıvan dəmiryollarının bərpa olunduğunu görmək istərdik. Hər bir daşınma həm Azərbaycana, həm də Ermənistana hərbi sursatın gətirilməsinin qarşısını almaq məqsədilə yoxlanılacaqdır. Həm Azərbaycanda, həm də Ermənistanda dinc əhalinin çəkdiyi olmazın məşəqqətlərə baxmayaraq, Dağlıq Qarabağ münaqişəsinə son qoyulmamışdır.

Təklifimə diqqətlə yanaşmağınızı Sizdən təkidlə xahiş edirəm. Biz cəld hərəkət etsək, Naxçıvan, Ermənistan və Azərbaycanın qaçqınları arasında minlərcə insanın həyatını xilas etmiş olarıq. Sizin Azərbaycanın xoş niyyətini və humanist prinsiplərə sadiq olduğunu göstərmək və bununla Azadlığı Müdafiə Aktının 907 nömrəli maddəsinə tərəf addım atmaq üçün imkanınız var.

Beynəlxalq ictimaiyyətin, BMT Təhlükəsizlik Şurasının 822, 853 nömrəli qətnamələrində Dağlıq Qarabağ ermənilərinin Azərbaycan ərazilərini işğal etməsinə dair ifadə etdiyi münasibəti bizi xeyli ruhlandırdı. Beynəlxalq təzyiq Dağlıq Qarabağ ermənilərini hücumdan çəkinməyə vadar etmişdi. İnanıram ki, davamlı təzyiq silahlı qüvvələrin işğal olunmuş Azərbaycan ərazilərindən çıxarılmasını təmin edəcəkdir. ABŞ öz növbəsində Ermənistan hökumətinə daim təzyiq göstərir. Keçən həftə dövlət katibi Kristofer erməni həmkarına sərt məktubla müraciət etmiş və Ermənistanı Dağlıq Qarabağ ermənilərini çəkindirmək və Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirməyə məcbur etmək məqsədilə öz nüfuzundan daha səmərəli istifadə etməyə çağırmışdır. Dövlət katibi Kristofer aydınlaşdırmışdır ki, biz yeni vədlər deyil, hiss olunacaq konkret nəticələr gözləyirik.

Bundan əlavə, biz uzunmüddətli atəşkəsin təmin edilməsi və beynəlxalq müşahidəçilər qrupunun yerləşdirilməsinə nail olmaq məqsədilə ATƏM-in Minsk qrupunda fəal surətdə çalışırıq. Biz Azərbaycanın dəfələrcə yenidən ATƏM-in Minsk qrupunun atəşkəs haqqında təkliflərinə yönəlmiş istəyini alqışlayır və sizi Dağlıq Qarabağ ermənilərinə qarşı daha bir təsir vasitəsi olan Minsk qrupunda fəal iştirak etməyə çağırırıq. Əlavə etmək istərdim ki, Dağlıq Qarabağ erməniləri ilə bilavasitə əlaqə yaratmaqla göstərdiyiniz cürət və yüksək siyasi məharətiniz məni mütəəssir etdi. Əminəm, davam edən xoş niyyət dialoqu, təəssüf ki, Azərbaycan və Dağlıq Qarabağın etnik erməni əhalisi arasında bu gün də mövcud olan düşmənçiliyi və şübhəni tədricən zəiflədəcəkdir. Hörmətlə, Amerika Birləşmiş Ştatlarının Prezidenti Bill Klinton".

Məktubu bitirərkən bəzi fikirlərimi nəzərinizə çatdırmaq istəyirdim. Mənə şəxsən belə gəlir ki, Azərbaycanda və onun ətrafında olan vəziyyəti obyektiv təhlil etsək, həmin müraciətin göndərilməsi müsbət bir fakt kimi qəbul olunmalıdır. Bu cür müraciətin Amerika Birləşmiş Ştatları kimi güclü dövlətin rəhbərliyi tərəfindən göndərilməsi Azərbaycanın dünya birliyində ABŞ-ın simasında böhrandan çıxmaq üçün bir tərəf-müqabil tapmasını göstərir. İndiyə qədər də Amerika Birləşmiş Ştatları kənarda

qalmamışdı, amma bu məktubda bu, açıq-aydın öz tərəf-müqabilliyini bir daha göstərir. Amerika Prezidentinin Azərbaycanın hazırkı rəhbərliyi ilə və şəxsən Heydər Əliyevlə ən yüksək səviyyədə açıq və birbaşa dialoqa hazır olması bir daha bunu təsdiq edir. Məktubu bitirərkən sonuncu fikri mən bir daha təkrar etmək istərdim.

ABŞ Prezidenti Bill Klinton Heydər Əliyevə müraciət edərkən bu sözlərlə bitirir: "Göstərdiyiniz cürət və yüksək siyasi məharətiniz məni mütəəssir edir". Bizim ümidverici amillərimizdən də biri, Heydər müəllim, məhz Sizin fəaliyyətinizə dünya siyasətçiləri tərəfindən verilən bu qiymətdir.

Talbotla görüş haqqında çox ətraflı söylədiniz, ona görə də icazənizlə, mən onun üzərində dayanmazdım, amma bir faktı istərdim, nəzərinizə çatdıram ki, görüşün iki saatdan dörd saata keçirilməyinin əsas səbəbi məhz görüşün çox konstruktiv və məzmunlu olmağıdır. Bir faktı da istəyirəm deyəm ki, Talbot söhbətin əvvəlində qeyd etdi ki, 13 il bundan əvvəl Heydər Əliyevlə görüşübdür və bu 13 il ərzində Heydər Əliyevlə bir daha görüşü öz ürəyində niyyət kimi saxlayıb. Maraqlıdır ki, Heydər Əliyev o görüşü yadında saxlamayıbdır, amma Talbot o görüşü yadında saxlayıbdır. Deməli, dünyada bu gün Azərbaycanın taleyini həll edə biləcək daha neçə siyasətçinin ürəyində bu görüşlər və Heydər Əliyevin simasında özünü tərəf-müqabil görmək istəyi vardır.

**Sədrlik edən.** Bitirdiniz? Həsən Həsənova sual varmı? Buyurun, Şadman Hüseynov.

**Şadman Hüseynov.** Həsən Əziz oğlu, Rusiya hökumət dairələrində Dağlıq Qarabağı Azərbaycanın bir regionu, yoxsa bir siyasi qurum kimi qəbul etdilər?

**Həsən Həsənov.** Xeyr! Bu məsələ orada geniş müzakirə olundu və müzakirə olunarkən Rusiya tərəfində, deməli, fikir ayrıldı. Rusiya nümayəndə heyətinin tərkibində elə tərəf var idi, onlar hesab edirdilər, Dağlıq Qarabağ Azərbaycan sözü olmadan yazılmalıdır, necə ki, biz çox vaxt bununla rastlaşırıq. O birisi qüvvələr isə dedilər ki, xeyr, Dağlıq Qarabağ sözünün ardında Azərbaycan sözü də olmalıdır. Uzun mübahisədən, böyük fikir mübadiləsindən sonra belə nəticəyə gəlindi ki, bu belə yazılsın və məhz Dağlıq Qarabağın Azərbaycan ərazisində olduğu qeyd olunur. O kommunikedən açıq-aydın görsənir, istəsəniz, mən onu bir də tapıb, bir də oxuyaram, necə yazılıb. Üzr istəyirəm, o cümləni tapım. Tapa bilmirəm, amma sizdə vardı, kağızlarım çoxdur. Dağlıq Qarabağ və Azərbaycanın digər rayonları. Bu açıq-aydın bildirilir.

**Şadman Hüseynov.** İkinci bir sualım. İşğal olunmuş torpaqlar, yəni erməni ordusu tərəfindən işğal olunmuş torpaqlar sırasında Dağlıq Qarabağ gedir, yoxsa getmir? Mən yəni deyirəm ki, Rusiya hökumət dairələri bunu beləmi qəbul edirlər, yoxsa ancaq Zəngilan, Qubadlı və digər regionları qəbul edirlər?

**Həsən Həsənov.** Qeyd etmək istəyirəm, ümumiyyətlə, nə Rusiya dövləti, nə də dünyanın bir çox böyük dövlətləri hələlik Ermənistanı təcavüzkar kimi qiymətləndirmirlər. Ermənistanı təcavüzkar kimi qiymətləndirən, demək olar ki, ancaq bizimlə tarixi və mədəni çox yaxın olan dövlətlərdir. Ona görə də Rusiya bu işğalı ancaq və ancaq Dağlıq Qarabağ ermənilərinin ayağına yazır.

**Şadman Hüseynov.** Mən üzr istəyirəm, dialoq kimi alınmasın. Mən nəyə görə o sualı verdim? Çünki Milli Şura 1991-ci ildə qərar qəbul eləmişdi ki, Dağlıq Qarabağın vilayət statusu götürülsün. Bunu hər halda Rusiyanın hökumət dairələri bilir. Mən ona görə maraqlanırdım ki, onlar həmin statusun ləğv olunmasını bilə-bilə yenə də Dağlıq Qarabağı bir vilayət kimi və yaxud da respublika kimi qəbul edirlər, yoxsa yox? Mən rəsmi dairələrdən söhbət aparıram.

**Həsən Həsənov.** Mən həm Rusiyanın mövqeyini, həm də dünya mövqeyini deyim. Dağlıq Qarabağ bir region kimi artıq dünya siyasətinə daxil olubdur. İstər onun vilayət statusu, istərsə də respublika statusu olsun, amma bütün dünya siyasətçiləri, bütün dünya dövlətləri Dağlıq Qarabağı məhz region kimi qəbul edirlər.

**Sədrlik edən.** Nurəddin Əhədov buyursun.

**Nurəddin Əhədov.** Hörmətli Həsən müəllim, mən Sizin məlumatı diqqətlə dinlədim. Mən hörmətli Heydər bəyin də məlumatını çox diqqətlə dinlədim və sizin hər ikinizin məlumatında bir neçə dəfə xatırlandı, Ermənistanla Rusiya arasında Kollektiv təhlükəsizlik haqqında müqavilə var və Siz qeyd etdiniz, görüşlərinizdə eyhamla da olsa, bildirirlər ki, bu müqavilə olduğu üçün onlar Ermənistana yardım edə bilirlər, amma Azərbaycana yox. Maraqlıdır, siz orada belə bir sual vermədiniz ki, axı bu müqavilə Rusiyaya heç bir hüquq vermir ki, Ermənistana yardım göstərsin, çünki Ermənistan təcavüzə məruz qalmayıb. Təcavüzə məruz qalan Azərbaycandır, müharibə də Azərbaycanın daxilində gedir, ərazisinin içində gedir. Rusiya hansı hüquqla Ermənistana kömək edir?

**Həsən Həsənov.** Birinci, qeyd etmək istəyirəm ki, çox sağ olun ki, diqqətlə məni də, Heydər Əliyevi də dinləyibsiniz.

İkinci, qeyd etmək istəyirəm ki, məsələ ancaq Kollektiv təhlükəsizlik müqaviləsi ilə bitmir. Rusiya ilə Ermənistanın ikitərəfli müqaviləsi də vardır. Bu da əsas verir ki, onlar, deməli, bu yardımı onlara göstərsinlər. O ki qaldı kollektiv təhlükəsizlik nəyə hüquq verir, nəyə hüquq vermir, mən Sizə məsləhət görərdim, kollektiv təhlükəsizlik sənədini öyrənəsiniz və orada görərsiniz ki, nə dərəcədə kollektiv təhlükəsizlik hissləri vardır. Mənim fikrimi bilmək istəsəniz, orada çoxdur.

**Sədrlik edən.** Sabir Rüstəmxanlı, buyurun.

**Sabir Rüstəmxanlı.** Həsən müəllim, bizim Qarabağla bağlı siyasətimizin ən böyük qüsurlarından biri budur ki, neçə ildir, məsələ ancaq bu cür ifadə olunur. Qarabağ ətrafında münaqişə. Çox qəribədir ki, bir rayon tutulanda ondan əvvəl tutulan rayon yaddan çıxır. Məsələn, Kəlbəcər haqqında danışanda bizim siyasətçilərimiz Laçını yaddan çıxarırlar. Ağdam tutuldu, sonra Kəlbəcər yaddan çıxdı. Belə-belə davam edir bu. Birinci dəfə Heydər Əliyevin çıxışlarında bu, açıq-aydın Ermənistan–Azərbaycan münaqişəsi kimi qoyulub, Dağlıq Qarabağ–Azərbaycan məsələsi kimi yox. Amma buna baxmayaraq bunu hələ dünya siyasətinə qəbul elətdirmək olmur. Klintonun məktubunda var ki, Qarabağın Azərbaycan ərazilərinə hücumu.

Yadımdadır, Siz Amerikada olanda da bu məsələ ilə bağlı çox çalışırdınız. Siz necə təsəvvür edirsiniz, o məsələni dəqiqləşdirmək, yəni dünya ölkələrinə qəbul elətdirmək üçün ki, bu, Qarabağla Azərbaycanın münaqişəsi deyil, məhz Ermənistanla Azərbaycanın müharibəsidir, nə işlər görmək olar, həm siyasi cəhətdən, həm də faktik materiallar sarıdan?

**Həsən Həsənov.** Birinci, deməli, nə Kəlbəcərin, nə də Ağdamın zəbt olunmağı yaddan çıxmayıb, çünki həmin kommunikedə, Rusiya səfərinin nəticəsində qəbul olunmuş kommunikedə BMT-nin 822 nömrəli...

**Sabir Rüstəmxanlı.** ... Yazılandan gedir. Üzr istəyirəm, burada çoxlu elə yazılar var...

**Həsən Həsənov.** Başa düşdüm. Yəni Rusiya bunu təsdiq edir, 822-ni və 853-ü qeyd edərkən qüvvədə saxlayır ki, həm Kəlbəcər, həm Ağdam, həm Füzuli, həm Zəngilana aiddir. Bilirsiniz, Ermənistanı təcavüzkar kimi qiymətləndirmək olduqca böyük və çətin bir problemdir, ona görə də mənə belə gəlir ki, Dağlıq Qarabağla bilavasitə əlaqələrə girməməyimiz, bir növ, bu məsələni tormozlaşdırmışdı. Niyə? Çünki məsələni necə var, elə də demək lazımdır. Məsələnin isə əsli bundan ibarətdir ki, Dağlıq Qarabağ erməniləri separatçı bir hərəkat qurublar, silahlanıblar və Azər-

baycan torpağını parçalamaq istəyirlər və buna əsasən də bütün dünya dövlətlərində bu formula vardı. Həmin hökumət, istər onun parlamenti, istər onun hökuməti, istər onun prezidenti bilavasitə bu separatçılarla əlaqəyə girməlidir, onlarla danışıqlara girməlidir, onların mövqeyini müəyyənləşdirməlidir və müəyyən yol tapmalıdır ki, bu məsələni həll eləsin. Biz isə gözümüzü yummuşduq və elə bilirdik ki, əgər biz separatçının olduğunu demiriksə, demək, dünya bunu qəbul eləməyəcək.

Ermənistanın təcavüzkar olub-olmaması isə, bu məsələnin sübutu həddindən artıq çətindir. BMT-nin tarixində ancaq və ancaq iki dövlət təcavüzkar adlandırılıb. İraq və Koreya, hətta İsrail–Fələstin münaqişəsində açıq-aydın təcavüzkar qiyməti verilməyib. Bosniya dövlətindən heç bir şey qalmayıb, amma Serbistana da orada heç də təcavüzkar qiyməti verilməyib. Bu da dünya siyasətinin bir ənənəsidir. Bizim kimi balaca bir dövlət dünya siyasətinin ənənəsini poza bilməz. Biz gərək öz siyasətimizi qurarkən dünya siyasətinin, deməli, prinsiplərini nəzərə alaq və ona əsasən quraq.

**Sədrlik edən.** Yenə sual varmı?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Yoxdur. Sağ olun. Əyləşin.

Bizim məlumatlarımız bitdi. Mənə belə gəlir ki, Məclis üzvləri və bizi televiziya ilə seyr edənlər Azərbaycan nümayəndə heyətinin Rusiyaya səfəri və onun yekunları ilə əlaqədar artıq geniş məlumat alıblar. İndi suallara cavab verəndə Abbas Abbasov və Həsən Həsənov da bəzi məsələləri də aydınlaşdırdılar, ancaq elə bu axırıncı sualla, Sabir Rüstəmxanlının sualı ilə əlaqədar olaraq mən bir şeyi yada salmaq istəyirəm. Bilirsiniz, mən məlumat verəndə də dedim, ən böyük çatışmazlığımız, nöqsanımız ondan ibarət olubdur ki, bu 5 ildən artıq dövrdə başımıza gələn bəlaları vaxtında biz dünya miqyasında təbliğ edə bilməmişik, yəni göstərə bilməmişik. Bu bəlanın bizə qarşı təcavüz xarakteri daşıdığını biz sübut edə bilməmişik və bir də bu fikri qeyd etmək istəyirəm. Daxilimizdə elə, bağışlayın, bir az loru söz işlədəcəyəm, hoppulub düşməklə hesab eləmişik ki, hər şeyi həll eləyirik. Bilirsiniz, bu da ondan irəli gəlib ki, biz elə bu çərçivədən kənara çıxa, dünya siyasəti ilə dərindən məşğul ola bilməmişik, dünya dövlətlərinin bu məsələlərdə nə cür hərəkət etdiklərini və edə bilmələrini bilməmişik. İndi bu bizim ümumi bəlamızdır, bunu bir adamın, iki adamın üstünə yıxmaq olmaz. Bu beş il müddətində bizim Azərbaycan Respublikasının başına gələn bəladır, ancaq bax bu çatışmazlıq,

hətta çatışmazlıq deyil, bu bizim özümüzün özümüzə vurduğumuz zərbə bu vəziyyətə gətirib çıxarıb.

Mən məlumat verərkən qeyd etdim, biz böyük bir xəritə aparmışdıq ora, sizə çatdırmaq istəyirəm ki, mən səfərə hazırlaşarkən Həsən Həsənovdan xahiş elədim, siz bir xəritə hazırlayın, son dövrdə buraxılan, Dağlıq Qarabağ Muxtar Vilayətinin ləğv olunmasından sonra tərtib olunmuş, yaranmış xəritələrdir. Orada Dağlıq Qarabağ Muxtar Vilayətinin hüdudları, sərhədləri göstərilmir. Yəni necə ki, biz Dağlıq Qarabağ vilayətini ləğv eləmişik və onların rayonlarını özümüz istədiyimiz kimi xəritəyə salmışıq, ancaq bu xəritəni bizdən savayı heç kəs qəbul etmir. Bunu siz bilməlisiniz. Ona görə də mən Moskvada danışıqlarda əyani surətdə göstərmək üçün bizim ərazimizin başına nə iş gəlib, Həsən Həsənovdan xahiş elədim ki, siz iki, üç il bundan öncə olan xəritələrdən inzibati xəritələr var, rayonların hüdudları görsənir, o cümlədən keçmiş Dağlıq Qarabağ vilayətinin də, onun ətrafında olan rayonların da hüdudları görsənir, onların hamısı əyani surətdə olsun.

Təsəvvür edin ki, Həsən Həsənov birinci dəfə mənə bir xırda xəritə gətirdi ki, oradan bir şey anlamaq olmurdu. Sonra mən onu məcbur edəndə ki, iki il bundan əvvəl olan xəritələrdən birini tap, onu tapa bilmədi. Mən istərdim ki, balaca bir xəritə olsun, rayonlar da, keçmiş Dağlıq Qarabağ vilayəti də göstərilsin, biz stol üzərinə qoyub onu göstərə bilək, ancaq başqası olmadı, böyük bir xəritə gətirdi. Ancaq biz utanmadıq, şəxsən mən də utanmadım, o xəritəni vurdum qoltuğuma, hər otaqda, Rusiyanın Prezidenti Boris Yeltsinlə də görüşəndə açdım stolun üstündə, göstərdim, bax, siz Dağlıq Qarabağ deyirsiniz, bu, keçmiş Dağlıq Qarabağ vilayətinin hüdudlarıdır, bu isə onun ətrafında olan rayonlar. Onların sahəsi gözlə görsənir və hər bir rayonun əhalisi. Onları göstərəndə həm Rusiyanın Prezidenti, ondan savayı bütün görüşlərdə o xəritə stolun üstündə olub. Ora baxanda, bəli, keçmiş Dağlıq Qarabağ vilayəti budur. Amma bundan sonra Laçın rayonu, baxın, görün nə qədər böyük sahədir, əhalisi 60 mindən yuxarı, 70 minə qədər, Kəlbəcər rayonu, görün, nə qədər böyük sahədir, əhalisi 60 mindən yuxarı. Ağdam rayonu, sahəsi, bəlkə də, Kəlbəcər, Laçın rayonunun sahəsindən kiçikdir, amma əhalisi 160 minə qədərdir. Füzuli rayonu ondan böyükdür, əhalisi 120-130 min. Cəbrayıl rayonu, eyni sahədir, əhalisi 110-120 minə qədərdir. Nəhayət, Qubadlı rayonunun əhalisi 60 minə qədər.

Mən bunları onlara deyirdim, baxın. Keçmiş Dağlıq Qarabağ vilayəti, mənim xatirimdədir ki, onun ərazisi 4 onda neçə min kvadratmetr idi,

ancaq xəritədə bu çox aydın görsənir. Özü də böyük xəritə, böyük xəritə daha da yaxşı təsir bağışlayır. Əhalisi isə o vaxt, mənim xatirimdədir, 180 min idi. 180 min əhalisindən də 70 faizi erməni, 30 faizi azərbaycanlı idi. İndi hamısı ermənilərin əlindədir. Amma onun yanında Ağdam rayonu, 160 min əhalisi var. O birisi rayonların da hamısının əhalisini saydım. Bu rayonlar ki işğal olublar, onların əhalisi keçmiş Dağlıq Qarabağ vilayətinin əhalisindən iki dəfə çox, bəlkə də, iki dəfə yarım, 3 dəfə çoxdur. Ərazisi ondan çox, ona görə də təcavüz bundan ibarətdir.

Bilirsiniz, bu təcavüzü bu şəkildə əyani surətdə göstərəndə artıq deməyə sözləri yox idi. Danışıq apardığımız adamlar məcburdurlar ki, desinlər, doğrudan da, belədir. Ancaq Həsən Həsənov bunu sizə məlumat verdi, deyirdilər ki, beynəlxalq təşkilatda çalışıb, orada işləyib, oranın ab-havasını bilir. Bəli, indiyə qədər, təəssüf ki, Ermənistan bir təcavüzkar kimi heç bir dövlət tərəfindən göstərilməyib. Olmayıb. Ancaq Sabir Rüstəmxanlı da düz qeyd etdi, mən həmişə bütün danışıqlarımda və bugünkü danışığımda da Ermənistanın Azərbaycana təcavüzünü deyirəm. Ancaq bunu biz deyirik. Bəli, bu belədir, bu, həqiqətdir, amma bu həqiqəti sübut eləmək lazımdır, bunu biz sübut eləyə bilməmişik. İş də burasındadır.

Məlumatlar, bir də qeyd edirəm, bitdi. İndi kimin verdiyimiz məlumatlar əsasında, müzakirəyə təqdim olunmuş 3 məsələ haqqında fikirləri, sözü var, buyursun.

Kamran Rəhimov buyursun.

**Kamran Rəhimov.** Hörmətli sədr, hörmətli millət vəkilləri. Biz Moskva səfəri haqqında Azərbaycan nümayəndə heyətinin başçısı, Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əliyevin məlumatını dinlədik. Ondan başqa, nümayəndələrdən xarici işlər naziri Həsən Həsənovun və Baş nazirin müavini Abbasovun məlumatlarını dinlədik. Əlbəttə, bu məlumatlardan aydın oldu ki, doğrudan da, bizim nümayəndə heyəti Moskvada çox böyük iş görüb, ən yüksək səviyyələrdə Azərbaycanın mövqeyini obyektiv faktlar əsasında açıb göstərib və Ermənistanın Azərbaycana təcavüzünün real vəziyyəti açıqlanıb. Bu bir daha göstərir ki, doğrudan da, Milli Məclis bu məsələni müzakirə eləyəndə və Azərbaycan nümayəndə heyətinin Moskvaya getməsinə və orada danışıqlar aparmasına razılıq verəndə çox düzgün hərəkət etmişdir.

Mən mətbuatda da dəfələrcə çıxış edib göstərmişəm ki, Azərbaycanın ən böyük faciələrindən biri Rusiya ilə olan iqtisadi əlaqələrin pozulma-

sıdır. Çünki burada istər Heydər Əliyevin, istərsə də Abbas Abbasovun məlumatında göstərildi ki, doğrudan da, Azərbaycanın iqtisadiyyatı bütövlükdə, Rusiyanın texnologiyası əsasında qurulmuşdur. Belə şəraitdə Rusiya ilə iqtisadi əlaqələrin pozulması, əlbəttə, Azərbaycanın iqtisadiyyatına çox öldürücü zərbə vurdu. İndi də biz bunun şahidi oluruq. Ona görə Rusiya ilə qarşılıqlı iqtisadi əlaqələrin olmaması həm Rusiyanın iqtisadiyyatına, həm də keçmiş SSRİ-dən ayrılmış olan müstəqil dövlətlərin, o cümlədən Azərbaycanın iqtisadiyyatına çox mənfi təsir göstərmişdir. Ona görə iqtisadi əlaqələrin bərpa olunması və keçmiş iqtisadi əlaqələrin yenidən qurulması ən vacib tərəflərdən biridir.

İkinci, biz Rusiya ilə əlaqələrin kəsilməsində digər məsələləri də bəzən yaddan çıxarırıq. Rusiya ilə olan ənənəvi mədəni əlaqələrimiz, mənəvi əlaqələrimiz, humanitar əlaqələrimiz, kadr hazırlığı məsələləri – bütün bunlar hamısı, demək olar ki, uzun müddətdir davam eləyir, bunları birdən-birə kəsmək, pozmaq, əlbəttə, Azərbaycan üçün ağır nəticələr verə bilər.

Ondan başqa, biz bəzən yaddan çıxarırıq ki, bizim Rusiyada bir milyondan çox azərbaycanlı yaşayır. Onların Azərbaycanda ailələri var, onlar Rusiyanın, demək olar ki, müxtəlif yerlərinə səpələnib. Onlarla Azərbaycanın əlaqələrini kəsmək, əlbəttə, bizdə olan yerli azərbaycanlılara və Rusiyada olan azərbaycanlılara mənəvi cəhətdən böyük zərbə vurur. Bəzən biz bunu da unutduq. Onların da, bizim də mənəvi borcumuzdur ki, bu əlaqələr bərpa olunsun və Rusiyada, başqa müstəqil dövlətlərdə olan hər bir azərbaycanlı ailəsi azərbaycanlılarla öz əlaqələrini bərpa etmiş və saxlamış olsunlar.

Axırıncı, elə bir dövlət göstərmək olmaz ki, o bu və ya digər siyasi, iqtisadi ittifaqda iştirak eləməsin. Dünyada müxtəlif ittifaqlar var. Şimali Atlantika İttifaqı, Avropa Birliyi, Amerika Ölkələri Birliyi, Sakit Okean Ölkələri Birliyi. Müxtəlif ittifaqlar, birliklər var. Bu birliyə daxil olan müstəqil dövlətlərdir. Onların hamısı öz xarici, daxili, mədəni, mənəvi siyasətində də müstəqildir. Lakin onlar bu və ya digər problemləri birlikdə həll eləyirlər və qarşılıqlı surətdə problemlərin həll edilməsində bir-birinə kömək edirlər. Əlbəttə, belə şəraitdə təkcə öz sərhədində qapılıb qalmaq, heç bir dövlətlə əlaqəyə girməmək, heç bir dövlətlə iqtisadi-siyasi müqavilələr imzalamamaq, ya heç bir iqtisadi birliyə daxil olmamaq, bu, gülüncdür. Belə şəraitdə biz müstəqillikdən danışa bilmərik. İndiki şəraitdə, görürsünüz, bizim təkbaşına qalmağımız və Müstəqil Dövlətlər Birliyinə daxil olmamağımız, Rusiya və digər keçmiş müstəqil dövlətlərlə

əlaqələrin pozulması Azərbaycanın müstəqilliyinə böyük zərbə endirir. Azərbaycan ərazisinin xeyli hissəsi işğal olundu. Azərbaycan təcavüzə məruz qaldı. Əgər biz o iqtisadi birliklərdə, siyasi birliklərdə iştirak eləsəydik və Kollektiv təhlükəsizlik müqaviləsini imzalasaydıq, əlbəttə, biz indiki bu acınacaqlı, faciəli vəziyyətin şahidi ola bilməzdik.

Bütün bunlar göstərir ki, doğrudan da, bizim nümayəndəliyin Moskvada danışıqları çox səmərəli olub. Əlbəttə, bu danışıqların belə müvəffəqiyyətli olması nümayəndə heyətinin başçısı Heydər Əliyevin şəxsiyyətindən daha çox asılıdır. Onun Rusiyada olan nüfuzunun, Rusiyada onun tanınmasının və beynəlxalq siyasətçi kimi hamı tərəfindən qəbul olunmasının çox böyük təsiri olub. Ona görə mən təklif edirəm ki, bizim Milli Məclis bu danışıqların yekunlarını bəyənməlidir, ona öz müsbət münasibətini bildirməlidir. Azərbaycan nümayəndələrinə tapşırılmalıdır ki, gələcəkdə bu danışıqları davam etdirsin.

İkinci məsələ. Bütün bunlar, son hadisələr və neçə il Azərbaycanın başına gələn bəlalar göstərir ki, biz, doğrudan da, Müstəqil Dövlətlər Birliyinə daxil olmalıyıq. Müstəqil Dövlətlər Birliyinə daxil olmaqla biz Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi üçün böyük təməl yaratmış oluruq. Çünki nə cür olur ki, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Tacikistan, Ukrayna, Belarusiya, məgər onlar özlərinin müstəqilliyini istəmirlər? Onlar müstəqillik tərəfdarı deyillər? Bəs onlar niyə Müstəqil Dövlətlər Birliyinə daxil olurlar, ancaq Azərbaycana gələndə belə bir təsəvvür yaranır ki, guya Azərbaycanın Müstəqil Dövlətlər Birliyinə daxil olması Azərbaycanın müstəqilliyinə bir xəyanətdir. Əlbəttə, bu, xəyanət deyil, əksinə, Azərbaycanın belə birliyə daxil olmamasını tələb eləyənlər Azərbaycanın müstəqilliyinə, onun iqtisadi-siyasi müstəqilliyinə xəyanət eləyirlər.

Mən yenə təklif eləyirəm, əlbəttə, biz bu məsələdə öz mövqeyimizi davam etdirməliyik, hətta rubl dövlətlərinin zonasına da daxil olmaq lazımdır, çünki mən bayaq dedim ki, Azərbaycanın bir milyondan çox vətəndaşı Rusiyada yaşayır. Onların Azərbaycana gəlməsi, ya Azərbaycanda olan ailələrinin ora getməsi nə cür mümkün olar, əgər biz rubl zonasına daxil olmasaq.

Mən sözümün axırında yenə demək istəyirəm ki, Azərbaycan Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Ali Sovetinin sədri Heydər Əliyevin başçılığı ilə olan nümayəndə heyətinin fəaliyyəti çox yüksək qiymətləndirilməlidir və Milli Məclis bu haqda xüsusi qərar qəbul etməlidir. Çox sağ olun.

**Sədrlik edən.** Hüseynağa Qəniyev, buyurun.

Xahiş edirəm, çıxış edən Məclis üzvləri, başqa şəxslər, biz üç məsələ müzakirə edirik. Bizim Rusiya ilə danışıqlarımız, onun yekunları, bununla bağlı Müstəqil Dövlətlər Birliyinə münasibət və Azərbaycanın ora daxil olub-olmaması məsələsi. Türkiyənin Baş naziri Tansu Çillərlə bizim görüşümüz, danışıqlarımız və ən nəhayət, Amerika Prezidentinin nümayəndəsi cənab Talbotla bizim görüşümüz, danışıqlarımız və Prezident Bill Klintonun məktubu, ona münasibət. Xahiş edirəm ki, bunları unutmayasınız.

**Hüseynağa Qəniyev.** Hörmətli sədr, hörmətli millət vəkilləri. Heydər müəllim, çox sağ olun ki, bu çətin və mürəkkəb məsələnin həllini əvvəldən axıra qədər aşkarlıq şəraitində keçirdik. Əvvəla, bu məsələnin birinci müzakirəsi canlı yayım vasitəsilə getdi. Siz Moskvada olarkən biz xarici ölkələrin qəzetlərini izlədik, televiziya ilə baxdıq, sonra sizin görüşləriniz ayrıca geniş reportajlar şəklində bizə çatdırıldı və nəhayət, bu gün də biz xalqla açıq-aşkar danışırıq. Bu bizim işimizi bir qədər asanlaşdırır ki, bizim seçicilərimiz də, demək olar ki, bu haqda bizim qədər bilirlər və biz bir-birimizi bu baxımdan yaxşı başa düşürük. Burada heç bir qaranlıq nöqtə yoxdur.

Sözümün əvvəlindən deyim ki, parlamentin nümayəndə heyətinə verdiyi səlahiyyətlər daxilində, demək olar ki, çox uğurlu, müvəffəqiyyətli iş aparılıb və o səlahiyyətlər daxilində tam məqsədyönlü fəaliyyət göstərə bilib. Əlbəttə, biz istəyirik ki, respublikamız müharibədən sülh şəraitində, danışıqlar yolu ilə çıxsın. Dünyada çoxlu müharibələr olub və bu müharibələrin son nəticədə hamısı da danışıqlar yolu ilə qurtarıb. Eyni zamanda biz hamımız Azərbaycanı müstəqil görmək istəyirik və bu müstəqillik uğrunda mübarizə aparırıq.

Heydər müəllim, Siz yaxşı dediniz ki, biz bəzən müstəqilliyimizi özümüzə qapanmaqda görürük. Həqiqətən də, bu, doğru fikirdir. Müstəqillik özünə qapanmaqda deyil, müstəqillik bizim daxili və xarici siyasətin düzgün qurulmasındadır. Bəzən bizə elə gəlirdi ki, bütün məsələlər güc vasitəsilə həll olunmalıdır. Siyasətə bir o qədər əhəmiyyət verilmirdi. Mən bir məsələni demək istəyirəm ki, respublikada vətəndaş müharibəsinin ilk başlanğıc dövründə Siz heç də Bakıya əli silahlı gəlmədiniz, Siz xalqın iradəsi ilə əliyalın, silahsız, mitinqsiz gəldiniz və Sizin topsuz, tüfəngsiz gəlişiniz bu məsələlərin qarşısını aldı. Sizin bu hərəkətiniz bir daha göstərdi ki, həqiqət gücdə deyil, güc həqiqətdədir. Güc müdriklik-

dədir. Əslində, hadisələrə real münasibət başləməkdədir. Əgər xalqın iradəsi ilə Siz məsələyə bu formada qarışmasaydınız, ola bilsin ki, bəlkə də, biz indiyə kimi bir-birimizlə vuruşurduq.

Biz nə qədər bərkdən qışqırsaq da, Azərbaycan müstəqil respublikadır, bu heç də o demək deyil ki, Azərbaycan müstəqil respublikadır. Bu sözü tez-tez demək – bəzən görürəm, rayonlarda da yazırlar ki, Azərbaycan müstəqil respublikadır – bu sözü qışqıra-qışqıra demək heç də bizə müstəqillik vermir. Heç də Amerikada bərkdən qışqırmırlar ki, Amerika müstəqil dövlətdir. Müstəqilliyə biz işdə, əməlimizdə nail olmalıyıq. Azərbaycanın müstəqilliyi onun daxili və xarici siyasətindədir, biz orada axtarmalıyıq, Azərbaycanın müstəqilliyi elə Siz başda olmaqla Azərbaycan nümayəndə heyətinin Moskvaya səfəri, MDB-yə düzgün münasibəti və dünya siyasətinə çıxışın başlanğıcının yaranması ilə əlaqədardır. MDB-yə daxil olmaq heç də Azərbaycanın müstəqilliyini onun əlindən almır, hamıya məlumdur ki, bu elə bir təşkilatdır, buraya daxil olarkən bütün ölkələr səs verməlidir, lakin oradan çıxmaq istəyəndə özü müstəqil şəkildə hərəkət eləyə bilər. Bu baxımdan da burada heç bir çətinlik, heç bir mürəkkəblik, heç bir xalqa xəyanət, yaxud başqa məsələ yoxdur, əksinə, bu, Azərbaycanın suverenliyini daha da artırır, onu dünya dövlətləri sırasına çıxarmağa təkan verir.

Mənim təklifim belədir ki, səfərin yekunları bəyənilsin və aparılan danışıqlar respublikanın hazırkı vəziyyəti üçün məqsədyönlü hesab olunsun. Mən hesab edirəm ki, səfərin yekunlarını nəzərə alıb, daha bir addım ata, MDB-yə daxil ola bilərik. Bu təkcə mənim fikrim deyil, Bakıda, Moskvada, ümumiyyətlə, MDB ölkələrində yaşayan azərbaycanlıların da bir neçəsi ilə görüşüm olub və eyni zamanda tam məsuliyyətlə deyə bilərəm ki, bu fikir mənim seçicilərimin bütünlükdə iradəsini ifadə eləyir. Təklif eləyirəm ki, biz bu sahədə daha bir addım atıb, MDB-yə daxil olmalıyıq.

O ki qaldı digər məsələlər, Heydər müəllim, bu barədə də biz Sizi dinlədik. Həm Türkiyənin Baş naziri Tansu Çillərlə görüş haqqında, həm də ABŞ-ın nümayəndəsi ilə görüş haqqında. Biz belə hesab edirik ki, bu sahədə atılan addımlar uğurludur və bu məsələlərin üçü də bir-birini tamamlayır və Azərbaycan dövlətini dünya siyasətinə çıxarmaq sahəsində ilk addımlardır. Biz, şəxsən mən bu tədbirləri bəyənirəm və arzu edirəm ki, parlament gələcəkdə Sizin başçılığınız altında bu sahədə işini daha da sürətləndirsin.

**Sədrlik edən.** Tofiq Əzizov, buyurun.

**Tofiq Əzizov.** Hörmətli sədr, hörmətli millət vəkilləri. Məclisin üzvləri şahiddirlər ki, dəfələrlə biz bu salonda məsələ qoymuşuq ki, respublikanın iqtisadiyyatının vəziyyətini analiz edək və bir nəticə çıxaraq. Axırıncı dəfə keçmiş Prezidentin qarşısında da bu məsələ qoyulmuşdu, belə bir qərara gəldik ki, qapalı iclas keçirək və orada respublikanın iqtisadiyyatının vəziyyətini müzakirə edib, bir nəticə çıxaraq. Ancaq biz o müzakirəyə çatmadıq və təəssüf ki, belə bir analiz olmayıb və biz respublikanın iqtisadiyyatının hansı yerdə olmasını bu vaxtacan təyin etməmişik və bu məsələ bizim iqtisadiyyatımızı, müəssisələri, sənayemizi çox çətin vəziyyətə qoyub.

Bu gizli deyil ki, doğrudan da, bizim iqtisadiyyatımız böhran halındadır. Milli gəlir və istehsal olunan malların həcmi azalıb, əhalinin böyük əksəriyyəti yoxsullaşır, pulun alıcılıq qabiliyyəti kəskin surətdə aşağı düşür. Son vaxtlarda iqtisadiyyatda yaxşı cəhətdən bəzi dəyişikliklər olub. Onlara baxmayaraq əgər biz bu ilin 7 ayının nəticələrini keçən ilin 7 ayının nəticələri ilə müqayisə etsək, bizim milli gəlir 12,4 faiz azalmışdır. Yanvar-iyul aylarında bağlanmış müqavilələr üzrə istehsalçılar məhsulu 2 milyard yarım həcmində azaltmışdılar. Bu da müqavilələr üzrə ümumi məhsulların 5,5 faizini təşkil edir. Tikinti kompleksində ayrı-ayrı göstəricilərdə müəyyən nailiyyətlər var. Ancaq maliyyə qıtlığı, əmək intizamının pozulması və sair amillər tikintinin gedişatına təsir göstərməkdə davam edir. Milli məhsulun həcminin azalması, qiymətlərin sürətlə artması maliyyə və pul-kredit sisteminə bilavasitə mənfi təsir göstərir. Avqustun 1-nə respublikanın büdcə sisteminin kəsiri 4 milyard 760 milyon rubla yox, manata çatmışdır. Millət vəkillərinin yadındadır, may ayında biz burada büdcəni təsdiq edəndə nəzərə almışdıq ki, illik kəsir 3 milyard 600 milyona qədər olmalıdır, ancaq bir də təkrar edirəm, 7 ayın nəticəsi 4 milyard 760 milyon manata çatmışdır.

Birinci yarım il ərzində kredit qoyuluşu da xeyli artmışdır. Ancaq təəssüf ki, kreditlər hamısı qısamüddətli kreditlərdir. Bu nə deməkdir ki, qısamüddətli kreditlər verilir, müəssisələrin vəziyyətinin çətin olması, aylıq məvacibi verməmək halları var. Ancaq uzunmüddətli kreditlər, təəssüf ki, artmır. Eyni zamanda nağd pul dövriyyəsi sahəsində vəziyyət daha da gərginləşir.

Birinci yarım ildə 8 milyard manat pul buraxılması nəzərdə tutulduğu halda, faktiki emissiya 11,7 milyard manata çatmışdır. Keçən ilin bi-

rinci yarısına nisbətən emissiya 51,6 dəfə artmışdır. Qeyd etmək lazımdır ki, bu dövrdə bankların kassalarına daxil olan nağd pul 7,4 dəfə artdığı halda, bankların kassalarından pul verilməsi 15,7 dəfəyə çatmışdır. Dövriyyəyə qayıtmayan pullar elə hala gətirib çatdırıb ki, müəssisələr iki ayla məvaciblərini ala bilmirlər və bu müəssisələrdə çox böyük çətinliklər yaranıb.

Burada məsələlər qoyulmuşdu ki, biz özümüz-özümüzü təcrid etmişik. Bilirsiniz, bu təcridin də öz əsasları var, bir var, səriştəli, dünya görmüş adamlar gedirlər, müqavilələr bağlayıb söhbətlər aparırlar, ancaq elə bir hala gəlib çatmışıq ki, bu məsələləri səriştəsiz adamlar həll edirdilər və onların söhbətlərinin nəticəsi də səriştəsiz olurdu və çox məsələlər həll olunmurdu. İndi elə bir hala gəlib çatıb ki – keçmiş sovet respublikaları, bütün keçmiş sənaye inteqrasiya olunmuşdu və nazirliklərin müəssisələri bütün keçmiş SSRİ respublikalarına səpələnmişdi və buraxılan mallar inteqrasiya olunmuşdu – birdən bunları kəsib, heç bir respublika ilə əlaqədə olmamaq bizim sənayeni və iqtisadiyyatımızı çox çətin bir hala salıb.

Bundan çıxış yolları. Çıxış yolları, əlbəttə, biz hərdən deyirdik ki, biz öz milli valyutamızı, milli pulumuzu buraxıb rubl zonasından çıxmalıyıq. Mən hazırda müəssisənin rəhbəri kimi deyə bilərəm ki, ezamiyyətə gedə bilmirik, danışmışıq, bizə mal da verirlər, ancaq rublun olmaması bizi çətin vəziyyətə salır və müəssisəni işlətmək çətinləşir. Həmçinin o biri respublikalar. Mən elə hesab edirəm, bu təşəbbüs ki keçmiş SSRİnin respublikaları ilə söhbətlər aparıb müqavilələr bağlamaq, o respublikaların ən böyüyü və bizimlə bu saat müqavilələrə hazır olan Rusiya ilə müqavilələr bağlanmalıdır.

Müstəqil Dövlətlər Birliyi, biz müstəqil sözünü deyib, buna müstəqil məzmun da verməliyik ki, doğrudan da, biz birliyə müstəqil respublika kimi girib, orada özümüzü müstəqil aparıb, iqtisadiyyatı, sənayeni və respublikanın işlərini daha da qabağa aparmağa nail olarıq.

İkinci məsələyə gəlincə, Türkiyənin Baş naziri ilə söhbətləri mən bəyənirəm. Əlbəttə, təcrid şəraitində yaşamaq olmaz, bütün dövlətlərlə, qonşularla və uzaq dövlətlərlə söhbətlər aparmaq lazımdır, onlarla iqtisadi müqavilələr bağlanmalıdır. Mən onu bəyənirəm və hesab edirəm ki, bu söhbətlər davam etməlidir.

Üçüncü məsələ – Amerikanın nümayəndəsi ilə danışıqlar. Amerika bu saat dünyanın məşhur dövlətlərindən biridir, yüksək texnologiya və

elmə malik olan bir dövlətdir və mən hesab eləyirəm ki, onlarla dialoq aparmaq lazımdır. Çalışmaq lazımdır ki, daha da çox müqavilələr bağlansın və işlənilsin. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sultan Məmmədov. Sonra daxili işlər naziri, deputat Vaqif Novruzov çıxış etmək istəyir.

**Sultan Məmmədov.** Son iki ildə Azərbaycanda erməni təcavüzünün güclənməsi, Azərbaycan torpaqlarının bir qisminin zəbt edilməsi bir daha göstərir ki, Ermənistan əsas üstünlüyü onda əldə edib ki, o, ilk gündən Müstəqil Dövlətlər Birliyinə daxil olub, Kollektiv təhlükəsizlik müqaviləsinə qoşulub. Son iki ildə Azərbaycanda aparılan xarici siyasət, daxili siyasət o qədər primitiv və yanlış olub ki, Azərbaycan Ermənistanla müharibədə üst-üstə məğlubiyyətə düçar olub və eyni zamanda Azərbaycanda iqtisadi böhran günü-gündən dərinləşib. Bəzi yoldaşların verdiyi məlumatlardan aydın olur, Azərbaycanın son vaxtlarda atdığı addımlar, müxtəlif tədbirlərin həyata keçirilməsi, xüsusilə Müstəqil Dövlətlər Birliyinə münasibət barədə aparılan söhbətlər erməni tərəfini çox narahat edir və onlar hər vəchlə dəridən-qabıqdan çıxırlar, istəmirlər ki, Azərbaycan bu akta qoşulsun. Çox qəribədir, Azərbaycanda elə qüvvələr var ki, onların da fikri erməni tərəfin fikri ilə üst-üstə düşür. Məsələ orasındadır ki, Azərbaycan belə bir addım atarsa – verilən məlumatlardan belə aydın olur – Azərbaycanın müstəqilliyinə heç bir xələl gəlməyəcək. Biz bu vəziyyəti həmçinin Orta Asiya dövlətlərinin işində müşahidə edirik.

Bir məsələni də qeyd etmək istəyirəm ki, Azərbaycanın bu vəziyyətə düşməsi, çoxlu kənd və şəhərlərinin işğal olunması, adamların tələf olması, namusun tapdalanması, milyonlarla qaçqının ev-eşiklərindən didərgin düşməsinin bir səbəbi də Müstəqil Dövlətlər Birliyinə olan münasibətin nəticəsidir. Buna misal olaraq, onu göstərmək istəyirik ki, hazırda keçmiş SSRİ respublikalarının üçü bu birliyə qoşulmayıb – Gürcüstan, Azərbaycan, bir də Moldova, üçünün də ərazisində milli qırğınlar, milli münaqişələr, müharibələr gedir.

Mən belə hesab edirəm, son üç ildə Azərbaycan Respublikasının rəhbərliyi tərəfindən aparılan xarici siyasət sahəsində elə müsbət nəticələr əldə edilməmişdir. Bu son vaxtlarda Azərbaycan Respublikası nümayəndələrinin, başda Heydər Əliyev olmaqla, Moskvada apardığı danışıqlarda çox böyük müsbət nəticələr əldə edilmişdir. Mən həmçinin belə hesab edirəm ki, Azərbaycan Respublikası parlamenti ilə Rusiya parlamenti arasında parlamentlərarası münasibətin, əlaqələrin yaradılmasına çox

böyük ehtiyac var. Bu, imkan verəcək ki, Azərbaycan öz parlamentlərarası münasibətini inkişaf etdirsin, informasiya blokadasını yarıb çıxsın.

Mən belə hesab edirəm ki, Azərbaycan nümayəndə heyətinin Moskvada apardıqları danışıqlar təqdirəlayiqdir. Şübhəsiz ki, Milli Məclis bu barədə öz müsbət qərarını verəcəkdir.

**Sədrlik edən.** Vaqif Novruzov, daxili işlər naziri, buyurun.

**Vaqif Novruzov,** ***Azərbaycan Respublikasının daxili işlər naziri.*** Hörmətli sədr, hörmətli millət vəkilləri, mən bir deputat kimi müzakirə olunan məsələyə öz müsbət fikrimi bildirirəm. İcazə versəydiniz, öz adımdan axır günlərdə respublikanın mərkəzində, paytaxtında baş verən hadisələrə dair balaca bir məlumat verərdim.

Bildiyiniz kimi, son zamanlar respublika rəhbərliyinin həyata keçirdiyi əməli tədbirlər nəticəsində bərqərar olan siyasi stabillik və son günlərdə adamlarda yaranmağa başlamış inam, görünür ki, müəyyən dairələri heç cür razı salmır. Onlar artıq başa düşüblər ki, yeni iqtidarın həyata keçirdiyi məqsədyönlü siyasət öz bəhrəsini verdikcə, geniş xalq kütlələri ilə məğlubiyyətə uğramış keçmiş iqtidar arasında uçurum daha da dərinləşəcək və gələcəkdə onların hər hansı siyasi addımları müvəffəqiyyətsizliyə düçar olacaqdır. Demokrat donu altında pərdələnməyi öyrənmiş bu qüvvələr öz çirkin əməllərindən əl çəkmir, məqsədlərinə çatmaq üçün hər cür iyrənc üsullara əl atırlar.

Hazırda yeni Prezident seçkiləri ərəfəsində bu qüvvələrin yenə də təxribatla məşğul olmaları üzə çıxır. Məqsəd respublikamızda stabilliyi pozmaq, itirilmiş mövqelərini qaytarmaq, iflasa uğramış siyasətlərini davam etdirməkdən ibarətdir. Bu işdə intibahnamələr yaymaq, mitinqlərin keçirilməsinə sövq etmək kimi imkanlarından istifadə edirlər. Bu cür təxribatların vüsət almasının qarşısını almaq üçün polis orqanları tərəfindən müəyyən məqsədyönlü əməliyyat və axtarış tədbirləri həyata keçirilir. Məhz bunun nəticəsində intibahnamələr yaymağa çalışan şəxslərin müəyyən edilməsi sahəsində aparılan iş bəzi nəticələrini vermişdir. Məsələn, sentyabr ayının 11-də saat 20:50-də Şıxov qəsəbəsində sanatoriyada yerləşmiş qaçqınlar arasında 100-ə qədər intibahnamə yayarkən 1951-ci ildə Ermənistanda anadan olmuş, hazırda Bakı şəhər sakini Abbasova, 1951-ci ildə Qəbələ rayonunda anadan olmuş Ordubad rayon sakini Məsimova və 1964-cü ildə Şərur rayonunda anadan olmuş Bakı şəhər sakini Babayeva yaxalanmışlar. Azərbaycan demokratik qüvvələri adından imzalanmış intibahnamələrdə bütün şəhid ailələrinə – xalq

bunu bilməlidir – hamıya, hamıya, doğma yurd-yuvalarından didərgin düşmüş bacı və qardaşlarımıza, Azərbaycan ordusuna, Azərbaycan polisinə, eləcə də Azərbaycan Xalq Cəbhəsinin imzası ilə xarici ölkələrin səfirliklərinə, diplomatik nümayəndələrinə müraciət edilmiş, Əbülfəz Elçibəyin adı ilə Prezidentin Azərbaycan xalqına müraciəti və sabiq daxili işlər naziri İsgəndər Həmidovun bəyanatı verilmişdir. İqtidar əleyhinə olan intibahnamələr götürülmüşdür.

**Sədrlik edən.** İntibahnamələr, yəni bu vərəqələri deyirsiniz?

**Vaqif Novruzov.** Bəli, vərəqələr.

**Sədrlik edən.** İntibahnaməni, bəlkə, çox adam bilmir, şəxsən sən bir az sadə dildə de və göstər, görsünlər, o vərəqələr nədir, nədən ibarətdir. İntibahnamə deyəndə bir balaca qaranlıq qalır.

**Vaqif Novruzov.** Bu vərəqələrdən mən götürmüşəm. Bu vərəqələr, demək, ayrı-ayrı növlərdə, ancaq mətni eyni olan, başqa-başqa ünvanlara yönəlmişdir. Həmin gün Nərimanov metrosu yaxınlığında naməlum şəxs tərəfindən yayılmış həmin vərəqələrdən 99 ədəd tapılmışdır. Yenə də sentyabr ayının 11-də Dərnəgül qəsəbəsində yerləşən Azərbaycan Pedaqoji Universitetinin yataqxanasında yerləşmiş qaçqınlar arasında qarşıdan gələn Prezident seçkilərinin keçirilməsini pozmaq məqsədilə təxribat xarakterli olan vərəqələr yayılarkən 1959-cu ildə Qazax rayonunda anadan olmuş Bakı şəhər sakini Mansurova, 1966-cı ildə Şəmkir rayonunda anadan olmuş Volodarski adına tikiş fabrikinin fəhləsi İbrahimova və onun keçmiş iş yoldaşı 1964-cü ildə Ağsu rayonunda anadan olmuş Abdullayeva yaxalanmışlar.

Bu intibahnamələri, yəni vərəqələri yayan bilavasitə qadınlardır, bu isə onları bu işə təhrik edən qüvvələrin siyasi acizliyini bir daha sübut edir və bir növ, çətin ayaqda ermənilərin qadını qabağa vermək metodunu xatırladır.

Bundan başqa, sentyabrın 12-də Bakı şəhərinin "Qaqarin" körpüsü deyilən ərazisinin yaxınlığında polis işçiləri tərəfindən "VAZ-21" markalı "Jiquli" avtomaşını saxlanılmış, yoxlanılarkən maşından "Bütün şəhid ailələrinə" başlığı altında 490, xarici ölkələrin səfirliklərinə, diplomatik nümayəndələrinə 250, doğma yurd-yuvalarından didərgin düşmüş bacı və qardaşlarımıza 520, "Hamıya-hamıya" başlığı altında 520 ədəd vərəqə tapılmışdır. Göstərilən avtomaşından həmçinin diktofon, üstündə məzmunca dövlət quruluşu əleyhinə yönəlmiş yazılar olan polietilen təbəqə də aşkar edilmişdir. Avtomaşında 1968-ci ildə Ermənistanda anadan ol-

muş Azərbaycan Kənd Təsərrüfatı Akademiyasının 5-ci kurs tələbəsi Həzi Quliyev, 1975-ci ildə Ordubad rayonunun Dırnıs kəndində anadan olmuş Bakı Gənclər İnstitutunun 3-cü kurs tələbəsi Məmmədov, 1969-cu ildə Beyləqan rayonunda anadan olmuş Bakı şəhər sakini, Milli Təhlükəsizlik Nazirliyinin Sərhəd Qoşunlarının taqım komandiri Aslanov olmuşlar.

Müəyyən edilmişdir ki, bütün bu vərəqələr Azərbaycan Xalq Cəbhəsinin inzibati binasından götürülmüşdür. İstintaq üzrə təhqiqat aparılır. 9 sentyabr 1993-cü ildə tutulmuş adamların izahatlarından aydın olur ki, AXC-nin ümumi şöbəsinin müdiri İmanlı Məhəmməd Nağı oğlu 1962-ci ildə Amasiyada anadan olmuş, Balaxanı rayonunun Maksim Qorki küçəsində yaşayır, AXC-nin binasında iclasda iştirak edən AXC üzvlərinə həvalə etmişdir ki, vərəqələri qaçqınların məskunlaşdığı yataqxanalarda, müəssisə və təşkilatlarda vətəndaşlar arasında paylasınlar və iqtidara qarşı təbliğat aparsınlar.

Bundan başqa, tərəfimizdən bu gün tutulmuş Bayramov Adil Nadir oğlu 1968-ci ildə İsmayıllı rayonunda anadan olmuş, Bakı şəhər sakini, 8-ci Xreptovı küçəsində yataqxanada yaşayan Bakı Dövlət Universitetinin 5-ci kurs tələbəsi, AXC-nin xarici əlaqələr şöbəsinin müdiri 50-dən çox ayrı-ayrı məzmunda vərəqələri Amerika Birləşmiş Ştatları və digər xarici ölkələrin səfirliklərinə və diplomatik nümayəndələrinə... "Bozqurd"un andı məzmunlu vərəqələr və başqaları müəyyən edilibdir.

Tərəfimizdən saxlanılan Mənsimova Tahirə Eyvaz qızının Əli Bayramlı şəhərindəki evində aparılmış axtarış zamanı AXC-nin 150 nəfər üzvünün şəxsi pasportu və hərbi biletləri, iki çamadan hərbi forma müəyyən edilib götürülmüşdür. Onun evindən çıxan pasportlar əsasında hazırda tərəfimizdən Bakı şəhərində və respublikanın digər rayonlarında yoxlama işləri aparılır. Həmin materiallar Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 63-cü maddəsi ilə tövsif ediləcək və Milli Təhlükəsizlik Nazirliyinin İstintaq İdarəsinə göndəriləcək. Bu göstərilən faktların hamısının nəticəsi olacaq.

Bir daxili işlər naziri kimi, Sizdən bir məsələnin həllini xahiş eləyərdim. Demək, bu faktların...

**Sədrlik edən.** Vərəqələrin məzmunu nədir? İntibahnamələr dediniz, bunların məzmunu nədir?

**Vaqif Novruzov.** İcazə versəniz, bir-ikisini oxuyardım. Çünki...

**Sədrlik edən.** Oxuyun, görək bu vərəqələri yaymaqla bunlar nə istəyirlər, bəlkə, elə bunu açıq burada demək lazımdır. Bir halda ki Siz deyir-

siniz, bunlar Xalq Cəbhəsinin idarəsində hazırlanır və onların adından yayılır, Xalq Cəbhəsinin nümayəndələri buradadırlar, öz sözlərini desinlər. Buyurun.

**Vaqif Novruzov.** İcazə verirsinizsə, "Xalq bunu bilməlidir" adlı vərəqədə yazılanları oxuyum.

*"Hərbi qiyam yolu ilə, silah gücü ilə hakimiyyəti ələ keçirmiş indiki iqtidarın apardığı təxribatlar, yalan, böhtan və şantaj dolu təbliğat mexanizminin var qüvvəsi ilə müstəqilliyimiz, azadlığımız, bütövlüyümüz əleyhinə işləməsi, əhaliyə məqsədli şəkildə təslimçilik əhvali-ruhiyyəsinin hərtərəfli aşılanması sübut edir ki, bu iqtidar hakimiyyəti əlində saxlaya bilmək naminə hər cür xəyanətlərə getməyə hazırdır. Xəyanət baş vermiş, on minlərlə şəhidimizin müqəddəs qanı tapdalanaraq Azərbaycanın MDB-yə girməsi, Qarabağ erməni dövlətinin rəsmən tanınması barəsində Moskvada razılığa gəlinmişdir. Dövlətimiz, millətimiz, vətənimiz, insanlığımız naminə illərdən bəri mübarizə aparan hər bir şəxs bu həqiqəti bilməli və eyni zamanda bütün xalqa çatdırmalıdır. Ölkə rəhbərliyinin addımbaşı utanmadan ağ yalanlar söylədiyi, demokratik mətbuata qarşı çox ciddi şəkildə üzdəniraq senzura qoyulduğu, televiziyanın şərəfsizcəsinə yalan mövqe tutduğu bir zamanda aşağıdakı həqiqətlərin xalqa çatdırılması çox vacibdir. Xalq bilməlidir ki, özünün hakimiyyətdə qalması xatirinə Heydər Əliyev Rusiya, Ermənistan və İranla üzdəniraq əməkdaşlığa girərək aşağıdakı xəyanətləri həyata keçirməkdədir. Azərbaycan MDB-yə daxil olur və 70 ildə 100 mindən artıq azərbaycanlı qətlə yetirmiş üzdəniraq sovet imperiyası yeni adda bərpa edilir. Artıq ilkin şərt kimi Moskvada razılaşdırılmışdır ki, Azərbaycan Xəzər Donanması Rusiyaya verilir, Xəzər Donanmasının Xəzər dənizinin bütün səlahiyyətləri Rusiyaya məxsus olur, Azərbaycan isə hətta Xəzərdə balıq ovu, kürü istehsalı üçün Rusiyadan icazə almalıdır. Vahid gömrük sistemi yaradılır, vahid energetika sistemi yaradılır, Azərbaycan tamamilə rubl məkanında olur, nəticədə milli valyutamız – manat yavaş-yavaş ortadan çıxarılır.*

*Rusiyanın 804-cü hərbi hissəsi Azərbaycana gətirilir ki, bir daha 20 yanvar, Xocalı və sair faciələr yenidən törədilsin. Azərbaycanın xarici ölkələrlə sərhədlərini rus qoşunları qoruyacaqdır. Azərbaycanın bütün iqtisadiyyatı və təbii ehtiyatları tamamilə MDB-nin, əslində, Rusiyanın mənafeyinə zəbt edilir, vahid nəqliyyat sistemi tətbiq olunur, Moskvanın rəhbərliyi altında vahid bank sistemi yaradılır və sair və ilaxır. Nəticədə MDB-yə girmək xəyanəti Azərbaycanı dövlət müstəqilliyindən tamamilə məhrum edir, Azərbaycan Respublikası Qarabağ dövlətini tanıyır və bu zaman Dağlıq Qarabağ Muxtar Vilayəti yox, ermənilərin müstəqil Qarabağ Respublikası yaranır. Qarabağ*

*Respublikasının tərkibinə Laçın və adı Tiqranakert olmuş Şuşa şəhəri də daxildir. Artıq Qarabağ Respublikasının xəritəsinə Heydər Əliyev qol çəkmişdir. Qarabağ Respublikasının müstəqil parlamenti olur, Qarabağ Respublikası 30 min nəfərdən az olmamaq şərti ilə ordu saxlayır, Qarabağ Respublikasının ətrafında 50 kilometr enində neytral zona olur və Azərbaycan Silahlı Qüvvələrindən heç kim bu zonaya daxil ola bilməsin. Qarabağ Respublikası müstəqil daxili və xarici siyasət yürüdür və sair. Nəticədə 10 minlərcə şəhidimizin qanı batırılır, Azərbaycan ərazisi parçalanır, biz həmişəlik Qarabağı itiririk.*

*Azərbaycan xalqı, doğrudanmı sən KQB generalı Heydər Əliyevin bu xəyanətlərinin nəticəsinə dözəcək və şərəfsizlik damğası altında susacaqsan, əlvida, Nərimanovun bağışladığı Zəngəzur, əlvida Heydər Əliyevin satdığı Qarabağ, Azərbaycan, doğrudanmı, əlvida, yoxsa..."*

Burada təhqiramiz sözlər yazılıb.

**Sədrlik edən.** Ancaq Siz – AXC burada var – hamıya başqa birinin axırıncı abzasını oxuyun, eyni şeyi təkrar eləmək lazım deyil.

**Vaqif Novruzov.** *"Əziz həmvətənlərim, sizi öz hakimiyyətini saxlamaq üçün Azərbaycanın müstəqilliyini addım-addım satan indiki iqtidarın milli xəyanət xəttinə qarşı etiraz etməyə çağırır və bu məqsədlə hamınızı 14 sentyabr saat 18:00-da AXC qərargahının qarşısında keçiriləcək mitinqə dəvət edirik.*

*Azərbaycanın demokratik qüvvələri."*

Bu məsələni biz artıq aydınlaşdırmışıq, bu, Azərbaycanın demokratik qüvvələri yox, Azərbaycan Xalq Cəbhəsinin, demək, iqamətgahında hazırlanıb. Bunu hazırlayan adamlardan iki şöbənin, ümumi şöbənin və xarici əlaqələr şöbəsinin müdirləri tərəfimizdən götürülüb, hazırda yoxlama aparılır.

Bundan başqa, bir məsələ. Məclisin üzvlərindən xahiş edirəm ki, imkan varsa, bu məsələyə ciddi münasibət bəslənilsin. Bu qədər millətə ziyan vurmaq olmaz, ona görə də mən bu xahişi eləməliyəm. Milli Məclisin üzvləri AXC məsələsinə münasibəti bildirməlidirlər, mən xahiş eləyirəm, bunu birdəfəlik biləsiniz, AXC, mən o dəfə çıxışımda da dedim, indi də deyirəm, o, xalqın cəbhəsi deyil. Yaxında keçirilən referendum da Xalq Cəbhəsi olmadığını göstərdi, bu AXC adı altında gizlənmiş təşkilat ləğv olunmalıdır, mən bu təklifi eləyirəm, buna münasibət bildirsinlər. Birdəfəlik aydın olsun. Burada, Məclisdə oturan Məclis üzvlərindən bir neçəsi həmin təşkilatın üzvüdür, oturub bizimlə bir yerdə məsələni müzakirə eləyirlər, ancaq buradan çıxandan sonra özləri ora yığılıb həmin məsə-

ləni başqa formada müzakirə eləyib təxribat işləri ilə məşğul olurlar. Bu qədər.

**Sədrlik edən.** Buyurun, əyləşin. Bu məsələ barəsində daxili işlər naziri mənə müraciət edəndə mən bu məlumatın Məclisdə verilməsini lüzumlu bildim. Artıq məlumatdan da görünür ki, Azərbaycan Xalq Cəbhəsinin rəhbərləri açıq böhtançılığa, təxribata və Azərbaycanın bu ağır vaxtında yalanlara keçiblər və fitnə ilə Azərbaycanda onsuz da hələ yaranmamış sabitliyi daha da pozmaq istəyirlər. Dəfələrcə qeyd etmişəm, Moskvada, burada verdiyim müsahibələrdə də demişəm, Amerika Prezidentinin nümayəndəsi Talbotla da, Türkiyənin rəhbərləri ilə danışıqlarda da demişəm, Süleyman Dəmirəllə dəfələrcə və Tansu Çillərlə, o cümlədən Moskvadakı görüşlərimizdə və nəhayət, dünən bizim Azərbaycan televiziyası bir balaca müsahibə götürdü, orada da demişəm və yenə də deyirəm, Azərbaycan Respublikası demokratiya yolunda getməlidir, Azərbaycanda həqiqi demokratiya prinsipləri yaranmalıdır, inkişaf etməlidir. Azərbaycanda siyasi plüralizmə, çoxpartiyalı sistemə, partiyaların tam fəaliyyətinə şərait yaradılmalıdır, Azərbaycan bazar iqtisadiyyatı, sərbəst iqtisadiyyat yolu ilə getməlidir, Azərbaycanda milli həmrəylik, insanlar, siyasi partiyalar, qurumlar arasında sülh və sağlam rəqabət əhvali-ruhiyyəsi, atmosferi yaranmalıdır, bu, dünya demokratiyasının əsas prinsipləridir. Avropa ölkələrində artıq uzun illər demokratiya yoluna getmiş ölkələrin, ən yaxın olan Türkiyənin, Amerika Birləşmiş Ştatlarının daxilində olan prinsiplərdir.

Mən sizə verdiyim məlumatda bildirdim ki, ABŞ Prezidentinin nümayəndəsi cənab Talbot danışıqda iki-üç dəfə mənə Azərbaycanda üç prinsipin mütləq öz əksini tapmasının onlar üçün şərt olduğunu bildirdi, mən isə ona dedim, bunu televiziya ilə də izləyə bildiniz, bu prinsiplərə biz sadiqiq, bu prinsiplər üzərində Azərbaycan yeni dövlət, yeni cəmiyyət qurmaq üçün çalışır və siz istəsəniz də, istəməsəniz də bu prinsipləri biz Azərbaycanda həyata keçirəcəyik. Bu, təkrar da olsa, mən bunu bir daha deməyə məcburam. Ona görə ki Azərbaycanın Xalq Cəbhəsindən bu təxribat əməliyyatları demokratiya deyil, bu, Azərbaycan xalqına xəyanətdir. İmkan var, kim nə söz istəyir, onu da desin, Məclis var, Milli Məclis, siyasi partiyaların nümayəndələri burada iştirak eləyir, Xalq Cəbhəsinin nümayəndələri burada iştirak edir, Məclisin üzvləridirlər, deputatlardırlar, sözlərini iclaslarda desinlər, qəzetlərdə yazsınlar, ancaq xalqın, bu qaçqınların onsuz da ağır vəziyyəti olduğu halda, onları indi yaşatmaq lazımdır, onlara indi şərait yaratmaq lazımdır.

Amerikanın Prezidenti məktubda yazır ki, iki təşkilat vasitəsilə müəyyən maneçilikləri aradan götürərək hər bir təşkilata bir milyon dollar Azərbaycanın qaçqınlarına yardım eləyibdir, bu da bizim üçün böyük bir töhfə kimi qəbul olunubdur. Bütün imkanlarımızdan istifadə eləyib bu qaçqınların vəziyyətini düzəltməliyik, onları bu siyasi oyunlara cəlb etmək, onlardan istifadə etmək, o bədbəxt adamların bədbəxt həyatının üzərində öz çirkin əməllərini həyata keçirmək, bu, cinayət deyilmi, bu, xalqa xəyanət deyilmi? Bacarırdınız, aparaydınız bu respublikanı. Bacarmadınız, imkan verin, bu respublika yaşasın, ancaq heç kəs sizin fəaliyyətinizə məhdudiyyət qoymur. Ancaq sağlam, həqiqi demokratiyaya uyğun olan siyasi fəaliyyət, bu cür böhtanlar və insanları bu işlərə cəlb etmək bunun özü cinayətdir.

İndi bu cavan qadınları, gəlinləri bu vərəqələrlə yaxalayıblar, şübhəsiz ki, onlar məsuliyyətə cəlb olunmalıdırlar. Bunu heç vaxt siz demokratiyanın boğulması kimi qələmə verə bilməyəcəksiniz, siz cavabdeh deyilsinizmi onlar üçün, onların bu hərəkətləri üçün, o zavallıları nə üçün bu hala salırsınız. Bəs deyilmi bu qadın taborları haqqında prokuror artıq məlumat verdi, o nə qadın taborudur, nə iş gördü və bizim bu cavan gəlinləri nə günə saldılar, doğru sözdür, burada deyilir ki, kişilərin cürəti çatmır, cavan qadınları qabağa verirlər. Ayıb deyilmi bu? Ar olsun belə adamlara, mən başqa bir şey deyə bilmərəm.

Xalq partiyasıdır, hansı partiyadır, demokratik partiyadır, bunların heç birisində demokratiyadan bir əsər də yoxdur. Demokratiya odur ki, açıq sözünü de, bu Məclis, bu meydan, məntiqi izah elə, ancaq bu cür təxribat işləri görmək, yenə mitinq çağırmaq, onsuz da, ağır vəziyyətdə yaşayan insanları... Nə üçün, nə istəyirdiniz? Bizim apardığımız siyasətin əleyhinəsinizsə, buyurun, deyin, yazın. Müstəqil Dövlətlər Birliyinə hələ Azərbaycan girməyibdir, bu müzakirə olunur, əleyhinəsinizsə, buyurun, səbəblərini deyin. Mən iki saat yarım burada məlumat verdim, baxmayaraq ki bu verdiyim məlumatların bir hissəsi artıq televiziya vasitəsi ilə camaata çatdırılıbdır, ancaq mən Məclisə hörmət edirəm, mən Məclisin səlahiyyəti ilə bu tədbirləri görmüşəm və Məclisin qarşısında hesabat verirəm. Hər bir Məclis üzvü də Məclisə hörmət etməlidir, birinci növbədə, Məclis qarşısında öz sözünü deməlidir. Gedib küçədə ayrı-ayrı zavallı adamların, ac-yalavac, evindən didərgin düşmüş adamların, mənəvi cəhətdən yaralanmış adamların yaralarına duz tökmək, insanları belə cinayətlərə cəlb etmək. Bu yollamı siz istəyirsiniz öz hakimiyyətinizi bərpa edəsiniz, bu yollamı siz istəyirsiniz Azərbaycanı guya ağ günə çıxarası-

nız. Kifayət deyil ki, Azərbaycan bu beş il içərisində dağılıb. İndi kimin namusu, qeyrəti, şərəfi varsa, gərək Azərbaycana bu dağılmış vəziyyətdən çıxmaq üçün kömək etsin. Sizin bu hərəkətləriniz, bu vərəqələr, sabah camaatı belə yalançı, böhtançı vərəqələrlə mitinqə toplamağınız nə məqsəd daşıyır?

Əbülfəz Elçibəy, sizin müdafiə etdiyiniz adam, mən də ona böyük hörmətlə yanaşmışam və yanaşıram, getdi iki ay yarım, dəvət elədik, gəlmədi. Referendum elədik, camaat öz fikrini bildirdi. İndi nə istəyirsiniz? Prezident seçkiləri təyin olunub. Mən dünən müsahibəmdə də dedim, bu gün də deyirəm, buyurun, kim istəyir Prezident olmaq, buyursun. Partiyaların nümayəndələrinə, Əbülfəz Elçibəyə müraciət edirəm. Prezident olmaq istəyir, olsun. Məclisin üzvləri var burada, Xalq Cəbhəsindən olan İbrahim İbrahimovdur, başqalarıdır. İndi Xalq Cəbhəsi İcraiyyə Komitəsinin sədridir. Prezident olmaq istəyir, buyursun, versin öz namizədliyini. Kim etiraz edir buna? Hər bir adam öz namizədliyini verə bilər. Hər bir partiya öz namizədliyini verə bilər. Hər bir təşkilat öz namizədliyini verə bilər. Bundan artıq nə demokratiya ola bilər?

Ona görə də mən həm dəhşətə gəlirəm, hiddətlənirəm belə hərəkətlərə görə, həm də yenə də belə cinayət yoluna düşmüş adamlara bəyan etmək istəyirəm, onlar Azərbaycanın indiki vəziyyətindən çıxmasına kömək etmək yox, öz şəxsi məqsədləri üçün Azərbaycanı dağıtmağa çalışan qüvvələrdirlər və çalışan adamlardırlar. Güman edirəm ki, bundan sonra çıxış edən Məclis üzvləri, deputatlar bu məsələyə də öz münasibətlərini bildirə bilərlər.

Xeyrulla Əliyevə söz verilir. Buyursun.

**Xeyrulla Əliyev.** Hörmətli sədr, hörmətli millət vəkilləri! Əgər xalq dediyimiz o əliqabarlı adamlardırsa, dəzgah dalında işləyən, tər tökən adamlardırsa, bunlar yekdilliklə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini icra edən Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əliyevin, onun başçılığı ilə bu günlərdə Moskvada danışıqlar aparmağa getmiş nümayəndə heyətinin fəaliyyətini alqışlayır, yekdilliklə təqdir edirlər, əgər xalq dediyimiz budursa.

Hörmətli millət vəkilləri! İki ildən artıq bir müddətdə bu zalda yaxın keçmişin siyasi maarif sistemi deyilən bir təhsil sisteminin ibtidai pilləsi üçün hazırlanmış dərsliklər üzrə demokratiyadan, müstəqillikdən oxunmuş mühazirələr xalqı min dərdə salıb, amma Allah min dərd göndərirsə, min bir dərman da göndərir. Bəsdir. Yetər daha. Əqlən və cismən

güclü adamlar öz əhatəsindən, yol yoldaşından, müsafirindən əsla narahat olmurlar, ona görə də bunlar biclik, hiylə, xəyanət, xof nədir, onu da bilmirlər və bunlar, əslində, deməli, onların səmimiyyətinə dəlalət edir. Xalq da belədir və Azərbaycan xalqının tarixi təcrübəsi göstərir ki, əgər o bu gün bu vəziyyətə düşmüşsə, heç də bu onun zəifliyindən, ağılsızlığından irəli gəlməyib. Heç vaxt Azərbaycan xalqı qonşuya təcavüz hissi ilə yaşamayıb və qonşudan, hücumdan qorxmayıb, heç bir xalq indiyəcən onu assimilyasiya edə bilməyib və mən qəti inanıram ki, bu, keçici haldır. Xalq öz qəddini düzəldəcək və nəyə qadir olduğunu sübut edəcək. O cümlədən Azərbaycan xalqı həmişə qonşusuna xeyirxah münasibət hissi ilə yaşayıb, o cümlədən Rusiya da. İki yüz il bundan qabaqkı Qarabağ–Rusiya münasibətlərini xatırlatmaq kifayətdir. Biz özümüzü təcrid elədik, amma bədxah qonşularımız özlərini qabağa verdilər, guya Qarabağ ermənilәri Rusiya ilə əlaqə saxlayıb. Halbuki bu hamıya məlumdur ki, Qarabağ xanı İbrahim xan əlaqə yaratmışdı Rusiya ilə, bunu sovet imperiyası eləməmişdi ki.

İllərdən bəri bizim arzumuz o olmuşdu ki, çoxlu soydaşlarımızın, qan qardaşlarımızın, dil qardaşlarımızın, din qardaşlarımızın yaşadıqları İranla, Türkiyə ilə də xoş münasibətlər olsun və indi bu olub. Daha xalq Rusiya ilə bədxahlıq istəməmişdi ki. Əgər Rusiya ilə də biz xoş münasibətdə olarıqsa, nə itirirdik ki? Təki olaq. Yenə deyirəm, bizim illərdən bəri əzəli arzumuz o idi ki, Türkiyə ilə, İranla münasibətlərimiz bərpa olunsun. Bunlar bərpa olunub. Niyə bunu biz yaxşı, səmərəli istifadə eləməyək?

O ki qaldı 70 ilin təcrübəsini nəzərə alsaq, hamı deyir ki, bu 70 ildə belə olmuşuq, belə batmışıq, mənliyimiz, heysiyyətimiz əldən gedib. İnsafla danışaq. Mən münasibətlərin çərçivəsini qiymətləndirməyi hər kəsin öz insafına buraxıram. Məndə kitablar var, 1933-cü ildə, müharibədən sonra da Bakıda, Azərbaycanda azərbaycanlıların tərkibini, sayını göstərən rəqəmlər var. Bu illərdə Bakıda da azərbaycanlıların tərkibi nə qədər dəyişib, ümumən Azərbaycanda da nə qədər dəyişib, mətbuatımız nə dərəcədə inkişaf edib, ədəbiyyatımız nə dərəcədə inkişaf edib, texniki elmlərimiz nə dərəcədə inkişaf edib. Niyə bunları biz nəzərə almırıq? O ki qaldı burada, üzr istəyirəm, KQB generalının xalqa xəyanət etməsi məsələsinə, izin verin, deyim, Heydər müəllim.

Heydər müəllim, Siz Moskvaya getməzdən qabaq Sizin bəzi fəaliyyətinizdən mən...

**Sədrlik edən.** Bilirsiniz, xahiş edirəm...

**Xeyrulla Əliyev.** Bilirsiniz, üzr istəyirəm, yox, deməliyəm...

**Sədrlik edən.** Bilirsiniz, mən bu böhtanları gətirib Məclis müzakirəsinə...

**Xeyrulla Əliyev.** Heydər müəllim, mən böhtan demirəm.

**Sədrlik edən.** Mənə son 6-7 ilin içərisində çox böhtanlar olubdur. Bu da qoy olsun. Eybi yoxdur. Xahiş edirəm, o mövzuya toxunmayasınız.

**Xeyrulla Əliyev.** Dilimə gəlib, demək istəyirəm. Heydər Əliyev ən yaxşı əsərlər müəllifi kimi nəinki Azərbaycan ərazisində, beynəlxalq miqyasda, keçmiş ittifaqın ərazisində də elə avtoqraflar qoyub ki, onu heç bir böhtanla silmək olmaz. Burada olanda, yadınızda varsa, getməzdən bir az qabaq getdiniz Şuşada Vaqif mavzoleyini açdınız və yadımdadır ki, ayağınızı yerə möhkəm vuraraq dediniz, bax mən bunu elədim, böyük bir kütləni bura gətirmişəm, bundan sonra sizin ayağınız gərək bu torpaqdan kəsilməsin. Moskvaya gedəndə sonra elə birinci il də...

**Sədrlik edən.** Xeyrulla müəllim, xahiş edirəm, mövzunu qurtarın. Bu, lazım deyil. Lazım deyil. Axı Siz nəyi sübut edirsiniz? Mən başa düşmürəm. Yox, mənim bu sübuta ehtiyacım yoxdur. Xahiş edirəm.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Yox. Kim bilmir, biləcək. Lazım deyil. Xahiş edirəm. Mən özümü o səviyyəyə gətirib sala bilmərəm ki, indi bu cür belə çirkin böhtanlara görə Məclisdə kimsə durub desin, Heydər Əliyev kimdir və nədir. Onu artıq Azərbaycan da tanıyır, dünya da tanıyır. Lazım deyil. Xahiş edirəm, başqa sözünüz varsa, buyurun. Yoxsa qurtarın.

**Xeyrulla Əliyev.** Yaxşı. İqtisadi sahədə deyilənləri təkrar etmək istəmirəm. Mən xalqın iradəsini ifadə edərək başda Siz olmaqla nümayəndə heyətinin Moskvadakı danışıqlarını, Rusiya rəhbərləri ilə, Türkiyənin Baş naziri Tansu Çillərlə, Amerika Prezidentinin nümayəndəsi Talbotla danışıqlarınızı, fəaliyyətinizi təqdir edirəm, alqışlayıram və onun yekdilliklə bəyənilməsini Məclis üzvlərinə tövsiyə edirəm. Sağ olun.

**Sədrlik edən.** Mən, sadəcə olaraq, o dediyim sözlərə iki-üç kəlmə də əlavə eləmək istəyirəm. Yenə də xahiş edirəm, burada, bu vərəqələrdə çox belə çirkin böhtanlar yazılıb. Mən dedim ki, bu hərəkətlərə münasibət bildirilsin, artıq bu vərəqələrdə olan bu çirkin sözləri burada da yaymaq, yaxud bunu sübut eləməyə ehtiyac yoxdur. Ona görə mən xahiş edirəm, ancaq bir məsələyə toxunmaq istəyirəm.

Bilirsiniz, burada yazılan şeylər hamısı böhtan, yalandır. Bu onu göstərir ki, Xalq Cəbhəsi əvvəl nə cür olub, onu mən demək istəmirəm, bu gün, sadəcə olaraq, bir böhtançı, çirkin əməllər yolu ilə gedən adamlardırlar. Mən bunu hamısına aid etmirəm, o təşkilatın içində sağlam fikirli, demokratik fikirli adamlar var, onlara bizim hörmətimiz var, ancaq bax bu işləri aparan adamlar, şübhəsiz ki, Azərbaycana xəyanət edirlər. Bu baxımdan, bir şeyi qeyd etmək istəyirəm. Yazırlar ki, Rusiya ilə, İranla birləşib Azərbaycanı satırlar. Biz nə Rusiya ilə birləşmişik, nə İranla birləşmişik. Azərbaycan müstəqil dövlət kimi müstəqil siyasət aparır. Əgər belə deyəndə siz təsəvvür edirsinizsə, Türkiyə ilə Azərbaycanın münasibətləri yoxdur, indiyə qədər olan münasibətlərdən daha da səviyyəli münasibətlər var və onlar haqqında mən məlumat verdim. Türkiyənin rəhbərləri ilə bizim daimi əlaqələrimiz məlumdur və heç təsadüfi deyildir ki, biz sentyabr ayının 8-də Türkiyənin Baş naziri Tansu Çillərlə Moskvada görüşdük.

Amerika ilə. Bəli, Xalq Cəbhəsi öz iclaslarında belə bir əhvali-ruhiyyə yaradırdı, sadəcə olaraq, adamları aldatmaq. Talbot gəlir bura, desin ki, Amerika Azərbaycanın indiki rəhbərliyini, Heydər Əliyevi tanımır. Bill Klintonun məktubunu gördünüz və iki saat ayrılmış vaxt əvəzinə beş saata qədər söhbət oldu. Söhbət də çox konstruktiv, çox əhəmiyyətli oldu, yəni xalqı aldatmayın. Bilirsiniz, bizim müstəqilliyimiz elə bir ondan asılı deyil ki, hansı dövlət bizə nə cür baxacaq. Bizim müstəqilliyimiz Azərbaycanın bir müstəqil dövlət kimi öz müstəqil nüfuzunu, şərəfini qoruyub, bütün dövlətlərlə bərabərhüquqlu əlaqə yaratmasından ibarətdir. Bundan ibarətdir və xalqı çaşbaş salmayın.

Biz iki saat yarımdan artıqdır ki, işləyirik. Mən istəmirəm ki, bizim Məclis üzvləri əziyyət çəksinlər. Belə bir məsləhət etmək istəyirəm. Demək, sizə üç məsələ haqqında məlumat, eyni zamanda bir neçə sənəd, xüsusən Rusiya ilə iqtisadi əlaqələr haqqında təkliflər, o cümlədən Müstəqil Dövlətlər Birliyinə daxil olmaq haqqında müəyyən fikirlər təqdim olundu. Bəlkə, belə edək. Bugünkü iclasımızı bununla bitirək. İmkan verək, bizim komissiyalar sabah günün birinci yarısında bu məsələləri iclaslarında müzakirə etsinlər, öz rəylərini, fikirlərini bildirsinlər. Bizim Katiblik bunları təmin edər.

Mən hesab edirəm, bu komissiyalar, xüsusən Xarici əlaqələr komissiyası, Dövlət quruculuğu və hüquq siyasəti komissiyası, İqtisadi siyasət komissiyası – Tofiq Əzizov qulaq asır – başqa aidiyyəti komissiyalar bu məsələləri günün birinci yarısında müzakirə etsinlər, öz fikirlərini, rəy-

lərini hazırlasınlar. Xüsusən bizim Rusiya ilə iqtisadi əlaqələrə aid olan bu müqavilələrin layihələrinə – Abbas Abbasov burada məlumat verdi – İqtisadi siyasət komissiyasında baxılsın. Müstəqil Dövlətlər Birliyinə münasibət, ora daxil olub-olmamaq haqqında məsələyə rəy verilsin və lazımdır ki, bizim komissiyalar və Məclis üzvləri Müstəqil Dövlətlər Birliyi haqqında müqavilə ilə, Kollektiv təhlükəsizlik müqaviləsi ilə tanış olsunlar. İndi artıq iqtisadi birlik haqqında müqavilə hazırlanır. Abbas Abbasov bu barədə məlumat verdi. Bu müqavilənin layihəsi ilə həm komissiyalar, həm də bizim Məclis üzvləri tanış olsunlar və bu barədə Məclis üzvləri daha da hazırlıqlı olsunlar. Biz komissiyaların rəylərini ala bilərik, onda bizim bu məsələlərin müzakirələri daha da səmərəli, daha da məzmunlu ola bilər. Əgər bu təklifə etiraz yoxdursa, onda mən xahiş edərdim ki, Nazirlər Kabinetindən Rəsul Quliyev və Abbas Abbasov komissiyaları bu layihələrlə, müqavilələrlə təmin etsinlər, çünki görürəm ki, müqavilələr çox adamlarda yoxdur, bəziləri heç onları oxumayıblar. Həm Ali Sovetin Katibliyi bu məsələlərdə kömək etsin, həm də xarici işlər naziri Həsən Həsənovdan xahiş edirəm, komissiyaların və Məclis üzvlərinin bu sənədlərlə tanış olmalarına şərait yaratsınlar, sabah biz bu məsələləri daha da ətraflı müzakirə edə bilək.

Belə bir təklifə etiraz yoxdur ki?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Etiraz yoxdursa, sabah saat 4-ə qədər imkan verək ki, həm komissiyalar işləsin, həm də Məclis üzvləri bu sənədlərlə tanış olsunlar. Saat 4-də növbəti iclas öz işinə başlasın. Sağ olun.

## AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN İCLASI

*14 sentyabr 1993-cü il*

*Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri* ***Heydər Əliyev*** *sədrlik edir*

**Sədrlik edən.** Axşamınız xeyir, hörmətli Məclis üzvləri. Hörmətli deputatlar, qonaqlar və mətbuat nümayəndələri! Dünən Milli Məclisin gündəliyinə daxil edilən məsələlərin müzakirəsini davam etdirməliyik. Öncə rica edirəm, Məclis üzvləri qeydiyyatdan keçsinlər.

***(Qeydiyyat)***

44 nəfər iştirak edir. Yetərsay var.

Dünən Məclis üzvlərindən çıxış etmək üçün yazılanlar var idi. Yəqin ki, indi tablo təkrar olunar. Ancaq mənim xatirimdədir ki, Gülnarə Qurbanovanın ad-familiyası var idi. Ondan sonra İbrahim İbrahimov da yadımdadır. Qalanları tablo bərpa olunanda deyərəm. Buyurun, Gülnarə xanım.

**Gülnarə Qurbanova.** Hörmətli sədr, hörmətli millət vəkilləri! Bu gün mən Milli Məclisin üzvü kimi ilk dəfədir söz almışam. Mənim namizədliyimi təklif edən xalqımızın böyük oğlu Heydər Əliyevə və lehimə səs vermiş Milli Məclis üzvlərinə dərin minnətdarlığımı bildirirəm. Söz verirəm ki, var gücümlə çalışacağam. Dünən burada müzakirə edilən məsələyə münasibətimi bildirmək istərdim. Hesab edirəm ki, Azərbaycanın Müstəqil Dövlətlər Birliyinə daxil olması məsələsinə indi yox, hələ qurum təşkil olunan vaxt baxılmalı idi. Bu gün isə biz şəhidlərimizin müqəddəs ruhu, yollar boyu səpələnən qaçqın və köçkünlərimzin, acınacaqlı vəziyyətə düşən soydaşlarımızın iztirabı qarşısında cavabdehliyimizi qəbul etməli, yeni iqtidarın atdığı qətiyyətli addımlara tərəfdar çıxmalıyıq. Azərbaycanın Müstəqil Dövlətlər Birliyinə daxil olmasına səs verməliyik. Əminəm ki, atılacaq bu addımımız respublikamızın müstəqillik yolunda inamla irəliləməsinə nəinki mane olmayacaq, hətta lazımi imkanlar yaradacaq.

Hörmətli Heydər müəllim, icazənizlə, Xalq Cəbhəsinə münasibətimi də bildirmək istəyirəm. Hələ 1992-ci il iyulun 15-də Əbülfəz Əliyevin

tutduğu siyasi yolda buraxdığı ilk səhvləri görürdüm. O məndən nəyə görə Xalq Cəbhəsinin üzvü olmadığımı soruşdu, buna cavab olaraq mən də ümumiyyətlə, Xalq Cəbhəsi məfhumunu qəbul etmədiyimi bildirdim. Axı xalq içində hansı Xalq Cəbhəsindən danışmaq olar? Bəs onda Xalq Cəbhəsinə üzv olmayan, bu zalda əyləşən əksər tanınmış ziyalılar, xalqımızın layiqli nümayəndələri kimdirlər? Məgər onlar da bu millətin övladları, Azərbaycanın taleyini düşünən insanlar deyillərmi? Təəccüblüdür ki, Əbülfəz Əliyev o vaxt mənim dediklərimlə razılaşdı. Ancaq bu gün həqiqətdə gördüyümüz mənzərə bunun tam əksinədir. Zənnimcə, artıq bu ictimai təşkilatın taleyi haqda ciddi düşünməyin və qəti qərar verməyin vaxtı gəlib çatıb. Millət vəkillərinin bu məsələyə münasibət bildirmələrini istərdim. O ki qaldı Xalq Cəbhəsinin üzvü olan siyasi fəaliyyətlərini orada davam etdirən xalqımızın ləyaqətli adamlarına, hesab edirəm ki, onlar bundan sonra yeni iqtidara tutduğu çətin və şərəfli yolda kömək göstərməlidirlər. Diqqətinizə görə minnətdaram.

**Sədrlik edən.** Bildiyiniz kimi, dünən biz iclasın sonunda belə məsləhətləşdik ki, komissiyalarımız bu gün işləsinlər. Gündəlikdə olan üç məsələ, o cümlədən Müstəqil Dövlətlər Birliyinə münasibət haqqında məsələ komissiyalarda müzakirə olunsun. Komissiyalar işləyib və artıq öz rəylərini veriblər. Rəylər müsbət xarakter daşıyır. Yalnız komissiyaların sədrləri bu barədə Məclisə ümumi məlumat versəydilər, daha yaxşı olardı. Bildiyimizə görə, komissiyaların birində fikir ayrılığı olubdur. Dövlət quruculuğu və hüquq siyasəti komissiyasında. Bu komissiyanın üzvləri öz fikirlərini bildirsələr yaxşı olar. Çünki biz bu gün bu komissiyaların işləməsinə və Məclis üzvlərinin sənədlərlə tanış olmasına ümid bəsləyirik. Belə olarsa, bugünkü müzakirəmiz daha mütəşəkkil və məzmunlu olar. İbrahim İbrahimov, buyurun.

**İbrahim İbrahimov.** Hörmətli sədr, hörmətli millət vəkilləri! Respublikanın ümumi vəziyyəti nəticə etibarilə bizi çox ağır problem qarşısında qoyub. Son iki ayda Azərbaycanın beş rayonunun dalbadal işğal olunması, bəzi digər rayonların işğal təhlükəsi altında qalması, qaçqınların sayının sürətlə artması, ictimai həyatın bütün sferalarında gərgin vəziyyətin mövcudluğu, sosial sahədə gərginlik həddinin yüksək səviyyəyə çatması yol ayrıcında qalan Azərbaycanı seçim məcburiyyəti qarşısında qoyubdur. Bu yollardan biri indiyə qədər davam etdirilən heç bir şərt qəbul etmədən dövlətin müstəqilliyi və ərazi bütövlüyünü qorumaq yoludur. İkincisi, son iki ayda formalaşan ərazi bütövlüyümüzün və dövlət müstəqilliyimizin tam və ya birdəfəlik itirilməsi yoludur.

Mən ikinci yolla bağlı fikirlərimi diqqətinizə çatdırmaq istəyirəm. Birinci yol nə qədər ağrılı və əzablı olsa da, keçmiş iqtidar hakimiyyətdə olduğu bu bir il müddətində onu qorudu. Geopolitik zona kimi Azərbaycanda dünya siyasətini müəyyənləşdirən dövlətlərin strateji maraqlarının kəsişməsi və bu maraqlar arasında balanslaşdırma siyasəti aparmaqla müəyyən mənada həm özünün daxili siyasətində, həm də xarici siyasətində müstəqil dövlətimizin yaradılması üçün müəyyən uğurlar əldə edə bildi. Məhz bunun nəticəsi idi ki, bu bir il müddətində iki rayonu işğaldan azad edə bilmiş, bir rayonu isə itirmişdi. Bu gün seçilən ikinci yola mənim münasibətim mənfidir. Fikirlərimi faktlarla sizin diqqətinizə çatdırmaq istəyirəm. Əvvəla, iki ildən artıqdır fəaliyyət göstərən Müstəqil Dövlətlər Birliyinin siyasi, iqtisadi və hərbi sferasına diqqət yetirmiş olsaq, bu təşkilatın ümumi vəziyyətini aydınlaşdırmış olarıq.

Böyük iqtisadi potensiala malik Rusiyanın vəziyyətini nəzərinizə çatdırım. Rusiyada tələbat mallarının qiymətinin son iki il ərzində 27 dəfə, sənaye məhsullarının qiymətinin 35 dəfə artması, istehsal səviyyəsinin həddindən artıq zəifləməsi, xalqın alıcılıq qabiliyyətinin 2,5 dəfə aşağı düşməsi Müstəqil Dövlətlər Birliyinə daxil olan dövlətlərin siyasi coğrafiyasında, heç olmasa, qismən də monosabitliyin yaranmasına gətirib çıxarmadı. Əksinə, ziddiyyətlərin və iqtisadi böhranın daha artıq dərinləşməsinə səbəb oldu. Bu təşkilata üzv olan respublikalarda siyasi stabillik hökm sürmür, əksinə, siyasi sabitlik pozulub, hakimiyyət böhranı dərinləşir. Bunu Rusiyada da, Ukraynada da, Belarusiyada da, digər respublikalarda da görmək mümkündür. Əgər onların hərbi sferasına diqqət yetirmiş olsaq, bu sahədə də vəziyyətin acınacaqlığı aydın görünür. Yəni orduda yaranmış ümumi vəziyyət, problemlər bu dəqiqə onların qarşısında çox kəskin ziddiyyətlərin yaranmasına gətirib çıxarıbdır. Burada tez-tez söhbət gedir ki, əgər biz Müstəqil Dövlətlər Birliyinə daxil olmuş olsaq, onda respublikanı iqtisadi və siyasi böhrandan, müharibə vəziyyətindən çıxara bilərik. Doğrudan da, biz bu birliyə daxil olmuş olsaq, torpaqlarımızı geri qaytara biləcəyikmi? İşğal olunmuş ərazilərimizdə yenidən hakimiyyəti bərpa edə biləcəyikmi? Qaçqınları öz yer-yurdlarına qaytara biləcəyikmi? İqtisadi böhrandan çıxa biləcəyikmi, siyasi stabillik yarada biləcəyikmi? Mənə belə gəlir ki, bunlar mümkün deyil. Yəni indiyə qədər Müstəqil Dövlətlər Birliyinin baş tutmamasının ən başlıca səbəblərindən biri məhz ondan ibarət idi ki, Ukrayna və Türkmənistan mərkəzçiliyin yaranmasının əleyhinə gedir-

dilər. Digər dövlətlər də bu qurumun tərkibinə daxil olmamaq meyilləri göstərir, xüsusən Azərbaycan, Moldova və digər respublikaların daxil olmaması indiyə qədər MDB-nin monolit şəkildə formalaşmasının qarşısını alırdı. Amma belə olan tərzdə Rusiya Müstəqil Dövlətlər Birliyinə daxil olmayan dövlətlərin daxilində hərbi və siyasi təzyiq vasitələrindən istifadə eləmək cəhdləri göstərdi. Nəzərinizə çatdırım ki, keçmiş iqtidarın hakimiyyətdən getməsinin ən başlıca səbəblərindən biri də məhz ondan ibarətdir ki, balanslaşma siyasəti apararaq MDB-yə daxil olmadığına görə Rusiya tərəfindən süni yaradılmış problemlər qarşısında dayana bilmədi. Nəhayət, belə ağır problemlər qarşısında qalan keçmiş iqtidar hakimiyyətdən uzaqlaşdırıldı. Amma keçmiş iqtidarın hakimiyyət uğrunda qırğına getməməsi məhz respublikada Tacikistan, Moldova variantının yaranmasının qarşısını aldı.

Burada tez-tez bir məsələ qoyulur ki, torpaqlarımız işğal olunub və biz MDB-yə daxil olsaq, Qarabağ problemi həll olunacaq, müharibə böhranından çıxacağıq. Mən onda belə bir sual vermək istəyirəm. Tacikistanda problemlər, demək olar ki, bizdəki problemlə eynidir. Ağır bir vəziyyətlə qarşılaşmışdı. Yəni eyni millətdən olan dövlətlər arasında kəskin münaqişə yaranmışdı və bu münaqişəni həll eləmək üçün rus qoşunları Tacikistana dəvət olundu. Siz son hadisələrin şahidi olaraq görürsünüz ki, bu, eyni millətdən olan iki qrup arasındakı vəziyyəti sabitləşdirə bilmədi. Əksinə, orada vətəndaş müharibəsinin daha çox genişlənməsinə, qırğın həddinin daha da güclənməsinə səbəb oldu. Belə bir sualım da var. Əgər doğrudan da, Rusiya özünün strateji maraqlarını məhz bu zonada təmin eləmək üçün Qarabağ problemini yaradıbsa, belə bir problemi yaradan bir ölkə, bir dövlət və yaxud da Müstəqil Dövlətlər Birliyi bu problemin həll olunmasına hansı dərəcədə maraq göstərəcəkdir? Biz əgər MDB-yə meyillənsək, onda Rusiya həm özünün, həm də strateji müttəfiqi kimi Ermənistanın ağır şərtlərini bizim qarşımıza qoyacaq. Bu hansı şərtlər ola bilər? Tez-tez burada səslənir ki, bəlkə, biz MDB-nin iqtisadi ittifaqına daxil olub, siyasi və hərbi ittifaqını saxlaya bilərik. Amma iqtisadi ittifaqa daxil olmaq bizim iqtisadi müstəqilliyimizin müəyyən bir hissəsindən, yeni rubl zonasının yaranması isə tamamilə milli valyuta, kredit siyasətimizdən məhrum olmağımız deməkdir. Beləliklə, əgər biz iqtisadi ittifaqa daxil oluruqsa, iqtisadi müstəqilliyi itiririk. Hərbi ittifaqa daxil oluruqsa, Kollektiv təhlükəsizlik haqqında müqaviləni imzalayırıqsa, rus qoşunlarının Azərbaycana gətirilməsini təmin ediriksə, təbii ki, bunlar özünün strateji müttəfi-

qi kimi Ermənistanın mənafeyini qoyub bizim mənafeyimizi müdafiə etməyəcək.

Burada tez-tez deyilir ki, guya Qraçov çıxışında göstərib ki, Azərbaycan Müstəqil Dövlətlər Birliyinə daxil olmadığına, Kollektiv təhlükəsizlik müqaviləsini imzalamadığına görə, əksinə, Ermənistan imzaladığına görə bizim mənafelərimizi müdafiə edə bilmirlər. BMT və ATƏM kimi beynəlxalq, çox böyük bir nüfuza malik olan, böyük təcrübəsi olan təşkilatlarda həm Ermənistan, həm də Azərbaycan təmsil olunub. ATƏM-də, ümumiyyətlə, bu problemin həll olunmamasının səbəbi kimi məhz hər iki dövlətin orada təmsil olunduğu və hər iki dövlətin fikirlərinin dinlənildiyi göstərilirdi. Beləliklə, əgər biz Kollektiv təhlükəsizlik müqaviləsini imzalasaq belə, yaddan çıxarmaq lazım deyil ki, bu məsələlərdə Rusiya bizim maraqlarımızı təmin edə bilməyəcək, yalnız özünün strateji müttəfiqinin maraqlarını geniş şəkildə təmin edəcəkdir. Bir fikrimi də bildirmək istəyirəm ki, MDB nə deməkdir? Bu, klassik imperiyanın modernləşdirilmiş bir formasıdır. Təbii ki, əsrin əvvəllərində çar imperiyası dağılandan sonra rus sovet imperiyası yarananda cəmi 28 ay fəaliyyət göstərən müstəqil Azərbaycan dövlətini məhz belə bir vəziyyət qarşısında qoydular. İmperiyanın tərkibinə daxil olan demokratik cümhuriyyətin müstəqilliyinin ləğv olunması 74 il müddətində Azərbaycana nə verib? O bizə tam şəkildə məlumdur. İndi tarix müəyyən mənada təkrar olunur, imperiya forma etibarilə dəyişir, məzmun etibarilə qalır. Çünki klassik imperiya dünyanın müasir üsullarına cavab vermədiyinə görə Rusiya bununla bağlı modernləşdirilmiş yeni üsullar tapır, yeni metodlar. Ona görə də biz yenidən müasir imperiya boyunduruğunun altına düşmək təhlükəsi qarşısında qalırıq.

Dağlıq Qarabağa münasibətin bildirilməsi, əlbəttə, burada söhbət gedir ki, Dağlıq Qarabağda danışıqların getməsi bizim vəziyyətimizin yaxşıladırılmasına gətirib çıxara bilər. Mən yenə deyirəm. Dağlıq Qarabağdan söhbət gedir. Dağlıq Qarabağ Respublikası ilə danışıqlara gedilməsi, mənim fikrimcə, bizim vəziyyətimizi daha da ağırlaşdıracaqdır. Yəni biz Dağlıq Qarabağ Respublikası ilə danışıqlara getməklə de-fakto respublikanı artıq tanıyırıq. Yəqin ki, elə olduqda artıq biz oranı siyasi-coğrafi bir məkan kimi də tanımış olarıq. Beləliklə, onlar bundan sonra de-yure respublikanın tanınmasına cəhd göstərəcəklər. Mən bu danışıqları sülh danışıqları kimi yox, sadəcə olaraq, təslimçilik aktı kimi qəbul edirəm.

Heydər bəy, yəqin, yadınızdadır, 1990-cı il hadisələri baş vermişdi, 20 yanvar faciəsi. O vaxt Siz Naxçıvan Muxtar Respublikasının Ali Məc-

lisində yanvar hadisəsi ilə bağlı çıxış edəndə Naxçıvan Ali Məclisində qəbul olunmuş qərara Rusiya Müdafiə Nazirliyində keçmiş SSRİ-nin 13 nəfər rəhbərinin adı cinayətkar kimi daxil edilmişdi. Əgər xatirinizdədirsə, həmin adlardan biri də keçmiş SSRİ-nin müdafiə naziridir. Yəqin ki, bu gün Sizin danışdığınız Qraçov o vaxt Müdafiə Nazirliyində çox yüksək postlardan birini tuturdu. Bakıda yanvar qırğınını törədən bu cür adamlara indi Sizin bu cür səmimi şəkildə inanmağınız və deməyiniz ki, əgər biz MDB-yə daxil olsaq, onun bütün strukturlarında iştirak etsək, Azərbaycandakı ağır vəziyyətdən çıxış yolu tapıb xilas ola bilərik, bu səmimiyyətə tam şəkildə inana bilmirəm. Azərbaycan on ildir bu azadlıq yolunda mübarizə aparır. Bu müddətdə Azərbaycan yüzlərlə şəhid verib. Mənə belə gəlir ki, əgər biz MDB-yə girsək və müstəqilliyimizi tam və ya qismən itirmiş olsaq, onların ruhu qarşısında cavab verə bilməyəcəyik. Eyni zamanda əsrin əvvəllərində başlayan Azərbaycan Demokratik Cümhuriyyətinin məğlub olması eynilə təkrar olunar. Necə ki, biz əsrin əvvəllərində baş verən hadisələrə siyasi qiymət veririk, gələcək nəsillər də sonra bizim qoşulduğumuz bu təslimçilik aktına özlərinin siyasi qiymətini verəcəklər. Bu məsuliyyətə görə Azərbaycanın daxili və xarici siyasətini müəyyənləşdirən qanunverici orqanın da, yəqin ki, o qiymətdə xüsusi yeri olacaq.

Mən son dövrlərdə birtərəfli qaydada total şəkildə aparılan təbliğatın da tam şəkildə əleyhinəyəm. Xüsusən ictimai-siyasi təşkilatlara qarşı yönəldilmiş bu proses həmin təşkilatlardan birinin rəhbərliyinin üzvü kimi məni narahat etməyə bilməz. Məlum məsələdir ki, bu günlərdə Azərbaycan Xalq Cəbhəsinin hərbi qüvvələrinə daha çox istinad olunur və göstərilir ki, guya AXC-nin yaratdığı bu ordular rayonlarda təxribat aparırlar. Amma nəzərinizə çatdırım ki, respublikanın ağır vəziyyətində Azərbaycan Xalq Cəbhəsi öz üzvlərindən ibarət batalyonlar yaratmışdı. Biz bunu qəbul edirik və bu batalyonlar Müdafiə Nazirliyində qeydiyyatdan keçmişdir. Eyni zamanda Azərbaycanın bir sıra rayonlarında özünümüdafiə batalyonları yaranmışdı. Amma mən bu batalyonların adından tam məsuliyyətimlə deyə bilərəm ki, onlar təxribat törətməyiblər. Bu faktlar dəqiqləşdirilməlidir. Onlar təxribat işləri ilə məşğul ola bilməzlər. Sadəcə, cənub bölgələrində o batalyonların ləğv edilməsi, onların o ərazidən çıxarılması son iki ayda yeridilən siyasətlə bağlı idi. Təbii ki, bu siyasət də xalqda təslimçilik əhvali-ruhiyyəsi yaratmaq üçün idi. Guya bizim ordumuz yoxdur, müdafiə qabiliyyətinə malik deyilik, guya biz mübarizə apara bilmərik, nicat yolumuz yalnız Moskvadadır

demək üçün... Beləliklə, məcburiyyət qarşısında qalmış xalq da psixoloji cəhətdən şok vəziyyətinə salınır. MDB-yə inam yaranır, münasibət dəyişir. Biz Azərbaycan Xalq Cəbhəsinə qarşı yönəldilən bu iradları yalnız yoxlanılandan sonra qəbul eləməyə hazırıq. Amma səmimi şəkildə etiraf edirik ki, bu beş il müddətində Azərbaycan Xalq Cəbhəsinin səhvləri də olub. Amma müsbət cəhətləri də olub. Biz səhvlərimizi etiraf edirik. Yaxın vaxtlarda özünüz də görəcəksiniz ki, Azərbaycan Xalq Cəbhəsi silsilə məqalələrlə özünün etiraflarını edəcək. Bizim məqsədimiz Xalq Cəbhəsinin bütün potensial imkanlarından istifadə eləmək, onun intellekt səviyyəsini artırmaq, respublikada ictimai-siyasi proseslərə təsir eləmək, demokratiya prinsiplərini, insan hüquqlarını qorumaqdır. Elə bu gün – ayın 14-nə mitinq çağırmaqda məqsədimiz də bu bir il müddətində respublikanın yeritdiyi siyasi kursun, xarici kursun birdən-birə dəyişməsinə, Rusiyaya meyillənməyə və birtərəfli qaydada Azərbaycanın problemlərinin yalnız Rusiya vasitəsilə həll ediləcəyinə və MDB-yə daxil olmağımıza, Dağlıq Qarabağ Respublikası ilə danışıqlar aparılmasına etiraz göstərməkdən ibarət idi. Biz hakimiyyətlə bağlı mitinqlərə getmədik. Mən Azərbaycan Xalq Cəbhəsinin İcraiyyə Komitəsinə sədr təyin olunandan sonra hakimiyyətlə bağlı mitinqlərə müəyyən mənada son qoyuldu. Yəni respublikadakı ağır, gərgin vəziyyəti nəzərə aldıq, məsələni bu şəkildə qoyduq ki, kütləvi siyasi aksiyaların keçirilməsi bu gərginliyi daha da artıra bilər. Amma son iki ay müddətində formalaşan xarici siyasətdə Azərbaycana təslimçilik əhvali-ruhiyyəsinin aşılanmasına, təbii ki, biz etirazımızı bildirmək üçün bu mitinqi çağırdıq. Yəni biz hər şeydə güzəştə getməyə hazır idik, amma azadlığın itirilməsində heç bir güzəştə getmərik və qəti şəkildə mübarizəmizi davam etdirəcəyik. Azərbaycan Xalq Cəbhəsi həm daxildə, həm də xaricdə özünü demokratik hərəkat kimi təsdiq edib və tanıtdırıb. Onun məhv edilməsi, rayon şöbələrinin buraxılması, Azərbaycan Xalq Cəbhəsinin qərargahının bağlanması, üzvlərinin həbs olunması, repressiyalara məruz qalması, mənə belə gəlir ki, indiki məqamda ölkə rəhbərliyinə heç vaxt xeyir gətirməz və belə münasibət yalnız insan hüquqlarının və demokratik prinsiplərin pozulması kimi qiymətləndirilə bilər. Diqqətinizə görə sağ olun. Təşəkkür edirəm.

**Sədrlik edən.** İbrahim bəy, mən Ali Sovetin sədri və iclası idarə edən şəxs kimi bir daha bildirmək istəyirəm ki, burada hər kəsin, hər bir Məclis üzvünün və deputatın öz fikirlərini sərbəst şəkildə deməsinə şərait yaranıb və bundan sonra da yaranacaqdır. Siz də Milli Məclisin üzvü ki-

mi, yaxud da Xalq Cəbhəsinə mənsub olan deputat kimi hər istədiyiniz sözü və fikri burada deyə bilərsiniz. Hətta bu lazımdır. Çünki bir halda ki biz demokratiyadan, fikir müxtəlifliyindən danışırıq, hər bir fikri diqqətlə dinləməliyik. Şübhəsiz ki, ola bilər, fikir qəbul olunsun və ya olunmasın. Mən hiss edirəm ki, şəxsən mənim dünyagörüşüm, bu dövrdə burada olmağım, respublikanın bu vəziyyətdən çıxması üçün lazımi qərarları verməyim sizin tərəfinizdən qəbul olunmur. Mən bunu heç də pis bir şey hesab etmirəm. Hər deyilən sözün hamı tərəfindən qəbul olunması düzgün olmazdı. Müxalifətin, fikir müxtəlifliyinin olması cəmiyyətdə həmişə demokratiyanın əsas qanunlarından, əsas prinsiplərindən biridir. Bu cəmiyyətdə və xüsusən siyasət sahəsində aparıcı qüvvələrin daha düzgün mövqe tutmasına kömək edir. Ona görə də mən istərdim biləsiniz ki, burada Sizin, bütün Məclis üzlərinin, hər bir deputatın və dəvət olunan şəxsin fikir söyləməyinə etiraz ola bilməz. Ancaq bunlar hamısı sivilizasiya və mədəniyyət səviyyəsində olmalıdır. Ona görə də mən sizin sözlərinizə etiraz etmək məqsədilə yox, aydınlaşdırmaq məqsədilə cavab verirəm. Bəzən mənə deyirlər ki, söz deyən kimi cavabını verirsiniz. Amma sonra ola bilər, mənim yadımdan çıxsın.

1990-cı il yanvar hadisələrində Azərbaycan Respublikasına SSRİ-nin kommunist rəhbərliyi tərəfindən hərbi təcavüz olundu. Mən də şəxsən minlərlə azərbaycanlı kimi bu təcavüzün əleyhinə çıxmışam, hələ Moskvada olarkən bunun əleyhinə çıxmışam. Burada, bax, bu salonda bu hərbi təcavüzün əleyhinə çıxmışam. Hadisəyə siyasi qiymət, günahkarlarına cəza verilməsini tələb etmişəm. Yadınızdadır, İbrahim bəy, mən bu tribunadan deyəndə ki, niyə indiyə qədər yanvar hadisələrinə siyasi qiymət verilməyib, Sizin həmkarınız, Xalq Cəbhəsinin ovaxtkı Məclis sədri, bax bu Tamerlan Qarayev mənə replika verdi ki, siyasi qiymət verilib, sadəcə, hüquqi qiymət verilməyib. Amma hüquqi qiymət də verilmədi. Tutaq ki, bunu Mütəllibov hakimiyyəti qoymurdu və sizin Milli Məclisdəki nümayəndəniz Tamerlan Qarayev idi. Bütün bu işlərə rəhbərlik edən adam nə üçün bunu təmin etmədi?

Nəhayət, yanvar hadisələri ilə əlaqədar olaraq belə əcaib bir sənəd çıxardılar ortaya. Mən bunu Naxçıvanda olarkən televiziya ilə dinlədim. O sənədi Tamerlan Qarayevlə Midhəd Abbasov yazmışdı. Amma Midhəd Abbasov heç o sənədi oxuya da bilmirdi. Xatirinizdədirmi bu? Mən bunların hamısına etiraz etmişəm. İndi də bunlara qarşı protest edirəm. Sizə xatırlatmaq istəyirəm ki, bu işlərə Xalq Cəbhəsinin ovaxtkı Məclis sədri Tamerlan Qarayev rəhbərlik edirdi. Əgər doğrudan da, Xalq

Cəbhəsinin bu işləri açmağa marağı vardısa nə üçün onun öz nümayəndəsi – Məclis sədri, eyni zamanda Ali Sovetin sədr müavini və komissiya sədrlərindən biri olan bu şəxs tələb etmədi ki, bu məsələlərdə düz mövqe tutulsun. Bir ay bundan öncə Rusiyanın "Ostankino" televiziyasının icmalçısı mənim yanıma gəlmişdi. Mən Moskva televiziyası ilə həmin bir saatlıq çıxışımda da öz fikrimi demişəm. Yanvar hadisələrinin hərbi aqressiya olduğu haqqında. Çox təəssüf edirəm ki, indiyə qədər də Azərbaycan xalqına qarşı misli görülməmiş hərbi-siyasi təcavüz cəzasız qalıb, onun günahkarları cəzalandırılmayıb və hadisəyə lazımi hüquqi qiymət verilməyib. Bir şeyi də soruşmaq istəyirəm: Xalq Cəbhəsi hakimiyyətdə olduğu bir il içərisində Siz nə üçün bu məsələlərə toxunmadınız, bu məsələləri qaldırmadınız? Nə üçün bu məsələlərə yenidən baxmadınız? Siz bunu indi niyə qaldırırsınız?

Xatirinizə bir şeyi də salmaq istəyirəm. Əgər izləmisinizsə, Azərbaycanın keçmiş Prezidenti Əbülfəz Elçibəy Türkiyədə olarkən müxbirlər ona bir sual verdilər ki, 20 yanvar hadisələri haqqında nə deyə bilərsiniz? Əbülfəz bəy dedi ki, o olaylar bitdi getdi, onu sormayın. Yadınızdadırmı bu? Mən Naxçıvanda idim bunu eşidəndə, ürəyim ağrıdı. Azərbaycanın başına gəlmiş bu hərbi təcavüzlə bağlı ovaxtkı Xalq Cəbhəsi mitinqlər qaldırırdı. Bəs nə üçün Xalq Cəbhəsinin sədri Azərbaycanın Prezidenti olduğu dövrdə bu məsələni açmadı? Niyə bunu qaldırmadı? Bunu da xatirinizə salıram: 1990-cı ilin noyabr ayında Naxçıvan Milli Məclisinin birinci iclasını mən aparırdım. İlk dəfə Azərbaycanın müstəqillik bayrağı – həmin bu üçrəngli bayraq məhz Naxçıvanda qalxdı. İlk dəfə Naxçıvan Muxtar Respublikasının adının üzərindən "Sovet Sosialist" sözləri götürüldü. O vaxt buradakı kommunist rejimi Naxçıvanı əzirdi, yadınızdadırmı? Amma onu da unutmamalısınız ki, burada mənim də iştirakım oldu. Hətta deyərdim ki, burada mənim iştirakım çox mühüm xarakter daşıyırdı. Bəli, o vaxt mən təklif elədim ki, yanvar hadisələrinə siyasi qiymət verilməsi üçün qərar qəbul olunsun. Deputatların bir hissəsi bunu istəmirdi. Bunu Naxçıvanın ovaxtkı rəhbərliyi də istəmirdi. Ancaq mən öz şəxsi siyasi nüfuzumdan istifadə eləyib bu qərarın qəbul olunmasına nail oldum və hətta bu qərarın mətnini də mən yazdım. Çünki onlar yazmaq istəmirdilər. O cümlədən keçmiş müdafiə naziri Yazovun familiyasını da mən yazdım. Çünki bu gün də hesab edirəm ki, Yazov Azərbaycan xalqı qarşısında cinayətkardır. Ancaq mən elə hesab etmirəm ki, düşmənçilik əbədi olmalıdır. Mən hesab edirəm ki, Rusiyanın bugünkü demokratik rəhbərliyi keçmiş sovet kommunist rəhbərliyinin günahla-

rına cavabdeh olmamalıdır. Mən bilmirəm, o vaxtlar Qraçov sovet ordusunda hansı vəzifəni tuturdu. Ancaq siz hesab etməyin ki, elə sovet ordusunda olan bütün generallar hamısı Yazov kimidirlər. Mən Yazovu da yaxşı tanıyıram. Əminəm ki, o bunu öz iradəsi ilə etməmişdir. Bu, politbüronun və Qorbaçovun qərarı ilə olmuşdur. O da bir əsgər kimi, bir general kimi bunu həyata keçirdi. Rus ordusu öz vəhşi simasını göstərdi. Budur məsələ! Ona görə də Siz nahaq yerə belə güman edirsiniz ki, indi mənim simpatiyam dəyişilib, indi başqa siyasət aparıram. Yox, mən həmin mövqedəyəm və hesab edirəm ki, vaxt gələcək, yanvar hadisələrinin üstü açılacaq, onun əsl günahkarları meydana çıxacaq. Ancaq eyni zamanda bu gün mən Sizin sözünüzə qüvvət olaraq deyirəm ki, ola bilər, müxalifətdə olan vaxt Xalq Cəbhəsinin imkanları az idi. Baxmayaraq ki Xalq Cəbhəsinin məclis sədri bu gündə burada bu kürsünün arxasında oturur. Onu da bura Xalq Cəbhəsi təqdim etmişdi, burada Xalq Cəbhəsini təmsil etməli idi, onun siyasətini aparmalı idi. Amma aparmadı. Mən bu məsələləri təhlil etmək istəmirəm, o mənim işim deyil. Ancaq yanvar hadisələri məsələsində o, satqınlıq etdi. Mən bunu onun özünə də dedim. Siz isə ona heç bir cəza vermədiniz, onu vəzifədən də çıxarmadınız. Ona görə mən bir də deyirəm, birinci, Siz ovaxtkı 1990-cı ilin yanvar hadisələrindəki vəziyyətlə indiki Rusiyanı heç də birləşdirməyin. İkincisi, indi Rusiyanın başında demokratik adamlar dururlar. 1991-ci il avqust ayının 21-də Moskvada hərbi çevriliş baş verdi. Elədirmi? Azərbaycanın ovaxtkı başçısı Mütəllibov o hərbi çevrilişi müdafiə etdi. Xalq Cəbhəsi isə bunun əleyhinə çıxdı. Bu da Sizin xatirinizdədir ki, Xalq Cəbhəsi Yeltsinə teleqram vurdu ki, biz Sizi müdafiə edirik. Hətta Xalq Cəbhəsinin Naxçıvan şöbəsi də teleqram vurmuşdu ki, biz sizi müdafiə edirik. Mən də o vaxtlar Yeltsini müdafiə edirdim, ona teleqram vurmuşdum. Avqust ayının 29-da həmin hərbi çevriliş haqqında yenə də bu tribunada çıxış etdim. Azərbaycanın ovaxtkı rəhbəri Ayaz Mütəllibov hərbi çevrilişi müdafiə etdiyinə, bunun bir cinayət olduğuna görə burada söylədim ki, Prezident seçkiləri dayandırılmalıdır. Parlament bunu qəbul etmədi. Ancaq biz Azərbaycandakı Prezident seçkilərində namizəd məhz Mütəllibov olduğuna, yanvar hadisələrində günahkar olduğuna və Moskvada hərbi çevrilişi müdafiə etdiyinə görə Naxçıvanda onu qadağan etdik. Onun üstündə biz nə qədər əziyyətlər çəkdik. Axı biz həmkar olmuşuq, bir yerdə olmuşuq. Mən həmişə sağlam fikirlərin müdafiəçisi olmuşam, yenə də müdafiəçisiyəm. Amma mən o fikirləri ifrat dərəcəsinə gətirib çıxarmağa razı ola bilmərəm.

O ki qaldı Xalq Cəbhəsinə münasibət göstərilməsi haqqında Sizin dediyiniz sözlərə, mən bununla da razı deyiləm. Mən bunu dəfələrlə demişəm, Xalq Cəbhəsi Azərbaycanın siyasi həyatında, azadlıq hərəkatında, müstəqilik uğrunda mühüm rol oynayıb. Müstəqillik Azərbaycan xalqına və bütün keçmiş SSRİ-də yaşayan xalqlara respublika kimi, müstəqil dövlət kimi taleyin bəxşişidir. Düzdür, bu müstəqilliyi Xalq Cəbhəsi əldə etməyib. Ancaq onların rolu danılmamalıdır. Mən sizi inandırıram, əgər Xalq Cəbhəsi həqiqi demokratik yolla getsəydi, o səhvləri buraxmasaydı, bu gün daha hörmətli bir qurum olardı. Amma özünüz də bilirsiniz ki, o səhvlərin nəticəsində indi Xalq Cəbhəsi hörmətsiz bir vəziyyətə düşüb.

Dünən bu vərəqələri sizə göstərdilər. Şəxsən mən heç bir yerdə deməmişəm ki, Xalq Cəbhəsi, İbrahim İbrahimov və ya Əbülfəz Elçibəy xalqa xəyanət edib. Amma siz vərəqələr yazırsınız ki, Heydər Əliyev xalqa xəyanət edir, Azərbaycanı satır. Belə böhtanlar yazırsınız. Bunu Xalq Cəbhəsi edir. Nə üçün bunu yazırsınız? Ağıllı bir hərəkətdirmi bu? Xeyr! Bu, ağılsız bir hərəkətdir və nəinki ağılsız hərəkətdir, həm də böhtan atmaqdır. Deyirsiniz ki, Xalq Cəbhəsinə qarşı repressiya olur. Hansı repressiyadan söhbət gedir? Heç bir repressiya yoxdur.

İsa Qəmbərov həbs olunmuşdu. Mən təkidlə tələb elədim ki, o dərhal azad olunsun. İndi azadlıqdadır və yenə də özünəməxsus siyasi fəaliyyətdədir. Buna sözüm yoxdur, siyasi fəaliyyətini aparsın, ancaq qanun çərçivəsində. Təxribatla, silahla yox, bu cür böhtançı vərəqələri yayıb, insanların beyinlərini zəhərləməklə yox. Mən dünən də dedim, xalqımız ağır vəziyyətdədir, belə olan halda biz birləşməliyik.

O ki qaldı Xalq Cəbhəsinin batalyonlarına, mən bunları bilmirəm. Ancaq bu yaxınlarda mənə dedilər ki, Füzuli rayonunda bir batalyon olub, onun rəhbəri Yapon adında bir adam imiş. Bilmirəm, bu onun ləqəbidir, ya əsl adı. Onu bu yaxınlarda tutublar. İndi bir o Yapon deyil ki, belələri çoxdur daha.

Dünən daxili işlər naziri bizə məlumat verdi ki, Tərtər rayonu icra hakiminin cangüdəni başqa bir səbəbə – cinayət hadisəsinə görə həbs olunub. Onun evindən 12 kiloqram anaşa tapıblar. İndi siz təsəvvür eləyin, söydüyünüz o sovet imperiyasının vaxtında bir adamın əlində 3 qram anaşa tutulsaydı, ona 5 il iş verirdilər. 12 kiloqram anaşa nə deməkdir? Prokuror onu həbs eləyib. Amma icra hakimi gəlib milis rəisinə göstəriş verib, o da gedib onu həbsdən buraxıb. Bu hərəkətinə görə

polisin şəxsi heyəti rəisin əleyhinə üsyana qalxıb. Bunlar Xalq Cəbhəsinin adamlarıdır. Bilirsiniz ki, Tərtərin icra hakimi də, onun cangüdəni də Xalq Cəbhəsinin üzvləridir. Müharibədə iştirak edir, Tərtəri müdafiə edir, çox sağ olsun. Afərin. Ancaq 12 kiloqram anaşa nəyə lazımdır? O müharibə zonasında 12 kilo anaşanı haradan tapıb? Mən Xalq Cəbhəsinə belə faktlarla qiymət vermək istəmirəm. Məni düzgün başa düşün. Sadəcə, Xalq Cəbhəsi haqqında öz fikrimi dedim. Amma adamlar var ki, vaxtilə bu təşkilatda olublar, ayrılıblar, onlar daha doğrusunu bilərlər. Mən Xalq Cəbhəsini kənardan izləmişəm, onun içində olmamışam. Yenə də orada olan sağlam qüvvələrə hörmət və ehtiramla yanaşıram. Azərbaycanda fikir müxtəlifliyi və çoxpartiyalı sistem davam edir və bu belə də davam edəcəkdir. Amma şər atmaq lazım deyil.

İndi Siz niyə elə hesab edirsiniz ki, əgər biz bu gün MDB deyilən o təşkilata qoşulsaq, bu yenə də imperiyada olmaq sayılacaq? Siz MDB-nin nə olduğunu bilirsinizmi? Onun nizamnaməsini, Kollektiv təhlükəsizlik haqqında müqaviləsini oxumusunuzmu? İnanıram ki, oxumamısınız. Mən indi bizim dövlət katibindən xahiş edəcəyəm, onun bir neçə müddəasını burada oxusun, camaat da bilsin. Axı qədimdən də bütün mütəfəkkirlər istəyirdilər ki, xalqımız əvvəl bir şeyi ətraflı öyrənsin, sonra bir fikir söyləsin. Amma təəssüf ki, indi belə bir zaman gəlib çatıb ki, bəzi adamlar heç bir bilgisi və səriştəsi olmadan fikir söyləyirlər. Mən yenə deyirəm, Azərbaycanı Müstəqil Dövlətlər Birliyinə zorla bağlamaq fikrində deyiləm. Mən, sadəcə olaraq, bu məsələnin bir məsələ kimi müzakirə olunmasını istəmişəm, onun qəbul edilib-edilməməsi parlamentin iradəsidir, xalqın iradəsidir. Ölçülsün-biçilsin. Əgər bu, Azərbaycana xeyirli olarsa, qəbul edilsin, zərərli olarsa, qəbul edilməsin. Ancaq Siz bu məsələdə nahaq məni günahlandırırsınız. Dünyada bir çox ittifaq var və dövlətlər cürbəcür qoşulurlar. Siz deyirsiniz ki, sizin hakimiyyətdə olduğunuz dövrün ən böyük nailiyyəti ondan ibarətdir ki, Azərbaycanın müstəqilliyini qurdunuz. Bu nədən ibarətdir? Azərbaycan hansı ittifaqa daxil olub? Axı dünya dövlətləri istər-istəməz cürbəcür ittifaqlara qoşulurlar və ittifaqların da çoxu hərbi-siyasi xarakter daşıyır. Azərbaycan hansı hərbi-siyasi ittifaqa daxildir? Heç birinə. Axı Azərbaycan Çin kimi elə bir nəhəng dövlət deyil ki, heç bir ittifaqa daxil olmadan yaşaya bilsin. Birləşmiş Millətlər Təşkilatı, ATƏM və ya regional xarakterli, dünya miqyaslı cürbəcür nüfuzlu ittifaqlar var. Ancaq Azərbaycanın bu vəziyyətdə yalqız yaşaması çox çətindir, başa düşün. Məsələn, hesab elə ki, Naxçıvanda bir evdə tək yaşayırsan. Bir də var ki, sənin qonşun var,

xəstələnəndə onun yanına gedirsən. Sənə kimsə hücum eləyəndə o səni müdafiə eləyir və sair. Amma kim var indi bizim yanımızda? Yalqızıq axı. Ona görə də əgər bu yaramırsa, başqa bir ittifaq təklif eləyin, o ittifaq da yaramırsa, başqasını deyin. Deyin ki, görək hansı dövlətlərlə, hansı qurumlarla biz ittifaqa girə bilərik, bu müstəqilliyimizi daha güclü təmin eləyə bilək? Ancaq bir ittifaqa daxil olmaq heç də müstəqillikdən məhrum olmaq demək deyil.

Mən hesab eləmirəm ki, Orta Asiya respublikaları və Qazaxıstan, Ukrayna kimi böyük dövlətlər öz müstəqilliklərindən məhrum olublar. Məgər Türkiyə müstəqilliyindən məhrumdur? O, 40 ildən artıqdır ki, NATO-nun üzvüdür. NATO nəhəng hərbi və siyasi bir ittifaqdır. Türkiyənin ərazisində Amerikanın hərbi bazaları var, bu da Türkiyənin müstəqilliyinə heç bir zərər gətirmir. Türkiyənin adını ona görə çəkirəm ki, bu ölkə son illərdə bizim üçün bir model olub. Mən də bir model kimi qəbul edirəm. Çünki Türkiyə hökumətinə, dövlətinə, dövlət başçılarına, onların siyasətinə mənim böyük hörmətim var. Türkiyənin ikinci cahan müharibəsindən sonrakı tarixini də yaxşı bilirəm. Ancaq onlar ittifaqdadırlar.

Mən vaxtınızı aldım, buna görə sizdən və bütün Məclis üzvlərindən çox üzr istəyirəm. Sadəcə, istəmirəm ki, anlaşılmazlıq olsun. Demək istədiyim odur ki, Xalq Cəbhəsinə qarşı heç bir pis münasibətim yoxdur. Hərə öz fikrini deyə bilər. Ancaq fikirə fikirlə cavab vermək lazımdır, mitinqlə, silahla, dava ilə yox. Siz başqa fikirdəsiniz, mən başqa fikirdəyəmsə, gəlin bir fikir mübadiləsi aparaq, ortaq məxrəcə gələk. Ayrı-ayrı fikirlərdə qalsaq da, bundan ötrü dava eləməyək, bir-birimizə güllə atmayaq. Bundan ötrü zavallı gəlinləri polis idarələrində saxlatmayaq. Axı bunun günahkarı sizlərsiniz. O gəlinlərin nə günahı var ki, indi onlar polis idarələrindədirlər. Mən bir daha üzr istəyirəm. Ancaq məcburiyyət qarşısında olduğum üçün bu sözləri deməliydim. Əliyev Şaitdin, buyurun.

**Şaitdin Əliyev.** Hörmətli sədr, hörmətli Məclis iştirakçıları. Bu son üç ayda respublikanın ictimai-siyasi həyatında mühüm hadisələr baş verir. Ölkəmizin iqtidara gəlmiş hazırkı rəhbərliyi istər respublikanın daxilində sabitliyi bərpa etmək, istərsə də xarici siyasət sahəsində işi yaxşılaşdırmaq üçün mühüm, qəti addımlar atır. Respublika rəhbərliyi dövlətlərarası münasibətlərin yaxşılaşdırılması və qonşu dövlətlərlə hərtərəfli münasibətlərin yaranması üçün əhəmiyyətli işlər görür. Bu baxımdan Heydər Əliyevin başçılığı ilə Azərbaycan nümayəndə he-

yətinin Rusiyaya bu günlərdə baş tutan işgüzar səfəri son dövrün ən mühüm siyasi hadisəsi kimi qiymətləndirilməlidir. Görüşlərin gedişini izləyən hər bir Azərbaycan vətəndaşı, yəqin, yaxşı dərk edir ki, son dövrlərdə iki qonşu dövlətin rəhbərləri arasında belə məhsuldar görüş olmamışdır. Bu görüşə təkcə bu iki respublikanın deyil, demək olar ki, bütün dünya dövlətlərinin ictimaiyyəti və informasiya orqanları maraq göstərirdilər. Heç vaxt, xüsusilə son illərdə Rusiya informasiya orqanları Azərbaycan nümayəndə heyətinin Rusiyaya səfəri zamanı keçirilən görüşləri indiki kimi işıqlandırmamışdı. Mənə elə gəlir ki, bu səfər son dövrlər buraxılmış səhvlər nəticəsində Rusiya ilə Azərbaycan arasında yaranmış münasibətlərdəki sərinliyin aradan qaldırılmasında, hərtərəfli iqtisadi, siyasi, mədəni əlaqələrin qurulması sahəsində yeni bir təməlin başlanğıcı oldu. Səfərin yekunu göstərdi ki, Milli Məclisin keçən iclasında Azərbaycan nümayəndə heyətinin Rusiyaya səfəri və ölkəmizdə məhkum olunmuş Rusiya silahlı qüvvələrinin 6 nümayəndəsi haqqında qəbul etdiyi qərarlar vaxtında və doğru olaraq qəbul edilmiş qərarlardır. Nümayəndə heyətimizin Rusiyaya səfəri haqqında hesabatı məclisdə dinlənildi. Təklif edərdim ki, nümayəndə heyətinin səfər zamanı gördüyü işlər bəyənilsin və görüşlərin yekunu ilə əlaqədar birgə qəbul edilmiş sənəddə göstərilənlərin həyata keçirilməsi üçün iş davam etdirilsin.

Hörmətli Məclis üzvləri, icazə verin, mən də bir millət vəkili kimi görüşlər zamanı qaldırılmış məsələlərə öz münasibətimi bildirim. Səfərin yekunu ilə əlaqədar məruzədə göstərildi ki, son dövrlərdə Rusiya ilə Azərbaycan dövlətləri arasında bütün əlaqələr zəifləmişdir. Heç kimə sirr deyildir ki, son dövrlərdə respublika iqtisadiyyatı dərin böhran keçirir. Çünki müəssisələrin istehsal gücü zəifləyib, qiymətlər durmadan artır. Pulun alıcılıq qabiliyyəti aşağı düşüb, əhalinin sosial vəziyyəti ağırlaşıb. Belə vəziyyətin əmələ gəlməsinin obyektiv və subyektiv cəhətləri var. Məncə, iqtisadiyyatımızın zəifləməsinə bir tərəfdən respublika ərazisində gedən müharibə təsir göstərirsə, digər tərəfdən də keçmiş iqtidar tərəfindən düzgün yeridilməyən kadr siyasəti, istehsalata naşı adamların rəhbərlik etməsi, ən əsası isə qonşu dövlətlərlə iqtisadi əlaqələrin pozulması, bazar iqtisadiyyatı ilə bağlı vahid iqtisadi planın real vəziyyətinin nəzərə alınaraq işlənib hazırlanmaması və sair amillər təsir göstərib. Respublikada nizam-intizamın olmaması, hərcmərclik, bazar iqtisadiyyatı adı altında ölkəmizin strateji əhəmiyyətə malik sərvətlərinin, xammal ehtiyatının daşınıb su qiymətinə xaricə sa-

tılması, bunun da ayrı-ayrı assosiasiyaların və şəxslərin ciblərinin dolmasına səbəb olması iqtisadiyyatı bu kökə salmışdır. Hamı yaxşı bilir ki, keçmiş SSRİ respublikalarının iqtisadiyyatı bir-biri ilə sıx tellərlə bağlıdır. Bunu birdən-birə kəsmək o deməkdir ki, həmin respublikalarda fəaliyyət göstərən müəssisələrin iş qabiliyyəti dayandırılır. Heç kəsə sirr deyildir ki, indinin özündə də respublikanın 93 faiz dövlət müəssisələrinin fəaliyyəti MDB-yə daxil olan ölkələrin, ilk növbədə də Rusiyanın sənayesi ilə sıx əlaqədardır. Bu iqtisadi əlaqələrin zəifləməsi MDB-yə daxil olan ölkələrin iqtisadiyyatına təsir göstərdiyi kimi Azərbaycan iqtisadiyyatına da ağır təsir göstərmişdir. Mən belə düşünürəm ki, bu əlaqələri hökmən bərpa etmək lazımdır. Bu gün bizim Büdcəyə nəzarət, İqtisadiyyat və Aqrar siyasət komissiyalarının birgə iclası keçirildi. İclasda Müstəqil Dövlətlər Birliyinə və İqtisadi Birlik Şurasına münasibət məsələləri müzakirə olunurdu. İclasda nazirliklərin, böyük idarə və müəssisələrinin, maliyyə və bank orqanlarının rəhbərləri iştirak edirdilər. Mən iclasda gedən müzakirələr haqqında geniş danışmaq istəmirəm, ancaq bəzi çıxışlardakı bir neçə məqamı Məclis iştirakçılarına çatdırmaq istəyirəm. Respublikanın kimya sənayesinin 90 faizi məhz Rusiya ilə əlaqədardır. Metal istehsalı ilə əlaqədar əsas xammal MDB-yə üzv ölkələrdən alınır. Neft emalı zavodları neft xammalının müəyyən hissəsini Rusiyadan və Qazaxıstandan alır. Azərbaycan öz istehsal etdiyi məhsulları dünya bazarında sata bilmir. Bu haqda komissiyaların iclaslarında da geniş söhbət getdi. Bu söylədiklərim özü də göstərir ki, Azərbaycanın iqtisadiyyatı MDB-yə daxil olan ölkələrlə necə sıx əlaqədədir. Burada çıxış edənlərin, demək olar ki, hamısı indiki iqtisadi vəziyyəti analiz edərək respublikanın Müstəqil Dövlətlər Birliyinə və İqtisadi Birlik Şurasına daxil olmasının labüdlüyünü qeyd etdilər. Mən də həmin fikri müdafiə edirəm. Heç bir ölkə iqtisadi və siyasi izolyasiyada yaşaya bilməz. Hamı yaxşı bilir ki, respublikamız İslam Əməkdaşlıq Şurasının, Qara Dəniz Birliyinin üzvüdür. Mənə elə gəlir ki, bugünkü real vəziyyəti nəzərə alaraq MDB iqtisadi birlik şurasına daxil olmaq daha düzgün qərar olardı. Fikrimcə, Birləşmiş Millətlər Təşkilatının üzvü olan müstəqil dövlət kimi xalqı və dövlətin mənafeyini düşünərək hər hansı birliyə daxil olmaqdan çəkinmək lazım deyil, bu heç də müstəqilliyi itirmək sayılmamalıdır. İrəlini görərək, respublikanın gələcəyini düşünərək heç kəs şəxsi ambisiyalara qapılmamalı, əsl həqiqəti xalqa söyləməli və bu haqda düşünməlidir. Dünən öz məruzəsində Heydər Əliyev də bunu dedi. Mən də bu xalqın bir nümayəndəsi kimi onun dediklərinə inanıram.

Bu gün xalqı düşündürən əsas məsələ tezliklə müharibənin qurtarması, torpaqlarımızın azad edilməsi və öz doğma yurdlarından didərgin düşənlərin öz evlərinə qayıtmasıdır. Məhz bunu əsas tutaraq respublika rəhbərliyinin bu sahədə apardığı iş göz qabağındadır. Sülh və danışıqlar yolu ilə bu məsələ öz həllini tapmalıdır. Beşillik müharibə göstərdi ki, öz möhkəm ordusu olmayan, başqa dövlətlərin hərbi köməyinə arxalanan və ölkəsinə güvənməyən heç bir dövlət öz torpaqlarının təhlükəsizliyi haqqında danışa bilməz. Bu gün respublikanın kollektiv təhlükəsizlik haqqında heç bir müqaviləsi yoxdur. Elə bilirəm ki, bu haqda düşünməyə dəyər. Nəinki MDB ölkələri ilə müqavilə bağlamaq, hətta bizə qonşu olan Türkiyə, İran və digər bizə yaxın olan ölkələrlə qarşılıqlı təhlükəsizlik haqqında müqavilə bağlamaq lazımdır. Ona görə təklif edirəm ki, Rusiya ilə bağlanılacaq müqaviləyə başqa məsələlərlə bərabər qarşılıqlı təhlükəsizlik haqqında maddə də salınsın. Mən bir parlament üzvü kimi parlamentlərarası ittifaqların yaranmasının da tərəfdarıyam, bu bizim parlamentin işinə ancaq kömək olar. Belə ittifaqlar nəinki Rusiya, başqa dövlətlərin parlamentləri ilə, ilk növbədə isə MDB-yə daxil olan dövlətlərin qanunverici orqanları ilə yaradılsa yaxşı olardı. Rusiya və Zaqafqaziya respublikaları nümayəndələri arasında görüşlərin keçirilməsi də pis olmazdı. Spiker Heydər Əliyevin Türkiyənin Baş naziri ilə Moskvada keçirdiyi görüşlər təqdirəlayiqdir və mən elə düşünürəm ki, belə görüşləri davam etdirmək lazımdır. Bizi Türkiyə ilə dərin dostluq telləri bağlayır, heç bir qüvvə bu dostluğu poza bilməz. Son dövrlərdə dünya siyasətində xüsusi çəkisi olan Amerika Birləşmiş Ştatlarının bizim respublika ilə sıx əlaqə saxlaması, müstəqil bir dövlət kimi möhkəmlənməyimizi istəməsi də təqdirəlayiqdir. Mən elə bilirəm ki, ABŞ-la bu əlaqələri daha da genişləndirmək lazımdır.

Hörmətli Məclis üzvləri, bu gün respublikamız ağır günlərini yaşayır. Kimliyindən, vəzifəsindən asılı olmayaraq, hər bir şəxs bu çətinliyi aradan qaldırmaq, respublikanı iqtisadi və siyasi böhrandan qurtarmaq üçün öz bacardığı səviyyədə kömək göstərməlidir. Mən Əzizbəyov rayonunda yaşadığım, oradan millət vəkili seçildiyim üçün rayonun qəsəbə və kəndlərində oldum, bir çox müəssisələrdə əmək kollektivləri ilə görüşdüm. Prezident seçkilərinə namizədlərin göstərilməsi ilə əlaqədar olan iclaslarda iştirak etmişəm. Bizim rayonun bütün qəsəbə və kəndlərinin idarə və müəssisələrinin nümayəndələri mənə müraciət etdilər. İstəyirlər Məclisə çatdırım ki, indiki rəhbərliyin yeritdiyi siyasəti bəyənirlər. İnanırlar ki, respublikanı bu ağır vəziyyətdən çıxarmaq üçün öl-

kənin indiki rəhbərliyi və şəxsən Heydər Əliyev əlindən gələni edəcəkdir. Çıxışımın axırında icazə verin, öz seçicilərim adından bütün Məclis iştirakçılarına, bütün xalqımıza müraciət edim ki, umu-küsunu, incikliyi bir kənara qoyaraq əl-ələ verək və respublikanı bu ağır vəziyyətdən qurtarmaq üçün əlimizdən gələni edək. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Çıxışa yazılmış Məclis üzvləri, yəqin, bir məsələyə etiraz etməzlər. Deputat İsgəndər Həmidov mənə kağız göndərib və xahiş edib ki, ona söz verim. Nəzərə alaq ki, İsgəndər Həmidov son vaxtlar həmişə mitinqlərdə çıxış edir. Mənə belə gəlir ki, indi ona növbədənkənar tribuna vermək yaxşı olardı. İsgəndər Həmidov, buyurun. Ancaq güman edirəm ki, İbrahim İbrahimov kimi çıxışından sonra buradan mitinqə çıxıb getməyəcəksən.

**İsgəndər Həmidov.** Yox, məncə, heç o da gedəsi deyil, burada olmalıdır, Heydər bəy. Hörmətli sədr, hörmətli millət vəkilləri! Biz bu gün 4 məsələyə öz münasibətimizi bildirməliyik. 3-ü respublika hakimiyyətinin Moskvada apardığı görüşlər və onların danışıqlarının nəticəsi, 4-cü isə dünən Vaqif Novruzovun verdiyi arayış, yəni Azərbaycan Xalq Cəbhəsinin vərəqələr paylaması, o cümlədən də mənim bəyanatımın yayılmasıdır.

Heydər bəy, dünən Siz Məclisi bağlayarkən mən Vaqif Novruzova yaxınlaşdım. Lalə xanımın yanında oturmuşdu. Dedim, mənim bəyanatımı mənə göstərin, görüm, hansı bəyanatı vermişəm və o bəyanatları hara yapışdırıblar? Vaqif Novruzov öz cinayətkarlığını, bu sahədəki uğursuzluğunu gizlətməkdən və Sizə xoş gəlməkdən ötrü yalandan, Ramiz Rzayevin Moskvada "Novosti" və "Vesti" proqramlarına verdiyi müsahibələrindən sonra mənim bəyanatımı ortaya çıxarıb. Bəyanatla kimisə mitinqə çağırmaq və ya başqa nə isə etmək mənim tərəfimdən edilməyib və edilə də bilməz. Sözsüz ki, qadınların vərəqələr paylamağını, harasa kağızlar yapışdırmağını biz hamımız pisləyirik. Vaqif Novruzov öz çıxışında qeyd elədi ki, bu, ermənilərə xas olan hərəkətdir, yəni Azərbaycan Xalq Cəbhəsinin üzvlərini erməni adlandırdı. Xalq Cəbhəsinin on minlərlə üzvü var. Bayaq Siz də qeyd elədiniz, onların içində təmiz adamlar da var, natəmiz adamlar da. Görünür, Vaqif Novruzov ermənilərin xarakterik xüsusiyyətlərini çox yaxşı bilir. Yəqin ki, qohumluqları çatır. Heydər bəy, Siz deyirsiniz, ona görə də mən son zamanlar mitinqdə, əsasən də sonuncu mitinqdə çıxış eləmişdim.

Bu gün Azərbaycanda qeyri-sabitliyə xidmət edən məhz Vaqif Novruzovdur. Bayaq Siz onu da qeyd elədiniz ki, Tərtər icra aparatının sədri

Xalq Cəbhəsinin üzvüdür. Mən Sizi tamamilə əmin edirəm ki, bu, yalan məlumatdır. O mənim ailə üzvümdür, qardaşımdır. Xalq Cəbhəsinin üzvü deyil, heç vaxt heç bir partiyanın da üzvü olmayıb. Mən Xalq Cəbhəsinin üzvüyəm və axıra qədər də bu üzvlükdə qalacağam. Harada və nə kimi çıxışlar olmasına baxmayaraq.

Keçək Sizin Moskvadakı görüşlərinizə. Sözsüz ki, respublika rəhbərinin istər Moskvaya, istərsə də digər ölkələrə səfəri tərifəlayiq hərəkətdir. Hər bir səviyyədə danışıqlar aparılmalıdır, xarici ölkələrlə dostluq münasibətləri, siyasi, iqtisadi əlaqələr qurulmalıdır. Bayaq Şaitdin Əliyevin çıxışından belə çıxdı ki, biz qatı anti-Rusiya təbliğatı aparırıq. Söhbət konkret iki dövlətdən getmir. Bəli, Rusiya rəhbərliyi ilə danışıqlar aparmaq da, iqtisadi əlaqələr qurmaq da, sazişlər imzalamaq da olar. Ancaq bu ölkənin əsas məqsədi, ortalığa qoyduğu məsələ Azərbaycanı Müstəqil Dövlətlər Birliyinə aparmaqdır. Mən dünən Abbas Abbasovun da, təzə qoyulan xarici işlər nazirinin də çıxışına qulaq asdım və bu real təhlükəni onların hər ikisinin çıxışında gördüm. Abbas Abbasov iqtisadi məkandan danışdı. Şadman bəy ona sual verərkən dedi ki, yəqin ki, gələcəkdə rubl zonasına daxil olacağıq. Rubl zonasına daxil olmaq isə o deməkdir ki, Azərbaycanın büdcəsi yenə də Moskvadan asılı olacaq.

Abbas Abbasov dünən öz çıxışında qeyd elədi ki, Müstəqil Dövlətlər Birliyində hansısa bir iqtisadi qurum yaranacaq. Həmin qurumun yaranması ilə Azərbaycan iqtisadiyyatı öz müstəqilliyini itirəcəkdir. Gömrükxana haqqında məsələ ilə əlaqədar dedi ki, vahid gömrük xidməti haqqında bizim ekspertlər işləyirlər. Çox gözəl bilirsiniz ki, gömrükxana dövlət atributlarından biridir. Əgər bizim gömrük xidmətimiz yoxdursa, iqtisadi müstəqillik çox çətin olacaq. Xarici işlər naziri öz çıxışında dedi ki, biz istəsək də, istəməsək də Dağlıq Qarabağ qurumunu bütün dünya tanıyır. Dağlıq Qarabağ adlı qondarma qurumu heç bir dövlət tanımır. Dünya bir qurumu o zaman tanıyır və onunla iqtisadi, siyasi əlaqələr yaradır ki, bu dövlətin özünün daxili və xarici siyasəti olur, bütün dövlət qurumları mövcud olur. Ona görə də indidən camaatı çaşbaş salaraq demək ki, Qarabağ adlı respublikanı bütün dünya tanıyır, mən elə bilirəm ki, Həsən müəllim xalqı hazırlayır ki, Azərbaycan "Dağlıq Qarabağ Respublikası"nı birinci tanısın. Xarici işlər naziri bu fikrə qulluq edir. Mən əminəm ki, Azərbaycan təcrid halında yaşaya bilməz, bütün ölkələr, o cümlədən keçmiş SSRİ respublikaları ilə birbaşa həm siyasi, həm iqtisadi əlaqələr yarada bilər. MDB nə deməkdir? Bayaq qurumun nizamnaməsi barədə deyirdiniz. Nizamnamə buradadır. Ümumi fraza-

lardan sonra, məsələn, 4-cü maddədə yazılır: (rus dilində oxuyur, tərcümə) Xarici siyasət fəaliyyətinin koordinasiyası. Ümumi iqtisadi məkanın yaradılmasında və inkişafında əməkdaşlıq, gömrük siyasətində ümumavropa, Asiya bazarının yaradılması, nəqliyyat və rabitə sistemlərinin inkişafında əməkdaşlıq. Mən Sizi əmin edirəm, MDB həmin o SSRİ deyən imperiyanın yeni bir formasının təşkilidir, Allah eləsin ki, mən səhv edim. Dünən Siz çıxışınızda dediniz ki, Ruslan Xasbulatov Sizinlə söhbətdə belə bir müraciət edib ki, parlamentlərarası əlaqə yaransın. Amma Azərbaycan parlamenti buna reaksiya verməmişdir. Ancaq bu gün verilən sənəddə isə görünür ki, Ruslan Xasbulatov təkcə Azərbaycana yox, keçmiş SSRİ-nin 15 respublikasının hər birinə belə müraciət edib, parlamentlərarası assambleya yaratmağı xahiş edib. Bu da imperiyanın SSRİ Xalq deputatları Sovetinin bərpasının başqa bir forması deməkdir. Yenə də deyirəm, mən hər hansı bir respublika ilə, istər Rusiya, istər Özbəkistan, istər Qazaxıstanla ayrı-ayrılıqda əməkdaşlığın tərəfdarıyam və alqışlayıram.

Bir də burada Yapon haqqında söhbət getdi, guya Yapon Füzulidə Azərbaycan Xalq Cəbhəsinin xüsusi batalyonunun rəhbəridir. Mən Sizi tamamilə əmin edirəm ki, bu da növbəti fitnədir. Sizi aldadırlar, Heydər müəllim.

**Sədrlik edən.** İsgəndər, bəs o kimin batalyonudur?

**İsgəndər Həmidov.** Bir fırıldaqçının.

**Sədrlik edən.** Bir daxili işlər naziri kimi Siz axı belə bir cinayətkarı gərək vaxtilə...

**İsgəndər Həmidov.** Tutmuşdum, Heydər bəy.

**Sədrlik edən.** Cəzalandıraydınız.

**İsgəndər Həmidov.** İcazə verin, deyim. O tutulmuşdu, Hərbi Prokurorluqda onun haqqında cinayət işi də var. Necə o üzdəniraq Talış-Muğan Respublikasını yaradanların barəsində olduğu kimi, onların da hər biri haqqında respublikanın Hərbi Prokurorluğunda cinayət işləri var. Onların haqqında olan həbs qətimkan tədbirlərinin hamısını sonradan dəyişdirmişdilər və həbsdən buraxmışdılar. O Yapon deyilən şəxs də məhz bizim tərəfimizdən tutulmuşdu. O, meyit alveri edirdi, pula görə hər şeyə gedən bir insandır, cinayətkardır. Cinayətkarın isə nə vətəni, nə milliyyəti olur.

Heydər müəllim, mən bilirəm ki, Tərtər haqqında da Sizə çox şey deyirlər. Mən, adətən, kimsədən bir şey xahiş edən adam deyiləm. Amma

mən Sizdən çox xahiş edirəm, rica edirəm, Tərtərin icra aparatının sədrini dəyişəsiniz ki, bu söz-söhbətlər kəsilsin. Çünki ora göz dikən çoxdur. Yaranmış vəziyyətlə əlaqədar Siz hər dəfə mənim adımı çəkəndə, məni tənqid edəndə bunlar elə bilirlər ki, elə bu ailə asılıb-kəsilməlidir. Sizə doğru informasiya çatdırmırlar. Necə ki, referendum məsələsində düz informasiya çatdırmamışdılar, necə ki, bu gün deyirlər ki, o, Xalq Cəbhəsinin üzvüdür. Ona görə də mən xahiş edərdim ki, bu məsələni müsbət həll edəsiniz.

Qaldı Sizin Tansu Çillərlə danışıqlarınıza və Moskvadakı görüşlərinizə, sözsüz ki, bunlar olmalıdır, dövlətin rəhbəri getməlidir, danışmalıdır və hər cür dialoqa hazır olmalıdır. Ancaq MDB-yə qoşulmağın qəti əleyhinəyəm. Bunun da səbəbini dedim. Hətta mənə çatan məlumata görə Kreml rəhbərliyi Rusiyada yaranmış gərgin siyasi vəziyyətə görə Sizdən məsləhətlər almaq istəyiblər. Tansu Çillərlə görüşünüz də müsbət qarşılanmalıdır. Ona görə ki bizə ən yaxın ittifaqda olan bir dövlətin Baş naziridir. Onunla danışıqlar da Moskvada olduğu kimi müsbət qarşılanmalıdır.

Yenə də qayıdıram MDB məsələsinin üstünə və 20 yanvar hadisələrinə. Rusiya özünü SSRİ-nin varisi adlandırıb. Bununla o, bütün keçmiş SSRİ respublikalarının xarici və daxili borclarını öz üzərinə götürüb. Dünən Abbas Abbasov qeyri-dəqiqliyə yol verdi. Dedi ki, bizim xarici borcumuzu ödəməyi Rusiya öz üzərinə götürür, bizim saldo sıfırdan başlayır. Onda qoy Rusiya SSRİ-nin varisi kimi xarici borclarımızla bərabər Rusiyaya olan borcumuzu da o şəkildə hesablasın. Çünki bizim Rusiyadan alacağımız var, verəcəyimiz yoxdur.

Mən həmişə Xalq Cəbhəsinin nümayəndəsi kimi 20 yanvar hadisəsi haqqında çıxış eləmişəm. İstər komissiya haqqında, istərsə də ayrı-ayrı şəxslər haqqında fikrimi demişəm. Bu gün Azərbaycanda yaranmış siyasi vəziyyət heç də ona görə deyil ki, kimsə hakimiyyətə qarşıdır. Sadəcə olaraq, elə qruplar var ki, 20 yanvar faciəsini törədən qruplar da onların içindədir. Bayaq adlarını çəkdiniz, Ayaz Mütəllibov və digərləri. Həmin qruplar yenə də hakimiyyətə can atırlar və bu sükanı xalqın canı-qanı bahasına almaq istəyirlər, millətin qanı hesabına təkrar hakimiyyətə gəlmək istəyirlər. Məni Cinayət Məcəlləsinin bir çox maddəsi ilə günahlandırmaq olar. Amma heç kəs məni millətə, torpağa, vətənə və dövlətə xəyanətdə ittiham edə bilməz. Xalq birləşib həmin qüvvələri başa salmalıdır ki, Azərbaycanın o günü deyil. Dünən xarici işlər naziri Həsən Həsənov yenə də ustalıqla verilən sualdan qaçdı. Dağlıq Qarabağ

probleminin Kollektiv Təhlükəsizlik Şurasının əməkdaşlıq protokolundan sonra necə həll olunacağını demədi. Bilirəm ki, Füzuli, Ağdam, Qubadlı, Cəbrayıl kimi bölgələr qaytarılacaq. Məni ən əsas narahat edən Şuşa və Laçındır. Bu iki rayonun taleyi necə olacaq? Xarici işlər naziri Kozırevlə apardığı söhbətdən sonra onu izah eləmədi. Heydər müəllim, bilirsiniz ki, bu gün Dağlıq Qarabağda Ermənistan qoşunları üstünlüyə malikdir, loru dildə desək, bu dəqiqə musiqini onlar sifariş edirlər. Ancaq mənim böyük ümidim var. Çünki Siz Moskvaya getməmişdən qabaq xalq və parlament qarşısında söz verdiniz ki, mənim vaxtımda Azərbaycanın müstəqilliyinə xələl gəlməyəcək. Mən bu sözlərə inanmaq istəyirəm və inanıram. Azərbaycanın müstəqilliyi hər bir şəxsin və fərdin mənafeyindən yüksək tutulmalıdır.

Mən respublika prokuroru Əli Ömərova da inanıram. Vaqif Novruzov haqqında isə ona görə fikrimi dedim ki, insanın bir sifəti olar, insan bir sifətdə hərəkət edər, düşmənlə düşmən kimi, dostla dost kimi. Məni Daxili İşlər Nazirliyinə aparanda o, camaatın içində mənimlə bir cür söhbət elədi, arxada başqa söhbət elədi. Deyir ki, mənə gəlib deyirlər ki, sənə 7 ayda min dollar veririk. Mən də dedim ki, Respublika Prokurorluğunun obyektivliyinə inanıram, həmin adamları yollayın oraya, qoy bu işin istintaqını aparsınlar. O, kabinetdə, ikilikdə olanda isə mənə məhəbbətdən danışırdı. Bilirəm ki, mənim haqqımda ona yanlış xəbərlər çatır. Bəyanat deyirlər. Mən xahiş edirəm, o bəyanatı tələb edin və baxın ki, nə vaxt verilib və nə vaxtdan təzə sənədlərin içinə qoyulub. Heydər Əliyevin heç kəsin müdafiəsinə ehtiyacı yoxdur. O gün özünüz dediniz ki, Sizi xalq müdafiə edir və bu çox doğrudur. Cinayətkarlıqla mübarizədə düçar olduqları uğursuzluğu və ya digər bir problemi kiminsə şəxsiyyətinin üstündə cəmləşdirib Sizə xoş gəlmək istəmələri obyektiv deyil. Mən heç vaxt elədiyim hərəkəti danmamışam. Heç kəsdən də üzr istəməyə hazırlaşmıram və elədiyim hadisəyə görə də cəzamı çəkməyə həmişə hazıram. Çox sağ olun.

**Sədrlik edən.** Mən iki məsələyə aydınlıq gətirmək istəyirəm. Birincisi, İsgəndər, Siz nahaq güman edirsiniz ki, Sizin Tərtərdə işləyən qardaşınıza pis münasibət var. Sizə, yəqin, məlumdur ki, mən qardaşınızı özünün xahişi ilə qəbul eləmişəm, söhbətimiz olub. Ona dedim ki, narahat olmayın, gedin, işləyin. Amma dünən Daxili İşlər Nazirliyi və Milli Təhlükəsizlik Nazirliyi məlumat verdi ki, icra hakimiyyəti başçısının cangüdənindən 12 kiloqram anaşa tutublar və bunu həbs edən prokuroru məcbur ediblər ki, bu şəxsi azad etsin. Axı böyük cinayətdir. İndi o,

Xalq Cəbhəsinin üzvüdür və ya deyil, onun fərqi yoxdur. Mən elə bilirdim, Xalq Cəbhəsinin üzvüdür. Əgər deyilsə, ola bilər, səhv eləmişəm. Ancaq Xalq Cəbhəsinin üzvü deyilsə də, Cəbhənin hakimiyyəti dövründə vəzifəyə gəlmiş adamdır.

İkincisi, Siz Müstəqil Dövlətlər Birliyinin Nizamnaməsindən bir bəndi oxudunuz, amma onun başqa bəndləri də var. Mən Sizə söz vermişəm. İndi dövlət katibindən xahiş edəcəyəm, digər bəndləri də oxusun ki, camaatda birtərəfli fikir yaranmasın. Yenə də deyirəm, mən kiməsə təzyiq və ya təsir etmək məqsədində deyiləm. Sadəcə olaraq, gərək hər bir adam və xüsusən də Məclis üzvləri, bizim deputatlarımız, səlahiyyətli adamlarımız hər bir müqavilənin, sənədin, ittifaqın məzmununu və mənasını düzgün dərk etsinlər, söhbət bundan gedir.

Məndən Ağayev Nadir Mirəkbər oğlu xahiş edib ki, ona söz verim. Onun titullarına baxıram, memar, keçmiş dissident, Beynəlxalq İnsan Hüquqları Müdafiə Cəmiyyətinin Azərbaycan Milli şöbəsinin sədr müavini. Deyəsən, burada bir şeyi unudub. O, Xalq Cəbhəsində rəhbər vəzifədə olub, bunu yazmağı unudub. Nadir Ağayev danışmazdan qabaq bir sözü də demək istəyirəm ki, bir müddət bundan öncə televiziyaya baxarkən gördüm ki, Azərbaycanın 1970-ci illərdəki dissidentlərini göstərirlər. Amma onların bəzisi dissident deyildi. Nədənsə adlarını dissident qoyublar. Həqiqi dissident Nadir Ağayevdir, bunu mən bilirəm. Azərbaycanda bir dissident olubsa, o məhz Nadir Ağayevdir. Buyurun. Elə dissident olduğuna görə də mən ona tribuna verirəm.

**Nadir Ağayev.** Mən əvvəlcə bu tribunadan ilk dəfə çıxış etdiyimə görə özümü təqdim etmək istəyirəm. Mən keçmiş sovet sisteminə qarşı antitəbliğat apardığıma görə Azərbaycanda ən uzunmüddətli repressiyaya məruz qalmış adamam. Azərbaycanda 1970-ci illərdən sonra SSRİ-də siyasi motivlə tutulan yeganə insanam. 1990-cı ildə Moskvanın Puşkin meydanında SSRİ-dən olan siyasi məhbusların siyahısı asılmışdı. O siyahıda Azərbaycandan yeganə mənim adım vardı. Böyük fəxrdir. Dünyanın bütün insan hüquqları müdafiə komitələrində Azərbaycandan olan siyasi məhbus kimi yeganə mənim adım var. Amerikanın Dövlət Departamentində rəsmi qeydiyyatda olan, psixiatrik terrora məruz qalmış 47 sovet dissidentindən biri də mənəm. Başım 18 il bəlalar çəkib. Demək olar ki, o sistemdə elə işgəncəverici, elə iyrənc bir yer qalmayıb ki, məni ora salmasınlar, işgəncə və əzab verməsinlər. Heç ümidim yox idi ki, mən həyatımda bir gün azadlıq görüm. Amma azadlığı da gördüm, Allah belə edib ki, gəlib bu günü də görürəm, çox şadam.

İndi burada ilk dəfə çıxış etdiyimə görə iki məsələyə – Xalq Cəbhəsinə və Müstəqil Dövlətlər Birliyi məsələsinə öz münasibətimi bildirmək istəyirəm. Mən həbsdən azad olunduqdan sonra 1988-ci il noyabrın 26-da Azadlıq meydanına gəldim. Bir milyona qədər adamın toplaşdığı o boyda izdihamlı mitinqə 26 yaşlı Nemət Pənahovun rəhbərlik etdiyini, xalqın birləşdiyini görüb sevincimdən sel kimi göz yaşı axıtdım. 1989-cu ilin əvvəlində Xalq Cəbhəsi yarananda mən ona çox böyük fərəh hissi ilə qoşuldum. Əvvəl tək-tək yazılmışdıq. Sonra birinci dəfə Nəsimi rayonunda onun rayon təşkilatı yarandı. İdarə və müəssisələrdə mən də təşkilatlanma rəhbəri olmuşam. Sirus Təbrizlinin rəhbərliyi ilə 1989-cu ilin iyul ayında meydanı açdıq və qərara gəldik ki, orada hər şənbə günü ardıcıl olaraq mitinqlər keçirək. Bir memar kimi qərara gəldim ki, orada milli bayrağımızı düzəldim. Həm meydan əzəmətli görünsün, həm də xalqı bu bayraq altında birləşdirək. O vaxt meydanda bir qarış böyüklükdə bayraqlar olurdu, onu da əldə tutmaq mümkün olmurdu. Meydanda üç metr böyüklükdə olan iki bayrağı mən düzəltmişəm, o cümlədən ilk döş nişanlarını da mən düzəltmişəm. Mitinqlərin təşkilatçılarından biri mən idim. Görəndə ki, aramıza təxribatlar salırlar, ilk mən fəaliyyətə başlayırdım. Demək istədiyim odur ki, müəyyən qədər xidmətim olub. Lakin 1989-cu ilin avqustunda ilk dəfə mən şəxsən Əbülfəz Əliyevin ağzından eşitdim ki, bizim ziyalılarımız hamısı satqındır, onları Xalq Cəbhəsindən uzaqlaşdırmaq lazımdır. Ona heç vaxt Elçibəy deməmişəm, çünki o, xalqın elçisi ola bilməz. O sözü eşidəndə məni dəhşət bürüdü, onda Əbülfəzin üzünə dedim ki, sənin bu əməlin xalqa xəyanətdir, sən vətən xainisən. Bir müddət keçdikdən sonra gördüm ki, o avara uşaqların əlinə siyahıları veriblər, gündə zəng edib, ziyalıları söyürlər ki, siz gəlməyin, satqınsınız və sair. Mən nifrətimi bildirdim və Xalq Cəbhəsindən uzaqlaşdım. Bu barədə mətbuatda da məqalələr yazmışam. Bu Prezident seçkilərindən əvvəl xalqın əhvali-ruhiyyəsini gördükdə, Moskvada yaşadığım dövrdə burada baş verən bütün hadisələri, demokratik qüvvələr arasında olan söhbətləri eşitdikdə və təhlil etdikdə yalnız bir çıxış yolunu gördüm. Azərbaycanı bu bəladan ancaq Heydər Əliyev çıxara bilər.

Mən uzun müddət bu barədə təbliğat apardım, sonra Prezident seçkisi qabağı gördük ki, Xalq Cəbhəsi zorakılıqla hakimiyyətə gəlmək istəyir. Əgər bizim azərbaycanlıları Ermənistandan vəhşicəsinə çıxarmasaydılar, Qarabağ problemi olmasaydı, kimliyindən asılı olmayaraq heç bir kəs Azərbaycanda belə bir qurumu – Xalq Cəbhəsini yarada bilməzdi.

Heç vaxt bir milyona qədər insan birləşib Azadlıq meydanına gəlməzdi. Xalq özü bu bəladan qurtarmaq üçün birləşmişdi. Oraya da fəhlə, ziyalı, alim, hər kəs gəlirdi. O zaman belə bir təşkilat lazım idi ki, xalqın qabağına çıxsın. O da Xalq Cəbhəsi oldu. O Xalq Cəbhəsinə üzv yazılanların biri də mən oldum. Lakin Xalq Cəbhəsinin belə istiqamətləndiyini gördükdə əksər ziyalılar oradan uzaqlaşdılar. Xalq Cəbhəsi hakimiyyətə gəlmək istəyəndə isə gördüm ki, bu, təmiz zorakılıqla baş verir. Məsələn, indicə demokratiyadan danışan İsgəndər Həmidov 1992-ci il mayın 3-də Azadlıq meydanında mitinq zamanı elan elədi, əli ilə də tapança işarəsini göstərərək dedi ki, iyunun 16-da Yaqub Məmmədovu atacam, Əbülfəz Elçibəyi otuzduracam Prezident kreslosunda... Budur demokratiya? Bunların demokratiyası, doğrudan da, budur. Tarixdə heç bir ölkədə görünməyib ki, hay-küylə küçədən gələsən, hakimiyyəti alasan. Birinci dəfə belə bir hadisə ancaq Azərbaycanda görünüb və bu, ölkəni böyük bəlalara düçar etdi. Seçkilərdə də nə qədər saxtakarlıq olduğu hamıya məlumdur, hətta ölülərin də yerinə səs verirdilər. Faktlar burada göstərildi, mənim bir qonşum var, rəhmətə gedib, onun yerinə də səs vermişdilər. Mən Əbülfəzi yaxşı tanıdıqdan və onun komandasının kimlərdən ibarət olduğunu bildikdən sonra gördüm ki, bunlar hakimiyyətə gəlsələr, bu, Azərbaycanın tarixində ən böyük fəlakət, dəhşətli və görünməmiş bir faciə olacaq. Əbülfəzdən də Prezident ola bilməz. Ona görə də seçkilərdən düz bir ay qabaq, mayın 7-də mən ona bir məktub göndərdim. Məktub şəxsən özünə çatdırıldı. Ona yazmışdım ki, mən Sizin Prezident olduğunuz bir respublikanın vətəndaşı olmağı özümə ən böyük təhqir bilirəm. Ondan xahiş etmişdim ki, o kresloda oturan kimi məni vətəndaşlıqdan azad eləsin. Bildirmişdim ki, əgər Azərbaycan xalqı heç olmadığı qədər siyasi savadsızlığını, kor olduğunu göstərib, kütbeyin, siyasətdən uzaq, boşboğaz, hay-küyçü adamların təsirinə düşərək emosiyalara uyub Sizin Prezident seçilməyiniz üçün səs vermiş olarsa, onda bu xalq, sözün əsl mənasında, ölümə məhkum olacaqdı. Gədədən bəy olmaz, hayla gələn vayla gedər. Əgər Sizə qarşı yazdıqlarımı özünüzə qarşı təhqir və ya böhtan sayarsınızsa, onda xahiş edirəm, təcili olaraq məni məhkəməyə verin. Əmr verin ki, məhkəmə prosesi televiziya ilə translyasiya edilsin. Mən Sizin kim olduğunuzu sübut edərəm. Xalq da istər Sizə səs verər, istər verməz, öz işidir. Hamısını qəbul edirəm.

Seçkilərdə gördüm ki, bu adam böyük saxtakarlıqla, həyasızlıqla gəlib oturdu o kresloda. Heç olmasa, bir iş görərdilər. Hara apardılar xal-

qı, hansı kadr siyasətini yeritdilər? Heç bir səriştəsi olmayan, ancaq qışqırmaqla məşğul olan adamların hərəsini gətirib bir vəzifəyə qoydular. Son zamanlar mənim Xalq Cəbhəsinin mötəbər adamlarından sayılan iki orqan işçisi ilə öz şəxsi problemlərim ilə əlaqədar görüşüm oldu. Onlardan biri Bakının keçmiş prokuroru Çingiz Qəniyev, o birisi isə Ali Məhkəmənin sədri Tahir Kərimli idi. Mən noyabrın 22-də televiziya ilə çıxış etmişdim ki, bizi bu bəladan ancaq Heydər Əliyev çıxara bilər, onun rəhbərliyi altında birləşsək, indiki vəziyyətdən çıxa bilərik. Xalq Cəbhəsinə münasibətimi də bildirdim. Mənim sözlərimi kəsdilər və əvəzində televiziyada göstərdilər ki, Brejnev Moskvadan gəlib, Heydər Əliyev onu qarşılayır... "Səs" qəzetinin 19 noyabr tarixli sayında isə nə üçün Yeni Azərbaycan Partiyasının təəssübkeşi olmağımla əlaqədar məqaləm çıxdı. Bunlarla əlaqədar olaraq Çingiz Qəniyevlə görüşümdə mənim şəxsi problemim qaldı kənarda, o başladı ki, bu nədir, sən Heydər Əliyevə qoşulmusan. Heydər Əliyev kimdir, partokratdır və sair. Gəl səni aparım, bəylə barışdırım, sənə bir vəzifə verək, get, yaşa özün üçün, kef çək. Bakı prokurorunun cavabı bu oldu. Dedim, çox sağ ol. Neçə illərdir camaat düşüb küçələrə ki, bu vətəni xilas eləsin! İndi beş-altı adam kef çəksin, yaxşı yaşasın, yerdə qalanları nə olsun? Vətən torpağı gedir, millət məhv olur. Sonradan məni çağırdı ki, dur gəl, səninlə ayrıca söhbət edək. Dedim, bundan sonra mənimlə sənin söhbətin tuta bilməz.

Tahir Kərimli ilə isə 3 dəfə görüşmüşük. Birinci görüş onun iki müavini Xanlar Hacıyev və Gülzar Rzayeva ilə birlikdə olub. Üçü birlikdə mənimlə saat 6-dan axsam saat 9:30-a qədər söhbət edib. Demək olar ki, 23 ildir mən işsizəm. 18 il yardım almışam, hələ bu yaxında 4 aydır order almışam, işimə bərpa olunmuşam. Amma iş olmadığına görə, sadəcə, əmək stajım bərpa olunub, özüm işsizəm. Bizim orqan işçilərində qeyrət olmadı, mənim hüquqlarımı bərpa eləsin. Axır ki, hüquqlarımı okeanın o tayından gəlib bərpa elədilər, kömək elədilər, indi bəraət almışam. Tahir Kərimli deyir, sən 20 ilin dissidentisən, qoşulmusan partokratlara, Əliyevə və sair. Xalq istəyir bu adamı, xalqın gözü tərəzidir. Xalq artıq bilir ki, siz hara gedirsiniz, sizin kadrlar kimdir. Siz xalqı dəhşətə, fəlakətə aparırsınız. O deyir, yox, Əliyev gəlməyəcək. Onu xalq gətirəcək! Mən də o xalqın bir nümayəndəsiyəm. Bu durur yerindən psixopat kimi, ora-bura qaçır, iki müavini də onu güdür. Xalq bilir və başa düşür ki, kimin rəhbərlik qabiliyyəti var. Bunları deməkdə məqsədim odur ki, Xalq Cəbhəsi gələndən sonra kadr siyasətində elə gülünc işlər elədi ki, bu, Azərbaycan xalqını dəhşətə saldı. Azərbaycanın bütün sərvəti, kadrları

məhv olub getdi, vətənin torpaqları, millət məhv oldu. Mən görürdüm ki, Xalq Cəbhəsi hakimiyyətdə olduğu müddətcə bu müharibə davam edəcək. Bu müharibənin getməsi ancaq Xalq Cəbhəsinin liderlərinə sərfəlidir. Ona görə də bu çıxış yolunu Xalq Cəbhəsinin ləğvində görürəm. Mən buna Xalq Cəbhəsi də deyə bilmərəm, ancaq Əbülfəzçilər deyə bilərəm. Xalqın adını daşımaq bu təşkilata yaraşmır. Bu təşkilat heç vaxt xalqa xidmət eləməyib. Əksinə, xalqa elə bir zərbə vurub ki, on illərlə onun fəsadlarını düzəltmək mümkün olmayacaq. Bu, Azərbaycanın tarixində misli görünməmiş dəhşətdir. Bu televiziyaya bütün Azərbaycan xalqı baxır. Mən keçmiş dissident, Xalq Cəbhəsinin keçmiş fəal üzvü, bir Azərbaycan oğlu kimi xalqa müraciət edirəm, buna öz münasibətini bildirsin. Azərbaycan Xalq Cəbhəsi adında bir təşkilat xalqa təhqirdir, mən bunu Azərbaycan millətinə yaraşdırmıram. Xalqın cəbhəsi vətəni qoruyanlardır. Mən bu barədə mətbuatda da demişəm.

Mən özümü siyasətçi adlandırsam, bəlkə, bir az yaxşı çıxmaz, sadəcə, müəyyən qədər dünyagörüşüm var. Demək olar ki, 1964-cü ildən bu işlərlə məşğulam. Mən Azərbaycanın müstəqilliyi və azadlığı uğrunda çalışanda Xalq Cəbhəsində olanlar belə şeyləri yuxuda da görmürdülər. Amma xalqın belə vəziyyətindən istifadə eləyib onun bədbəxtliyi üstündə özlərinə xoşbəxtlik qurdular. Göydə Allah var, mən ümidvaram ki, onlar xalqın qəzəbinə gələcəklər. MDB heç də keçmiş SSRİ deyil, bunu başqa yerdə deməyin. Azərbaycanı gətirib hara çıxardınız? 20 faizdən artıq torpaqlar gedib. Hara gedir? Bunun sonu var, yoxsa yox? Bütün xalq bizə baxır, hara gedirsiniz? Axı siz hakimiyyətdə qaldıqca bu millət gedir. Bunu xalq bilmir? Siz Heydər Əliyevdən çox bilirsiniz? O, Azərbaycanın keçmiş SSRİ-də bir nömrəli siyasətçisi sayılır, siz ondan artıq bilirsiniz? Hər hansı bir təşkilata daxil olmaq olar. Bu təşkilatda kim iştirak edir? Əlbəttə, Xalq Cəbhəsinin nümayəndələri, səriştəsiz, savadsız adamlar gedib orada otursaydı, onları hər cür fırlada bilərdilər. Amma Heydər Əliyev sizin tayınız deyil. Bu, şahmat oyununa bənzəyir, siyasi oyundur. Burada da ancaq əsl siyasətçi olmalıdır. Elə hər yerindən qalxan Azərbaycanda Xalq Cəbhəsi yaradıb özünü siyasətçi adlandırdı. Onların siyahısını tərtib eləsəniz, əminəm ki, 99 faizi cinayətkar olacaq, bəlkə, içində bir faiz təmiz adam taparsan. Əgər mən bunu yalan deyirəmsə, qoy camaat məni öldürsün. Hamısını tanıyıram. Onlar xalqı bədbəxtliyə aparmaqla özlərinə xoşbəxtlik qururlar. Damaqlarında şirə qalıb hakimiyyətdən getməmək üçün, əlləşirlər. Millət məhv olur, vətən gedir, əl çəkin də. Yığmısınız altınıza, haramınız olsun, gedin, oturun, yeyin də.

Mən deyirəm ki, Müstəqil Dövlətlər Birliyinə girmək çox zəruridir, hətta vacibdir. Biz ora getdikdən sonra ümidvaram ki, iki-üç ay içərisində bütün o itirilmiş torpaqlar hamısı geri qaytarılacaq, siyasi yolla bütün məsələlər həll olunacaq. Mən buna tam inanıram. Bu, baş tutacaq. Ona görə də Məclis üzvlərinin hamısından xahiş edirəm, başı bəlalar çəkmiş Azərbaycan xalqının azadlığı üçün onun kimi – Heydər Əliyev kimi ölkədə ikinci bir adam tapa bilməzsiniz. Hamınıza müraciət edirəm, qulaq asın ağsaqqala, ona səs verin, bu bəladan qurtulaq. Sağ olun.

**Sədrlik edən.** Rəsul Quliyev, buyurun.

**Rəsul Quliyev.** Hörmətli sədr, hörmətli millət vəkilləri! Əfsus ki, İbrahim İbrahimov iclasdan getdi. Mən çox təəccüb edirəm, axı biz keçən dəfə danışmışdıq. Bu dəfə Heydər Əliyev də dedi ki, bir şey barəsində fikir söyləməmişdən qabaq o haqda nə isə oxumaq lazımdır. Təəssüf ki, diletant səviyyədə çıxışlar imkan vermir ki, müəyyən fikir cəmləyəsən. Başa düşmək olmur ki, nə istəyirlər. Həddən artıq çox boş söhbətlər gedir. Müstəqillikdən çox dəm vururlar, Xalq Cəbhəsi Azərbaycan müstəqil dövlətinə rəhbərlik etdiyi bir il ərzində Azərbaycan faktiki olaraq müstəqilliyini itirib. Nəyə görə itirib? Birinci, ona görə ki, ümumiyyətlə, dövlət siyasəti aparılmayıb, bunun nəticəsində torpaqlarımız verilib. İbrahim İbrahimov deyir ki, onların hakimiyyəti dövründə bir dənə rayon verilib, iki rayon alınıb. Mən bilmirəm, bunu hansı əsasla söyləyir. Faktiki olaraq həmin dövrdə Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı zonalarının 60-70 faizi artıq verilmişdi. Ağdam faktiki olaraq iyun ayının ortalarında Əbülfəz Elçibəy hələ burada olarkən verilmişdi. İndi deyirlər ki, ay belə gözəl işləmişik, elə çalışmışıq və sair. Faktiki olaraq Azərbaycan bir dövlət kimi Birləşmiş Millətlər Təşkilatına qəbul olunandan sonrakı bu bir il müddətdə elə bir xarici ölkə yoxdur ki, respublikanın onunla normal münasibəti olsun. Bütün Orta Asiya ölkələri ilə, Rusiya, Belarusiya, Moldova ilə münasibətlər kəsilib, nə Avropa ölkələri ilə, nə Amerika ilə heç bir əlaqə olmayıb. Bütün il ərzində elə bir dövlət tapılmayıb ki, Azərbaycanı müstəqil bir dövlət kimi qəbul eləyib kredit versin və ya bir köməklik göstərsin. Çünki Azərbaycanı bir dövlət kimi tanımayıblar. Müharibə gedən bir ölkənin başçısı olan Əbülfəz Elçibəy bu bir il müddətində nə bir dövlət başçısı ilə görüşdə olub, nə bir ölkədə səfərdə olub, nə bir müqavilə bağlayıb. Çünki onu qəbul eləməyiblər. Nə o kimisə dəvət eləyib, nə də ona kimsə dəvət göndərib. Bu, böyük bədbəxtçilikdir. İndi gəlin referendum keçirək. Referendumda üst-üstə yığsan Əbülfəz Elçibəyə səs verən cəmi 80-100 min adam ola

bilər. Yəni heç onun qohum-əqrəbaları da bu kişiyə "hə" deməyib, onların da çoxu Əbülfəz Əliyevin əleyhinə səs verib. Nə istəyirsən, qardaş? Əgər 4 milyon seçicinin içərisində 80 min nəfər sizə "hə" deyirsə, sizin mitinq keçirməyə haqqınız var? Yoxdur axı. Heydər Əliyev dursun desin ki, mitinq keçirirəm, o mitinqə iki milyon adam gələcək.

Ümumiyyətlə, bilirsiniz, müstəqillik nəyə deyirlər? Müstəqillik nədir? Onların fikrincə, sərhədi olan müəyyən bir torpaq və bu torpaqda nə isə xanlıq ideyaları həyata keçirməkdir. Yəni heç bir qanuna tabe olmamaq! Hərə özünə bir batalyon yaradır, hərə özünə xanlıq düzəldir. Bu proses gedirdi. İyun ayından başlayaraq bu prosesin qabağında dayanıldı. Talış-Muğan, Qarabağ, başqa zonalar hərəsi bir batalyon yaratmışdı, əraziləri bölüşdürmüşdülər. Burada qanuna qulluq eləyən bir adam var idi? Həm də bunu müstəqillik sayırlar. Bax bədbəxtçilik budur.

Heç nə oxumadan MDB-nin Təhlükəsizlik Şurasının əleyhinə nə isə deməyə çalışırlar. Yenə də deyirəm, Azərbaycan xalqına artıq bunların xatası çox dəyməyəcək, çünki xalq onları tanıyır. Onların xatası ancaq bizim iqtidarda olan adamlar üçündür. Diletant səviyyədə çıxışlar edəcəklər, bu iqtidarda olanlar heç vaxt heç nə ilə məşğul olmayacaqalar. Çünki onlar elə səviyyədədirlər. Məsələn, İsgəndər Həmidov burada deyir ki, müqavilədə yazılan gömrük üzrə ümumi siyasət, manat zonası və sair, bunlar bizim müstəqilliyimizi əlimizdən alacaq. Elə deyil. Qətiyyən. Sənəddə 16-cı maddə var. Oxuyuram. Rus dilindədir. (Oxuyur.) Mən davamını da oxuya bilərəm. Burada elə bir şey yoxdur ki, deyəsiniz, buna görə MDB-yə daxil olmayaq. Gömrük məsələsi nədir? Gömrük məsələsi odur ki, tək Rusiyadan söhbət getmir, Azərbaycan torpağına aid gömrük qanunları MDB-yə daxil olan dövlətlərin gömrük qanunları ilə bir-birinə uyğun gəlsin. Burada monopol heç nə yoxdur ki, kimsə kiminsə təsirinə düşsün. Silahlı qüvvələrin yerləşdirilməsi məsələsinə gəldikdə isə Kollektiv Təhlükəsizlik Şurasının hansı maddəsində yazılır ki, rus qoşunları Azərbaycanda olmalıdır? Nəyin əsasında deyirsiniz bunu? Belə bir şey yoxdur axı. Mən başa düşmürəm, nəyə görə axı rus silahlı qüvvələri? Kollektiv təhlükəsizlikdə məgər KTŞ-nın hansı sənədində bu söz yazılıb? Nəyə görə Ukraynanın da silahlı qüvvələri deyirik. Mən başa düşmürəm, axı nəyin əsasında bu sözləri deyirsiniz? Söhbət gedir ki, bu kağızlara qol çəkiləcək. Siz bunu yuxuda görmüsünüzsə, deyin, yuxuda görürük. Bir il ərzində, il yarım ərzində MDB-yə daxil olan ölkələrin başına elə şey gəlibsə və bizim də bundan xəbərimiz yoxdur-

sa, deyin, bilək ki, belə şeylər olub. Absurd, mücərrəd şeylər danışmaq olmaz. Söhbət ondan gedir ki, Təhlükəsizlik Şurası da, MDB ölkələrinin üzvlüyü də hamısı ümumi Avropa birliyi sənədlərinin, NATO sisteminin Təhlükəsizlik Şurası bazası sistemində yaradılıb. Ümumiyyətlə, izolyasiyada yaşayan bir dövlət yoxdur, bu heç cür mümkün deyil. Bizim Xalq Cəbhəsinin nümayəndələri necə izolyasiyada yaşamaq istəyirlər? Onda onun mexanizmini bizə də başa salsınlar. Əgər elə bir mexanizm bilirsinizsə, deyin. Nə təklif edirsiniz? Bir il ərzində sizin apardığınız siyasət gətirib Azərbaycanı o vəziyyətə çatdırıb ki, faktiki olaraq ölkəmiz öz müstəqilliyini itirib. Bu dəqiqə Azərbaycana müstəqil dövlət demək mümkün deyil. İndi bunun kərpic-kərpic müstəqilliyini yığmağa cəhd göstərən varsa, gəlin kömək eləyin. Sizin Heydər Əliyev barədə vərəqələrə yazdığınız sözlər barədə də fikrimi bildirmək istəyirəm.

Qarabağ hadisəsi başlamazdan əvvəl ermənilər çox böyük hazırlıq işləri görmüşdü. 1987-ci ilin noyabr və ya dekabr ayında Heydər Əliyevi siyasi bürodakı vəzifəsindən azad eləyiblər ki, o bu məsələdə büroya maneçilik törətməsin. Yəni Dağlıq Qarabağ hadisəsi başlamazdan əvvəl Heydər Əliyevi neytrallaşdırıblar. Görüblər, neytrallaşdıra bilməyəcəklər. 1988–1991-ci illərdə bütün qəzetlər Heydər Əliyevin əleyhinə yazırdı. Özü də bu məqalələrin verilməsinin əsas iştirakçısı ermənilər idi, onunla yanaşı Vəzirovun da apardığı kampaniya idi, Xalq Cəbhəsi də olub. İndi də həmin şeyləri yazırsınız. Qardaş, kimin dəyirmanına su tökmək istəyirsiniz? Başa salın, bilək də. Bu, Heydər Əliyevin əleyhinə işləyən erməni qüvvələridir, bu da siz! Sizinlə onların məqsədi bir deyil, bəs nədir?

**Sədrlik edən.** Dövlət katibi Lalə Şövkət Hacıyevadan bir xahiş edirəm. İsgəndər Həmidov burada Müstəqil Dövlətlər Birliyinin Nizamnaməsindən bir maddə oxudu. Ancaq orada bir neçə digər maddələr də var. Məclis üzvləri və xüsusən bu işə maraq göstərən şəxslər də bunları bilməlidirlər. Həm müqavilə, həm nizamnamə, həm də Təhlükəsizlik Şurası və kollektiv təhlükəsizlik haqqında müqavilələr və başqa sənədlərdən olan bəzi maddələrlə Məclisi tanış etsin.

**Lalə Şövkət Hacıyeva.** Hörmətli deputatlar, hörmətli sədr, hörmətli qonaqlar. Müstəqil Dövlətlər Birliyinin Nizamnaməsi və Kollektiv təhlükəsizlik haqqında müqavilə rus dilində dərc olunub. Sizdən rica edirəm, mənə icazə verin, bunu rus dilində şərh edim. Olarmı?

**Sədrlik edən.** Bir dəqiqə. Mikrofonunuz, yəqin ki, yaxşı işləmir, Sizi yaxşı eşidə bilmirik. Bəlkə bura gələsiniz?

**Lalə Şövkət Hacıyeva.** Məni eşitmirsiniz?

**Sədrlik edən.** Xeyr, eşitmək çox çətindir. Görünür, mikrofon işləmir.

**Lalə Şövkət Hacıyeva.** *(Rusca danışır. Tərcümə olunaraq verilir.)* Əsasən, iki məqam opponentlərimizdə şübhə doğurur. Birincisi, Azərbaycanın Müstəqil Dövlətlər Birliyinə daxil olması ilə guya suverenliyini itirəcəyi məsələsidir. Opponentlərimizin qınağına səbəb olan ikinci məqam isə Azərbaycanda siyasi sferada hərbi siyasətin dəyişməsi ilə bağlı məsələdir. Ona görə də mən bu iki problemi özündə əks etdirən məqamlara birbaşa diqqətinizi cəlb etmək istəyirəm. Kollektiv təhlükəsizlik müqaviləsinin Müstəqil Dövlətlər Birliyinin Nizamnaməsindən əvvəl qəbul edildiyini nəzərə alaraq, ilk növbədə, bu müqaviləyə baxaq. Sənəd 1992-ci il mayın 15-də Daşkənddə qəbul edilib. İkinci maddəyə baxmağınızı xahiş edirəm. *"Bir və ya bir neçə iştirakçı dövlətin ərazi bütövlüyünün və suverenliyinin təhlükəsizliyinə təhdid və ya beynəlxalq sülh və təhlükəsizliyə təhlükə yarandıqda, iştirakçı dövlətlər yaranan təhlükəni aradan qaldırmaq üçün öz mövqelərini əlaqələndirmək və tədbirlər görmək üçün dərhal birgə məsləhətləşmələr mexanizmini işə salacaqlar".* Yəni burada söhbət hər bir dövlətin, bu birliyin hər bir üzvünün ərazi bütövlüyü və suverenliyindən gedir. Kollektiv təhlükəsizlik müqavilələrinə gəldikdə isə, mən sizə xatırlatmaq istəyirəm ki, biz BMT-yə məhz həmin sərhədlər daxilində, Dağlıq Qarabağ Azərbaycanın tərkibində olmaqla daxil olmuşuq. Bunu unutmaq olmaz. Biz dövlətimizin – suveren müstəqil Azərbaycanın təmsil etdiyi sərhədləri daxilində bu təşkilata qəbul edilmişik. Bundan əlavə, çox vacib olan 4-cü maddəyə diqqət yetirməyinizi xahiş edirəm. *"Əgər iştirakçı dövlətlərdən biri hər hansı dövlət və ya dövlətlər qrupu tərəfindən təcavüzə məruz qalarsa, bu, müqavilənin iştirakçısı olan bütün dövlətlərə qarşı təcavüz hesab olunacaqdır. İştirakçı dövlətlərdən hər hansı birinə qarşı təcavüz aktı olarsa, bütün digər iştirakçı dövlətlər ona lazımi yardımı göstərəcək".* Sizdən xahiş edirəm ki, bu məsələyə də diqqət yetirəsiniz, Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin 51-ci maddəsinə uyğun olaraq kollektiv müdafiə hüququnu həyata keçirmək üçün onların sərəncamında olan bütün vasitələrlə hərbi yardım, həmçinin dəstək göstəriləcək. Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin 51-ci maddəsini götürmüşəm, lazım olsa, oxuya bilərəm. Bu maddənin mövzusu məhz budur. Ehtiyac varsa, oxuyum. 8-ci maddəyə baxın. *"Bu müqavilə Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə uyğun olaraq iştirakçı dövlətlərin təcavüzdən fərdi və kollektiv müdafiə hüququna toxunmur". Maddə 11. 1-ci bənd. Opponentlərimizi sakitləşdirmək üçün bildirim*

*ki, bunun əbədi olmadığına hər hansı bir şübhə yaranarsa və ya bu sazişin icra mexanizmlərinin işləmədiyini görəriksə, o zaman 11-ci maddədə belə bir hissə verilib: "Bu müqavilə beş il müddətinə bağlanır və uzadıla bilər. İştirakçı dövlətlərdən hər hansı biri öz niyyəti barədə digər tərəfləri ən azı altı ay əvvəl xəbərdar edərsə, bu müqavilədən çıxmaq hüququna malikdir".* Buna görə də bunu daimi bir şey, bir növ, əsarət və ya bənzəri kimi qəbul etməyin.

İndi də Müstəqil Dövlətlər Birliyinin Nizamnaməsi haqqında. Biz bu nizamnaməni təhlil etdik, nəinki təhlil etdik, onu bütün beynəlxalq hüquqi aktlarla müqayisə etdik, onu hamılıqla qəbul edilmiş beynəlxalq hüquqi aktlarla və eyni zamanda bəzi hərbi paktlarla müqayisə etdik. Sənəd faktiki olaraq beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsip və normalarına, Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin müddəalarına, Helsinki Yekun Aktına və Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin digər sənədlərinə uyğundur. Bu, nizamnamənin preambulasında da qeyd olunub. Mən nizamnamənin 1-ci maddəsinə də diqqətinizi çəkmək istəyirəm: *"Birlik öz üzvlərinin suveren bərabərliyi prinsiplərinə əsaslanır. Üzv dövlətlər beynəlxalq hüququn müstəqil və bərabərhüquqlu obyektləridir".* Burada, bu maddənin son abzasında deyilir: *"Birlik dövlət deyil".* Üzdən iraq. Mən yenə də opponentlərimizə müraciət etmək istəyirəm. Qoy onlar müqaviləni yaxşı oxusunlar. Birlik dövlət deyil və millətlər üzərində heç bir səlahiyyətə malik deyil.

Mən 3-cü maddəyə də diqqət çəkmək istərdim. "Əsas prinsiplər". *"Üzv dövlətlərin suverenliyinə hörmət, xalqların öz müqəddəratını təyin etmək üçün ayrılmaz hüququ, dövlət sərhədlərinin toxunulmazlığı. Mövcud sərhədlərin tanınması və qanunsuz ərazilərin əldə edilməsinin rədd edilməsi".* Növbəti əsas prinsip dövlətlərin ərazi bütövlüyü və xarici ərazinin parçalanmasına yönəlmiş hər hansı bir hərəkətin rədd edilməsidir. Bu maddədə əsas prinsip bu dövlətlərdə beynəlxalq hüququn aliliyi və ən əsası, bir-birinin daxili və xarici işlərinə qarışmamaqdır. Hesab edirəm ki, 9-cu maddəyə də diqqət yetirməliyik: *"Üzv dövlətin birlikdən çıxmaq hüququ var. Üzv dövlət belə niyyəti barədə depozitariyə yazılı şəkildə məlumat verməlidir. Bu nizamnamənin depozitarisi, məlum olduğu kimi, çıxmazdan 12 ay əvvəl Belarusdur. Bu nizamnamədə iştirak müddətində yaranan öhdəliklər tam yerinə yetirilənə qədər müvafiq dövlətləri bir-birinə bağlayır."* Ona görə də, əgər bu, müstəqil dövlətimizə sərfəli olmasa, burada qalmaya bilər, əbədi heç nə yoxdur.

Eyni zamanda 23-cü maddəni də diqqətinizə çatdırım. Bu, İsgəndər bəyin bayaq xarici siyasət fəaliyyətinin koordinasiyası ilə bağlı dedik-

ləri barədədir. Biz onun üzərində işləyirik, yaxşı təhlil etmişik. Onların bizim daxili işlərimizə qarışmaq hüququ olmayacaq və biz nə Dövlət Başçıları Şurasından, nə də birliyin Hökumət Başçıları Şurasından xarici siyasət fəaliyyəti ilə bağlı heç bir ümumi strategiya almayacağıq. Diqqət yetirin, 23-cü maddədə belə deyilir: *"İstənilən dövlət konkret məsələyə maraq göstərmədiyini bəyan edə bilər ki, bu da heç bir halda hər hansı qərarın qəbuluna maneə kimi qəbul edilməməlidir."* Amma bu dövlət qərarın hansısa bir hissəsini və ya bir qismini qəbul edə də bilər, etməyə də bilər, hansısa məsələdə iştirak edə də bilər, etməyə də bilər. Bu, istənilən suveren dövlətin hüququdur.

Sonda hörmətli opponentlərimizə bir daha müraciət etmək istərdim. Yəqin ki, hamınız siyasi polemikanın qaydalarını məndən yaxşı bilirsiniz. Siyasi polemika qaydaları mücərrəd imtinaya və ya hər hansı sənədin mücərrəd dəstəklənməsinə imkan vermir. Xahiş edirəm, hər hansı bir sənədə qarşı çıxırsınızsa, bunu əsaslı şəkildə, bu sənədin hər bir müddəası əsasında edin. Nəyinsə tərəfdarısınızsa, bu da siyasi polemikanın qaydasıdır, onu da kifayət qədər arqumentli şəkildə ortaya qoyun. Diqqətinizə görə təşəkkür edirəm. *(Ruscadan tərcümə bitdi.)*

**Sədrlik edən.** Sağ olun. Arif Rəhimzadə, buyurun. Bəli?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Əlbəttə ki, olar. Əgər o maddələri aydınlaşdırmaq istəyirsinizsə, onu özünüz də oxuya bilərsiniz. Dövlət katibi, sadəcə, maddələri sizə aydınlaşdırdı. Ancaq sual vermək olar. Buyurun.

**Şadman Hüseynov.** Heydər müəllim, maddələri biz də oxumuşuq. Ancaq burada belə bir maddə var – 4-cü maddə. İndi Lalə xanım rusca oxuduğuna görə gərək mən də rusca oxuyum.

**Sədrlik edən.** Çünki azərbaycanca mətn yoxdur.

**Şadman Hüseynov.** Gərək indiyə kimi tərcümə olunaydı.

**Sədrlik edən.** Onu gərək siz edəydiniz.

**Şadman Hüseynov.** Düzdür.

**Sədrlik edən.** Xüsusən Milli İstiqlal Partiyası.

**Şadman Hüseynov.** Milli İstiqlal Partiyası çox iş görür və görməkdə davam edir. *(Rusca danışır. Çıxış tərcümə olunaraq verilir.)* Ümumi koordinasiya institutları tərəfindən bərabər hüquqda həyata keçirilən üzv ölkələrin birgə fəaliyyəti sferasına... *(Yenə rusca. Tərcümə olunaraq verilir.)* Müdafiə siyasəti və xarici sərhədlərin qorunması sahəsində əmək-

daşlıq. Ancaq 3-cü maddədə yazılır ki, iştirakçı dövlətlər biri o birisinin daxili işlərinə qarışmır. Amma 4-cü maddə bunun əksinə gedir.

**Lalə Şövkət Hacıyeva.** *(Rusca danışır. Tərcümə olunaraq verilir.)* Mən sizin diqqətinizi məhz 4-cü maddədəki xarici siyasət fəaliyyəti ilə bağlı məsələyə cəlb eləmişdim və sizə 23-cü maddəni misal gətirdim. Burada daxili işlərə müdaxilə edilməməsi qeyd olunur. Mən xüsusi olaraq bu maddəyə diqqət çəkdim, bu barədə danışmışam. Burada deyilir: "Əgər dövlət hansısa məsələdə maraqlı deyilsə, onda o, faktiki olaraq bu məsələnin həllində özünü kənarda saxlaya bilər". Bundan əlavə, orada qeyd olunur ki, üzv dövlətlər başqa suveren dövlətin daxili və xarici siyasətinə qarışa bilməz. Sizə xatırlatmaq istərdim ki, bu dörd məsələnin hamısını qəbul etmək mütləq deyil. Siz məndən yaxşı bilirsiniz ki, Türkmənistan bu Nizamnaməyə münasibətdə özünü necə apardı. Bəzi məsələləri qəbul etdilər, bəzilərini isə yox. Bu hər bir suveren ölkənin daxili işidir. Ona görə xahiş edirəm ki, siz bir də bu sənədə diqqətlə baxasınız. Sözsüz ki, burada bəzi ziddiyyətlər də var. Amma əsas maddələr tam suverenliyə imkan yaradır. Hamınız yaxşı bilirsiniz ki, ölkə hazırda hansı vəziyyətdədir. Ərazilərimizin 20 faizi işğal olunub. Kimin üstün olacağı barədə deyil, ölkəmizin gələcəyi barədə düşünməliyik.

**Sədrlik edən.** Sual verdiniz, cavab da aldınız. Daha polemika olmayacaq. Sonra yaxınlaşıb aydınlaşdırarsınız, yaxud da öz çıxışınızda deyərsiniz. Arif Rəhimzadə. Buyurun.

**Arif Rəhimzadə.** Hörmətli sədr, hörmətli Məclis üzvləri. Bu gün Milli Məclisin Sosial, iqtisadi, Büdcə və Aqrar məsələlər komissiyalarının birgə iclasında MDB-yə Azərbaycanın daxil olmasına münasibətlə bərabər, Heydər Əliyevin Türkiyənin Baş naziri Tansu Çillərlə Moskvada, Amerikanın Prezidentinin səlahiyyətli nümayəndəsi Talbotla görüşləri və söhbətləri müzakirə olundu. Dediyim kimi, bu yığıncaq çox geniş tərkibli idi, demək olar ki, respublikanın əsas nazirliklərinin rəhbərləri, komitələrinin və baş idarələrinin nümayəndələri orada iştirak edirdi. Müzakirələr əsasında komissiyalar qərar qəbul ediblər. Qərar da ondan ibarətdir ki, MDB-yə müsbət münasibət bildirildi. Heydər Əliyevin Türkiyənin Baş naziri və Amerika Prezidentinin səlahiyyətli nümayəndəsi ilə görüşləri müsbət qiymətləndirildi.

Məclisə gəlməzdən əvvəl belə düşünürdüm ki, bu gün burada da bu sənədlər ətrafında, ələlxüsus MDB-yə münasibətlə əlaqədar dərin fikir mübadiləsi aparılacaq, bu sənədin müddəaları ətrafında təkliflər irəli

sürüləcək. Amma indi məlum olur ki, bu məsələyə mənfi münasibəti olanların da heç bu sənədlə tanışlığı yoxdur. Əlbəttə, o meydan psixologiyasından irəli gələn məsələləri inkar etmək heç cür qəbul oluna bilməz. Təkrar olsa da mən bir-iki məsələni vurğulamaq istəyirəm. Burada belə bir fikir irəli sürüldü ki, MDB-yə daxil olmaq mütləq şəkildə milli mənafeyi məhdudlaşdıracaq, guya hansısa bir imperiya yaradılacaq və Azərbaycan onun tərkibinə daxil olacaq. Mən bu nizamnamənin 1-ci maddəsinin axırıncı bəndini sizə bir daha xatırladıram. Burada yazılıb: "Birlik dövlət deyil və milli mənafe üstünlüyünə malik deyil".

İkinci məsələni də qeyd edim. Burada deyildi ki, biz o rubl məkanına daxil olsaq, milli valyutamız məhv olacaqdır. Əslində, bu da belə deyil. Bu sənədlərdə göstərilir ki, rubl məkanına daxil olsaq, bizim manatımızın mübadilə məsələsi həll olunacaq. Demək, eyni zamanda rubl da işləniləcək. Orada bunun da mexanizmi göstərilir və bizim manata heç bir təhlükə yaranmır. Mən artıq bu məsələlər ətrafında danışmaq istəmirəm, yalnız onu demək istəyirəm ki, MDB-yə daxil olmaqla bizim bütün nə iqtisadi, nə də hərbi məsələlərimiz avtomatik olaraq həll olunmayacaq. Sadəcə biz MDB ölkələri ilə çox sıx əlaqədəyik, istehsal etdiyimiz məhsulları yalnız MDB ölkələrində reallaşdıra bilirik. Həmin məhsulları da istehsal etməkdən ötrü gərək MDB ölkələrindən xammal və komplektləşdirilən hissələr alaq. Odur ki, istəsək də, istəməsək də MDB ölkələri ilə sıx bağlı olmalıyıq. Çünki MDB ölkələrindən kənar fəaliyyətimiz ildən-ilə ölkəmizin xalq təsərrüfatını iflasa uğradacaqdır. Bir sözlə, MDB-yə daxil olmaq, əlbəttə, o demək deyil ki, bütün problemlərimiz avtomatik həll olunacaqdır, ancaq bu problemlərin həll olunmasına zəmin yaradacaqdır. Mən fikirləşmirəm ki, MDB-yə daxil olan kimi ermənilər çəkilib gedəcəkdir. Sadəcə, biz MDB ölkələrinə öz fikrimizi çatdıra biləcəyik, bəzi məsələləri müzakirə etməyə, onlara müəyyən təsir göstərməyə imkanımız olacaq.

Mən bir neçə kəlmə də Xalq Cəbhəsi haqqında danışmaq istərdim. Məndən qabaq çıxış edən natiq çox düzgün qeyd elədi ki, o qurum Xalq Cəbhəsi adını daşımağa layiq deyil. Mən Xalq Cəbhəsində bir çox rasional fikirli adamlar görmüşəm. Əfsuslar olsun ki, o yüksək səviyyəli ziyalılar və fikir adamları Xalq Cəbhəsinin nə rəhbərliyində, nə də tərkibində aparıcı qüvvə kimi öz yerlərini tapmadılar. Meydan psixologiyasında yetişmiş bir qrup insan Xalq Cəbhəsində rəhbərliyi öz əllərinə aldılar. Belə olan halda, əlbəttə, o qurumun Xalq Cəbhəsi adını daşıması düzgün deyil. Yenə də o fikrin üstündə dururam ki, Xalq Cəbhəsi da-

ha bu formada fəaliyyət göstərə bilməz. Burada deyildi ki, guya qurum hansısa bəyanatlar verəcək və cinayətkar hadisələrdən, cinayət əməllərindən uzaqlaşacaq. Ancaq indiyəcən də görürük ki, Xalq Cəbhəsi bütün o əməllərə həmrəy olur. Referendum qabağı Naxçıvanda olan hadisələr də bunu göstərdi. Xalq Cəbhəsi o qüvvələrə havadarlıq edirdi. Belə olan halda hesab edirəm ki, Xalq Cəbhəsi artıq fəaliyyət göstərə bilməz.

Daxili işlər naziri Vaqif Novruzov dünən burada məlumat verib ki, camaata paylanan o sənədlərin içində İsgəndər Həmidovun bəyanatı olub. Mən burada Vaqif Novruzovu müdafiə etmək fikrində deyiləm, buna ehtiyac da yoxdur. Bu sözü yalnız ondan ötrü deyirəm ki, dünən mənə İsgəndər Həmidov yaxınlaşıb dedi ki, Siz obyektiv bir adamsınız. Yaxşı ki artıq bu fikirdədir, yəni o məsələ ilə mən məşğul olum. Mən, həqiqətən, məsələni araşdırdım. Belə bir bəyanat, həqiqətən, var, o, kompüterdə də çıxır, orada İsgəndər Həmidovun imzası da var. İndi mən deyə bilmərəm, bu hansı tarixdə olub, ancaq hər halda, insanları mitinqə çağıran vərəqlərin içində o sənədlər də olub. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Bu gün mənə məlumat verildi ki, komissiyalar işləyib öz rəylərini veriblər. Yalnız bir komissiyada fikir ayrılığı olub və onlar rəy verə bilməyiblər ki, bu da Dövlət quruculuğu və hüquq siyasəti komissiyasıdır. Bu komissiyadan üç nəfər – sədr Tofiq Qasımov, üzvləri Etibar Məmmədov və İbrahim İbrahimov Müstəqil Dövlətlər Birliyinə üzvlüyün əleyhinə olublar, iki nəfər üzv – Şirin Hacıkərimov və bir də deyəsən, Fərrux Zeynalov bitərəf olublar. İndi burada İbrahim İbrahimov çıxış etdi və öz mövqeyini bildirdi. Şübhəsiz ki, o biri üzvlərin də mövqelərini bildirməsi məsləhətdir. Dünən biz məlumat verdik ki, vərəqələr yayılıb və orada bizi günahlandırıblar ki, guya biz Müstəqil Dövlətlər Birliyi ilə bir münasibət yaradırıqsa, şəhidlərin ruhuna xəyanət etmiş oluruq. İndi bu sözləri eşidən şəhid anası Orucova Dilarə Kərim qızı bura gəlib. Mənə müraciət edib. “Ana fəryadı” cəmiyyətinin sədridir. Mən istərdim ki, komissiya üzvləri fikirləşənə qədər Dilarə xanıma söz verək, fikirlərini bildirsin, bir halda ki zəhmət çəkib bu gün bura gəlib.

**Dilarə Orucova.** Axşamınız xeyir, hörmətli millət vəkilləri və hörmətli sədr! Mən bir şəhid anası kimi cəmi şəhidlərə qurban olum. Azərbaycanda birinci şəhid mənim balam olub. Mən öz balama görə demirəm, bütün şəhidlər mənim balamdır, onların qəbirlərinə qurban olum, hamısının qarşısında ana kimi baş əyirəm. Mən bayaqdan oturmuşam burada qulaq asıram. İbrahim İbrahimova da, İsgəndər Həmidova da qulaq asdım. Həmin İsgəndər Həmidovdur ki, onun qarşısında birinci

mən çıxış eləmişəm. Bütün bu mitinqlərdə uşağımın şəkli əlimdə çıxmışam. Mən cəbhəçilərə inanmışam, demişəm, bunların yolu müstəqildir, düzdür, həqiqidir. Amma indi inamımı tamamilə itirmişəm. Ondan ötrü itirmişəm ki, onlar düz yolda olmayıblar, xalqı fəlakətə aparıblar, öz mənsəblərini güdüb xalqı pis vəziyyətə qoyublar. Xalqın bundan ağır günü ola bilməz. Bütün cavanlarımız qırğında, xalqımız ağır iqtisadi şəraitdə, millətimiz ən pis vəziyyətdə yaşayır. Mən 60 nəfər xocalıları öz öhdəmə götürmüşəm. Onlara nə lazımdırsa, bir ana kimi özüm edirəm. Pensiya da alıram, maaş da. Mənim qızım da, oğlum da işləmir. Amma buna baxmayaraq, nə qədər ki buradadırlar, mən onlara kömək edəcəyəm. Ona görə ki bundan ağır günümüz ola bilməz. Cəbhəçilər hansı iqtisadiyyatdan danışa bilərlər ki, öz mənafelərini, vəzifələrini güdüb xalqı uçuruma aparırlar. Həmin Tofiq Qasımova bir şəhid anası kimi yanaşdım, mən tutulmamışdan qabaq məktub verdim. Burada sessiya gedirdi, Mütəllibovun vaxtında, elədirmi? Dedim, Heydər Əliyev içəridədir, xahiş edirəm, bu məktubu ona verin. Sən demə, siz o məktubu ona vermirmişsiniz, cırıb tullayırmışsınız. Şahidim də var, adını da deyə bilərəm. Amma mən bilsəydim ki, siz o məktubları cırırsınız, sizə verməzdim. Sizin gözünüz onu götürmür, çünki Heydər böyük şəxsiyyətdir. Mən bunu yaltaqlıqla demirəm, ana kimi deyirəm. Hər yerdə də deyirəm, ölümdən də qorxan adam deyiləm, özünüz də yaxşı bilirsiniz, 1990-cı ildə tankların qabağına mən birinci çıxmışam. Xalqımın oğlanlarına qurban olum, kaş onların yerinə mən öləydim, qalmayaydım, bu günü də görməyəydim. Mənim başıma dubinkalar da dəyib, 27 gün malları müsadirə olunmaqla qazamatda yatmışam. Elçibəy özü bilirdi, niyə bir Prezident kimi köməklik etmədi mənim kimi bədbəxt bir anaya? Niyə heç biriniz deputat kimi mənə köməklik etmədiniz? Hətta elə bilirdiniz ki, nə qədər işgəncə etsəniz xalq bir o qədər sizin qabağınızda gedər, sizə köməklik edər? Siz öz mənafeyinizi güdə-güdə, vəzifə tuta-tuta xalqı uçuruma apardınız. Həmin İsgəndər Həmidov idi, mən onun qarşısına getdim, dedim ki, mənim maşınımı dayanacaqdan aparıblar, elə deyilmi? Məni mindirdin bir polis maşınına, göndərdin Nəsimi rayonuna. Dedin ki, get, ana, bu dəqiqə sən maşınını alacaqsan. Mənim maşınım da Heydər Əliyevə qurban, canım da, balalarım da ona qurban. Mən maşına görə də deyildim, mən sənin şəxsiyyətini sınayırdım ki, görüm, mənim kimi bədbəxt bir anaya kömək edəcəksənmi? Eləmədin. Məni ələ saldın. Polis maşını məni apardı ora, oradan da ağlaya-ağlaya evə getdim. 27 gün həbsdə yatanda niyə mənə köməklik eləmədiniz? Ni-

yə bilmədiniz ki, siz cəbhəçilərin üstündə mən 27 gün yatdım? Nə bəlalar çəkdim. Mənim uşaqlarım 30 sutka qazamatların yolunda nələr çəkdi. Heç kim bizim yanımıza gələ bilmədi ki, balalarım dustaqdır, özüm dustağam. Bəs mənim kimi 64 yaşlı anaya nə deyirsən, ay İsgəndər Həmidov? Hansı Xalq Cəbhəsindən danışmaq olar? Xalqın Cəbhəsi xalq özüdür! Üzr istəyirəm, bu dəqiqə mən sizə hamısını faktlarla deyəcəyəm. Mən Arif Hacıyevin yanına getdim. O qədər əsəbiləşirəm ki. Hacıyev Arifin yanında oldum, müşavirdir axı. Saat 11-ə qədər bilə-bilə məni orada saxladı, xalq da aşağıda gözləyirdi. Millətin qeyrətli, namuslu, savadlı oğlanlarını işdən çıxarırdılar ki, cəbhəçi bisavadları, şüşəsalanları, sürücüləri aparıb qoyurdular vəzifəyə. Mən hamısını deyəcəyəm, çünki buna haqqım var. Mən onların içində olmuşam, hamısını bilirəm. Buna nə deyirsiniz? Hansı cəbhədən danışırsınız? Cəbhə xalq özüdür, xalqın gözü tərəzidir. Hər kəs yaxşı bilir ki, kim onu bu bəladan qurtarar. Xalq tərəzidə ölçüb-biçib ki, ancaq Heydər Əliyev bizi qurtarmalıdır. Hansı MDB-dən danışırsınız? MDB-yə getməsək də biz məhv olacağıq. Bizim balalarımız onsuz da məhv olur, bizim balalarımız onsuz da bədbəxtdir. Azərbaycan xalqı sizin kimi yalançılara inanıb. Mənim kimi ağsaçlı analar sizin qarşınızda gediblər. Həmin o İsa Qəmbərdir ki, ağlaya-ağlaya gəldim bura, məni qəbul eləmədi. Dedim, məni tutublar, qapımdan maşınımı aparıblar. Maşın qurban olsun xalqıma. Bəs mənim başıma, 64 yaşlı şəhid anasının başına bu faciələr gələndə haradaydı? Bəs danışanda qeyrətdən, namusdan danışırıq. Hansı qeyrətdən, namusdan danışırıq, ay İsgəndər Həmidov? Siz mənə cavab verin görüm, məni niyə göndərdiniz ora? Ələ salmaq üçünmü? Mən ələ salınmalı ana deyildim. Mən həmin anayam ki, oğlum Mahirin şəkli mənim əlimdə "bala vay" deyə-deyə çıxırdım bayıra. Tək öz balama yox, bütün Azərbaycan xalqının balalarına qurban olum. Kaş, şəhidlərin yolunda mənim kimi analar da öləydi. Amma cəbhə lazım deyil. Cəbhə bağlanmalıdır. Xalqı bu fəlakətlərə gətirən cəbhədir. Cəbhə ancaq öz mənafeyini güdüb, xalqı uçuruma aparıb, bədbəxt edib. Xalqın savadlı oğlanlarını işdən çıxarıb, işgəncələrə məruz qoyub. Xalq Cəbhəsinin savadsızlığı ucbatından mən 27 gün damda yatmışam. Bu, Ayazın vaxtında olub. Mən Ayaz Mütəllibova, o Dilguşə xanımdır, kimdir, ona zəng elədim, mən bədbəxt anayam, bəs məni dama basırlar, mənim əlimə qandal salıblar, əlli nəfər milis evimə dolub, məni aparırlar, sürüyürlər, nə qonşular, nə də heç kim əllərindən ala bilmir. Mənim də ah-zarım göyə çıxırdı ki, buraxın, balamın qəbrinin üstünə gedim, bu gün 4-cü gündür. Ey cəbhəçilər, eşi-

din bu sözləri. Məni əlimdə qandal, qışqıra-qışqıra, o “qeyrətli” 50 nəfər milis işçisi 64 yaşlı ağsaçlı ananı aparıb 79 nömrəli kameraya, zirzəmiyə saldılar. Məni o ki var döydülər orada. Sir-sifətim, bütün qollarım qan içində idi. Üzr istəyirəm Sizdən, yoldaş sədr, mənə elə təpiklər vurublar ki, qarnımda şiş yarandı! Budurmu bizim qeyrətli milis işçilərimiz? Mənim başıma bu oyunları gətirən milislər hələ də işləyirlər.

Həmin İsa Qəmbər də getdi, gördü oranı. Gərək çıxmayaydı oradan. Ona görə çıxmayaydı ki, o mənim kimi anaların qədrini bilməyəndə gərək orada oturardı, görərdi ki, mənim başımda nə bəlalar var. Tofiq Qasımov, Siz də bilin, danışanda ağız dolusu cəbhə-cəbhə deməyin. Elə bizi belə günlərə qoyan sizin kimilərdir. Sizin kimi cəbhəçilərdir xalqı uçuruma aparan, xalqı bədbəxt edən. Mən Heydər Əliyevə qurban olum. Biz “Ana fəryadı” cəmiyyətinin 4 min üzvü bu gün ayaq üstəyik, MDB-yə getməliyik, qol çəkməliyik. Xalq bu fəlakətdən, ağır gündən qurtulmalıdır. Çox sağ olun. *(Alqışlar.)*

**Sədrlik edən.** Biz iki saatdan artıqdır işləyirik, Məclis üzvlərindən də çox yazılan var, iştirak edən deputatlardan da çox müraciətlər almışıq. İstəyirəm, bir təklif haqqında məsləhətləşək. Biz gündəliyə üç məsələ salmışıq. Rusiya rəhbərləri ilə danışıqların yekunu, Türkiyənin Baş naziri xanım Tansu Çillərlə və Amerika Birləşmiş Ştatları Prezidentinin nümayəndəsi cənab Talbotla görüşlərimiz haqqında, bir də Amerika Birləşmiş Ştatları Prezidentinin məktubu barədə. Ancaq mən görürəm, daha çox müzakirə olunan bizim respublikanın Müstəqil Dövlətlər Birliyinə münasibəti və o birliyə girib-girməmək məsələsidir. Baxmayaraq ki bu məsələ biz hələ Moskvaya getməmişdən də sentyabrın 3-də burada müzakirə olunmuşdu, ancaq bunun daha geniş müzakirəsinə ehtiyac var. Ona görə də artıq aydınlıq var, Məclis üzvləri etiraz etməsə, biz bu 3 məsələ haqqında, mənə elə gəlir ki, bir qərar qəbul edə bilərik.

Ancaq Müstəqil Dövlətlər Birliyinə daxil olmaq məsələsinə münasibət haqda fikir ayrılığı da var. Lazımdır ki, bu sənədləri daha yaxşı öyrənək. Bəlkə, bu məsələnin müzakirəsini biz sabah yox, birisi gün davam edək? Nə üçün? Mən çox istərdim ki, Müstəqil Dövlətlər Birliyinin Nizamnaməsi, sonra Kollektiv Təhlükəsizlik Şurası, yaxud Kollektiv təhlükəsizlik haqqında müqavilə Azərbaycan dilinə tərcümə olunsun, dərc olunsun və bütün Məclis üzvlərinə paylansın, hətta ictimaiyyət də bilsin. Bizim bugünkü müzakirəmizi, şübhəsiz ki, əhali televiziya vasitəsilə seyr edir. Bəlkə, sabah imkan verək ki, onlar da fikirləşsinlər. Möhlət verək, birisi gün bu məsələnin müzakirəsini davam etdirək. Əgər bu

təklifə etiraz yoxdursa, onda icazə verin, bu məsələlər haqqında qərar layihələrini mən sizə təqdim edim. Onda, demək, danışdığımız kimi sabah məsələlər bir daha öyrənilsin, bir də oxunsun, camaat da bilsin. Bilirsiniz, bu, çox mühüm bir addımdır, bu barədə geniş fikirləşin. Birisi gün məsələni bir də müzakirə edərik. Etiraz yoxdur? Onda Həsən Həsənovdan xahiş edirəm, qərar layihələrini oxusun. Sonra da bir arayış vermək istəyirdi, onu verər. Buyurun.

**Həsən Həsənov.** Layihədir.

***Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əliyevin Rusiya Federasiyasına səfərinin yekunları haqqında***

***Azərbaycan Respublikası Milli Məclisinin Qərarı***

*Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əliyev başda olmaqla Azərbaycan Respublikasının nümayəndə heyəti bu il sentyabrın 5-dən 8-dək Moskva şəhərində səfərdə olmuşdur. Rusiya Federasiyasının Prezidenti Yeltsin, Rusiya Federasiyası Ali Sovetinin sədri Xasbulatov, Nazirlər Sovetinin – hökumətin sədri Çernomırdin, Nazirlər Soveti sədrinin müavini Şaxray, xarici işlər naziri Kozırev, müdafiə naziri Qraçov, Moskva şəhərinin meri Lujkov və digər dövlət və hökumət nümayəndələri ilə görüşlər keçirilmiş, əməli xarakter daşıyan söhbətlər aparılmışdır. Milli Məclis qeyd edir ki, danışıqlar zamanı Azərbaycan–Rusiya münasibətləri geniş planda müzakirə edilmiş, tərəflər münasibətləri yaxşılaşdırmağın zəruriliyini qeyd etmişlər. Hər iki tərəf bildirmişdir ki, iki ölkə arasında siyasi, iqtisadi və başqa əlaqələrin inkişafı üçün bütün imkanlardan istifadə olunmalı, bölgədə və beynəlxalq aləmdə birgə fəaliyyətin və əməkdaşlığın genişləndirilməsinə qarşılıqlı səy göstərilməlidir.*

*Tərəflər razılaşmışlar ki, yaxın vaxtlarda iki dövlət arasında dostluq münasibətlərini və əməkdaşlığı təsbit edən müvafiq sənəd imzalanacaqdır. Səfər zamanı tərəflər arasında keçmiş SSRİ-nin xarici dövlət borcunun aktivlərinin tənzimlənməsi haqqında saziş imzalanmışdır. Bu il Azərbaycana dövlət kreditinin verilməsi haqqında sazişin, habelə texniki kreditlər üzrə borcun Azərbaycan Respublikası hökumətinə dövlət krediti kimi yenidən rəsmiləşdirilməsi haqqında sazişin layihələrinin hazırlanması barədə müvafiq tapşırıqlar verilmişdir.*

*Tərəflər Azərbaycan ərazisində hərbi əməliyyatların güclənməsindən, bu əməliyyatların Azərbaycanın cənub sərhədinə yaxınlaşmasından, yeni-yeni ərazilərin işğal olunmasından, qaçqınların sayının son dərəcə artmasından*

*dərin təşviş keçirdiklərini bildirmişlər. Qeyd edilmişdir ki, son dövrlər döyüş əməliyyatları zonasında yaranmış vəziyyət bölgədə sülh və təhlükəsizlik üçün yeni qorxu yaratmışdır. Rusiya Federasiyası və Azərbaycan Respublikası bölgədə sülhün bərqərar edilməsinə səy göstərdiklərini bildirmişdir.*

*BMT Təhlükəsizlik Şurasının 822 və 853 nömrəli qətnamələrinə uyğun olaraq Dağlıq Qarabağdan və Azərbaycan Respublikasının digər rayonlarından əhalini olmazın müsibətlərə düçar edən münaqişənin dinc siyasi vasitələrlə aradan qaldırılmasında, ilk növbədə, atəşin və qan tökülməsinin dərhal dayandırılmasında, qəsb edilmiş bütün torpaqlardan işğalçı qüvvələrin tamamilə çıxarılmasına nail olmaqda, habelə hərbi əməliyyatların yenidən başlanmasına yol verməyən möhkəm təlimatların hazırlanmasında sıx əməkdaşlığa hazır olduqlarını qeyd etmişlər.*

*Milli Məclis qeyd edir ki, Rusiya Federasiyası Azərbaycanda məhkəmə hökmlərinin icrasını gözləyən keçmiş Rusiya hərbi qulluqçusunu Rusiya ədalət mühakiməsinin ixtiyarına vermək haqqında qərar qəbul edildiyinə görə Azərbaycan Milli Məclisinə minnətdarlığını bildirmişdir. Hər iki tərəf belə bir yekdil fikir ifadə etmişdir ki, Moskvada keçirilmiş görüşlər və söhbətlər Rusiya və Azərbaycan xalqlarının rifahı naminə qarşılıqlı etimadın və hər iki tərəf üçün faydalı olan əməkdaşlığın bərpası işinə təkan vermişdi.*

*Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əliyevin və nümayəndə heyəti Baş nazirin müavini Abbasovun, xarici işlər naziri Həsənovun məlumatlarını dinləyərək qərara alır:*

*1. Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əliyev başda olmaqla Azərbaycan nümayəndə heyətinin Moskva şəhərində Rusiya Federasiyasının rəhbərləri ilə danışıqları haqqında məlumat nəzərə alınsın, aparılan danışıqların yekunu və əldə edilmiş razılıqlar bəyənilsin.*

*2. Azərbaycan Respublikası Milli Məclisinin Rusiya Federasiyası ilə əlaqədar qrupunun yaradılması zəruri hesab edilsin.*

*3. Müstəqil Dövlətlər Birliyi Parlamentlərarası Məclisinə Azərbaycan Respublikası Milli Məclisinin daxil olması haqqında MDB Parlamentlərarası Məclisinə müraciət edilsin.*

*4. Rusiya, Azərbaycan, Gürcüstan və Ermənistan rəhbərlərinin görüşünün keçirilməsinə dair təklif qəbul edilsin.*

İkincisini oxuyum?

**Sədrlik edən.** Layihə, əsasən, qəbul oluna bilərmi? Bağışlayın, kim, əsasən, qəbul olunmasının tərəfdarıdır? Sonra əlavələr, qeydlər olacaq, indi münasibət bildirilsin.

**Səsvermənin nəticələri:**

| | |
|---|---|
| ***Lehinə*** | ***35*** |
| ***Əleyhinə*** | ***6*** |
| ***Bitərəf*** | ***1*** |

Qəbul edildi.

İndi, əsasən, qəbul olunmuş layihəyə kimin əlavəsi, qeydi var? Arif Rəhimzadə.

**Arif Rəhimzadə.** Birinci maddədə yazılıb ki, fəaliyyət nəzərə alınsın və bəyənilsin. Mən hesab edirəm, bunun biri yetərlidir. Yazılsın ki, bəyənilsin.

**Sədrlik edən.** Məlumat ona görədir ki, ona münasibət bildirilsin. Bəli, qəbul etmək olar. Etiraz etmirsiniz? Yaxşı. Tofiq Qasımov, buyurun.

**Tofiq Qasımov.** Bir halda ki biz Müstəqil Dövlətlər Birliyinə daxil olmaq məsələsini başqa günə keçirdik, mənə elə gəlir ki, həmin birliyin parlamentlərarası assambleyasına aid olan məsələ də gələn dəfə qərar layihəsinə salınmalıdır, yəni üçüncü bənd buradan çıxarılmalıdır.

**Sədrlik edən.** Bilirsiniz, elə də etmək olar. Ancaq o parlament birliyi qətiyyən Müstəqil Dövlətlər Birliyi deyil, Parlament Assambleyasıdır, bu, bir. İkincisi, mən sizə öz fikrimi bildirdim. Biz gərək hər bir parlamentlə əməkdaşlıq edib o parlamentin imkanlarından öz vəziyyətimizi, xarici və daxili siyasətimizi təbliğ etməkdən çəkinməyək. Ona görə də mənə belə gəlir ki, Rusiya ilə Azərbaycan arasında parlamentlərarası müqavilənin bağlanmasının buna ziyanı yoxdur. Orada necədir? Rusiya ilə Azərbaycan arasında parlamentlərarası ittifaq.

**Həsən Həsənov.** Azərbaycan Respublikası Milli Məclisinin Rusiya Federasiyası Ali Soveti ilə əlaqələr qrupunun yaradılması zəruri hesab edilsin. Əlaqələr qrupu işgüzar qrupdur. O biri maddədə isə yazılıb ki, Müstəqil Dövlətlər Birliyi Parlamentlərarası Məclisinə Azərbaycan Respublikası Milli Məclisinin daxil olması haqqında MDB Parlamentlərarası Məclisinə müraciət edilsin.

**Sədrlik edən.** Ola bilər. Etibar bəy, buyurun.

**Etibar Məmmədov.** Heydər müəllim, bilirsiniz, məsələ çox mübahisə doğuracaq, mənim məlumatıma görə qərar layihəsi çap da olunub,

çoxaldılıb da. Çoxaldılsaydı Məclis üzvlərinin əlinin altında olardı, onlar bilərdilər ki, harada nə yazılıb. Şifahi şəkildə olanda çox şeyi yadda saxlamaq olmur. Mən xahiş edirəm o, paylanılsın, ondan sonra müzakirə olunsun.

**Sədrlik edən.** Etibar, axı burada anlaşılmayan nə var?

**Etibar Məmmədov.** Çünki əvvəl dedilər, MDB-nin parlamentlərarası məclisi, sonra dedilər ki, yox, elə deyil.

**Sədrlik edən.** Yox, elə deyil, mən başa düşdüm. Mən belə hesab edirəm ki, biz, sadəcə olaraq, Rusiya ilə əlaqələrimiz haqqında qərar qəbul eləyəndə, yəqin ki, Azərbaycan parlamenti ilə Rusiya parlamenti arasındakı parlament əlaqələri haqqında yaza bilərik. O biri məsələ də əgər düşübsə, mən təklif edirəm ki, çıxaraq. Ancaq Azərbaycan və Rusiya parlamentləri arasında əlaqələrin yaranmasına etiraz yoxdur. Elədirmi? Başqa nə kimi əlavə var? Mirmahmud Fəttayev, buyurun.

**Mirmahmud Fəttayev.** Hörmətli Heydər bəy, qərar layihəsində sadalanan məsələlər var idi, Etibar bəy də bunu qeyd elədi, Tofiq bəyin dediyində də böyük həqiqət var. Əvvəla, Rusiyanın parlamentlərarası assambleyası Azərbaycana müraciət edib. Vaxtı ikən də belə bir müraciət edilmişdi. Həmin parlamentlərarası assambleyada bizim daimi nümayəndə heyətimiz iştirak eləyib, orada təmsil olunmuşuq. Vacibdir ki, həmin məsələ gündəliyə salınsın. Bizi orada təmsil eləyən millət vəkillərinə söz verilsin. Bu məsələ bir az anlaşıqlı olsun. Mən təklif edərdim, bu məsələni gələn dəfəyə saxlayaq. O vaxt da Vaqif Qasımov məlumat verəcək, həmişə nümayəndə heyətinə o, rəhbərlik eləyib və məclisdə iştirak eləyib. Təbii ki, Rusiya Federasiyası ilə Azərbaycan Respublikasının parlamentlərarası əlaqələrinə də laqeyd qalmamalıyıq və buna da öz münasibətimizi bildirməliyik. O məsələnin müzakirə olunandan sonra qərara salınması daha məqsədəuyğundur.

**Sədrlik edən.** Axı burada Etibar Məmmədov da, Tofiq Qasımov da təklif verdilər ki, MDB parlament birliyi oradan çıxarılsın, amma Siz deyirsiniz, Rusiyanın parlamenti ilə artıq əlaqələr də var. Ruslan Xasbulatov şikayətlənirdi ki, bu əlaqələr yoxdur, əgər varsa biz bunu daha da bərkidirik. Onu artıq həll elədik. Başqa nə kimi əlaqələr var? Onda bu əlavələri, bu dəyişiklikləri, ümumən, bu qərarı səsə qoyuram. Xahiş edirəm, münasibət bildirilsin.

***(Səsvermə)***

Qəbul edildi, ümumən. İkinci layihə. Buyurun.

**Həsən Həsənov.** Layihə.

***Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əliyevin Türkiyə Cümhuriyyətinin Baş naziri Tansu Çillərlə Moskvada apardığı danışıqlar haqqında***

***Azərbaycan Respublikası Milli Məclisinin Qərarı***

*Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əliyevin məlumatını dinləyərək qərara alır:*

*Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əliyevin Türkiyə Cümhuriyyətinin Baş naziri Tansu Çillərlə Moskvada apardığı danışıqların yekunları bəyənilsin.*

**Sədrlik edən.** Etiraz yoxdur? Onda xahiş edirəm, münasibət bildirilsin.

***(Səsvermə)***

Qəbul edildi. Üçüncü layihə.

**Həsən Həsənov.** Layihə.

***Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əliyevin Amerika Birləşmiş Ştatları Dövlət Departamentinin geniş səlahiyyətli səfiri cənab Talbotla danışıqları və Amerika Birləşmiş Ştatlarının Prezidenti Bill Klintonun Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əliyevə məktubu haqqında***

***Azərbaycan Respublikası Milli Məclisinin Qərarı***

*Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əliyevin məlumatını dinləyərək qərara alır: Amerika Birləşmiş Ştatları Dövlət Departamentinin geniş səlahiyyətli səfiri cənab Talbotla danışıqlarda Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əliyevin mövqeyi bəyənilsin. ABŞ Prezidenti cənab Bill Klintonun Heydər Əliyevə məktubu nəzərə alınsın.*

**Sədrlik edən.** Ola bilər, bunu bir balaca genişləndirmək olardı ki, mövqeyi bəyənilsin. Mən o layihəyə baxmamışdım. Ola bilər ki, bu da-

nışıqlar səmərəli hesab olunsun. Bu danışıqların Azərbaycanla Amerika Birləşmiş Ştatları arasında münasibətlər üçün faydalı olduğu qeyd edilsin. Mənə belə gəlir ki, bu sözlər lazımdır. Çünki bu, tək bizim mövqeyimiz deyil. Mən sizə geniş məlumat verdim və o məlumatdan siz bildiniz ki, biz orada bütün məsələləri müzakirə etmişdik və məsələlərin əksəriyyətində fikir eyniliyi olmuşdur. Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasındakı münasibətlərin bundan sonra daha da sürətlə inkişaf eləməsinə ikimiz də tərəfdar olmuşduq. Ona görə də bu baxımdan mən o layihəyə baxmamışdım. Mən xahiş edirəm, əgər etiraz yoxdursa, layihəyə o sözlər əlavə edilsin. Etiraz yoxdur? Buyurun, Sabir müəllim.

**Sabir Rüstəmxanlı.** Mənə elə gəlir ki, Klintonun məktubu ilə bağlı hissə bir az genişləndirilməlidir. Çünki o məktubda Azərbaycan hadisələrinə birtərəfli yanaşma var. Qeyd olunmalıdır ki, məktubda Azərbaycan–Ermənistan müharibəsinə birtərəfli münasibət olsa da, hər halda, bu məktubda Azərbaycanın apardığı hərəkata və gedən proseslərə nisbətən demokratik yanaşma hiss olunur. Azərbaycanın daxili mübarizəsinə haradasa meyil hiss olunur. Bu şəkildə sənəddə xırda redaktə işi aparmaq lazımdır.

**Sədrlik edən.** Həsən Həsənova tapşırılsın ki, Sabir Rüstəmxanlının bu fikirləri də orada əks olunsun. Etiraz yoxdur? Xahiş edirəm, layihəyə bu əlavələrlə münasibət bildirilsin. Səsə qoyulur.

***(Səsvermə)***

Qəbul edildi. Həsən Həsənova arayış üçün 2 dəqiqəlik söz verilir, 2 dəqiqə də Abbas Abbasova. Buyurun.

**Həsən Həsənov.** İsgəndər Həmidovun bütün uydurma çıxışlarının əsas qəhrəmanı olmağım məni təəccübləndirmir. Mənə əsl səbəbləri də məlumdur, yəqin ki, bir çox yoldaşlara da. Birinci uydurma, İsgəndər Həmidov deyir ki, mən Dağlıq Qarabağ qurumu cümləsini işlətmişəm. Mən belə bir söz işlətməmişəm, bu, İsgəndər Həmidovun uydurmasıdır. Qoy özü izah eləsin, görək qurum nə deməkdir, nə məna verir? Mən “Dağlıq Qarabağ regionu” sözünü işlətdim. Əgər keçmiş daxili işlər naziri region sözü ilə qurum sözü arasında fərqi bilmirsə, günah onun özündə və ona savad verəndədir. Bir daha qeyd edirəm ki, Dağlıq Qarabağ regionunun mövcudluğunu keçmiş daxili işlər naziri ilk dəfə mənim çıxışımdan eşidibsə, yenə də günah onun özündədir. O ki qaldı Şuşanın taleyinə, bu hamıya məlumdur, mənim tapıntım deyil. Şuşanı

ermənilər zəbt eləyəndə Azərbaycan ordusunun tankları Bakıya çağırılmışdı və İsgəndər Həmidov həmin tankı yəhərləyib hakimiyyətə doğru hücum etmişdi. Onun hücumu nəticəsində qurulan o demokratik dövlət haqqında mən çıxış etmək istəyirdim, amma çox hörmət elədiyim və qarşılarında baş əydiyim Dilarə Orucova və Nadir Ağayevin çıxışlarından sonra mən heç bir söz demək istəmirəm, ancaq onların dedikləri ilə şərik oluram.

**Abbas Abbasov.** Mən dünənki çıxışımda iqtisadi birliklə əlaqədar və Moskvada gördüyümüz işlər haqqında məlumat verdim. Əfsuslar olsun ki, bugünkü çıxışında İsgəndər Həmidov mənim dünənki çıxışımı təhrif etdi. Mən qeyd etmək istəyirəm ki, biz Rusiyada olarkən Milli Məclisin qəbul etdiyi qərar çərçivəsində hərəkət etmişik və Milli Məclisin tapşırığını yerinə yetirmişik.

İkinci məsələ, rubl zonasının yaradılması haqqında. Mən dünənki çıxışımda da bildirdim ki, iqtisadi birliyə həm rubl zonasına daxil olan, həm də daxil olmayan bütün dövlətlər girə bilərlər, iştirak eləyə bilərlər. Əgər mənim dünənki çıxışımda həmin adamlar çaşqınlıq duyublarsa, mən bir daha təkrar edirəm, əgər bu gün də bu məsələyə Azərbaycan Respublikası bildirməsə öz qəti mövqeyini, gələcəkdə iqtisadiyyatımızda yaranmış böhran daha da gərginləşəcək və davam edəcək. Mən dünənki çıxışımda iqtisadi məsələlərlə əlaqədar yeni yaradılan MDB ölkələri nəzdində iqtisadi birliyin, iqtisadi şuranın haqqında söhbət apardım. Yenə də qətiyyətlə təkrar edirəm ki, bu şuraya üzv olmaq lazımdır. Bu şura ilə yaxından işləmək lazımdır. Azərbaycan Müstəqil Dövlətlər Birliyinə də, Kollektiv təhlükəsizlik müqaviləsinə də qol çəkib daxil olmalıdır. Bu bizim yeganə çıxış yolumuzdur.

**Sədrlik edən.** Beləliklə, bizim iclasımız bitdi. Gələn iclasımız ayın 16-da saat 3-də olacaqdır.


1


2



**3**



**4**



5



6



**7**



**8**



9



10



11




**12**



**13**


14


15



16



17



18



19



20



21


22


23



24



25


26


27

## AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN İCLASI

*20 sentyabr 1993-cü il*

*Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri* ***Heydər Əliyev*** *sədrlik edir*

**Sədrlik edən.** Salaməleyküm, hörmətli Məclis üzvləri, deputatlar, qonaqlar, mətbuat nümayəndələri! Milli Məclisin növbəti iclası öz işinə başlayır. Rica edirəm, Məclis üzvləri qeydiyyatdan keçsinlər.

***(Qeydiyyat)***

40 nəfər iştirak edir. Yetərsay var. Məclis öz işinə başlaya bilər.

Xatirinizdədir ki, Milli Məclisin sentyabrın 13-də, 14-də keçirdiyi iclaslarda bir neçə mühüm məsələ, o cümlədən Azərbaycan Respublikasının Müstəqil Dövlətlər Birliyinə münasibəti və bu Birliyə daxil olması haqqında təkliflər müzakirə olundu. Müzakirə çox ətraflı, hərtərəfli keçdi, o vaxt son iclasda xatirinizdədir ki, biz müzakirə olunan məsələlərin hamısı haqqında qərarlar qəbul etdik. Müstəqil Dövlətlər Birliyinə Azərbaycan Respublikasının daxil olması haqqında məsələ barəsində ümumi fikir bu oldu ki, bir daha öyrənilsin. Baxmayaraq sentyabr ayının 13-də keçirdiyimiz müzakirədən sonra ayın 14-də Ali Sovetin komissiyaları bu məsələni komissiya iclaslarında müzakirə etmişdilər və öz rəylərini vermişdilər, bu bizim respublika üçün çox mühüm məsələ olduğuna görə, biz belə razılaşdıq ki, bu məsələnin müzakirəsini yenə də davam edək. Məclis üzvlərinə və respublika ictimaiyyətinə, siyasi partiyalara, elmi idarələrə, bizim hüquqşünaslara, alimlərə imkan verək, bu məsələ ilə geniş məşğul olsunlar, öyrənsinlər. Ona görə də birinci növbədə həm Müstəqil Dövlətlər Birliyinin Nizamnaməsi, Müstəqil Dövlətlər Birliyi tərəfindən vaxtilə imzalanmış Kollektiv təhlükəsizlik haqqında müqavilə və Müstəqil Dövlətlər Birliyinin iqtisadi birliyi haqqında olan sənəd Məclis üzvlərinə paylanıb. Eyni zamanda, ictimaiyyətin bu məsələlərdən ətraflı məlumatlı olması, müzakirə etməsi, həm də dərindən təhlil etməsi üçün həmin sənədlər respublika mətbuatında, Azərbaycan və rus dillərində çıxan qəzetlərdə belə dərc olundu. Buna imkan yaratmaq üçün biz iclasın keçirilməsini bir az təxirə saldıq, bu gün artıq sentyabr ayının 20-dir. Təxirə saldıq ki, bu məsələ hərtərəfli öyrənilsin və biz bunun xeyrini, yaxud

zərərini, müsbət və mənfi tərəflərini hərtərəfli öyrənəndən sonra bu məsələnin müzakirəsini davam edək. Ona görə də bugünkü iclasda – mən gündəlik haqqında deyirəm – təklif edirəm, gündəliyə Azərbaycan Respublikasının Müstəqil Dövlətlər Birliyinə qoşulması haqqında məsələ salınsın.

Bir də qeyd edirəm, baxmayaraq ki bu məsələ bizim keçmiş iclaslarda müzakirə olunub, ancaq mən bu məsələnin bir daha gündəliyə salınmasını təklif edirəm. Əgər etiraz, bu barədə başqa bir fikir yoxdursa, onda rica edirəm, Məclis üzvləri bu məsələnin gündəliyə salınmasına münasibətlərini bildirsinlər.

***(Səsvermə)***

Qəbul edildi.

Xatirinizdədir ki, həmin müzakirə vaxtı biz Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Parlament Assambleyası haqqında da məsələyə toxunduq. Bu məsələ də müəyyən qədər müzakirə olunmuşdu, bu barədə Rusiya parlamentinin sədri Ruslan Xasbulatovun bizim parlamentə məktubu var idi. Ancaq bu məsələ barəsində də o vaxt ümumi fikir belə oldu ki, biz müzakirəni davam etdirək və qərar qəbul etməyək. Baxmayaraq ki ümumi fikir aydın idi, ona görə də bu məsələ bu gün, yəqin, müzakirə olunmalıdır, yəni ola bilər, bu iki məsələ birlikdə müzakirə olunsun, ancaq mən bu məsələnin ayrı bir məsələ kimi gündəliyə salınmasını təklif edirəm. Rica edirəm, Məclis üzvləri münasibət bildirsinlər.

***(Səsvermə)***

Qəbul edildi.

Bir məsələ haqqında da məsləhətləşmək istəyirəm və istəyirəm ki, bu məsələni Məclis necə lazım bilirsə, gündəliyə salaq və müzakirə edək. Biz indi fövqəladə vəziyyət rejimindəyik. Bilirsiniz ki, Azərbaycanda bu vəziyyət hələ aprel ayının əvvəlindən, 1-dən, ya 2-dən tətbiq olunubdur. Sonra isə biz Məclisdə müzakirə edib bunun vaxtını uzatdıq. İndi belə bir fikir meydana çıxır ki, bəlkə, fikir mübadiləsi aparaq, məsləhətləşək, görək fövqəladə vəziyyətin davam olunmasına ehtiyac varmı? Mən təklif edirəm ki, bu məsələ də gündəliyə salınsın, müzakirə edək, görək bu müzakirədən nə çıxır. Əgər etiraz yoxdursa, onda rica edirəm, münasibət bildirilsin.

***(Səsvermə)***

Qəbul edildi.

Bizim hamımız yaxşı bilirik ki, Azərbaycan çoxmillətli respublikadır, Azərbaycan Respublikasında bütün millətlərə mənsub olan adamlar eyni hüquqlu vətəndaşlardır. İndi bizim respublikanın müstəqilliyinin inkişaf etdiyi bir dövrdə millətlərarası münasibətlərin daha da yüksək səviyyədə tənzimlənməsi məsələsi artıq zəruri məsələlərdən biri kimi mövcud olubdur, ona görə də mən belə bir təklif irəli sürürəm ki, məsləhətləşək, əgər məsləhət olsa, bəlkə bu millətlərarası münasibətlər işini aparan, tənzimləyən bir orqan yaradaq. Mən belə bir məsələnin gündəliyə salınmasını təklif edirəm. Xahiş edirəm, münasibət bildirilsin.

***(Səsvermə)***

Qəbul olundu.

Bu məsələ gündəliyə salındı.

Bir də kadr məsələsi. Bilmirəm, bunu gündəliyə salmaq üçün səsə qoymaq lazımdır, yoxsa lazım deyil? Lazımdırsa, buyurun, xahiş edirəm, kadr məsələsinə münasibət bildirilsin.

***(Səsvermə)***

Qəbul edildi.

Gündəliyə başqa əlavələr yoxdur? Yoxdur. Onda gündəlik əsasında işə başlaya bilərik.

Bildirdim ki, bizim son müzakirələrimizdən, yəni sentyabr ayının 13-də, 14-də Milli Məclisin iclaslarında apardığımız müzakirələrdən sonra bu birinci məsələ, yəni Azərbaycan Respublikasının Müstəqil Dövlətlər Birliyinə daxil olub-olmaması haqqında məsələ Azərbaycanda həm elmi idarələrdə, həm əmək kollektivlərində, həm də siyasi partiyalarda müzakirə olunubdur. Ali Sovetə çoxlu məktublar, teleqramlar, ayrı-ayrı müzakirələrin nəticəsi haqqında rəylər, yaxud qətnamələr, müraciətlər gəlibdir. Prezident Aparatına da belə məktublar, müraciətlər, teleqramlar çox gəlib. Güman edirəm, Afiyəddin Cəlilov bu barədə qısaca məlumat versə, pis olmaz. Ondan sonra isə biz Məclis üzvlərinin fikri və çıxışlarına imkan yaradarıq.

Buyurun.

**Afiyəddin Cəlilov, *Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini.*** Hörmətli sədr, hörmətli millət vəkilləri! Qeyd olunduğu kimi, Məclisin ötən iclasında keçirilən müzakirələrdən sonra Müstəqil Dövlətlər Birliyinə qoşulmaq haqqında Müstəqil Dövlətlər Birliyinin Nizamnaməsi, Kollektiv təhlükəsizlik müqaviləsi, Müstəqil Dövlətlər Birliyinin

iştirakçıları olan dövlətlərin iqtisadi əməkdaşlığının əsasları haqqında bəyannamə respublikanın dövri mətbuatı vasitəsilə xalqa çatdırılmışdır. Sədrin qeyd etdiyi kimi, Azərbaycanda əksər əmək kollektivlərində, elm, tədris, səhiyyə ocaqlarında, yaradıcılıq kollektivlərində və əksər əhalinin iştirakı ilə keçirilən müzakirələrlə bağlı Ali Sovetə, Prezident Aparatına çoxlu, daha doğrusu, hər bir müzakirədən rəylər, bəyanatlar, müraciətlər və vətəndaşların, Azərbaycanın görkəmli ziyalılarının, ağsaqqalların, əmək, müharibə veteranlarının rəyləri daxil olmuşdur. Qeyd olunduğu kimi, rəylər Ali Sovetdə, Prezident Aparatında ümumiləşdirilmişdir.

Ümumi məntiq ondan ibarətdir ki, bütün bu müzakirələrdə, müraciətlərdə, bəyanatlarda respublikamızda yaranmış ictimai-siyasi, sosial-iqtisadi, elmi-texniki, ədəbi-mənəvi və hərbi vəziyyət təhlil olunub, reallıqla qiymətləndirilib. Bu müzakirələr bir daha sübut edir ki, respublika əhalisinin, o cümlədən fəhlə sinfinin, kəndlilərin, ziyalıların böyük əksəriyyəti birbaşa məsul olduqları sahənin problemlərindən daha çox milli dövlətimizin və xalqımızın taleyini, mənafeyini, marağını nəzərə alaraq, Azərbaycanın Müstəqil Dövlətlər Birliyinə daxil olmasına, Kollektiv təhlükəsizlik müqaviləsinə qoşulmasına tərəfdar çıxırlar. Bu qədər.

**Sədrlik edən.** Mənə belə gəlir ki, bu müraciətlər, təkliflər haqqında geniş izahat verməyə ehtiyac yoxdur, çünki onlar hamısı təxminən eyni xarakter daşıyır, ümumi yekunu isə Afiyəddin Cəlilov bildirdi. Məclis üzvləri artıq çıxışa yazılıblar. Buyursunlar, çıxış etsinlər.

**Şadman Hüseynov.** Buyurun, Şadman.

**Şadman Hüseynov.** Heydər müəllim, mən indi çıxış eləmək fikrində deyiləm. Ancaq bu Nizamnamədə və Kollektiv təhlükəsizlik haqqında Sazişdə çoxlu maddələr var. Yaxşı olar ki, müdafiə naziri çıxıb həmin maddələri şərh eləsin, biz də sonra münasibətimizi bildirək.

**Sədrlik edən.** Hansı maddələr Sizin üçün aydın deyil? Siz bilirsiniz ki, keçən dəfə bu sənədlər bizdə Azərbaycan dilində yox idi və biz dövlət katibindən xahiş elədik, o bu işlərlə məşğul olmuşdu, onlar rus dilində idi və bu maddələr oxundu da, şərh olundu da və o barədə fikir də söyləndi. Hətta Siz sual da verdiniz, suala cavab da verildi. İndi təzədən müdafiə nazirinin durub maddələri şərh etməsinə ehtiyac yoxdur, çünki bütün bu müqavilələr dərc olunub və bu müqavilələrin mətni Məclis üzvlərinə paylanıb. Kimin hansı maddəyə hansı sualı var, hansı şey aydın deyilsə, o barədə müdafiə naziri də, burada olan başqa şəxslər də cavab verə bilərlər. Ancaq mənə belə gəlir ki, indi müdafiə nazirinin durub bu

maddələri şərh etməsinə ehtiyac yoxdur, çünki Məclis üzvlərinin hər biri bu müqavilələri, bu sənədləri oxuyub, maddələrə öz fikirlərini bildirmək imkanındadırlar.

**Şadman Hüseynov.** Heydər müəllim, aydındır, ancaq bir məsələ var, bizdə olan sualları biz həmin müdafiə nazirinə verməliyik ki, ondan cavab alaq. Hökumətin üzvü kimi biz onun da münasibətini bilməliyik ki, o necə reaksiya verir.

**Sədrlik edən.** Onun fikrini bilmək istəyirsinizsə, o barədə söz verə bilərəm. Ancaq o durub hansı maddələrisə şərh etsin, buna ehtiyac yoxdur. Əgər ümumi müzakirə üçün bizim müdafiə nazirinin, yaxud nazirin şəxsən yox, Müdafiə Nazirliyinin fikrini burada bildirmək lazımdırsa – Müdafiə Nazirliyi bu məsələni müzakirə edibdir və bu barədə xüsusi müraciət qəbul edibdir – o müraciət Ali Sovetə təqdim olunub. Bilmirəm, müdafiə nazirində indi o müraciət varmı, yoxsa yox? Yoxdursa, o müraciəti də tapıb vermək olar ki, müraciəti oxusunlar.

Əgər ehtiyac varsa, buyurun. Müdafiə naziri Məmmədov, buyurun.

Sizin orada qəbul etdiyiniz müraciət yanınızdadırmı? Gətirməmisiniz?

**Məmmədrəfi Məmmədov, *Azərbaycan Respublikasının müdafiə naziri.*** İcazə verin, rus dilində.

**Sədrlik edən.** Rus dilində. Bəli. Buyurun.

**Məmmədrəfi Məmmədov.** *(Rus dilində danışır.)* ...

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Bəli. Buyurun.

**Rauf İsmayılov.** Hörmətli general, mən istəyirəm bir şeyi bilim, bir hərbçi kimi mənə cavab verəsiniz ki, biz MDB-yə girsək nəyi qazanırıq, girməsək nəyi itiririk? Bax bunu, xahiş edirəm, mənə izah edin.

**Məmmədrəfi Məmmədov.** Bağışlayın, birdən Azərbaycan dilində yaxşı başa sala bilməsəm, rusca deyim. *(Rus dilində danışır.)* ...

**Sədrlik edən.** Əyləşə bilərsiniz.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Yenə sual. Buyurun.

**Rauf İsmayılov.** Siz bilirsiniz ki, Qraçov televiziya çıxışında dedi, demək, Rusiya ermənilərlə ikitərəfli müqavilə bağlayıb. Müqavilələri var, yəni lazım olan vaxt istənilən müddətdə bunlar onlara kömək eləməyə

hazırdırlar. Biz MDB-yə girəndən sonra Qraçov ermənilərlə müqaviləni pozub, ona münasibətlərini tam dəyişəcək, yoxsa elə həmin münasibət qalacaq?

**Sədrlik edən.** Daha sual yoxdur?

Əyləşə bilərsiniz.

İbrahim bəy, buyurun.

**İbrahim İbrahimov.** Hörmətli general, burada dəfələrlə səsləndi ki, guya Azərbaycan bloklara qoşulmamaqla özünü təcrid eləyir. Siz hərbçisiniz, professionalsınız və gözəl bilirsiniz, dünyanın elə dövlətləri var ki, onlar heç bir bloka qoşulmurlar. Yəni tez-tez burada təkrarlanan ki biz özümüzü təcrid edirik və heç bir bloka qoşulmamaqla guya vəziyyətimizi ağırlaşdırırıq, amma Siz də gözəl bilirsiniz, dünyanın dövlətləri var, heç bir bloka qoşulmamaq prinsipini qəbul eləyiblər.

Mən Sizə belə bir sual vermək istəyirəm. Sizin məntiqinizdən belə çıxır ki, əgər biz MDB-yə daxil olmasaq, bizə kömək eləməyəcəklər, amma MDB-yə daxil olsaq, guya ruslar, yəni Rusiya, MDB dövlətləri bizə kömək edəcək. Bu dediyiniz məntiqdən belə çıxmırmı, Ermənistan, erməni qüvvələri tərəfindən çıxış eləyən və onlara köməklik göstərən rus qoşunlarının onların tərəfindən vuruşması, bizim torpaqların 20 faizinin işğal olunması birbaşa hərbi təzyiq forması olub ki, biz MDB-yə daxil olaq. Sizin məntiqinizə görə belə çıxmır?

**Məmmədrəfi Məmmədov.** Xeyr. Hörmətli İbrahimov, Siz düz demirsiniz. Xahiş edirəm, hamımız xəritəyə baxaq, belə bir ölkə var, Sinqapur. Ona o qədər təzyiq olunub, o qədər millətə, camaata qulaq asmayıblar ki, axırda ölkəsi də Sinqapur olub, mərkəzi də Sinqapur olub, ölkədə bir şəhər qalıb, həm ölkənin, həm də şəhərin adını qoyublar. İndi Siz deyirsiniz ki, biz guya bu gün MDB-yə girən kimi kömək edəcəklər. Bizi ora heç kəs dəvət də eləmir, biz özümüz istəyirik, ora girək.

**İbrahim İbrahimov.** Mən sualımı bu cür qoydum, Siz izah edirdiniz, guya Qraçov göstərib ki, Azərbaycan MDB-nin tərkibinə daxil olsa, onda rus qoşunları və erməni qoşunları bizim torpaqları işğal eləməyəcək. Əgər Siz bunu qəbul edirsinizsə, rus qoşunları erməni qoşunları ilə birlikdə Azərbaycanın 20 faiz torpağını işğal eləyib, mən Sizə sual verirəm, bu bizim MDB-yə daxil olmağımız MDB tərəfindən hərbi təzyiq deyilmi ki?

**Məmmədrəfi Məmmədov.** Xeyr, Azərbaycan torpağında rus qoşunları yoxdur. Ola bilsin, başqa cür kömək̈ləri var. Amma söhbət bundadır

ki, bu, təkcə Qraçovdan asılı deyil, bu, siyasi söhbətdir. Dövlət xadimləri söhbət eləyirlər bu barədə. Qraçov kimdir axı, Qraçov müdafiə naziridir. Əgər parlament, yaxud Prezident əmr verirsə, Qraçov heç nə eləyə bilməyəcək. Ona görə də biz deyirik ki, onlara kömək eləməsinlər. Bizə kömək lazım deyil, ermənilərə kömək eləməsinlər. Hərbi təzyiq yoxdur burada. Biz özümüz gərək onlara yalvaraq, bunu başa düşmək lazımdır. Bu gün o lazımdır. Sabah gec olar. Mən iki il bundan qabaq onu demişdim. Televiziyada da çıxış eləmişdim. Sabah gec olacaq.

**Sədrlik edən.** Yaxşı, əyləşin. Siz xatırlayırsınız ki, biz bu məsələni sentyabrın 13-14-də müzakirə eləyəndə ümumən söhbət gedirdi – həm Müstəqil Dövlətlər Birliyinə daxil olmaq məsələsindən, o cümlədən məsələn, dövlətlər var ki, Müstəqil Dövlətlər Birliyinə daxildir, ancaq Kollektiv təhlükəsizlik müqaviləsinə imza atmayıblar, orada iştirak etmirlər. Ona görə də bu məsələləri qarışdırmaq lazım deyil. Əsas prinsipial məsələ Müstəqil Dövlətlər Birliyinə daxil olub-olmamaq məsələsidir, bunun tərkib hissəsi olaraq Müstəqil Dövlətlər Birliyi çərçivəsində kollektiv, ortaq təhlükəsizlik müqaviləsi var, ona Azərbaycan qoşulur, ya qoşulmur, bir də ki, indi Müstəqil Dövlətlər Birliyinin iqtisadi müqaviləsi hazırlanıb, buna qoşulur, ya qoşulmur. Ona görə də müdafiə nazirini bura dartıb sual-cavab etməklə məsələni qarışdırmaq lazım deyil. Ona görə də məsələyə ümumi münasibət bildirmək lazımdır. Şübhəsiz ki, məsələnin hissələri var, hansı hissəsi kimi qane edir, kimi qane etmir, hansı hissəsini qəbul etmək olar, yaxud qəbul etmək olmaz, məsələ bundan ibarətdir. Məclis üzvləri çıxışa yazılıblar. Mən Şirin Hacıkərimova söz verirəm. Buyurun.

**Şirin Hacıkərimov.** Hörmətli sədr, hörmətli millət vəkilləri, mətbuat işçiləri. Keçən iclasımızda Heydər müəllimin dediyi kimi, bizim komissiyanın 3 nəfər üzvünün müəyyən fikir ayrılığı ilə bir rəyə gəlmədiyinə görə mən istərdim ki, burada öz həmkarlarımın fikirlərinə müdaxilə etmədən öz fikrimi Məclis üzvlərinə çatdırım.

İlk gündən bu zalda, yəqin ki, bir-birimizi tanımışıq, bir-birimizdən çox şeylər öyrənmişik və ümumiyyətlə, parlament təcrübəsində bir-birimizə çox böyük ehtiyacımız olub. Azərbaycan xalqının son 5 ildə hələ MDB yaranmamışdan qabaq, SSRİ dövründə və MDB-nin yarandığı dövrdə özümüzün apardığımız işlərdə başımız nələr çəkib hamısını bilirik. Mən – sərhəd rayonunda ən ucqar bir kənddə doğulmuş insan, bəlkə də, vətənim ora olduğuna görə tez-tez gedib-gəlirəm, bəlkə də, özüm hərbçi olduğuma görə hərbçilərlə tez-tez ünsiyyətdə oluram və ümu-

miyyətlə, seçicilərimizlə görüşdə və hamımızın birgə xalq arasında apardığımız işdə xalqın da rəyini, fikrini eşidirik. Bəzən biz MDB-yə girmək məsələsini elə böyük faciələrlə, elə böyük problemlərlə eyniləşdiririk, elə başa düşürük ki, biz böyük bir quyuya atılmışıq və çıxmağa da imkanımız yoxdur.

Keçən Məclisimizin iclasında Lalə xanım bəzi müddəaları şərh etdi və ümumiyyətlə, yaxşı oldu ki, mətbuatda Azərbaycan xalqına bu nizamnamənin mətni çatdırıldı. Bizimlə bərabər, bəlkə biz diqqətsiz, amma onlar diqqətli oxuduğuna görə bu müddəaların hər biri xalqa aydındır. Bizim xalq elçiləri, parlamentin üzvü kimi bu MDB ölkələrinə, bu birliyə daxil olmaq məsələsi qarşımızda durur. Hər kəsin öz subyektiv fikrini, yaxud müəyyən cəhətlərə öz aydın fikrini deməyə ixtiyarı var.

Bizim komissiya – Dövlət quruculuğu və hüquq siyasəti komissiyası, bildiyiniz kimi, Milli Məclisin ən böyük, ən məsul komissiyalarından biridir. 7 nəfər üzvü olduğuna baxmayaraq, 6 nəfərimizdən keçən iclasımızda 3 nəfəri MDB dövlətlərinə daxil olmaq fikrinin əksinə, iki nəfər isə lehinə oldu, bir nəfər xəstə olduğuna görə iştirak etmədi. Komissiya ümumi rəyə gəlmədiyinə görə hər bir komissiya üzvünün o komissiyanın birlikdə verdiyi rəyin hansı səbəbdən, necə olmağından asılı olmayaraq, bu gün sizinlə bir yerdə onu müzakirə eləyib öz fikrini deməyə ixtiyarı var. Əgər bizim respublikanın beş illik bir dövrdə 250 mindən çox qaçqın ordusunu qəbul etdiyini, bir milyona yaxınlaşan köçkünü olan bir respublika, on mindən çox şəhidimizi, nə qədər də girov düşüb və əsir düşənlərimizi, ümumiyyətlə, respublikamızda olan genofondumuza qarşı yönəldilmiş çətinlikləri bir daha dərindən düşünəsi olsaq, mən onu başa düşürəm ki, bu zalda oturan deputatların heç birinin əks fikir deməyə haqqı çatmır. Bir məsələ var, hər fikri deyərkən, başqa bir yolu göstərən və o yolla xalqı bəladan çıxarmaqdan ötrü lazım olan fikri irəli sürənləri hələ görməmişəm. Bir şeyə pis deməkdənsə əvvəlcə yaxşını bilmək lazımdır, sonra pis deyək.

Mən elə başa düşürəm ki, burada açıqlamaq lazım deyil, amma xalqın alimindən, həkimindən, qocasından tutmuş 5 manat, 10 manatına kimi pul yığıb dəfələrlə silah-sursat almaları göz qabağımızdadır. Amma tələsik olaraq Pirəküşküldə iki nəfəri yollayıb şəhid eləyərək iki BTR götürməklə, yaxud Gürcüstana gedib 5 avtomat götürüb iki nəfəri o dünyaya yollamaqla biz öz əlimizdə sərvətimiz olan MDB dövlətlərindən bizə çatan silah-sursata da sahib ola bilmədik, nəyin hesabına? Bəzi səbirsizliklərimizin, təcrübəsizliklərimizin üzündən belə gəldi.

İndi bir ilə yaxındır biz Müstəqil Dövlətlər Birliyinə daxil olmadan yaşayırıq. Bəli, yaşayırıq, genofondumuzun qırğınının hesabına yaşayırıq. Kəndlərin dağılmasının hesabına yaşayırıq, rayonlarımızın dalbadal getməsinin hesabına yaşayırıq. Əgər bununla biz Azərbaycan xalqının taleyini, üzr istəyirəm, qumara qoymaq istəyiriksə də, hər kəs taleyi haqqında düşünsün. Xalqın gələcəyi haqqında düşünən insanlar müdrikliyi, səbri bir daha da yadlarına salmalıdırlar.

Heydər müəllim, mən və həmkarım Fərrux Zeynalov MDB-yə daxil olmaq fikrini bu gün yox, hələ fevral ayının 19-da gizli iclasımızda sabiq Prezidentimiz Elçibəyə yazılı surətdə verib və ondan bu fikir haqqında fikrini tələb etmişdik. Efirə getmədiyinə baxmayaraq, yəqin ki, bu gün o fikirləşir, həmin kağız da, bəlkə də, onun hardasa seyfində, yaxud özündədir. Biz böyük bir dövlətlə, superdövlətlə qonşuluq ediriksə, onlarla iqtisadi əlaqələrə gedirik, başqa məsələlərdən kənar çəkilməyə, birinci növbədə, sivil dövlətdə olan bir millət kimi haqqımız yoxdur. Əgər Qazaxıstanın sahəsini və onun iqtisadi yüksəkliyini, başqa dövlətləri də nəzərə alsaq, onlar birinci növbədə bura getməklə nə bizdən zəkalı, nə də bizdən zəkasız millət deyillər.

Mən müdafiə məsələləri üzrə deputat qrupunun sədri, Dövlət quruculuğu və hüquq siyasəti komissiyasının sədr müavini, adi bir xalq deputatı, el-obası, kəndi dağılmış bir vətəndaş kimi tək özüm yox, burada oturan millət vəkillərindən xahiş edərdim ki, 5 yaşında Füzulidən gəlib başqa rayonda sığınacaq tapmış Mahmudun, dünən ana bətnindən çıxmamış mərmidən qolu qırılmış, amma Allah köməkliyi ilə sağ qalan, Qazaxda doğulmuş balaca körpənin, rayona gələcək 20 rayonumuzda yerləşən qaçqınlarımızın, köçkünlərimizin gözlərinin yola baxmasını nəzərə alaraq, müdrik olaq. Əgər bizim təhlükəsizliyimizi təmin edəcək başqa bir dövlətlə əlaqəmiz yoxdursa, onlarla iqtisadi əlaqələr qurmuruqsa, Azərbaycan xalqını bəladan qurtarmaq olmaz. Bu nizamnamədə bütün fikirlər verilib, 43-cü maddədə də yazılıb bütün o bəndlərdə, 3-cü, 4-cü, 7-ci, 29-cu, 30-cu, 33-cü maddələrdə və fikriniz varsa, hörmətli millət vəkillərindən xahiş edərdim, burada onu yazılı surətdə müzakirə etsinlər, öz fikirlərini aydınlaşdırıb desinlər. MDB-yə daxil olmaq üçün hamılıqca, bir-birinin təsiri altında yox, müdrikliklə, düşünməklə, xalqın taleyini başa düşərək ona qarışmağı tövsiyə edirəm.

Mənim çox acığım gəldiyi yox, bir az etiraz etdiyim öz komissiyamın sədridir. Çünki xarici işlər naziri ola-ola birinci növbədə özü bilirdi ki, bütün dövlətlərə gedərkən bizə hansı dövlətlər müəyyən kömək əli-

ni uzatmışdılar. Söz verən çoxdur, amma kömək edən yoxdur. Münasib vaxtda mən elə başa düşürəm, onun özü də öz seçiciləri, öz rayonunda bu saat qırğın altında olan adamların adından daha dərin düşünməlidir və öz fikrində müəyyən dəyişiklik etməlidir. Mənim sözüm bu qədər.

**Sədrlik edən.** Samur Novruzov.

**Samur Novruzov.** Hörmətli sədr, hörmətli millət vəkilləri, bir neçə gün bundan qabaq mən Məclisdə iştirak eləmirdim. Həmin gün də məni, hörmətli sədr, Sizin təklifinizlə Milli Məclisin üzvü seçiblər. Bununla əlaqədar mən Sizə və bütün Milli Məclisin üzvlərinə öz minnətdarlığımı bildirmək istəyirəm və söz verirəm ki, gələcəkdə Milli Məclisin yığıncaqlarında iştirak edəcəyəm və öz biliyim səviyyəsində əlimdən gələni əsirgəməyəcəyəm.

Son bir ay, ay yarım ərzində mən respublikanın bir sıra regionlarında, bilavasitə Qazax, Ağstafa, Tovuz, Şəmkir, Gəncə, Xanlar, Gədəbəy və sair rayonlarda olmuşam. Bu rayonlarda kəndlilərlə, sovxoz fəhlələri ilə, ziyalılarla, müxtəlif partiyaların rəhbərləri və üzvləri ilə görüşmüşəm. Bununla bərabər, Akademiyanın əksər institutlarında söhbətlərim olub. Ali məktəblərdə olmuşam və bizim bu gün Məclisin müzakirəsinə qoyduğumuz məsələlər haqqında da fikirlər eşitmişəm, söhbətlər aparmışam. Mən cəsarətlə deyə bilərəm ki, ictimaiyyətin ən azı – hər halda mən görüşdüklərimi deyirəm – 97-98 faizi bu qərarlara imza atmağın tərəfdarıdır.

Siz keçən dəfə buyurdunuz ki, bu qərarlar müzakirə edilərkən Xalq Cəbhəsi haqqında da öz fikrimizi deyəcəyik. Mən sizin diqqətinizi 1946-cı ilə, tarixə yönəltmək, İngiltərənin Baş naziri Çörçilin çıxışlarından bir neçə fikri sizə demək istəyirəm. O, 1946-cı ildə amerikalı jurnalist Luiza Anna Stronqla söhbətində demişdi ki, SSRİ müharibədən daha güclü bir ölkə kimi çıxdı, sosialist lageri, kommunizm ideyaları geniş yayılır, daha SSRİ-ni zor gücü ilə almaq qeyri-mümkündür, ona görə də çalışmaq lazımdır ki, SSRİ-ni daxildən partladaq. Jurnalistin daxildən partlatmaq nə deməkdir, hansı üsullarla sualına, o, bir neçə fikir söyləmiş, əsasən də onu demişdi ki, SSRİ-də yüzlərlə xalq var, bu xalqları, ilk növbədə, mərkəzə, yəni Moskvanın əleyhinə, digər tərəfdən isə bir-birinə qarşı qaldırmaq lazımdır. Çalışmaq lazımdır ki, SSRİ-dəki kommunizm cəmiyyətinə xas olan iqtisadi qanunlar ləğv olunsun. O yerdə ki kapitalizmin iqtisadi qanunları cərəyan eləyir, o yerdə bu qanunlar kommunizm ideyalarının əksidir. Xüsusiyyətçilik olan bir ölkədə kommunizm ideyaları tədricən yoxa çıxacaq.

Mən təxminən 1982-ci ildə Amerikanın Yel Universitetinin məlumatı haqqında da fikirlərimi demək istəyirəm, ona görə ki o məlumat da, o rəqəmlər də bugünkü günlə səsləşir. Bildiyiniz kimi, son illər mətbuatda deyilirdi ki, Sovet Sosialist Respublikaları İttifaqı dünyada yaşayış səviyyəsinə görə təxminən 40-cı yerdədir. Yel Universiteti 1982–1983-cü illərin əvvəllərində dərin təhlil apararaq bu qərara gəlib ki, SSRİ həyat səviyyəsinə görə 40-cı yerdə yox, təxminən 18-ci yerdədir. Bunu onlar nə ilə izah edirdilər. Yel Universiteti belə təklif eləyir ki, SSRİ-də Sovet İttifaqı Kommunist Partiyasının respublika, şəhər və rayon partiya təşkilatlarının, həmçinin Nazirlər Sovetinin, Ali Sovetin, prokurorluq, məhkəmə, milis işçilərinin, bir sıra böyük nazirliklərin, o cümlədən müxtəlif zavod və fabriklərin, ət, süd kombinatlarının, müxtəlif sovxoz və kolxozların gəlirinin bir qismi qeyri-rəsmi olaraq müxtəlif yollarla əhalinin cibinə axıdılır. Bunu da təxminən minimum hesablayıblar, bununla belə, bir qərara gəliblər ki, SSRİ-də hər bir ailəyə aldığı məvacibdən başqa, qıraqdan ən azı o qədər də qeyri-qanuni pul gəlir. Hələ mən səhiyyə, tədris və sair ictimai fondlar haqqında geniş söhbət aparmıram, ona görə ki vaxtımız azdır. Bununla mən nə demək istəyirəm, Yel Universiteti bu nəticəyə gəlir ki, 1993-cü ilədək Sovet İttifaqı dağılmasa, SSRİ-də bir sıra sahələrə daha ciddi fikir verilsə, yəni kommunist və fəhlə partiyalarına, inkişaf etmiş ölkələrə kömək edilməsə, hərbiyə xərc təxminən 50 faiz az olsa, SSRİ-də nizam-intizam təxminən 1960-cı ilin səviyyəsinə düşsə, oğurluğun kökü kəsilsə, SSRİ pasportunda millət söhbəti olmasa və milliyyətindən asılı olmayaraq, SSRİ vətəndaşıdır yazılsa, SSRİ 1993-cü ilədək dünyanın 12 ən inkişaf etmiş ölkəsinin, əsrimizin axırınadək isə 8 ölkənin sırasına daxil ola bilər.

Bu halda da siz Çörçilin dediyini yadınıza salın, o da deyirdi, kommunizm ideyaları daha da inkişaf eləyəcək və kapitalizm ideyalarına tam üstün gələ biləcək. Bunun üçün də SSRİ-nin dağılması, kommunizm ideyasının aradan qaldırılması prosesinə son qoymağa çalışmaq lazımdır.

**Sədrlik edən.** Samur, sənin tarixi arayışların, şübhəsiz, dəyərlidir, ancaq vaxtımız o qədər çox deyil ki, bu qədər şeylərə qulaq asaq. Axı məqsədə çatmaq üçün bu qədər vaxt itirmək olmaz.

**Samur Novruzov.** Bunları deməkdə məqsədim ondan ibarətdir ki, Xalq Cəbhəsinin nümayəndələri belə ərz eləyirlər, əgər onlar olmasaydı, Azərbaycanda müstəqil respublika yaratmaq qeyri-mümkün idi. Ona görə mən deyirəm ki, SSRİ-nin dağılması zərurət idi, Siz dediyiniz kimi, Azərbaycana və müstəqil respublikalara verilən bir bəxşiş idi və Xalq

Cəbhəsi olsa da, olmasa da, Azərbaycan bu müstəqilliyi əldə edəcəkdi. Mən öz fikrimi təsdiq eləmək üçün bir an Türkmənistana, Özbəkistana, Qazaxıstana və digər respublikalara diqqət yetirməyinizi xahiş edirəm. O respublikalarda heç bir cəbhənin rolu olmayıb, dövlət strukturları, demək olar ki, dəyişməyib, lakin bu respublikalar da müstəqilliyə gəlib çıxıblar.

İndi Xalq Cəbhəsi müstəqillik haqqında danışanda, mənə elə gəlir ki, lazım olmayan yollarla gedib. Bu yollar bizi 1990-cı il yanvar hadisələrinə, Xocalı, Laçın, Kəlbəcər və digər rayonların verilməsinə gətirib çıxarıb. Bu yollar vertolyotun vurulmasına, 1992-ci il oktyabrın 23-də Naxçıvanda dövlət çevrilişinə, jurnalistlərin, deputatların döyülməsinə, təhqir edilməsinə, Murtuz Ələsgərovu vəhşicəsinə öldürmək cəhdinə, Gəncə hadisələri, kadrların dağıdılmasına və sair, Azərbaycanı siyasi, iqtisadi, mənəvi, mədəni böhrana gətirib çıxarıb.

İndi gəlin fikirləşək, görək gələcəkdə də biz bu adamların fikri ilə ayaqlaşıb, Müstəqil Dövlətlər Birliyinə daxil olmasaq, nə olacaq, hamımız deyirik ki, daxil olaq, ya olmayaq? Gəlin bir suala, daxil olmasaq nə olacaq sualına cavab verək. Mən, məsələn, bu suala belə cavab verərəm, bir milyon qaçqının, təhqir olunmuş bacılarımızın, qızlarımızın, oğullarımızın və sair sayı daha da artacaq, torpaqlar əldən gedəcək. Buna görə də mən şübhə etmirəm ki, biz bu gün müzakirə etdiyimiz bütün qanunları təsdiq eləməliyik, bütün qanunlara imza atmalıyıq. Onu da deyim, guya biz müstəqil deyildik, SSRİ-ni hərtərəfli tənqid edirik, ancaq bir şeyi yaddan çıxarmaq lazım deyil ki, 70 illik SSRİ dövründə Azərbaycan Şərq aləmində böyük və ən mədəni ölkələrin biri olub, buna sübut Azərbaycanın Elmlər Akademiyası, teatrları, muzeyləri, kitabxanalarıdır. 1920-ci illərdə Azərbaycanda 4 faiz savadlı adam olub, Ermənistanda 26, Gürcüstanda 28 faiz. İndi Azərbaycanda, demək olar ki, savadsız adamların sayı azdır. Mən bununla demək istəyirəm ki, biz keçmişin bütün nailiyyətlərinə, demək olar, xaç qoyuruq, onu inkar eləyirik, bunu eləmək də olmaz.

Mən keçmiş haqqında söhbət elədim və bizim nailiyyətlərimizi göstərmək istədim, ona görə ki şübhə etmirəm, indi Müstəqil Dövlətlər Birliyi, bu birlik SSRİ kimi ölkə deyil, bu, könüllü azadlığa çıxmış ölkələrin könüllü birliyidir. Ona görə də bu birliyin, mənim nöqteyi-nəzərimdən, gələcəyi Azərbaycan xalqı üçün yaxşı olar, bu birliyin Nizamnaməsində və digər sənədlərində qeyd olunmuş o bəndlər var, biz onlara riayət eləsək, mənim fikrimcə, Azərbaycanın zəbt olunmuş torpaqları geri qayıda

bilər. Məhz buna görə də hörmətli Milli Məclisin üzvləri, mən sizin hamınızdan rica edirəm ki, biz bu sənədlərə bu gün "hə" sözümüzü deyək.

Heydər müəllim, o ki qaldı son vaxtlar qəzetlərdə bizim respublikanın rəhbərlərinin bir qismi haqqında təhqiredici sözlər gedib, mən demək istəyirəm, siz bildiyiniz kimi, dünyanın ən görkəmli fəlsəfəçilərindən və məntiq elminin banilərindən biri olan Sokratı bir qrup alverçi və dənizdə işləyən sıravi adamlar qeyri-düzgün görüşlərinə görə, demək, ölüm cəzasına məhkum etmişdilər. Ona görə də mən bütün respublikamızın o təhqir olunan rəhbərlərini optimist olmağa çağırıram və inanıram ki, xalq sizin ardınızca gedir, sizə də gələcəkdə müvəffəqiyyətlər və can sağlığı arzu eləyirəm. Mən fikrimi izah elədim, diqqətinizə görə minnətdaram. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun.

Ancaq natiqlərdən rica eləyirəm, reqlament var, 10 dəqiqədən artıq olmasın. Əgər biz əlavə məlumatlara uysaq, vaxtımız çox gedəcək. Bizim işimiz çoxdur. Siz, yəqin, bilirsiniz ki, mətbuatda məlumat var, Parlamentlərarası Assambleyanın nümayəndələri Bakıya gəliblər. Onların başçısı Qırğızıstan Ali Sovetinin sədri və orada başqa bir neçə respublikadan nümayəndələr, parlament üzvləri var, biz onlarla görüşmüşük, onlar gediblər Yerevanda olublar, dünən gecə bir daha görüşmüşük. Bu gün səhər onları yola saldıq, bizim qaçqınlar olan yerlərdə, Beyləqanda, Bərdədə olsunlar, artıq bizə xəbər verdilər ki, Bərdədən Ağdama getmək üzrədirlər. Oradan isə Dağlıq Qarabağa keçməlidirlər.

Axşam bura qayıtmalıdırlar, biz onlarla görüşməliyik. Yəni demək istəyirəm, bir bu deyil, bizim işimiz olduqca çoxdur, vəziyyət gərgindir, ona görə çıxışlar da yığcam olmalıdır, məzmunlu olmalıdır, artıq sözlərə, mənə elə gəlir ki, yol vermək lazım deyil.

Qüdrət Quliyev, buyurun.

**Qüdrət Quliyev.** Hörmətli sədr, hörmətli Milli Məclis üzvləri, hörmətli qonaqlar. Milli Məclisin bugünkü iclasında müzakirə edilən məsələlər, sözün geniş mənasında, Azərbaycan dövləti, Azərbaycan xalqı üçün taleyüklü məsələlərdir. Mən güman edirəm ki, bizim Milli Məclisin bu məsələlərə düzgün münasibətindən yeni müstəqil Azərbaycanın gələcək perspektivləri köklü surətdə asılı olacaq.

Ali Sovetin sədri, Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən hörmətli Heydər Əliyevin Rusiya Federasiyasına səfərinin yekunları, Türkiyə Cümhuriyyətinin Baş naziri Tansu Çillərlə,

xarici işlər naziri Hikmət Çətinlə apardığı danışıqlar geniş xalq kütlələri tərəfindən rəğbətlə qarşılanmışdır. Rusiya Azərbaycanın böyük şimal qonşusudur və bu iki dövləti dünya xəritəsindən qayçılayıb qoparmaq mümkün olmadığı kimi, onlar arasındakı qarşılıqlı münasibətləri də həyat səhnəsindən silmək qeyri-mümkündür. Azərbaycanı uzun əsrlərdən bəri Rusiya ilə tarixi, siyasi, iqtisadi, mədəni və mənəvi münasibətlər bir-birinə bağlayıb. İndi Azərbaycan Respublikası öz müstəqilliyini əldə etdikdən sonra bu münasibətlərin üstündən xətt çəkmək yalnız siyasi səbatsızlıq olardı. Ondan başqa, Rusiya dünya meydanında fövqəldövlət olmaqdadır və Azərbaycanın bir müstəqil dövlət kimi xarici siyasətində Rusiya ilə reallıqları, gerçəkliyi düzgün qiymətləndirməsi, onunla düzgün münasibətlər qurması böyük geosiyasi əhəmiyyətə malikdir. Bu səbəbdən cənab Heydər Əliyev başda olmaqla, Azərbaycan nümayəndə heyətinin Rusiyada apardığı danışıqlar bir daha sübut etdi ki, Azərbaycan rəhbərliyi konstruktiv və məqsədyönlü mövqedədir. Rusiya Federasiyası ilə böyük münasibətlər, indən belə mehriban qonşuluq, bir-birinin işinə qarışmamaq, sərhədlərin toxunulmazlığı, insan hüquqlarına hörmət və demokratiya prinsipləri Azərbaycan Respublikasının xarici siyasətinin ayrılmaz tərkib hissəsinin ön xəttini təşkil edəcəkdir.

Eyni sözləri Türkiyə Cümhuriyyəti ilə əlaqədar da söyləmək olardı. Azərbaycan Respublikasının Milli Məclisi Rusiya Federasiyası və onun rəhbərliyi ilə, Türkiyə Cümhuriyyətinin Baş naziri ilə cənab Heydər Əliyevin danışıqlarının yekunları barədə müvafiq qərarlar qəbul etmişdir, məncə, bu danışıqların məntiqi davamı məhz bu gün bizim müzakirə etdiyimiz MDB-yə daxil olmaq haqqında məsələdir.

Müstəqil Dövlətlər Birliyinə münasibətə gəldikdə, təəssüf ki, son illər burada da biz xarici siyasətimizdə əyalətçilikdən, bəsit və əsassız stereotiplərdən azad ola bilməmişik. MDB-yə münasibətlərə “imperiya boyunduruğu” kimi ehkam geyindirmiş keçmiş iqtidar və xüsusilə də cənab Tofiq Qasımovun başçılıq etdiyi nazirlik nədənsə xarici siyasətdə ancaq ikitərəfli əməkdaşlığı əsas tutmuş, dünya birliyi tərəfindən qəbul edilmiş kollektiv çoxtərəfli münasibətlərə və əməkdaşlığa isə biganə qalmışdır. Azərbaycanın həm Rusiya, həm Qazaxıstan, həm də Orta Asiya respublikaları, dövlətləri ilə ayrı-ayrılıqda ikitərəfli sazişlər bağlamasını təlqin etdiyimiz halda, bu dövlətlərin yaratdıqları Müstəqil Dövlətlər Birliyinə girmək, onunla əlaqələr qurmaq yasaq sayılmışdır. Hətta türkçülüyü əldə bayraq etdiyimiz türkdilli Qazaxıstan və Orta Asiya respublikalarının da üzv olduğu MDB imperiya kəməndi, məhbəs kimi qələmə verilmiş-

dir. Dövlət siyasətində yol verilmiş bu cür radikal səhvlər izsiz qalmırdı, bugünkü siyasi və iqtisadi, hərbi iflasımızın, məğlubiyyətlərimizin çoxunun kökünü heç də uzaqlarda deyil, məhz bu səhvlərdə axtarmalıyıq.

Həqiqətən, belə paradokslara indinin özündə də təəccüblənməmək olmur. Məgər Fransa, Almaniya və başqa Avropa dövlətləri öz aralarında ikitərəfli sazişlər bağlamırlarmı?! Amma eyni zamanda bu dövlətlər həm də bu iki dövlətin də daxil olduğu Avropa Birliyinin üzvüdürlər, hələ üstəgəl, Şimali Atlantika Birliyi Təşkilatında, NATO-da vardırlar. Bu təşkilatlarda üzv olmaq – keçən dəfə Heydər Əliyev xüsusi olaraq bunu qeyd etdi – heç də onların dövlət müstəqilliyini və suverenliyini pozmur, əksinə, birlikdə bu dövlətlərin dünya siyasətində öz xüsusi çəkisi və Avropa dövlətləri birliyində inflyasiyanın, bahalığın və digər mənfi halların da olmasına baxmayaraq, bir çox başqa ölkələr, hətta bizim qardaş Türkiyə də bu İttifaqa, bu Birliyə girməyi özünə şərəf sayır.

Yuxarıdakıları sadalamaqla mən heç də Milli Məclisə Müstəqil Dövlətlər Birliyinin əvəzsizliyini təlqin etmək fikrində deyiləm, amma bir faktı nəzərinizə çatdırmaq istəyirəm ki, Azərbaycan xalqının əksəriyyəti Müstəqil Dövlətlər Birliyi ilə münasibətdə konstruktiv mövqe tutubdur, respublika rəhbərliyinin bu istiqamətdə atdığı və atacağı addımları dəstəkləyir. Sadə vətəndaşların bir qismi heç MDB-nin nə olduğunu belə dürüst bilmir, amma bununla belə, onu müdafiə edir, çünki xalqın içində böyük Heydər Əliyev məfhumu yaşayır, bu şəxsiyyətin simasında təmsil edilən hər hansı siyasət onun ürəyindəndir.

Mənə belə gəlir ki, Milli Məclis yaranmış hərbi, siyasi və iqtisadi reallıqları və eyni zamanda Azərbaycan xalqının reallıqlarını nəzərə almaya bilməz və istər MDB ilə bağlı, istərsə də başqa siyasi cəhətdən böyük dövlət xadimi Heydər Əliyevi müdafiə etməlidir və bütün sağlam demokratik qüvvələr, siyasi partiyalar onun ətrafında sıx birləşib dövlətimizin suverenliyi və gələcəyi naminə bir yumruq kimi səy göstərməlidirlər.

Sözümün sonunda daha bir məntiqə toxunmaq istərdim. Azərbaycanın həm xarici, həm də daxili siyasətində daimi dostlar, daimi müttəfiqlər axtarmağa ehtiyac yoxdur, bu siyasətdə biz yalnız Azərbaycan dövlətinin, onun müstəqilliyinin, Azərbaycan xalqının, onun gələcəyinin maraqlarını əldə rəhbər tutmalıyıq. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Asya Manafova, buyurun.

**Asya Manafova.** Hörmətli sədr, hörmətli xalq deputatları və qonaqlar! Azərbaycanın səlahiyyətli nümayəndəsinin Moskvada müxtəlif sə-

viyyələrdə apardığı danışıqlar və görüşlər, Milli Məclisdə bu gün müzakirə olunan məsələ, xüsusi ilə Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olmaq bu gün Azərbaycanın taleyinə biganə olmayan hər bir vətəndaşı dərindən düşündürməlidir. Biz dürüst ayırd etməliyik ki, bu müddət ərzində qonşularla, xüsusi ilə Rusiya ilə münasibətlərin pisləşməsi bizə nə verdi. Təəssüf ki, respublikamızın onsuz da ağır olan vəziyyətini istər siyasi, istər iqtisadi, istər sosial, mədəni, istərsə də hərbi sahələrdə daha da gərginləşdirdi, siyasətdə özbaşınalıq, anarxiya, iqtisadiyyatda tənəzzül, iş şəraitində intizamın pozulması, zavodların dayanması, sosial, mədəni sahələrdə işsizlik, mənəviyyatda iflicləşmə, hərbi hissələrdə isə uğursuzluqlar. Qazancımız nə oldu, qazancımız bu gün o oldu ki, hər addım başında açılmış komission mağazalar və piştaxta arxasında dayanan cavanlar, başqa şeyləri, necə deyərlər, mən sadalamaq istəmirəm.

Görəsən, Müstəqil Dövlətlər Birliyinin Nizamnaməsi və digər sənədlərlə tanış olan, lakin Rusiya ilə münasibətləri yaxşılaşdırmağa, Azərbaycanın MDB-yə daxil olmasına düşmən gözü ilə baxan, xəyanət sayan bu millətin dırnaqarası demokratları az müddət ərzində özləri firavan həyat, təmtəraqlı mənzillər, "Mercedes"lər əldə edərək, xarici ölkələrdə kef çəkənləri ermənilərin əllərində əsir olan 700-dən artıq qız-gəlinimizin ah-naləsi rahat yatmağa qoyurmu, yuxularına haram qatmırmı?

Mən MDB-nin Nizamnaməsini və digər sənədlərini çox diqqətlə oxumuşam, bilmirəm, biz nə istəyirik, niyə qan çanağında üzən xalqımıza bu gün kömək etmək istəmirik, bunun səbəbi nədir? Bəlkə, belə bir birliyə daxil olmağa mənfi münasibətdə olanlar qaşınmayan yerdən qan çıxarmağa çalışanlara qarşı tədbir görməyə operativ imkanların əldə ediləcəyindən çəkinirlər. Mən bunu bir faktla izah etmək istəyirəm, bu, yerinə düşərdi. 1993-cü il 9 sentyabr tarixli "Komsomolskaya Pravda" qəzetində Aleksandr Yevtuşenko özünün qərəzli məqaləsində Dağıstanın daxili problemlərini dırnaqarası çox məharətlə təhlil edir.

Görəsən, bu kimə sərfəlidir? İstər Azərbaycan, istərsə də ləzgi xalqını bu məqalələr narahat etmir, narahat olanlar onlardır ki, bu gün Qarabağ problemi həll olunarsa, digər problemi yaratmağa can atırlar və çirkin əməllərin açılmasından qorxurlar. Ləzgi xalqının qeyrətli nümayəndələri, qusarlılar öz sözlərini redaksiyaya və əlaqədar təşkilatlara çatdırıblar.

Heydər müəllim, Siz Moskvada keçirilən mətbuat konfransında süni surətdə ləzgi problemi yaratmaq istəyənlərin cavabını verdiniz. Sizə minnətdarıq. Amma yaxşı olardı ki, Azərbaycan parlamenti də belə mə-

sələlərə vaxtında və lazımi səviyyədə cavab versin. Mən bu faktla onu demək istəyirəm ki, bu saat bizi MDB-yə qoşulmaqda təqsirləndirənlər digər məsələləri yaxşı görürlər. Bütün dediklərimi ümumiləşdirərək mən təklif edirəm, Moskvada Azərbaycanın səlahiyyətli nümayəndələrinin müxtəlif səviyyələrdə danışıqları təqdirəlayiq hesab edilməlidir, qonşu dövlətlər, xüsusi ilə Rusiya ilə əlaqələrimiz bütün sahələrdə yaxşılaşdırılmalıdır. Azərbaycanın MDB-yə daxil olması günün vacib problemlərindən biri olduğu üçün bu, məqsədəmüvafiq sayılmalıdır.

Dördüncü, Azərbaycanın MDB-yə qoşulması faktorundan istifadə edərək respublikada sabitliyi pozmağa çalışanlar haqqında qəti tədbirlər görülməlidir, çünki onları küçələrdə əsir-yesir olmuş milyonlarla qaçqın, həyatdan vaxtsız köçmüş şəhidlər və nəhayət, Azərbaycanın aqibəti maraqlandırmır.

Nəhayət, bir məsələyə toxunmaq istərdim, mənə elə gəlir ki, "Müstəqil Dövlətlər Birliyi" sözlərində "содружество" birlik yox, əməkdaşlıq kimi tərcümə olunarsa, bu daha yerinə düşərdi. Birlik "объединение"dir, "содружество", məncə, əməkdaşlıq kimi tərcümə olunarsa, camaat buna öz rəyini də düzgün bildirər.

Keçən Məclisdə bir məsələ də təklif olunmuşdur ki, Azərbaycan Xalq Cəbhəsinə münasibətimizi də bildirək. Mənə elə gəlir, artıq bu barədə danışmağa ehtiyac yoxdur, çünki xalq başa düşüb ki, Xalq Cəbhəsi hansı məqsədə qulluq edir. Axı məncə, bu, çoxdan ləğv olunmalıdır ki, milləti bu bəladan qurtara bilək. Çox sağ olun.

**Sədrlik edən.** Mürşüd Məmmədov, buyurun.

**Mürşüd Məmmədov.** Mən bu gün respublikanın düşdüyü vəziyyətin bütün ağırlığını görürəm və çox aydın dərk edirəm. Xalq onun rəhbəri kimi, Sizin də çıxılmaz vəziyyətdə olduğunuzu anlayır. Bu gün biz çıxış yolunu MDB-yə daxil olmaqda axtarırıq. Mən şəxsən Azərbaycanın suverenliyinə, ərazi bütövlüyünə və iqtisadi yüksəlişinə təminat verə biləcək bütün bloklara, təşkilatlara və birliklərə qoşulmağın tərəfdarıyam. Lakin MDB-yə daxil olandan, bu tarixi addımı atandan sonra bütün bunlara qarantiya ola biləcək mexanizm, siyasi zəmanət verilə biləcəkmi? Gəlin etiraf edək ki, MDB-ni təmsil edən dövlətlər normal, sivil, siyasi, mədəni və hüquqi inkişaf yolu keçməyiblər. Təbii ki, 70 ilin yolu, inkişaf səviyyəsi nə dərəcədə öz əksini həmin dövlətlərin tarixi inkişafında göstərib, hər bir dövlətin özünəməxsus siyasi iddiaları, iqtisadi inkişaf modeli vardır.

Bizi düşündürən ilk və mürəkkəb məsələ işğal olunmuş torpaqların qaytarılmasıdır. Ermənistanla təhlükəsizlik haqqında ikitərəfli müqavilə bağlamış Rusiya Ermənistan–Azərbaycan qarşıdurmasında hansı yerdə duracaq? Bizimlə eyni hüquqda olan ermənilər işğal edilmiş torpaqlardan çıxarılacaqmı? Bu məsələ siyasi, hüquqi cəhətdən MDB tərəfindən necə tənzimlənəcək?

Mən bu məsələyə keçməzdən qabaq, hörmətli Asya xanımın o fikri ilə tam şərikəm ki, MDB-nin adında sonuncu söz birlik deyil, əməkdaşlıq kimi verilsə daha yaxşı olar. Bu birlik, ittifaq, Sizin də mətbuat konfransınızın birində çıxışınızda haqlı olaraq "союз" adlandırdığınız həmin MDB istər-istəməz əhalinin narahat qismini müəyyən qədər çaşdırır. Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktının 12-ci maddəsində deyilir ki, Azərbaycan Respublikası öz ərazisində həyata keçirdiyi suveren hüquqları heç bir formada başqa bir dövlətə və ya dövlətlər ittifaqına vermir.

14-cü maddədə deyilir ki, Azərbaycan Respublikası ərazisinin heç bir hissəsi başqa dövlətin hüquqi şəxsinə satıla və verilə bilməz. Yəni bu torpağın heç bir parçası. Məni bir millət vəkili kimi narahat edən məsələ budur ki, əgər biz sabah MDB-yə daxil olsaq, təbii ki, Kollektiv təhlükəsizlik müqaviləsinin üzvü olan dövlətin ərazisində MDB dövlətlərinin qoşunları yerləşdiriləcək, bu qoşunların yerləşdirilməsi istər-istəməz bizim ərazimizin müəyyən hissəsinin hərbi bazaya çevrilməsinə xidmət edəcək. Bu, həmin Konstitusiya Aktının istər 12-ci, istərsə də 14-cü maddəsi ilə ziddiyyət təşkil edir. Azərbaycan torpaqlarının bir hissəsində MDB qoşunlarının yerləşdirilməsi yenə də faktiki olaraq Konstitusiya Aktının göstərilən müddəasına ziddir, odur ki, bu taleyüklü problemin həll olunmasına təminat verilməyincə, mən MDB-yə qeyd-şərtsiz daxil olmağın əleyhinəyəm.

Konkret olaraq 3-cü maddəyə keçək. 3-cü maddədə deyilir ki, əsas münasibətlərini qeyri-üzv millətlər mövcud sərhədlərin tanınması, hüquqazidd ərazi iddialarından əl çəkilməsi üzərində qurur. Belə olan halda Ermənistan tərəfi Dağlıq Qarabağda olan iddialarından əl çəkəcəkmi?

4-cü maddədə xarici siyasət məsələlərinin əlaqələndirilməsi, belə olan şəraitdə bizim müstəqil siyasəti yeridə bilməyimiz hansı aspektdə, hansı istiqamətdə olacaq? MDB-yə üzv olan Ermənistanla bizim əlaqələrimiz hansı şərtlər əsasında qurulacaq? Müharibə vəziyyətində olan Azərbaycanla Ermənistanın qarşılıqlı əməkdaşlığı mümkün olacaqmı?

13-cü maddədə deyilir ki, birliyin üzvü olan hər bir dövlət birliyin xarici sərhədində vəziyyəti sabitləşdirmək məqsədilə lazımi tədbirlər görür. Belə bir öhdəlik götürmüş dövlət konkret olaraq Azərbaycanı hansı xarici düşməndən qoruyacaqdır və əgər Azərbaycanın xarici sərhədində qoşun yerləşdirilərsə, Azərbaycanın özünün milli ordusunun missiyası nədən ibarət olacaq? Yəni Azərbaycana MDB-nin üzvü olan dövlət kimi xarici qoşun yerləşdirilərsə, bu qoşun Azərbaycanı Türkiyədənmi, ya İrandanmı qoruyacaq?

16-cı maddədə deyilir ki, üzv dövlətlər milli zəmində baş verən münaqişələrin qarşısını almaq üçün bütün mümkün tədbirləri görür. Elə 17-ci maddədə də bununla ziddiyyət təşkil edən başqa fikir söylənilir, birliyin üzvü olan dövlətlər mövcud mübahisələrin kəskinləşməsinə və başqa dövlətlərə ziyan gətirə biləcək hərəkətlərindən çəkinəcəklər? Bəs belə olan yerdə bu mübahisələr hansı şəkildə həll olunacaq? Bax bu məsələ bizim üçün qaranlıqdır.

19-cu maddədə deyilir ki, birləşmiş qüvvələrin baş komandanlığı yaradılır və bu komandanlıq birlik ölkələrində silahlı qüvvələrə rəhbərliyi həyata keçirir və yaxud bunu hərbi müşahidəçilərlə, kollektiv qüvvələrlə yerinə yetirir. Konkret olaraq birliyin üzvü olan dövlətin özünün silahlı qüvvələrinin vəzifə və səlahiyyətləri göstərilmir. Kollektiv təhlükəsizlik haqqında müqavilənin 8-ci maddəsində – bayaq deputatların suallarında da bu fikir öz əksini tapdı – deyilir ki, hazırkı müqavilə başqa dövlətlərlə bağlanmış ikitərəfli və çoxtərəfli müqavilələrdən irəli gələn vəzifə və öhdəliklərin yerinə yetirilməsinə toxunmur. Onda Rusiya ilə Ermənistanın ikitərəfli müqaviləsinə münasibət necə olardı? Təbii ki, Ermənistan yenə əvvəlki işğalçı siyasətini yeridəcək və belə olan halda Rusiya ona qarşı nə iqtisadi embarqo qoymaq imkanına malik olacaq, nə siyasi sanksiya, nə də hərbi sanksiya.

Mənim qəti fikrim. MDB-nin Nizamnaməsində müəyyən ziddiyyətlər var və bu ziddiyyətlər, təbii ki, 11-ci maddədə də öz əksini tapır. 11-ci maddədə deyilir, iştirakçı dövlətlərin hər hansı biri bu müqavilələrdən çıxmaq hüququna malikdir, bir şərtlə, o, öz niyyəti barədə 6 ay qabaqcadan məlumat verməlidir və bu şərtlə MDB-dən çıxa bilər ki, o, MDB qarşısında götürmüş olduğu öhdəlikləri yerinə yetirmiş olsun. Biz indi bilmirik ki, bu öhdəliklərin mahiyyəti və miqyası nədən ibarətdir. Ola bilsin, bu öhdəliklər bu miqyasda olsun ki, MDB-yə daxil olan dövlət təxminən bir 10-15 ilə həmin öhdəlikləri yerinə yetirə bilsin.

Ona görə bu taleyüklü problemlərin həll olunacağına təminat verilməyincə, mən belə hesab edirəm ki, MDB-yə qeyd-şərtsiz daxil olmağın əleyhinəyəm. İndi də hörmətli Milli Məclisin üzvləri, siz yaxşı bilirsiniz, Rusiyada hansı problemlər gedir. Aleksandr Rıjkovun, Ruslan Xasbulatovun çıxışlarında SSRİ-ni bərpa etmək haqqında söhbətlər gedir.

Xahiş edirəm, yerdən replika atmaq lazım deyil, burada bizim elə Azərbaycan demokratiyasının böyük nailiyyəti ondan ibarətdir ki, biz siyasi fikir müxtəlifliyi qazanmışıq. Odur ki, bir az mədəniyyətiniz olsun. Mən belə hesab edirəm, yeni bir Pontiy Pilat meydana çıxa bilər, MDB-ni SSRİ-yə keçmək mərhələsi hesab eləyə bilər və bu birliyi həqiqi mənada ittifaqa çevirə bilər.

Nəticə etibarilə, hörmətli Heydər bəy, bizim Milli Məclisin əvvəlki iclaslarında Sizin dəfələrlə təkidinizə, təklifinizə baxmayaraq, bəzi deputatlar şit təriflər deyirlər, məddahlıq eləyirlər, buna nə Sizin ehtiyacınız var, nə də Milli Məclisin üzvlərinin. Heç bir normal və mədəni parlamentlərdə belə bir şeyə yol verilmir. Mən belə hesab eləyirəm ki, bu yaltaqlıq kimi çox ağır mənəvi mərəzə tutulan deputatlara Allah şəfa versin. Diqqətinizə görə minnətdaram. Çox sağ olun.

**Sədrlik edən.** Mürşüd müəllim, şübhəsiz, mən hər dəfə deyirəm, bu, çox mühüm məsələdir. Hər bir məsələ haqqında hərə öz fikrini bildirməlidir və biz yalnız və yalnız bu yolla düzgün bir qərar qəbul eləyə bilərik. Ona görə də Sizin dediyiniz fikirlərin heç birinə heç kəsin başqa cür münasibət bəsləmək hüququ yoxdur. Ancaq bir şeyi demək istəyirəm ki, Siz sual verirsiniz, belə olanda nə olacaq, elə olanda nə olacaq, buna axı mən Sizə nə cür cavab verim. Mən Sizin bu suala cavab verə bilərəm. İndi bu Müstəqil Dövlətlər Birliyi, yaxud Müstəqil Dövlətlər, Siz deyirsiniz ittifaq demişik, biz heç vaxt ittifaq deməmişik, ancaq "содружество" sözünü heç düzgün tərcümə eləməyiblər, bu, birlik deyil, bu, əməkdaşlıqdır, müstəqil dövlətlərin əməkdaşlığıdır, "содружество"nun tərcüməsi belədir. Ancaq kimsə bunu birlik kimi tərcümə eləyibdir, indi bizim də leksikonumuza bu, birlik kimi daxil olubdur.

İndi Siz deyirsiniz, belə eləyəcəklərmi, bunu etsək nə olacaq, ona qədər sual qoydunuz, amma bu suallara Siz özünüz cavab verməlisiniz. Mən elə bir adam deyiləm, yaxud başqası bu suala cavab verər, hər kəs öz fikrini deməlidir, eyni zamanda bir sual da ola bilər ki, məsələn, bu Müstəqil Dövlətlər Əməkdaşlığına və ya Birliyinə daxil olmadığımız dövrdə nə oldu? Bundan biz udduq? Nə əldə etdik, nə itirdik? Bilirsiniz, onda məsələni be-

lə qoymaq lazımdır, nə əldə etdik, nə itirdik? İndi əgər çox şey itirmişiksə, demək, yəqin, vaxtilə biz buna girsəydik, bunu, bəlkə də, biz itirməzdik, amma zərər çəkəcəyiksə, bundan sonra nəyindən zərər çəkəcəyik, bunu bilmək lazımdır. Yaxud məsələni belə qoyaq ki, əgər biz müttəfiq müstəqil dövlətlər əməkdaşlığına daxil olsaq, onda bizə kömək eləyəcəklər.

Mən bir neçə dəfə bu məsələ müzakirə olunanda demişəm ki, yəni bizi bura dəvət eləmirlər, o dövlətlər birliyi, yaxud əməkdaşlığı demir ki, elə gözləyirlər, biz nə vaxt gəlib bura girəcəyik. Mən onlardan belə bir dəvət almamışam, mən sizə də açıq deyirəm, Azərbaycan Respublikasının rəhbərliyi, sadəcə, dəvət olunub ki, biz orada əvvəl olduğumuz kimi, istədiyimiz şəkildə iştirak eləyə bilərik. Ya müşahidəçi kimi, ya ora daxil ola bilərik, yaxud heç iştirak eləyə bilmərik. Sadəcə olaraq, onların sentyabr ayının 7-də keçirilən iclası haqqında bizə məlumat verilmişdi, bir də indi sentyabr ayının 24-də keçiriləsi iclas haqqında bizə məlumat verilib. Ancaq orada yazılmayıb ki, biz istəyirik, siz gəlib bura daxil olasınız. Mən sizə bildirmək istəyirəm, Moskvada mən Rusiyanın rəhbərləri ilə danışıqlar apardım, onlar heç birisi belə məsələ qoymadı ki, siz bura daxil olursunuz, yaxud daxil olmursunuz. Ona görə bu bizim özümüzün iradəmizlə müəyyən olunmalıdır. Amma belə bir şərt qoysaq ki, biz bura daxil oluruq, deyin, görək biz bundan nə alacağıq? Biz bunun əvəzinə sizə nə verəcəyik? Amma bunu bir Rusiyadan soruşmaq olmaz ki. Bu əməkdaşlıq, yəni birlik bir çox dövlətlərdən ibarətdir.

Bilirsinizmi, bu məsələləri bu cür qoymaq, bunlara cavab vermək çətindir. Şübhəsiz, bu müqavilələrdə müəyyən ziddiyyətlər var, bunu keçən dəfə dövlət katibi Lalə xanım da izah eləyəndə bildirdi ki, müəyyən ziddiyyətlər var, eyni zamanda burada çox maddələr var, onlar Azərbaycanın suverenliyinə, müstəqilliyinə toxunmur. Artıq təcrübə də onu göstərir. Məsələn, bu birliyə, bu əməkdaşlığa daxil olan dövlətlərin heç birisi öz suverenliyini, öz müstəqilliyini itirməyiblər.

O ki qaldı bu qoşunların Azərbaycanda yerləşdirilməsi, məgər bu müqavilələrin birində belə bir müddəa varmı? Belə müddəa yoxdur. Heç bir müddəa. Bəlkə, mən bunu görməmişəm, bəlkə, görənlər var?

**Yerdən.** Qorunması məsələsi var. MDB dövlətlərinin Ali Baş Komandanlığı tərəfindən xarici sərhədlərin qorunması haqqında maddə var. Mən bilmək istəyirəm, bu necə qorunacaq?

**Sədrlik edən.** O maddə deyir ki, qoşun yerləşdirəcək? Bu, birinci. İkinci, əgər biz bura qoşulsaq, şübhəsiz ki, şərtlərimizi qoya bilərik. Buna

qoşulmaq o demək deyil ki, bunu yüz faiz, kor-koranə qəbul etmək. Mən bunu təbliğ etmək istəmirəm, mən, sadəcə, istəyirəm ki, hər adam müstəqil öz fikrini bildirsin. Mən bunu təbliğ etmək istəmirəm, mən izahat verirəm. Ona görə də Siz dediniz ki, əgər bu qoşunlar bura yerləşdirilərsə, onda bizim müstəqilliyimiz itəcək, filan olacaq.

Birinci, bu qoşunların belə halda yerləşdirilməsi müddəası bu müqavilələrdə yoxdur. İkincisi, lap o qoşunlar yerləşdirilərsə, yerləşdirən respublikalar öz müstəqilliklərini itirməyiblər. Ancaq bu o demək deyil ki, mən o qoşunların yerləşdirilməsinin tərəfdarıyam, xeyr, əsla, mən bunun tamamilə əleyhinəyəm.

Siz deyirsiniz, Ruslan Xasbulatov, Rudskoy çıxış eləyirlər ki, bəli, Sovet İttifaqını bərpa eləmək lazımdır, bilirsiniz, indi fikir müxtəlifliyini icad eləyən adamlardan biri elə sizlərsiniz də. Biri elə deyir, biri belə. Nə Rudskoy, nə də Ruslan Xasbulatov hakim adam deyillər ki. Mən onların danışıqlarından gördüm, onlar Sovetlər İttifaqını bərpa etmək niyyətinə düşüblər, bir o deyil ki. İndi Sovetlər İttifaqı Kommunist Partiyasını yaradırlar, ya yaradıblar? Əgər Sovetlər İttifaqı Kommunist Partiyasını yaradıblarsa, onlar da Sovetlər İttifaqının bərpa olunmasına çalışacaqlar. Ancaq mən sizə deyirəm, nə olursa olsun, biz hansı ittifaqa girəcəyik, ya girməyəcəyik, bundan asılı olmayaraq, bir vətəndaş kimi, Ali Sovetin sədri kimi mən sizə öz fikrimi qəti deyirəm, kimin xoşuna gəlir gəlsin, kimin gəlmir gəlməsin, Moskvada, ya başqa yerdə mən Sovetlər İttifaqının bərpa olunmasının qəti əleyhinəyəm və həyatımın sonuna qədər bunun əleyhinə olacağam. Azərbaycanın müstəqilliyinin qorunmasına bütün imkanlarımdan istifadə edib, səy göstərəcəyəm.

Kommunist Partiyasının bərpa olunmasının yüz faiz əleyhinəyəm. Çünki mən bu partiyadan 1991-ci ildən çıxmışam. Sadəcə, çıxmamışam, mən o partiya haqqında öz fikirlərimi demişəm. Ancaq mən böyük bir gücə malik bir adam deyiləm ki, mən də sizin kimi bir adamam. Ancaq ola bilər ki, mənim mövqeyim müəyyən adamların mövqeyinə təsir edə bilsin. Ona görə mən bunu bir daha deyirəm, baxmayaraq ki dəfələrlə demişəm. Mən neyləyim, bəzi adamlar mənim əleyhimə təbliğat aparmaq üçün istəyirlər insanların beyninə doldursunlar ki, Heydər Əliyev Sovet İttifaqını bərpa etmək istəyir. Bu, belə deyil axı, mən Naxçıvanda olanda da bunu deyirdilər, Heydər Əliyev Kommunist Partiyasını bərpa etmək istəyir. Yalan şeylərdir. Ona görə yox ki, mən istəyirəm, o adamlara xoş gəlim, yox, o adamların fikir səviyyəsi ilə mənim fikir səviyyəm arasında böyük bir məsafə var. Bağışlayın, heç də güman etməyin ki, mən təvazö-

karlıq etmirəm. Yox, mən, sadəcə olaraq, bilirəm, mən hansı səviyyədə düşünə bilərəm, onlar hansı səviyyədə düşünə bilərlər, bu sözləri kiməsə xoş gəlmək üçün demirəm. Mən öz əqidəmi bildirirəm və mən bu əqidəmdən dönməzəm.

Ancaq Sizin verdiyiniz sualların hamısına mən cavab verə bilmərəm. Siz özünüz cavab verin və güman etmirəm ki, burada oturan adamlardan kimlərsə, məsələn, Sizin fikrinizə əks olan adamlar, ya şübhələrinizi dağıtmaq istəmək məqsədilə çıxış etmək istəyən adamlar bunlara cavab verə bilərlər. Bunlara cavab vermək çətindir.

Ədalət Rəhimli, buyurun.

**Ədalət Rəhimli.** Hörmətli həmvətənlər, bu gün acı da olsa, etiraf etmək lazımdır ki, Azərbaycanımız çox ağır hərbi məğlubiyyətə uğramışdır, bunun bir çox səbəbləri var. Mənim fikrimcə, bunun ilkin başlanğıcı hələ keçən əsrin əvvəlində Rusiya imperiyası Azərbaycanı fəth edəndən sonra Gülüstan və Türkmənçay müqavilələrində qoyulmuşdur. O dövrdəki qanunlara əsasən, azərbaycanlı oğlanlar əsgərliyə aparılmırdı, bununla da onların kişiliyi, mərdliyi, vuruşma qabiliyyəti əllərindən alınırdı. Nəticəsi də o oldu ki, 1905-ci və 1918-ci illərdə balaca erməni xalqı Azərbaycana böyük zülm elədi, qırdı, məhv elədi və Zəngəzur kimi böyük bir vilayəti Azərbaycanın əlindən aldı.

Sovet dövründə isə, əsasən, İkinci Dünya müharibəsində Azərbaycan oğulları kütləvi surətdə rus dilini bilmədən, yaxşı hərbi təlim keçmədən müharibəyə aparılırdı. İlk dövrlərdə məhz buna görə çoxlu azərbaycanlı məhv olunurdu. Lakin sonradan Azərbaycan rəhbərliyinin fəaliyyəti nəticəsində milli diviziyalar yarandı və Azərbaycan oğulları öz qəhrəmanlıqlarını göstərdilər. Lakin milli diviziyalarda Azərbaycanın milli hərbi kadrları, təbii ki, o dövrün də müəyyən imperiya qüvvələrini təmin eləmirdi, ona görə də milli diviziyalar ləğv olundu. Azərbaycanın görkəmli hərbi xadimləri, məsələn, Nemət Kərimov kimi, Akim Abbasov kimi generalları, başqaları hərbi sıralardan uzaqlaşdırıldı.

Nəhayət, 1960-cı illərdən başlayaraq, Azərbaycan balaları kütləvi surətdə sovet ordusu sıralarına aparılırdı, çox təəssüf ki, ordu sıralarında Azərbaycan oğulları, əsasən, tikinti işlərinə cəlb edilirdi, çörək paylayan, çörək bölən, xörək bişirən vəzifələrini tuturdular, bu da yenə də azərbaycanlı balaların yaxşı hərbçi olmasının qarşısını alırdı. O dövrdə ermənilər öz oğlanlarını desant, tank, raket qoşunlarına yerləşdirib hərbçi hazırlayanda biz oğullarımızı hətta bəzi ziyalılarımızın nadanlığı nəticəsində

rüşvətlə göndərirdik ki, onlar getsinlər, tikinti taborlarında xidmət eləsinlər. Ona görə də bu gün bizim oğlanlarımız, çox təəssüf ki, düşmən qarşısında durmaq iqtidarında deyillər.

Təbii ki, bizim məğlubiyyətimizin başqa səbəbləri də olmuşdur. Burada xaricin, müəyyən imperiya qüvvələrinin Azərbaycanın müstəqilliyinin əleyhinə olması və daxildə bəzi, mən üzr istəyirəm, gurultulu sözə görə, milli satqınlarımızın fəaliyyəti nəticəsində biz çox dərin məğlubiyyətə məruz qaldıq. Mən ümid edirdim ki, Heydər Əliyev yeni hakimiyyətə gələndən sonra Heydər Əliyev, o cümlədən də Surət Hüseynov bizim qüvvələri yenidən toplayacaq, yenidən birləşdirəcək, ordumuzu möhkəmləndirəcək və biz ciddi surətdə müqavimət göstərəcəyik. Xüsusi ilə Surət haqqında yaradılan mif ki Surət 15 gündə Stepanakerti tutacaqdır, doğrudan da, mən daxilən inanmasam da, böyük ümid yaratmışdı. Çox təəssüf ki, bu belə olmadı. Surət Hüseynov bu işi yerinə yetirə bilmədi, əksinə, Azərbaycanın bir sıra vuruşan taborları şəxsi münasibətlərəmi, siyasi münasibətlərəmi görə ləğv olundu.

Mən, yeri gəlmişkən, Surət bəyin adını xatırladığım üçün bir-iki söz demək istəyirəm. Nə isə Surət bəyin adı ətrafında bir tabu yaradılıb, onun haqqında heç kim heç bir söz demir, demək istəmir, bir xof yaradılıb. Mən belə başa düşürəm, o da bizim kimi azərbaycanlıdır, o da bizim kimi insandır, onun qüsurları da, məziyyətləri də var. Bu gün şəxsən mən onun qüsurlarını tənqid eləmək istəyirəm. Surət Hüseynovu biz Baş nazir təsdiq eləyəndə o, söz verdi ki, 15 günə bizə Azərbaycanın inkişaf proqramını, iqtisadi proqramını təqdim eləyəcək. Çox təəssüf ki, bu günə kimi biz o proqramın nə adını eşitmişik, nə də məzmununa qulaq asmışıq. Görürük ki, Azərbaycanın iqtisadiyyatı, Azərbaycanda müstəqil iqtisadi inflyasiya heç də yaxşılaşmır, vəziyyət düzəlmir. Ona görə mən hesab edirəm ki, Surət Hüseynov o proqramı haqqında yaxın vaxtlarda bizə məlumat verməlidir.

Bu gün biz elə bir vəziyyətə düşmüşük ki, doğrudan da, sanki MDB-yə getməkdən başqa ikinci yolumuz yoxdur. Amma hətta bu ağır vəziyyətdə biz fikirləşməliyik. Biz MDB-yə getməklə – bayaq suallar verildi, amma o suallara tam cavab olmadı – nəyə nail olacağıq və nə itirə biləcəyik. Məsələn, MDB-yə getməklə Azərbaycan Qarabağı tərkibində saxlayacaqmı? Əgər Azərbaycanın fəth olunmuş, işğal olunmuş torpaqları geri alınacaqsa, təbii ki, buna hardasa müsbət münasibət bəsləmək olar. Ancaq mənim buna böyük şübhəm var. Verilən məlumatlara görə, Rusiyanın imperiya dairələrinin və Ermənistanın ən böyük arzusu odur ki, Qara-

bağı müstəqil respublika elan etsinlər, Laçının böyük bir hissəsini ermənilərə bağışlasınlar və Qarabağın ordusunu yaratsınlar. Bu isə çox böyük bədbəxtlik olardı. Təbii, düzdür, Heydər Əliyev Mürşüd müəllimə cavab verəndə dedi ki, bu gün o suala cavab vermək çox çətindir, bunu əvvəldən demək çətindir, amma hər halda, rəhbərlik və rəhbərliyin ətrafında olan adamlar, ona kömək etmək istəyən adamlar bu məsələləri mütləq müzakirə etməlidirlər.

MDB-nin Nizamnaməsi ilə əlaqədar da bir neçə cümlə demək istəyirəm. Keçən söhbətimizdə Lalə xanımla qısa mükalimədə mənə belə aydın oldu ki, həmin Nizamnamədə bir sıra məsələlər nəzərdə tutulmayıb, yaxud çox mübahisəlidir. Məsələn, burada dedilər, daha doğrusu, Lalə xanım onda dedi ki, bu Nizamnaməyə baxmışam, belə bir müddəa var, kim, hansı dövlət istəsə, bir il əvvəldən xəbər verməklə onun tərkibindən çıxa bilər. Mənə elə gəlir, bu, çox şübhəli müddəadır, ona görə ki, bilirsiniz, Sovet İttifaqının ilkin Konstitusiyasında da respublikalara Sovet İttifaqının tərkibindən çıxmaq hüququ verilmişdi və heç bir şərt qoyulmamışdı. Bilirsiniz ki, bəzi respublikaların bu cür cəhdləri hansı, necə qarşılanmışdı. O mənada demək istəyirəm, həmin müddəanın, həmin bəndin məqbul olmasına mənim böyük şübhəm var.

Sonra 23-cü bənd, yenə də Lalə xanım bizə həmin bənddən misallar gətirdi, 23-cü bənddə belə nəzərdə tutulub ki, hər hansı məsələləri həll eləyəndə, yəni MDB dövlətləri Şurasında həll eləyəndə məsələlər konsensus yolu ilə həll olunur, yəni hər hansı bir məsələ bir ölkənin razılığı olmadan həll oluna bilməz. Bu o deməkdir ki, sabah biz MDB-yə daxil olsaq və biz Ermənistanın ordularının Azərbaycandan çıxarılma məsələsini, yaxud Qarabağın muxtariyyət məsələsini, yaxud da Azərbaycanın təşkili məsələsini qoysaq, sadəcə, Ermənistan deyəcək ki, bu işlə mən razı deyiləm. Bir səs kifayət edəcək ki, biz o məsələni həll edə bilməyəcəyik.

Başqa bir məsələ. Bu Nizamnamədə həm də MDB-yə daxil olan dövlətlərin arasındakı müxtəlif münaqişələrin, xüsusilə hərbi münaqişələrin həlli mexanizmi nəzərdə tutulmayıb. Bu mənada da əgər biz MDB-nin tərkibində olsaq, orada elə bir göstəriş yoxdur ki, biz ermənilərlə, yaxud Qarabağla münasibəti necə quracağıq. İndi, təbii ki, belə suallar çox çıxır.

Bir məsələyə də toxunmaq istəyirəm. Bizim iqtisadçılarımız, sənayeçilərimiz ən çox buna istinad edirlər, biz əgər MDB-yə daxil olsaq, onda bir sıra iqtisadi, texniki problemlərimiz yaxşı həll olar, əsas da söhbət ondan gedir ki, yəni bizim 90-95 faiz sənayemiz, istinad elədi, Rusiyanın, ya

Ukraynanın mallarını ucuz qiymətə alarıq. Təbii ki, burada bu fikri yürüdən iqtisadçılar, sənayeçilər iki qrupa bölünür. Bir qrupun fikri odur, mafioz qruplarla bağlı olan adamlardır, onları maraqlandırır ki, Rusiyanın nisbətən ucuz xammalı gəlsin, indiki kimi, ya qabaqlardakı kimi onlar xaricə satılsın, o ayrı-ayrı şəxslərin şəxsi marağı ödənilsin. Amma bir qrup da, mən deyərdim ki, doğrudan da, əsl mənada respublikanın qeydinə qalan sənayeçilər də var, mən onları şəxsən tanıyıram. Onların marağı odur ki, respublikanın sənayesi, doğrudan, xammalla təmin olunsun. Amma burada da çox böyük bir qorxu var, bunu nəzərə almaq lazımdır. Əvvəla, Rusiya, təbii ki, heç zaman çox ucuz qiymətə bizə mal satmayacaq, xammal verməyəcək, çünki Rusiya özü bazar iqtisadiyyatı qurur, o çalışacaq, dünya qiymətləri ilə satsın. Biz ancaq mövcud, çox geri qalmış texnologiyayla aldığımız məhsulları, xammalı olduqca keyfiyyətsiz mallara çevirəcəyik və o malları heç kim almayacaq, nəticədə bizdə yenə də iqtisadi inflyasiya davam edəcək.

Bir də hörmətli hərbi nazirimiz dedi ki, əgər biz MDB-yə, yaxud onun hərbi birliyinə daxil olsaq, onda qanun əsasında deyəcəklər, bəs üçüncü, ya ikinci dövlət başqa dövlətin işinə qarışmamalıdır, vuruşmamalıdır. Mən üzr istəyirəm, bir balaca gərək biz tarixi yaddaşımızı, özü də yaxın tarixi yaddaşımızı, necə deyərlər, işə salaq. 1989-1990-cı illərdə Azərbaycan Respublikası Ermənistan Respublikası ilə bərabər Sovet İttifaqının tərkibində idi. O vaxt dövlət daha möhkəm quruluşa malik idi, dövlətin müəyyən mexanizmi, aparatı işləyirdi. O dövrdə də həmin bəlaları Qarabağda azərbaycanlıların, Azərbaycan Respublikasının başına açırdılar və bildiyiniz kimi, Stepanakert yaxınlığında yerləşən rus ordusu Azərbaycanın başına açılan faciələrdə fəal iştirak eləyirdi. O mənada da, hörmətli general, Sizin ümidinizə mən bir balaca inana bilmirəm.

Heydər bəy, mən uzun müddətdir danışmıram, ona görə də bir neçə məsələni istəyirəm ki, burada xatırladam. Siz Ali Sovetin sədri seçiləndə proqram çıxışınızda da və son vaxtlarda da Azərbaycanda demokratiyanın müdafiə olunacağını təkidlə demisiniz. Bununla əlaqədar mən istəyirəm, bir neçə məsələni xatırladam, ola bilsin ki, bu məsələlərdən Sizin xəbəriniz yoxdur, çünki Siz özünüz dediniz, İsa Qəmbərin həbs olunmasından Sizin xəbəriniz olmamışdı, ona görə mən şübhələnirəm ki, bu məsələlərdən də xəbəriniz yoxdur.

Əvvəla, Hikmət Hacızadə Azərbaycanın ən ağıllı, savadlı ziyalılarından biridir. Mən xahiş edirəm, Siz çağırın, onunla tanış olun, özü də Hikmət Hacızadə o ziyalılardan biridir ki, həm təmiz, həm də Rusiya ilə

bizim əlaqələrimizin möhkəmlənməyinin tərəfdarı olubdur. Lakin onu bu yaxınlarda döyüblər. O mənada mən xahiş edirəm, bizim prokurorluq bunu nəzərə alsın, Hikmət Hacızadəni döyüblər. Mən onu deyirəm ki, yəni Siz onunla tanış olasınız, onun haqqında Sizə deyiblər, o, laborantdır, amma o, çox yüksək səviyyəli ziyalıdır, özü də mənim onunla şəxsi heç bir münasibətim yoxdur. Bir də bilirəm, Siz İsa bəy haqqında da yüksək fikirdəsiniz və mən hesab edirəm, İsa bəy kimi qabiliyyətli, istedadlı gənci, siyasətçini Azərbaycanın siyasətindən kənara qoymaq olmaz. Ona görə mən müraciət edirəm, onun Milli Məclisə bərpası məsələsinə baxasınız.

Heydər bəy, bu dəqiqə Azərbaycanda xalq hərəkatının mindən çox tərəfdarı həbsdədir və bunların bəziləri qısa müddətdə həbsdədirlər, amma bir çoxu uzunmüddətli və bəzilərinin həbsi haqqında ailələrinə də heç bir xəbər verilməyib. Sülhəddin haqqında, Məmməd Rzayev haqqında, İxtiyar haqqında xəbəriniz var, onu da mən təkidlə xahiş edirəm ki, onların da azadlığa buraxılması məsələsinə baxılsın.

Onlardan başqa, Arif Paşayevin valideynləri gözlərində yaş-qan dəfələrlə bizə müraciət eləyib. Arif Paşayevi hamı çox qeyrətli, Laçının müdafiəsində ən fəal olan bir şəxs kimi tanıyır. Yenə həbs olunub, ata-anasıyla görüş verilmir, səbəbi izah olunmur. Ondan başqa, İlham Həsənovdur, Kərim Kərimovdur, Eldar Sübhanverdiyevdir, Arif Rəhimovdur, düzdür, o, qısa müddətdə tutulub, cəbhəçidir, amma bununla belə, Arif Rəhimov dilçi alimdir, ümumiyyətlə, alimlərin həbsdə saxlanılmasını mən böyük qəbahət hesab eləyirəm. İstər bu bizim vaxtımızda olsun, istərsə də başqa bir vaxtda olsun, o mənada xahiş edirəm, Siz bu məsələlərə diqqət yetirəsiniz.

Mənim ümidim ondan ibarətdir ki, təbii, mənim opponentlərim deyəcəklər, hansı yolla MDB-yə girmək təklifiniz vardır, çünki mən bunun tərəfdarı deyiləm. Mən belə hesab edirəm ki, bu dəqiqə Azərbaycanda Sizin nüfuzunuz böyükdür, Sizin böyük təcrübəniz var, bunun yolu odur ki, Azərbaycanın görkəmli ziyalılarını, ağıllı adamlarını, hətta müxalifətdə olan İsa bəy, Etibar bəy kimi bir sıra başqa partiyanın üzvlərini, Sizin tərəfinizi saxlayan ziyalıları başınıza yığasınız, biz də kömək eləyək, təmkinlə, addım-addım bu məsələləri həll eləyək. Amma Rusiya ilə də ən sıx əlaqələr saxlamaq lazımdır. Bu, adi bir həqiqətdir ki, biz Rusiya kimi böyük bir fövqəldövlətin cazibə dairəsindən çıxa bilmərik, buna lüzum da yoxdur. Sağ olun.

**Sədrlik edən.** Ədalət bəy, Siz mənə müraciət elədiniz, çıxışınızın birinci hissəsini başqa məsələlərə, o cümlədən Surət Hüseynova həsr etdiniz. Surət Hüseynov özü çıxış edib bu barədə öz fikirlərini deyə bilər. Yəqin ki, müzakirə olunan məsələ barəsində də Surət Hüseynov Baş nazir, Milli Məclisin üzvü kimi öz fikirlərini deyəcək. Ona görə mən bu tərəfə toxunmaq istəmirəm.

Ancaq Siz deyirsiniz ki, minlərlə adam həbs olunub, belə şey yoxdur, mənim xəbərim yoxdur. Baş prokuror buradadır, mən xahiş edəcəyəm, o bu barədə arayış versin və Siz sadaladığınız, saydığınız adamların heç birisinin həbsdə olması barədə məlumat yoxdur. Bir neçə adam 4 iyun Gəncə hadisələri vaxtı elə Gəncədə həbs olunublar, onlar məlumdurlar. Onlar haqqında cinayət işi qaldırılıb, istintaq gedir, indi biz imkan verə bilmərik ki, bir adam əgər bir təşkilata mənsubdursa, onun haqqında heç bir qanun tətbiq oluna bilməz. Bu barədə prokuror məlumat verə bilər. Amma o adamlar ki Siz saydınız, onlar həbs olunublar, onlardan xəbər yoxdur, filan yoxdur, mən bunları bilmirəm və birinci dəfədir eşidirəm. Biz imkan verərik, prokuror bu barədə məlumat varsa, məlumat versin, ya arayış alsın, məlumat versin. Mən hesab edirəm ki, Baş prokuror – bizim daxili işlər naziri yoxdur, dəvət eləyərik – bu məsələlərə cavab verməlidir, amma əsas Baş prokuror cavab verməlidir. Bu belə.

O ki qaldı kimisə kim döyüb, bilirsiniz, Ədalət bəy, axı burada qanun-qayda o qədər pozulub ki, adamları elə bu zalda döyürdülər. Bu zalda adamları döyürdülər, yadınızda deyil? İyun ayının 5-6-da iclasdan çıxanda deputatları, Məclis üzvlərini buradan çıxmağa qoymadılar, döydülər. Hətta mənim yadımdadır ki, İsa Qəmbərov burada zəmanət vermişdi ki, əgər bu deputatlar burada döyülsələr, mən onda heç bu parlamentin sədri olmayacağam, ancaq o da bunu təmin eləyə bilmədi. Mənim xatirimdədir, Araz Əlizadəylə Zərdüşt Əlizadə mənə danışırdılar ki, onları hətta İsa Qəmbərov buradan çıxanda özü müşayiət etdiyi halda onun gözünün qabağında tutub döymüşdülər. Bunlar hamısı məlum şeylərdir. Mən bununla, bu sözlərlə döymək məsələsinə bəraət qazandırmaq istəmirəm. Heç kəsi döymək olmaz. Əgər Siz dediyiniz Hikmət Hacızadə kim tərəfindən döyülübsə, bu, şübhəsiz, həm cinayətdir, həm də, sadəcə olaraq, qanun pozuntusudur və tərbiyəsizlikdir.

Ancaq bir şeyi mən Sizin yadınıza salım. Bəzi hallarda döyülməyi, söyülməyi, təhqir olunmağı, filanları Siz təbii qəbul edirdiniz, amma indi bunları çox böyük hiddətlə qəbul edirsiniz. Mən Sizin indiki mövqeyinizlə tamamilə razıyam. Heç kəsi döymək olmaz, heç kəsi təhqir etmək

olmaz. Ancaq sadəcə olaraq, Sizin yadınıza salmaq istəyirəm ki, keçmişə də nəzər salaq. Bizim Naxçıvanın özündə Sizin mənsub olduğunuz təşkilatın üzvlərinin deputatları döydükləri mənim gözümün qabağında olub və bəzən heç mənim kimi adamdan da nə utanıblar, nə də çəkiniblər. Bunlar hamısı mənim gözümün qabağında olub. Yenə deyirəm, bunlar hamısı bizim xalqa ləkə gətirən hallardır. Bunlar hamısı qanun pozuntusudur, cinayətdir, o cümlədən indi Siz dediyiniz hal, əgər o, doğrudan da, olubsa. Ancaq gəlin, həmişə eyni mövqedə olaq, həmişə qanunun keşiyində duraq, həmişə qanun-qaydaya riayət edək. Amma bizə sərfəli olanda belə edək, sərfəli olmayanda elə edək, bu yaramaz. Yenə deyirəm, yəqin ki, Surət Hüseynov özü Sizin dediyiniz sözlərə cavab verəcək.

Tapdıq Kamalov buyursun.

**Tapdıq Kamalov.** Hörmətli sədr, hörmətli millət vəkilləri, hörmətli qonaqlar. Mən çıxışımı bir filosofun qədim, lakin müdrik bir kəlamı ilə başlamaq istəyirəm. Ölkəni dağıdan cavan çarlar, təcrübəsiz padşahlar olub. Müdriklərimiz isə gəlib onu yenidən qurublar.

Hörmətli Heydər müəllim, biz Sizə nə çar, nə padşah deyirik, xalqın, sadəcə, rəhbəri kimi tale Sizə bu ölkəni ikinci dəfə qurmağı nəsib edib. Birinci dəfə, əgər yadınızdadırsa, 1969-cu ildə respublikada nizam-intizamın olmaması, kadr siyasətində buraxılan səhvlər, kənd təsərrüfatının tənəzzülü, sənayenin aşağı həddə gəlib çatması, demək olar ki, respublikanı iflic vəziyyətinə gətirib çıxarmışdı. Yaxın bir müddətdə Siz bütün bu çətinlikləri aradan qaldırıb xalqa arxalanaraq Azərbaycanı dünyada, eləcə də keçmiş ittifaqda dillər əzbəri etdiniz.

İkinci dəfə tale Sizə bu ölkəni çox ağır, çətin bir şəraitdə qurmağı nəsib edib. Özü də elə bir vəziyyətdə ki, torpaqlarımızın işğal olunduğu, kənd və rayonlarımızın dağılıb viran olduğu, siyasi çəkişmələrin həddini aşdığı bir vaxtda yenə də tale bu ölkəni qurmağı Sizə nəsib edib. Mən əminəm və bütün xalq buna əmindir ki, yenə də Siz öz yorulmaq bilməyən əzminizlə, müdrikliyinizlə, uzaqgörən siyasətinizlə bu ölkəni ağır vəziyyətdən çıxaracaqsınız.

Burada çox söhbətlər oldu, çox danışıldı, təəssüf ki, biz Milli Məclisdə bir-birimizlə çox yaxın yoldaşlarıq, amma mən bəzi yoldaşlara irad tuturam. Vaxtilə həmin bu kürsüdə Müstəqil Dövlətlər Birliyinə getməməyimiz müzakirə olunanda milləti elə çaş-baş saldılar ki, dedilər, doğrudan da, biz Müstəqil Dövlətlər Birliyinə getməsək, özümüz müstəqil yaşaya biləcəyik, heç kimdən də asılı olmayacağıq. Mən həmişə özüm-özümə

sual verirəm. Vaxtında biz Müstəqil Dövlətlər Birliyinə getmədik, nə qazandıq, nə udduq. Qazandığımız o oldu, dırnaq içərisində hər şey. Ancaq itirdiyimiz bayaq hörmət etdiyim Mürşüd müəllim yerindən dedi ki, çox şey. Bəli, çox şey. Torpaqlarımız işğal olundu. Kənd və rayonlarımız viran oldu, namusumuz ayaq altına atıldı. Minlərlə şəhid verdik. Bir milyona yaxın qaçqın çölə səpələndi. Sual olunur, kimdir bunların günahkarı? Axı bunlar həm xaricdən, deyək ki, xarici erməni təcavüzündən, həm də daxili siyasətimizdən, siyasətçilərimizdən törəndi. Əgər daxildə bizdə belə parçalanma getməsəydi, siyasi oyunların qurbanları olmazdılar. Vəzifə hərisliyi olmasaydı, bəlkə də, o şəhidlər bu gün az olardı. Bəlkə, torpaqlarımızı az itirərdik. Ancaq bir şüar altında ki, biz müstəqilik, biz heç kimi tanımırıq, Müstəqil Dövlətlər Birliyinə getməyəcəyik. Ona görə mən bu gün soruşmaq istəyirəm, kimsə bu barədə bir məsuliyyət daşımalıdır? Mən əminəm ki, zaman hökmünü verəcək, günahkar adamlar, bu oyunları ortaya atan adamlar gec-tez tarix qarşısında cavab verəcəklər.

Mən 35 ilə yaxındır ki, keçmiş Lenin, indiki Sabunçu rayonunda işləyirəm və axır 16 il Razin qəsəbə sovetinin sədri olmuşam – indiki Bakıxanovda. Burada indiki Sabunçu rayonunu təmsil edən ona yaxın deputat var. Mən elə bilirəm ki, mən onların adından da desəm, səhv etmərəm. İclasarası tənəffüsdə biz yerlərdə olmuşuq, camaatın fikrini bilirik və mən sizi əmin edə bilərəm ki, 200 minlik əhalinin 10, 15 faizini çıxmaq şərti ilə hamısı Sizin bu müdrik siyasətinizi müdafiə edir və Müstəqil Dövlətlər Birliyinə getməyi heç də bir qəbahət saymır, o cümlədən mən də onlara qoşuluram. Doğrudan da, bizim bu gün başqa çıxış yolumuz yoxdur. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Biz iki saatdır işləyirik. Burada Məclis üzvlərindən çox şəxslər yazılıb, mən hesab edirəm ki, onlar çıxış etməlidir. Təklif edirəm, yarımsaatlıq tənəffüs edək, ancaq düz yarım saatdan sonra bura toplanıb işimizi davam etdirək.

***(FASİLƏDƏN SONRA)***

**Sədrlik edən.** Axşamınız xeyir olsun. Xahiş edirəm, Məclis üzvləri qeydiyyatdan keçsinlər.

***(Qeydiyyat)***

39 nəfər iştirak edir, yetərsay var.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Ola bilər, indi gələcəklər. Milli Məclisin üzvlərinin bir qismi çıxışa yazılıblar. Güman edirəm, Məclis üzvləri mənə izin verərlər

ki, müzakirədə bəzi çıxışlar təkrar olduğuna görə mən bu siyahıya görə yox, cürbəcür fikirləri öyrənmək üçün, eyni zamanda – mənə tənəffüsdə yanaşdılar – həm bəzi Məclis üzvlərinə, həm də Məclis üzvü olmayanlara söz verim.

Ona görə mən istərdim ki, Baş prokuror Əli Ömərov çıxış etsin. Ondan sonra Mirmahmud Fəttayevə söz verəcəyəm.

**Əli Ömərov,** ***Azərbaycan Respublikasının Baş prokuroru.*** Hörmətli sədr, hörmətli millət vəkilləri. Hər şeydən əvvəl mən demək istəyirəm ki, Müstəqil Dövlətlər Birliyinə mənim münasibətim müsbətdir. Müstəqil Dövlətlər Birliyi haqqında Sazişin məzmununu şərh eləmək üçün istərdim, ən çox bizim hüquqşünaslarımız, siyasətçilərimiz, politoloqlarımız müzakirədə iştirak eləsinlər. Bunu ona görə deyirəm, birinci növbədə bilmək lazımdır ki, müqavilənin özü nədir, müqavilədən irəli gələn öhdəliklər, hüquq və vəzifələrin məzmunu nədən ibarətdir.

Müstəqil Dövlətlər Birliyi haqqında anlayışa gəldikdə, mən bu məzmunun birlik kimi adlandırılmasının əleyhinəyəm, çünki mənə belə gəlir ki, düzgün tərcümə olunmayıb, yaxşı olardı, bu, müstəqil dövlətlərin əməkdaşlığı və yaxud həmrəyliyi adlanaydı. Onda təbii ki, adamlarımız arasında çaşqınlıq yaranmazdı, bilavasitə bu müqavilənin məzmunundan irəli gələn tələblər daha aydın şəkildə başa düşülərdi. Həmin müqavilə, hər şeydən əvvəl, giriş hissəsindən göründüyü kimi, hamılıqla qəbul olunmuş beynəlxalq hüquq prinsiplərinə və normalarına, Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə, Helsinki Yekun Aktının müddəalarına, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Məsələlərinə dair Müşavirənin digər sənədlərinə müvafiq surətdə tərtib olunmuşdur. Elə bu o deməkdir, müqavilənin birinci maddəsində göstərilir ki, birlik özünün bütün üzvlərinin suveren, bərabərlik prinsiplərinə əsaslanır. Üzv dövlətlər beynəlxalq hüququn müstəqil və bərabərhüquqlu subyektləridir. Birlik üzvü dövlətləri arasında dostluq, mehriban qonşuluq münasibətləri, millətlərarası həmrəylik, etimad məsələləri bu müqavilənin əsas məzmununu təşkil edir.

Ən yadda qalan an ondan ibarətdir ki, burada yazılır, birlik dövlət deyildir və fövqəl səlahiyyətlərə malik deyildir. Əgər “birlik” sözü “əməkdaşlıq”, yaxud “həmrəylik” sözü ilə əvəz olunardısa, onda əməkdaşlıq dövlət deyildir anlayışı daha bariz şəkildə özünü büruzə verərdi. Həmçinin bu maddənin axırıncı bəndindəki birlik fövqəlmilli səlahiyyətə malik deyildir anlayışına diqqət etdikdə, buradan belə bir məntiqi məna çıxar-

maq olar ki, yəni bu birliyə daxil olan dövlətlərin heç birinin digərinin üzərində üstünlük hüququ yoxdur, yəni bir millətin digər millət üzərində üstünlük hüququ yoxdur.

Mən bir şeyi də şərh eləmək istərdim ki, hər bir müqavilənin prinsipləri ümumi, bir də xüsusi prinsiplərə əsaslanır. Əgər ümumi prinsiplərdə müqavilənin predmetində əmələ gələn məzmun açıq şəkildə şərh olunursa, xüsusi prinsiplər hər hansı bir dolaşıqlıq və formal cəhətdən məzmunca dolaşıqlıq yaradarsa, onda ümumi prinsiplərə əsaslanaraq həmin çaşqınlıq yaradan müddəaları ümumi prinsiplər əsasında aydınlaşdırmaq, şərh eləmək daha məqsədəmüvafiqdir. Mən müqavilənin 4-cü maddəsinə nəzər yetirməyi xahiş edirəm. Həmin maddədə göstərilir ki, üzv dövlətlərin birlik çərçivəsində götürdükləri öhdəliklərə uyğun olaraq, ümumi əlaqələndirici təsisatlar vasitəsilə hüquq bərabərliyi əsasında həyata keçirdikləri birgə fəaliyyət sahələrinə aşağıdakılar aiddir. Burada, yəqin ki, müqavilə hamıda olduğuna görə mən oxumuram.

Mən, sadəcə olaraq, burada bir bəndi oxumaq istərdim, mütəşəkkil cinayətkarlığa qarşı birgə mübarizə. Yəni bu müddəada, 4-cü maddədə ilk növbədə belə bir fikir yürütmək olar ki, bu müddəaya əsasən ümumi əlaqələndirici təsisatlar dedikdə burada vahid dövlət anlayışından söhbət gedir, yaxud vahid dövlət anlayışı həmin o maddədə sadalanan xüsusatların hamısının tənzimlənməsi üçün rəhbərlik göstərir. Ancaq bayaq dediyim kimi, ümumi prinsiplərə əsasən müddəalara fikir verdikdə, birinci maddədə istənilən birliyə daxil olan dövlətlərin müstəqil beynəlxalq suveren hüquqları olduğu nöqteyi-nəzərindən bu anlaşılma, yəni bu əlaqələndirici vasitələri bir dövlət kimi başa düşmək lazım deyil, bunu işgüzar fəaliyyətdə başa düşmək lazımdır.

Mən, sadəcə olaraq, bir misal çəkmək istərdim. Heç kəsə sirr deyil ki, hər hansı bir ölkənin, respublikanın ərazisində baş vermiş cinayət hadisələri məkana, zamana görə həmin respublikanın ərazisinə aiddir. Belə götürək, əgər bizim Rusiya Federasiyası ilə hüquq münasibətlərinə dair müqaviləmiz yoxdursa, Azərbaycan ərazisində cinayət hadisəsi törətmiş və Rusiyada olan vətəndaşın, müqəssirin bura gətirilməsi üçün bir fəaliyyət göstərə bilmirik. Fəaliyyət göstərsək də, bizim xahişimiz təmin olunmur. Amma geniş mənada müqavilə olarkən həm biz onlara qarşı öz iddialarımızı, həm də onlar bizə qarşı iddialarını irəli sürürlər və qarşıya qoyduğumuz məsələləri birgə həyata keçiririk, yəni cinayətkarlığa qarşı apardığımız mübarizədə Rusiya Federasiyası iştirakçı dövlət kimi bizə

kömək eləyir. Ona görə də 4-cü maddəni ümumi bir rəhbərlik kimi qəbul eləmək, sadəcə olaraq, qanunu bilməmək kimi qiymətləndirilməliydi.

Bundan başqa, 90-cı maddəyə nəzər salsaq, birinci maddədə göstərilən birlik dövlət deyildir məfhumu bir daha açıq şəkildə özünü göstərir, yəni 9-cu maddədə göstərilir ki, üzv dövlətin birlikdən çıxmaq ixtiyarı vardır. Üzv dövlət bu niyyət barəsində birlikdən çıxmasına dair 12 ay qalmış bu Nizamnamənin depozitarisinə yazılı bildiriş göndərir. Yəni biz bilirik ki, hər bir müqavilə bağlanarkən müəyyən hüquqlar və vəzifələr yaranır. Müqavilə iştirakçılarının hər biri həm hüquqlar, həm də vəzifələr daşıyırlar. Ona görə də bu müqavilə bağlanarkən üzv dövlətlərin hər biri öz üzərinə müəyyən öhdəliklər götürür. Bu öhdəliklərdən, yəni digər iştirakçılar qarşısında öhdəliklərdən tamamilə xilas olunması üçün buna müəyyən müddət lazım olduğundan həmin maddədə 12 ay müddət qoyulmuşdur. Bu da müqavilə iştirakçılarının suverenliyinin, onların sərbəstliyinin başqa bir təminat formasıdır.

Bundan əlavə, burada maddələrin hamısını sadalamağa ehtiyac yoxdur. Ən vacib maddələrdən biri 12-ci maddədir. Bu maddədə bir və ya bir neçə dövlətin suverenliyi, təhlükəsizliyi və ərazi bütövlüyü beynəlxalq sülh və təhlükəsizlik üçün qorxu törətdikdə üzv dövlətlərin mövqelərini əlaqələndirməklə yaranmış qorxunu aradan qaldırmaq üçün tədbirlər görmək, o cümlədən sülhyaratma əməliyyatları keçirmək və zərurət olduqda BMT Nizamnaməsinin 51-ci maddəsinə müvafiq surətdə öz hüquqlarını həyata keçirmək qaydasından bəhs olunur. Mən bu maddənin ona görə adını çəkdim ki, həmin maddəyə uyğun maddə Kollektiv təhlükəsizlik haqqında Sazişin 4-cü maddəsində özünü göstərir. Bu maddəni izah eləməklə mən bəzi məsələləri aydınlaşdırmaq istəyirəm.

Bəzən burada sual olunur ki, əgər biz Müstəqil Dövlətlər Birliyinə daxil olarıqsa, bunun bizim ərazi bütövlüyümüzə, sərhəd toxunulmazlığımıza bir xeyri, bir mənfəəti varmı? Yoldaşlar çox haqlı olaraq qeyd elədi ki, bunun üçün əvvəlcədən təminat vermək olmaz. Lakin həmin 4-cü maddənin məzmununa diqqət etdikdə görünür ki, bu müqavilə iştirakçıları həmin ölkənin ərazi bütövlüyünün və suverenliyinin toxunulmazlığı üçün təminat verirlər. Mən maddəni xatırlatmaq istərdim. Həmin maddədə göstərilir ki, əgər iştirakçı dövlətlərdən biri hər hansı dövlət və ya dövlətlər qrupu tərəfindən təcavüzə məruz qalarsa, onda həmin müqavilənin bütün iştirakçı dövlətlərinə qarşı təcavüz kimi qiymətləndirilməlidir. İştirakçı dövlətlərdən hər hansı birinə qarşı təcavüz hərəkəti edildiyi təqdirdə qalan bütün iştirakçı dövlətlər hərbi kömək

də daxil olmaqla ona lazımi köməyi edəcək. Habelə onların sərəncamındakı vasitələrlə BMT Nizamnaməsinin 51-ci maddəsinə müvafiq surətdə öz hüquqlarını həyata keçirəcəklər, yəni istər Müstəqil Dövlətlər Birliyi haqqında olan Nizamnamənin 12-ci maddəsi, istərsə də Kollektiv təhlükəsizlik haqqında olan müqavilənin 4-cü maddəsi məzmun etibarilə bir-biri ilə ahəngdar vəziyyətdə bağlıdır, müştərəkdir və onların məzmunu qanun çərçivəsində beynəlxalq hüququn suveren subyektləri kimi bütün iştirakçı dövlətlərə şamil olunur. Yəni biz istəsək də, istəməsək də əgər Müstəqil Dövlətlər Birliyinə daxil olan ölkələr bu müqaviləyə qol çəkərlərsə, 4-cü maddənin məzmununa əsasən, birinin digərinin ərazi bütövlüyünə xidmət eləməsi və suverenliyinin toxunulmazlığına qarşı mübarizə aparması öz-özlüyündə bu müqavilənin bilavasitə öhdəliyindən irəli gəlir. Yəni biz daha deyə bilmərik ki, Kollektiv təhlükəsizlik haqqında müqaviləyə imza atsaq, bizim suverenliyimiz təmin olunmayacaq. Ancaq maddənin özündən bilavasitə görünür, həmin iştirakçı dövlətlərin hamısının bilavasitə hüquqlarıdır ki, bizim suverenliyimizə və ərazi bütövlüyümüzə hörmət eləsinlər.

Bundan başqa, həmin müqavilənin 17-ci maddəsində daha aydın bir şərt vardır. Orada göstərilir ki, birliyin üzvü olan dövlətlər digər üzv dövlətlərə zərər vura bilən, mümkün mübahisələri kəskinləşdirə bilən hərəkətlərdən çəkinəcəklər. Yəni bu, bir daha təsdiq eləyir ki, üzv ölkələrin heç biri digərinin işinə qarışmaq hüququna malik deyil və biri digərinin üzərində üstünlük səlahiyyətinə malik deyildir.

Bundan başqa, bu müqavilənin bir çox maddəsində dolaşıq olan hallar da var ki, bunu ilk baxışdan camaat başqa cür başa düşür. Burada bir maddə var, mən bunu oxumaq istərdim, 35-ci maddə, yazılır ki, birliyin işlək dili rus dilidir. Burada çox vaxt belə bir şübhə yaranır, bu, müstəqil bir dövlət kimi, yəni vahid bir dövlət kimi fəaliyyət göstərən birlikdir, nə qədər ki dil rus dilidir, elə burada rus imperiyasından söhbət gedir, burada rus dövləti hegemon bir dövlət kimi birliyin digər üzvləri üzərində hegemonluğa malikdir. Amma maddəyə diqqət yetirdikdə, burada söhbət dövlət dilindən getmir.

**Sədrlik edən.** Əli müəllim, belə şeyə vaxtını itirmə, bu elə bir prinsipial şey deyil. Axı onu deyən adam başa düşmür ki, Hindistan 1949-cu ildə öz müstəqilliyini əldə eləyib, indiyə qədər ingilis dilini işlədir. Müstəqil dövlətdir. Yaxud dünya birliklərində ingilis dili ən geniş yayılmış dildir və bütün ölkələr də bu dili işlədirlər. Əgər bu Müstəqil Dövlətlər Birliyi yaranırsa, bu müstəqil dövlətlərin hamısının eyni səviyyədə bildiyi dil rus

dilidir. Bunu sübut eləməyə ehtiyac yoxdur. Bu barədə danışan adamlar, sadəcə, o qədər geridə qalmış adamlardırlar ki, buna vaxtını itirmə.

**Əli Ömərov.** Bir sözlə, mən demək istəyirəm ki, bu müqavilədə bizim müstəqilliyimizə və suverenliyimizə xələl gətirən heç bir şey yoxdur, ona görə də mən həm Müstəqil Dövlətlər Birliyi haqqında Nizamnamədə yazılan müddəaların tərəfdarı olmaqla Müstəqil Dövlətlər Birliyinə getməyin, həm də Kollektiv təhlükəsizlik müqaviləsinə qol çəkməyin tərəfdarıyam. Sağ olun. Diqqətinizə görə minnətdaram.

**Sədrlik edən.** Sağ olun.

Mirmahmud Fəttayev. Sonra Tofiq Qasımov hazırlaşsın. Buyurun.

**Mirmahmud Fəttayev.** Hörmətli millət vəkilləri, hörmətli Heydər bəy, mən çıxışıma başlamazdan əvvəl kiçik, amma mühüm əhəmiyyət kəsb eləyən bir iradımı bütün Milli Məclis üzvlərinin nəzərinə çatdırmaq istəyirəm. Milli Məclisin ötən iclasında biz Ali Sovetin sədri, Prezidentin səlahiyyətlərini həyata keçirən Heydər Əliyevin Moskva səfərini müzakirə edirdik və o məsələnin haqqında da qərar qəbul etdik. Həm onda, həm də indi məsələnin mahiyyəti bir kənarda qalıb, MDB-yə münasibət keçən dəfədən müzakirə obyektinə çevrilib və keçən dəfə mənə söz çatmadığına görə həmin iradımı bu gün deməli oldum.

MDB-yə mənim şəxsi münasibətim birmənalıdır. Bu gün çıxış eləyənlərin, yəni MDB-ni tərifləyib, MDB-yə getməyin əhəmiyyətindən danışanların fikirlərinin əleyhinə olaraq yalnız bir məsələni qeyd etmək istəyirəm ki, MDB-yə Azərbaycan Respublikasının daxil olması və MDB-dən Azərbaycan Respublikasının bugünkü iqtisadi-siyasi, hərbi problemlərinin həlli yollarının axtarılıb tapılması absurddur. Absurd olan bir məsələnin isə müzakirəsinə ehtiyac duymuram. Yalnız dövlət katibi Lalə xanım Hacıyevanın keçən iclasda dediyi məsələyə görə bu məsələ haqqında öz fikrimi bildirmək istəyirəm.

Lalə xanım bizi opponent adlandırdı və qeyd etdi ki, siyasi polemikayla məşğul olanlar arqumentlərini deməlidirlər. Həmin arqumentləri deməkdən ötrü absurd olan bu məsələ, Müstəqil Dövlətlər Birliyinin Nizamnaməsinə və Təhlükəsizlik haqqında müqaviləyə münasibəti bilavasitə uyğun sənədlərin maddələri üzrə bildirmək istəyirəm. Bununla əlaqədar olaraq bir neçə kəlmə şəxsən Sizə olan münasibətlər haqqında deməli olacağam. Bunu sonda deyərəm.

Müstəqil Dövlətlər Birliyi haqqındakı Nizamnamənin 2-ci maddəsində üzv dövlətlərin ümumi iqtisadi məkan çərçivəsində hərtərəfli və ta-

razlaşdırılmış iqtisadi və sosial inkişafı nəzərdə tutulur. İkinci maddənin sonunda birlik dövlətləri arasında mübahisələrin və münaqişələrin dinc yolla həll edilməsi məsələsi qarşıda duran əsas vəzifələrdən biri kimi göstərilir. Maraqlıdır ki, Müstəqil Dövlətlər Birliyinə daxil olan Ukrayna, Belarusiya, Rusiya hələ SSRİ dövründən BMT-nin üzvləri idi və bu gün də Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinə, yəni ATƏM-ə daxil olan dövlətlərdən MDB dövlətləri üzvləri də var. Əgər beynəlxalq təşkilatlar, BMT, o cümlədən ATƏM, deyək ki, Azərbaycanın problemini dinc yolla həll edə bilmirsə, onda Müstəqil Dövlətlər Birliyi onu necə həll edə biləcək və bizim fikirlərimizin əleyhinə fikir deyənlərin özləri də təsdiq edirlər, biz keçmiş ittifaqın bərpasından danışırıq və o bərpaya bir növ zəmin yaradan şərtlərdən biri də budur.

3-cü maddədə bir-birinin daxili və xarici işlərinə müdaxilə edilməməsi məsələsi danışılır və sonra isə 4-cü maddədə xarici siyasi fəaliyyətin əlaqələndirilməsindən söhbət gedir. Bir-biri ilə ziddiyyət təşkil eləyən bu məsələlər bir daha onu göstərir ki, MDB SSRİ-nin yeni formasından başqa bir şey deyil.

3-cü maddədə sonuncu abzasda xalqların ruhən birləşdirilməsi, mənim fikrimcə, yeni sovet xalqının yaradılmasından başqa bir şey deyil. 4-cü maddədə birgə fəaliyyət sahələrinə aid olan məsələlərdən danışılanda gömrük siyasətinin formalaşdırılması, bu siyahıya üzv dövlətlərin qarşılıqlı razılığına əsasən digər əlavələr edilməsi, 5-ci maddədə bağlanmış sazişlər birliyin məqsəd və prinsiplərinə üzv dövlətlərin bu Nizamnamə üzrə öhdəliklərinə uyğun gəlməlidir sözləri.

7-ci maddədə birliyin məqsəd və prinsiplərinə tərəfdar olan və üzv dövlətlərin hamısının razılığı ilə Nizamnaməyə qoşulmaq yolu ilə Nizamnamədəki öhdəlikləri götürən dövlət də birliyin üzvü ola bilər kimi fikirlər bu gün Azərbaycan və Ermənistan arasındakı münaqişələrin həllində gələcəkdə hər hansı bir uğurun əldə edilə bilməyəcəyindən xəbər verir.

13-cü maddədə qarşılıqlı razılaşma əsasında üzv dövlətlər sərhəd qoşunlarını və üzv dövlətlərin xarici sərhədlərini keçməyin müəyyənləşdirilmiş qaydasına əməl olunmasına nəzarət edən və bunun üçün məsuliyyət daşıyan digər səlahiyyətli xidmətlərin fəaliyyətini əlaqələndirirlər.

Siz hələ Moskvaya getməmişdən əvvəl mən Sizin səfəriniz haqqında öz fikrimi bildirmişdim. O vaxt bizim cənub sərhədlərə Türkiyənin, İranın qoşunlarının çıxarılması haqqında Moskvanın verdiyi xəbərlər, son-

radan isə "Dağlıq Qarabağ Respublikası" nümayəndələrinin bizim tərəfimizdən dövlət səviyyəsində tanınması haqqındakı fikrimi demişdim, bir daha təkrarlamağa ehtiyac duymuram. Həmin fikirlər də 13-cü maddədə özünün əksini tapıb.

19-cu maddədə kredit-maliyyə siyasətinin əlaqələndirilməsi, ümumi informasiya məkanının inkişafına kömək göstərilməsi, 23-cü maddədə Dövlət Başçıları Şurasının, Hökumət Başçıları Şurasının qərarlarının razılıq, konsensus yolu ilə qəbul edilməsi, hər hansı dövlət bu və ya digər məsələdə maraqlı olmadığını bildirə bilər ki, bu isə qərar qəbul olunması üçün maneə sayılmamalıdır sözləri.

27-ci maddədə Xarici İşlər Nazirləri Şurası üzv dövlətlərin xarici siyasi fəaliyyətini, o cümlədən onların beynəlxalq təşkilatlarda fəaliyyətini əlaqələndirir və qarşılıqlı maraq doğuran dünya siyasəti məsələlərinə dair məsləhətləşmələr təşkil edir. 30-cu maddədə Birləşmiş Silahlı Qüvvələrin Baş Komandanlığı, 31-ci maddədə Sərhəd Qoşunları Komandanları Şurası sərhədlərin mühafizəsi, bu sərhədlərdə sabit vəziyyətin təmin edilməsi məsələləri üzrə orqanıdır fikirləri, bütün bunların hamısı mənim dediklərimə sübutdur.

36-cı maddədə parlamentlərarası məclis parlamentlərarası məsləhətləşmələr keçirib, birlik çərçivəsində əməkdaşlıq məsələlərini müzakirə edib, milli parlamentlərin fəaliyyəti sahəsində birgə təkliflər hazırlayır sözləri keçmiş SSRİ Xalq Deputatları Qurultayına hazırlıqdan, yəni keçmiş SSRİ xalq deputatlarının statusunu yenidən qaytarmaqdan, təmin etməkdən xəbər verir və bu haqda Sizin də dediyiniz kimi Ruslan Xasbulatovun bu yaxındakı çıxışı bir daha bunu sübut eləyir.

42-ci maddədə təklif edilmiş düzəlişlərə Dövlət Başçıları Şurasının iş üsulu qaydalarına müvafiq surətdə baxılır, 23-cü maddədə tamamilə əksinə olaraq cavab verilir. Bütün bunlarla yanaşı, keçən dəfə dövlət katibinin xüsusi olaraq qeyd etdiyi bir məsələ var idi. Kollektiv təhlükəsizlik haqqında müqavilədən danışarkən dövlət katibi 11-ci maddədə xüsusi olaraq istinad elədi və millət vəkilləri içərisində bu zalda təxmini olaraq guya biz siyasi cəhətdən hələlik savadlanmalıyıq ideyası səsləndi ki, biz hələ təhsilimizi artırmalıyıq. Təhsil artırmaq hər vaxt lazımdır, ölənə qədər. Peyğəmbər Əleyhissalam belə buyurmuşdu. Həmin maddəni, deməli, bütöv oxumadı və bu maddə belə idi ki, bu müqavilə sonra uzadılmaqla beş il müddətinə saxlanılır, iştirakçı dövlətlərdən hər hansı biri bu müqavilədən çıxmaq hüququna malikdir. Bir şərtlə ki, öz niyyəti

barədə onun digər iştirakçılarını azı altı ay qabaqcadan xəbərdar etsin. Sonrasını oxumadı, bu müqavilədən çıxmaqla əlaqədar ondan irəli gələn bütün öhdəlikləri yerinə yetirsin. Həmin öhdəliklər barəsində bu gün Milli Məclisdə millət vəkilləri müdafiə nazirinə sual verəndə də cavab ala bilmədilər.

Mənim gətirdiyim sübutlar və dəlillərdən əlavə hamımızın tez-tez istinad etdiyi bir sənəd də var, bu da Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktıdır. Bayaq Mürşüd bəy bu məsələdən danışanda 12-ci maddəyə istinad elədi ki, həmin maddəyə görə də biz heç bir formada başqa dövlətlərə və ya dövlət ittifaqlarına öz səlahiyyətlərimizi verə bilmərik.

Bundan başqa, hörmətli Heydər bəy, Sizin müəllifi olduğunuz 1978-ci ildə təsdiq edilmiş Azərbaycan Sovet Sosialist Respublikasının Konstitusiyası var, həmin Konstitusiyanın bəzi maddələri o vaxt, deməli, dövlət müstəqilliyi elan ediləndən sonra bugünkü real vəziyyətə uyğun gəlmədiyinə görə bəziləri dəyişdirildi, yəni real şəraitə uyğunlaşdırıldı, bəziləri isə bu gün də öz qüvvəsini saxlayır. Həmin maddələrdən biri də 68-ci maddədir. Həmin 68-ci maddədə çox gözəl yazılıbdır və o maddədən yalnız "Sovet Sosialist" sözləri çıxarılıbdır, o maddəyə görə də könüllülük əsasında Sovet Sosialist Respublikaları İttifaqının yaradılmasından söhbət gedirdi.

Xatırlatdığım məsələ ona görədir ki, yəni Siz həm idarəetmə, həm də siyasət sahəsində bizim hamımızdan daha təcrübəlisiniz və öz təcrübənizə istinad edərək xatırlaya bilərsiniz, SSRİ Konstitusiyası və SSRİ-nin yaradılması haqqında birinci ittifaq müqaviləsi, həm də sonradan yeniləşdirilmiş ikinci ittifaq müqaviləsi öz aktuallığına, gəlişi gözəl sözlərə, cümləpərdazlığına görə çox müstəsna əhəmiyyəti olan bir sənəd kimi dırnaqarası qiymətləndirilə bilər. Amma o gözəl sözlərin, o cümləpərdazlığın arxasında nələr oldu, onu Siz də gözəl bilirsiniz. Mən Sizin bütün bu məsələyə görə münasibətlərinizə şübhə eləmirəm, amma bəzi qeydlərimi, əvvəlcədən qeyd etdiyim kimi, icazə versəniz deyərdim. Yəni sırf Sizin fəaliyyətinizə aid olaraq, burada bir tarixi sənədi oxumaq istəyirəm. Bu tarixi sənəd bu gün də öz aktuallığını itirməyib. Mənə elə gəlir ki, bu tarixi sənəd özünün aktuallığını hələ çox uzun illər saxlayacaq:

*"Azərbaycan xalqının gələcək taleyi həll olunur. Biz hamımız, hər halda, əksəriyyətimiz İttifaqa həddindən artıq inanmışıq, sədaqətlə xidmət etmişik, xalqımızın səadətini, xoşbəxt gələcəyini bu İttifaqın daxilində görmüşük. Mən*

*və mənim həmkarlarım İttifaqın möhkəmlənməsi üçün daim çalışmış, Azərbaycan xalqında bu İttifaqa sadiqlik və məhəbbət hissiyyatları yaratmağa cəhd etmişik. Fəqət son illərdə dünyada, ölkədə gedən ictimai-siyasi proseslər keçmişimizə münasibəti, ümumi dünyagörüşünü dəyişdirdi. İndi isə, hesab edirəm ki, bizim xalqımız üçün yetmiş illik imtahan bəsdir. Tam bir İttifaqa, yeni bir İttifaqa girməyi Azərbaycan xalqına rəva bilmirəm. Bir sözlə, mən yeni İttifaqa daxil olmağın heç bir şərt qoymadan əleyhinəyəm. Azərbaycanın tam istiqlaliyyət, azadlıq, iqtisadi və siyasi müstəqillik yolu ilə getməsinin tərəfdarıyam.*

*Azərbaycan xalqının birliyi yeni, demokratik, heç kəsdən asılı olmayan dövlət quruluşu yolu ilə təmin oluna bilər. Doğrudur, bu yolda çətinliklər də az olmayacaq. Bu yola düşməsək, biz əgər bunu etməsək, gələcək nəsillər edəcək. Tarix, onlar bizi bağışlamayacaqdır. İndi hər bir namuslu, qeyrətli azərbaycanlı gərək öz şəxsi mənafelərindən, imtiyazlarından imtina etsin, unutsunlar, xalqın aqibəti, onun bu günü və gələcəyi haqqında düşünsünlər. Xalqın müqəddəratı hər şeydən üstün olmalıdır". 7 mart 1991-ci il, Ali Sovetin sessiyası, Heydər Əliyevin çıxışı və ona qarşı olan iradlar.*

Siz 1993-cü il 15 iyunda Ali Sovetin sədri seçilərkən də qiymətli sözlər demişdiniz, o sözlərdən biri belə idi ki, mən heç kəsə qarant vermirəm, mən Peyğəmbər deyiləm, mənim hakimiyyətim dövründə Azərbaycanın dövlətçilik kursu dəyişməyəcək. Bu sözlər də var və mən bu sözlərin səmimiliyinə tam inanıram. Əvvəl xatırlatdığım, iqtibas gətirdiyim həmin çıxışa da, bayaq dediyim kimi, Ali Sovetin sədri seçildiyiniz vaxtda deyilənlərə də inanıram. İnanıram ki, bu kurs dəyişilməyəcək. Ancaq öz dəst-xəti olan bir siyasətçi kimi bu gün Siz indi Prezidentliyə namizədsiniz, istər-istəməz, yəni Mirmahmud, digərləri istədi, istəmədi, bu gün Siz Azərbaycan Respublikasının Prezidentliyinə namizədsiniz və Prezidentliyə namizəd olduğunuza, mənim də bəzi məsələlərdən az-çox məlumatım və xəbərim olduğuna, bir-birimizi xeyli müddət tanıdığımıza görə bəzi məsələləri yenə də demək istəyirəm. Amma dediyim kimi, bu məsələləri deməyi Sizin qəbul edəcəyinizi, etməyəcəyinizi nəzərə almıram, yəni ola bilər, qəbul edəsiniz, etməyəsiniz, amma tarix üçün deyirəm. Bu məsələlər nədən ibarətdir?

Birincisi, hələ iki ay bundan əvvəl Gəncə hadisələri məsələsi müzakirə olunanda, düz iki ay bundan əvvəl mən o tribunadan çıxış edərək demişdim ki, ikinci dəfədir mən bu tribunadan çıxış edirəm, birinci dəfə İttifaq müqaviləsinə qoşulanda çıxış eləmişəm və indi də Azərbaycan Respublikası təxminən həmin ərəfədədir və bu sözlərin aktuallığı bu gün özünü sübut edir, bir daha təsdiqləyir.

İkincisi, komissiyaların Sizə, ümumiyyətlə, işlədiyiniz dövrdə, istər keçmiş dövrdə, istər indiki dövrdə məlumatlarının düzgün çatdırılmaması. İfadə üçün mən üzr istəyirəm, bəlkə də, Sizin aldadılmağınızı şəxsən mən qəbul edə bilmirəm. Necə olur ki, Sizə məlumatları düzgün vermirlər? Keçən dəfə iclasdan əvvəl komissiyalara tapşırıldı, komissiyalar bu məsələni müzakirə edib və növbəti dəfə, deməli, Milli Məclisin gündəliyinə çıxarırıq. Siz yalnız bir komissiyanın – Dövlət quruculuğu və hüquq siyasəti komissiyasının iclası və onun üzvlərinin tutduqları mövqe haqqında danışdınız. Üzvü olduğum Qaçqınlar və xaricdə yaşayan soydaşlarla əlaqə komissiyasının üç üzvündən ikisi MDB-yə münasibətin, yəni Azərbaycanın MDB-yə girməsinin əleyhinə olublar, bir nəfər – komissiyanın sədri isə lehinə olub. Rəsmi şəkildə komissiyanın üç üzvü var.

Sizi Azərbaycan xalqının yeganə pənahı, ümidi adlandırırlar. Heydər bəy, mən üzr istəyirəm, xahiş edirəm, o cümləyə diqqətlə fikir verin və Siz də ömrünüzün, yaşınızın bu vaxtında deyirsiniz ki, dinə inanırsınız. Dinə görə, şəriətə görə iki cür günah var. Günahi kəbirdir, günahi səqirdir. Böyük günahlardan biri budur, Allahı inkar edəsən. Sizin Azərbaycan xalqının son ümidi, yeganə pənahı olmağınız Sizin şəxsi varislərinizin də, Azərbaycan xalqının da hamisinin olmamasını sübut edir, kim bunu deyirsə, çox böyük günah edir və həm də o deməkdir ki, Siz Allaha şərik çıxırsınız. Bu həmdi-surə deməkdir, bütün insanların yerdə yeganə ümidi, məbudu onların pənahı Allahdır. Allahdan başqa, insan övladının, bütün canlı məxluqatın ikinci bir pənahı, son ümid yeri yoxdur. Siz də bütövlükdə, bütün problemlərin həll olunmasında Azərbaycan xalqının, iqtidarlı-müxalifətli hamısının qüvvələrinin səfərbər edilməsi ilə o problemləri həll etməyə söz vermisiniz. Mənə elə gəlir ki, bu, ən ağıllı yoldur və bu cür də həll edəcəksiniz və bu yolu tutmaq, bu cür Sizə münasibət göstərmək, o cür danışmaq, Siz bir dinə inanan adam kimi, bunu qəbul eləməlisiniz.

Azərbaycan xalqının son ümid yeri, yeganə pənahı bütün xalqlarda olduğu kimi Allahdır. Nə Əbülfəz Elçibəydir, nə Heydər Əliyevdir, nə Mirmahmuddur, nə qeyrisidir, Allahdır və bir də ağıllı rəhbərlərdir. Amma ağıllı rəhbərlər ikinci yerdədir, Allahdan sonra.

Növbəti məsələ, müzakirə olunan məsələlərin dəxli olmadan hər danışan şəxs Azərbaycan Xalq Cəbhəsinə münasibətini bildirir. Mən heç yerdə Azərbaycan Xalq Cəbhəsini müdafiə eləməmişəm, ona ehtiyac da duymamışam, Azərbaycan Xalq Cəbhəsinin üzvü də olmuşam və bu gün də üzvüyəm, amma onun məramı, məqsədi aydındır. Kommunist

dövründə rüşvətxorluğa, yerliçiliyə, dostbazlığa qarşı mübarizə aparan rəhbərlik və başda Siz olmaqla çox böyük rüşvətxorları ifşa edirdiniz və kommunist dövründə pulu yerdə basdırıb xalqa çatdırmayan birinci katiblər də var idi. O pullar məhv olub gedirdi və bu cəmiyyətin üzvləri həmin o dövrdən qalan adamlardır, təbii ki, Xalq Cəbhəsinin üzvlərindən də var. Konkret olaraq onlara Siz ciddi cəza verdiyinizə görə və Sizin elə bir qabiliyyət sahibi olduğunuzu nəzərə alaraq, mən Sizdən təkidlə xahiş edirəm. Əgər Azərbaycan Xalq Cəbhəsinin də elə naqis üzvləri varsa və bu naqis üzvlər nəinki Azərbaycan Xalq Cəbhəsinin, Azərbaycan xalqının adına ləkə gətirirsə, konkret olaraq həmin faktlara görə cinayət işi də qaldırmaq lazımdır, onun cəzasını da vermək lazımdır. Yəni yeri gəldi-gəlmədi, Azərbaycan Xalq Cəbhəsinin bağlanması haqqında təklif verənlər, onlara mənim bir sözüm var və o sözü də Heydər Əliyevin sözü ilə demək istəyirəm, yəni Azərbaycan Respublikasında əgər demokratiya varsa, siyasi plüralizm varsa, deməli, fikir müxtəlifliyi də var. Təbii ki, dediyim sözlərə görə məni asan olmayacaq. Fikrimin əleyhinə fikir deyənlər də deyəcəklər, yəni ola bilər, asan olsun, bu məsələ başqa şeydir, amma yeri gəldi-gəlmədi, Azərbaycan Xalq Cəbhəsinin bağlanması haqqında təklif verənlər bilməlidirlər ki, Azərbaycan xalqının əgər gələcək taleyi demokratiyadan, siyasi plüralizmdən asılıdırsa, o cümlədən o demokratiyada, o siyasi plüralizmdə, bir siyasi təşkilat kimi Azərbaycan Xalq Cəbhəsi də var. Yəni bu gün Azərbaycan Xalq Cəbhəsinin bağlanması məsələsini irəli sürənlərə xatırlatmaq istəyirəm ki, divin canı şüşədə olduğu kimi, Azərbaycan xalqının, dövlətçiliyinin canı da demokratiyadadır. Demokratiyasız bizi heç bir dünya qəbul eləməyəcək.

Reqlamentdən artıq danışdığıma görə üzr istəyirəm, ona görə ki vaxtlı-vaxtında söz ala bilmirəm, yəni elə vaxt olur, vaxt çatmır, söz olmur. Diqqətinizə görə minnətdaram.

**Sədrlik edən.** Mirmahmud bəy, Siz mənim 1991-ci il mart ayının 7-də burada, bu salonda çıxışımdan müəyyən hissəsini Məclisdə oxuduğunuza görə çox minnətdaram. Təşəkkür edirəm, çünki ola bilər, bunu bəzi adamlar oxumamışdılar və xatirinizdədir, o vaxt mən çıxış edəndə də bu salonda mənim əleyhimə təhqirlərin Siz şahidi idiniz və onu da deyə bilərəm ki, məni o çıxışa buraxmaq istəmirdilər. İki-üç dəfə mən yazı verdim, mənə söz vermədilər. Nəhayət, mən tənəffüs vaxtı, belə söz işlədərək, ultimatum verdim, əgər mənə söz verilməsə, bunun nəticəsi pis olacaq. Mən zorla o sözü aldım və mən əvvəldən bilirdim, çünki xeyirxah adamlar mənə deyirdilər ki, çıxış etməyin, Sizi təhqir edəcəklər, Sizi

hörmətdən salacaqlar və Sizə əziyyət verəcəklər, onsuz da bunun mənası yoxdur, onsuz da bu məsələ həll olunub, onsuz da Azərbaycan referenduma gedir, onsuz da Azərbaycan SSRİ-nin saxlanmasının tərəfdarıdır. Mən isə dedim ki, mən bütün əziyyətlərə dözəcəyəm, ancaq öz sözümü deməliyəm.

Siz təsəvvür edin, indi Siz gənc, siyasi işlə təzə məşğul olan bir adamsınız. Sizin əleyhinizə bir adam bir söz deyəndə inciyirsiniz. Burada kimsə deyib ki, Xalq Cəbhəsini bağlamaq lazımdır, bu Sizin ürəyinizə dəyir və Siz bunu qəbul edə bilmirsiniz. İndi təsəvvür edin ki, bu salonu da yaradanlardan biri mənəm. Bəlkə də, əsası mənəm. Bu binanı da tikənlərdən əsası, bəlkə də, mənəm və bu salonda oturan adamların əksəriyyəti vaxtilə mənimlə bir yerdə işləmiş adamlardırlar və mənim səlahiyyətimə görə vəzifələr almışdılar. Ancaq indi nə etməli, belə bir şəraitdə mən çıxış etdim və mən heç də təəssüflənmədim ki, mən o çıxışı etdim, çox adam mən foyeyə çıxanda heç mənə yaxın gəlmək istəmirdilər, salam vermək istəmirdilər. Bunlar hamısı mənim xatirimdədir. Ancaq mən heç kəsdən incimədim. Mən, sadəcə olaraq, incidim o quruluşdan, sistemdən, insanların ümumi əhvali-ruhiyyəsindən. O adamlar ki burada yerdən qışqırırdılar, yaxud sözümü kəsirdilər, reqlament deyirdilər, filan eləyirdilər, onları xatirimdən çıxarmışam. Ola bilər, indi də buradadırlar. Ola bilər.

Mən kin saxlayan adam deyiləm, mən bunu demişəm, iyun ayının 15-də burada çıxış edəndə dedim ki, mən heç vaxt kin saxlamamışam, heç kəslə şəxsi ədavətim yoxdur. Bilirsiniz, dünya insanları dəyişdirir, dünya insanları tərbiyə edir və mənim də Allahdan bir arzum odur ki, insanlar daha da sürətlə tərbiyələnsinlər, saflaşsınlar, təmizlənsinlər, ona görə də mən o çıxışımın üstündə dayanıram və ondan heç vaxt imtina etməmişəm və etmirəm.

Siz mənim o çıxışımı burada səsləndirməklə istədiniz bildirəsiniz ki, mən indi o çıxışıma zidd gedirəm, bununla mən razı ola bilmərəm. Mən o çıxışımın üstündə dayanıram və bunu dəfələrlə demişəm. Bu gün bir daha təkrar etdim ki, Azərbaycanın müstəqilliyini mən harada olursa olsun, ya bu vəzifədə, ya başqa vəzifədə, yaxud sadəcə, bir vətəndaş simasında son nəfəsimə qədər müdafiə edəcəyəm və mən öz imkanlarım çərçivəsində bu müstəqilliyin pozulmasına qətiyyən yol verməyəcəyəm.

Eyni zamanda bu müzakirə olunan məsələ və ona mənim şəxsən müsbət münasibətim heç də nə Sovetlər İttifaqının bərpasıdır, nə mənim bu çıxışıma əks fikirdir, nə də Azərbaycanın müstəqilliyini pozan bir haldır.

Xeyr, artıq bilirsiniz, mən istəmirəm, təkrar edəm ki, müstəqil dövlətlər dünyada cürbəcür qruplara, cürbəcür ittifaqlara, cürbəcür təşkilatlara daxildirlər və bundan sonra da daxil olacaqlar. Heç bir dövlət yalqız və tamamilə tənha yaşaya bilməz. Bəli, belə bir dövlət var idi. Ənvər Xoca Albaniyanı 40 il tənha saxladı, axırda onun quruluşu da dağıldı, özül də, hər bir şey dağıldı. Bilirsinizmi, həmin bu Sovetlər İttifaqı Böyük Vətən müharibəsinə, yəni İkinci Dünya müharibəsinə qədər bütün dövlətlərdən təcrid idi, heç bir ittifaqa daxil deyildi, amma İkinci Dünya müharibəsi vaxtında ideologiya cəhətindən bir-birinə zidd olan dövlətlərlə, Amerika Birləşmiş Ştatları ilə, İngiltərə ilə ittifaqa girdi və bu üçlüyün ittifaqı – şübhəsiz, əsas rolu Sovetlər İttifaqının gücü oynayırdı – alman faşizminin ləğv olunmasına gətirib çıxardı. İttifaqsız bir şey ola bilməz.

Dövlətlərin cürbəcür ittifaqa girməsi onların müstəqilliyinə xəyanət etməsi deyil, ona görə mən istəyərdim, Siz fikir çərçivənizi bir az genişləndirəsiniz. Əgər genişləndirsəniz, mən güman edirəm ki, Siz bunları dərk edə bilərsiniz. Amma indi dərk etmək istəmirsiniz, sadəcə olaraq, Siz bu xırda çərçivədə, dar çərçivədə düşünüb və ondan kənara çıxmaq istəmirsiniz. Sonra bu heç də Sovetlər İttifaqının bərpası kimi qiymətləndirilə bilməz.

Axı Siz özünüz fikir müxtəlifliyinin tərəfdarısınız. Siz özünüz siyasi plüralizmin tərəfdarısınız. İndi Ruslan Xasbulatov orada bir söz deyir, Rudskoy başqa bir söz deyir, başqası başqa bir şey deyir, biri Kommunist Partiyasını bərpa etmək istəyir, biri Sovet İttifaqını bərpa etmək istəyir, bu o demək deyil ki, bunlar hamısı elə bu gün hasil olan bir şeydir. Siz deyirsiniz ki, Ruslan Xasbulatovun dediyi bu sözlər bunu sübut edir. Axı Ruslan Xasbulatov, sadəcə olaraq, parlament sədridir, özü də parlamentin yarısı onun əleyhinə çıxış edir. İndi bunu nə cür demək olar ki, Ruslan Xasbulatovun dediyi söz bunu sübut edir, bu heç də bunu sübut eləmir. O öz fikrini deyir, bu o demək deyil ki, öz fikrini yerinə yetirə bilər. Ona görə də Siz öz fikrinizi deyə bilərsiniz, o birisi öz fikrini deyə bilər, başqası öz fikrini deyə bilər.

Bəlkə, bu salonda da adamlar var, Sovet İttifaqını bərpa eləmək istəyirlər. Mən onlarla zidd fikirdəyəm və heç vaxt buna razı olmayacağam, ancaq ola bilər, onlar məndən bəzi halda güclü olsunlar, qolları güclü olsun, məntiqdə məndən güclü ola bilməzlər. Ona görə də Siz nahaq bu sözləri bu cür səsləndirirsiniz və yenə də deyirəm, mən minnətdaram ki, Siz mənim çıxışımı yadıma saldınız, bir mənim yox, bu salonda oturanların yadına saldınız ki, onu o vaxt dərc etmək də mümkün deyildi. Böyük

cəsarətli adamlar lazım idi ki, neformal qəzetlərdə onu dərc etsinlər, qoymurdular, dərc olunsun. Mən onu bir çətinliklə dərc elətdirdim və Siz də sağ olun ki, onu bir də indi yada saldınız. Təşəkkür edirəm, ancaq bir məsələyə də cavab vermək istəyirəm. Belə olmasın ki, çıxış edənlərlə dialoqa girirəm, ancaq məcburam. Axı kimsə deyir, Xalq Cəbhəsini bağlamaq lazımdır, bu onun öz fikridir. Keçən dəfə mənim fikrim Sizin yadınızdadır, mən Xalq Cəbhəsi haqqında nə cür dedim. Amma mənim fikrim də hakim bir fikir deyil, hakim fikir ümumi fikirdir, ümumi qərardır.

Məsələn, Siz vaxtilə deyirdiniz, Kommunist Partiyası bağlansın, indi kimsə istəmirdi bunun bağlanmağını, mən həmin 7 martda çıxış edəndə dedim, Kommunist Partiyası hakimiyyətdən getməlidir, mənim yadımdadır, orada oturmuşdum, mənim yanımda, ətrafımda oturan, keçmişdə mənə tabe olan adamlar durub mənə dedilər ki, nə cür Siz Kommunist Partiyasının əleyhinə çıxırsınız? Hətta mən Kommunist Partiyasından Moskvada bəyanat verib çıxandan sonra burada Ayaz Mütəllibov bir komissiya düzəltmişdi ki, mənim fəaliyyətimi yoxlasınlar. Burada mənim fəaliyyətimi yoxlamaq üçün üç dəfə komissiya düzəlib. Moskvada Sov. İKP MK-da mənim fəaliyyətimi yoxlamaq üçün komissiyalar düzəlib, bütün arxivləri axtarıblar. Bəli, Ayaz Mütəllibov burada komissiya düzəltmişdi, komissiyanın sədri də Orucov, adı yadımdan çıxıb. Burada işləyirdi, Telman Orucov və qərarda yazılmışdı ki, bütün arxivləri, hər yeri, partiya arxivlərini, DTK arxivlərini, hər yeri yoxlasınlar, Heydər Əliyev haqqında bir material tapılsın. Amma bu mənim üçün təhlükəli bir şey deyildi, ondan sonra mən Moskvada Kommunist Partiyasından çıxanda burada böyük bir komissiya yarandı, qəzetdə də verdilər ki, Heydər Əliyev Kommunist Partiyasından nə üçün çıxıb, gəlin bunu yoxlayaq, cəzalandıraq. Xarici müxbirlər Moskvada mənə telefon etdilər, müraciət etdilər ki, bu barədə fikrinizi deyin. Mən dedim ki, sadəcə, bu adamlar ağıllarını itiriblər. Kommunist Partiyasında ən böyük cəza partiyadan çıxarmaqdır, bundan artıq mənə nə edəcəklər, mən özüm özümü partiyadan çıxarmışam. Yəni demək istəyirəm, bunlar təbii bir şeydir, indi kimsə deyir ki, Xalq Cəbhəsini bağlasınlar. Siz bundan niyə narahat olursunuz ki? Bu onun fikridir, başqası da belə fikir verir. Bundan niyə narahat olursunuz?

Bilirsiniz, eyni zamanda Siz Xalq Cəbhəsini ideallaşdırmısınız. Siz deyirsiniz ki, kimsə guya məni xalqın pənahı kimi qiymətləndirir, Allahdan yuxarı heç kəs yoxdur, Allaha bərabər yoxdur. Mən Sizinlə tamamilə razıyam və mən də belə sözlərin tamam əksinəyəm. Mən Sizə bunu deyirəm və qoy bütün Azərbaycanın televiziyaya baxan adamları bilsinlər. Ta-

mam əksinəyəm. Mən, sadəcə, bir adamam və təcrübəli bir adam kimi, əgər bu gün mən xalqıma bir xeyir verə bilərəmsə, bu mənim həyatımın ən böyük xoşbəxt dövrü olacaq. Başqa heç bir şey deyil, amma kim nə deyirsə, mən ona cavabdeh deyiləm ki. Amma Siz isə Xalq Cəbhəsini ideallaşdırmısınız, hesab edirsiniz, Xalq Cəbhəsi elə bir müqəddəs təşkilatdır ki, buna bir adam bir söz deyəndə onun başını yarmaq lazımdır. Axı bu ola bilməz.

İndi Siz deyirsiniz ki, Heydər Əliyev Azərbaycanın xilaskarıdır, nə bilim, pənahıdır, heç mən bilmirəm, nə cürdür bunlar. Bəs Sizin özünüz, hamınız Əbülfəz Elçibəyi ulu bir xadim, ulu bir adam kimi qələmə vermirdinizmi? Siz Əbülfəz Elçibəyi bir dahi kimi qələmə vermirdinizmi? Siz onun haqqında belə bir fikir yaratmırdınızmı? Mən özüm axı bunun şahidiyəm, burada istefa veriləndə əvvəl Pənah Hüseynov istefa verdi, sonra İsa Qəmbər istefa verdi, onlar dəfələrlə mənimlə söhbət elədilər, mənə dedilər ki, Siz nə edirsiniz edin, Əbülfəz Elçibəyi Azərbaycanın dövlətçiliyinin simvolu kimi saxlayın. Yaxşı, belə çıxırdı ki, Allah eləməmiş, sabah heç bunlar olmasa, Əbülfəz Elçibəyin başına bir iş gəlsəydi, demək, Azərbaycanın dövlətçiliyi batdı? Yaxud mən burada bu gün varam, sabah mənim başıma bir iş gəlsə, Azərbaycan batdı? Heç vaxt belə şey olmayıb. Dünyadan dahilər gəlib-gediblər. Dünya miqyasında dahilər gəlib-gediblər, dünya miqyasında böyük işlər görmüş adamlar gəlib-gediblər, onunla nə dünya dağılıb, nə millətlər, nə də dövlətlər dağılıb və insan cəmiyyəti də yaşayır və yaşamaqdadır.

Amma yenə demək istəyirəm ki, Əbülfəz Elçibəyə bir insan, bir şəxs, demokratiya yolunda çalışmış bir adam kimi mənim hörmətim var, ancaq o mərtəbəyə ki siz onu gətirib çıxarmışdınız, onu gətirib o sütunun başına qoymuşdunuz, özünüzün də əliniz çatmırdı ona, başa düşürsünüz, bu, qeyri-təbii hal idi. İndi özünüz belə qeyri-təbii halı yaratmısınız və o adam ətrafında ki o adam hələ Azərbaycana heç bir xeyir verməyib, bir yerdə bir ağac əkib, ya bir bina tikib, ya bir su açıb bir yerə su gətirib, ya bir zavod tikib, ya bir məktəb tikib, heç bir şey yaratmayıb, amma bunu siz ideallaşdırdınız, o yazığı da bədbəxt elədiniz. İndi də Xalq Cəbhəsini siz ideallaşdırmısınız ki, bu Xalq Cəbhəsinə heç kəs bir şey edə bilməsin. Siyasi plüralizmdir, kimin nə fikri var desin, o cümlədən Sizin mənim haqqımda dediyiniz sözlərin heç birisindən incimirəm və Sizə təşəkkür edirəm. Çox sağ olun.

Söz verilir Tofiq Qasımova.

**Tofiq Qasımov.** Axşamınız xeyir olsun, hörmətli Məclis üzvləri. Bu gün Azərbaycan, mən hesab edirəm ki, yolayrıcındadır, yenidən yol ayrıcındadır və biz bu gün Azərbaycanın müstəqil fəaliyyət yolundan Müstəqil Dövlətlər Birliyinə daxil olub-olmaması məsələsini müzakirə edirik. Mən belə hesab edirəm ki, bu məsələni biz bu Məclisdə beşinci dəfədir müzakirə edirik, onların ikisində artıq qərar qəbul olunmuşdu. Birinci qərar – 32 nömrəli qərar 1991-ci il dekabr ayının 20-də qəbul edilmişdi və bu qərara əsasən Azərbaycan Müstəqil Dövlətlər Birliyinə münasibətini ora daxil olmamaq kimi bildirmişdi. Bundan sonra ikinci qərar 1992-ci ilin oktyabr ayının 7-də qəbul olunub, 323-cü qərardır və bu qərara əsasən yenidən Azərbaycan Müstəqil Dövlətlər Birliyinə daxil olmayacağını elan eləmişdi. Əlbəttə, o vaxtdan xeyli zaman keçib, Azərbaycanda müəyyən hadisələr dövran edib, ərazimizin bir çox hissəsini itirmişik və indi bir növ, mən elə hesab edirəm, müəyyən bir məcburiyyət qarşısında bu məsələni yenidən müzakirə eləmək məcburiyyətində qalmışıq. Mən yenə də əvvəlki kimi, öz fikrimə görə, belə hesab edirəm ki, Azərbaycan Müstəqil Dövlətlər Birliyinə daxil olmalı deyil, Azərbaycan müstəqil inkişaf yolunu davam etdirməlidir, qəbul elədiyi müstəqilliyini saxlamaq istiqamətini davam etdirməlidir.

Burada bir çox ittiham oldu ki, guya Azərbaycanın xarici siyasəti düzgün qurulmayıb, xüsusilə Rusiyaya qarşı bizim münasibətimiz düzgün olmayıb və sair. Mən burada hər halda indi xarici siyasət barəsində danışmaq istəmirəm, çünki bu, ayrıca bir iclasın mövzusuna aid ola bilər, ona görə ki, xarici siyasət barədə o siyasətdən başı çıxan da, çıxmayan da burada artıq biz hakimiyyətdən gedəndən bu yana çoxlu ittihamlar söyləyib. Amma mən bir şeyi, Azərbaycanın xarici siyasət konsepsiyasının birinci səhifəsindən bir ifadəni sizin diqqətinizə çatdırmaq istəyirəm. Orada Azərbaycan mərkəzdə olmaqla dünya dövlətləri ilə münasibətlər dörd konsentrik dairəyə bölünmüşdü və ən prioritetli dairə olaraq Azərbaycanın ən yaxın qonşuları ilə münasibətləri birinci yerə qoyulmuşdu. Orada, deməli, Gürcüstanla, İranla, Rusiya ilə, Türkiyə ilə, münasibətlərimiz çox pis olsa da, istəsək də, istəməsək də Ermənistanla münasibətlər məsələsi idi.

Onu da qeyd edim ki, həmin xətti əsas götürərək Azərbaycanın xarici siyasətində ən çox müqavilə imzalamış və ən çox, deməli, diqqət yetirilən dövlət də Rusiya olub. Bir il ərzində biz Rusiya ilə 30-a qədər müqavilə imzalamışdıq, onların 26-sı iqtisadiyyata dair müqavilələr idi. Başqa məsələdir ki, bu müqavilələr bir çox hallarda axıracan yerinə yetirilmirdi, bəzi

çətinliklər var idi və o çətinliklərin hesabına bu müqavilələri hər iki tərəf tam həcmdə yerinə yetirə bilmirdi. Mən sonra o çətinliklərə toxunacağam.

Bundan əlavə, onu da qeyd edim ki, bu ilin yanvar ayında Rusiya tərəfindən Azərbaycana daha altı müqavilə, saziş layihəsi göndərilmişdi və artıq bu ilin mart ayında həmin sazişlərə Azərbaycanın qoşulmağa razı olduğu bildirilmişdi. O sazişlər gömrük siyasətinin uyğunlaşdırılıb əlaqələndirilməsi, vizaların qarşılıqlı tanınması, vizasız gediş-gəlişin həyata keçirilməsi və sair əlaqələr sahəsində çox mühüm məsələlər idi. Diqqətinizi ona cəlb eləmək istəyirəm ki, artıq mart ayında Azərbaycan bütün müqavilələr üzrə imza atmağa hazır olduğunu bildirmişdi və Siz burada Moskvada olan görüşlərinizdən danışanda dediniz, cənab Yeltsinlə görüşəndə o dedi ki, Azərbaycanla Rusiya əlaqələrinin pisləşməsi işində təqsir Azərbaycanın özündə olubdur. Mən elə hesab eləyirəm, digər bir misal gətirə bilərəm ki, misal üçün, iyul ayının 7-də Moskvaya daha üç saziş də aparıb getmişdik. Rusiya tərəfindən 6 yanvarda təqdim olunan o 9 sazişin və əlavə təhsil diplomlarının qarşılıqlı tanınması, mədəniyyətə dair və səhiyyəyə dair olan daha 3 saziş də aparmışdıq ora. O sazişlərin imzalanmasının baş tutmamasının əsas səbəbkarı məhz Rusiya tərəfi oldu. Orada belə bir bəhanə gətirdilər ki, guya bu müqavilələr mütləq respublikanın Prezidentinin imzası ilə getməlidir, hətta imzaya verilib, hələ geri qaytarılmayıb. Biz mətbuat nümayəndələri ilə görüşəndə cənab Kozırev çıxış eləyərək dedi, Rusiya ilə Azərbaycanın münasibətlərində bəzi ləngliyin əsas səbəbkarı biz, Rusiya tərəfiyik, çünki bizim təqdim elədiyimiz müqavilələri bu gün imzalamağa hazır olmamışıq və biz söz veririk ki, bunu yaxın 15 günün içində eləyəcəyik. Yəni deyəcəyim odur ki, Azərbaycan həmişə Rusiya ilə olan münasibətlərinə prioritet əhəmiyyətli münasibətlər kimi baxıb.

Ondan əlavə, bəzi millət vəkilləri hərbi-siyasi uğursuzluqları yox, hətta iqtisadi çətinliklərin də, eyni zamanda sosial-məişət xarakterli çətinliklərin də guya bizim Müstəqil Dövlətlər Birliyinə daxil olmamağımızla şərtləndiyini qeyd edirlər. Əslində bu belə deyil. Ona görə ki əgər biz Müstəqil Dövlətlər Birliyinin yaranışından keçən iki il ərzində onun nailiyyətləri ilə tanış olmaq fikrinə düşsək, onda görərik, Müstəqil Dövlətlər Birliyi dövlətləri ilə Rusiya arasında iqtisadi əlaqələrdə heç bir ciddi irəliləyiş müşahidə olunmayıb. Dövlətlərin hamısında, o cümlədən Rusiyada da istehsalın aşağı düşməsi davam eləyir, bəlkə də, Rusiyada onun göstəricisi daha da böyükdür. Bunun da əsas səbəbi ondan ibarətdir ki, Rusiya keçmiş Sovetlər Birliyinin irəli qoyduğu o iqtisadi əlaqələr siste-

mində prioritet mövqe tutduğuna görə inhisarçı bir mövqedə dururdu, indi istehsalın əsas inhisarçısı Rusiya olduğuna görə, bu əlaqələr bilavasitə Rusiyanın mövqeyindən asılıdır. Rusiya isə bu məsələlərdə diktator rolundan istifadə eləyir, yəni özünün mövqeyini, iradəsini o biri Müstəqil Dövlətlər Birliyinə üzv dövlətlərə, necə deyərlər, aşılamaq mövqeyindən çıxış eləyir.

Əgər bu gün kim hesab eləyirsə, biz Müstəqil Dövlətlər Birliyinə girən kimi iqtisadi əlaqələrimizi bərpa eləyə biləcəyik, yəni bu, tamamilə xamxəyaldır, buna ümid eləmək də tamamilə əsassızdır. Ona görə əsassızdır ki, bu gün artıq keçmiş Sovetlər Birliyinin ərazisində olan, yəni iki il bundan əvvəl olan nə istehsal var, nə istehsal münasibəti var, nə də mülkiyyət münasibətləri var. Bu gün o məkan artıq istehsal baxımından tamamilə dəyişib və bu gün öz öhdəliklərini ən çox yerinə yetirməyən də yenə Rusiya Federasiyasıdır. Rusiya Federasiyası Müstəqil Dövlətlər Birliyində müqavilələr əsasında keçən il öhdəsinə götürdüyü öhdəlikləri 35-40 faizdən yuxarı yerinə yetirə bilməyib.

O ki qaldı o biri dövlətlər, bunun çox subyektiv səbəbləri var, ona görə ki burada Abbas Abbasov çıxış eləyəndə çox gözəl bir misal gətirdi, dedi, baxmayaraq istehsal tamamilə dayanmayıb, istehsal bir az aşağı düşüb, tutaq, neçə faiz isə, amma dövlət mağazalarında heç bir şey sata bilmirik deyə, pulun geri qayıtması dövriyyəsində çətinliklər əmələ gəlib, geri qaytara bilmirik və sair. Bu, obyektiv məsələdir, ona görə bu obyektiv bir səbəbdir ki, bu gün dövlətin əlində əvvəlki kimi tam inhisar yoxdur, ona görə də istehsalın bütün sahələrində üzərində dövlət inhisarı olmadığına görə dövlətin anbarlarına da o məhsullar hamısı gəlmir, istehsalçıdan birbaşa istehlakçılar arasında müqavilələr əsasında, bir hissəsi kommersiya müəssisələrinin yolu ilə, bir hissəsi isə, demək olar, ayrı-ayrı natəmiz adamların əli ilə dağıdılır. Ona görə də bu gün dövlətlərarası müqavilələr əsasında öhdəliklərin yerinə yetirilməsinin qarantiyası istehsal eləyənlə istehsalçı arasındakı birbaşa müqavilələrin ayrı-ayrı şəxslər və sahibkarlar arasındakı qarantiyadan daha aşağıdır. Obyektiv şeydir, biz artıq o məkanda yaşamadığımıza görə bu gün desək də bunu eləyəcəyik, biz onu eləyib yerinə yetirə bilmirik. Yəni bu gün inanmaq ki, bununla mütləq bizim bütün iqtisadi problemlərimiz həll olunacaq, mənə elə gəlir ki, düzgün deyil.

Eyni qaydada, misal üçün, burada büdcə kəsirindən danışdılar, dedilər ki, pul tədavülü, pul, maliyyə məsələsində çətinliklər var, vəssalam. Bu, təbiidir. Rusiyanın özündə də bu çətinliklər var, özü də çox böyük

miqyasda. Rusiyanın 1993-cü il üçün büdcəsi 43 trilyon defisitlə təsdiq olunub, bizimki isə milyonla təsdiq olunmuşdur. Tofiq müəllim dedi ki, real olaraq 7 ayda 4 milyard manat olubdur, amma indi real olaraq Rusiyanın kəsiri bir neçə yüz trilyon olacaq, onu da gələcək göstərəcək. Amma söhbət ondan gedir ki, bu gün bunların hamısı obyektiv şəkildə mümkün olmadığına görə belə şeylər alınır.

Bir siyasi şərhçi çox gözəl bir söz demişdi, deyirdi, Rusiya yenidən keçmiş ittifaq respublikalarını işğal eləyir, amma bu dəfə neft, qaz və pul vasitəsi ilə işğal eləyir. Yəni bu gün Rusiyanın təzyiq vasitələri bilavasitə açıq hərbi və yaxud başqa siyasi təzyiqdən çox, iqtisadi təzyiq vasitəsidir. Rusiyanın MDB-də olan Ukraynaya da olan münasibətini burada misal gətirmək kifayətdir. MDB-nin üç təsisçi dövlətindən biri Ukraynadır. Ukrayna hər il Rusiyadan 50 milyon ton neft alır və bu 50 milyon tondan Rusiya bu gün 15 milyonundan yuxarısını vermir, onun nəticəsidir ki, Ukraynanın istehsalı tamamilə dayanıb. Bu təzyiqin əsas məqsədi nədir? Təzyiqin əsas məqsədi Ukraynanın Qara dəniz donanmasını, Qara dənizdəki limanları Rusiyaya verməsi və Ukraynanın ərazisində olan nüvə silahlarının Rusiyaya verilməsinə məcbur eləmək. Yəni burada söhbət gedir ki, öz iradəsini siyasi və hərbi yollarla və yaxud hansı başqa təzyiqlərlə, diktat vasitəsi ilə Rusiya Ukraynaya qəbul elətdirir. Rusiya təzyiq elədi, Ukrayna geri çəkildi, baxmayaraq ki, nəticə etibarilə sentyabrda Yaltada bağlanan müqavilə əsasında donanma da Ukrayna ilə Rusiya arasında bölünməlidir və o limanların hamısı Ukraynaya verilmişdir. Yeni müqaviləyə əsasən Ukrayna məcbur oldu ki, bütün donanmasını və Sevastopol limanını da yüz il müddətində Rusiyaya versin. Yəni söhbət ondan gedir ki, biz iqtisadi cəhətdən burada yeni bir şey qazanmayacağıq.

İndi gəlin görək, biz burada siyasi cəhətdən nə qazana bilərik. Bərabərhüquqlu birliyə daxil olmaqdan söhbət gedir, özü də bəziləri dedi ki, düzgün tərcümə olunmayıb, bu, əməkdaşlıq kimi tərcümə olunmalıdır, əməkdaşlıq "содружество"dur, amma "содружество" dostluq birliyi deməkdir, yəni bunun hərfi tərcüməsi dostluq birliyidir. Digər birliklər də, misal üçün, Avropa Birliyi "содружество" kimi tərcümə olunub və bu da birlik kimi tərcümə olunur. Yəni bunun adını indi biz nə qoyuruq qoyaq, misal üçün, bu nizamnaməyə aid qəzetdə geniş şərh yazmaq fikrini deyək – söz verirəm ki, bu yaxın günlərdə yazacağam – burada nə yazılması əsas deyil, mənim fikrimcə, burada hansı şərtlərin qoyulması əsasdır. Biz bir şeyi yadımızdan çıxarmalı deyilik, biz keçmiş Sovetlər Birliyi ərazisində, elə bir siyasi və hüquqi məkanda yaşayırıq ki, o məkanda

hüquqların təminatı sıfıra bərabərdir, heç bir təminatı olmayıb və bundan sonra da olmayacaq. Ona görə də sənədə nə yazırıqsa yazaq, misal üçün, SSRİ-nin Konstitusiyasında oxuyub ağlamalı maddələr var, onu oxuduqca adamın ağlamağı gəlir ki, görəsən, dünyanın başqa bir yerində də insanlara bu qədər hüquq verilibmi, bu qədər azadlıq verilibmi və dövlətlərində bu qədər böyük hüquqları varmı? Onun nəticəsi nə oldu, əgər o hüququn təminatı yoxdursa, əgər mən burada hərdənbir çıxış eləyib deyəndə ki, bizim gördüyümüz filan iş Azərbaycanın Konstitusiyasına ziddir, Konstitusiya da ən yüksək qanundur və bu Məclis də onun keşiyində durmalıdır, çox vaxt mənə gülürlər. O gün mətbuatda da bir şərhçi "Aydınlıq" qəzetində yazmışdı ki, bu Tofiq Qasımov Azərbaycanda heç bir qanun olmadığı halda nə qanundan danışır, heç cür başa düşmək olmur. Yəni söhbət ondadır ki, bizim fikrimiz belədir, biz belə tərbiyə olunmuşuq ki, qanun-zad havayı şeydir, kim nə deyirsə, birinci şəxs nə deyirsə, biz mütləq onun dediyinə əl çalmalıyıq, biz mütləq onun dediyinə "baş üstə" deməliyik və sair. Bizim psixologiyamız belədir, heç vaxt qulla ağanın bərabərhüquqlu birliyi ola bilməz, qulla ağanın birliyi mütləq qulun "baş üstə" deməyi, ağanın diktatı, ağa dediyinə qul "baş üstə" deməlidir. Yaxud özümüzün keçmiş iki yüz illik ağamızla gedib bir birliyə girməyimiz məhz o deməkdir ki, Rusiya burada nə desə, biz ona "baş üstə" deməliyik, bəlkə, biz buna getməyə məcburuq, bəlkə, bizim vəziyyətimiz elədir, biz buna gedəcəyik, onda başa salaq, deyək, biz təslim oluruq, bizim başqa imkanımız yoxdur deyə biz məcburuq bu gün təslim olmağa. Yox, əgər elə deyilsə, onda biz mütləq... Misal üçün, mən indi bu Nizamnamənin bir neçə maddəsini sizə deyəcəyəm.

11-ci maddədə yazılan müddəalar ATƏM-in və Birləşmiş Millətlər Təşkilatının hüquqlarına aid olan müddəalardır, onları hansısa regional birliyin hüquqlarına aid eləmək olmaz. Misal üçün, 12-ci maddə də həmin qayda ilə Birləşmiş Millətlər Təşkilatının və axırıncı bəndi də Təhlükəsizlik Şurasının hüquqlarına aid olan bir müddəadır, yəni burada hərbi qüvvədən sülhməramlı, yəni sülhqoruyucu qüvvələr kimi istifadə eləməkdən söhbət gedir. Təhlükəsizlik Şurasının qərarı olmadan dünyanın heç bir yerində bu məsələni həll eləmək olmaz. Amma bu birlik bunu öz üzərinə götürür, deməli, o birliyin siyasi şurasının qərarı əsasında belə bir addımı atmaq məsələsini öz üzərinə götürür və sair. Yəni mən ona vaxt itirmək istəmirəm, bircə şeyi demək istəyirəm ki, biz burada nə qazanacağıq, nə itirəcəyik? Əgər məsələni diqqətlə müzakirə eləmək istəyiriksə, görərik ki, bizim vəziyyətimizdə olan dövlətlərdən Moldovanı,

Gürcüstanı götürək, onların hər ikisi Rusiyanın, demək, diktatına razı olub, amma onların vəziyyəti bu gün necədir. Misal üçün, milli ordunun Moldovada olmasının hesabına Dnestryanı Respublikada parlament seçkiləri keçirməyə hazırlaşırlar, orada ayrıca müstəqil hakimiyyət, yəni ayrıca müstəqil qurum yaratmaqla məşğul olurlar və Moldova da Rusiyanın 14-cü ordusuna qarşı heç bir şey eləyə bilmir.

Həmin qaydada, gəlin Gürcüstana baxaq. İki il bundan əvvəl Cənubi Osetiyada hərbi əməliyyatlar dayandırılıb və Rusiyanın ordusu Cənubi Osetiyaya daxil olub, o daxilolmanın hesabına Cənubi Osetiyanın müstəqilliyi məsələsi, yaxud Gürcüstanın suverenliyi məsələsi həll olunubmu, bu gün Gürcüstanın ərazi bütövlüyünə zəmanət varmı? Yoxdur. Eyni qaydada Abxaziya–Gürcüstan münaqişəsində Rusiyanın Abxaziyaya kömək etməyinin əsas şərti nədən ibarət idi? Abxaziyaya kömək eləməyin əsas şərti ondan ibarət idi ki, Rusiya Qara dənizdəki limanları, o cümlədən Gürcüstanın limanlarını da və özünün oradakı donanmasını da, necə deyərlər, oradan götürmək istəmirdi və bu barədə Rusiyanın xarici işlər nazirinin birinci müavini Adamişin dönə-dönə çıxışlar eləyib. Hətta bizim Prezidentin nümayəndəsi Vəfa Quluzadə Moskvada onlarla danışıqda olanda onlar Azərbaycan barədə də həmin şeyləri demişdilər. Demişdilər, Rusiya özünün Qafqazdakı mövqelərini heç vaxt əldən verməyəcək və Rusiya ordusunun Azərbaycandan çıxmağını ən böyük səhv hesab eləyirlər. 1993-cü il mart ayının 26-da Moskva televiziyası ilə general Reutun, keçmiş Zaqafqaziya dairəsinin başçısının çıxışında bu, açıq şəkildə deyildi. O dedi ki, Azərbaycandan öz ordusunu çıxarmaqla Rusiya çox böyük səhv eləyib və bunun nəticəsi Rusiyanın Qafqazlardan bütövlükdə çıxarılmasına gətirib çıxara bilər. Dedi ki, əgər biz Gürcüstandan da ordumuzu çıxarsaq, onda bu o deməkdir ki, Rusiya bütün Qafqazlardan getməli olacaq, bu da iki nəticəyə gətirəcək. Birincisi, Qafqazdakı mənafeləri əldən gedəcək, mövqelərini əldən verəcək, ikincisi, Rusiya dənizçilik dövləti kimi öz mövcudluğuna son qoymalıdır. Ona görə ki Qara dənizdə bir Novorossiysk limanı, Baltik dənizində bir Kalininqrad limanı qalıb, o da nə vaxt Almaniyaya birləşəcək hələ məlum deyil. Şimal Buzlu okeanında naviqasiya iki aydır, bir də Uzaq Şərq qalır.

Deməli, burada əsas məsələ Rusiyanın Müstəqil Dövlətlər Birliyinə daxil olacaq dövlətlərə hansısa yardım eləməyindən getmir, əsas məsələ Qafqazda Rusiyanın mövqelərinin bərpasından gedir. Müstəqil Dövlətlər Birliyinə də daxil olmağa məcbur eləməyin əsas səbəbi də budur ki, Rusiyanın burada mövqeləri bərpa olunmalıdır, söhbət buna görə gedir.

İndi əgər biz Müstəqil Dövlətlər Birliyinə girsək, onda nə itirməliyik. Birinci, Qarabağ münaqişəsinin həllini Rusiyanın əli ilə həll eləyəcəyik. Biz hər hansı bir şəkildə Qarabağ ermənilərinin müstəqilliyini tanımalı olacağıq. Bu, bir. İkinci, özünün ordusu, polisini saxlamaq, parlamenti olmaq və sair hüquqları ona verəcəyik və bunları Rusiya tərəfi bizə bir il müddətində dönə-dönə deyib ki, bu məsələni tənzimləmək üçün nə tələb eləyirlər. Laçın dəhlizinin mütləq “Dağlıq Qarabağ Respublikası”na verilməsi məsələsi qoyulacaq, Azərbaycanla “Dağlıq Qarabağ Respublikası” arasında rus ordusunun sülhməramlı qüvvələr kimi qoyulması məsələsi qoyulacaq və bu xidmətlər üçün biz özümüz Rusiyaya nə verməli olacağıq? Müstəqil Dövlətlər Birliyinə girməli olacağıq, kollektiv təhlükəsizlik sisteminə girməli olacağıq, Azərbaycanın Rusiyanın yeni rubl zonasına daxil olması məsələsi qoyulmalıdır və beləliklə, biz gələcəkdə rus ordusunu Azərbaycana gətirməklə, sərhədlərimizin mühafizəsini onlara verməklə müstəqil dövlətlərin üç əsas atributunun üçünü də əldən vermiş olacağıq.

Bir sözlə, müstəqillik üçün əsas atributlar əldən gedəndən sonra, mənə elə gəlir ki, müstəqilliyimizdən də əl çəkməli olacağıq. Əgər yadınızdadırsa, 1920-ci ildə də təxminən belə bir şey başımıza gəlmişdir. XI ordu Bakıya gələndən sonra Demokratik Cümhuriyyət hökuməti yeni bolşevik hökuməti ilə bir məramnamə imzalamışdır. Orada müstəqilliyimizin saxlanacağına çox böyük qarantiya var idi, o bundan çox yaxşı, böyük təminatlar verirdi bizə, nəticəsi nə oldu, bilirsiniz. Onun dalınca Lenin tərəfindən xüsusi bəyanatla Azərbaycanın müstəqilliyi tanındı, üçüncü addım kimi Sovet Rusiyası ilə Azərbaycan arasında iqtisadi müqavilə bağlandı, o iqtisadi müqavilə ilə Azərbaycanın xarici və daxili siyasəti, daxili və xarici ticarəti, xammal ehtiyatlarından istifadə hüququ və hətta Azərbaycanda ərzağın bölünməsi hüququ da Moskvaya verildi. Onun dalınca siyasi müqavilə bağlandı və siyasi müqavilə ilə Azərbaycanın Milli Ordusu ləğv edildi, təhlükəsizlik məsələləri onlara verildi.

**Yerdən.** *(Eşidilmir.)*

**Tofiq Qasımov.** Mən 20 dəqiqəyə qurtarıram.

**Sədrlik edən.** Bağışlayın, sakit olun.

Bu son ildə bu sözləri min dəfə demisiniz. Elə bir söz deyin ki, yeni bir şey olsun, bir şeyi çeynəyirsiniz, çeynəyirsiniz, bunu min dəfə demisiniz.

**Tofiq Qasımov.** Mən hesab eləmirəm ki, yeni bir şey demək lazımdır, tarixi unutmaq lazım deyil.

**Sədrlik edən.** Nə lazımdır axı.

**Tofiq Qasımov.** Bu, tarixdə göstərilib.

**Sədrlik edən.** Axı bir təsəvvür eləyin, Siz nə qədər vaxtdır danışırsınız, Siz bütün tarixi istəyirsiniz təhlil eləyəsiniz, axı bu yaramaz, bura parlamentdir.

**Tofiq Qasımov.** Yaxşı, mən qurtarıram. Əsas məsələ ondan ibarətdir ki, bəs indi məndən soruşa bilərlər, yaxud sən, Tofiq müəllim, bu Müstəqil Dövlətlər Birliyinə getməyə razı deyilsən, bəs sən nə təklif eləyirsən. Mən öz təklifimi demək istəyirəm.

**Sədrlik edən.** Elə bunu bayaqdan desəydin, yaxşı olardı.

**Tofiq Qasımov.** Mənə elə gəlir ki, müstəqil olmaq istəyən xalq öz torpaqlarını, öz müstəqilliyini özü qorumalıdır. Əgər xalq bu məsələni özü həll eləməsə, özgəsi gəlib bizim müstəqilliyimizi qoruya bilməz, heç vaxt da qorumaz. Məsələ burasındadır ki, öz daxilində birliyə nail olmayan xalq gedib düşmənlə birləşməli olur, öz ordusunu yedizdirmək istəməyən xalq düşmənin ordusunu yedizdirməli olur.

Məsələ burasındadır, mənə elə gəlir ki, bizim yeganə çıxış yolumuz bu gün Siz bu millətə ağsaqqallıq eləmək istəyirsinizsə, Azərbaycandakı müxtəlif siyasi qüvvələri birləşdirib, onun hesabına orduda da birlik yaradıb özümüzün torpaqlarımızı müdafiə eləməkdir. Mən belə hesab edirəm və Siz bunu eləyə bilmirsinizsə, əgər istəsəniz bunu eləyə bilərsiniz, amma mən elə bilirəm ki, bizim yeganə çıxış yolumuz da məhz bundadır. Bütün siyasi qüvvələrin birləşdirilməsi, bir milli etimad hökumətinin yaradılması barədə burada dəfələrlə təkliflər olub. Mən hesab eləyirəm ki, bizim o yola qayıtmağımız əsas olardı. Sağ olun.

**Sədrlik edən.** Mən rica edirəm. Bilirsiniz, saat 6-da işləməyə başlamışıq, 8-ə 25 dəqiqə işləyibdir. Üç nəfər çıxış eləyib, axı belə olmaz, gəlin bir-birimizə hörmət eləyək. Mən yenə də deyirəm, mən heç kəsin sözünü kəsmək istəmirəm. Burada Tofiq bəy deyir ki, nə bilim, ağa ilə qul, filan, beşməkan, nə bilim, ola bilməz, kimsə ağa olub, kimsə qul olub, filan olubdur, bunlar hamısı min dəfə çeynənmiş mövzulardır, bunları indi deməyin nə əhəmiyyəti var.

O ki qaldı ağa-qul məsələsinə, mən heç də nə Sovetlər İttifaqını, nə Sovetlər İttifaqında olan o quruluşu müdafiə etmək istəmirəm. Ancaq Siz özünüz öz həyatınızı götürün, deyirsiniz ki, o Konstitusiyanı oxuyanda adamın, nə bilim, ağlamağı gəlir, nə bilim, nəyi gəlir. Bəs Siz nəyin yetişdirməsisiniz, özünüz şəxsən? Harada təhsil almısınız? Kimin hesa-

bına? Ali məktəbi kimin hesabına qurtarmısınız? Elmlər namizədi, dosent olmusunuz, kimin hesabına? Eşitdiyimə görə, 10 ilə yaxın Moskvada, Moskvanın altında o Fizika Mərkəzində xidmət eləmisiniz və demək, müəyyən elm toplamısınız.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Mənə mane olmayın, bunlar kimin hesabına olubdur? Siz qul olmusunuz, bir qəpik pul vermisiniz bunlara? Sizi hökumət oxudub da, geyindirib də, yaşadıb da, ev də verib, hamısını veribdir. Mən o hökuməti tərifləmək istəmirəm, o quruluşu tərifləmək istəmirəm, ancaq insafınız da olsun, axı insafınız olsun, ay Tofiq, adam belə nainsaf olmaz, adama bir adam bir tikə çörək verəndə onun qədrini bilir, Sizə bütün dünyanı bəxş eləyiblər, indi gəlmisiniz, başlamısınız 1920-ci ildə belə oldu, filan oldu, beşməkan oldu. Bunlar hamısı tarixdə yazılmış şeylərdir, bizim niyə vaxtımızı alırsınız bu parlamentdə? Axırda nəyə gətirib çıxardınız, üç kəlmə söz dediniz, onu elə deyərdiniz, bununla da qurtaraydı.

Bəli, bütün qüvvələr birləşməlidir, həmrəy olmalıdır və bütün qüvvələr Azərbaycanın bu ağır vəziyyətdən çıxmasında öz fəaliyyətini göstərməlidir. Mən bu mövqedə dururam. Bu gün mən bura, Bakıya bu işdə işləməyə gəlmişəm, ancaq Siz buna mane olursunuz. Siz gedib orada mitinq keçirirsiniz, vərəqlər yazırsınız, Siz Heydər Əliyevi xain hesab eləyirsiniz, satqın hesab eləyirsiniz, Siz mənim əleyhimə təbliğatlar aparırsınız. Mən necə Sizinlə birləşim? Birləşmək istəyirsiniz, gəlin, birləşək, amma gəlin, təhqir eləməyin, Siz öz fikrinizi deyin, mən də öz fikrimi deyim, ümumi bir fikrə gələk. Silah işlədirsiniz, at oynadırsınız, bununla nə cür birləşmək olar?

Bu dəqiqə müharibə şəraitində Azərbaycanın sabitliyini pozan Sizin təşkilat, sizlərsiniz, belə bir halda indi gəlib burada bizim üçün yarımsaatlıq mühazirə oxuyursunuz, sonra da başlayırsınız ki, gəlin birləşək. Əvvəldən birləşəydiniz də, nə oldu, Siz vəzifədən getdiniz, ona görə çəkilib durdunuz müxalifətdə, müxalifətdə olun, amma siyasi müxalifətdə olun, mədəni müxalifətdə olun, tərbiyəli müxalifətdə olun, gedib mitinqlər toplamayın. O gün gedib o cavan qızları, gəlinləri bədbəxt eləyib, onların əli ilə o böhtançı vərəqələri yaymayın.

Surət Hüseynova söz verilir. Buyurun, Surət. Sonra Etibar Məmmədov çıxış eləyəcək, mən ona söz vermək istəyirəm.

**Surət Hüseynov.** Mən istəyərdim ki, birinci növbədə, Ədalət bəyin mənim haqqımda danışdığı sözlərə cavab olaraq öz fikrimi deyəm. Əda-

lət bəyin sözlərindən mən incimirəm, ona görə ki bütün Azərbaycan xalqı bilir, Ədalət bəyin və Sizin kimi bəylərin hakimiyyəti xalqı uçuruma apardığına görə Azərbaycan xalqı hakimiyyəti əlinizdən aldı. Bunun da səbəbkarı Surət Hüseynovdur? Mən Sizdən incimirəm, hələ az dediniz, mən olsaydım, bəlkə də, çox deyərdim. O ki qaldı Sizin İqtisadi konsepsiya barədə sözünüzə, siz bəylər bu hökumətin bütün sahələrini elə vəziyyətə salıbsınız, hələ bunu yığıb-yığışdırmaq lazımdır ki, ondan sonra biz iqtisadi proqramımızı işləyək. Düzdür, iqtisadi konsepsiyalar çoxdur, ancaq biz elə bir iqtisadi konsepsiya həyata keçirməliyik ki, doğrudan da, o, işlək konsepsiya olsun. Elə-belə konsepsiyamızı çıxıb burada Məclisə, xalqımıza çatdıra bilərik, ancaq o işləməyəndən sonra onun heç bir xeyri olmayacaq.

Mən istərdim, MDB barəsində öz fikrimi, öz mülahizələrimi deyəm. Müzakirə olunan məsələ xalqımız üçün taleyüklü bir məsələdir, onun bu və ya başqa cür həlli ilə xalqımızın, ölkəmizin sabahı əhəmiyyətli dərəcədə asılıdır. Bunun aşağıdakı səbəbləri vardır.

Birinci, siyasi sahədə, həm qlobal, həm də radikal mənafelər şəbəkəsindən Azərbaycan özünün optimal və əlverişli şəraitdə əlaqələr sistemini müəyyənləşdirməlidir. Məlumdur ki, hazırda yer üzündə elə bir dövlət yoxdur ki, o, digər dövlətlər və ya dövlətlər ittifaqı birliyi ilə sıx əlaqədar olmasın və onlara daxil olmasın. Dünyada siyasi atmosfer xeyli dəyişsə də reallıq göstərir ki, təhlükəli hadisələrin və münaqişələrin meydana gəlməsi üçün səbəblər hələ də qalmaqdadır. Belə münaqişələr baş verdikdə isə hər bir dövlət özünün təhlükəsizliyini və ərazi bütövlüyünü təmin etmək üçün başqa dövlətlərin və siyasi birliklərin köməyinə ehtiyac hiss edir. Belə olduğu halda, Azərbaycan, bugünümüz və sabahımız üçün ən optimal yol, fikrimcə, Müstəqil Dövlətlər Birliyinə daxil olmaqdır. Bunu həm tarixi-siyasi vəziyyətimiz, həm də perspektiv siyasi inkişafımız zəruri hesab edir. MDB-yə daxil olmağımız bizim nə siyasi müstəqilliyimizə, nə də dövlətçilik suverenliyimizə xələl gətirməyəcəkdir, bunu biz MDB-nin statusu, ora daxil olan dövlətlərin arasındakı münasibətləri tənzimləyən sənədlərin məzmunundan görürük. Onu da qeyd etmək istərdim ki, dövlətlərarası inteqrasiya müasir dünyanın ən mühüm və ən təsirli prinsiplərindən biridir.

İkinci, iqtisadi sahədir ki, iki əsrə yaxındır, Rusiya imperiyasının və sonra Sovetlər İttifaqının tərkibində olan Azərbaycan iqtisadiyyatı strukturuna, həm də sahə çeşidlərinə görə müstəqil bir orqanizm olmuşdur, o böyük bir iqtisadi orqanizmin bir qolu, bir həlqəsi olmuşdur. Bu fikir

həm məhsuldar qüvvələrin yerləşdirilməsinə, həm ixtisaslar və istehsal sahələri üzrə iş qüvvəsinin hazırlanması və yerləşdirilməsinə, həm də xammal ehtiyatlarının paylanmasına və istehlakın təkmilləşməsinə eyni dərəcədə aiddir. Bu göstərilən sahələrdə iqtisadi əlaqələrin birdən-birə qırılmasının nə ilə nəticələnəcəyi əvvəlcədən görülməli və optimal iqtisadi sahələrin seçilməsi müəyyənləşdirilməli idi. Lakin təəssüflə qeyd etmək lazımdır ki, kütləvi meydan şüuru rəhbərlərə düzgün qiymətləndirməyə və deməli, düzgün iqtisadi struktur, strategiya və taktikanın seçilməsinə imkan verməmişdir.

Real gerçəklik isə belədir, Azərbaycanın iqtisadiyyatının bütün sahələri – sənayesi, kənd təsərrüfatı, tikintisi, nəqliyyatı, hətta sosial infrastrukturun bütün sahələri MDB ölkələri ilə, xüsusilə də Rusiya Federasiyası ilə birbaşa bağlıdır. Hələlik dünya standartlarından geri qaldığı üçün dünya bazarına yol tapa bilməyən Azərbaycan malları üçün MDB ölkələri, eyni zamanda əlverişli istehlak bazarıdır. Xammal, kompleksləşdirici istehsal detalları və sair çatışmaması üzündən respublikanın xalq təsərrüfatının düşdüyü vəziyyətin şərhə ehtiyacı yoxdur. Belə davam eləyə bilməz, bu vəziyyətin davamının respublikanı tam iflic vəziyyətinə salmaması üçün gecikmədən qırılmış əlaqələri bərpa etmək və təsərrüfatçılığımızın fəaliyyətini normallaşdırmalıyıq. Bunun üçün ən optimal yol Azərbaycanın MDB-yə daxil olmasıdır.

Mənəvi sahədə uzun bir dövr ərzində Azərbaycanın elmi, mədəniyyəti, təhsil sistemi, hətta təfəkkür tərzi Rusiya ilə bağlı olmuşdur. Lakin anlamıram ki, nə üçün biz real gerçəkliyi bir yana qoyub, ya tam inkar etmək, ya da iradəsiz, mütilik mövqeyindən çıxış etməliyik. Nə üçün biz özümüz oturduğumuz budaqları kəsməliyik. Rusiya elminin dünyada tanınmış statusunu və nailiyyətlərini danmaq nə deməkdir. Millilik anlayışını ağına-bozuna baxmadan hər yerdə və hər işdə yeritmək nə deməkdir, bu bizə nə verər. Əlbəttə, bizim öz tariximizi, öz mədəniyyətimizi, öz elmimizi, dilimizi, milli mədəniyyətimizi yüksək tutmağımız son dərəcə zəruridir. Lakin bunlar nə üçün bir-birinə qarşı qoyulmalıdır. Ya tamamilə inkar etmək, ya da qeyd-şərtsiz, müticəsinə qəbul etməkdən başqa yolu yoxdur. Ənənəni pozmaq, hər şeyi yeniləşdirmək meyli ilə çıxış etməyin təhsil sistemini nə vəziyyətə gətirdiyi hamımıza aydındır. Mənəvi inkişafımızda, elmimizdə, mədəniyyətimizdə, təhsilimizdə varislik prinsipini pozmaq, onun tələblərinə əməl etməmək çox ciddi neqativ nəticələr törədəcək. Bütün bunların həlli üçün mən bu gün üçün ən optimal yol olaraq MDB-yə daxil olmağı görürəm.

Bir şeyi də sizin nəzərinizə çatdırmaq istəyirəm, özünüz yaxşı bilirsiniz, Qarabağ müharibəsi biz İttifaqda olanda başlayıb, ona görə də biz geri qayıtmalıyıq və MDB-yə daxil olmalıyıq, həmin MDB-də Qarabağ məsələsinin həllini qoymalıyıq. Mən belə hesab edirəm ki, biz MDB-yə daxil olandan sonra bizim orada öz sözümüz, öz yerimiz olacaq və biz bununla da Qarabağ məsələsini həll eləmiş olacağıq. Heç kim elə fikirləşməsin ki, biz MDB-yə girsək, ermənilər hardasa özlərini Dağlıq Qarabağda udmuş sayacaqlar, heç də elə deyil. MDB-yə girmək o demək deyil ki, biz daim seçim edirik, xoşumuza gəlməyəcək, Qarabağ məsələsinin həllinə müsbət fikir olmayandan sonra 6 ay qabaq öz iradəmizi bildirə və MDB-dən çıxa bilərik. Mən belə hesab edirəm ki, biz MDB-yə daxil olmalıyıq və MDB-də biz Qarabağ məsələsinin həllini qoymalıyıq, Qarabağ məsələsi orada öz həllini tapmalıdır. Sağ olun. Mənim sözüm bu qədər.

**Sədrlik edən.** Etibar Məmmədov buyursun. Sonra professor Murtuz Ələsgərov, xahiş edirəm, qısaca olaraq bu müqavilələr barəsində hüquqi nöqteyi-nəzərdən bəzi şərhlərini, fikirlərini desin.

**Etibar Məmmədov.** Heydər müəllim, mən çıxışımın əvvəlində bir neçə məsələyə Sizin diqqətinizi cəlb eləmək istəyirəm. Siz bu gün iclas başlayarkən dediniz ki, bu, çox mühüm məsələdir. Azərbaycanın taleyində həlledici rol oynaya bilən məsələlərdən biridir və bu məsələyə dair hər kəs, ictimai-siyasi təşkilatlar da, partiyalar da, Milli Məclisin üzvləri də, o biri deputatlar da fikrini deyə bilər. Bütün bu fikirlər deyiləndən sonra müzakirə olunmalıdır. Ancaq Afiyəddin müəllim keçirilən iclasların Məclisə göndərilən teleqramlarını oxudu və belə məlum oldu ki, çıxışların da bəzilərində deyildi, 99 faiz əhali MDB-yə getmək tərəfdarıdır.

Mən Sizin diqqətinizi bir şeyə cəlb eləmək istəyirəm ki, son günlər televiziyada, radioda, qəzetlərdə Müstəqil Dövlətlər Birliyinə getmək çox güclü surətdə təbliğ olunur. Ancaq nədənsə, müharibəylə əlaqədar elan olunmuş fövqəladə vəziyyət şəraitində senzura MDB-yə münasibət məsələsində çox ciddi mövqe tutub ki, qəzetlərdə MDB-nin əleyhinə olan yazılar getməməlidir. Heydər müəllim, hətta iş o yerə gəlib çıxıb, bizim qurultaydakı mənim çıxışımın MDB-yə aid olan hissəsini senzura çıxarıb, deyir ki, yuxarıdan gələn göstərişdir. Əgər bu cür münasibətlə biz xalqın fikrini öyrənmək istəyiriksə, onda birtərəfli münasibət olacaq.

**Sədrlik edən.** Etibar bəy, bağışla, sözünü kəsirəm. Dəfələrlə demişəm, yuxarıdan, əgər bu, Ali Sovet hesab olunursa, bu barədə heç bir göstəriş verilmir. Siz təsəvvür eləyin, biz ayın 13-14-də müzakirəni apardıq,

ondan sonra belə bir fasilənin yaranması üçün mən şərait yaratdım və dedim, imkan olsun ki, hamı düşünsün, hamı fikirləşsin. Bu müqavilələr indiyə qədər dərc olunmamışdı, dərc olundu ki, hamı fikirləşsin danışsın, məsləhətləşsin, öz fikrini bildirsin. Belə bir halda nə cür ola bilər ki, yuxarıdan göstəriş verilsin. Bunlar kiminsə, ola bilər – əvvəllər də belə olub – şəxsi təşəbbüsüdür, yaxud şəxsi hərəkətidir. Ola bilər, belə şeylər olub, ancaq yuxarıların bundan xəbəri yoxdur, mən durmuşam və bu mövqedə də dururam ki, hər bir təşkilat, hər bir şəxs, hər bir siyasi partiya, şübhəsiz, bütün məsələlərə dair, xüsusən Azərbaycan üçün bu qədər mühüm, tarixi əhəmiyyəti olan məsələyə dair öz fikrini bildirməlidir. Buyurun.

**Etibar Məmmədov.** Mən inanıram ki, belə bir göstəriş olmayıb, ancaq Siz dediyiniz kimi, bu cür özfəaliyyət Azərbaycanda deyilən demokratiya, başqa məsələlər haqqında başqa fikirlər yaradır. Təəccüblüsü də odur ki, burada birbaşa efirdə Məclis müzakirə edirsə, hərə öz fikrini deyə bilirsə, burada deyilən fikirlərin qəzetdə çap olunmasına həmin senzura tərəfindən mane olmaq, ümumiyyətlə, gülməlidir. Mən inanıram, yaxın vaxtlarda o məsələlər qaydaya düşəcək və aparılan bu təbliğatın mənfi cəhətlərindən biri də, mənim fikrimcə, odur ki, vaxtilə biz MDB-yə münasibət məsələsini müzakirə eləyəndə burada biz bir qütbdən o birisi qütbə keçirik və həmin balansı heç vaxt saxlaya bilmirik. Vaxtilə MDB-yə getmək istəyənləri bu zalda, mitinqlərdə, başqa yerlərdə düşmən, millətin əleyhinə olan adamlar elan eləyirdilər, indi isə tam əksinə olub, MDB-yə getmək istəməyənləri artıq yenə də düşmən elan eləmək istəyirlər. Hətta televiziyada olan çıxışlardan birində belə alındı ki, MDB-yə getməyin əleyhinə olanlar, ümumiyyətlə, ermənilərin agentləridir.

Mənim fikrimcə, bu məsələlərə son qoymaq lazımdır, hər kəs fikrini bildirməlidir, ümumi fikrə gəlmək üçün bu cür mühüm məsələlərdə xalqın fikrini sərbəst surətdə öyrənmək imkanı olmalıdır və bu fikirlər öyrəniləndən sonra deyilməlidir ki, bəli, xalqın hansı hissəsi hansı fikirdədir və münasibəti nə cürdür. Müstəqil Dövlətlər Birliyinə münasibət məsələsinin, ümumiyyətlə, bu şəkildə müzakirə olunmasını mən məqbul hesab eləmirəm. Çünki bu, olduqca mühüm və Azərbaycanın taleyində həlledici olan bir məsələdir və bugünkü gündəlikdə də hələ MDB məsələsinə gedib-getməmək məsələsi həll olunmamış, ikinci məsələ kimi MDB-nin Parlamentlərarası Assambleyasında iştirak məsələsi qoyulur. Sanki MDB-yə getmək məsələsi həll olunub, onun ardınca da həmin Assambleyada iştirak məsələsi həll olunacaq. Bu məsələni də çox zaman artıq həll olunmuş məsələ kimi qələmə vermək istəyirlər və aparılan təb-

liğatın da bir məqsədi var ki, bütün bizim xilas yolumuz ancaq Müstəqil Dövlətlər Birliyinə getməkdə və orada iştirak eləməkdədir.

Burada əsas üç məsələ qoyulur, bunun siyasi tərəfi, iqtisadi tərəfi və hərbi tərəfi var. Bu saat Azərbaycanda hərbi böhran yarandığı, Ermənistanla müharibə məsələsində bizim uğursuzluqlarımız olduğu, böyük qaçqın kütləsinin olduğu, ərazilərin böyük bir hissəsinin itirildiyi faktı olduğu üçün belə bir məsələ irəli sürülür ki, MDB-yə girəndən sonra bu məsələ öz-özünə həll olunacaq. Mən bir şeyi nəzərinizə çatdırmaq istəyirəm ki, heç kəs heç vaxt bizim yerimizə məsələləri həll eləməyəcək. Həmin ümidlə yaşamaq ki, kimlərsə, hansısa ittifaqa girmək, o ittifaq gəlib bizim əvəzimizə məsələləri həll edəcək, ümumiyyətlə, qeyri-ciddidir. Əgər həmin ittifaq bu məsələləri həll edəcəkdisə, Azərbaycan xalqının mənafelərini müdafiə edəcəkdisə, həmin ittifaqın tərkibində 1988-ci ildə bu münaqişə başlayanda, 300 minə yaxın azərbaycanlı Ermənistandan qovulanda Konstitusiyaya əsasən sovet ordusu da, sovet dövləti də onların hüquqlarını müdafiə eləməliydi. Kim müdafiə elədi onların hüquqlarını, heç kim müdafiə eləmədi. Onlar da özləri özlərini qoruya bilmədilər, çünki mərkəzdən aparılan siyasət belə idi ki, Ermənistanın ərazisində tək ermənilərin yaşaması üçün şərait yaradılsın və 300 min qaçqının şahidi olduq, onların da gəlməsi Azərbaycandakı vəziyyətdə öz rolunu oynadı.

Digər tərəfdən, sonrakı dövrdə daim SSRİ-nin tərkibində olsa da, bir dövlət hesab olunsa da, ayrı-ayrı vilayətlərin, respublikaların bir-biri ilə münaqişə məsələsində mərkəz heç vaxt Konstitusiya ilə öz üzərinə düşən vəzifələri yerinə yetirmədi. Əgər Konstitusiya ilə onun üzərinə o vəzifə düşürsə, o zaman Konstitusiya vəzifəsini yerinə yetirməyibsə, Müstəqil Dövlətlər Birliyinə gedəndən sonra öz üzərinə heç bir öhdəlik götürməyən bu qurum nə həll eləyə bilər, deməli, burada məsələ aydındır ki, heç bir şey həll eləyə bilməz. Kimlər fikirləşir ki, biz Müstəqil Dövlətlər Birliyinə gedəndən sonra bu problemlərimizin hərbi tərəfi onlar tərəfindən həll olunacaq, mənim fikrimcə, səhv eləyirlər.

Əlbəttə ki, bizi Müstəqil Dövlətlər Birliyinə, Kollektiv təhlükəsizlik müqaviləsinə cəlb eləmək istəyənlərin öz məqsədləri var, bu da açıq-aydın bildirilməlidir ki, Rusiyanın bu regiondakı hərbi-strateji mənafeləridir. Ancaq bu mənafeləri, mənim fikrimcə, nəzərə almaq olar. Azərbaycan müstəqil bir dövlət kimi öz siyasətində bunları nəzərə ala bilər, bu regionda Rusiyanın mənafelərini də təmin eləyə bilər, ancaq öz mənafelərinə çox böyük ziyan gətirmədən və bunlar haqqında fikirləşmək lazımdır. Sadəcə, düşünməklə ki, biz ora gedən kimi bütün məsələlər həll

olunacaq, mənim fikrimcə, olduqca böyük səhvdir və bu səhvi də artıq bu günlərdə görürük.

Rusiya öz üzərinə düşən öhdəlikləri, görürük, Gürcüstanda nə cür yerinə yetirir. Rusiya orada münaqişə edən tərəflərin arasında bir sülh missiyasını yerinə yetirmək rolunu oynamaq istəyirdi, nəticəsi nə oldu, nəticəsi bu saat göz qabağındadır və Azərbaycan da Gürcüstanda baş verən nəticədən özü üçün ümumi bir fikrə gəlməlidir. Kollektiv təhlükəsizlik müqaviləsini burada çox təriflədilər, hətta onu NATO ilə müqayisə eləməyə çalışdılar və bildirdilər ki, heç bir dövlət tək yaşaya bilməz, mütləq hansısa hərbi ittifaqlarda iştirak eləməlidir. Mən belə fikirdəyəm ki, heç bir hərbi ittifaqda olmayan dövlətlər də var, hansısa dövlətlərlə hərbi ittifaq yaratmaq da olar. Ancaq Kollektiv təhlükəsizlik müqaviləsinə qoşulmaq öz üzərinə hansısa öhdəlikləri götürmək deməkdir, həmin öhdəliklər isə ancaq həmin kollektiv təhlükəsizlik qurumunu yaradan dövlətin, yəni Rusiyanın mənafelərini müdafiə etməkdən ibarət olacaq. Həmin mənafelər isə daim Rusiyanı bir dövlət kimi bütün tarix boyu həmin müqavilələri pozmağa vadar eləyib və bundan sonra da heç kəs deyə bilməz ki, həmin dövlət bu müqavilələr əsasında öz mənafelərini həyata keçirmək üçün həmin müqavilələri pozmayacaq.

NATO ilə müqayisə edirdilər, misal gətirirdilər ki, Türkiyə tək yaşaya bilməzdi, Türkiyə gedib NATO-ya daxil oldu. Axı Türkiyə NATO-ya daxil olanda özünü Sovet İttifaqından və Sovet İttifaqının tərkibində olan Ermənistan, Gürcüstandan qorumaq istəyirdi, çünki 1946-cı ildə 26 avqust və 7 sentyabrda Stalinin notaları olmuşdu və orada Türkiyəyə qarşı, Gürcüstanın və Ermənistanın xeyrinə ərazi iddiaları sürülürdü. Türkiyə bir dövlət kimi öz mənafelərini, öz torpaqlarını müdafiə eləmək üçün məcbur oldu ki, 5 ildən sonra 1949-cu ildə yaranan həmin NATO-ya daxil olsun. Məgər Türkiyə onda Gürcüstandan, Ermənistandan özünü müdafiə eləmək üçün gəlib SSRİ-nin tərkibinə girə bilərdi, indi bizdə də belə çıxır. Azərbaycana MDB-nin üzvü Ermənistan ərazi iddiası qaldırır. Azərbaycan guya ki, Ermənistandan özünü müdafiə eləmək üçün gedib həmin ittifaqın tərkibinə girməlidir və həmin ittifaq onun hüquqlarını, ərazi bütövlüyünü nə cür qoruya bilər, aydındır ki, heç cür qoruya bilməz.

Mən deyərdim ki, Müstəqil Dövlətlər Birliyini, Kollektiv təhlükəsizlik müqaviləsini NATO müqaviləsi ilə yox, Varşava müqaviləsi ilə müqayisə eləmək lazımdır və bu oradan da köçürülüb. İkisi də 11 maddədən ibarətdir. Hətta imzalandıqları tarixdə cəmi bir gün fərq var. 1955-ci il 14 may və 1992-ci il 15 may. Varşava müqaviləsinə daxil olan ölkələrin taleyi

Azərbaycan üçün dərs olmalıdır. Necə ki, Varşava müqaviləsini yaradanda guya ki, ora daxil olan ölkələrin hüquqlarını müdafiə eləmək istəyirdilər, ancaq əslində isə Sovet İttifaqı orada yaradılan rejimləri müdafiə edirdi və 1956-cı ildə Macarıstana, 1968-ci ildə isə Çexoslavakiyaya Varşava müqaviləsi ölkələrinin müdaxiləsi oldu. Yəni bunlar müqayisə olunan şeylər deyil və mənim fikrimcə, bunları da müqayisə etməyə ehtiyac yoxdur. Azərbaycan Kollektiv təhlükəsizlik müqaviləsinə qoşulmaqla nə gələcəkdə ordu yarada biləcək, nə də öz ərazisini özü müdafiə eləyə biləcək. Burada da deyirdilər ki, Azərbaycanın ordusu yoxdur, bu, müstəqilliyin atributlarından biridir, sübut etməyə çalışırlar ki, ümumiyyətlə, Azərbaycan müstəqil deyil. Yaxşı, Azərbaycan müstəqil deyilsə, belə bir sual çıxır, onda Müstəqil Dövlətlər Birliyinə necə girə bilər? Əgər onlar ancaq müstəqil dövlətləri qəbul eləyirlərsə? Əgər ora ancaq müstəqil dövlətləri qəbul eləyirlərsə və burada sübut olunmağa çalışılırdı ki, bəli, Azərbaycan müstəqil deyil.

**Sədrlik edən.** Kim onu deyir?

**Etibar Məmmədov.** Heydər müəllim, Sizin çıxışınıza əsasən belə alındı və Rəsul Quliyev dedi ki...

**Sədrlik edən.** Rica edirəm, mənim çıxışımı təhrif etməyəsiniz, Etibar bəy, mən heç vaxt deməmişəm, Azərbaycan müstəqil deyil. Azərbaycanın ordusunun indi istənilən səviyyədə olmadığını biz tənqid edərkən heç də demirik ki, Azərbaycanın ordusu yoxdur. Azərbaycanın dövlət atributlarından biri ordudur, ordu var və olmalıdır, ancaq ordu elə olmalıdır ki, öz torpaqlarını müdafiə eləyə bilsin. İndiyə qədər ordu yaranmaq əvəzinə, ayrı-ayrı taborlar yaranıb, o cümlədən elə Sizin də vaxtilə taborunuz var idi.

**Etibar Məmmədov.** Mənim heç vaxt taborum olmayıb, Heydər müəllim, lap taborum olsa da və buna imkanım olsa da, mən heç vaxt onu Azərbaycanın mənafeyi əleyhinə istifadə eləmərəm. Heydər müəllim, Siz də bunu çox yaxşı bilirsiniz.

**Sədrlik edən.** Keçmişdə olub da, bilirsən.

**Etibar Məmmədov.** Heydər müəllim, Siz də bilirsiniz ki, mənim adıma yazılan taborun qorxusu, heç olmasa, keçmiş iqtidarı hansısa artıq hərəkətlərdən çəkindirirdi.

**Sədrlik edən.** Yox, xidmətləriniz, əlbəttə ki, qiymətləndirilir.

**Etibar Məmmədov.** Çox sağ olun. Deyəndə ki, Azərbaycanın ordusu yoxdur, Azərbaycan müstəqil deyil, mən o məsələyə toxunmaq istəyirəm,

biz müstəqilliyimizi faktiki olaraq elan etmişik, ancaq o müstəqil dövləti yaratmaq, müstəqil dövləti qurmaq lazımdır. Bunda da dövlət rəhbərliyində səriştəli olan adamların iştirakı və Azərbaycandakı kadr potensialından istifadənin çox böyük əhəmiyyəti var. Biz indi deməklə biz müstəqil deyilik, müstəqilliyimizi itirmişik və burada təkrar-təkrar deyilirdi, bu il ərzində müstəqilliyimizi itirmişik, bu o demək deyil ki, təzədən harasa girməliyik və müstəqilliyimizdən tamamilə imtina eləməliyik. Əgər ora Müstəqil Dövlətlər Birliyidirsə, biz çalışmalıyıq ki, biz də müstəqil dövlət olaq, sonra bizi müstəqil dövlət kimi ora qəbul eləsinlər. Müstəqil olmayan dövlət kimi ora qəbul olunmağın, mənim fikrimcə, əhəmiyyəti yoxdur və burada bir çox məsələ var ki, ittifaqlarla bağlıdır. Hərbi ittifaqlar yaradılarkən Təhlükəsizlik haqqında müqavilə də hərbi ittifaqlardan biridir, onun nə isə bir məqsədi olur və ora daxil olan dövlətlər də həmin ümumi məqsədin həyata keçməsində iştirak eləyirlər.

NATO yaradılarkən deyildi ki, özümüzü SSRİ-dən, kommunizmin təcavüzündən müdafiə edirik. Varşava müqaviləsi yaranarkən deyildi ki, özümüzü NATO-dan müdafiə edirik. Axı Kollektiv təhlükəsizlik müqaviləsi kimi kimdən müdafiə eləyir? Azərbaycanı kimdən müdafiə edəcək, Ermənistandan müdafiə edəcəksə, biz onda belə bir şərtlə bura daxil olmalıyıq ki, əvvəl onlar Ermənistanı təcavüzkar elan eləsinlər, ona qarşı hər hansı bir sanksiyaları qəbul etsinlər, tədbirlər görsünlər, biz də görək, onlar nə vaxtsa bizim hüquqlarımızı müdafiə edəcəklər, ondan sonra fikirləşək, ora gedə bilərik, ya yox. Yoxsa həmin Kollektiv təhlükəsizlik müqaviləsinin üzvü Azərbaycana təcavüz eləyir və Azərbaycan da gedib həmin müqavilənin iştirakçısı olur. Onda belə çıxır ki, bura daxil olmaqla Azərbaycandan, mən yenə deyirəm, Rusiyanın hərbi-strateji mənafeyinin əleyhinə istifadə olunacaq, ərazisi də, əhalisi də, potensialı da istifadə olunacaq. Buna da, mənim fikrimcə, heç cür yol verilə bilməz, çünki burada Rusiyanın tarixi rəqibləri məlumdur, İran, Türkiyə, əlbəttə ki, biz o böyük dövlətlərin rəqabətində arada qalan dövlət rolunu oynaya bilmərik. Çünki bu, Azərbaycana böyük zərər gətirəcək.

İqtisadi tərəfdən, yenə də burada sübut eləməyə çalışırlar ki, bizim bütün bəlalarımızın dərmanı Müstəqil Dövlətlər Birliyinə getməkdir. Mən sizin nəzərinizə çatdırmaq istəyirəm ki, Müstəqil Dövlətlər Birliyində, o cümlədən Rusiyanın özündə də təsərrüfat dağıntıları baş alıb gedir, istehsalın həcmi azalır, istehsal özü aşağı düşür, bu da ümumi keçid dövründə olan prosesdir. Azərbaycan ora getməklə nə Rusiyada, nə də Azərbaycanda vəziyyət yaxşılaşacaq. Əlbəttə ki, Azərbaycan Rusiya ilə, bütün

MDB dövlətləri ilə iqtisadi əlaqələrini, son bir ildə kəsilmiş əlaqələrini bərpa eləyə bilər. Ancaq iqtisadi müqavilə şəklində yox, birbaşa iqtisadi müqavilələr bağlaya və onları da həyata keçirə bilər.

Mən iqtisadi məsələlərdən uzun danışmaq istəmirəm, deyilir ki, rubl zonasına daxil olmağın nə ziyanı var, ümumi bir valyutanın yaranmasının nə ziyanı var. Deyirlər ki, milli valyutalar da saxlanılacaq. Diqqətlə baxsanız, həmin iqtisadi müqavilədə göstərilir ki, keçid dövründə monovalyuta işlənəcək və bunun da əsasını ehtiyat valyutası təşkil edəcək. Ehtiyat valyutası da, məlumdur ki, Rusiya rubludur. Beləliklə, ehtiyat valyutasının işlənməsi, keçid dövrünün nə qədər uzanacağı hələ bilinmir. Həmin dövrdə Azərbaycanın bütün sərvətləri Azərbaycan manatının yox, rus rublunun təminatçısı kimi çıxış edəcək.

İndi bunları həll etmək üçün yollar axtarmaq lazımdır. Azərbaycanın potensial imkanları böyükdür. Azərbaycanda normal bir hökumət, dövlət qurulmalıdır ki, bunları idarə eləyə bilsin, bütün potensialını toplayıb bunları Azərbaycanın mənafeyinə istifadə eləyə, sərf eləyə bilsin. Amma ümumi dağıntılıqla biz gözləyə bilmərik ki, MDB-yə girəndən sonra Rusiya gəlib Azərbaycanın əvəzinə bu məsələləri həll edəcək, Azərbaycanı iqtisadi böhrandan da çıxaracaq. Bu, ümumiyyətlə, qəbul olunmayan bir şeydir.

Ümumi valyutanın yaranmasını, MDB-nin iqtisadi müqaviləsini çox vaxt Avropa İqtisadi Birliyi ilə müzakirə eləyirlər. Nəzərinizə çatdırmaq istəyirəm ki, Avropa İqtisadi Birliyində ümumi valyutanın yaranması 20 ildən sonra baş verdi. Ancaq 1979-cu ildə ümumi birlik, bazar yaranandan sonra qərara gəldilər ki, biz ümumi valyuta yarada bilərik. Ancaq biz hansısa dövlətin valyutasını özümüz üçün valyuta hesab edirik, deməli, Azərbaycanın da bütün iqtisadi potensialı, maddi sərvətləri həmin rublun təminatçısına çevrilməlidir. Belə olan vəziyyətdə tez-tez sual verirlər ki, bəs Siz nə təklif edirsiniz? Çıxış yolunu nədə görürsünüz?

Mən çıxış yolunu öz gördüyüm şəkildə nəzərinizə çatdırmaq istəyirəm. Heydər müəllim, burada dəfələrlə müxtəlif şəkillərdə deyilib ki, xalq Sizə ümidlə baxır. Azərbaycan xalqının tarixinə nəzər salsanız görərsiniz, Azərbaycan xalqı, ümumiyyətlə, o dövrlərdə inkişaf eləyib, o dövrlərdə ölkə çiçəklənib ki, Azərbaycana bacarıqlı rəhbərlər rəhbərlik eləyib. Biz xalqın ümidini görüb Sizə müraciət edirik. Siz bu xalqın ümidini, xalqın ümumi gücünü özünüz üçün əsas götürün və Azərbaycanı müstəqil şəkildə inkişaf elətdirmək yolunu tutun və biz də burada Sizə kömək elə-

məyə hazırıq. Burada başqa heç bir şey ola bilməz, ümumi fikir yaranmalıdır və biz müstəqil dövlət kimi inkişaf eləməliyik. Bütün dövlətlərlə də normal, dinc münasibətlərimiz ola bilər.

Müharibə məsələsinə gəldikdə isə mən sizin nəzərinizə çatdırmaq istəyirəm, kimlərsə o təbliğatı aparırlarsa ki, Azərbaycan gəncləri vuruşa bilmir, qaçırlar, ümumiyyətlə, nizam-intizama tabe olmurlar, bu mənim fikrimcə, Azərbaycan xalqına qarşı aparılan təbliğatdır. Çünki bizim gənclərimiz çox yaxşı vuruşmağı da, döyüşməyi də bacarırlar, sadəcə, onlara yaxşı rəhbərlik lazımdır, ordunun lazımi qaydada təşkil olunması lazımdır. Orduda nizam-intizamı yaratmaq üçün qanunların işləməsi lazımdır, bütün ölkədə indiki vəziyyətdə qanunların işləmədiyi bir halda, əlbəttə ki, əsgər də ruhdan düşəcək. Bu cür təbliğatla da həmin əsgərləri ruhdan salmağa çalışırlar ki, onlar da vuruşmasınlar.

Mən keçən dəfə bu zalda olmamışam, bir şeyi nəzərinizə çatdırmaq istəyirəm ki, burada kimsə çıxış eləyib deyib ki, o vaxt Şuşaya gedənlərin 30 faizi erməni idi. Bundan böyük təhqir yoxdur, çünki ora gedənlərin indiyə qədər cəmi 20-30 nəfəri sağ qalıb, qalanları hamısı şəhid olub. Əgər kimin kimdənsə xoşu gəlmirsə, heç kim başqalarını, yaxud ümumi müstəqillik uğrunda Qarabağda vuruşanların ruhunu təhqir eləməsin, bundan pis şey yoxdur, çünki xalqın döyüş qabiliyyətini aşağı salırlar, ruhunu qırırlar.

Xalq da, Heydər müəllim, Sizə inanır, inanırsa, mən yenə də deyirəm, Siz bu inamdan istifadə eləməlisiniz. Burada bəziləri deyirlər ki, artıq MDB-yə girəndən sonra Heydər Əliyev kimi bir şəxsiyyət olacaq orada, yuxarı dairələrdə, ümumi şurada, orada kim onun hansı hüquqlarını poza bilər. Heydər müəllim, bayaq özünüz dediniz ki, ümumi taledir, insan bu gün ola bilər, sabah ola bilməz, axı bir insana bütün Azərbaycanın taleyini bağlamaq olmaz. Biz bir dəfə 1982-ci ildə Siz Moskvaya gedəndən sonra gördük ki, Azərbaycan nə cür idarə olundu. Bir rəhbər tapılmadı ki, bu müddət ərzində Azərbaycanı normal idarə eləyə bilsin. Həmin rəhbərləri yetişdirmək lazımdır. Azərbaycanda yetişdirmək lazımdır. Onlardan da istifadə eləmək lazımdır. Daha biz gedib kimlərinsə ümidinə qala bilmərik ki, yenə də kimlərsə bizə yardım eləsinlər, bizim əvəzimizə hansısa məsələləri həll eləsinlər. Xalqı da öyrətmək olmaz, gözü başqa tərəfdə olsun ki, kimsə gəlib bizə kömək edəcək. Birdəfəlik bilmək lazımdır ki, misalda deyildiyi kimi, batan adamın xilas olmağı həmin adamın öz işidir. Bu, eləcə də dövlətlərə də, xalqlara da aiddir. Bizim xilas yolumuz özümüzdədir.

Sizdən də xahiş edirəm, Heydər müəllim, Siz əgər müstəqillik yolu ilə, Azərbaycanı müstəqil dövlət kimi inkişaf etdirmək yolu ilə gedəcəksinizsə, biz də Sizin arxanızca getməyə hazırıq. Çox sağ olun.

**Sədrlik edən.** Etibar bəy, bir balaca arayış vermək istəyirəm. Bilmirəm, kimə aid dedilər ki, guya Azərbaycanın gəncləri vuruşa bilmir, döyüşə bilmir, hər halda dövlət rəhbərliyinə və şəxsən Ali Sovetin rəhbərliyinə, o cümlədən mənə aid deyil. Azərbaycanın gəncləri həmişə vuruşa da biliblər, qəhrəman da olublar, qüdrətli, cəsarətli də olublar. İkinci Dünya müharibəsi zamanı ovaxtkı ümumi sovet vətənini müdafiə edərkən yüz minlərlə azərbaycanlı həlak olub, evlərinə qayıtmayıb və böyük şücaətlər göstərib. Bu, 50 il bundan qabaq olub. Necə ola bilər ki, indi Azərbaycan xalqının gəncləri vuruşa bilməsinlər, bu, böhtandır. Şübhəsiz, bu böhtanı da yayırlar və ümumi fikri dağıtmaq istəyirlər. Kimsə, beləliklə, xalqı bir-birinə vurmaq istəyir. Mən güman edirəm ki, böhtan fikirlərdən istifadə eləmək lazım deyil.

Ancaq bu da həqiqətdir, o vaxtdan ki Azərbaycan öz ordusunu qurmaq qərarını qəbul edib, indiyə qədər lazımi səviyyədə ordu qura bilməyib. Yaxşı, bu salonda bir ildən artıq mübahisələr gedib, indi nə üçün gərək bu məsələ gəlib bizim üzərimizə düşəydi. Nə üçün şəxsən mənim üzərimə düşəydi ki, Azərbaycanın ordusunu dağıdan adamların biri qaçıb, Rəhim Qazıyev, o birisi Əlikram Hümbətov, milli qəhrəman eləmişdilər, Azərbaycanı parçalamaq istəyirdi, mənim başıma qaldırmaq istəyirdilər. Nə üçün gərək bu mənim üzərimə düşəydi, bunların qabağını almağa burada adamlar yox idimi? Əlikram Hümbətov mən bura gələndən sonra peyda olmadı ki, Əlikram Hümbətov neçə il idi burada idi, Xalq Cəbhəsi məclisinin üzvü idi, sonra Sosial Demokrat Partiyasında, ondan sonra gətirib qoymuşdular Müdafiə Nazirliyində, böyük bir idarənin rəisi idi, ondan sonra Lənkəranda böyük bir hərbi hissəni əlinə keçirib. Bəs siz onda harada idiniz, nə üçün Əlikram Hümbətovun qabağını almırdınız? Buradan elçilər gedirdilər Əlikram Hümbətovun yanına, təkcə lənkəranlılar deyildi, başqaları da gedirdilər. Nə üçün bu məsələ elə gərək mənim üzərimə düşəydi, nə üçün bu zərbəni öz üzərimə götürməli idim?

Vahid Musayevi gətirdiniz, siz general elədiniz. Nə üçün vəzifə mənim üzərimə düşəydi ki, onun generallığını ləğv eləyib cinayət məsuliyyətinə cəlb olunsun. Nə üçün bunu siz həll etmirdiniz? Mən bunu hamınıza deyirəm, o cümlədən Etibar bəy, Sizə də deyirəm. Sizin böyük səlahiyyətiniz olubdur, bir siyasi xadim kimi, böyük bir partiyanın rəhbəri kimi, son illərdə Azərbaycanda böyük bir nüfuzlu adam kimi.

Sizin böyük səlahiyyətiniz olubdur, sözünüz də keçirdi, nə üçün bunların qarşısını almırdınız? Siz görmürdünüz, Rəhim Qazıyev Azərbaycanı dağıdırdı, amma Rəhim Qazıyevlə yeri gələndə qol-qola girirdiniz. Siz görmürdünüz, Əlikram Hümbətov Azərbaycanı parçalayır, bir dənə sənəd verməklə Siz niyə canınızı qurtarmalı idiniz. Siz gərək gedəydiniz, oturaydınız orada, gəlib bu adamlardan tələb eləyəydiniz, bu Məclisdə bu məsələni qaldıraydınız.

16 iyulda heç mən məsələni qaldırmadan İsa Qəmbərov istədi, bu məsələni qaldırsın, mən o vaxt dedim, bu, hələ yetişməyibdir, çünki o vaxt mən güman edirdim ki, Surət Hüseynov bu məsələni həll eləyəcəkdir. Ancaq sonra gördüm, bu dözülməzdir, mən bu yükü götürdüm, ona görə də bilirsiniz, məsələni məsələyə qatmaq lazım deyil. Bəli, Azərbaycan xalqı, onun igid oğlanları olub, tarixdə də, əsrlər boyu da olubdur, elə bu 20-ci əsrdə də olubdur, indi də var. Ancaq, sadəcə olaraq, onları qaldırmaq, onları ruhlandırmaq və Azərbaycanın torpaqlarının müdafiə edilməsində onlara şərait yaratmaq lazım idi. Ancaq bu mafioz qruplar, nəinki onlar, çox adam girişiblər, onların hamısını günahsız qurban veriblər, düzdür, onlar canlarını vətənin müdafiəsinə qurban veriblər, amma heç bir şeyə görə şəhid olublar.

Bunların hamısını, Etibar bəy, Siz yaxşı bilirsiniz. Şübhəsiz, mən Sizin çıxışınıza çox böyük diqqətlə, hörmətlə yanaşıram. Təəssüf edirəm ki, əgər Siz vaxtilə, bir il bundan əvvəl belə ciddi mövqelərdə olsaydınız, bir il müddətində Siz Azərbaycan Respublikasının rəhbərliyinə daha çox müsbət təsir göstərə bilərdinz və onları bəlalardan, o səhvlərdən qurtara bilərdiniz. Bilirsiniz, Siz görürsünüz ki, onlar Azərbaycanı uçuruma aparırlar, ancaq Siz onlarla bərabər gedib Azadlıq meydanında mitinqlərdə çıxış edirdiniz. Siz onda görmürdünüz, Rəhim Qazıyev kimdir? Siz onda görmürdünüz ki, bu rəhbərlik Azərbaycanı uçuruma aparır? Siz görürdünüz, amma Siz onlarla bərabər mitinqlərdə çıxış edirdiniz. Mən bunu Naxçıvanda sessiyada keçən ilin noyabrında televiziyada gördüm, bunların hamısı olan şeylərdir.

Ancaq mən yenə də deyirəm, Sizə və Sizin partiyaya, Sizin şəxsiyyətinizə mən çox hörmət edirəm və bir halda ki Siz deyirsiniz ki, birləşmək lazımdır, bəli, mən bunu Tofiq Qasımova da dedim, Mirmahmuda da dedim, Sizə də deyirəm, birləşmək lazımdır. Amma birləşmək üçün iş görmək lazımdır, iş görmək üçün birləşmək lazımdır, vəzifə üçün yox, burada dava etmək üçün yox.

O ki qaldı ittifaq məsələlərinə, burada, şübhəsiz ki, mən Sizdən konkret konstruktiv bir təklif ala bilmədim. Çünki bir söz də deyə bilərəm ki, Müstəqil Dövlətlər Birliyinə girməyə bizi heç kəs məcbur etmir, bu, sadəcə olaraq, burada meydana çıxmış fikirdir. Mən şəxsən dövlət başçısı vəzifəsini həyata keçirən bir şəxs kimi Sizə bir söz demək istəyirəm, Rusiyadan bizə heç bir təzyiq yoxdur. Heç bir təzyiq yoxdur, mən şəxsən bunu Sizə deyirəm, ancaq bu, meydana çıxmış bir məsələdir, müzakirə olunur və bundan geniş də nə cür müzakirə oluna bilərdi. Bu biz hələ Moskvaya getməmişdən qabaq, sentyabrın 3-də müzakirə olunub. Sonra biz Moskvaya getdik, görüşlər keçirdik, oradan gələndən sonra ayın 13-14-də Azərbaycan–Rusiya münasibətləri ilə əlaqədar məsələ müzakirə olundu, ondan sonra fasilə verdik ki, bu, təşkilatlarda, ictimaiyyətdə, elm idarələrində, siyasi partiyalarda müzakirə olunsun, bundan artıq nə qədər müzakirə eləmək olar. Yenə də geniş müzakirə olunubdur, amma Siz nahaq yerə deyirsiniz ki... Minlərlə teleqram gəlibdir, siyahıları buradadır, heç kəs onları məcbur etməyib, nə də bir şey eləyibdir. Deyirsiniz, birtərəfli gedibdir, mən bilmirəm, nə cür təbliğat gedibdir, mən bunu deyə bilmərəm.

**Etibar Məmmədov.** *(Yerdən danışır, eşidilmir.)*

**Sədrlik edən.** Bilmirəm, nə üçün qəbul eləmirlər, burada mən imkan yaradıram ki, hər kəs çıxış eləsin. Siz görürsünüz, burada nə qədər adam yazılıb, mən burada bu soyadlardan görürəm ki, kim nə cür çıxış eləyə bilər, ona görə də bu tənəffüsdən sonra Mirmahmud Fəttayevə, Tofiq Qasımova söz verdim. Sizdən qabaq yazılıblar, Siz tabloda da bunu görürsünüz, mən qəsdən bunu elədim, çünki mən bilirəm ki, indi söz verdiyim adamlar bu birilərə nisbətən başqa fikirdədirlər, amma mən bunlara şərait yaradıram. Nə üçün Siz hesab eləyirsiniz, teleqramlar düzgün olunmur, hesab eləyirsiniz, teleqram oxumağa vaxtımız var, vaxtımız yoxdur. Amma elə yaxşı olar ki, burada açıq-aydın fikir deyilsin, bir teleqramı əgər mən, burada bir məmur oxuyacaqsa, bütün bu 7 milyonluq əhalini görürsünüz, fikirləri bilirsiniz, bunu hamı bilir, ona görə də mən hamını əməkdaşlıq eləməyə dəvət edirəm və hesab edirəm ki, bizim yolumuz əməkdaşlıq yoludur, birlik yoludur.

Ancaq bu sözlərlə də razı ola bilmərəm ki, bizim müstəqilliyimiz yoxdur. Bizim müstəqilliyimiz var, nə qədər bu dövlət səviyyəsində səhvlər olubsa, Azərbaycanın müstəqilliyi bu dövrdə var, bu bir ildə Azərbaycanın müstəqilliyi yaşayıbdır, bundan sonra da yaşayacaqdır, bunu da təhrif etməyə bizim ehtiyacımız yoxdur.

O ki qaldı ittifaq məsələsinə, Siz Türkiyəni dediniz, yəqin ki, mən də Türkiyənin adını çəkmişdim.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Bəli, NATO. Siz dediniz ki, 1946-cı ildə Türkiyəyə torpaq iddiasında olmuşdular, Gürcüstan tərəfi yox, Sovetlər İttifaqı tərəfindən olmuşdur. Gürcüstan müstəqil bir dövlət deyildi ki. Guya Gürcüstanın torpaqları Türkiyənin əlinə keçmişdir, bu, 1946-cı ildə olmuşdur, mənim xatirimdədir, bəlkə, bunları kitablardan oxumusunuz.

NATO 1949-cu ildə yaranmışdır, Türkiyə NATO-ya 1952-ci ildə girib, bu tarixlər də məlum olmalıdır. Bunu da bilin ki, İkinci Dünya müharibəsi vaxtı Türkiyə Almaniyanın müttəfiqi olubdur, baxmayaraq ki, İkinci Dünya müharibəsi zamanı faşist, Hitler Almaniyası Amerika, İngiltərə ilə vuruşubdur. Ondan sonra Türkiyə 1952-ci ildə NATO-ya giribdir. NATO-da, bilirsiniz ki, hakim dövlətlər Amerika Birləşmiş Ştatları, İngiltərə, Fransa idi. Sadəcə, bu faktları məlumat üçün deyirəm ki, Məclis üzvləri bilsinlər, başqa bir məqsəd daşımıram.

Söz verilir professor Murtuz Ələsgərova. Xahiş eləyirəm, müqavilə haqqında çox qısa öz fikirlərinizi bildirəsiniz. Ondan sonra xarici işlər naziri Həsən Həsənova söz veriləcək.

**Murtuz Ələsgərov, *Bakı Dövlət Universitetinin Konstitusiya hüququ kafedrasının müdiri.*** Hörmətli sədr, hörmətli millət vəkilləri, mən istərdim ki, sizin vaxtınızdan sui-istifadə etməyim, bu məqsədlə bu məsələyə beynəlxalq hüquq mövqeyindən yanaşmaq istəyirəm. Beynəlxalq təşkilatlar fenomeni müasir beynəlxalq münasibətlərdə çox mühüm əhəmiyyətə malikdir. Mən deyərdim ki, beynəlxalq təşkilatların sayı gündən-günə, ildən-ilə artır və bu, beynəlxalq hadisələrin gedişinə çox əhəmiyyətli dərəcədə təsir göstərir.

Hazırda dünyada 4 mindən çox dövlətlərarası və hökumətlərarası beynəlxalq təşkilat fəaliyyət göstərir. Bundan əlavə, elmi-texniki, mədəni əməkdaşlıq sahəsində on minlərlə müxtəlif təşkilat vardır ki, onlar da bu fəaliyyəti davam etdirirlər. Hər şeydən əvvəl, beynəlxalq təşkilatın mühüm əlaməti ondan ibarətdir ki, bu təşkilatlar Birləşmiş Millətlər Təşkilatının nizamnamə prinsipləri əsasında fəaliyyət göstərirlər, bu prinsipləri əldə rəhbər tuturlar. Yəni suveren bərabərlik, dövlətlərin bir-birinin daxili işinə qarışmaması və onların hüquqlarına hörmət edilməsi prinsipi.

Ümumiyyətlə, bütün beynəlxalq təşkilatlar iki növə bölünürlər, universal təşkilatlara, bir də regional təşkilatlara. Universal təşkilatlar o

təşkilatlara deyilir ki, onlar beynəlxalq aləmdə bütün problemləri həll etmək imkanına malikdirlər. Məsələn, Birləşmiş Millətlər Təşkilatı və onun xüsusiləşdirilmiş YUNESKO və sair təşkilatları. Regional təşkilatlar isə bir konkret rayonda dövlətlərin yaratdığı təşkilatlardır ki, onlar da iqtisadi, siyasi, hərbi məqsədlər üçün təşkil olunur. Bu baxımdan, mən deyərdim ki, hələ keçən əsrin axırlarında yaranan Amerika Dövlətləri Birliyi elə ilk regional təşkilat kimi qəbul edilə bilər. Müharibədən sonra əlli dövləti birləşdirən Afrika Dövlətləri Birliyi, sonra Avropa təşkilatları, xüsusilə Qərbi Avropa İttifaqı, indi ümumi Avropa Birliyi, Şimali Atlantika İttifaqı, Cənubi Asiyada Asiya Təşkilatı, məhz MDB də bu cür təşkilatdır. Niyə? Çünki keçmiş sovet respublikalarını birləşdirən, bu regionda yerləşən keçmiş respublikaların bazasında yaradılan açıq təşkilatdır. Bunun Nizamnaməsi açıqdır, buna hər bir dövlət istənilən vaxt qoşula bilər.

Hər bir beynəlxalq təşkilat üçün dörd hüquqi əlamət zəruridir, onun hüququnu dörd əlamət xarakterizə edir. Birincisi, təşkilatda könüllü üzvlük, onun müqavilə əsasında olması, təşkilatda qərarların konsensus, razılaşdırma əsasında qəbul olunması, bir də təşkilatın beynəlxalq xarakter daşıması. Bu baxımdan bütün bu əlamətlərə uyğun olan Müstəqil Dövlətlər Birliyi təşkilatı regional təşkilat kimi fəaliyyət göstərir. Nizamnaməsi bu ilin yanvar ayında təsdiq edilmiş, iki il bundan qabaq yaradılmış təşkilata, mən deyərdim ki, biz niyə üzv olmadıq?

Mən məsələnin müsbət, mənfi cəhətini demək istəmirəm, əgər biz uzağı görsəydik, o zaman o təşkilatın üzvü olmazdıq. Mən demək istəyirəm, Müstəqil Dövlətlər Birliyi digər regional təşkilatlar çərçivəsində fəaliyyət göstərən təşkilatdır. Hər bir təşkilatın Nizamnaməsini yox, Nizamnamə kağızdır, Nizamnamə müqavilə əsasında hazırlanmış hüquqi sənəddir, o təşkilatın sənədlərinə əməl edilməsi, konkret fəaliyyətini biz rəhbər götürməliyik. Mən bir şeyi də millət vəkillərinin nəzərinə çatdırmaq istəyirəm ki, keçmiş SSRİ ilə Müstəqil Dövlətlər Birliyini, gəlin müqayisə etməyək. Dünyanın ikinci güclü, fövqəl dövləti sayılan SSRİ, bəli, bütün dünyada mənəm-mənəm deyirdi. İndi Müstəqil Dövlətlər Birliyinə daxil olan nə Rusiyanın, nə də o birisi dövlətlərin elə qüdrəti yoxdur ki, dünya miqyasında başqalarına meydan oxuya bilsin. Rusiya özü parçalanır, keçmiş muxtar dairələr ki vardı... Adi bir vilayətlər, çeçenlər, kabarda-balkarlar, indi hər biri müstəqil respublika olur. Rusiya öz vahidliyini saxlamaq üçün, bu dövlətlərlə bir sıra başqa məsələləri həll etmək üçün ittifaqa gedir.

Ona görə də mən demək istəyərdim ki, beynəlxalq müqavilələrdə, adətən, iki prinsip var, birincisi, fakta sukservanda, deyirlər yəni müqavilə hökmən gözlənilməlidir, müqaviləyə əməl olunmalıdır. İkinci bir prinsip də vardır, müqavilə müəyyən şəraitdə dəyişdirilə bilər, ona klauzastantebeq deyirlər, müqavilə lazım gələrsə dəyişdirilə bilər. Ona görə də müqavilənin şərtlərində... Mən onu maddə-maddə təhlil etmək niyyətində deyiləm, televiziyada bu haqda söhbətimiz olub, amma kim istəsə mən mübahisə apara bilərəm ki, bu müasir müqavilə beynəlxalq münasibətlərin əsas prinsiplərinə uyğun müqavilədir. Bəli, orada şərtləri əvvəlcədən vermək olmaz, əgər sən o müqavilənin üzvü olsan, orada qeyd-şərtlər də ola bilər, başqa şərtlər və təkliflər də irəli sürülə bilər. Mən deyərdim ki, müqavilədə bircə fəaliyyət nəzərdə tutulur. Vaxtilə SSRİ-də SSRİ-nin fəaliyyəti var idi, respublikalarda SSRİ-nin bircə fəaliyyəti var idi, respublikaların müstəqil fəaliyyəti var idi, amma burada görüləcək bütün tədbirlər – siyasi, hərbi, iqtisadi tədbirlər sırf birgə tədbirlərdir, yəni müqavilə iştirakçıları arasında eyni hüquq əsasında həyata keçirilən tədbirlərdir. Bu baxımdan, mən deyərdim ki, Müstəqil Dövlətlər Birliyi təşkilatı beynəlxalq hüququn subyekti deyil, dövlət deyil, onun Konstitusiyası yoxdur, parlamenti yoxdur, bir sıra orqanlar vardır ki, onlar da əlaqə yaratmaq məqsədi güdür. Məsələn, Müstəqil Dövlətlərin Dövlət Başçıları Şurası, bu, mühüm siyasi məsələlərdə eyni hüquqa malik olan təşkilatdır, Müstəqil Dövlətlərin Hökumət Başçıları Şurası, Xarici İşlər Nazirləri Şurası, Müdafiə Nazirləri Şurası, Birgə İqtisadi Məhkəmə vardır.

Burada Flora xanım mənim yadıma saldı, deyir, biz başqa respublikalarla əmlak münaqişələrini həll edə bilmirik, bilmirik, bunu kimin vasitəsi ilə edək. Bəli, bu İqtisadi Məhkəmə yaradılır ki, digər respublikalarla gələcəkdə meydana çıxan qarşılıqlı münaqişələri dinc vasitələrlə həll edək, eləcə də başqa orqanları vardır. Bilirsiniz, hər şeyi həyat özü sübut edir, təcrübə göstərir ki, bu təşkilat əgər yararsız olsa, mən həmişə deyirəm, əgər bizim müstəqilliyimizə, istiqlaliyyətimizə zərər gətirərsə, biz istənilən zaman bu təşkilatdan çıxmaq məsələsini qoya bilərik. Burada mexanizm vardır, arxayın olun, SSRİ-də mexanizm yox idi, ona görə də SSRİ-dən çıxmaq haqqında xüsusi qanun qəbul edildi, o da çox qüsurlu idi. Amma indi bu təşkilatdan konkret hər bir üzvün çıxması haqqında mexanizm işlənilib, hazırdır, o mexanizm həyata keçirilə bilər. Məsələn, bir sıra dövlətlər onun fəaliyyətində bu və ya digər şəkildə iştirak etmək istəyirlər, demək istəyirəm ki, burada dövlətlərin tam hüquq bərabərliyi, suverenliyi saxlanılır.

Axı biz bircə MDB-nin yox, başqa təşkilatların da üzvü ola bilərik. Niyə biz indiyə qədər Birləşmiş Millətlər Təşkilatının üzvüyük, hamınıza sual verirəm. Qarabağa dair iki qətnamə qəbul olunub, heç biri də yerinə yetirilməyib. Niyə biz MDB-yə bu iddiaları veririk, biz demirik ki, Birləşmiş Millətlər Təşkilatı niyə bizim suverenliyimizi, Qarabağ üzərində hüquqlarımızı qorumur, axı iki qətnamə qəbul olunub. Birləşmiş Millətlər Təşkilatının kifayət qədər silahlı qüvvələri də vardır, niyə indiyə qədər silahlı qüvvələr öz qətnamələrinin yerinə yetirilməsinə riayət etmir. Bəli, beynəlxalq təşkilatlarda zorakılıq aparatı yoxdur, bu, dövlət deyil ki, orada zorakılıq aparatı olsun. Onun silahlı qüvvələri məhduddur, müəyyən məqsədlər üçün istifadə edilir.

Mən deyərdim ki, məsələn, təcavüzkarları cilovlamaq üçün BMT çox nadir hallarda öz silahlı qüvvələrinə əl atır. Yuqoslaviyada gəlib dayanır, deyir əgər orada atəş qızışsa, biz qarışmırıq, çıxıb gedirik. Beynəlxalq təşkilatlara, bir növ, biz müstəqil təşkilat kimi baxmalıyıq. Elə düşünməyin ki, mən sizinlə razıyam, bütün ümidlərimizi, Azərbaycanın bütün problemlərini MDB çərçivəsində biz həll etməliyik, xeyr, biz MDB-dən xaricdə də fəaliyyət göstərməliyik. Azərbaycan Respublikası müstəqil dövlət kimi, həm ikitərəfli, həm də çoxtərəfli beynəlxalq müqavilələrə, sazişlərə daxil ola bilər. Biz, məsələn, qonşu dövlətlərə, iri dövlətlərə böyük ümid bəsləyirik, dünyanın ən kiçik dövlətləri, məsələn, karlik dövlətləri – Anqola, Lüksemburq, Belçika, Monako kimi dövlətlər də beynəlxalq təşkilatlara ümid bəsləyirlər. Niyə biz özümüzü dünyadan təcrid olunmuş bir dövlətə çevirməliyik? Bu ona bənzəyir ki, beş nəfər qonşu ilə yaşayırsan, heç biri ilə danışmırsan, sizə necə baxarlar, qonşular deyərlər, balam, köç, get əgər bizimlə yola getmirsənsə. Axı biz beynəlxalq təşkilatları inkar edə bilmərik, biz öz mənafelərimizə uyğun şəkildə bu təşkilatlarda iştirak etməliyik, onlardan müəyyən dərəcədə fayda görməliyik.

Bilirsinizmi, çox məsələlər var, burada hər məsələni açıb çılpaqlığı ilə demək istəmirəm. Burada 16-cı maddə var, ona istinad eləyirlər, milli münaqişələrin, digər milli münaqişələrin həllindən söhbət gedir ki, bəli, dövlət birgə tədbirlər görəcəkdir. Məgər bu, sirr deyil ki, Qarabağ problemində bir müsəlman respublikası, beş respublikadan biri Azərbaycanı müdafiə etmir, çünki bizim onlarla müqaviləmiz, öhdəliyimiz yoxdur, bunu müdafiə etməyə borclu deyillər. Ermənilləri müdafiə etməyə borcludurlar, onu da müdafiə etmirlər. Yeri gəlmişkən, onu da pozurlar. Axı bunu dərk etmək lazımdır, niyə biz onlardan tələb etməliyik ki, keçmiş türk müsəlman respublikası indi bizim arxamızda durmur, gəlin biz

onlarla normal müqavilə öhdəliyinə girək, sonra onlardan bunu tələb eləyək.

Mən o münaqişə haqqında lazım gəlsə, burada etiraz eləyənə qarşı öz fikrimi çox açıq formada deyə bilərəm, xüsusilə Fəttayevə, Tofiq Qasımova. Bilirsiniz, Siz vaxtilə, yenə də deyirəm, hər bir məsələdə diplomatiyanın başında Azərbaycan xarici siyasətinə başçılıq etmisiniz. Bu məsələdə xarici dövlətlərlə apardığınız fəaliyyət göz qabağındadır, bir il ərzində nə iş görmüsünüz, Azərbaycanın diplomatiyası məhv olub, Azərbaycanın müstəqil xarici siyasəti yoxdur. İndi deyirsiniz ki, gəlin müstəqil xarici siyasəti həyata keçirək. O zaman Azərbaycan müstəqil xarici siyasət yeridə bilər ki, bütün dünya dövlətləri ilə birgə çıxış etsin, dünya dövlətləri səviyyəsində olsun və onlarla eyni hüquqlarda, bizim təsəvvür etdiyimiz Ukrayna, Rusiya ilə eyni mövqedə çıxış etmək hüququmuz olsun.

Başqa çıxış eləyənlər deyir ki, nə bilim, burada tabeçilik olacaq, əlaqələndirməyi tabeçilik kimi başa düşürlər, o bizim özümüzdən asılıdır. Yenə də deyirəm, Allah sonradan bizə elə bir dövlət xadimi bəxş eləyib ki, mən keçirdiyim görüşlərdə bütün seçicilər hamısı yekdilliklə deyirlər, bəli, bizim indiki rəhbərimiz bütün bu bəlalardan bizi çıxarmağa qadirdir. Mən həmişə deyirəm, Nəsrəddin Tusinin bir sözü var, deyir ki, xəstə adamları həkim müalicə eləyir, xəstə cəmiyyəti isə ağıllı, müdrik dövlət xadimləri xilas etməlidirlər.

Bu, göz qabağındadır, qısa müddətdə, bir il ərzində biz sizin fəaliyyətinizi gördük, respublikanı nə səviyyəyə, nə uçuruma gətirib çıxardınız. Dünən yox, srağagün "Rossiyskaya qazeta"da yazılır ki, bir il ərzində Azərbaycan 500 milyard dollar məbləğində zərər çəkmişdir, kim cavab verməlidir, hələ durub o tribunadan xalqın adından danışırsınız. Mən üzr istəyirəm, millət vəkili deyiləm, əsəbiləşirəm ona görə ki mən də xalqımın bir övladı kimi bu vəziyyəti görürəm və gəlin, inam bəslədiyimiz adamın mövqeyində duraq, milli barışıq mövqeyində duraq, onun mövqeyində, barışıq mövqeyində respublikamızı bu fəlakətdən qurtaraq.

Mən yenə də deyirəm, bizim yeganə yolumuz Rusiya ilə, Ukrayna ilə, Orta Asiya respublikaları ilə ittifaqa girməliyik, ayrı yolu yoxdur. Bu iqtisadi, həm də hərbi cəhətdən... Bəli, siz deyirsiniz ki, bu münaqişələrin həllinə o qədər köməyi olmayacaq, mən deyirəm ki, bu ittifaqa girmək bizim dünya siyasətində müstəqilliyimizi möhkəmləndirə bilər. O respublikalar ki vaxtı ilə bizimlə ittifaqa girməyib, onların da dostları, əlaqə saxladıqları dövlətlər vardır, bizim əlaqələrimiz genişlənə bilər.

İkincisi, Qarabağ probleminin birgə həllində bu məsələ böyük rol oynaya bilər. Bütün bu dövlətlər bu problemdə iştirak eləyəcəklər, o, Nizamnamədə də, Təhlükəsizlik müqaviləsində də vardır, hər hansı bir təcavüzün qarşısını almağa hazırdırlar. Əlbəttə, biz bundan istifadə eləyəcəyik.

Nəhayət, bu ittifaqa girməyimiz bizim müstəqilliyimizə əsla xələl gətirməyəcəkdir, bizim iqtisadi, mədəni əlaqələrimizin inkişafının möhkəmlənməsinə kömək edə bilər. Sağ olun. Vaxtınızı aldığıma görə üzr istəyirəm.

**Sədrlik edən.** Xarici işlər naziri Həsən Həsənov, buyurun.

**Həsən Həsənov,** ***Azərbaycan Respublikasının xarici işlər naziri.*** Hörmətli sədr, hörmətli deputatlar, hörmətli qonaqlar, müasir dünya diplomatiyası ikitərəfli və çoxtərəfli...

**Sədrlik edən.** Sonra hazırlaşsın milli təhlükəsizlik naziri Nəriman İmranov.

**Həsən Həsənov.** Yəni iki dövlət arasında əlaqələr və birliklər, ittifaqlar çərçivəsində olan əlaqələr, bu yolun ikisi də mütləqdir. Bunlardan biri olmasa, dövlətin xarici siyasəti tarazlıqdan düşər və dövlət müəyyən dərəcədə izolyasiyada qalar. Müasir dünya ayrı-ayrı dövlətlərdən ibarət deyil, müasir dövlətlər birliyindən ibarətdir. Murtuz müəllim onları sadaladı, mən yenə bir də təkrar eləmək istəyirəm, Avropa Dövlətləri Birliyi, Ərəb Dövlətləri Birliyi, Afrika Dövlətləri Birliyi və Amerika Dövlətləri Birliyi. Keçmiş Böyük Britaniya dağılandan sonra həmin dövlətlər imperiya statusundan dövlətlər birliyi, yəni əməkdaşlıq birliyinə keçdi.

İqtisadi birliklərin sayı saysız-hesabsızdır. Yeri gəlmişkən, qeyd etmək istəyirəm ki, Heydər müəllim, BMT-də MDB çox nüfuzlu bir təşkilatdır, onunla hesablaşırlar, BMT-nin bir çox iqtisadi proqramlarında Müstəqil Dövlətlər Birliyinin xüsusi yeri vardır və biz bir çox proqramlardan məhrum qalırıq. Ona görə ki biz həmin MDB-yə daxil deyilik, həmin qaydada bir çox məsələlər müzakirə olunanda, həqiqətən də, qəlbi, bəlkə də, bizimlə olan Qazaxıstan da, Türkmənistan da, Qırğızıstan da, Tacikistan da bizim səsimizə səs vermirdilər, onlar öz sözlərini demirlər, onlar öz siyasətlərini həmin dövlətlər birliyi ilə əlaqələndirirdilər.

Burada misal gətirildi ki, keçmiş Sovet İttifaqı bərpa oluna bilər, bəli, bizdə olan məlumata əsasən, həqiqətən də, Rusiyada iki meyil var, birinci meyil ondan ibarətdir ki, keçmiş Sovet İttifaqı tamamilə bərpa olunsun və müstəqil dövlətlər hüquqlarından məhrum olsunlar, ikinci meyil isə

ondan ibarətdir ki, artıq tarixin təkəri geri dönməsin, müstəqil dövlətlər öz müstəqilliyini saxlayaraq Müstəqil Dövlətlər Birliyi yaratsınlar və həmin Müstəqil Dövlətlər Birliyi möhkəmlənsin. İndi biz yol ayrıcındayıq, biz ya SSRİ-ni bərpa eləmək istəyənlərin tərəfində olmalıyıq, ya da Müstəqil Dövlətlər Birliyini özümüz daxil olmaqla möhkəmləndirməliyik və öz müstəqilliyimizi qorumalıyıq. Üçüncü yol yoxdur, ona görə ki biz mövcud siyasi situasiyadayıq, mövcud geosiyasi zonadayıq, mövcud geosiyasi zonada olarkən hər hansı bir dövlətlər birliyinə daxil olmamaq mümkün deyil.

Burada misal gətirdilər ki, guya bloklara qoşulmayan dövlətlər var, bəli, bloklara qoşulmayan dövlətlər var, yəni bunlar ayrı-ayrılıqda bir dövlət deyillər, məhz bunların özü də bir dövlətlər birliyidir, rus dilində bunlara "движение без соединения" deyirlər. Bunlar birlikdirlər, adları belədir, bloklara qoşulmayan dövlətlər. Lakin bloklara qoşulmayan dövlətlər öz xarici siyasətini əlaqələndirirlər və biz Təhlükəsizlik Şurasına məsələləri çıxararkən çox vaxt öz siyasətimizi məhz bu bloklara qarışmayan, daxil olmayan dövlətlərlə əlaqələndirirdik.

Burada irad tuturlar ki, guya MDB-nin Nizamnaməsinə əsasən biz xarici işlərimizi əlaqələndirməliyik və məsləhətləşməliyik. Xarici siyasəti əlaqələndirmək, məsləhətləşmək, bu, yeni bir söz deyil, bu, dünya diplomatiyasının artıq tarixi sınağından keçmiş bir üsuldur. Bizim arxalandığımız Türkiyə, istər İran, istər Pakistan, istərsə də hər hansı bir hörmət etdiyimiz dövlət də öz xarici siyasətini həm əlaqələndirir, həm də məsləhətləşdirir. Mən istərdim ki, sizin qarşınızda, vicdanım qarşısında təmiz olam və qeyd etmək istəyirəm və sizin nəzərinizə çatdırmaq istəyirəm ki, mən də il yarım ərzində BMT-də işləyərkən öz siyasətimi həm əlaqələndirmişəm, həm də məsləhətləşmişəm. Əgər bu, qəbahətdirsə, o qəbahəti indi mənim üzümə deyə bilərsiniz. Məsləhətləşərək həm əlaqəmiz olduğu dövlətlə, həm, bəlkə də, bizə qarşı siyasəti qeyri-taraz olan dövlətlərlə biz siyasətimizi apara bilərik. Sizin nəzərinizə çatdırmaq istəyirəm ki, il yarım ərzində mən Rusiya ilə də dəfələrlə öz siyasətimizi məsləhətləşmişəm və məsləhətləşərək biz buna nail olmuşuq ki, BMT iki dəfə Azərbaycanın xeyrinə çox qüvvətli, güclü bir qətnamə qəbul elədi.

Nəzərinizə çatdırmaq istəyirəm ki, Fransa dövlətinin də siyasəti məlum ola-ola Fransa dövləti ilə də siyasətimizi həm əlaqələndirmişik, həm də məsləhətləşmişik. Əlaqələndirmək və məsləhətləşmək heç də tabeçilik demək deyil, heç də öz milli mövqeyini satmaq demək deyil.

Burada Siz, Heydər müəllim, Albaniya dövləti haqqında çox gözəl bir misal gətirdiniz, bəli, tamamilə düzgün deyirsiniz, Albaniya dövləti özü özünü izolyasiya eləyib, hazırda Albaniya dövləti dünyanın ən kasıb dövlətlərindən biridir və o dərəcədə kasıblaşıbdır ki, o kasıbçılıqdan heç bir proqrama çıxa bilmir. Sizə çox maraqlı faktlar gətirmək istəyirəm, ABŞ dövləti də ilk əvvəl müstəqillik qazanarkən özünü izolyasiyaya aldı, hətta İngiltərə də öz varlığına, qüdrətinə əsaslanaraq özünü izolyasiyaya aldı, hətta hərbi diplomatiyasında İngiltərənin bu siyasəti, rus dilində demək istəyirəm, "великая изоляция" adlanır. Amerika Birləşmiş Ştatları, İngiltərə, baxmayaraq ki, qüdrətlidirlər, varlıdırlar, özləri özlərini yola verə bilərlər, onlar da izolyasiyada qala bilmədilər və onlar da məcbur oldular ki, müəyyən dövlətlər birliyinə daxil olsunlar.

Burada imperiyadan söhbət getdi, tarix onu yaxşı bilir, imperiyalar dağılandan sonra imperiyanın aparıcı dövləti ilə kaloniya dövlətləri arasında həmişə əlaqələr saxlanılır. Müasir İngiltərəni götürək, böyük bir imperiya sahibi idi, amma baxmayaraq ki imperiya dağılıbdır, İngiltərənin indiyə qədər bütün, deməli, kaloniya olan dövlətləri ilə əlaqələri sıxdır və onlarla əlaqələri saxlayırlar və qoruyurlar. Fransanın, mən onu gördüm, ən yaxın dost dövləti Marokkodur. Marokkolular Fransa haqqında ağız dolusu danışırlar, baxmayaraq ki bir neçə on illik bundan əvvəl onlar müharibə hesabına Fransadan öz kaloniya statusundan çıxıblar. Buna baxmayaraq, onlar yenə də öz dostluqlarını davam etdirirlər.

İndi isə müqavilədə MDB Nizamnaməsində olan bəzi şərhlər haqqında mən öz fikrimi demək istəyirəm. Heydər müəllim, bəzən MDB-ni SSRİ ilə tutuşdurmaq istəyirlər, mənə belə gəlir ki, bu böyük qəbahətdir, çünki burada yazılan sözlər SSRİ Konstitusiyasında yazılmamışdır. 1-ci maddə, üzv dövlətlər beynəlxalq, müstəqil və bərabərhüquqlu subyektdirlər, SSRİ Konstitusiyasında yazılmamışdır. 2-ci, birlik dövlət deyil, SSRİ Konstitusiyasında yazılmışdır ki, SSRİ dövlətdir, müttəfiq respublikalar isə dövlət statusu, beynəlxalq statusa malik deyildirlər. 3-cü, MDB fövqəlmilli səlahiyyətlərə malik deyil, amma SSRİ malik idi və SSRİ-nin hər hansı bir qanunu Azərbaycanda hökm sürürdü.

Ondan başqa, burada Kollektiv təhlükəsizlik haqqında müqaviləyə aid müəyyən iradlar tutulmuşdu. Mən onu oxumaq istəyirəm. Birinci maddədə belə yazılıb, burada sual verildi ki, ümumiyyətlə, biz yeni müqavilələr, yeni müstəqil hərəkətlər edə bilərik, ya edə bilmərik? Mən istərdim, onu rus dilində oxuyam, ona görə ki, ola bilsin, tərcümədə bir az, bir balaca dəyişikliklər vardır, orijinalda oxumaq istəyirəm. ...

Bir də təkrar eləmək istəyirəm, yəni MDB-nin təhlükəsizlik müqaviləsi imkan verir ki, Avropa və Asiya dövlətləri arasında yeni kollektiv müqavilələr bağlanacaq və yeni kollektiv müqavilələr bağlanarkən MDB üzvləri bu müqavilələrə daxil olmaq istəyərlər, həmçinin Azərbaycan da bunu istəyərsə. Burada yazılıb. ...

Yəni Azərbaycan öz istəyini bildirər, məsləhətləşmələr keçirilər və həmin müqaviləyə, bu gün imzalamaq istədiyimiz müqaviləyə bizim dəyişikliklərimiz daxil oluna bilər.

Ondan başqa da, mən bəzi qeydlərimi qeyd etmək istəyirəm. 7-ci maddədə açıq-aydın yazılıb. Burada sual verdilər ki, əgər Rusiya və yaxud hər hansı bir dövlət Azərbaycan ərazisində öz hərbi bazalarını yaratmaq istəsə, biz neyləyəcəyik? 7-ci maddə buna açıq-aydın cavab verir. Kollektiv təhlükəsizlik sistemi obyektlərinin iştirakçısı dövlətlərin ərazisində yerləşdirilməsi və fəaliyyət göstərməsi xüsusi sazişlərlə tənzimlənir, yəni Azərbaycan bunun üçün saziş bağlamalıdır. Həmin saziş Milli Məclisdə ratifikasiya olunmalıdır, yəni Milli Məclisin son söz deməyə hələ imkanı vardır. 8-ci maddədə, burada qeyd olundu, o ikimənalılığa mən izahat vermək istəyirəm. 8-ci maddəni tamam oxuyuram, ancaq axırıncı abzasını yox, birinci abzası belə yazılıb. “Bu müqavilə iştirakçı dövlətlərin başqa dövlətlərlə bağladıqları digər mövcud ikitərəfli və çoxtərəfli müqavilələr və sazişlər üzrə hüquqlara və öhdəliklərə toxunmur və üçüncü ölkələrə qarşı yönəldilməmişdir”.

Yəni Azərbaycan istər ikitərəfli, istər çoxtərəfli müqavilə bağlaya bilər və bu müqavilə o müqaviləyə heç də maneçilik törətməz. Bu müqavilə Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə müvafiq surətdə iştirakçı dövlətlərin təcavüzdən fərdi və kollektiv müdafiə hüququna toxunmur. İstəyənlər oxuya bilərlər, Nizamnamənin 51-ci maddəsidir. Həmin maddədə axırıncı abzas, iştirakçı dövlətlər bu müqaviləyə uyğun gəlməyən beynəlxalq sazişlər bağlamağı öhdəyə götürürlər. Murtuz müəllim bunun haqqında çox gözəl, sənətkar dili ilə dedi, mən siyasətçi dili ilə demək istəyirəm. Dünyada bağlanan bütün müqavilələrin özünüqoruma amilləri olur. Dünyada elə saziş yoxdur, orada qeyd olunsun ki, istəyən zaman tərəflər sazişi poza bilərlər, əgər belə qeyd olunsa, onda bu saziş olur çayxana söhbəti. Amma bununla yanaşı, hər hansı müqavilə tərəflərin milli mənafeyini qorumağa qarantiya verir, bu qarantiya da elə bu maddənin birinci abzasındadır. Yəni bu müqavilə iştirakçı dövlətlərin başqa dövlətlərlə bağladıqları digər mövcud ikitərəfli və çoxtərəfli müqavilələr və sazişlər üzrə hüquqlara və öhdəliklərə toxunmur. Yəni bi-

zim müstəqilliyimiz özümüzdə qalır, istər xarici siyasətimizdə, istərsə də daxili siyasətimizdə.

Onu da qeyd etmək istəyirəm, SSRİ Konstitusiyasında qeyd olunmuşdu ki, Azərbaycan öz daxili qurumunu SSRİ Konstitusiyasında dəyişiklik aparılmasa, SSRİ qanunları dəyişdirilməsə edə bilməz. Burada isə MDB-nin Nizamnaməsi bizim daxili strukturumuza heç də qarışmır və MDB heç də qeyd edə bilməz ki, Dağlıq Qarabağ o statusda olsun, ya bu statusda olsun, o ancaq və ancaq Azərbaycanın öz şəxsi səlahiyyətindədir. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Milli təhlükəsizlik naziri Nəriman İmranov.

Sonra Rəsul Quliyev yazılmışdı. Hazır olsun.

**Nəriman İmranov,** ***Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri.*** Hörmətli sədr, hörmətli millət vəkilləri! Azərbaycanda baş verən ictimai-siyasi hadisələr sizə məlumdur. Bu hadisələr necə mürəkkəb və gərgin cərəyan edir və bu gün Milli Məclisin yüksək səviyyədə müzakirəsinə çıxarılan bu məsələ Azərbaycanda olan bu hadisələrlə çox üzvi surətdə bağlıdır. Müzakirəyə çıxarılan məsələ təkcə bizim yox, Azərbaycanın xarici, daxili siyasətinə, hərbi qüdrətinə, milli təhlükəsizliyinə və Azərbaycanın hüdudlarından uzaqlarda yaşayan yüz minlərlə azərbaycanlıya və özünü azərbaycanlı sayan şəxslərin həyatına da müəyyən təsir göstərməlidir.

Mənim bugünkü çıxışım təkcə nəyəsə analiz vermək, kimisə öyrətmək, kimisə dilə tutmaqla əlaqədar deyil. Bu mənim birinci, vətəndaşlıq, bir də vəzifə borcumdur ki, öz mövqeyimi belə bir yüksək orqanda sizin nəzərinizə çatdırım. Bugünkü müzakirə göstərir ki, çox təəssüf olsun, bəzən bizim natiqlər hissiyyata qapılır, uzun müddət öyrəndiyi bir əqidə, bir fikirdən uzaqlaşa bilmir və natiqlərin bir çoxu xalqın adından danışır, xalqa istinad edir və xalqı bu işə qatmaq istəyir. Mənə elə gəlir ki, xalqın adından danışmaq çox asandır, bunun üçün heç bir şey lazım deyil. Göz görmür, üz utanmır. Xalq adından hər şeyi demək olar. Mərdlik, qeyrət, yüksək ziyalılıq ondan ibarətdir ki, xalqa qulaq asmağı bacarasan, onun dediyini dinləyəsən və xalqın o arzusu, niyyətinə görə işinə, əməlinə düzəliş verib o xalqın qarşısında gedəsən, onu təmsil edə biləsən. Bu isə hər adama nəsib ola bilmir. Uzağa getmək lazım deyil.

Mən yalnız rəhbərlik elədiyim nazirliyin fəaliyyətini demək istəyirəm – müstəqil, müstəqil deyib tək qalmaqla, biz hansı müstəqilliyə gəlib çıxa bilərik – Milli Təhlükəsizlik Nazirliyinin elə şöbə və idarəsi yoxdur ki,

sutkanın 24 saatını Ukrayna, Rusiya, Belarusiya, Orta Asiya, Qazaxıstanla bağlı olmasın, istər telefon xətti ilə, istər operativ, istər əməliyyat yolu ilə, istərsə də cinayət-axtarış yolu ilə. Belə bir şəraitdə işləmək, bunun özü göstərir ki, adicə bir nazirliyin simasında bu tellər keçmiş SSRİ, indiki Müstəqil Dövlətlər Birliyi ilə necə sıx bağlıdır. Bu gün apardığımız əməliyyat tədbirlərinin, demək olar ki, yüz faizi belə Rusiya ilə bağlıdır. Sizə məlumdur ki, Azərbaycanın, dövlətin, hökumətin rəhbərləri dünyanın hər bir nöqtəsi ilə rabitə xətti yaradıb, hər bir dövlət başçısı ilə danışmaq imkanına malikdir. Bunu bizim keçmiş xarici işlər naziri Tofiq Qasımov da görüb, keçmiş Xalq Cəbhəsinin digər liderləri də bunu öz təcrübəsində görüblər. Gəlin özümüzü, müstəqil Azərbaycanı hər şeydən kənarda hiss edək. Nə qədər peyk lazımdır ki, Azərbaycan hökumət rabitəsi, gizli danışıq üçün Bakı–Vaşinqton arasında xətt yaratsın, buna milyardlarla dollar pul lazımdır, milyardlarla. Bugünkü rabitə, kommunikasiya, qarşılıqlı əlaqələr o qədər bağlıdır, o qədər bir-biri ilə əlaqəlidir ki, bunu duymamaq, başa düşməmək yalnız və yalnız xalqa xəyanət kimi bir şeydir.

Bu zalda oturan mütəxəssislər, siyasətçilər, sosioloqlar, politoloqlar, iqtisadiyyatçılar var, onlar hər sahə üzrə öz mülahizələrini deyə bilərlər, yalnız işin bir tərəfini götürdüm. Ayın 15-də biz bir hadisənin şahidi olduq, Bakı şəhərindən Komiyə uçan təyyarə havada canilər tərəfindən tutuldu və məcbur elədilər ki, təyyarə istiqamətini dəyişdirsin. Bu, operativ tədbirdir, reaksiya verdik, təyyarə endi Ukraynada Borispol aeroportuna, oradan getdi Norveçə, Osloya, orada 56 nəfər azərbaycanlı vətəndaşın, sərnişinlərin təhlükəsizliyini təmin elədik, onlar Komi şəhərinə qayıtdılar. Cinayət işi aparılır, bir cinayət işində Azərbaycan, Rusiya, Ukrayna, o cümlədən Komi Muxtar Respublikası, Norveç iştirak edir. Azərbaycan özünü dünyadan təcrid eləməklə, qonşuluqdan yayınmaqla, bu əlaqələri kəsməklə nə qazana bilər? Mənə elə gəlir, zalda oturan hər bir adam bugünkü bu tarixi hadisənin məsuliyyətini hiss etməli və bilməlidir ki, belə müstəqillik xalqı məhvə gətirib çıxara bilər, özü də müharibə edən bir dövlətdə.

Bəzən mən Heydər Əliyevin vəziyyətini görürəm, konkret sual qoyur ki, əgər biz bu birliyə girsək, bu bizə nə verəcək? Biz Qarabağı əldə edə biləcəyikmi? Deyin görüm, Qarabağı, Azərbaycanda qarış-qarış torpaqları bəyəm bu birlik verib? Müstəqil Dövlətlər Birliyi verib? Gəlin özümüzdən başlayaq. Əgər 360 Azərbaycan xalq deputatı hərəsi iki nəfər qoçaq döyüşçü hazırlasaydı, bu, böyük, 720 nəfərlik bir tabor olardı. Nəyə görə biz bunun hamısından yayınırıq, məsuliyyətdən qaçırıq və bunu kiminsə

üzərinə yıxıb, iclası aparan sədri fakt qarşısında qoyub onu məcbur eləmək, sən bu suala cavab ver, görək bu olacaq, olmayacaq. Sədrin cavabı sanballı və ağıllı cavabdır.

Son vaxtlar Heydər Əliyevin rəhbərliyi altında aparılan bəzi tədbirlər özünü göstərdi. Xalq adından danışanda üç hadisə gözümün qabağına gəldi. Xalq öz sözünü avqustun ortalarında Lənkəran zonasında dedi, xalq öz sözünü avqustun 29-da ümumxalq referendumunda dedi. Xalq öz sözünü ayın 13-ü ilə 20-si arasında bu məsələnin müzakirəsində deyib. Nəyə görə biz bunu görmək istəmirik? Nəyə görə biz inanmaq istəmirik, Azərbaycan ərazisində yaşayan, millətindən, dinindən, əqidəsindən, dünyagörüşündən asılı olmayaraq, əhalinin böyük bir hissəsi arzu edir ki, Azərbaycan bu birliyə daxil olsun. Rusiya ərazisində yüzlərlə zabitin taleyi qalıb başlı-başına, təqaüdə çıxan yüzlərlə hərbçinin taleyi qalıb, yüzlərlə kadrımız qalıb, onların taleyi nə olacaq? Hansı statusa malikdirlər, onların vətəni haradır və dara düşəndə hara üz tutmalıdırlar?

Azərbaycan müharibə edən bir dövlətdir, özü də uğursuz müharibə edirik. Azərbaycanın bu saat hansı potensial imkanı var ki bu müharibədən qalib çıxsın? Bu iclas efirə gedir, mən heç açıb demək istəmirəm. Müəyyən şeylər tükənir, Azərbaycanda hərbi sənaye kompleksi elə inkişaf eləməyib, özü özünü təmin edə bilsin, bunun müəyyən yolları var və bu dövlətlər birliyinə daxil olmaqla Azərbaycan özü üçün imkan yaradır ki, müəyyən bir qurumda tam hüquqa malik olsun və heç olmasa, öz payını oradan götürə bilsin. Özü də oradan biz bir şey gözləmirik, bizə bir şey verməyəcək, biz oradan bir şey almalıyıq, bunun üçün yüksək siyasət və diplomatiya lazımdır, yalnız boş-boş danışmaq xətrinə yox.

Mən, ümumiyyətlə, Milli Məclisdə az çıxış edəcəyəm, son vaxtlar çıxışların bir neçəsində Xalq Cəbhəsinin roluna, mövqeyinə toxunulub və hər dəfə mən susduğuma görə əziyyət çəkirəm. Bizim bəxtimiz bir şeydə gətirib ki, Azərbaycana müdrik bir rəhbər gəlib. Əgər biz son günlərdə Xalq Cəbhəsinin mitinqlərini götürüb analiz eləsək, onun qərargahında gedən çıxışları, ayrı-ayrı liderlərinin çıxışları, paylanılan o vərəqlər və filanlar, bunların hər birində cinayət tərkibi vardır. Mən Milli Təhlükəsizlik Nazirliyinə rəhbərlik edən bir şəxs kimi bunu məsuliyyətlə deyirəm və Heydər Əliyev hər dəfə bizi çəkindirir ki, qəti tədbir görmək lazım deyil, izahat işi aparın, xalqa arxalanın, xalqla əlaqə saxlayın. Mənə elə gəlir ki, bu iş gün-gündən dərinləşir və mən burada Xalq Cəbhəsi deyəndə xalqı nəzərdə tutmuram və o axına qoşulan adamları da nəzərdə tutmuram. Bu gün ondan istifadə edib Azərbaycanda qarışıqlıq salan, qarşıdurma

yaradan, Azərbaycanı müharibədən yayındıran, ayrı-ayrı məsələləri gətirib dövlət səviyyəsinə çıxaran xatakarları xəbərdar eləmək istəyirəm. Bu, uzun çəkməyəcək. Əvvəl-axır bəzi yoldaşlar buna görə cavab verməli olacaqlar. Mən xahiş edirəm, bu işlərdən yayınmaq lazımdır və siz özünüz gördünüz ki, küçədə yayılan o vərəqləri Ali Sovetin sədri tribunadan oxutdurdu, çünki haqq birdir, haqqın iki üzü ola bilməz və haqdan qaçmaq lazım deyil. O, haqqı xalqa çatdırdı. Siz paylaya bilmədiyiniz vərəqələrin məzmununu Heydər Əliyev buradan 7 milyonluq xalqa çatdırdı və hansı nifrət gəldi çatdı o göz qabağında oldu. Ona görə gəlin bu məsələlərə bir qədər şüurlu yanaşaq.

Mənim idarəmdə Xalq Cəbhəsinin bir neçə nəfər işçisi olub, onlardan da biri həkim, birinci müavin olub. Mən bütün məsələlər haqqında həmişə dövlət başçısına, hökumət başçısına məlumat verirəm. Məcbur oldum, belə bir komissiya yaradam ki, son bir il ərzində Milli Təhlükəsizlik Nazirliyində kadrların seçilib yerləşdirilməsi məsələsi öyrənilsin, attestasiya-ekspert komissiyası yaranıb, hələ işinin yarısını görüb, Sülhəddin Əkbərovun 7 nəfər qohumu aşkar olunub, özü də yaxın qohumları, arvad, bacanaq, baldız qohumları yox, 7 nəfər yaxın qohumu aşkar olunub. Demək, mayın axırlarında fəaliyyətə başlayan həkim, birinci müavin, polkovnik rütbəsində 8 aya 7 nəfər qohumu işə götüzdürüb. Bu, məlum olanlardır və Xalq Cəbhəsinin üzvləri də buradadır. Ədalətin oğlu qanunsuz yolla götürülüb, iş üç aya sənədləşdirilib, sonra başqalarının uşaqları var, mən bu barədə Milli Məclisə məlumat verəcəyəm.

Ancaq Müstəqil Dövlətlər Birliyindən danışanda, bizim bu hörmətli natiqlər nəsə onun pisliyindən, Xalq Cəbhəsinin fəaliyyətindən danışanda isə yalnız onun yaxşılığından danışırlar. Ədalətli olun. Görək bu Xalq Cəbhəsi xalqa nə verib? Qoyun tərəzinin gözünə müsbət və mənfi cəhətini. Nə qədər xeyir verib, nə qədər ziyan verib? Bu saat mənim idarəmdə balaca bir istintaq şöbəsi var, onlarla cinayət işi var. Mən inandırıram sizi, onu deməyə mənim səlahiyyətim çatmır, çünki prokuror məni cəzalandırar. Söhbət milyarddan gedir. Vəhşicəsinə xalqın var-yoxunu talamaqdan, yoxsulların malını yeməkdən, savadsızı aldatmaqdan, o yazığın, kütbeyinin əlindən çörəyini almaqdan gedir. O bazalar var, maddi nemətlər yığılıb, onun yerini elə öyrəniblər ki, arı şirə yeri bilən kimi, onu Azərbaycandan sorub aparıblar.

Əli Ömərov çox yaxşı çıxış elədi, o gün televiziyada bir müsahibə verdi, çox qəribə dedi, dedi, yaxşı, iki aydır, üç aydır biri Kiprdə yaşayır, biri Türkiyədə, biri Ordubadda, biri Parisdə, biri də Moskvada, bunlar nə ilə

dolanırlar, hansı vəsaitlə? Fransada bir fincan kofe 12-15 dollardır, özü də şəkərsiz. Dayanın görək, 3 ay, 4 ay nə ilə dolanırlar, hansı vəsait hesabına? Xalq axı bunu soruşmalıdır. Mən də səhv edib xalqın adından danışıram, ancaq söhbət açılmış cinayətdən gedir, söhbət biabırçılıqdan gedir. Mən sizə məlumat verməyə borcluyam.

Demək, fəaliyyətə başlayandan bir neçə gün sonra Heydər Əliyevə müraciət elədim və o, qəbul elədi, Rusiya–Azərbaycan təhlükəsizlik nazirlikləri arasında müqavilə hazırdır, o müqaviləyə Moskvada ekspert qrupu baxıb, müqavilə Yeltsinə göstərilib, o bəyənib, son söz Heydər Əliyevin olacaq, ona göstərəcəyəm və görünür, bu ayın axırına qədər Rusiya Milli Təhlükəsizlik və Azərbaycan Milli Təhlükəsizlik nazirlikləri arasında belə bir müqavilə imzalanacaqdır. Əgər xalq deputatlarından kiminsə bu müqavilə ilə tanış olmaq və ona əlavə olunan protokollara baxmaq meyli olsa, mən böyük məmnuniyyətlə şərait yaradaram ki, onunla qol çəkilənə qədər tanış olasınız.

Fikrimi yekunlaşdıraraq belə qənaətə gəlirəm ki, Azərbaycan bu gün indiki bu şəraitdə təcrid olunmuş halda yaşaya bilməz, bütün qonşularla saf, sağlam münasibət saxlanılmalıdır, həm Türkiyə ilə, həm də İranla. Ancaq Avropada yaranmış belə bir böyük, qüdrətli Müstəqil Dövlətlər Birliyi Azərbaycan üçün bu gün lazımdır və buna böyük bir ehtiyac vardır. Ona görə ondan çox şey gözləmək yox, biz siyasətimizi elə qurmalıyıq ki, ondan necə istifadə edib Azərbaycanı bu gün böhrandan, bu kəskin vəziyyətdən çıxaraq. Bu mənim sözüm deyil. Sizin yanınıza gəlməmişdən qabaq mən idarənin rəhbər işçilərini yığdım, həm kəşfiyyat, həm əks-kəşfiyyat, həm də texniki əməliyyat şöbəsinin rəhbərlərini, yoldaşlar belə bir xahişi istədilər, sizə çatdırım ki, Milli Təhlükəsizlik Nazirliyi Milli Məclisdən xahiş edir, bu birliyə daxil olaq, bu birliyin mövcud olan qərarlarına qol çəkək və gələcək işimizi hələlik bu çərçivədə planlaşdıraq.

Mənə elə gəlir ki, bundan xalq ziyan çəkməyəcək. Emosiyaya qapılmaq lazım deyildir. Şəxsi marağa qapılmaq lazım deyil. Ümumi xalqın marağı bu gün tələb edir ki, biz bu birliyə daxil olaq. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Rəsul Quliyev, buyurun.

**Rəsul Quliyev,** ***Azərbaycan Respublikası Baş nazirinin müavini.*** Hörmətli sədr, hörmətli millət vəkilləri! Burada bu Məclisdə çıxış edənlərin bu MDB-yə daxil olmaq, Kollektiv təhlükəsizlik müqaviləsinə daxil olub-olmamaq barəsində fikirləri, məsələn, getməyək deyənlərin fikir-

ləri o qədər mürəkkəb və anlaşılmaz şəkildə bizə çatdırılır ki, onu analiz etmək çox çətindir. Çünki deyilən sözlərin heç birinin nə elmi, nə siyasi, nə də hüquqi əsası yoxdur ki, niyə getməyək. Çox təəssüf ki, bu, belədir. Məsələn, deyilən iradları mən deyim və çalışacağam, o iradlara da bir qədər cavab verəm. Məsələn, söhbət gedir, bəs niyə orada bənd var ki, altı aydan sonra təhlükəsizlik müqaviləsindən çıxmağa icazə verilir və nəyə görə orada yazılıb, altı ay müddətində Azərbaycan bu öhdəliklərini yerinə yetirib sonra çıxmalıdır. Mən istəyirəm, bu sualı qaldıranlara izah eləyim, adicə müəssisələr arasında bağlanan müqavilədə yazılır ki, əgər bu müqaviləni pozmaq istəyirsənsə, gərək üç ay qabaqdan xəbər verəsən. Adi müəssisələr arasında müqavilədir və o müqavilə ilə əlaqədar bəzi şərtlər var, gərək onları yerinə yetirəsən. Amma bu, dövlətlər arasında münasibətdir, bu, balaca bir şeydir ki, yəni bunu, doğrudan, anlamaq çətindir.

Sonra bütün burada danışıqlarda deyilir ki, biz bu işləri görsək, rus qoşunları bura girəcək, gedib sərhəddə duracaq, bu harada yazılıb? Ümumiyyətlə, rus qoşunları sözü haradan çıxıb, çünki o Nizamnamədə, o müqavilədə heç bir rus qoşunu və ya başqa qoşun yoxdur, Rusiyanın da adı çəkilmir. Yoxdur elə bir şey. Hamı deyir ki, Rusiya bunu edəcək, onu edəcək, mən başa düşmürəm, hansı əsasa görə? O Nizamnamənin heç bir yerində belə bir söz yoxdur. Bütün hər yerində yazılıb ki, ora daxil olan dövlətlərin hamısı müstəqil dövlətlərdir.

Sonra Tofiq müəllim burada izah eləməyə çalışdı ki, bəs SSRİ-nin də Konstitusiyasında elə gözəl yazılıb, onu oxuyanda adamı ağlamaq tutur və əgər belə bir Konstitusiyası olan ölkə varsa, camaat azaddır, sərbəstdir və sair. Deməli, Tofiq müəllim keçmiş SSRİ ilə indiki vəziyyəti eyniləşdirir, mən başa düşmürəm, indi bunu adicə televiziyaya baxmaqla, qəzetləri oxumaqla da anlamaq olar, onun üçün elə bir ciddi analiz də lazım deyil. Artıq o dövr deyil, başqa dövrdür. Bu gün Rusiyanın özünün daxilində Çeçenistan Respublikası yaranıb, İnquşiya, Yakutiya, Tatarıstan, Karel-Fin respublikaları var, Rusiya oraları işğal eləmir, özünün daxilindədir. Bu gün Çeçenistanda bir nəfər rus əsgəri yoxdur. Rusiya onları işğal eləmir, baxmayaraq ki onun tərkibindədir, çünki Rusiya əvvəlki Rusiya, əvvəlki Sovet İttifaqı deyil, Rusiyanın sərhədləri açıqdır, Rusiya dünyanın sivilizasiya sisteminə girmək istəyir. Sivilizasiya sisteminə girmək istəyən bir dövlət, necə ola bilər ki, gəlsin, sabah səni burada işğal eləsin, tutsun, nə bilim, neyləsin, axı bu absurddur, bunu deməmişdən qabaq, heç olmasa, ay bir il xarici işlər naziri işləyən, bir balaca fikirləş də.

Sonra çıxış edib deyirlər, məsələn, Mirmahmud müəllim çıxış edib deyir, Azərbaycanda belə bir söhbət gedir ki, Heydər Əliyev yeganə pənahdır, yəni Heydər Əliyev Allahlıq iddiasındadır, nə bilim, nə. Məsələ aydındır, sonra da Heydər Əliyevə müraciət edib deyir ki, belə eləməyin, bu, Quranın filan ayəsinə uyğun gəlmir və sair. Cənab Mirmahmud müəllim, Quranın ayəsində deyilir, Allah deyib ki, səndən hərəkət, məndən bərəkət. Siz, deməli, bir il müddətində hərəkətinizi saxlamısınız, yapışmısınız Allahın ətəyindən, gedib düşmüsünüz o...

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Sakit olun.

**Rəsul Quliyev.** Deməli, bir il müddətində mən hökumətin tərkibində olmuşam...

**Yerdən.** *(Eşidilmir.)*

**Rəsul Quliyev.** Bir dəqiqə də, dayan. Bütün bu işlərin hamısını heç bir fakt bilməmiş danışırsan, ona görə bədbəxtlik oradadır da. Mən may ayının ortalarında Baş nazir olmuşam, iyunun 4-də də siz yığılmısınız, aydındır, hökumətdə mən belə olmuşam, başqa cür olmamışam axı. Əzizim, bildin də onları. Mənim üzümü görəndə elə bilirsən, hökumət adamıyam, amma hökumət adamı olmamışam.

Deməli, bax, məsələn, burada həddən artıq çox deyirlər, rubl zonasına girəcəyik, nədir bu rubl zonası, başınıza dönüm. Mən, icazə verin, sizə loru dildə başa salım, nə olan şeydir bu, daha bu məsələni bir də qaldırmayasınız. Yəni dünyanın 40-42 ölkəsi arasında dönər valyuta var və bunların birjası var. Birja 3 şəhərdədir, biri Londondur, biri Nyu-Yorkdur, biri də Yaponiyanın Tokio şəhəridir, xahiş edirəm, yadınızda saxlayın. Hər gün bu valyuta sistemində kurs təyin olunur. Kurs da bu üç böyük şəhərdə təyin olunur, yəni əsas valyuta götürülür dollar, qalanları da dolların kursuna uyğun müəyyənləşdirilir. Deməli, orada da cəmi beş valyuta iştirak edir, yadınızda saxlayın, markadır, frankdır, funt sterlinqdir, yuandır, yox, şillinq orada iştirak eləmir, bir də dollar. Yerdə qalan pulların hamısı, biləsiniz, onların hərəsi bir valyutadan keçir. Məsələn, Avstriyanın şillinqi markadan keçir. Bu o deməkdir ki, Avstriya bəyəm müstəqil ölkə deyil? Hollandiyanın quldeni markadan keçir, bu o deməkdir ki, Hollandiya müstəqil deyil? Bu, gülünc şeydir axı.

Siz mənə deyin, Çin müstəqil dövlətdir, ya müstəqil dövlət deyil? Bəlkə, deyəsiniz, Çin də müstəqil deyil, çünki onun bütün dünya bazarında haqq-hesabı dollarla hesablanır. İndi burada, Tofiq müəllim, Siz əlinizi

belə edirsiniz, çünki mən dediyim heç cür Sizə çatmır. İndi yox, bir də görürəm, yaman möhkəm işləyir.

Deməli, indi on bir respublikanın hər birinin özünün milli valyutası da ola bilər, burada aydın yazılıb, oxumaq lazımdır, istəsə rubl zonasında da qala bilər. Əgər milli valyutası varsa, yəni bizim Azərbaycanda manatla, ümumiyyətlə, bizim hamımızın fikri də belədir ki, Azərbaycanda manat bizim milli valyuta kimi qalsın, ancaq bu on bir respublika arasında bunun hər respublikada qiymətini, yəni məzənnəsini bilmək üçün bir valyutadan keçməlidir, ya yox? Aydın məsələdir ki, bu, valyutadan keçməlidir, bu valyuta da rubl ola bilər, istəyirsən məzənnəni dollarla hesabla. O vaxta qədər bu iş gedəcək, sən öz milli valyutanı çıxarasan dünya bazarına və bunu başlayasan dəyişməyə. Bu, bir ilin, iki ilin, beş ilin, on ilin işi deyil, yəni MDB-yə girsən də, girməsən də belədir. Bu da bunun rubl hissəsi.

Sonra deyirlər, gömrükxana. Ay balam, burada başa düşmək lazımdır. MDB-nin müəyyən bir sərhədi var. Əgər sən bu MDB-yə daxil olursansa, onun sərhədindən sənin də malın gedir, sənin sərhədindən də başqa ölkələrin malları keçir. Bir yeganə gömrük sistemi olmalıdır da, burada nə var ki? Yəni MDB-də yeganə gömrük sisteminin olmasından Azərbaycan iki-üç dəfə udur, çünki Azərbaycanın göndərdiyi malların sərhədi Azərbaycandan keçən malların sərhədindən qat-qat çoxdur. Bunu başa düşməyə nə var? Bu vergi sistemi ilə indi biz Rusiyadan, Qazaxıstandan və başqa-başqa ölkələrin heç birindən mal alıb bura gətirə bilmirik, yəni bizim xaricdən mal almağımız bizim üçün əlverişlidir, nəinki bu ölkələrdən. Niyə? Çünki bunlar ora vergi sistemini tətbiq ediblər, bunlardan aldığımız mal dünya bazarında satılan maldan bizə iki dəfə baha gəlib çıxır. Yaxşı, bu sistemi aradan götürmək lazımdır da. MDB-yə girmək bu sistemi aradan götürmək deməkdir də.

Yaxud götürək, müəyyən mənada xaricə satılan mallarda bir qiymət sistemini. Bu Xəzər körfəzində bir neçə ölkə yerləşir və bu bir neçə ölkənin də hamısı eyni bir məhsulu buraxır. İndi bu ümumi qiymət siyasəti olmamağından Azərbaycan 1993-cü ildə haradasa yüz milyon dollara qədər pul itirib. Nəyə görə? Çünki biri ucuz satır, biri orta qiymətə satır, biri baha satır. Bahanı almırlar, ucuzu alırlar, vəssalam, qurtarıb getdi. Bilirsiniz, belə müzakirə lazım olmayan şeydir.

Bütün danışıqların hamısını, MDB-yə daxil olmağı da Dağlıq Qarabağla əlaqələndirirlər. Mən başa düşə bilmirəm, bunu niyə əlaqələndi-

rirlər. MDB-yə daxil olmağın bizə iqtisadi, siyasi, hərbi cəhətdən verdiyi üstünlüklər var, biz bundan istifadə eləməliyik. Amma MDB-yə biz ona görə giririk ki, Dağlıq Qarabağı bizə verəcəklərsə, giririk, verməyəcəklərsə, girmirik, bu nə alverdir? "Kubinka"da, zaddasız, nəsiniz, mən başa düşmürəm. Bunu dövlət səviyyəsindən bu səviyyəyə endirmək qəti surətdə mümkün deyil. Sözsüz ki, MDB-yə daxil olmağımız bizim Dağlıq Qarabağ barəsində vəziyyətimizi pisləşdirməyəcək, qat-qat yaxşılaşdıracaq. Mən bunu demək istəyirəm. Sağ olun.

**Sədrlik edən.** Afiyəddin Cəlilov.

**Afiyəddin Cəlilov.** Hörmətli sədr, hörmətli millət vəkilləri! Mən çıxış etmək istəmirdim, amma hörmətli Etibar bəy öz çıxışında mənim adımı çəkdi və əsla onun çıxışında irəli sürülən müddəaları təkzib etmək nöqteyi-nəzərindən yox, amma onun iki müddəası ətrafında fikir söyləmək istərdim. Birinci növbədə, Etibar bəy, mən Sizin çıxışınıza çox diqqətlə, təmkinlə qulaq asdım, müxalif çıxış idi, belə də olmalıydı, bu haqda fikir söyləmək niyyətində deyiləm. Siz mənim adımı çəkdiniz ki, Afiyəddin müəllim xalqın yüz faizi adından Milli Məclisə məlumat verir. Təkrar edirəm ki, Ali Sovetə, bizə daxil olan müraciətlər, bəyanatlar Azərbaycanın əksər əmək kollektivlərindən, elm ocaqlarından, ali məktəblərindən, səhiyyə ocaqlarından belə bir fikir ortaya çıxardı ki, bəli, əhalinin əksər hissəsi Azərbaycanın MDB-yə daxil olmasının tərəfdarıdır.

İkincisi, təklif etmək nöqteyi-nəzərindən deyil, o irada fikrimi bildirmək istəyirəm. Əlbəttə, bizim müzakirələrə xalq baxır və bir çox müxalif qüvvələr MDB-ni SSRİ ilə müqayisə etmək nöqteyi-nəzərindən başqa təkliflər irəli sürmədən fikirləri ümumiləşdirirlər.

Üçüncüsü, mən MDB ilə əlaqədar olaraq öz fikrimi demək istəyirəm. Bəli, bu gün Azərbaycanda aparılan böyük, dünyəvi, ümumbəşəri, geniş, geosiyasi miqyasda nəhəng siyasət bizi təcrid vəziyyətindən çıxarmağa imkan verir. Bunun da səbəbkarı burada çox düzgün qeyd olundu, böyük siyasi xadim olan Heydər Əliyevin apardığı siyasi xətdir. Mən bir kəlmə demək istəyirdim. Bu təcrid siyasəti primitizm deməkdir, primitizmdə də bir məsələni yada salmaq istəyirəm ki, hətta Azərbaycanın Milli Akademiyasının ləğvi məsələsi də qoyulmuşdu. Bu bizim apardığımız müstəqil siyasətin nəticələri idi, kadr axıcılığı, elmi potensialın itməsi, mədəniyyətin itirilməsi, iqtisadiyyatın iflic vəziyyətinə düşməsi və sair.

Digər tərəfdən, Heydər müəllim, icazənizlə, mən də öz fikrimi deyərdim, şəxsi fikrimi deyirəm. Milli Məclisin bugünkü gündəliyində olan

birinci məsələ, sözün əsl mənasında, respublikada gedən ictimai-siyasi proseslərin nəticəsində ortaya çıxıb və burada da fikir mübadiləsi gedib. Bəli, Azərbaycan MDB-də olmalıdır. Ona görə olmalıdır ki, bundan Azərbaycanın iqtisadiyyatı, elmi, mədəni potensialı, aparılan siyasi islahatlar, bank, pul, vergi, gömrük, digər amillər bunu tələb edir.

Mən Etibar bəyin iddiasına da fikir söyləmək istəyirəm. Siz burada Parlamentlərarası Assambleya ilə əlaqədar olaraq gündəliyin ikinci məsələsinə toxundunuz, xatirinizə salmaq istəyirəm ki, Parlamentlərarası Assambleyaya daxil olmaq MDB-yə daxil olmaq məqsədi güdmür. Buna hər dövlət daxil ola bilər, hətta Parlamentlərarası Assambleyaya yaxın və xarici dövlətlər də daxil olur. Diqqətinizə görə təşəkkür edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Güman edirəm ki, bizim müzakirələr çox ətraflı və geniş olduğuna görə məsələni yekunlaşdırmaq olar. Bir daha xatırladıram, biz sentyabr ayının 3-də bu məsələ haqqında çox geniş fikir mübadiləsi apardıq, imkan verildi ki, bu məsələ haqqında ictimai rəy müəyyən qədər aydınlaşsın. Moskvadan dönəndən sonra, sentyabr ayının 13-14-də Milli Məclisin iclaslarında Moskva səfərinin yekunlarını müzakirə edərkən bu məsələ barəsində geniş müzakirə apardıq və elə qərara gəldik ki, ictimaiyyət bir də bu məsələni geniş müzakirə eləsin. Ona görə də fasilə yarandı və bu gün artıq sentyabr ayının 20-də saat 3-dən indiyə qədər biz bu məsələni müzakirə etdik.

İndi artıq saat 9-u keçib. 6 saatdan artıqdır. Məclis üzvlərinin əksəriyyəti çıxış edib. Ali Sovetə və Prezident Aparatına minlərcə təklif, teleqram, müraciətlər gəlib. Elmi idarələrdən, əmək kollektivlərindən, ayrı-ayrı şəxslərdən. Şübhəsiz, bu məsələ müzakirə olunanda buna həm müsbət, həm də mənfi münasibət göstərənlər var, ancaq həqiqət bundan ibarətdir ki, tam əksəriyyət bu məsələyə, yəni Azərbaycanın Müstəqil Dövlətlər Birliyinə qoşulması məsələsinə müsbət münasibət göstərir. Məclisdə çıxış eləyənlərin əksəriyyəti də bu mövqedən çıxış elədilər.

Bir şeyi bir də xatırlatmaq istəyirəm, bu məsələ bizim yaşadığımız günlərin, ayların zərurətindən meydana gəlir, bu məsələni mən şəxsən irəli sürməmişəm. Bəzi çıxışlarda və ayrı-ayrı kollektivlərdə deyilir ki, Heydər Əliyevin bu barədə siyasətini müdafiə edirik. Bu mənim siyasətim deyil. Bu, sadəcə olaraq, zərurətdən meydana gəlmiş bir təklifdir və bu təklifi mən şəxsən Məclisin müzakirəsinə vermişəm və gələn hər bir təklifi də əgər gələcəkdə mən bu fəaliyyətimi davam etdirsəm, şübhə-

siz, bu cür, yəni demokratik prinsiplər əsasında geniş müzakirə və bütün qüvvələrin, bütün siyasi partiyaların fikrinin cəmləşməsi yolu ilə həll etməyə çalışacağam.

Azərbaycanda mövcud olan siyasi partiyaların tam əksəriyyəti Azərbaycanın Müstəqil Dövlətlər Birliyinə qoşulmasına müsbət münasibət göstəriblər. Şübhəsiz ki, burada mənfi münasibət bəsləyən də var, məsələn, Müsavat Partiyası, Xalq Cəbhəsi, Milli İstiqlal Partiyasıdır. Ancaq tam əksəriyyəti – bizə deyirlər, 40-a qədər partiya qeydiyyata alınıb – müsbət münasibət göstərirlər. Yenə də deyirəm, bu, şəxsən mənim siyasətim deyil, bu mənim tərəfimdən təkid olunan bir şey deyil. Bu, respublikanın son dövrdə keçirdiyi ictimai-siyasi, iqtisadi proseslərin məntiqi nəticəsi kimi zərurətdən doğan bir məsələdir və bu məsələni mən müzakirəyə vermişəm. Ona görə də mən xahiş edirəm ki, bu məsələnin müzakirəsini və bu təklifin irəli atılmasını şəxsən mənim adımla bağlamayasınız. Ona görə yox ki, mən bu məsuliyyəti üzərimə götürmək istəmirəm, sadəcə, ona görə ki bu elə böyük məsələdir, bir adamın siyasəti kimi qəbul oluna bilməz. Bu bizim ümumi, aparıcı qüvvələrin siyasəti kimi qəbul olunmalıdır.

Müzakirələrin nəticəsi bunu göstərir ki, əksəriyyət Azərbaycanın Müstəqil Dövlətlər Birliyinə qoşulmasının tərəfdarıdır. Beləliklə, Müstəqil Dövlətlər Birliyinin Nizamnaməsini qəbul etmək, Müstəqil Dövlətlər Birliyində imzalanmış Kollektiv təhlükəsizlik müqaviləsinə imza atmaq və sentyabrın 24-də Müstəqil Dövlətlər Birliyinin toplantısı, yəni Müstəqil Dövlətlər Birliyi ölkələrinin dövlət başçılarının görüşü olacaq, o görüşdə Müstəqil Dövlətlər Birliyinin iqtisadi əməkdaşlıq müqaviləsinə baxılacaq. Şübhəsiz ki, əgər biz Müstəqil Dövlətlər Birliyinə qoşulsaq, parlament belə bir qərar qəbul etsə, bu iqtisadi əlaqələr, iqtisadiyyat sahəsində olan müqavilə də imzalanmalıdır. Ona görə də mən güman edirəm ki, bu məsələni bundan sonra müzakirə etməyə ehtiyac yoxdur, sadəcə olaraq, mən bu təklifi səsə qoyuram.

Parlamentin, yəni Milli Məclisin üzvlərinin əksəriyyəti Azərbaycan Respublikasının Müstəqil Dövlətlər Birliyinə daxil olması, qoşulması haqqında təklif irəli sürdülər. Bu təklifi mən birinci təklif kimi səsə qoyuram, xahiş edirəm, münasibət bildirilsin. Qərar layihəsini Afiyəddin Cəlilov oxusun.

**Afiyəddin Cəlilov.** Azərbaycan Respublikası Milli Məclisinin Qərarı. Layihə.

*Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan xalqının ali mənafelərini rəhbər tutaraq, habelə Azərbaycan Respublikasının Müstəqil Dövlətlər Birliyinin üzvləri olan dövlətlərlə xarici əlaqələri nəzərə alaraq, həmin dövlətlərlə siyasi, iqtisadi, mədəni və digər münasibətləri inkişaf etdirmək məqsədilə* ***qərara alır****:*

*1. Azərbaycan Respublikası Müstəqil Dövlətlər Birliyinə qoşulsun.*

*2. Müstəqil Dövlətlər Birliyinin məqsədlərini və prinsiplərini qəbul edərək Azərbaycan Respublikası Müstəqil Dövlətlər Birliyinin Nizamnaməsində əks olunmuş öhdəlikləri öz üzərinə götürsün.*

*3. Azərbaycan Respublikası Prezidentinə tövsiyə edilsin ki, bu qərardan irəli gələn lazımi tədbirləri həyata keçirsin.*

**Sədrlik edən.** Qərara əlavə etmək lazımdır, çünki Müstəqil Dövlətlər Birliyinin Nizamnaməsindən savayı, əlahiddə olaraq Kollektiv təhlükəsizlik müqaviləsi bağlanıb, bu müqaviləni Müstəqil Dövlətlər Birliyinə daxil olan ölkələrin bəziləri imzalayıb. O müqaviləyə daxil olmaq məsələsi də burada nəzərə alınmalıdır, çünki biz bunu geniş müzakirə etdik.

Layihəni səsə qoymazdan öncə istəyirəm, bir məsələni də deyim. Bunu müzakirələr vaxtı dedim, ancaq xüsusi qeyd etmək istəyirəm. Bizi heç bir dövlət Müstəqil Dövlətlər Birliyinə dəvət etmir və heç bir dövlət bizi Müstəqil Dövlətlər Birliyinə daxil olmağa məcbur etmir. Bu, sadəcə olaraq, bizim Azərbaycan Respublikasının içindən gələn təklifdir. Eyni zamanda siz bilirsiniz ki, sentyabr ayının 17-də Türkiyənin xarici işlər naziri Hikmət Çətin Bakıya səfərə gəlmişdi. Bizim onunla 4 saatdan artıq söhbətimiz oldu, ondan sonra bir daha da görüşümüz oldu. Siz bilirsiniz ki, biz bərabər mətbuat konfransı keçirdik və orada Türkiyənin xarici işlər naziri Hikmət Çətinə suallar verildi və sualların cavabları da sizə məlumdur, ancaq yadınıza salmaq istəyirəm. Azərbaycan–Rusiya münasibətləri haqqında suallar veriləndə dedi ki, Türkiyə 500 ildir, Rusiya ilə əlaqələr saxlayır və bu əlaqələrin indi də yüksək səviyyədə inkişaf etməsinə səy göstərir. Düzdür, 500 il müddətində bizim aramızda münasibətlərin gərginləşməsi də olub, biz bilirik ki, müharibələr olub. Amma bu, şübhəsiz, Azərbaycanın daxili işidir, bunu biz də bilirik, o da qeyd etdi, ancaq bunu demək istəyirəm. Hikmət Çətinə Azərbaycanın Müstəqil Dövlətlər Birliyinə qoşulması barədə sual verdilər, o dedi ki, bu, Azərbaycanın daxili işidir, ancaq bizim tərəfimizdən buna heç bir etiraz ola bilməz.

Yəni ona görə demək istəmirəm ki, özümüzü nəyləsə sığortalamaq istəyirik. Demək istəyirəm ki, bizim qonşu dövlətlər, məsələn, Türkiyə,

İran dövlətlərinin rəhbərləri ilə mənim bu barədə söhbətlərim olub, bizim daxili işlərimizə qarışmırlar, ancaq yaxın dostluq əlaqələri olduğuna görə bizim fikir mübadilələrimiz olub.

Bir də qeyd edirəm, heç bir dövlət bizi bu birliyə dəvət etmir, heç bir dövlət bizi buna məcbur etmir. Bu, Azərbaycan Respublikasının içindən gələn təkliflərdir.

Buyurun, Etibar bəy, sualınızı verin.

**Etibar Məmmədov.** Mən bir sual vermək istərdim, bir də mənim təklifim var. Mən bayaq çıxışımın sonunda deməliydim, ancaq gözlədim ki, təklifimi konkret verim. Mən təklif edirəm, bu Nizamnamənin 8-ci maddəsinə əsasən, yəni rus dilində assosiativ, burada tərcümə olunub, Müstəqil Dövlətlər Birliyinə ortaq olmaq, yəni onun ayrı-ayrı müqavilələrində, qurumlarında iştirak edib-etməmək artıq Azərbaycanın müstəqil işidir. Yəni təklifim budur, ondan sonra isə əgər Müstəqil Dövlətlər Birliyi, doğrudan da, bizə nə isə verərsə, onun haqqında fikirləşmək olar. Mən bu təklifi verirəm.

İkincisi də, əgər ikinci verilən qərar layihəsi səsə qoyulacaqsa, nəzərə almaq lazımdır ki, bu, konstitusion qərardır, yəni üçdə iki səslə qəbul olunmalıdır. Konstitusiyada yazılır ki, dövlət əhəmiyyətli məsələ üçdə iki səslə qəbul olunmalıdır. Reqlamentdə də var, Konstitusiyada da var, dövlət əhəmiyyətli məsələlər ancaq deputatların üçdəiki səs çoxluğu ilə qəbul oluna bilər.

**Sədrlik edən.** Birinci, 8-ci maddə haqqında. Həsən, o nə maddədir?

**Həsən Həsənov.** *(Rus dilində çıxış edir.)* Məsələ bundan ibarətdir ki, bəzən iştirak eləyir, yəni Azərbaycan indiyə kimi elə assosiasiya etmiş üzv kimi sayılır. Bəzi müqavilələri imzalayıb, mücərrəd şəkildə iştirak eləyib, bu, müşahidəçi deməkdir.

Bəzi məsələlərdə ortaqdır, bəzi məsələlərdə ortaq deyil, amma əgər biz istəyiriksə, müqaviləni imzalayaq, orada heç cür müşahidəçi ola bilməz, müşahidəçi o deməkdir ki, biz gərək o müqaviləni imzalamayaq.

**Sədrlik edən.** Biz neçə vaxtdır müzakirə aparırıq ki, Azərbaycan Müstəqil Dövlətlər Birliyinə tamhüquqlu bir dövlət kimi daxil olur. Ancaq tamhüquqlu dövlətlərin də bəzi müqavilələri imzalamamaq hüququ var. Mən xatirinizə saldım ki, məsələn, Ukrayna Müstəqil Dövlətlər Birliyinin yaradıcılarından biridir, ancaq o, Kollektiv təhlükəsizlik haqqında müqaviləni imzalamayıb. Ona görə də mən güman edirəm ki, o maddəyə istinad etmək lazım deyil, layihəni olduğu kimi qəbul etmək lazımdır. Yəni

olduğu kimi səsə qoymaq lazımdır. Əgər biz bu birliyə giririksə, bu birliyə tamam girməliyik. Şübhəsiz ki, o Nizamnaməyə görə hüquqlarımızdan lazımi yerlərdə, lazımi səviyyədə istifadə etmək imkanımız var.

Buyurun, Şadman bəy.

**Şadman Hüseynov.** Heydər müəllim, mən təklif edirəm ki, səsvermə adbaad keçirilsin.

**Sədrlik edən.** Onsuz da səsvermə adbaaddır.

Bəli, Etibar bəyin təklifinə cavab olaraq mənə məlumat verirlər ki, bu, Konstitusiyada dəyişiklik deyil, bu, sadəcə, səs çoxluğu ilə keçə bilər.

**Etibar Məmmədov.** Mən bilmirəm, kim bu izahatı verib, ancaq yenə təkrar edirəm, bu, dövlət əhəmiyyətli məsələdir. Ali Sovetin qəbul elədiyi adicə qərarlar başqadır. Azərbaycanın dövlət kimi taleyində həlledici rol oynayan məsələlər barədə qəbul olunan qərarda da aydın göstərilib, reqlamentdə dövlət əhəmiyyətli məsələlər barədə qərarlar ancaq üçdəiki səs çoxluğu ilə qəbul olunur. Hüquqşünasların əgər başqa fikirləri varsa, reqlamentə istinad edərək bildirsinlər. Ümumi sözlə yox.

**Sədrlik edən.** Səfa müəllim, məlumat verin.

**Səfa Mirzəyev, *Ali Sovetin Katibliyinin Hüquqi təminat və nəzarət şöbəsinin müdiri.*** Hörmətli Heydər müəllim, hörmətli millət vəkilləri, Azərbaycan Respublikası Ali Sovetinin reqlamentinə görə, Azərbaycan Respublikası Ali Sovetinin, hazırda Milli Məclisin qərarları əgər bu haqda xüsusilə reqlamentdə, ya Konstitusiyada qeyd olunmayıbsa, sadə səs çoxluğu ilə qəbul olunur. Hazırda qəbul etdiyiniz qərar dövlətlərarası ittifaqa qoşulmaq, beynəlxalq təşkilatlara daxil olmaq ratifikasiya qaydalı qərardır, bu qərar sadə səs çoxluğu ilə qəbul edilməlidir. Nə Konstitusiyada, nə də reqlamentdə bunun xüsusi səs çoxluğu ilə, yəni üçdəiki səs çoxluğu ilə qəbul edilməsi barədə göstəriş yoxdur.

**Sədrlik edən.** Aydındır. Səsə qoyulur. Xahiş edirəm, münasibət bildirilsin.

31 lehinə, 13 əleyhinə, bitərəf 1. Səs verməyib – heç kəs. İştirak edir – 45 nəfər.

**Səsvermənin nəticələri:**

| | |
|---|---|
| ***Lehinə*** | ***31*** |
| ***Əleyhinə*** | ***13*** |
| ***Bitərəf*** | ***1*** |

***Səs vermədi*** **0**

***İştirak edir*** **45**

Qəbul olunur.

İkinci məsələ parlamentlərarası əlaqələrdir. Bunu müzakirə etməyə ehtiyac varmı? Ona görə bu məsələ də səsə qoyulur. Xahiş edirəm, münasibət bildirilsin.

***(Səsvermə)***

Qəbul edildi.

Üçüncü məsələ. Mən sizə dedim, bunu gündəliyə saldıq, fövqəladə vəziyyət haqqında. Belə bir təklif var ki, sentyabrın 22-dən Azərbaycanda fövqəladə vəziyyət rejimi götürülsün. Sərhəd bölgələrində onsuz da müharibə gedir, mən bilmirəm, orada fövqəladə vəziyyətin qalmasının nə əhəmiyyəti var? Onsuz da orada hərbi rejimdir. Ehtiyac yoxdur. Orada müharibə gedir, hərbi rejim var, hərbi rejim olan yerdə fövqəladə vəziyyət var, yoxdur, elə böyük şey deyil. Ona görə bütün Azərbaycan üzrə fövqəladə vəziyyət rejiminin götürülməsi təklif olunur. Əgər etiraz yoxdursa, səsə qoyuram. Münasibət bildirilsin.

***(Səsvermə)***

Qəbul edildi. Əleyhinə olan yoxdur, bitərəf bir nəfər.

Növbəti məsələ, Millətlərarası münasibətlər komitəsinin yaradılması haqqında. Biz gündəliyi müzakirə edəndə bu məsələnin zəruri olduğunu mən bildirdim. Mənə belə gəlir ki, əlavə izahata ehtiyac yoxdur, biz həm respublikada, həm də indi artıq Müstəqil Dövlətlər Birliyinə daxil olarkən millətlərarası münasibətlərə daha da ciddi fikir verməliyik, ona görə də belə bir dövlət komitəsinin yaranması zəruridir. Əgər buna etiraz yoxdursa, burada yazılır soyadlar...

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Etiraz edirlər, ya nə? Firudin Cəlilov, buyurun.

**Firudin Cəlilov.** O komitənin işi barədə istəyirdim öyrənim ki, nə iş görəcək. Çünki Nazirlər Kabinetinin nəzdində elə bir şöbə var idi. Sonra o ləğv olundu. Millətlərarası münasibətləri tənzimləmək, bu münasibətlərə baxmaq, bu, Azərbaycanın indiki vəziyyətində çox lazımlı bir komitədir.

**Sədrlik edən.** Əgər şöbə olub, ləğv olunubsa, bilmirəm, nədən ötrü bu, ləğv olunub, amma bu, lazımlı bir komitədir.

Nazirlər Kabinetinin tərkibində dövlət komitəsi olacaq. Nazirlik səviyyəsində olacaqdır. Hidayət Orucov, sadəcə olaraq, Prezident Aparatında müşavirdir, amma bu, Nazirlər Kabinetinin tərkibində dövlət komitəsi olacaqdır.

Mən səsə qoyuram. Xahiş edirəm, münasibət bildirilsin.

***(Səsvermə)***

Qəbul edildi.

Təklif var ki, bu komitə çox mühüm bir sahə olduğuna görə Baş nazirin müavini Abbas Abbasov indiki vəzifəsi, öz sahəsi qalmaq şərtilə, eyni zamanda bu komitənin sədri təyin olunsun. Etiraz yoxdur?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Səsə qoyuram, xahiş edirəm, münasibət bildirilsin.

***(Səsvermə)***

Qəbul edildi.

Bir məsələ də. Siz bilirsiniz ki, fərman verilib, səhiyyə naziri Hüseynov vəzifədən azad olunub və Məclis üzvü Yaşar Əliyev bu fərman haqqında da dedi. Milli Məclis bu fərmana öz münasibətini bildirsin.

***(Səsvermə)***

Qəbul edildi.

Bununla da bütün məsələlər müzakirə olundu. Sağ olun.

## AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN İCLASI

*29 sentyabr 1993-cü il*

*Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri* ***Heydər Əliyev*** *sədrlik edir*

**Sədrlik edən.** Salaməleyküm, hörmətli Məclis üzvləri, deputatlar, qonaqlar, mətbuat nümayəndələri. Milli Məclisin növbəti iclası işinə başlayır. Məclis üzvlərindən rica olunur, qeydiyyatdan keçsinlər.

***(Qeydiyyat )***

41 nəfər iştirak edir, yetərsay var.

Məclisin iclası açıq elan olunur. İclasın gündəliyi haqqında. Təklif olunur, aşağıdakı məsələlər gündəliyin iclasına daxil edilsin. Birincisi, sentyabrın 20-də Azərbaycan Respublikasının Müstəqil Dövlətlər Birliyinə daxil olması haqqında və bu birliyə daxil olarkən onların əsas sənədlərinin imzalanması haqqında biz ətraflı müzakirə apardıq. Bu barədə Məclisin qərarı əsasında Azərbaycan Respublikasının nümayəndə heyəti sentyabrın 23-də Bakıdan yola düşüb, sentyabrın 24-də Müstəqil Dövlətlər Birliyinin bütün iclaslarında iştirak edib və sənədlər imzalanıb. Ona görə təklif var ki, birinci məsələ Azərbaycan Respublikasının nümayəndə heyətinin sentyabrın 24-də Moskva şəhərində keçirilmiş iclaslarda iştirakının nəticələri barədədir. Yəqin ki, bu haqda mən məlumat verməliyəm. Bu məsələ ilə bağlı digər məsələlər də var, ona görə mən bunları qeyd edim, sonra onları səsə qoyaq.

Biz Müstəqil Dövlətlər Birliyinin iclaslarında iştirak edərkən, şübhəsiz ki, Milli Məclisin qərarı əsasında orada əsas sənədləri imzalamışıq. Əsas sənədlər Müstəqil Dövlətlər Birliyinin Nizamnaməsidir, bu imzalanıb. Azərbaycanın parlamenti onu təsdiq etməlidir. Bu məsələ müzakirə olunmalıdır.

Sonra Müstəqil Dövlətlər Birliyinin üzvü olan dövlətlərin Kollektiv təhlükəsizlik haqqında müqaviləsinə Azərbaycan Respublikasının qoşulması barədə məsələ müzakirə edilib təsdiq olunmalıdır.

Bir də sentyabrın 24-də Müstəqil Dövlətlər Birliyində İqtisadi İttifaq yaradılması barədə müqavilə müzakirə olunub və Müstəqil Dövlət-

lər Birliyinin üzvləri tərəfindən bu müqavilə imzalanıb. Bu müqavilənin layihəsini də biz müzakirə etmişik.

Bu məsələləri bir-bir, yaxud da hamısını birlikdə səsə qoyaq?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Bir yerdə. Demək, bu məsələlərin hər biri gündəliyə ayrı-ayrı məsələ kimi daxil olur, ancaq bir-biri ilə bağlı olduğuna görə ola bilər ki, bir yerdə səsə qoymağa etiraz olmasın. Onda bu məsələlərin gündəliyə daxil olmasını xahiş edirəm. Məclis üzvləri münasibətlərini bildirsinlər.

***(Səsvermə)***

Bu məsələlər gündəliyə salındı, qəbul olundu. Sizə artıq məlumdur ki, Moskvada olarkən sentyabrın 25-də mən Ermənistan Respublikasının prezidenti Levon Ter-Petrosyanla görüşüb danışıqlar aparmışam. Düzdür, bu mənim səlahiyyətimlə bağlı olan məsələdir, ancaq eyni zamanda bu barədə parlamentə də məlumat vermək istəyirəm. Danışıqların nəticəsi haqqında parlament məlumatlanmalıdır. Ona görə də bu məsələnin də gündəliyə salınmasını təklif edirəm. Etiraz yoxdur? Kim bu məsələnin gündəliyə salınmasının tərəfdarıdır, xahiş edirəm, münasibət bildirsin.

***(Səsvermə)***

Qəbul olundu. Bizim İqtisadi siyasət komissiyası təklif edir ki, bir məsələ var, əgər tam da müzakirə oluna bilməsə, heç olmasa, onun bir hissəsi bu gün parlamentdə müzakirə olunsun. Təəssüf ki, indiyə qədər Azərbaycan Respublikasının büdcəsi müzakirə edilməyib. Çünki bu bizim maliyyə işlərimizin həyata keçirilməsinə, maliyyə fəaliyyətimizə çox maneçilik törədir. Məsələ belə qoyulur, 1993-cü il üçün Azərbaycan Respublikasının büdcəsinin inflyasiya səviyyəsinə uyğunlaşdırılmasının zəruriliyi haqqında. Belə bir məsələnin gündəliyə daxil olmasına etiraz yoxdursa, xahiş edirəm, münasibət bildirilsin.

***(Səsvermə)***

Qəbul olundu. Bir məsələnin də məsələ kimi yox, məlumat kimi gündəliyə salınmasını təklif edirəm. Son vaxtlar bəzi mətbuat orqanlarında məlumatlar gedir ki, guya Azərbaycanda bəzi adamlar qanunsuz olaraq həbs olunublar, tutulublar. Xüsusən bunlar guya Xalq Cəbhəsinə mənsub olan adamlardır. Belə yazılar, belə məlumatlar meydana gələndə biz dəfələrlə həm respublikanın Baş prokurorundan, həm də Daxili İşlər

Nazirliyindən məlumatlar alırıq. Ancaq indi bu məsələdə tam aydınlıq olması üçün, həm Məclis üzvləri, həm də ictimaiyyətimizin bu məsələnin nə şəkildə olmasını tam bilməsi üçün yaxşı olardı ki, bu gün biz daxili işlər naziri Vaqif Novruzovun, Baş prokurorun özü yoxdur, birinci müavininin və Milli Təhlükəsizlik Nazirliyinin məlumatını dinləyək.

Sentyabr ayının 22-dən Azərbaycanda fövqəladə vəziyyət rejimi ləğv olunub. Daxili işlər nazirinin, milli təhlükəsizlik nazirinin və prokurorluğun verdiyi məlumata görə, Azərbaycanda siyasi fəaliyyətinə görə həbs olunan adam yoxdur. Ancaq onların məlumatına görə, kim həbs olunub, ya olunmayıb, yaxud saxlanılıb, saxlanılmayıb, bu mənə belə gəlir ki, Məclis üçün də, ictimaiyyət üçün də lazımdır. Əgər etiraz yoxdursa, bu məlumatların dinlənilməsi də gündəliyə salınsın. Etiraz yoxdur? Onda xahiş edirəm, münasibət bildirilsin.

***(Səsvermə)***

Qəbul olundu. Məsələlərin müzakirəsinə keçək. İcazə verin, mən həm Azərbaycan nümayəndə heyətinin Müstəqil Dövlətlər Birliyinin sentyabrın 24-də keçirdiyi iclaslarda iştirakı haqqında, həm də sənədlər barədə qısa məlumat verim.

Qeyd edim ki, Milli Məclisin bizə verdiyi səlahiyyət və sentyabrın 20-də qəbul etdiyi qərar əsasında Azərbaycan Respublikasının nümayəndə heyəti sentyabrın 23-də Moskvada olmuş və sentyabrın 24-də Müstəqil Dövlətlər Birliyinin iclaslarının hamısında iştirak etmişdir. Orada olan iş proqramına görə günün birinci hissəsində – səhər ertə Müstəqil Dövlətlər Birliyinə daxil olan dövlətlərin hökumət başçıları toplaşmışlar, əvvəlcə gündəlikdə olan məsələlərə baxmışlar, sonra isə saat 1-də Müstəqil Dövlətlər Birliyinin başçıları və hökumət rəhbərləri qapalı iclas keçirmişlər. Saat 3-də isə Müstəqil Dövlətlər Birliyinə daxil olan bütün nümayəndə heyətləri tam tərkibdə geniş iclasda iştirak etmişlər və o iclasda da bütün sənədlər imzalanmışdır.

Bizim Müstəqil Dövlətlər Birliyinə daxil olmağımızın prosesi Kreml sarayında sentyabrın 24-də gündüz saat 1-də keçirilən qapalı iclasda başlamışdır. Qeyd etdiyim kimi, orada yalnız dövlət və hökumət başçıları iştirak edirdi, kənar adamlar yox idi, iclas qapalı keçirdi. Qapalı iclası və ümumiyyətlə, ogünkü iclasların hamısını Belorusiyanın dövlət başçısı Stanislav Şuşkeviç aparırdı. İclası Rusiya Prezidenti Boris Yeltsin açdı, qısa nitq söylədi və nitqində Azərbaycan Respublikasının Müstəqil Dövlətlər Birliyinə tam hüquqla daxil olması haqqında qərarı barədə

məlumat verdi və öz fikrini bildirərək bu qərarın – bizim bu təklifimizin, təşəbbüsümüzün tərəfdarı olduğunu dedi. Sonra iclası Belorusiyanın dövlət başçısı Stanislav Şuşkeviç apardı. O da gündəliyin müzakirəsinə başlamamışdan Azərbaycan Respublikasının Müstəqil Dövlətlər Birliyinə daxil olması haqqında məsələni müzakirəyə qoydu, öz fikrini söylədi. Məsələ qısa müzakirə olundu. Çünki Müstəqil Dövlətlər Birliyinin başçılarından hər kəs əvvəlcədən də gündəliklə tanış idi. Gündəlik təsdiq olunanda da heç kəs Azərbaycan Respublikasının Müstəqil Dövlətlər Birliyinə daxil olmasına etiraz etməmişdi və müzakirə vaxtı da etiraz etmədi. Ona görə də Stanislav Şuşkeviç məsələ haqqında məlumat verərək Müstəqil Dövlətlər Birliyinin başçılarının fikirlərini bir daha soruşdu. Müzakirədə Özbəkistan Prezidenti İslam Kərimov çıxış etdi. Azərbaycan Respublikası haqqında çox xoş sözlər söylədi və Azərbaycan Respublikasının Müstəqil Dövlətlər Birliyinə daxil olmasına tərəfdar olduğunu bildirdi və xahiş etdi ki, bizim təklifimiz qəbul olunsun. Eyni zamanda qeyd etdi ki, Azərbaycan Respublikasının Müstəqil Dövlətlər Birliyinə daxil olması, şübhəsiz ki, həm Azərbaycan Respublikası üçün faydalı olacaq, həm də Müstəqil Dövlətlər Birliyinin fəaliyyətini genişləndirəcək, yeni bir dövlət də Müstəqil Dövlətlər Birliyində olacaqdır. Bu həm iqtisadi tərəfdən, həm də digər cəhətlərdən Müstəqil Dövlətlər Birliyi üçün də faydalıdır.

Sonra Qazaxıstan Prezidenti Nursultan Nazarbayev çıxış etdi, o da bu məsələyə tərəfdar olduğunu bildirdi, bizim təklifimizin bəyənilməsini xahiş etdi. Amma o, eyni zamanda bir sual verdi ki, əgər Azərbaycan da indi Müstəqil Dövlətlər Birliyinə daxil olursa, Ermənistan Respublikası artıq Müstəqil Dövlətlər Birliyindədir, iki dövlət arasında indi böyük ziddiyyətlər var. Ermənistanla Azərbaycan arasında Qarabağ problemi, müharibə mövcuddur. Azərbaycanın Müstəqil Dövlətlər Birliyinə daxil olması bu münaqişənin, bu müharibənin həll edilməsinə nə kimi köməklik edəcəkdir? Belə bir fikri irəli sürərək, eyni zamanda müraciət etdi ki, Azərbaycan və Ermənistan respublikalarının başçıları bu barədə nə söyləyə bilərlər? Belə bir çıxışdan və sualdan sonra bizə müraciət olundu. Mən xahiş etdim ki, Ermənistan Respublikasının prezidenti Levon Ter-Petrosyan bu barədə öz fikrini bildirsin. Levon Ter-Petrosyan dedi ki, Ermənistan Respublikasının Azərbaycan Respublikasının Müstəqil Dövlətlər Birliyinə daxil olmasına etirazı yoxdur və bu barədə onlarda heç bir əks fikir də yoxdur. Eyni zamanda, o, hesab edir ki, onun dediyini deyirəm, Müstəqil Dövlətlər Birliyində Azərbaycan Respubli-

kası ilə Ermənistan Respublikası arasında olan münaqişəyə son qoyulması və xüsusən onun dediyinə görə, Qarabağ probleminin həll olunması məsələləri daha müvəffəqiyyətlə həyata keçirilə bilər.

Qısaca deyirəm, mən ondan sonra Müstəqil Dövlətlər Birliyinə daxil olan dövlət başçılarına Azərbaycan Respublikasının Müstəqil Dövlətlər Birliyinə qəbul olunması ilə əlaqədar müsbət rəy söylədiklərinə görə respublika adından təşəkkürümü bildirdim. Söylədim ki, Azərbaycan Respublikası Müstəqil Dövlətlər Birliyinə qoşulmaq məsələsini çox dərin və ətraflı müzakirə edib. Respublikada bu məsələyə münasibət birmənalı deyil. Həm Azərbaycan parlamentində, həm də ictimaiyyətdə fikir ayrılığı var. Ona görə də biz bu məsələni bir neçə dəfə parlamentdə müzakirə etmişik. Ondan sonra Müstəqil Dövlətlər Birliyinin Nizamnaməsini və Kollektiv təhlükəsizlik haqqında müqaviləni Azərbaycan Respublikasının mətbuatında dərc edib ictimaiyyətin müzakirəsinə vermişik. Bu, ictimaiyyətdə, əmək kollektivlərində, elmi idarələrdə, ali məktəblərdə, universitetlərdə müzakirə olunub və rəylər kütləvi informasiya vasitələrinə, Ali Sovetə daxil olub və bunun nəticəsində son dəfə parlamentdə biz 6 saatdan artıq bir vaxtda bu məsələni müzakirə etmişik. Nəhayət, parlament üzvlərinin əksəriyyətinin rəyi ilə Azərbaycan Respublikasının Müstəqil Dövlətlər Birliyinə daxil olması haqqında qərar qəbul edilib. Bu qərar əsasında, bu səlahiyyətlə də biz Moskvaya gəlmişik və Müstəqil Dövlətlər Birliyinə daxil olmaq haqqında müraciət etmişik.

Mən bildirdim ki, Azərbaycan Respublikası bu məsələni hərtərəfli müzakirə edəndən sonra belə bir qərar qəbul edərək güman edir ki, Azərbaycan Respublikasının Müstəqil Dövlətlər Birliyinə daxil olması gələcəkdə Azərbaycan Respublikasının iqtisadiyyatının inkişaf etməsinə təsir göstərəcək, Azərbaycan Respublikasının keçmiş Sovetlər İttifaqına daxil olan, indi müstəqil dövlət kimi fəaliyyət göstərən dövlətlərlə iqtisadi əlaqələrinin, iqtisadi inteqrasiyasının daha da inkişaf etməsinə kömək edəcək, elmi-texniki, mədəni əlaqələrin inkişaf etməsinə kömək edəcək, insani əlaqələrin inkişaf etməsinə kömək edəcəkdir. Biz bu addımı ataraq, şübhəsiz ki, çox böyük ümid bəsləyirik ki, Azərbaycan Respublikası Müstəqil Dövlətlər Birliyinin tərkibində bundan sonra müstəqil dövlət kimi özünün iqtisadi, ictimai həyatının inkişafında böyük nailiyyətlər əldə etməyə imkan tapacaqdır.

Eyni zamanda mən Nursultan Nazarbayevin sualına cavab olaraq qeyd etdim ki, biz şübhə etmirik, Müstəqil Dövlətlər Birliyi çərçivəsində

Azərbaycan Respublikasına qarşı olan hərbi təcavüzə və Qarabağ problemınə, Ermənistanla Azərbaycan arasında gedən müharibəyə son qoyulacaq. Biz bu məsələlərin sülh yolu ilə həll olunmasının tərəfdarıyıq. Şübhəsiz ki, Müstəqil Dövlətlər Birliyinə daxil olaraq bəyan edirik ki, Azərbaycan Respublikasının müstəqilliyinə toxunmayacaq, Azərbaycan Respublikasının müstəqilliyinə zərər gətirməyəcək, əksinə, Azərbaycan Respublikasının müstəqilliyinin möhkəmlənməsinə şərait yaradacaq və eləcə də Azərbaycan Respublikasının ərazi bütövlüyünü təmin etmək üçün, Azərbaycan Respublikasının sərhədlərinin toxunulmazlığını təmin etmək üçün və Azərbaycan Respublikasının həm dövlət, həm ərazi suverenliyini təmin etmək üçün şərait yaradacaqdır. Mən söylədim, biz ümidvarıq ki, Müstəqil Dövlətlər Birliyi tərkibində Ermənistan Respublikası ilə bizim indi birbaşa yaranmış dialoqumuz davam edəcək və bunlar da bu məsələlərin sülh yolu ilə həll olunmasına, Azərbaycan Respublikasının işğal edilmiş torpaqlarının azad olunmasına və bir də qeyd edirəm, Azərbaycan Respublikasının tam ərazi bütövlüyünün təmin olunmasına kömək edəcəkdir. Mən bu sözlərlə çıxışımı bitirdim. Ondan sonra Stanislav Şuşkeviç bu məsələni səsə qoydu və heç kəs etiraz etmədi. Beləliklə, Müstəqil Dövlətlər Birliyinə daxil olan dövlət başçıları Azərbaycan Respublikasının Müstəqil Dövlətlər Birliyinə daxil olmasına müsbət münasibətlərini bildirdilər.

Sonra gündəlikdə olan məsələlərin müzakirəsi başladı. Onların bir hissəsi dövlət başçılarının iclasında müzakirə olunmuşdu. Ona görə də o məsələlərin geniş müzakirə edilməsinə ehtiyac olmadı. Ancaq ən əsas müzakirə edilən məsələ İqtisadi İttifaq yaradılması haqqında müqavilənin layihəsinin müzakirəsi idi. Bildiyiniz kimi, bu müqavilə haqqında Ukrayna dövlətinin Prezidenti Leonid Kravçuk bildirdi ki, Ukrayna bu müqaviləyə assosiativ bir üzv kimi daxil olmaq fikrindədir və belə bir fikri Türkmənistan Prezidenti Saparmurad Niyazov da bildirmişdi. Ona görə də başqa dövlət başçıları tərəfindən Müstəqil Dövlətlər Birliyinin İqtisadi İttifaq yaratmaq haqqındakı müqaviləsinə heç bir əlavə, yaxud qeydlər olmamışdır. Ancaq bu iki dövlətin münasibətləri müəyyən qədər müzakirəyə səbəb oldu. Leonid Kravçuk öz mövqeyini və səbəblərini bildirdi. Mən belə başa düşdüm ki, o səbəblər müvəqqəti xarakter daşıyır və Ukrayna dövləti, onun başçısı, Prezidenti Leonid Kravçuk bu müqavilənin bütün müddəaları ilə tamamilə razı idi. Türkmənistan Respublikasının Prezidenti Saparmurad Niyazov isə bir neçə maddənin qəbul edilməsi haqqında fikrini əvvəldən bildirmişdi, müzakirə zamanı

o maddələrin bir neçəsi haqqında öz fikrini geri götürdü. 3 maddə qaldı. Ancaq bu maddələr də, mənə belə gəlir ki, prinsipial xarakter daşımır və məlum oldu ki, bir müddətdən sonra o maddələr haqqında da onlar, yəqin ki, öz müsbət fikirlərini bildirəcəklər, ancaq hələlik assosiativ bir üzv kimi bu müqavilənin imzalanmasına razılıq verirlər.

Başqa məsələlər də müzakirə olundu. Siz onu televiziya ilə müşahidə etdiniz, Tacikistanla əlaqədar olaraq kollektiv müdafiə qoşunlarının yaranmasını. Bu barədə geniş iclasda Rusiyanın müdafiə naziri Pavel Qraçov məlumat verdi. Müstəqil dövlətlərdən beşi bu müqaviləyə imza atdılar.

Başqa məsələlər elə bir prinsipial xarakter daşımırdı. Onların da müzakirəsi çox vaxt almadı. Bizim nümayəndə heyəti həm dövlət başçılarının iclasında, həm qapalı iclasda, həm də son iclasda – bütün nümayəndə heyətlərinin tam tərkibi ilə keçirilən iclasda müqavilələrin hamısına imza atdı və hesab edirik ki, bu müqavilələrin, bu sənədlərin bizə heç bir zərəri yoxdur, bizə onların xeyri ola bilər və bizim onlardan imtina etməyə əsasımız yoxdur.

Qapalı iclas bitəndən sonra biz Kreml sarayında Azərbaycan Respublikasının Müstəqil Dövlətlər Birliyinə daxil olması ilə bağlı sənədləri imzaladıq. Müstəqil Dövlətlər Birliyinin Nizamnaməsini imzaladıq, yəni onları mən imzaladım. Müstəqil Dövlətlər Birliyi tərəfindən öncə qəbul olunmuş Kollektiv təhlükəsizlik haqqında müqaviləni imzaladıq. İmzalama prosesi televiziya ilə göstərilibdir və beləliklə də, Azərbaycan Müstəqil Dövlətlər Birliyinin tamhüquqlu üzvü oldu.

Qeyd etmək istəyirəm ki, mən o dövlət və hökumət başçılarının əhvali-ruhiyyəsindən, eyni zamanda nümayəndə heyətinə daxil olan adamların, ümumiyyətlə, o iclaslarda iştirak edən ekspertlərin və başqa vəzifəli şəxslərin əhvali-ruhiyyəsindən belə hiss etdim ki, Azərbaycanın bu birliyə daxil olması çox müsbət qarşılanmışdır, Azərbaycanın bu addımına yüksək qiymət verilmişdir. Ona görə yox ki, Azərbaycansız Müstəqil Dövlətlər Birliyi yaşaya bilməz. Bilirsiniz ki, Müstəqil Dövlətlər Birliyi artıq uzun müddətdir ki, fəaliyyət göstərir və Azərbaycan orada olmayan dövrdə bu fəaliyyətə heç bir zərər dəyməyibdir. Ancaq eyni zamanda bu keçmiş respublikalar – indi müstəqil dövlətlərin hər birisi bir-biri ilə bilavasitə əlaqələrdən savayı, Müstəqil Dövlətlər Birliyində olan həm iqtisadi əlaqələrə, həm də digər sahələrdə olan əlaqələrə çox fikir verirlər. Ona görə də mən hiss etdim ki, bizim Azərbaycan Respub-

likasının Müstəqil Dövlətlər Birliyinə daxil olması orada olan ümumi şəraitə müsbət təsir bağışladı. Azərbaycan Respublikasının nümayəndə heyəti orada çox mehribanlıqla qarşılanmışdır. Bunu biz hamımız – bütün nümayəndə heyətində olan şəxslər hiss edirdik və güman edirəm ki, bunlar hamısı Azərbaycan Respublikasının gələcək həyatında öz müsbət nəticələrini verəcəkdir.

Orada rəsmi iclaslarla yanaşı, bizim müstəqil dövlət və hökumət başçıları ilə də iclaslararası söhbətlərimiz olurdu. Bu şəxsi, fərdi söhbətlərdə də Azərbaycanın indiyə qədər Müstəqil Dövlətlər Birliyində olmamasının səbəblərinin onlar üçün aydın olmadığını bildirirdilər və söyləyirdilər ki, onlar hələ də anlaya bilmirlər ki, Azərbaycan nə üçün kənarda qalıbdır, nə üçün Azərbaycan belə böyük dövlətləri təmsil edən ittifaqa daxil olmayıbdır? Məsələn, xüsusən Orta Asiya dövlətlərini, yaxud elə Ukraynanı götürsək, mənim Leonid Kravçukla da söhbətim vaxtı, sonra Orta Asiyanın rəhbərləri Nursultan Nazarbayevlə, İslam Kərimovla, Saparmurad Niyazovla söhbətlərimizdə də onlar da qeyd etdilər ki, Azərbaycanın bu böyük dövlətlər birliyindən kənarda olmasını həm anlaya bilmirdilər, həm də bilmirdilər ki, bunun Azərbaycan üçün xeyri nədir. Ona görə də onlar hamısı, bir də qeyd edirəm, Azərbaycan Respublikasının nümayəndə heyətinə çox mehribanlıqla, istiqanlıqla yanaşırdılar və bizim bu addımımızı çox bəyənirdilər və hər birisi əmin olduqlarını bildirirdilər ki, birlikdə olmaq bizim dövlətlər arasındakı münasibətlərin, ikitərəfli münasibətlərin inkişaf etməsinə çox kömək edəcəkdir.

Siz, bəlkə də, bilirsiniz, ya bilmirsinizsə, məlumat vermək istəyirəm ki, bir müddət bundan öncə mən Özbəkistan Prezidenti İslam Kərimovla və Qazaxıstanın Prezidenti Nursultan Nazarbayevlə əlaqə saxlamışdım. İkitərəfli müqavilələr bağlanması, bir neçə məsələnin həll olunması üçün ora nümayəndələrimizi göndərmişdik. Bəzi müqavilələrin layihələri də artıq hazırdır. Hər iki dövlət başçısı ilə bizim söhbətlərimizdən belə məlum oldu ki, qısa bir müddətdə bu müqavilələr hazır olsa, onların hər biri Azərbaycana gəlməyə, burada danışıqlar aparmağa, müqavilələri imzalamağa, bizim dövlətlər arasındakı münasibətləri daha da inkişaf etdirməyə, genişləndirməyə hazırdırlar.

Eləcə də söhbətimiz Türkmənistanın Prezidenti Saparmurad Niyazovla da oldu. Mən hesab edirəm ki, indi bu müqavilələr haqqında sizə geniş məlumat verməyə ehtiyac yoxdur. Çünki Müstəqil Dövlətlər Birliyinin Nizamnaməsi mətbuatda dərc olunub, biz bunu geniş müzakirə etmişik, bu barədə ətraflı fikir mübadiləsi aparmışıq. Kollektiv təhlü-

kəsizlik haqqında müqavilə də mətbuatda dərc olunub, Məclis üzvləri bu müqavilə ilə tanışdırlar, biz Məclis üzvlərinə keçən iclasda bunu paylamışdıq.

İqtisadi İttifaq haqqında müqavilənin layihəsini də biz Məclis üzvlərinə paylamışdıq və bu da həm Məclis üzvlərinə, həm ictimaiyyətə məlumdur. Ona görə bu sənədlərin məzmunu haqqında, onun maddələri haqqında, müddəaları haqqında, mənə belə gəlir ki, geniş məlumat verməyə ehtiyac yoxdur. Mənim verdiyim məlumat bu qədərdir. Biz bu sənədləri Azərbaycan parlamentinin bizə verdiyi səlahiyyət əsasında artıq imzalamışıq. Sentyabrın 24-də biz Moskvada keçirdiyimiz gün ərzində iclaslarda, iclasdan kənar vaxtlarda fərdi söhbətlərdə məni bir məsələ çox düşündürürdü: bu müddətdə Azərbaycan Müstəqil Dövlətlər Birliyində olmamağından nə udub, nə uduzubdur? Mən hesab edirəm ki, heç bir şey udmayıb. Bu fikri mən keçən dəfə də bizim müzakirə vaxtlarında demişəm. Ancaq Moskvada olduğum dövrdən sonra, bu atmosferi orada hiss edəndən sonra, müstəqil dövlət başçılarının bir-biri ilə söhbətlərini, görüşlərini, əlaqələrini müşahidə edəndən sonra bir daha bu fikri söyləmək istəyirəm ki, biz bu müddətdə ki Müstəqil Dövlətlər Birliyində olmamışıq, heç bir şey udmamışıq, heç bir şey əldə etməmişik, yəni Azərbaycan Respublikası yeni heç bir nailiyyət əldə etməyib, heç bir şey udmayıb, ancaq uduzmuşuq. Mən hesab edirəm ki, uduzmuşuq. Onu uduzmuşuq ki, Azərbaycan Respublikası özünü bu böyük birlikdən, bu böyük birliyin imkanlarından məhrum edibdir.

Müstəqil Dövlətlər Birliyinin fəaliyyət göstərdiyi müddətdə çox iclaslar keçirilibdir, sənədlər qəbul olunubdur, bu birlik çərçivəsində münasibətlər yaranıbdır. Biz Azərbaycan Respublikasını bütün bu imkanlardan təcrid etmişik, məhrum etmişik və bu da, şübhəsiz ki, bizə həm iqtisadi cəhətdən, həm siyasi cəhətdən, həm də təhlükəsizlik cəhətdən heç bir xeyir gətirməyibdir. Əksinə, mən hesab edirəm ki, biz uduzmuşuq, zərər çəkmişik. Bu birliyin iclaslarında olmaq, bu birlik çərçivəsində Müstəqil Dövlətlər Birliyinin başçıları ilə, yaxud da nümayəndə heyətinin üzvləri ilə, müxtəlif təbəqədən olan vəzifəli şəxslər ilə görüşmək, Azərbaycan Respublikasının, Azərbaycan dövlətinin mənafeyinə aid olan məsələləri bu görüşlərdə, bu iclaslarda həll etmək imkanlarından biz bu müddətdə məhrum olmuşuq. Ancaq bunun əvəzinə biz başqa ittifaqda olmamışıq, başqa bir birlikdə olmamışıq, başqa dövlətlərin çərçivəsində olan bir ittifaqda olub ondan bəhrələnməmişik, ondan faydalanmamışıq.

O ki qaldı Azərbaycanın müstəqilliyinin qorunub saxlanılmasına, mən hesab etmirəm ki, məsələn, Özbəkistan, Qazaxıstan, Ukrayna, yaxud da Belorusiya Müstəqil Dövlətlər Birliyində olduqları dövrdə öz müstəqilliklərini müəyyən qədər itiriblər, yaxud da onların müstəqilliyinə bir zərər dəyib. Türkmənistan dövlətini götürün. O öz müstəqilliyini çox layiqli saxlayır və onun müstəqilliyinə heç bir zərər dəyməyibdir, müstəqil dövlət kimi, bəlkə də, iqtisadi nöqteyi-nəzərdən, onun iqtisadi potensialına görə və ya başqa səbəblərə görə Azərbaycandan daha yaxşı vəziyyətdədir.

Müstəqil Dövlətlər Birliyinə Azərbaycanın daxil olması onun müstəqilliyinə zərər gətirəcəkdir, yaxud onun müstəqilliyini məhdudlaşdıracaqdır, yaxud gələcəkdə ola bilər, onun müstəqilliyini əlindən alacaqdır, mən əvvəl də bu fikirlə razı deyildim. Moskvada keçirdiyimiz günlərdə apardığımız söhbətlərdən, o iclaslarda olan əhvali-ruhiyyəni hiss edəndən sonra tam bu fikirdəyəm ki, bizim bu birlikdə olmağımız Azərbaycan Respublikasının müstəqilliyinə zərər gətirməyəcək və bununla yanaşı, Azərbaycan Respublikasının iqtisadi inkişafına, elmin, texnikanın, mədəniyyətin inkişafına çox xeyir gətirəcəkdir. Bununla yanaşı, bizim insanların, vətəndaşların, soydaşlarımızın, həmvətənlərimizin də həyatına xeyir gətirəcəkdir.

Məlumdur ki, Rusiyada bir milyona qədər azərbaycanlı yaşayır. Başqa müstəqil dövlətlərin ərazisində də – Ukraynada da, Belorusiyada da, Orta Asiya dövlətlərində də azərbaycanlılar yaşayırlar. Onların öz vətənləri ilə, doğma Azərbaycanla əlaqələri daim olubdur. Amma Müstəqil Dövlətlər Birliyində olarkən bu əlaqələrin daha da sıx olmasına biz imkan yaradırıq. Amma Müstəqil Dövlətlər Birliyində olmadığımız dövrdə və get-gedə bu birliyin qanunlarının daha da Müstəqil Dövlətlər Birliyi çərçivəsində toplanacağını görərək düşünürəm ki, əgər biz indi bu birliyə daxil olmasaydıq, bir müddətdən sonra bizim Azərbaycan Respublikasının başqa müstəqil dövlətlərin ərazisində yaşayan soydaşları ilə əlaqələrinə çox böyük zərər dəyəcəkdi.

Bunların hamısını nəzərə alaraq, mən bir daha fikrimi yekunlaşdıraraq bildirmək istəyirəm ki, Azərbaycanın Müstəqil Dövlətlər Birliyinə daxil olması zərurətdən doğan bir addımdır, düzgün addımdır və bu müqavilələri bizim imzalamağımız tamamilə Azərbaycanın bu günü və gələcəyi üçün mənfəətli olacaqdır. Eyni zamanda bir daha qeyd edirəm ki, bu addım – bizim Müstəqil Dövlətlər Birliyinə qoşulmağımız Azərbaycanın bir müstəqil dövlət kimi bundan sonra yaşamasına heç bir zərər toxundurmayacaqdır, biz bundan heç bir zərər çəkməyəcəyik.

Mən əminəm ki, Müstəqil Dövlətlər Birliyində Azərbaycan Respublikası öz müstəqilliyini qoruyub saxlamaq imkanına malikdir və biz müstəqilliyimizi qoruyub saxlayacağıq. Ona görə də mən bir də dediyim sözü təkrar etmək istəyirəm, o qapalı iclasda mən qısa çıxışımda Nursultan Nazarbayevin sualına cavab verərək və bizim Müstəqil Dövlətlər Birliyinə daxil olmağımız haqqında qəbul olunmuş qərarın əsas müddəalarını bildirərək qeyd etdim ki, biz bu qərarı qəbul etmişik və bu qərara inanaraq qəbul etmişik ki, bu, Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunmasına kömək edəcəkdir, Azərbaycan Respublikasının müstəqilliyinə heç bir zərər gətirməyəcəkdir və Azərbaycan Respublikasının həm dövlət, həm ərazi suverenliyini tam təmin edəcəkdir. Məlumat bu qədər.

Məsələn, bizim bir müddət əvvəl Rusiya vətəndaşı olan, Rusiya ordusunda qulluq etmiş, Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan Respublikasına qarşı təcavüzdə iştirak etmiş 6 nəfər hərbi qulluqçunun – burada yüksək cəzalara məhkum olunmuş o şəxslərin parlamentin qərarı ilə Rusiya dövlətinin sərəncamına, onların ixtiyarına vermək haqqında atdığımız addım da orada qiymətləndirilmişdi. Rusiya Prezidenti Boris Yeltsin bu barədə bizim o qapalı görüşümüzdə Azərbaycan Respublikasına, onun rəhbərliyinə minnətdarlığını bildirdi. Bildiyiniz kimi, biz gələndən sonra Rusiyanın Prezidenti Boris Yeltsindən bu barədə rəsmi məktub almışıq. O, Rusiya hökuməti adından, Rusiya dövləti adından Azərbaycan Respublikasına minnətdarlığını bildirir və qeyd edir ki, bu, lazımi qədər qiymətləndirilir və Azərbaycanla Rusiya arasında olan əlaqələrin yaxşılaşmasına kömək edəcəkdir. Məlumat bu qədər. Mən hesab edirəm ki, daha bundan artıq danışmağa ehtiyac yoxdur, çünki əsas sənədlər hamınıza məlumdur. Əgər bu barədə sual olsa, mən o suallara da cavab verməyə hazıram.

Mürvət Əliyev, buyurun.

**Mürvət Əliyev.** Heydər müəllim, biz bütün bu prosesləri izləmişik. Təbii ki, keçən dəfə də bunu uzun müddət müzakirə eləmişik və öz müsbət rəyimizi bildirmişik. Bu gün də, yəqin ki, bunların təsdiq olunması məsələsinə öz münasibətimizi bildirəcəyik.

Məni bir şey maraqlandırır. Birliyin şurasının iclasında, mətbuatın verdiyi məlumata görə, guya orada bildirilib ki, xarici dövlətlərdən də, keçmiş SSR ittifaqında olmayan başqa dövlətlərdən də Müstəqil Dövlətlər Birliyinə daxil olmaq istəyənlər var. Belə bir məsələ olubmu, Heydər müəllim? Onu bilmək istəyərdim.

**Sədrlik edən.** Bilirsiniz, belə bir söz oldu. Konkret hansı dövlətin daxil olmaq arzusunu mən bilmədim, ancaq o qapalı iclasda belə bir söz oldu. Dedilər ki, Müstəqil Dövlətlər Birliyinə başqa dövlətlərdən də, yəni keçmiş SSRİ-yə daxil olmayan dövlətlərdən də meyil göstərənlər var və ümumi fikir belə oldu ki, əgər belə bir təklif olsa, Müstəqil Dövlətlər Birliyi buna etiraz etməyəcəkdir. Ancaq bundan artıq orada bir müzakirə olmadı.

Sizin bu sualınız mənə imkan verir, bunu mən unutdum, bir məsələni də diqqətinizə çatdırım. Bildiyiniz kimi, Gürcüstanın Baş naziri Müstəqil Dövlətlər Birliyinin həm qapalı iclasında, həm də geniş iclasında iştirak edirdi. Sizə çatdırmaq istəyirəm ki, qapalı iclasda o, çıxış etdi və bildirdi ki, Gürcüstan Respublikası Müstəqil Dövlətlər Birliyinə daxil olmağa hazırdır. Gürcüstan Respublikasının başçısı Abxaziyada, Suxumidə olduğuna görə bu iclasa gələ bilməmişdi. Ona görə də Baş nazir gəlmişdi və Baş nazirə tam səlahiyyət verilmişdi ki, orada Gürcüstan Respublikası adından bəyanat versin ki, Gürcüstan Respublikası da Müstəqil Dövlətlər Birliyinə daxil olur. O orada etiraf etdi ki, biz bu məsələni təhlil etmişik, çox geniş müzakirə etmişik və belə bir fikrə gəlmişik ki, Gürcüstan Respublikası indiyə qədər Müstəqil Dövlətlər Birliyindən kənarda qaldığına görə çox uduzubdur, səhv edibdir və indi biz tam olaraq bu fikirdəyik ki, Gürcüstan Müstəqil Dövlətlər Birliyinə daxil olacaqdır.

Müstəqil Dövlətlər Birliyinin başçıları tərəfindən Gürcüstanın Baş nazirinin bu bəyanatı məmnuniyyətlə qəbul olundu. Hətta belə nəticələndi ki, bu çıxışdan sonra artıq keçmiş Sovetlər İttifaqına daxil olan 15 respublikadan 12-si Müstəqil Dövlətlər Birliyindədir, 11-cisi Azərbaycan oldu, 12-cisi Gürcüstan. Artıq tam bildirildi ki, Gürcüstan Müstəqil Dövlətlər Birliyinə daxil olur. Ondan sonrakı hadisələri də siz televiziya vasitəsilə izləmisiniz. Gürcüstanın başçısı Şevardnadze hətta Suxumidə olduğu vaxt bu bəyanatı veribdir, Tiflisə qayıdandan sonra da bunu təsdiqləyibdir.

Keçmiş Sovetlər İttifaqına daxil olan respublikalardan Baltikyanı respublikalar hələ ki, kənardadırlar. Beləliklə, 12 respublika Müstəqil Dövlətlər Birliyinə daxil olur.

Daha kimin nə sualı var? Sual yoxdur. Onda xahiş edərdim ki, münasibət bildirilsin. Kimin çıxış etmək fikri varsa, buyursun. Kamran Rəhimov yazıldı. Mürşüd Məmmədov da orada əlini qaldırıb. Buyurun, Kamran Rəhimov.

**Kamran Rəhimov.** Hörmətli sədr, biz keçən iclasda bunu ətraflı müzakirə eləmişik, Milli Məclis buna öz razılığını verib. Siz də Milli Məclisin verdiyi səlahiyyətə əsasən Moskvaya gedib Müstəqil Dövlətlər Birliyinin dövlət və hökumət başçılarının iclasında iştirak etmisiniz, sənədləri imzalamısınız. Mənə elə gəlir ki, bunu çox müzakirə etməyə ehtiyac yoxdur. Bütün xalq da bunu bəyənir. Hər yerdə, demək olar ki, müzakirələrdə xalq öz rəyini bildirib.

Belə olan halda mənə elə gəlir ki, bunun geniş müzakirəyə heç bir ehtiyacı yoxdur. Bunu səsə qoyub qəbul eləmək lazımdır. Çox sağ olun.

**Sədrlik edən.** Təşəkkür edirəm, amma artıq tabloda siyahı görünür. Yəqin ki, mən söz verməliyəm. İnqilab Nadirov, buyurun.

**İnqilab Nadirov.** Hörmətli sədr, hörmətli millət vəkilləri. Bir aydır ki, Milli Məclis və bütün Azərbaycan xalqı Azərbaycan Respublikasının Müstəqil Dövlətlər Birliyinə olan münasibətini müzakirə edir və bizim hamımız yerlərdə olmuşuq, insanlarla görüşmüşük, heç bir kəsdən mən bunun əks fikrini eşitməmişəm, təkcə iki nəfərdən başqa. Şəxsən mən hansı kollektivlərdə olmuşamsa, adamlarla söhbət aparmışamsa, bütün Azərbaycan xalqının yekdil fikri ondan ibarətdir ki, Azərbaycan Respublikası Müstəqil Dövlətlər Birliyinin üzvü olmalıdır.

Onu deyim ki, hələ 1991-ci ilin iyul ayında burada Ali Sovetin sessiyasında suveren dövlətlər ittifaqı haqqında layihə müzakirə olunarkən mən həmin sessiyada çıxış eləmişdim, həmin layihə ilə əlaqədar 13 təklif vermişdim. 1991-ci il iyulun 10-da “Həyat” qəzetində çıxışımın stenoqrafik yazısı iki sütunda verilmişdi. Onu deyim ki, orada söylədiyim təkliflərin hamısı Müstəqil Dövlətlər Birliyinin Nizamnaməsində öz əksini tapıb. Ona görə də mən bu gün sentyabr ayının 24-də Moskvada imzalanan o sənədlərin səsə qoyulub təsdiq olunmasını təklif edirəm.

Bir təklif də irəli sürmək istəyirəm ki, yoldaş Əliyev, bir aydan artıqdır ki, müzakirə gedir, respublikanın bütün əmək kollektivləri, ayrı-ayrı adamlar bu məsələyə öz münasibətlərini bildiriblər. Mən dəfələrlə Ali Sovetin poçtunda bir çox rəsmi sənədlərlə tanış olmuşam. Ona görə təklif edirəm ki, 3 nəfərdən ibarət deputat qrupu yaradılsın və yaxud da Katibliyə nə qədər sənəd daxil olubsa, o sənədlərin hamısının siyahısı çıxarılsın və rəsmi sənəd kimi bu protokola həmin göndərilmiş sənədlərin siyahısı əlavə olunsun.

Yekun təklifim ondan ibarətdir ki, bu imzalanmış sənədlər səsə qoyulsun və yoldaşları dəvət edirəm ki, hamı yekdilliklə bu sənədlərin təsdiq olunmasına səs versin. Sağ olun.

**Sədrlik edən.** Rəsul Quliyev, buyurun.

**Rəsul Quliyev.** Hörmətli sədr. Bu məsələ, yəqin ki, Milli Məclisdə ən çox müzakirə olunan məsələ olub. Bu, 7-8 saatdan artıq müzakirə edilibdir, çox müvəffəqiyyətlə də Moskva şəhərində həyata keçib. Çünki burada böyük əksəriyyət həm MDB-yə daxil olmağa, həm də o biri qərara qol çəkməyə razılıq verib və Moskvada da bu, qəbul olunub, Siz də imza atmısınız, biz də MDB-yə daxil olmuşuq.

MDB-yə daxil olmadığımız müddətdə Azərbaycan Respublikasının qarşısında bir çox baryerlər qoyulmuşdu. İndi əsas məqsədimiz imzalanmış bu müqavilənin əsasında işimizi davam etdirməkdir, yəni Moskva və başqa respublikalarla əlaqələrimizi qaydasına qoymalıyıq, bu sahədə işləməliyik. Ancaq bu barədə indi yenidən müzakirə açmaq heç məqsədəuyğun deyil. Mən Kamran müəllimin dediyi sözlə razıyam. Xahiş edirik, müzakirələri dayandıraq. Çünki müzakirə eləməyə əsas yoxdur, bu, müzakirə olunub qurtarıb. Səs verək və imzalanmış müqaviləni təsdiq edək. Mən xahiş edirəm, Heydər müəllim, bunu səsə qoyasınız ki, müzakirələr kəsilsin.

**Sədrlik edən.** Mürşüd Məmmədov, buyurun. Mən səsə qoyaram, ancaq Mürşüd Məmmədov...

**Mürşüd Məmmədov.** Hörmətli Heydər müəllim, mənim çıxışım yoxdur, bir sualım var idi, çox təəssüf ki, bir az gecikmiş sual oldu. Siz dediniz ki, kollektiv təhlükəsizlik haqqında sənədə qol çəkdiniz. Mən bilmək istəyirəm ki, bu sənədə əsasən gələcəkdə MDB silahlı qüvvələri Azərbaycanda yerləşəcəkmi və bunların siyasi, hüquqi statusu nədən ibarət olacaqdır?

**Sədrlik edən.** Siz o layihəni oxumusunuz?

**Mürşüd Məmmədov.** Bəli.

**Sədrlik edən.** Orada yazılmır ki, yerləşəcəkdir?

**Mürşüd Məmmədov.** "На внешних границах" yazılıb. MDB dövlətlərinin xarici sərhədlərində yerləşdirilə bilər. Nizamnamədə var.

**Sədrlik edən.** Haradadır o? "Yerləşdirilə bilər", yazılmayıb elə şey.

**Mürşüd Məmməodv.** Xarici sərhədlərini qorumaq məqsədilə yerləşdirilə bilər.

**Sədrlik edən.** Bilirsiniz, birinci, orada elə şey yoxdur. İstəyirsiniz, götürün, o layihəyə bir də baxaq. İkinci, mən Sizə bildirmək istəyirəm, Müstəqil Dövlətlər Birliyinə daxil olan dövlətlər hər bir vaxt hansı ad-

dımı istəsə, onu da ata bilər, orada ümumi bir məcburiyyət yoxdur. Məsələn, mən sizə bu İqtisadi İttifaq haqqında dedim. Türkmənistan dedi ki, mən bunun 3-4 maddəsi ilə razı deyiləm, ona görə də mən buna qol çəkmirəm. Heç kəs də ona bir söz demədi. Ona görə də bu müqavilələrdən siz əmin ola bilərsiniz. Şəxsən mən belə fikirdəyəm ki, bütün bu müqavilələrdən biz Azərbaycanın suverenliyinə toxunulmamaq şərtilə istifadə edəcəyik. Mən belə fikirdəyəm. Səsə qoyum? Başqa yazılanlardan çıxış etmək istəyən, sualı olan yoxdur? Yaxşı, onda bir-bir səsə qoyulacaq. Bəli. Birinci məsələ, bizim nümayəndə heyətinin nəticələri haqqında qərar layihəsi var, paylanıb sizə. Bu qərar layihəsini mən səsə qoyuram, xahiş edirəm, münasibət bildirilsin.

***(Səsvermə)***

8 nəfər əleyhinədir, 1 nəfər bitərəfdir. Qəbul edildi. Müstəqil Dövlətlər Birliyinin Nizamnaməsinə Azərbaycan Respublikasının qoşulması, təsdiqi haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı. İkinci məsələ haqqında. Bu qərar layihəsini səsə qoyuram. Xahiş edirəm, münasibət bildirilsin.

***(Səsvermə)***

Qəbul edildi.

Müstəqil Dövlətlər Birliyinin üzvü olan dövlətlərin Kollektiv təhlükəsizlik haqqında müqaviləsinə Azərbaycan Respublikasının qoşulmasının təsdiqi haqqında. Bu qərar səsə qoyulur, xahiş edirəm, münasibət bildirilsin.

***(Səsvermə)***

Qəbul edildi. İqtisadi İttifaqın yaradılması haqqında müqavilənin təsdiqi barədə. Xahiş edirəm, münasibət bildirilsin.

***(Səsvermə)***

Qəbul edildi. Bizim Moskva səfərimizlə əlaqədar və orada qəbul olunmuş, imza atılmış sənədlərlə bağlı məsələləri müzakirə etdik və qərarlar da qəbul edildi. Beləliklə, Azərbaycan Respublikasının Müstəqil Dövlətlər Birliyinə daxil olması haqqında qərar qəbul edildi. Azərbaycan Respublikasının Müstəqil Dövlətlər Birliyinin Nizamnaməsini qəbul etməsi təsdiq olundu. Azərbaycan Respublikasının Müstəqil Dövlətlər Birliyinin Kollektiv təhlükəsizlik haqqında müqaviləsinə qoşulması təsdiq edildi və Müstəqil Dövlətlər Birliyinin İqtisadi İttifaq haqqında qəbul etdikləri Müqavilə Azərbaycan parlamenti tərəfindən təsdiq edildi. Bu

məsələləri biz müzakirə etdik. Ancaq burada əleyhinə səs verənlər də var. Bir nəfər səs vermədi. Bu, təbii haldır. Hər bir parlament üzvünün öz mövqeyi var, öz fikri var. Ona görə də mən heç kəsə heç nə demək istəmirəm və bu da düzgün olmaz. Ancaq mən özüm üçün bir şeyi aydınlaşdırmaq istəyirəm. Məsələn, mən deyirəm ki, Azərbaycan Respublikasının Müstəqil Dövlətlər Birliyinə daxil olması, bütün bu sənədlərə imza atması Azərbaycan Respublikası üçün heç bir zərər gətirmir. Bizim üçün ən mötəbər olan, ən əziz olan, ən dəyərli olan müstəqilliyimizdir. Buna heç bir zərər gətirmir. Mən düşündüm, axı heç kəs mexaniki olaraq bu işə yanaşmır, o cümlədən şübhə etmirsinizsə, mən də bu işə kor-koranə yanaşmıram. Bu, çox böyük, tarixi əhəmiyyətə malik olan məsələdir. Bunu min dəfə ölçüb-biçirsən, xeyrini, zərərini yoxlayırsan. Çünki Azərbaycan müstəqil dövlətdir. Hər bir addımını ölçüb-biçməlidir. Bunların hamısının nəticəsində keçən dəfə də dedim, bu gün də dedim, birlikdə olmadığımız dövrdə nə udmuşuq, nə də uduzmuşuq. Mən hesab edirəm ki, heç bir şey uduzmamışıq və bir də qeyd edirəm ki, biz bu birlikdən savayı, başqa hansı birlikdəyik? Dünyada elə bir dövlət var ki, birlikdə olmasın və çox yaxşı da yaşasın? Xüsusən bizim dövlət kimi kiçik dövlət. Buna görə də mən, sadəcə olaraq – artıq qərarlar qəbul olunub – özüm üçün aydınlaşdırmaq istəyirəm, bunun əleyhinə olan adamlar nəyə görə əleyhinədirlər. Qərar qəbul olunub. Amma mən özüm üçün aydınlaşdırmaq istəyirəm. Bəlkə, biz bir səhv edirik, axı nəyə görə? Burada bizim zərərimiz nədir? Müstəqilliyimiz var, müstəqilliyimizi heç kəs əlimizdən ala bilməz.

Bir də mən sizə açıq deyim, bir biz yox, elə bilirsiniz, Qazaxıstan kimi bir dövlət öz müstəqilliyini əlindən verər? Özbəkistanın 20 milyon əhalisi var, böyük ərazisi var, böyük iqtisadi potensialı var, müstəqilliyini əlindən verə bilər? Türkmənistanın 450 min kvadrat-kilometr ərazisi var, 4 milyona qədər əhalisi var, böyük təbii sərvətləri var. Əgər təbii sərvətlər haqqında danışsaq ki, nə vaxt, haradan gedib, məsələn, Türkmənistan kimi respublikadan o vaxt mərkəzə çox gedən olmayıb. Oradan 75 milyard kubmetr qaz çıxıb və yüz illik ehtiyatları var. Türkmənistan özü, ola bilər ki, 5 milyard kubmetr də istifadə eləyir, qalanının hamısını satır. Özü də çox baha qiymətə satır, hamısını da dollarla satır. İndi bunu başqa dövlətə verərmi? O, müstəqilliyini əlindən verərmi? Dünyasında verməz.

Ukrayna kimi böyük bir dövlət müstəqillik əldə edib. Özü də biz Rusiyaya İranla Rusiyanın arasında gedən müharibə nəticəsində girmişik. İndi gəlin, açıq danışaq. İndi bizim dilimizə düşüb, deyirik ki, bizi işğal

elədilər, əlimizdən aldılar. Yəni işğal elədilər? Biz o vaxta qədər İranın tərkibindəydik, müharibədən sonra da "Gülüstan" və "Türkmənçay" müqavilələrinə görə keçdik Rusiyaya. Yəni biz o vaxta qədər müstəqil dövlət idik? Yox. İran dövlətinin tərkibindəydik, sonra da keçdik Rusiyanın tərkibinə. Müstəqilliyimizi indi əldə eləmişik.

370 il bundan əvvəl Ukrayna Rusiyaya birləşib. Özü də kökləri də bir millətdir. Amma indi 50 milyon əhalisi olan, böyük iqtisadi potensialı olan, böyük bir ərazisi olan Ukrayna kimi dövlət öz müstəqilliyini verərmi? Verməz. Ona görə də yenidən sovet imperiyasının, Sovet İttifaqının bərpası xülyadır. Biz Moskvada təyyarə meydanından enən kimi – ora bizimlə bir yerdə gedən şəxslər də buradadır – dərhal aeroportda mənə İTAR-TASS-ın müxbiri yanaşdı, bizim Müstəqil Dövlətlər Birliyinə girməyimiz haqqında sual verdi. Mən ona dedim ki, bəli, biz Müstəqil Dövlətlər Birliyinə daxil olmaq fikrinə gəlmişik. Ancaq Moskvada əhvali-ruhiyyə var ki, Sovetlər İttifaqı bərpa olunsun, yaxud köhnə rejim bərpa edilsin, biz bunun əleyhinə olmuşuq və əleyhinəyik. Heç vaxt Sovetlər İttifaqının bərpa olunmasına razı ola bilmərik, Rusiyanın imperiya olmasına imkan verə bilmərik, bir daha biz başqa bir birliyə daxil ola bilmərik. Bunu mən dəfələrlə demişəm, bu mənim fikrimdir. Burada da otursam, orada da otursam, harada da olsam, ömrümün axırına kimi bu mənim fikrimdir. Ona görə də kimsə bu təhlükəni duyursa, mən bu təhlükəni duymuram. Çünki yenə deyirəm, bu dövlətləri ki birləşdirmişdilər, 1922-ci ildə hamısı birləşməmişdi, 4 dövlət birləşmişdi – Rusiya, Ukrayna, Belorusiya, Zaqafqaziya, ondan sonra proseslər getmişdi. 1936-cı ildə bu respublikalar yarandı – 12 respublika. Müharibədən sonra, yaxud 1940-cı ildə 15 respublika oldu, 3 də əlavə. Bu proseslər başqa bir tarixi dövrdə yaranmış proseslərdir. İndi isə dünyada dövlətlər müstəqilləşir, dünya parçalanıb, imperiyalar dağılıb, Böyük Britaniya imperiyası kimi imperiya dağılıb. Amma Böyük Britaniya imperiyasına daxil olan keçmiş müstəmləkələr indi Britaniya Millətlər Birliyinin üzvləridir. O nə Hindistanın, nə Kanadanın müstəqilliyinə heç bir maneçilik etmir. Baxmayaraq ki Avstraliyada Böyük Britaniyanın kraliçası oranın dövlət başçısı hesab olunur. Amma bu onların müstəqilliyinə zərər vermir. Onlar da müstəqil dövlətlərdir.

Mən dövlət başçısıyamsa, yaxud dövlət başçısı vəzifəsini yerinə yetirə bilirəmsə, imkan verərəm ki, bundan sonra bir ittifaq olsun? İttifaqda kimsə mənim başımın üstündə olsun, şəxsi nöqteyi-nəzərdən deyirəm, gəlsin, təlimat versin ki, bu işi niyə belə elədin, bu işi niyə elə elədin... İndi azad olmuşuq, sərbəstik, bu sərbəstliyimizi əlimizdən verə bilərik-

mi? Niyə əleyhinə səs verənlər güman edir ki, onlar bu sərbəstliyi əldən vermək istəmirlər, mən vermək istəyirəm. Mən onlardan da çox sərbəst olmamağın əzab-əziyyətini çəkmişəm, mən onları görmüşəm. Eləcə də onu Qazaxıstanın bugünkü başçısı görüb, Özbəkistanın bugünkü başçısı görüb, Ukraynanın bugünkü başçısı görüb. Bir başçıları yox. Dövlət bir başçıdan ibarət deyil ki, dövlət bu parlamentdir, dövlət bu xalqdır, dövlət orqanlarında işləyən və məsul vəzifələr aparan şəxslərdir. Ona görə də mən burada təbliğat nöqteyi-nəzərdən, kiməsə təzyiq göstərmək nöqteyi-nəzərdən demirəm. Mən, sadəcə olaraq, özüm üçün anlamaq arzusu ilə yenə bu söhbəti açıram ki, axı bunu başa düşə bilmirəm, mən dünyanın çox hissəsini görmüş adamam, o dövrü də görmüş adamam, bu dövrü də görmüş adamam. İnanın buna, mən bu gün parlament qarşısında da deyirəm, xalqın qarşısında da deyirəm, bütün Azərbaycan millətinin qarşısında da deyirəm, mən dünyasında qoymaram ki, imkanlarım olan yerdə Azərbaycan bir də öz müstəqilliyini itirsin, bir də bir ittifaqa girsin, kiminsə müstəmləkəsi olsun, kiminsə əlaltısı olsun. Mən buna dünyasında razı ola bilmərəm. Eləcə də başqa vətəndaşlar kimi, Məclisin üzvləri kimi.

Ancaq müxtəlif ittifaqlarda olmaq heç də müstəqilliyi itirmək deyil. Bunlar ancaq və ancaq Azərbaycana, ittifaqa daxil olan hər bir dövlətə xeyir gətirir.

Mən hər bir nüansı burada açıb demək istəmirəm, buna ehtiyac da yoxdur, bu, parlamentdir. Məsələn, o gün məndən savayı, nümayəndə heyətinin üzvləri də gördülər, şəxsi əlaqələr, şəxsi danışıqlar, şəxsi münasibətlər çox böyük məsələlərin sadə yolla həll olunmasına imkanlar yaradır. Bu imkanlar da bu ittifaqın içindədir. Məsələn, gələn iclas noyabr ayında Aşqabadda təyin olunub. İki aydan sonra biz Aşqabadda yığışacağıq. O vaxta qədər bir çox məsələlər həll olunacaq. O vaxta qədər biz, şübhəsiz ki, bir çox məsələləri həll edəcəyik. O şeyləri ki həll eləmədik, orada iclaslarda həll eləyə bilərik, şəxsi görüşlərdə həll eləyə bilərik. Məsələn, Özbəkistanla Azərbaycan arasında hava yollarının kəsilməsi Azərbaycana nə xeyir gətirir? Özbəkistanın rəhbərliyi ilə Azərbaycanın rəhbərliyi arasında nəyə görə düşmən münasibət olsun? Nəyə görə? Nə var, nə var ki, Özbəkistan rəhbərliyinin siyasəti Azərbaycanın rəhbərliyinin siyasətinə uyğun gəlmir. Axı ola da bilməz. Bu parlamentdə olan adamların bəzilərinin dünyagörüşü, dünyaya baxışı, yaxud da siyasi məsələlərə münasibəti mənimki ilə uyğun gəlmir. Bu o demək deyil ki, biz düşmən olmalıyıq. Əlaqəmiz də olmalıdır, bir yerdə əməkdaşlıq da

etməliyik. İndi əgər İslam Kərimovun apardığı siyasət Əbülfəz Elçibəyin siyasətinə uyğun gəlmirsə, bu o demək deyil ki, iki böyük dövlət bir-birindən uzaqlaşmalıdır. Bu iki dövlət arasında olan tarixi, ənənəvi əlaqələrdən iqtisadi, mədəni, insani əlaqələr qurulmalıdır. Mən dəfələrlə Özbəkistanda olmuşam, nə qədər orada azərbaycanlı yaşayır. Elə Daşkəndin özündə, rəhbər vəzifələrdə nə qədər azərbaycanlı var. Vaxtilə bizim Özbəkistanla yaxşı əlaqələrimiz nəticəsində, rəhmətlik Şərəf Rəşidovla mənim şəxsi əlaqələrim nəticəsində Daşkəndin yaxınlığında yeni bir şəhər saldılar, adını qoydular Nərimanovabad. Bu nə cür oldu? Elə birdən-birə onların beyninə gəlmədi ki. Əlaqələrimiz vardı, nümayəndələrimiz gedirdi, gəlirdi, münasibətlərimiz var idi. Bir gün rəhmətlik Şərəf Rəşidov təşəbbüs göstərdi, telefon danışığında dedi ki, Daşkəndin yaxınlığında böyük bir zavod tikirik, onun ətrafında da şəhər olacaq. İstəyirik ki, Azərbaycanla Özbəkistanın əlaqəsinin daha möhkəm olması üçün ora bir Azərbaycan adı verək, nə məsləhət görürsünüz? Dedim, mən bunu çox böyük məmnuniyyətlə qəbul edirəm. Yaxşı olar ki, şəhərin adını Nərimanov qoyun. Mən də bilirdim ki, Nəriman Nərimanov Moskvada işlədiyi müddətdə şərq millətləri ilə çox böyük əlaqələri olub. Bəlkə, bunu çoxları bilmir ki, Nəriman Nərimanovun adı Azərbaycanda bütün yerlərdən silinəndə də Özbəkistanda onun adına məktəblər, kolxoz və sovxozlar qalırdı. Nəriman Nərimanovun adı buradan hər yerdə silindiyi halda Həştərxan vilayətində Nəriman Nərimanov adına rayon var idi, bunların hamısını bilirdim. Ona görə də mən başqa ad demədim. Demədim ki, Nizami, Füzuli qoy, dedim, Nərimanov qoy, o orada daha çox tanınan adamdır. Çünki o dövrdə, 1917–1920-ci illərdə Nəriman Nərimanovun Şərq ölkələri ilə, o millətlərlə çox əlaqəsi olmuşdu, orada da çox hörmətli şəxs idi. Şəhərin adı Nərimanovabaddır.

Yaxşı, belə münasibətlər olan halda orada azərbaycanlılar yaşayır. Düzdür, burada özbək yoxdur, bəlkə də, var. Amma Özbəkistanda, Türkmənistanda azərbaycanlı çoxdur. Belə halda niyə gərək respublikalarla əlaqələrimizi pozaydıq, bir azərbaycanlı Daşkənddən, yaxud da Özbəkistanın bir şəhərindən Bakıya gəlmək üçün gərək getsin ya Moskvadan uçsun, yaxud da getsin Aşqabaddan uçsun. Nəyə görə? Rəhbərlər bir-birinə xoş gəlmir. Onun özünün daxili siyasəti var, bizim özümüzün daxili siyasətimiz var. Ancaq bizim əlaqələrimizin pozulmasına heç nə səbəb olmamalıdır. Bu baxımdan həmin İslam Kərimov, yaxud Nursultan Nazarbayev çox böyük daxili məhəbbət hissi ilə Azərbaycanın Müstəqil Dövlətlər Birliyinə daxil olmasını qarşıladılar. Axı bizim belə tarixi

əlaqələrimiz var, dini birliyimiz var, milli köklərimiz birdir. Belə olan halda niyə Müstəqil Dövlətlər Birliyində 4 Orta Asiya dövlətidir, 5-ci də Qazaxıstan, 5 dövlət var. Onlar bizə tarixən çox yaxın olan millətlər olublar, bunlarla niyə birlikdə olmayaq. Ona görə də mən bu söhbəti, ola bilər, heç açmayaydım da. Ancaq bəzi mövqeləri anlaya bilmədiyimə görə bunu dedim.

Eyni zamanda yenə deyirəm, əgər Azərbaycan bizim üçün faydalı digər bir ittifaqda olmuş olsaydı, şübhəsiz ki, burada müqayisə etmək olardı ki, bizə bu ittifaqda olmaq yaxşıdır, yaxud o birisi ittifaqda. Amma başqa bir ittifaq yoxdur, biz Avropa Dövlətlər Birliyinə girə bilmərik, NATO birliyinə girə bilmərik. Başqa da elə birlik yoxdur. İslam dövlətləri birliyi var, amma o birlik də o qədər güclü birlik deyil. İndi belə bir birlik var, o da bizim yaşadığımız ərazinin dövlətlərinin, indi müstəqillik almış dövlətlərin birliyidir. Belə halda bizim kənarda qalmağımız düzgün deyildir və indi də yenə bəzi adamların bu işə mənfi mövqeyi mənim üçün aydın deyil. Allah eləsin, gələcək bu məsələləri bizim üçün aydınlaşdırsın. Gələcək göstərsin ki, hansı yol daha doğru imiş, hansı yolla getməliyik.

Gündəliyin beşinci məsələsi Moskvada Ermənistan Respublikasının prezidenti Levon Ter-Petrosyanla mənim görüşüm haqqındadır. Belə bir görüşə ehtiyac var idi. Bilirsiniz ki, mən parlamentə daim məlumat verirəm ki, müharibə ilə əlaqədar olaraq, bizim torpaqların işğalı ilə əlaqədar olaraq biz Ermənistan Respublikasının başçıları ilə və ilk növbədə, Ermənistan Respublikasının prezidenti ilə son vaxtlar telefon əlaqələri saxlayırıq. Biz birliyə daxil olduğumuza görə orada həm Levon Ter-Petrosyan tərəfindən, həm də mənim tərəfimdən belə bir fikir meydana çıxdı ki, bizim görüşüb söhbət etməyimizə ehtiyac var. Biz görüşdük, söhbət etdik. Təkbətək görüşdük, heç kəs iştirak etmədi. O cümlədən mən çatdırmaq istəyirəm ki, Rusiya dövləti tərəfindən heç kəs bu görüşdə iştirak etmədi. Söhbətimizin qısa məzmunu ondan ibarət oldu, mən onlara başa saldım ki, sizin işğalçılıq hərəkətləriniz, güman etməyin ki, elə daim davam edə bilər. Hər şeyin sonu var, hər şeyin qurtaracağı var. Bu işğalçılıqdan əl çəkmək lazımdır, işğal olunmuş torpaqlardan çıxmaq lazımdır və məsələlərin indi sülh yolu ilə həll olunması üçün imkanlar əldə etmək lazımdır. Bu baxımdan həm Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qərarlarının, qətnamələrinin yerinə yetirilməsi, həm ATƏM təşkilatının, Minsk qrupunun qərarlarının yerinə yetirilməsi, həm də Amerika Birləşmiş Ştatları, Rusiya və Türkiyənin təşəbbüslərinin yerinə yetirilməsi ilə əlaqədar olan

tədbirlərin həyata keçirilməsi məsələsini onun qarşısında qoydum. Eyni zamanda bildirdim ki, düzdür, müharibə davam edib, bizim tərəfimizdən çox qurbanlar verilib, torpaqlarımız işğal olunub, ancaq biz indi müharibənin dayandırılmasının tərəfdarıyıq, sülh danışıqlarının aparılmasının tərəfdarıyıq, sülh yolu ilə məsələnin həll olunmasının tərəfdarıyıq. İşğal olunmuş torpaqlardan, şübhəsiz ki, Ermənistan silahlı qüvvələrinin çıxarılmasını tələb edirik. Mənim danışarkən mövqeyim bundan ibarət oldu.

Ermənistan prezidenti Levon Ter-Petrosyan bildirdi ki, onlar da məsələnin sülh yolu ilə həll olunmasının tərəfdarıdırlar. Düzdür, onun telefon danışıqlarında da, indi bizim şəxsi görüşümüzdə də məsələlərin əksəriyyətini onlar Dağlıq Qarabağın üzərinə atırlar. Onlar bildirmək istəyirlər ki, müharibəni edən ancaq Dağlıq Qarabağın qüvvələridir, Dağlıq Qarabağ özünü müdafiə edir. Ancaq bunların hamısının məntiqsiz olmasını, şübhəsiz ki, sübut etmək o qədər də çətin deyil. Mən bildirdim ki, Ermənistan olmasa, Ermənistanın yardımı olmasa, Ermənistanın bu işlərdə iştirakı olmasa, Ermənistandan kənarda olan qüvvələrin Ermənistana köməyi olmasa, şübhəsiz ki, bu müharibədə vəziyyət bu şəklə gəlib çıxmazdı. Ona görə də tezliklə işğal olunmuş torpaqlardan erməni silahlı qüvvələrinin çıxmasını mən tələb etdim. Onlar isə şərt qoyurlar ki, Dağlıq Qarabağın, Ermənistanın blokadası götürülməlidir. Mən, şübhəsiz, dedim ki, blokadanın götürülməsi üçün şərait yaradılmalıdır. Əgər Ağdam rayonu işğal altındadırsa, hansı blokadanın götürülməsindən söhbət gedə bilər. Birinci növbədə, gərək Ağdam şəhərindən və Ağdamın işğal olunmuş kəndlərindən erməni silahlı qüvvələri çıxsın, ondan sonra blokadanın götürülüb-götürülməməsi haqqında söhbət gedə bilər. Yaxud da Qubadlı rayonundan bəyanat verilmişdi ki, Ermənistanın silahlı qüvvələri çıxmalıdır. İndiyə qədər çıxmayıblar. Ona görə blokadanın götürülməsi haqqında söhbət gedə bilməz. Füzuli, Cəbrayıl, eyni zamanda Kəlbəcər, Laçın və Şuşanın geri qaytarılması, ümumiyyətlə, Dağlıq Qarabağ probleminin həll olunması.

Söhbətimiz ətraflı oldu. O öz fikirlərini söylədi, mən öz fikirlərimi söylədim. Biz Azərbaycanın nümayəndələri Dağlıq Qarabağda olan qüvvələrin nümayəndələri ilə razılığa gəlmişdik ki, atəş oktyabr ayının 5-nə qədər dayandırılsın. İndi isə belə qərara gəldik ki, atəşkəsin vaxtı bir ay da uzadılsın, yəni oktyabr ayının 5-dən noyabr ayının 5-nə qədər. Bu müddətdə danışıqlar aparılsın və danışıqlar əsasında tədricən işğal olunmuş torpaqlardan Ermənistan silahlı qüvvələri çıxsın

və başqa məsələlər də danışıqlar, sülh yolu ilə həll olunsun. Biz belə razılığa gəldik. Bu məsələlərdə Rusiya xarici işlər naziri vasitəçilik rolu oynayır. Ancaq eyni zamanda Ermənistan prezidenti də, mən də belə fikir bildirdik ki, bu məsələlərin həllində əvvəlki kimi beynəlxalq təşkilatlar iştirak etməlidirlər, Birləşmiş Millətlər Təşkilatı və xüsusən ATƏM, Minsk qrupu iştirak etməlidir və onların iştirakı ilə bu məsələlər həll olunmalıdır.

Mən hesab edirəm ki, bizim görüşümüzün əsas nəticəsi bir ay müddətində atəşkəsin davam etdirilməsidir. Qalan məsələlər isə, şübhəsiz ki, bir ay müddətində bizim apardığımız tədbirlərdən asılı olacaqdır. Güman edirəm ki, Məclis üzvləri bizim söhbətimiz haqqında müsbət münasibət bildirməlidirlər. Çünki atəşin indi davam etdirilməsi heç vəchlə əlverişli deyil. Buna görə də atəşin bir ay müddətində də kəsilməsi və bu vaxtda sülh danışıqlarının aparılması indiki yaranmış vəziyyətin zəruriyyətindən doğan bir addımdır və bu addımı da biz atmışıq. Məlumat bu qədər. Mən daha bu barədə geniş məlumata ehtiyac duymuram. Əgər bu barədə sual varsa, buyurun. Sualınız yoxdur ki?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Bəli? Buyurun, Mürşüd müəllim.

**Mürşüd Məmmədov.** Hörmətli Heydər müəllim. Sözsüz ki, Siz o söhbətlərin bütün aspektlərinə burada toxuna bilməzsiniz, yəni parlamentdə, ola bilsin ki, o məsələlərin hamısına toxunmaq mümkün də deyil. Məni bir məsələ maraqlandırır ki, bu söhbətlərdə Dağlıq Qarabağ Respublikası deyilən qondarma qurumun ətrafında, onun statusu ətrafında söhbət getdimi və bu söhbətlər hansı siyasi aspektlər ətrafında getdi, yəni o, israr edirdimi ki, belə bir qurum var və bu qurumu Azərbaycan tərəfi tanımalıdır? Bir də işğal olunmuş torpaqların boşaldılması ətrafında söhbətlərin istiqaməti, gələcəyi barədə nə kimi fikir mübadiləsi aparıldı, yəni bu işğal olunmuş torpaqlar nə vaxt boşaldılacaq, hansı şərtlərlə boşaldılacaq?

**Sədrlik edən.** Bu söhbətdə də, bundan əvvəl apardığımız danışıqlarda da biz heç vaxt Dağlıq Qarabağ dövlətini, yaxud da belə bir dövlət qurumunu tanımamışıq, tanımırıq və bu barədə heç bir söhbət getməyib. Dağlıq Qarabağın gələcək statusu haqqında da heç bir söhbət getməyibdir və mən heç kəslə heç bir söhbət aparmamışam. Düzdür, belə suallar çox vaxt kütləvi informasiya vasitələrinin nümayəndələri tərəfindən, xarici müxbirlər tərəfindən olub. Siz müşahidə etmisiniz ki,

mən o suallara birmənalı cavab verirəm ki, biz belə bir dövlət qurumunu tanımırıq, bu barədə söhbət ola bilməz.

**Mürşüd Məmmədov.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Yox. Mən Sizə tam səmimiyyətlə deyə bilərəm. Ter-Petrosyan bu barədə söhbət qaldırmayıbdır və bu barədə bizim söhbətimiz də olmayıbdır. İndi bəzi müxalifətdə olan mətbuat, filan yayırlar ki, nə bilim, danışıqlar ondan ibarətdir ki, nə bilim, Şuşa əldən getdi, Laçın əldən getdi... Bilirsiniz, bunlar boş söhbətlərdir. Gəlin görək, xırda-xırda bu itmiş torpaqlarımızın hansını qaytara bilirik, hansını qaytara bilmirik. Bu gün kim qərar verə bilər ki, hə, bunu biz qaytarırıq, bunu biz qaytarmırıq. Bu necə olar? Əsas söz ondan ibarətdir, bunu dəfələrlə demişəm, Azərbaycan Respublikasının tam ərazi bütövlüyü və beynəlxalq təşkilatların bütün qərarlarında Azərbaycan Respublikasının bu hüdudları və o hüdudların toxunulmazlığı qəbul edilib. Bu haqda istəsəniz Həsən Həsənov daha geniş məlumat verə bilər, çünki o, Birləşmiş Millətlər Təşkilatında bir il yarım fəaliyyət göstərib, bilir bunu. Bütün sənədlərdə bu yazılıb. Ona görə də bu, müzakirə olunmur, bu, müzakirə mövzusu deyil. Bizim bu görüşümüzdə əsas müzakirə mövzusu işğal olunmuş torpaqlardan onların çəkilməsidir. Ona görə də atəşkəsin davam etdirilməsi və danışıqların aparılmasıdır. O işğal olunmuş torpaqlardan nə cür, nə vaxt çəkiləcəklər, bu, çox mürəkkəb məsələdir. Mən sizə deyirəm, asan məsələ deyil. Burada gərək biz çox intensiv danışıqlar aparaq, lazımi tədbirlər görək. Güman edirəm ki, bu müddətdə biz bu tədbirləri görəcəyik və danışıqları da aparacağıq.

Firudin Cəlilov, buyurun.

**Firudin Cəlilov.** Heydər bəy, o danışıqlarda bəzən rəqəmlər səslənir. İstəyirdim Sizin diqqətinizi o rəqəmlərə çəkim. Deməli, Qarabağ hadisələrindən qabaq Qarabağ ərazisində yaşayan azərbaycanlılarla ermənistanlıların faizi məsələsi. Çox yerdə 70-30 rəqəmi deyilirdi. O dövrdə, hələ 1987-ci ildə biz kiçik bir araşdırma apardıq. Deməli, Stepanakertdə qeydiyyatda olan ermənilərin xeyli hissəsi Ermənistanda yaşayan ermənilər idi. Hərəsinin iki pasportu var idi. Hətta Bakıda yaşayanları da orada süni surətdə qeydiyyata saldırıb demoqrafik rəqəmləri çoxaltmışdılar. Təxminən müəyyən işlər aparılandan sonra bu rəqəm yüksəlmişdi, hətta 1988-ci ilin ortalarında təxminən 35-65 faiz idi. Amma bu da, yəni ruslar demişkən, "lipovı" rəqəm idi. Ən dəqiq o faizi müəyyənləşdirmək üçün biz orta məktəblərdə oxuyan şagirdlərin sayını öyrəndik. Təxminən indi yadımda deyil, 11 min – 13 min, yaxud 13 min – 15

min nisbətində idi. Əhalinin dəqiq sayını da məktəb şagirdlərinin sayı ilə bilmək olar. Demək istəyirəm ki, o danışıqlarda bir az rəqəmləri, heç olmasa, həyati obyektivliyə yaxın rəqəmlərlə uyğunlaşdıraq. Sağ olun.

**Sədrlik edən.** Bilirsiniz, indi bu rəqəmləri tam dəqiq demək çətindir. Bəli, 70-30 faiz, bu rəqəm bəzi yerlərdə belə işlənib, bu statistika ilə əlaqədar olandır. Amma indi kim orada pasport qeydiyyatında olub, olmayıb, bunlar qeyri-rəsmi məlumatlardır. Ancaq indi söhbət ondan getmir. Söhbət ondan gedir ki, birinci növbədə, Azərbaycan ərazisində olan bu işğal edilmiş torpaqlardan Ermənistan silahlı qüvvələri çıxsın, ondan sonra görək harada azərbaycanlı çox olubdur, harada erməni çox olubdur, bunları sonra araşdıracağıq. İndi bu torpaqlardan o silahlı qüvvələri çıxarmaq lazımdır, işğal olunmuş torpaqları azad eləmək lazımdır.

Başqa sual yoxdur? Onda bu barədə qərar layihəsini mən səsə qoyuram, xahiş edirəm, münasibət bildirilsin.

***(Səsvermə)***

Qəbul edildi.

Lehinə 39 nəfər, əleyhinə 1 nəfər, bitərəf 4 nəfər.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Bəli. Bu barədə? Buyurun.

**Sabir Rüstəmxanlı.** 2-ci maddədə yazılır ki, Azərbaycan Respublikası Prezidentinin səlahiyyətini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əliyevə tövsiyə edilsin ki, Azərbaycan Respublikasının Ermənistanla sərhədlərində və Dağlıq Qarabağda döyüş əməliyyatlarına son qoyulması... Bu dəqiqə Dağlıq Qarabağda döyüş əməliyyatları getmir və bütün parametrlər boyu, bütün istiqamətlərdə Dağlıq Qarabağdan bir rayon – Azərbaycan rayonu, yəni azərbaycanlılar yaşayan rayon zəbt olunub. Ona görə Dağlıq Qarabağda döyüşdən söhbət gedə bilməz. Söhbət Azərbaycan ərazisində döyüşdən gedir.

**Sədrlik edən.** Buna baxmaq lazımdır. Ola bilər, doğrudan da, bəzi redaksiya dəyişikliyi olsun. Sabir Rüstəmxanlının təklifinə görə bu mətnə baxılsın. Başqa bir əlavə yoxdur? Yaxşı. Onda qəbul olundu. Növbəti məsələ 1993-cü il üçün Azərbaycan Respublikasının büdcəsinin inflyasiya səviyyəsinin uyğunlaşdırılmasının zəruriyyəti haqqındadır. İqtisadi siyasət komissiyası. Buyurun.

**Cümşüd Nuriyev.** Hörmətli sədr, hörmətli millət vəkilləri. Bildiyiniz kimi, "1993-cü ilin dövlət büdcəsi haqqında" Qanun Milli Məclisdə uzun müzakirələrdən sonra may ayında qəbul olunmuşdur. Lakin həmin büdcə Prezident tərəfindən imzalandığına görə və həmin büdcədə inflyasiya nəzərə alınmadığına görə, habelə büdcə qəbul olunandan sonra bir sıra Prezident fərmanları verildiyinə görə, o vaxt təqdim olunmuş həmin büdcədə müəyyən dəyişikliklər etməyi qərara almışıq. O dəyişikliklər fərmanlara uyğun olaraq Maliyyə Nazirliyi ilə birgə işlənib, İqtisadi siyasət və Büdcəyə nəzarət komissiyalarında baxılıb və qərar layihəsi sizə təqdim olunub. Qısaca, mən fərmanların adını sizə deyim, xatırladım ki, bu, iyunun 7-dəki 635 saylı fərmandır. Azərbaycan Respublikasının hərbi qulluqçularının əməyinin ödənilməsinin vahid tarif cədvəlinin tətbiqi haqqında. Habelə iyunun 7-də və iyunun 29-da dövlət aparat idarəetmə orqanlarının əmək haqqının artırılması. Avqustun 19-da 722 saylı fərmanlara uyğun olaraq dövlət büdcəsində müəyyən düzəlişlər olunmuşdur.

Büdcə kəsirinə dəyişikliyin olunmasının əsas səbəbi bir də ondan ibarətdir ki, bu il ərzində nəzərdə tutulan dövlət büdcəsi əgər il ərzində 3,6 milyard manat və yaxud 36 milyard rubl qəbul olunmuşdusa, artıq Milli Bank Maliyyə Nazirliyinə hesabları açmır. Ona görə son üç ayda Azərbaycanda əmək haqqının ödənilməsində böyük gərginlik yaranıb və bu addım məcburi addımdır. Çünki bunlar əvvəlki büdcədə nəzərə alınmamışdı.

Bildiyiniz kimi, Milli Bank birbaşa Ali Sovetin səlahiyyətindədir. Lakin verilən fərmanlara əsasən hökumət nəzarət edir və hökumətin də səlahiyyətləri olmadığına görə bu, Milli Məclis tərəfindən qəbul olunmalıdır. Biz Milli Banka göstəriş verməliyik, həm də büdcə kəsiri müəyyən olunmalıdır ki, həmin büdcə kəsiri daxilində Maliyyə Nazirliyinə hesablar açılsın və həmin əmək haqları ödənilsin.

Bu sosial gərginliyi aradan qaldırmaqdan ötrü belə bir qərar layihəsi hazırlanıb sizin müzakirənizə təqdim olunmuşdur. Xahiş edərdim ki, həmin qərar layihəsi ilə bağlı əgər suallar olsa, mən cavab verməyə hazıram.

**Sədrlik edən.** Sual var? Buyurun.

**Qalib Qurbanov.** Birincisi, deyirlər ki, İqtisadi siyasət komissiyasının iclasında baxılıb. Ancaq mən hər gün işdəyəm. Bu komissiyada baxılmayıb. Bəlkə, mən olmayanda baxılıb?

**Cümşüd Nuriyev.** Ola bilər, Qalib müəllim.

**Qalib Qurbanov.** Bilmirəm, nə vaxt baxılıb və kim baxıb. İkincisi, Heydər müəllim, mən bunu belə qəbul etməyin qəti əleyhinəyəm. Çün-

ki burada göstərilməyib ki, bu xərclər niyə artır, hansı sahələrdə, hansı nazirliklərdə. Bunların qarşısını nə cür almaq olar? Burada belə üstüörtülü iki kəlmə danışdı, bunu qəbul elədik, bu xərclər yenə ilin axırınacan artar. Bunun səbəblərini biz araşdırmalıyıq. İkincisi, burada...

**Yerdən.** *(Eşidilmir.)*

**Qalib Qurbanov.** Mən saat 9-dan buradayam, sən burada ayla olmursan. Bəsdir, sənədləri gizlədə-gizlədə...

**Cümşüd Nuriyev.** Qalib müəllim, xahiş edirəm, əsəbiləşməyin. Bir suala da cavab verim ki, Sizin işdə olub-olmamağınızı mən qeydə almıram və bilmirəm, nə vaxt komissiyanın iclasında olmamısınız.

İkinci sualınıza cavab verim. Mən 4 fərmanı elə-belə saymadım. Əvvəldə dedim ki, 3,6 milyard manat kəsir nəzərdə tutulmuşdur. Hazırda Azərbaycanın dövlət büdcəsində bu, 11,9 milyard manata çatıb. Səbəbi ondan ibarətdir ki, əsas sahələrə – elm sahəsinə bu fərmanla bağlı 181 milyon manat əlavə, sosial-mədəni tədbirlərə 6 milyard manat və hərbi qulluqçulara 4 milyard manat... Bu onunla bağlıdır ki, mütləq dəyişiklik olunmalıdır. Ona görə biz məcbur olduq. Bir də ki, keçən dəfə büdcə qəbul olunanda inflyasiya faizi nəzərə alınmamışdı. Bildiyiniz kimi, Azərbaycanda iqtisadi böhran olduğuna görə inflyasiya faizi hələ ki, yüksəkdir.

**Qalib Qurbanov.** Deməli, gəlirə qarşı xərclər üç dəfə artıb. İnflyasiyada isə nə qədər gəlir artıbsa, o qədər də xərclər artmalı idi. Gəlin indi deyək ki, bu xərclər niyə üç dəfə artıb, hansı nazirliklərdə artıb? Hansı ərazidə artıb? Kim artırır, niyə artırır, qarşısını necə alaq?

**Cümşüd Nuriyev.** Mən sizə dedim, birincisi, hərbi qulluqçuların vahid tarif sistemi ilə əmək haqlarının ödənilməsinə, ikincisi, qaçqınların sayı çoxalıb, sosial müdafiə tədbirləri ilə əlaqədar olaraq onlara kömək ayrılıb, üçüncüsü, dövlət aparat idarəetmə orqanının işçilərinin əmək haqqı artırılıb, dördüncüsü isə minimum əmək haqqı 3 min rubldan 5 min rubla qaldırılıb. Bunların da hamısı əvvəlki büdcədə nəzərə alınmamışdır. Ondan əlavə də burada hökumətin tədbirləri var.

Mən üzr istəyirəm, bayaq Sizin bir sual yadımdan çıxdı ki, bunu necə aradan qaldırmaq olar? Deməli, Baş nazir Surət Hüseynovun imzası ilə Ali Sovetə tədbirlər planı daxil olub. Lakin avqustun 19-da yenidən fərman verildi və dövlət idarəetmə orqanı işçilərinin əmək haqqı 3-4 dəfə artırıldı, minimum əmək haqqının 15-20 misli qədər. Onların hesablamasına görə, həmin tədbirlərin həyata keçirilməsi, yəni aksiz dərəcələrinin dəyişdirilməsi, bu da bilavasitə Ali Sovetin səlahiyyətində olduğu-

na görə iki komissiya ilə birgə biz əvvəlcə baxmaq istədik. Yeni fərman verildiyinə görə isə gözləməli olduq. Yəqin ki, Milli Məclisin növbəti iclasına da bu kəsirlərin aradan qaldırılması üçün hökumətin verdiyi tədbirləri sizə təqdim edəcəyik.

**Sədrlik edən.** Sabir Rüstəmxanlı, buyurun.

**Sabir Rüstəmxanlı.** Cümşüd bəy, büdcə kəsiri olan bir vəziyyətdə camaata verməyə pul yoxdur, üç aydır azı Bakıda fəhlələr maaş almır, son dərəcə gərgin vəziyyət yaranıb. Maaşla dolanan adamlar, deyək ki, fəhlə sinfi, çox pis vəziyyətdədirlər. Belə bir zamanda bizə məlum olduğuna görə sentyabrın 1-dən Milli Bank bir sıra kommersiya banklarına 10 milyarddan artıq kredit verib və həmin kreditlər də dollara çevrilib Moskvaya ötürülüb. Hansı məqsədlə? Sizin bu barədə məlumatınız var, yoxsa yox?

**Cümşüd Nuriyev.** Düzü, belə bir siqnal almışıq. Komissiyaya rəsmi heç bir sənəd təqdim olunmayıb, məndə dəqiq məlumat yoxdur. Əgər Milli Bank elə bir iş görübsə... Milli Bankın o səlahiyyətləri yoxdur. 1993-cü il üçün pul-kredit siyasəti Milli Məclis tərəfindən qəbul olunub. Milli Bank bilavasitə Ali Sovetin tabeliyində olduğuna görə biz Sizin təklifinizlə Milli Bankı yoxlayarıq.

**Sədrlik edən.** Cəlilov, sual vermək istəyirsiniz. Buyurun.

**Firudin Cəlilov.** Cümşüd bəy, keçən dəfə müzakirə olunanda burada söz verdiniz, protokola da düşdü ki, təhsil sahəsinə 1 milyard rubl əlavə edəcəksiniz. O nəzərdə tutuldu, ya yox?

**Cümşüd Nuriyev.** Firudin müəllim, mən bayaq dedim. 1 milyard 790 milyon rubl Siz tələb eləmişdiniz. Olduğu kimi, 179 milyon manat nəzərə alınıb və o da həmin büdcə kəsiri hesabınadır.

**Sədrlik edən.** Yaxşı, suallar qurtardı. Əyləşə bilərsiniz. Bankın prezidenti Qalib Ağayev gəlsin bura.

**Qalib Ağayev.** Hörmətli deputatlar. Heç bir manat da Rusiyaya köçürülməyib. Əgər pullar Rusiyaya köçürülməli olsaydı, mən çox şad olardım ki, bizim sənayemizin çox ehtiyacı var, bu pullar, birinci növbədə, bizim təşkilatlar üçün keçirilərdi. Mən bir də qeyd edirəm, heç bir manat ya rubl şəklində, indi bizdə manat işlənilir, bir qəpik də Rusiyaya keçməyib. O ki qaldı dollar almağı, dollar da alınmayıb. Vəssalam.

**Yerdən.** *(Eşidilmir.)*

**Qalib Ağayev.** Sentyabrın 1-nə 47 milyard kommersiya banklarında kreditlər var. Ümumiyyətlə, Azərbaycan üzrə 460 milyarddır.

**Yerdən.** *(Eşidilmir.)*

**Qalib Ağayev.** Kommersiya bankları istəsələr də, onlar o krediti verə bilməzlər, Rusiyaya bu saat heç bir pul getmir. Bizim Rusiyaya 40 milyard borcumuz var, ona görə istəsək də, ora heç bir məbləğ keçirə bilmirik. Kommersiya banklarında olan kreditlər ümumi kreditin 10 faizini təşkil edir, 9 faizini. Amma mən yenə də qeyd edirəm, heç bir manat Rusiyaya keçirilməyib, bir dollar da olsa alınmayıb.

**Sədrlik edən.** Yenə sual var, yoxsa yox? Mən sual vermək istəyirəm. İki gün öncə biz toplaşmışdıq, Siz də orada idiniz, danışırdıq. Əhalidə narazılıq var ki, məvacib almırlar. Bəzi yerlərdən belə siqnallar gəlir ki, guya bunlar süni surətdə yaranır, qəsdən camaatda narazılıq yaratmaq üçün məvacib vermirlər. Bu barədə Siz nə deyə bilərsiniz?

**Qalib Ağayev.** Heydər müəllim, mən dəqiq rəqəmi bilirəm, amma demək istəmirəm. Deməli, bizim hərbçilərə müdafiə ilə əlaqədar çox böyük, külli miqdarda məbləğ verilməli idi. Onu 5 gün, 10 gün ərzində təşkil eləmək üçün müvəqqəti olaraq 8-9 gün ərzində bütün banklardan, baxmayaraq ki dövlət bankıdır, ya kommersiya bankıdır, 90 faiz daxil olan nağd pullar hamısı yığılıb, mən qeyd etdiyim istiqamətdə istifadə olunmuşdur. Ayın 27-dən buna ehtiyac olmayıb. Nə qədər hansı banka pul daxil olubsa, özləri xərcləyirlər. Deməli, bu gün də biz yeni partiya manatlar almışdıq, 7 milyard rubl nisbəti, yəni 700 milyon manat. Onlar bu gün hamısı oktyabrın axırınacan bölünüb. İndi bu saat Azərbaycan üzrə 40 milyarda yaxın vaxtı keçmiş məvacib var. Oktyabrın ən geci 20-25-nə qədər yüz faiz bu məbləğ bağlanacaq.

**Sədrlik edən.** Siz o gün məlumat verdiniz. Yaxşı olar ki, Məclisə də məlumat verəsiniz. Nə üçün bizim bu banklara pul gəlmir? Nə səbəbdən? Çünki gedən çoxdur, qayıdan azdır. Bu bizim ümumi işimizdir, hərə öz sahəsində bu işi təmin etməlidir.

**Qalib Ağayev.** Əsas səbəb ondan ibarətdir ki, dövlət təşkilatında istehsal olunmuş mallar dövlət ticarətində satılmır. 1990–1991-ci illərdə hər 100 manatdan 93 manat pul dövriyyədən banka qayıdırdı. İndi isə hər 100 manatdan cəmi 37-38 manat qayıdır. Deməli, istehsalat artır, məhsul istehsal olunur, istəyirlər, bankdan məvacib alsınlar, amma o məhsul dövlət ticarətində satılmır. Əsas səbəb də budur.

**Sədrlik edən.** Neyləmək lazımdır ki, belə olmasın? Axı siz bir dövlət bankı kimi bu işlərə nəinki kənardan baxmalısınız, bu işləri təmin eləməlisiniz.

**Qalib Ağayev.** Bəli, Heydər müəllim, bu son ayda nə tədbirlər görülüb. O ticarət təşkilatlarında ki mal qalıqları var, amma onlar satılmır, bəzi səbəblərə görə deyirlər ki, qiymətlər artıb və sair, camaat almır, onların kreditini də nəzərə alırıq, qeydiyyatdan keçiririk, anbarları yoxlamışıq. Məlumatı, Heydər müəllim, biz hər yerə veririk, ticarət naziri də, Nazirlər Kabineti də bilir ki, hansı təşkilatda hansı mallar qalıb, niyə satılmır. Faiz siyasətindən istifadə edirik. Bütün respublika banklarının mərkəzi aparatının işçiləri rayonlara təhkim olunub, lazım olan tədbirlər görülür. Sentyabr ayında hamı bir yerdə işləməklə biz 600 milyon rubl əlavə nağd pul yığmışıq. Amma bəzi tədbirlər var ki, onlar başlanılıb, amma müsbət nəticəsi bir az gec – oktyabrın 10-15-nə qədər olacaq.

**Sədrlik edən.** İnqilab Nadirov, sualınız var?

**Qalib Ağayev.** Mən bir əlavə də eləmək istəyirəm. Surət müəllim yadıma saldı. Bu gün saat 12-də bu məsələyə baxılmışdır. Hər bir nazirliyə göstəriş verilib, tədbirlər görülür. 10-15 günə, mən ona əsasən dedim ki, oktyabrın 25-nə qədər Azərbaycan üzrə bu məsələ bütünlüklə həll olunacaq, 100 faiz.

**Sədrlik edən.** İnqilab Nadirov, sualınız var? Buyurun.

**İnqilab Nadirov.** Qalib müəllim, bizim bu saat xalqımızın pula çox böyük ehtiyacı var. Xeyli vaxtdır, bu barədə söhbət gedir. Ancaq onu deyim ki, dəfələrlə bizim qəzetlər, xüsusilə “Azadlıq” qəzeti xarici dövlətlərin banklarında yatıb qalan Azərbaycan pulları barədə yazır, Maliyyə Nazirliyinin, bank işçilərinin məlumatları mətbuatda dərc olunur. Lakin bizdə tam təsəvvür yarana bilmir ki, bu vəsaitlər haradadır, necədir və nə vaxt qayıdacaq. Ona görə də bu barədə nə iş aparılır və bunlar nə vaxt dövlətimizin əmlakına qaytarılıb veriləcək?

**Qalib Ağayev.** Statistika Komitəsinin məlumatına görə, müəyyən olunur ki, Azərbaycandan hansı şirkətlərdən hansı dövlətlərə mal göndərilib. Mən 1992-ci ili xatırladıram. 450 milyon dollar çox mal göndərmişik, nəinki almışıq. Azərbaycandan mal daha çox çıxıb. Hansı şirkətlər göndərib, yalnız bankdan keçən sənədlərlə onların hamısını izləyirlər, o pullar da qayıdır.

Burada bir məsələ meydana çıxır ki, mallar bəzən barter üsulu ilə gedir. Bu belə adlanır. Bankdan o əməliyyatlar heç bir sənədlə keçmir. Bank bilmir, misal üçün, dünən, ya srağagün hansı mallar Azərbaycandan hansı ölkəyə gedib. Hansı sənədlər ki bankdan keçir, onlar hamısı qeydiyyatdadır, onlara söz ola bilməz, hamısının da gec-tezi var. Han-

sısa təşkilata xaricdən kredit açıblar, pullar tez daxil olur. Yox, əgər müqaviləyə əsasən mal göndərilibsə, pul sonra gəlir, 15-20 gündən sonra. Bankdan keçən sənədlər hamısı nəzarətdədir.

**Sədrlik edən.** Fərrux Zeynalov.

**Fərrux Zeynalov.** Qalib müəllim, Siz dediniz ki, Rusiyaya bizim 40 milyard borcumuz var. Biz bunu bilirik. Xahiş edirik, qısaca izah edin ki, bu borc nədən əmələ gəlib?

**Qalib Ağayev.** 20 milyard rubl borc 1993-cü ildə əmələ gəlib. 1992-ci ilin iyunun 1-dən sonra texniki kredit almışıq, ona görə. O məbləğlər həm taxılla əlaqədardır, həm də bütün nazirliklər, təşkilatlar o pulları ora xammal almaq üçün, hazır məhsul istehsal eləmək üçün köçürüblər. Deməli, bu, 20 milyard. Qalan 36 milyarddır, mən təqribən dedim, 40 milyard. Deməli, 16 milyard 1992-ci il yanvarın 1-dən iyulun 1-nə qədər. Rusiya öz rəqəmlərinə əsasən hesab edir ki, bu bizim borcumuzdur. Biz Moskvada olanda da bundan imtina etdik. Dedik, bu, düzgün deyil, borc sayılsın. Söhbət bu məbləğ ətrafında gedir. Ümumiyyətlə, o pullar Rusiyaya köçürülür. Deməli, Nazirlər Kabinetində də qərar qəbul olunmuşdu, bu məsələyə baxılmışdı. Deməli, son məlumata görə, bu saat bizim təşkilatların 27 milyard pulu Rusiyadadır. Hansı təşkilatların, hansı nazirliklərin, onların siyahıları var, Nazirlər Kabinetində baxılır, iclasda biz də iştirak edirik.

Amma mən bir şeyi qeyd eləmək istəyirəm, çox təşkilatlar deyir ki, haqq-hesablar keçmir, zavodlar dayanır, fəhlələr işsiz qalır. Mən demək istəyirəm ki, o təşkilatların çoxu pulları keçiriblər, hələ də onun xammalını alıb gətirmirlər. Buna baxmayaraq, yenə də deyirlər ki, texniki kredit almaq lazımdır, alsaq da yenə Rusiyaya köçürüləcək.

Ona görə bizim, Milli Bankın mövqeyi odur ki, kimin rus pulu var, hesablar keçir, yox əgər onun pulu Rusiyadadırsa, zəhmət çəksin, getsin, o pulların ya xammalını gətirsin, ya da pulların özünü qaytarsın. O pullar gəlsə, Azərbaycanın Rusiyaya olan borcu o qayıdan pulların məbləğinə görə azalar. Çoxdan vaxt verilib. Keçən il də Prezidentin fərmanı olub, vaxt müəyyən edilib. Mən yenə deyirəm. Bu barədə söhbət hələ keçən ildən gedir. İndi kim yığa bilir, bəzi səbəblərə görə kim yığa bilmir, nazirliklər, təşkilatlar baxır, özləri də gedib götürməlidirlər. Burada başqa çıxış yolu yoxdur.

Özü də bir şeyi qeyd eləmək istəyirəm ki, onlar gərək bilə ki, orada qalan pulları Rusiya Azərbaycan üçün bir dövlət borcu kimi yazır. Bu, şirkətin şirkətə, müəssisənin müəssisəyə borcudur. Dünyada elə bir şey

yoxdur ki, iki şirkətin arasında olan borc dövlət borcuna çevrilsin. 36 milyardı da Rusiya hər aya dolların kursu ilə haqq-hesab eləyib 81 milyon 500 min dollar Azərbaycanın borcu kimi bizə təklif eləmişdi ki, qol çəkin. Onun hələ faizi ildə 3 milyon dollar edir. Biz ondan imtina etmişik, elə şeyə qol çəkən deyilik.

Düzgün yol odur ki, təşkilatlar ya gərək o pulu Azərbaycana köçürsünlər, ya da gedib onun məbləğində xammal gətirsinlər, burada hazır məhsul istehsal edib satılsın.

Ümumiyyətlə, mən hesab edirəm ki, Rusiyaya olan borcumuzu biz gərək yalnız malla ödəyək. Çünki nə 81 milyon dollar pulumuz var, onun 3 milyon dolları hər il yalnız faizidir, nə də ona bizim iqtisadiyyatımız dözə bilməz.

**Sədrlik edən.** Başqa sualı olan yoxdur? Əyləşin. Başqa çıxış etmək istəyən, bu barədə söz demək istəyən yoxdur? Onda qərar layihəsi səsə qoyulur. Xahiş edirəm, Məclis üzvləri münasibət bildirsinlər.

***(Səsvermə)***

Qəbul edildi. Növbəti məsələ Daxili İşlər Nazirliyi, Milli Təhlükəsizlik Nazirliyi və Prokurorluğun məlumatıdır. Bu, son vaxtlar mətbuatda gedən bəzi yazılarla əlaqədardır. Buyurun, daxili işlər naziri Vaqif Novruzov.

**Vaqif Novruzov.** Hörmətli sədr, hörmətli millət vəkilləri. Mən bugünkü məlumatımda sentyabrın 23-də "Millət" qəzetində həmçinin həmin tarixdə "Azadlıq" və "Müxalifət" qəzetlərində 1993-cü il sentyabrın 21-də AXC-nin qərargahında keçirilən mətbuat konfransında İbrahim İbrahimovun mətbuat orqanlarına verdiyi informasiya haqqında məlumatı bildirmək istəyirəm. Millət vəkillərinin bu qəzetdə gedən məlumat, bəlkə də, yadlarında deyil. Ona görə istəyirəm, bu qəzetdə olan məlumatı onlara oxuyum.

İbrahim İbrahimovun verdiyi məlumatdan belə məlum olur ki, sentyabr ayının 10-dan başlayaraq yalnız Bakı şəhərində 82 nəfər, respublikanın digər rayonlarında 1000-ə qədər AXC üzvü həbs edilmişdir. Bu barədə o jurnalistlərə məlumat vermişdir.

Həmçinin Xalq Cəbhəsinin üzvlərinin polis tərəfindən ləyaqətləri alçaldılmış, polis idarələrində onlar döyülmüş, onlara hədə-qorxu gəlinmiş, bədən xəsarətləri yetirilmişdir.

Məlumat verim ki, bu il sentyabr ayında Azərbaycan Respublikasında 1220 nəfər inzibati qaydada məsuliyyətə cəlb olunmuşdur. Bu qəzet-

də dərc edilən məlumatı mən oxuyandan sonra göstəriş verdim ki, bu məsələni araşdırsınlar, mənə məruzə eləsinlər ki, görüm, doğrudanmı 1200 nəfərin hamısı Xalq Cəbhəsinin üzvləridir. Araşdırıb təhlil eləyəndən sonra aydınlaşdırdıq ki, 1220 nəfər inzibati qaydada tutulmuş şəxslərdən cəmi 61 nəfəri, yəni tutulmuşların 5 faizi Xalq Cəbhəsinin üzvləridir. Onlardan da 27 nəfəri xalq məhkəmələri tərəfindən cərimə olunub, 3 nəfəri xəbərdarlıq olunandan sonra buraxılıb, 31 nəfəri məhkəmələr tərəfindən inzibati qaydada həbs edilib. Bunlar nəyə görə həbs olunub və neyləmişdilər ki, tutulublar? Fövqəladə vəziyyət qaydalarını pozduqlarına, əhalini mitinqlərə çağırdıqlarına görə 20 nəfər, polis işçilərinə tabe olmadıqlarına görə 3 nəfər, xırda xuliqanlığa görə 4 nəfər, sərxoş vəziyyətdə qayda-qanunu pozduqlarına görə 4 nəfər məsuliyyətə cəlb edilmişlər.

Hazırda, bildiyiniz kimi, fövqəladə vəziyyət sentyabr ayının 22-dən ləğv olunduğuna görə, həmin şəxslərdən hamısı azad olunmuşlar. Fövqəladə vəziyyətdən asılı olmayan digər maddələrlə bağlı tutulmuş adamlar da var. Həmin adamların materialları hazırda bizim prokurorluq tərəfindən araşdırılır. Araşdırma qurtarandan sonra o şəxslər haqqında da tədbir görəcəyik. Bu məlumatı təhlil eləyib Ali Sovetə də vermişəm.

Başqa bir məsələ üzərində də dayanmaq istərdim. Xalq Cəbhəsi həm respublikaya, həm də respublikadan kənara, o cümlədən Birləşmiş Millətlər Təşkilatına qədər öz müraciətlərini göndərmişdir. Burada polis işçiləri tərəfindən Azərbaycan qadınlarının ləyaqətinə toxunulması və digər məsələlərdən söhbət gedirdi. Mən sizə məruzə edərək bildirmək istəyirəm ki, 1993-cü il sentyabrın 11-də Bakı şəhəri Bibiheybət qəsəbəsində yerləşən "Şıx" sanatoriyasında qaçqınlar arasında təbliğat apardıqlarına görə, həqiqətən, tərəfimizdən qadınlar yaxalanmışdılar. Bu məsələni daxili işlər naziri kimi mən kişi müstəntiqə yox, şəhərdə bir nəfər qadın müstəntiq tapıb ona tapşırmışam ki, o işi aparsın. Siz deyən kimi qadınlarımızın ləyaqətinə biz yox, qəzetlərdə onların adını çəkməklə Siz toxunursunuz. Bu, birinci məsələ.

İkinci məsələ, burada mətbuatda getmişdi ki, guya öz ləyaqətinin bu cür alçaldılmasına qarşı etiraz olaraq intihar etmək istəyən AXC Mərkəzi Nəzarət Təftiş Komissiyasının üzvü, filologiya elmləri doktoru, professor Tağı Xalisbəyli vəhşicəsinə döyülmüşdür. Bu fakt da tərəfimizdən yoxlanılmışdır. İstəyirəm, sizə kiçik, gülməli arayış təqdim eləyəm. Məlumunuz olsun ki, 1993-cü il sentyabrın 18-də Daxili İşlər Nazirliyi-

nin Tibb İdarəsinin həkimləri xüsusi qəbuledici məntəqədə apardıqları yoxlama zamanı natəmizlik nəticəsində bit sürfəsi aşkar etmişlər. Həmin məntəqəyə həkimlərin rəyi əsasında məişət xidməti işçiləri dəvət olunmuşdur və orada olan kişilərin başlarının, üzlərinin tükləri qırxılmış, qadınların saçı isə ağ neftlə sanitar təmizləmədən keçmişdir. Bundan əlavə, kameralar da dezinfeksiya edilmişdir. Sanitar-təmizlik işləri aparan şəxslərin 9 nəfəri AXC üzvü, 4 nəfəri isə heç bir ictimai qrupa mənsub olmayan şəxslər olmuşlar. Həmin xüsusi qəbuledici məntəqəyə sonradan daxil olmuş vətəndaşlar barəsində də sanitar-təmizlik işləri aparılmışdır.

Sanitar-təmizlik işləri uşaq qəbuledici və paylayıcı məntəqələrində də, eləcə də avara həyat tərzi keçirən qəbuledici və paylayıcı məntəqələrdə də keçirilmişdir. Bunu heç də bizə qəbahət saymayın. Çünki bir il ərzində siz özünüz iqtidarda olanda bu məntəqələri elə vəziyyətə gətirib çıxarmısınız ki, indi mən ancaq bu işlərlə məşğul olmalıyam. Bunlar nəyə görə olunmuşdu? Yuxarıda göstərilən tədbirlər Daxili İşlər Nazirliyinin 1971-ci il 356 nömrəli əmrinin və Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 7 may 1993-cü il 92 nömrəli əmrinin tələblərinə uyğun olaraq Daxili İşlər Nazirliyinin bütün müəssisələrində aparılır. Bu tədbirlər nəinki Daxili İşlər Nazirliyinin müəssisələrində yerləşən xüsusi kontingentə, həmçinin Daxili İşlər Nazirliyinin əməkdaşlarına da tətbiq olunmuşdur. Ona görə də xahiş edirik, bunu qəzetlərdə yazanda, heç olmasa, bir balaca məlumatları araşdırın, sonra yazın.

Dünən mən həmin 3 qəzetin redaktorlarını İbrahim İbrahimovla birlikdə Bakı Şəhər Baş Polis İdarəsinin rəisi ilə qəbul etdik. Onlarla söhbətdən sonra İbrahim İbrahimov bir sənəd çıxardı. Buna AXC Hüquq şöbəsinin müdiri Nuriyev qol çəkib. Burada 54 nəfərin familiyası qeyd olunub. Bu siyahını İbrahim İbrahimov mənə vermədi. Mən prokurorluqdan xahiş elədim, onun surətini mənə verdilər. Burada 54 nəfərdən mən qeyd elədiyim adamlar keçirlər. Ondan başqa burada keçən adamların içərisində 3 nəfər polis işçisi var, AXC-nin üzvləridirlər. Mən onlar haqqında tədbir görmüşəm, onlar daxili işlər orqanlarından xaric olunublar. Orada keçən şəxslərdən 1 nəfər Sumqayıtda yaşayıb. Məlumat qaydasında AXC Hüquq şöbəsinin müdiri Nuriyevin verdiyi siyahıda keçən Asif Nəsibovdur. Asif Nəsibov Azərbaycan Boru-Prokat Zavodunun sex rəisinin müavini işləyir. “Anar” firmasının təsisçisi, Sumqayıt şəhər sakinidir, AXC-nin üzvüdür. 1993-cü il avqust ayının ortalarında təxribat törətmək, əhali arasında vahimə yay-

maq məqsədilə Qubadlıya və onun Göyərçin, Qayalı, Cıfırlı kəndlərinə gedərək rayonun tezliklə erməni hərbi birləşmələri tərəfindən tutulacağı barədə qəsdən yalan şayiələr yaymış, milli ordu bölmələrinin şəxsi heyətini döyüş mövqelərini tərk etməyə təhrik etmiş, xəyanətkar və fitnəkar əməllərə yol vermişdir. Əməliyyat yolu ilə onun Sumqayıt bağ sahəsində qanunsuz saxladığı "Kalaşnikov" avtomat silahı da aşkar olunmuş və hazırda o, həbs edilmiş, 220-ci maddə ilə cinayət məsuliyyətinə cəlb olunmuşdur.

Əgər siz, doğrudan da, AXC üzvlərinin gələcəkdə də işlərini bu səmtə yönəldəcəksiniz və təxribatla məşğul olacaqsınızsa, həm təxribatla məşğul olub, həm də mətbuatda yalan-yalan məlumatlar yayacaqsınızsa, onda mənim də kiçik bir təklifim var, bir daxili işlər naziri kimi, bunu mən Ali Sovetin sədrindən də, millət vəkillərindən də xahiş eləyirəm ki, birinci dəfə bu təklifi vermişdim, ikinci dəfə də onu təkrar eləyirəm. Xahiş edirəm ki, birincisi, İbrahim İbrahimovun bu mötəbər Məclisin tərkibində qalması məsələsinə bu gün baxılsın. Həm deputatam, həm də daxili işlər naziriyəm. Xahiş edirəm ki, İbrahim İbrahimovun belə bir mötəbər Milli Məclisin tərkibində qalma məsələsinə bu gün baxılsın. Bu, birinci məsələ.

İkinci məsələ, mən o dəfə də Sizdən xahiş elədim, yenə də xahiş edirəm. Xalq Cəbhəsinin hərəkətləri hamıya məlumdur, respublikada yaşayan kiçikdən tutmuş böyüyə qədər bütün vətəndaşlarımızın hamısına bunların törətdikləri təxribatlar da, bunların hərəkətləri də, bunların gələcək planları da bəllidir. Belə olan halda mən təklif edərdim ki, Ali Sovet məsələyə baxsın, Nazirlər Kabineti AXC haqqında qərarını dəyişsin. Bu xalq hərəkatı, ümumiyyətlə, xalqa zidd olan hərəkatdır. Ona görə bunun qarşısı alınmalıdır.

Mən bu təklifi verirəm, xahiş edirəm, heç olmasa, bir dəfə səsə qoyun, bəlkə, Milli Məclisin üzvləri buna səs verdilər.

Bəlkə, prokurorun müavinini eşitmək istəyəcəksiniz, ancaq mən məlumat verə bilərəm ki, doğrudan da, siyasi məhbusumuz yoxdur. İndi milli təhlükəsizlik nazirinə söz verəcəksiniz, çıxış edəcək, ancaq Milli Təhlükəsizlik Nazirliyində bir nəfər də olsun bizim siyasi məhbusumuz yoxdur.

Götürək prokurorluğu. Prokurorluqda Xalq Cəbhəsinin üzvləri keçən cəmi 7 cinayət işi var. Onlardan da beşində şəxsiyyətlər tutulub, hazırda cinayət məsuliyyətinə cəlb olunurlar. İki cinayət işi üzrə cinayət törətmiş

şəxslər tutulmayıb, hazırda onların axtarışı aparılır. Bu qədər. Respublikamızda bir nəfər də olsun siyasi məhbusumuz yoxdur, Heydər müəllim.

**Sədrlik edən.** Aydındır ki, siyasi məhbus yoxdur. Ancaq bir az dəqiqləşdirin. Siz dediniz, fövqəladə vəziyyət vaxtı, nə bilim, indi Xalq Cəbhəsindən neçə nəfər sizdə saxlanılır?

**Vaqif Novruzov.** Hazırda bu günə qədər 11 nəfər idi. Bu gün 10 nəfərdir, 1-i aydınlaşdırılıb buraxılıb. 10 nəfərdən 7 nəfəri fövqəladə vəziyyəti pozmayan şəxslərdir, digər məsələlərə görə tutulublar. Sərxoşluğa görə də var, polis işçilərinə tabe olmamaq faktları da var, xırda xuliqanlığa görə də cəlb olunublar. Mən məruzəmdə dedim. 3 nəfər polis işçilərinə tabe olmadıqlarına görə, 4 nəfər xırda xuliqanlıqlara görə, 3 nəfər də sərxoş vəziyyətdə qayda-qanunu pozduqlarına görə inzibati qaydada məhkəmələr tərəfindən həbs olunublar.

**Sədrlik edən.** Yəni məhkəmə onları inzibati qaydada qısa müddətə məhkum edir. Təxminən neçə gün?

**Vaqif Novruzov.** 15 gün də var, 20 gün də var. Lazımdırsa, mən onların hamısını bir-bir deyə bilərəm, ancaq ümumiyyətlə, 30 günə qədərdir.

**Sədrlik edən.** Qadınlardan varmı?

**Vaqif Novruzov.** Qadınların hamısı buraxılıb, bir nəfər də olsun qadın məhbusumuz yoxdur.

**Sədrlik edən.** Yaxşı, Novruzova sualı olan varmı? Ədalət Rəhimov, buyurun.

**Ədalət Rəhimov.** Vaqif müəllim, mənim Sizə iki sualım var. Birinci sualım odur ki, Arif Rəhimovun fövqəladə vəziyyəti pozmaqdan əlavə hansı günahı vardır ki, bu günə kimi həbsdə saxlanılır? İkinci sualım, Sizin Tağı Xalisbəyli səviyyəsində olan hansı zabitinizin gigiyena tədbirləri üçün saqqalı, bığı və başı qırxılmışdır? Onun da adını mənə deyəsiniz. Çox sağ olun.

**Vaqif Novruzov.** Mən məruzəmdə dedim. Birinci sualınıza cavab olaraq bildirirəm ki, Arif Rəhimov haqqında olan materiallar tərəfimdən göstəriş verilib, araşdırılır. Prokuror müavininin də göstərişi ilə, prokurorluğun nümayəndəsi ilə birlikdə bu fakt araşdırılır. Onun materialları araşdırılandan sonra haqqında göstərişimiz olacaq. Yəqin ki, buraxılacaq. Bu, birinci.

**Sədrlik edən.** Yox, mənim üçün aydın olmadı, Arif Rəhimov nədən ötrü saxlanılıb? Nə səbəbə?

**Vaqif Novruzov.** Arif Rəhimov tək mitinq keçirdiklərinə görə yox. Hazırda onun haqqında olan materiallar tərəfimizdən öyrənilir.

**Sədrlik edən.** Yox, axı mən demişdim, məlumat verəsiniz. Arif Rəhimov nədən ötrü saxlanılıb? Mitinq keçirməkdən ötrü adamı saxlamaq olmaz. Biz Sizə bunu demişdik. Baxmayaraq ki fövqəladə vəziyyət rejimini pozur, ancaq danışmışdıq ki, indi bunlar çox şeyləri pozublar, qoy bunu da pozsunlar, eybi yox, buna dözmək olar. Əgər mitinq keçirməyinə görə saxlamısınızsa, nə üçün saxlamısınız?

**Vaqif Novruzov.** Mən qəbulumda olarkən İbrahim İbrahimova da, başqalarına da Arif Rəhimov haqqında demişəm. Ancaq digərləri haqqında da materiallar var. Hamısı tərəfimizdən araşdırılır. Arif Rəhimov hazırda tərəfimizdən araşdırılır. Onu mən ayrıca deyim ki, Arif Rəhimov 15 gün müddətində xalq məhkəməsi tərəfindən məhkum olunub. Onun haqqında materiallar hələlik Bakı Baş Polis İdarəsindədir. Prokurorluqla birlikdə araşdırırıq. Orada təkcə fövqəladə vəziyyətin pozulması faktı deyil, başqa faktlar da var. Orada polisə qarşı olan pozğunluqlar da var. Ona görə də qərarımızı prokurorluqla bir yerdə qəbul edəcəyik. "Fövqəladə vəziyyət haqqında" Qanunun 23-cü maddəsindən başqa maddə də var. Ona görə də biz maraqlanmalıyıq.

**Sədrlik edən.** Tağı Xalisbəyli deyirlər, onu saxlamısınızmı?

**Vaqif Novruzov.** Bəli, Tağı Xalisbəyli tərəfimizdən saxlanılıb. 15 gün xalq məhkəməsi tərəfindən cəzalandırılıb. O da həm mitinqə təhrik elədiyinə görə, həm qanunsuz mitinq keçirdiyinə görə, həm də fövqəladə vəziyyət qanun-qaydasını pozduğuna görə. O təkcə fövqəladə vəziyyətə görə deyil, başqa xarakterli pozğunluğa da yol verib.

**Sədrlik edən.** Bilirsiniz, mən öz səlahiyyətimdən istifadə edib Sizə göstəriş verirəm, bu gün onu buraxın. Mən güman edirəm ki, o adam səhv buraxmış olsaydı da, gərək Siz onu saxlamayaydınız. Hər halda o, müəllimdir, alim adamdır. Gərək eləməyəydiniz elə şeyi. Mən bunu birinci dəfədir eşidirəm. Mən güman eləmirəm ki, o, başqa xuliqanlıq hərəkəti etmiş olsun. Ancaq mitinq keçirirsə, keçirsin də, nə olsun ki? Bundan ötrü nə üçün onu saxlamısınız? Onu buraxdırın, birinci.

İkinci, Arif Rəhimov haqqında əgər indi məlumatınız yoxdursa, prokuror məlumat versin. Çünki hər kəsin öz dünyagörüşü var. Mən Arif Rəhimovun dünyagörüşünü də bilirəm, yaxşı tanıyıram onu. Ancaq əgər ciddi əsas yoxdursa, onu saxlamaq lazım deyil.

Qadın yoxdur sizdə? Bir də sual verirəm. Deyirsiniz 11 nəfəri?

**Vaqif Novruzov.** 10 nəfər.

**Sədrlik edən.** 10 nəfər. 1000 nəfər, filan, beşməkan. Güman edirəm ki, onların müəllimləri də burada sübut eləməlidir ki, 1000 nəfər haradadır.

**Vaqif Novruzov.** Mətbuatda bu məqalə çıxandan sonra mən bütün rayon daxili işlər şöbələrinə, polis idarələrinə göstəriş vermişəm. Onlar yazılı surətdə mənə məlumat veriblər. Məlumatlar toplanıb, toplanandan sonra təhlil olunub və bu rəqəm alınıb. Ümumiyyətlə, bu rəqəm – 1220 nəfər, bu, ümumi rəqəmdir.

**Sədrlik edən.** Hər bir xuliqanın vəkili Xalq Cəbhəsi deyil ki. Əgər küçədə kimsə xuliqanlıq eləyir, əlbəttə ki, bunu saxlamalısınız da, cəzalandırmalısınız da. Əgər Xalq Cəbhəsi bütün xuliqanlara vəkillik eləmək istəyirsə, onda desin ki, vəkillik eləyir. Ona görə araşdırmaq lazımdır. Siz o rəqəmi niyə bura qatırsınız? Əgər sizdə sentyabr ayında 500 nəfər ümumən müxtəlif qanun pozğunluğuna görə saxlanılıbsa, bunun Xalq Cəbhəsinə aidiyyəti yoxdur. Əgər Xalq Cəbhəsi bütün bu saxlanılanları öz adamı hesab edirsə, onda qoy desin ki, öz adamlarıdır. Onlar bütün bu xuliqanları müdafiə eləyirlər.

**Vaqif Novruzov.** İnzibati qaydada məsuliyyətə cəlb olunanların arasında sentyabr ayında cəmi 61 nəfər Xalq Cəbhəsinin üzvü var. Onlardan da 31 nəfəri məsuliyyətə alınıb, 27 nəfəri cərimə olunub, 3 nəfərinə xəbərdarlıq edilib.

**Sədrlik edən.** Demək, sizdə Xalq Cəbhəsinin üzvlərindən dediniz, cəmi 11 nəfər, elədir? Onlardan dediniz, 7 nəfərin cinayət işi var.

**Vaqif Novruzov.** Onlardan 7 nəfəri başqa maddələr üzrə təqsirləndirilir. 4 nəfər haqqında hazırda yoxlama aparırıq. 4 nəfəri, ola bilsin ki, bu gün buraxdıq. 1-ni Sizin göstərişinizlə buraxacağıq, qalanlarını da araşdırmalıyıq. Bu gün axşama həll eləməliyik.

**Sədrlik edən.** Başqa sual var? İbrahim bəy, buyurun.

**İbrahim İbrahimov.** Hörmətli Vaqif bəy, əvvəla, mən Sizin səmimiyyətinizə əvvəlcədən şübhə edirdim. Bu gün şübhəm xeyli artdı. Niyə? Birinci sualınıza cavab. Keçmiş iqtidar bir il hakimiyyətdə olub, Siz dediniz ki, təcridxanaya baxmayıb. Amma Siz 20 il hüquq orqanlarında işləmisiniz, yəni onun məsuliyyəti Sizdə daha çoxdur.

Başqa bir sual. Bu məsələləri aydınlaşdırmaq üçün Sizin yanınızda əyləşdik. Əgər Siz səmimi daxili işlər naziri olsaydınız, bu gün burada

səmimi şəkildə deyərdiniz ki, qəzet redaktorları ilə bir yerdə AXC İcraiyyə Komitəsinin sədri İbrahim bəyi dəvət elədik yanımıza. Mən Baş İdarəyə, Baş prokurora – Lalə xanım burada əyləşib, Lalə xanımla telefon danışıqlarım olub – eyni zamanda Sizə rəsmi şəkildə müraciət eləmişəm. Nəzərinizə çatdırım ki, mətbuat konfransında 100 nəfər AXC üzvünün işdən çıxarılması, bağışlayın, 1000 nəfərin işdən çıxarılması, 100 nəfərin isə həbs olunması göstərilib. Mən Sizə dedim ki, yoxlayın, ayın 22-də informasiya agentliyinə, “İnterfaks”a, “Xəbərservis”ə biz bu haqda təkzib vermişik. Amma Siz bunu səmimi şəkildə qeyd eləmədiniz. Bu, bir.

İkincisi, mən Sizə dedim ki, redaktorlar buradadırlar, eyni zamanda informasiya vasitələrinin nümayəndələrinin qarşısında mən təşəbbüs qaldırmışdım ki, gəlin, Daxili İşlər Nazirliyinə müraciət eləyək. Əgər doğrudan da, həbsxanada olanlara işgəncə verilməyibsə, onda bir yerdə gedib onları dindirək. Siz buna şərait yaratmadınız. Əgər həqiqətən, səmimiyyətiniz vardısa və inanırdınızsa, orada onlara işgəncə verilmir, buna Siz şərait yarada bilərdiniz. Yəqin ki, mən prokurorun və təhlükəsizlik nazirinin çıxışından sonra da çıxış edəcəyəm. Nə üçün onda mən kabinetdən çıxanda “Müxalifət” qəzetinin redaktoru Sizdən xahiş elədi ki, biz onlara yemək aparaq. Siz və Baş Polis İdarəsinin rəisi söz verdiniz, amma sonra bunu eləmədiniz. Eyni zamanda, Sizin mənimlə olan söhbətinizi onsuz da o qəzet redaktorları verəcəklər. Siz bəs, mən İbrahim bəyi, Milli Məclisin üzvünü sentyabr ayının birinci on günlüyündə əmr verib gecə... Qanunlara görə, saat 11-də heç kimin evinə getməzlər. Millət vəkilinin qapısına gəlib, Sizin məcburiyyətiniz nəticəsində məni evdən çıxararaq aparıb 3 gün həbsxanada saxlamaq nəylə bağlı idi? Siz bunların hamısının altından qaçırsınız.

Heydər bəy, mən indi nə hiss eləyirəm. Respublikada yaranmış bu gərgin vəziyyətdə, mən çıxışımda bunları deyəcəyəm, ümumi stabilliyin yaranması üçün qüvvələrarası münasibət formalaşır. Konstruktiv əməkdaşlıq yaranmasından istifadə eləyən Vaqif Novruzov kimi orta qüvvələr Sizin də xəbəriniz olmadan, digərlərinin də xəbəri olmadan gör Sizə nə cür yalan məlumatlar verirlər, xəbəriniz olmadan bu cür aqressiv hərəkətlərə başlayırlar. Məqsədləri ondan ibarətdir ki, bu cür aqressiv hərəkətlərlə siyasi qütbləşməni kəskinləşdirsinlər.

Burada Arif Rəhimovdan tutmuş... Məndə siyahı var, mən o siyahını Sizə təqdim edəcəyəm və o siyahı haqqında Sizə izahat verəcəyəm. Yazır. Nəsibov Asif iki il bundan qabaq Azərbaycan Xalq Cəbhəsinin üzvü olub, Azərbaycan Xalq Cəbhəsinin üzvlüyündən çıxarılıb. Mən çıxışım-

da bunların hamısını izah edəcəyəm. Amma Sizə verəcəyim sualı yenə deyirəm, niyə Siz mənim təşəbbüsümlə mətbuat informasiya vasitələri qrupunun təcridxanada onlarla görüşünü təşkil eləmədiniz? Əgər doğrudan da, Sizin birbaşa göstərişinizlə onlara cəza verilməmişsə, işgəncə verilməmişsə, nə üçün ikinci dəfə mən müraciət elədim, baş redaktorların görüşünü təşkil eləmədiniz? Əgər doğrudan da, Siz dediyiniz kimi, orada işgəncə yox idisə.

**Vaqif Novruzov.** İcazə verin, suallarına cavab verim, Heydər müəllim. Birincisi, Siz dediniz ki, qəzetlərdə ayın 22-də təkzib olunmuşdu. O qəzetləri mən oxumamışam. Mən ancaq qəzetlərdə Sizin verdiyiniz bu məlumatı oxumuşam, bundan başqa məlumatlarınız çıxmayıb, özünüz öz məlumatlarınızı təkzib eləməmisiniz. Ona görə də mən burada bu məlumatı verməliydim.

İkincisi, Siz deyirsiniz ki, onlara nəsə vermək istəyirsiniz, görüşlərinizə imkan yaratmadım. Sizin yanınızda Baş Polis İdarəsinin rəisinə mən göstəriş verdim ki, əgər Siz "peredaça" gətirmək istəyirsinizsə, gətirin, qəbul edəcəklər.

Üçüncüsü, orada söhbətimizdə Siz mənə bu siyahını verməkdən imtina elədiniz, mənə Milli Məclisin qərarını verdiniz. Həmin fövqəladə vəziyyətdən çıxarışı.

Sizin həbs məsələnizə gələndə isə fövqəladə vəziyyət rejimi vaxtı Siz fövqəladə vəziyyət rejiminin qaydalarını pozduğunuza görə mənə məruzə elədilər. Mən, doğrudan da, göstəriş verdim ki, məndən ötrü fərqi yoxdur, Azərbaycan vətəndaşlarının hamısı qanuna itaət eləməlidirlər. O göstərişi mən vermişəm.

Ancaq ona qalanda ki, nəyə görə Sizi saxlayıblar, Siz onda özünüz qəbul elədiyiniz "Fövqəladə vəziyyət haqqında" Qanuna müraciət eləyin, onu bir də oxuyun. Baxın, görün, özünüz hansı qanunu qəbul eləmisiniz. Həmin qanunun 23-cü maddəsində nəzərdə tutulan pozuntular barədə işlərə xalq hakimi İnzibati hüquqpozmalar haqqında Azərbaycan Respublikası Məcəlləsində müəyyən edilən qaydada 3 günədək müddətə baxır. Xalq hakimi işə baxanadək inzibati hüquq pozuntusu törədən şəxslər 3 günə qədər müddətdə tutulub saxlanıla bilərlər.

Bir də həmin maddəni təzədən oxuyun. Onda görərsiniz ki, bunu Siz qəbul eləmisiniz, mən yox.

O biri sualınıza gəldikdə isə, deyirsiniz ki, Xalq Cəbhəsinin nümayəndələrini mənim göstərişimlə tutublar. Mən buna bu formada – Sizin

qaydada cavab vermək istəmirəm. Mən buna çox sakit cavab vermək istəyirəm. Özünüz bilirsiniz ki, qanun tək mənim tərəfimdən icra olunmur. Qanunu bütün daxili işlər orqanlarında çalışan əməkdaşlar hər biri öz funksiyasını bilərəkdən öz ərazisində icra eləyir. Hər birinə kimin tutulması haqqında mənim göstəriş verməyə imkanım ola bilməz. Onu yaxşı bilirsiniz və bu sözü nahaq yerə deyirsiniz.

**Sədrlik edən.** Daha sualı olan yoxdur ki? Buyurun.

**Yasif Nəsirov.** Hörmətli nazir, Siz çox geniş və ətraflı məlumat verdiniz və biz də o məlumatdan özümüz üçün lazım olan informasiyanı götürdük. Mənim Sizə bir sualım var. O suala keçməmiş əvvəl deyim ki, Daxili İşlər Nazirliyinin son zamanlar apardığı profilaktik tədbirlər camaat tərəfindən çox böyük məmnuniyyətlə qarşılanır. Bu tədbirlər bizim hamımızın ürəyindəndir. Məsələn, bu saatın özündə mən istəmirəm, burada əsəbləri qızışdırım. Biz başlamışıq ki, Xalq Cəbhəsindən nə qədər tutulub, o biri tərəfdən nə qədər tutulub, bu biri tərəfdən nə qədər tutulub. Bu Sizə aid deyil. Bu, məsələnin qoyuluşuna aiddir. Axı bu, dövlət içində dövlət deyil. Xalq Cəbhəsi də bizimkidir, o biri tərəf də bizimkidir. Belə çıxır ki, Xalq Cəbhəsinin adamlarına biz qayğı göstərib, dövlətin qanununu pozubsa da, onları buraxmalıyıq. O biri tərəfdən tutulanlara isə biz qayğı göstərməməliyik və onlar sonadək orada qalmalıdırlar. Məsələnin bu cür qoyuluşuna mən bir xalq deputatı kimi, ümumiyyətlə, etiraz edirəm.

İkincisi, indi bizim Xalq Cəbhəsinin nümayəndələri düşüblər qapı-qapı, siyahı toplayırlar ki, bəlkə səsverməyə getməyəsiniz. Mən belə tədbirlərə qarşı, yaxud başqa qanun pozuntularına qarşı Daxili İşlər Nazirliyinin, yaxud digər əlaqədar təşkilatlarımızın mübarizə aparmasının tərəfdarıyam. Dövlətin seçki haqqında qanunu var. Biz özümüz bilərik ki, kimə səs veririk, kimə səs vermirik.

Mənim sualım nədir? Əlbəttə, bu sual, bəlkə, tamamilə Sizə aid deyil, Vaqif müəllim. Sualımın canı ondan ibarətdir ki, indi bizim səfirliklər üçün, təzə yaranan komitələrimiz üçün respublikamızda yer məsələsi böyük bir problemə çevrilib. Belə bir vaxtda partiyanın vəsaiti hesabına tikilmiş keçmiş “26-lar” Rayon Partiya Komitəsinin binası Xalq Cəbhəsində nə qədər qalmalıdır? Bu bina nə vaxt boşalmalıdır? Xahiş edirəm, bu işlə ya Siz, ya da əlaqədar təşkilatlar məşğul olsunlar. O bina indi kimə xidmət edir, nə fəaliyyət göstərir? Bu fəaliyyəti biz bir ildə gördük, başımıza nə bəlalar gətirdilər. Xahiş edirəm, buna imkanınız varsa, cavab verin. Çox sağ olun.

**Vaqif Novruzov.** Bu məsələdə mən belə fikirləşirəm ki, sualın, ola bilsin, bir hissəsi mənə aiddir, o hissəsi ki, deyirsiniz, Xalq Cəbhəsi hazırda yenə də təxribatla məşğuldur. Bunu düz deyirsiniz. Məndə olan məlumata görə bu dəqiqə qapı-qapı düşüb seçki məsələsinə ziyan gətirmək istəyirlər. Bunu planlı şəkildə aparırlar. Məhz elə ona görə də mən burada İbrahim İbrahimov haqqında məsələ qaldıranda Xalq Cəbhəsi haqqında qanunun dəyişdirilməsini, yəni ləğv olunmasını, İbrahim İbrahimov kimi adamların bu Məclisdə olmamasını xahiş elədim.

Bu, açıq-açığına respublikada xalqın arasında təxribat işi aparmaqla məşğul olan bir təşkilatdır. Bunu mən sizə deyirəm. Məlumatlar var, tək məndə yox, başqa təşkilatlarda da var. Vətəndaşların özlərində də bu məlumatlar var. Küçədə, təşkilatlarda, müəssisələrdə çalışırlar, yığıncaqlar keçirsinlər, xalqımızı təhrik eləsinlər. Bunlar hamısı var. Bu da onu göstərir ki, vaxt gəlib çatıb. Bu, birinci məsələ.

İkinci məsələ, Bakı səhər icra hakimindən, Nazirlər Kabinetindən, Surət müəllimdən xahiş edərdik ki, bu məsələyə baxsınlar. Artıq dərəcədə xahiş edirik. Həm cəbhə haqqında olan qanuna, həm də bu bina haqqında olan məsələyə baxasınız, göstəriş verəsiniz. Səfirliklər hər gün müraciət edirlər. Respublikada, doğrudan da, lazımlı olan binadır, niyə havayı yerə təxribat işləri görmək üçün hansısa təşkilata verilməlidir. Mənim bu suala cavabım ancaq belə ola bilərdi. Qalan hissəsini, yəqin ki, başqa...

**Sədrlik edən.** Yaxşı, əyləşə bilərsiniz. Milli təhlükəsizlik nazirinin sözü var? Buyursun.

**Nəriman İmranov.** Hörmətli sədr. Rəsmi məlumat verirəm ki, 1993-cü il ərzində və bu günədək Milli Təhlükəsizlik Nazirliyinin istintaq şöbəsi tərəfindən Xalq Cəbhəsinin üzvlüyünə mənsub olan heç bir şəxs tutulub saxlanılmamış və bir nəfərə də olsun cinayət işi qaldırılmamışdır.

**Sədrlik edən.** Baş prokurorun müavini buradadırmı? Buyurun.

**Eldar Məmmədov, *Baş prokurorun müavini.*** İcazə verin, rus dilində danışım.

**Sədrlik edən.** Buyurun.

**Eldar Məmmədov.** Hörmətli Heydər müəllim, hörmətli deputatlar. 1993-cü il sentyabrın 23-də "Azadlıq" və "Müxalifət" qəzetlərində bu yaxınlarda minlərlə AXC üzvünün siyasi motivlərlə, o cümlədən Bakı şəhərində 82 nəfərin həbs edildiyi barədə xəbərlərin dərc olunması ilə

əlaqədar Azərbaycan Respublikasının Prokurorluğu araşdırma aparır. Bu günə kimi müəyyən edilib ki, respublika prokurorluq orqanlarının məlumatına görə, 1993-cü il sentyabrın 29-na kimi AXC-nin 5 üzvü başlanmış və istintaqı aparılan cinayət işləri üzrə həbsdədir. Bunlar cinayət məsuliyyətinə cəlb edilmiş şəxslərdir və barələrində həbs qətimkan tədbiri seçilib, yəni Gəncə hadisələrindən sonra. Gəncə hadisələri ilə bağlı 2 nəfər var – Qabil Məmmədov və Sülhəddin Əkbərov. Onları saymıram, çünki biz onlardan danışmırıq. Məqalədə son vaxtlar həbs olunanlardan bəhs edilir. 5 nəfər var, kimin nə üçün və nəyə görə həbs olunduqlarını təfərrüatı ilə deyəcəyəm. Ədliyyə nazirinin müavini, Əmək İslah Müəssisəsinin sabiq idarə rəisi Məmməd Zeynalov Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 168-ci maddəsinin ikinci hissəsi ilə – vəzifə səlahiyyətlərindən sui-istifadə etmədə təqsirli bilinib. Belə ki, onun qanunsuz sərəncamı ilə cəbhəyə göndərilmək bəhanəsi ilə müxtəlif cəza müddətlərinə məhkum edilmiş şəxslər azadlığa buraxılıblar.

Quba Rayon İcra Hakimiyyətinin keçmiş başçısı Eldar Suvxanverdiyev vəzifə səlahiyyətlərini aşmaqda ittiham olunur. O, vətəndaş Nəsirovu təhqir edib və döyüb.

Həmçinin "Azərbalıq" konserninin keçmiş sədri Hafiz Hacıyev Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 167-ci maddəsinin ikinci hissəsi ilə – vəzifə səlahiyyətlərindən sui-istifadədə və vəzifə saxtakarlığında ittiham olunur. İlkin məlumata görə...

**Sədrlik edən.** O da Xalq Cəbhəsinin üzvüdür?

**Eldar Məmmədov.** Onun AXC üzvü olması ilə bağlı bizdə məlumat var.

**Sədrlik edən.** Xalq Cəbhəsinin üzvü idi. Düzdür, o, başqa cəbhələrin də üzvü idi, amma AXC-nin dəqiq üzvü idi. Əks halda, o belə bir vəzifəyə təyin olunmazdı.

**Eldar Məmmədov.** Mənə bu məlumatı verdilər ki, o, Xalq Cəbhəsinin üzvüdür.

Alay komandiri Arif Paşayev Laçının müdafiəsini düzgün təşkil etməməkdə, nəticədə rayonun erməni qəsbkarları tərəfindən ələ keçirilməsində ittiham olunur. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 255-ci maddəsinin "v" bəndi ilə təqsirləndirilir.

Bakı şəhərinin sabiq prokuroru Çingiz Qəniyev isə öz vəzifə səlahiyyətlərini dəfələrlə aşmaqda, o cümlədən Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 168-ci maddəsinin ikinci hissəsi ilə, xüsusən də 1992-ci il noyabrın 19-da qanunsuz olaraq vətəndaşı həbs edib. 6 ay həbsdə

olan Rzayevin barəsində olan cinayət işinə sonradan xitam verilib. O, 1993-cü il fevralın 17-də prokurorluğun binasında şahid Mirzəyevi təhqir edib, ona qarşı zorakılıq tətbiq edib, 1993-cü il iyunun 8-də Azərbaycan Respublikası Ali Sovetinin binası qarşısında toplaşanlardan jurnalist Əliyevi və başqalarını açıq şəkildə təhqir edib.

Deməliyəm ki, bütün bu hallar araşdırılır və onların nəticələrinə əsasən müvafiq qərar veriləcək.

Burada məndən əvvəl də başqa məsələlərlə bağlı danışdılar. Prokurorluq orqanlarında həbs olunan AXC üzvləri yoxdur. İnzibati materiallara gəlincə, daxili işlər naziri onlar haqqında ətraflı məlumat verdi. Bizim yoxlanışımız birgə aparılır və onun burada qeyd etdiyi bütün məlumatlar bizdə eynidir. Ona görə də, yəqin ki, təkrar etməyin mənası yoxdur. Sadəcə, onu deyə bilərəm ki, əməkdaşlarımız qəzetlərin baş redaktorları və İbrahim müəllimlə görüşüblər, AXC-nin qərargahında olublar. Doğrudan da, bizə saxlanılan 54 nəfərin siyahısı təqdim olunub. Lakin yoxlamaya görə, nazir burada məlumat verib, müəyyən edilib ki, cəmi 31 nəfər inzibati həbsə alınıb. Onlardan bir neçəsi hələ də həbsdədir. Biz razılaşdıq ki, bu gün müvafiq qərar qəbul edəcəyik və yekun yoxlamanın nəticələrini bildirəcəyəm.

**Sədrlik edən.** AXC üzvü olan və məsuliyyətə cəlb edilən 1 nəfərin adını çəkmədiniz. Bu, sabiq prokuror İxtiyar Şirinovdur.

**Eldar Məmmədov.** Biz elə bu işi soruşurduq, mən də aydınlaşdırdım...

**Sədrlik edən.** Amma o da AXC-nin üzvüdür.

**Eldar Məmmədov.** Bəziləri deyir ki, AXC üzvüdür, bəziləri deyir, üzvü deyil, ona görə də adını çəkmədim.

**Sədrlik edən.** Siz onun birinci müavinisiniz, onun üzv olduğunu, yoxsa olmadığını başa düşməmisiniz?

**Eldar Məmmədov.** Bu, çətin sualdır.

**Sədrlik edən.** Yaxşı, əyləşin. Sualınız var? Buyurun. Mikrofonu verin ona.

**Yerdən.** Heydər müəllim, çox sağ olun, mənə söz verdiniz.

**Mirağa Cəfərquliyev.** Xalq Cəbhəsi bizim prokurorluq sistemində bir ilin içində 75 rayon və şəhər prokurorlarını birdəfəlik çıxarıb atdı kənara. Onların 8-i elə bu Ali Sovetin deputatıdır. İndi burada Xalq Cəbhəsi gündə bir məsələ qaldırır. Hətta 5-6 nəfəri daxili işlər naziri saxlayıb

onları cərimələyəndə aləmi qaldırırlar ayağa. Biz də oturub onu müzakirə eləyirik.

Mən Respublika Prokurorluğundan, prokurorun birinci müavinindən xahiş edirəm, onlara tapşırıq verəsiniz ki, siyahı tutsunlar. Təkcə bir ilin içində prokurorluq sistemində soyqırımı törədilib, 75 rayon, şəhər prokurorunu heç bir səbəb olmadan işdən çıxarıblar. Heç bir əsas yoxdur. Məni gör necə çıxarıblar: 35 ildir bu sistemdə işləyirəm, Çingiz Qəniyevin ayın 15-də meydandakı qərarı ilə məni atıblar bayıra. 1 il 4 aydır ki, öz işimə bərpa oluna bilmirəm. Xahiş edirəm, bütün respublika üzrə göstəriş verəsiniz ki, o siyahı tutulsun. Bu bir il içində Azərbaycan xalqının ziyalılarını məhv ediblər. Nə qədər adamı başqa işə keçmək adı ilə çıxarıb atıblar bayıra.

İndi Respublika Prokurorluğundan yoldaşlar mənə müraciət edib. Xahiş edirlər ki, onlar işlərinə bərpa olunsunlar. Ölkədə bu saat tanınmış ziyalılar qalıblar kənarda. Onların ailəsi var, balaları var. Onlar öz xalqına xidmət etmək istəyirlər. Xahiş edirəm, bu tapşırığı verəsiniz, Sizə məruzə eləsinlər. Çox sağ olun.

**Sədrlik edən.** Axı Siz sual vermək istəyirsiniz? Sualınız nədən ibarətdir?

**Mirağa Cəfərquliyev.** Mənim sualım ondan ibarətdir ki, birinci müavin kimi hazırda bu məsələ ilə məşğul olubmu? Bilirmi ki, bu Xalq Cəbhəsi Respublika Prokurorluğunun başına nə oyunlar gətirib? Xahiş edirəm, bir-iki kəlmə desin.

**Yerdən.** *(Eşidilmir.)*

**Eldar Məmmədov.** Başlayacam, qoy bu suala cavab verim. Mirağa müəllimdən başlayım. Konkret sual – konkret cavab. Mirağa müəllimə gəlincə, Mirağa müəllim, Sizin qanunsuz işdən azad olunmağınızla bağlı vəzifəmin icrasının üçüncü günündə şəxsən imzalayıb Ali Şuraya vermişəm. Bu Sizin qanunsuz olaraq işdən azad olunmağınızla bağlı Sizə cavabımdır.

İkinci sual. Sualın ikinci hissəsi. Məncə, bizim deputatlarımız, prokurorlarımız, o cümlədən Yılmaz müəllim də burada oturub, başqaları da mənim bu məsələyə münasibətimi bilir. Biz dəfələrlə bu mövzuda söhbətlər aparmışıq, Baş prokuror da bu problemi bilir. Hazırda bu istiqamətdə bütün məsələləri həll etmək üçün iş gedir. Təbii ki, bu məsələləri bir gündə həll etmək olmaz. Amma prinsipcə, bu iş gedir və ümid edirəm ki, Baş prokuror qayıdacaq, bu məsələlər tez bir zamanda öz həllini tapacaq.

**Sədrlik edən.** Sizin də sualınız var? Çıxış eləyirsiniz?

Bilirsiniz, Siz deyirsiniz ki, bir ilin içərisində, qısa müddətdə Xalq Cəbhəsi 75 nəfər prokurorluq işçisini çıxardı, atdı kənara. Onlar pis iş görüblər, bu, şübhəsizdir. Onlar qanunu pozublar. Əgər onlar qanunu pozublarsa, bu təkcə prokurorluqda deyildi, Daxili İşlər Nazirliyində və digər idarələrdə də elə idi. Harada adamları çıxarmayıblar? Hər yerdə. Mən demirəm ki, adamları işdən çıxarmaq olmaz, olar. Yəqin ki, çıxarmaq da lazımdır, heç bir yer heç bir adama daimi verilmir. Ancaq burada başdan ayağa qanun pozğunluğu olubdur. Buna şübhə yoxdur. Siz bunu deyirsiniz, mən Naxçıvanda Ali Sovetin sədri idim. Mənim ətrafımda onlar Daxili İşlər Nazirliyində qanun pozğunluğu edirdilər. Mən də müraciət edirdim, elə burada oturan şəxsə də, başqasına da heç fikir vermirdilər. Amma bu o demək deyil ki, biz də qanunun pozulmasına yol verəydik. Əksinə, biz gərək elə yollarla getməyək, biz hər bir kəsin hüququnun müdafiəsi üçün gərək lazımi tədbirlər görək. Yəni pis işlər, mənfi hərəkətlər təkrar olunmamalıdır.

Yaxşı, 3 nəfər məlumat verdi. İndi burada görürəm, yazılıblar. Yəqin ki, 1-2 nəfər danışmalıdır. Tofiq Qasımov yazılıb, danışmalıdır, İbrahim İbrahimov, düzdür, yazılmayıb, amma deyib ki, danışmaq istəyir, danışmalıdır. Buyursun Tofiq Qasımov.

**Tofiq Qasımov.** Çox sağ olun. Mən, ümumiyyətlə, daxili işlər nazirinə sual vermək istəyirdim. Getdi deyə çıxış eləməli olacağam. Yəni məsələ bundadır ki, daxili işlər naziri dedi, o adamlar barədə sənədlər öyrənilir və o adamlar ki inzibati qaydada fövqəladə vəziyyət rejimini pozublar, onları guya buraxacaqlar. Əslində, fövqəladə vəziyyət rejimi ayın 22-dən ləğv olunub, bu gün də ayın 28-dir. O adamları da ora cəlb eləyəndə məhkəmənin qərarı ilə onlara 15 gün veriblərsə, deməli, o sənəd məlumdur, maddəsi də məlumdur.

15 gün verilən adamın 7 gündə sənədini yoxlayıb sonra buraxacağam. Ayın 30-da buraxılmalıdır, bu gün ayın 29-dur. İndi “sənədini öyrənirəm” demək nə deməkdir?

Çünki “Fövqəladə vəziyyət haqqına” Qanunda yazılıb ki, o şəxslər heç bir əlavə yoxlanılma, yaxud əlavə qərar olmadan dərhal azad edilməlidirlər. Yəni fövqəladə vəziyyət özü ləğv edilibsə, bununla bərabər, həbs olunan adamların hamısı dərhal buraxılmalıdırlar.

Ona görə də mənə elə gəlir ki, bir gün qalmış onların sənədlərini öyrənmək ciddi söhbət deyil. Sağ olun.

**Sədrlik edən.** Mürşüd Məmmədov, buyurun.

**Mürşüd Məmmədov.** Hörmətli Heydər müəllim, mən çıxış eləmək fikrində deyildim. Dəfələrlə burada Azərbaycan Xalq Cəbhəsi haqqında müxtəlif səviyyəli, müxtəlif istiqamətli söhbətlər aparılır və mən çox təəssüf edirəm ki, Sizin də özünüzün dəfələrlə bəyanat verməyinizə baxmayaraq, Azərbaycan Xalq Cəbhəsinə birmənalı yanaşmaq olmaz. Bizim özümüz də təsdiq edirik ki, həmin hərəkatın tərkibinə təsadüfən soxulmuş ünsürlər var idi, talançılar, təxribatçılar var idi. Amma bütövlükdə Azərbaycan Xalq Cəbhəsinin Azərbaycan xalqının milli-azadlıq hərəkatındakı rolunu danmaq olmaz.

Mən belə hesab edirəm ki, bu gün Sizə tutduğunuz vəzifəyə görə yaltaqlanan adamlar 1991-ci ildə Heydər Əliyev referendumun əleyhinə səs verəndə, bəlkə də, onun haqqında da məsələ qaldırardılar ki, nə üçün referendumun əleyhinə gedir və nə üçün SSR İttifaqının tərkibinə daxil olmaq məsələsinə birtərəfli yanaşır.

Mən belə hesab edirəm ki, bu adamlar hansı zümrəyə, hansı partiyaya, hansı hərəkata xidmət etməklərindən asılı olmayaraq, cinayət törədibsə, cinayətkar cinayətkardır. Onsuz da respublikamızın mürəkkəb olan vəziyyətini bu gün daha da mürəkkəbləşdirmək marağında olan, hərc-mərcliyə sövq eləyən, süni surətdə qarşıdurma yaradan adamları, xahiş edirəm, Xalq Cəbhəsində yox, Sizin ətrafınızda olan bəzi vəzifə sahiblərinin içərisində axtarmaq lazımdır.

Sizə bəzən saxta məlumat verirlər. Sadəcə, Sizin yanınızda yerlərini şirin salmaq istəyirlər ki, Heydər müəllim qoy mənə bir “sağ ol” desin. Desin ki, mən necə xidmət eləyirəm.

Siz özünüz də 1987-ci ildən sonra rejimə qarşı, totalitar siyasi əxlaqa qarşı mübarizə aparmısınız, Lalə xanım da mübarizə aparıb və bu gün Milli Məclisin üzvü olan Arif Rəhimzadə də özünün mövqeyinə görə həmişə əvvəlki iqtidara qarşı opponent kimi çıxış eləyirdi və bir mövqeyini, bir simasını nümayiş etdirirdi.

Bu gün elə adamlar var ki, onlar Vəzirova da, Mütəllibova da, Yaqub Məmmədova da işləyiblər. Yaqub Məmmədov deyirdi ki, deputatların elələri var ki, onların 5 sifəti var. Çox təəssüf ki, həmin adamlar bu gün Azərbaycan Xalq Cəbhəsinə səlib yürüşü elan eləməklə, sadəcə, siyasi xal toplamaq istəyirlər.

Heydər müəllim, Siz Allah qoysa bir neçə gündən sonra respublikaya Prezident seçiləcəksiniz. Milli barışıq ideyasını, mən elə bilirəm ki, Siz həyata keçirməlisiniz. Bu tarixi şansı həyat Sizə verib. Elə bilirəm ki, sa-

bah başqa bir hakimiyyət gələcək və başlayacaq indikiləri təqib eləməyə ki, sən filankəsə mənsub olmusan, sən filan partiyanın üzvü olmusan. Sizin dediyiniz kimi, biz xırda bir xalqıq. Əgər biz bu gün milli birliyə nail olmasaq, özü də milli ideya ətrafında birliyə...

Çox təəssüf ki, bəzən bizdə birlik deyəndə ancaq gəl mənim platformamda birləş, biz bir olaq düşünülür. Vahid ideya ətrafında biz birliyə nail olmasaq, Azərbaycan siyasi gələcəyi olmayan dövlət olacaq.

Mən Sizdən çox xahiş edirəm, Heydər müəllim, Azərbaycan Xalq Cəbhəsinə qarşı, mən onun intellektual potensialını nəzərdə tuturam, onun Azərbaycan xalqında milli mənəmlik şüurunu tərbiyə edənlərə qarşı səlib yürüşünü dayandırasınız. Sizin göstərişinizdən asılıdır. Siz nə desəniz, bu gün Xalq Cəbhəsinə qarşı çıxanların hamısı Sizin sözünüzü təkrar eləyəcək. Elə bilirəm, Azərbaycanda milli birliyi qoruyub saxlamaq hava, su kimi lazımdır. Məsələn, təklif edirlər ki, İbrahim İbrahimov Milli Məclisin tərkibindən çıxarılsın. Mən, sadəcə olaraq, belə bir təklifi verən adama təəccüblənirəm. Respublikada demokratik hərəkatın liderlərindən birini buradan çıxarırıq.

Yaxud da deyir, 9-10 nəfər əleyhinə səs verib. Bəziləri elə fikirləşir ki, 9-10 nəfər səs vermirsə, deməli, demokratiyanın qığılcımları var və biz onu gücləndirməliyik. Sağlam müxalifəti – respublikanın taleyini, iqtisadiyyatını, mənəviyyatını, siyasi potensialını gücləndirmək məqsədlərinə xidmət edən hər cür sağlam müxalifəti biz müdafiə eləməliyik.

Əvvəllər kommunistlərin leksikonunda ifadə var idi: mənəvi-siyasi yekdillik. Biz Azərbaycanın bu gün suverenliyini, ərazi bütövlüyünü, onun iqtisadiyyatını, mənəviyyatını göz bəbəyi kimi qorumalıyıq. Bu mənəviyyatı göz bəbəyi kimi qorumaq istəyənlərə qarşı hər hansı bir hücumun dayandırılmasını Sizdən xahiş edirik. Sağ olun.

**Sədrlik edən.** Ədalət Rəhimli, buyurun.

**Ədalət Rəhimli.** Hörmətli sədarət, hörmətli millət vəkilləri. Respublika prokurorunun müavini çıxış eləyəndə Xalq Cəbhəsinin, yaxud da demokratik blokun nümayəndələrinin həbs olunanlarını belə günahlandırır ki, guya onlar öz səlahiyyətlərini aşmışlar. Onda sual olunur: İxtiyar Şirinovu, Sülhəddin Əkbərovu, yerli sovetin deputatı Arif Paşayevi Milli Məclisin və yerli sovetin icazəsi olmadan həbs eləyən adamlar barədə nə etmək lazımdır? Yaxud da Çingiz Qəniyev Mərkəzi Seçki Komissiyası sədrinin birinci müavinidir. Yenə də Milli Məclisdən icazə alınmayıbdır. Bunlar haqqında nə etmək lazımdır?

Vaqif müəllim, mən Sizə müraciət etmək istəyirəm. Mən çox təəssüf edirəm ki, Siz burada olduqca çox ciddi bir təkzib elədiniz ki, İbrahim İbrahimovu Milli Məclisin tərkibindən çıxarmaq, Xalq Cəbhəsini ləğv eləmək. İnanın, zorakılıq üsulu ilə kimisə, xüsusən müxalifətdə olan, qeyrəti çatan adamları uzaqlaşdırmaqla Siz heç də yaxşı bir inkişafa nail ola bilməzsiniz. Mürşüd müəllim çox düz dedi, Allaha şükür, bizim ziyalılar arasında o qədər məddah var ki, Ayaz Mütəllibovu da, Elmira xanımı da, Yaqub Məmmədovu da, nə bilim, İsa bəyi də, Əbülfəz bəyi də, indi də Heydər Əliyevi o qədər tərifləyən adamlar var ki. Ona görə tərifçiliyə ehtiyac yoxdur, Vaqif müəllim. Bizə məhz azdan-çoxdan həqiqəti dərk eləyən adamlar lazımdır. Bu gün İbrahim İbrahimovu çıxarsanız, sabah mən də çıxıb gedəcəyəm, o birisi də. Eybi yoxdur, onda siz hamınız gəlin, burada söz deyin, əl çalın. Onda biz yenidən kommunizm quruluşunu qaytarmış olarıq. Mən hesab edirəm, bu, düzgün yol olmaz. Sağ olun.

**Sədrlik edən.** Nurəddin Əhədov, buyurun.

**Nurəddin Əhədov.** Möhtərəm sədr. Siz Ali Sovetin sədri seçiləndə öz proqram çıxışınızda dediniz ki, bizim yolumuz demokratiyaya doğrudur, fikir plüralizminə, çoxpartiyalılığa doğrudur. Mənim bu fikrə münasibətim müsbətdir. Mən də belə hesab edirəm ki, bizim yolumuz demokratiyaya doğrudur. Biz demokratik cəmiyyət qurmalıyıq, orada çoxpartiyalılıq olmalıdır, cəmiyyətin inkişafı üçün fikir plüralizminə yer vermək lazımdır. Çünki indi dünya əvvəlki dünya deyil. Siz özünüz bilirsiniz, indi dünyada demokratik beynəlxalq təşkilatlar var ki, onlar insan hüquqlarının qorunmasına çox böyük diqqət yetirirlər. Mən də belə məsələlərdə sizin proqram çıxışlarınızla razıyam.

Lakin Sizin vəzifəyə təyin etdiyiniz bəzi rəhbər işçilər qəzet səhifələrində çıxış edərək bəzən demokratiyanı ələ salırlar, fikir plüralizmini həzm eləyə bilmirlər. Yad fikrə görə adamlar təqiblərə, təhqirlərə məruz qalırlar. Mən belə hesab edirəm, bu keçicidir. Çünki biz totalitar düşüncə psixologiyasından hələ azad olmamışıq.

Mən ümid edirəm ki, Azərbaycanda bu məsələ özünün müsbət həllini tapacaq. Buna zaman, vaxt lazımdır ki, bizdə demokratiya düşüncədə özünə yer eləsin.

Bu gün bizim hörmətli daxili işlər nazirimiz Azərbaycan Xalq Cəbhəsi İcraiyyə Komitəsinin sədri İbrahim İbrahimovun Məclisdən çıxarılması təklifini irəli sürdü. Mən belə hesab edirəm ki, bu təklif bizim demokratik prinsiplərimizə uyğun gəlməz, beynəlxalq aləmdə mövqe-

yimizə pis təsir edə bilər. Ümumiyyətlə, bütün demokratik ruhlu adamlara pis təsir edə bilər. Əvvəla, mən xahiş edirəm ki, hörmətli nazir öz təklifini geri götürsün. İkinci, Sizə təklif edirəm ki, əgər bu təklifi səsə qoysanız, biz bunun əleyhinə səs verəcəyik və İbrahim İbrahimovu müdafiə eləyəcəyik. Ümid eləyirəm ki, hamı Azərbaycanda demokratiyanın bərqərar olmasına kömək edəcək. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Şadman Hüseynov, buyurun.

**Şadman Hüseynov.** Hörmətli sədr, hörmətli millət vəkilləri. Burada bir fikir səsləndi ki, Azərbaycan Xalq Cəbhəsini bir təşkilat kimi bağlamaq, onun binasını alıb hər hansı digər bir təşkilata vermək. Belə çıxır ki, bu adamlar gələcəkdə digər siyasi partiyalara və digər siyasi hərəkatlara qarşı da yönəldilə bilərlər. *(Gülüş.)*

Mən bu gülüşü demokratiyanın pozulması kimi qəbul edirəm. Yaxşı olar ki, axıra kimi dinləyəsiniz, sonra gülmək lazımdırsa, gülərsiniz. Tələsməyin gülməyə.

Əgər Azərbaycanda siyasi plüralizm varsa, bu, demokratiyanın möhkəmlənməsinə apara bilər. Belə hücumlar gələcəkdə respublikada sabitliyi ancaq poza bilər. Ona görə də belə fikirlərin burada səslənməsinə Siz bir sədr kimi gərək yol verməyəsiniz. Hər hansı bir təşkilatda, həmçinin indiki hökumətin özündə də və Sizin ətrafınızda olanların arasında da respublikada sabitliyi pozmağa çalışmaq istəyənlər və bəzi hallarda ona nail olanlar var. Ona görə də bu fikirlərdən uzaqlaşmaq lazımdır. Siyasi partiyalar fəaliyyət göstərməlidir. Əgər nə vaxtsa respublikada ümumxalq səfərbərliyi elan edilərsə, Azərbaycan müharibə aparan bir respublika kimi müharibə qanunlarını tətbiq eləyərsə, aydındır ki, siyasi partiyalar öz fəaliyyətini dayandırar və bütün qüvvələr yeganə bir məqsədə – Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizəyə yönəldilə bilər. Sağ olun.

**Sədrlik edən.** Şadman bəy, bir adamın bir fikir deməyi, o biri adamın o biri fikri deməyi elə bunun özü siyasi plüralizmdir. Ona görə də bundan incimək lazım deyil. Amma o demək deyil ki, hər bir təklif qəbul oluna bilər. Hər adamın təklif verməyə ixtiyarı var. Vaxtilə Siz deyəndə ki, filan şey dağılsın, ona deyərdilər, demokratiya. İndi bu da öz fikrini deyir. Bunun da öz fikri var. Bu elə plüralizmdir.

Buyurun, İbrahim İbrahimov.

**İbrahim İbrahimov.** Hörmətli sədr, hörmətli millət vəkilləri. Son dövrlərdə, xüsusən son 3 ayda mən demokratiyanın və insan hüquq-

larının pozulmasının iki əsas başlıca səbəbini görürəm. Birinci səbəb antikonstitusion yolla hakimiyyətin dəyişməsi idi. Məhz onun məntiqi nəticəsidir ki, antikonstitusion yolla hakimiyyətin dəyişməsi bu hakimiyyətin möhkəmlənməsi üçün insan hüquqlarının pozulmasına və demokratik prinsiplərin tapdalanmasına gətirib çıxarmalı idi. Xatirinizdədir, biz dəfələrlə deyirdik, hətta Gəncə hadisələri müzakirə olunanda da deyirdik ki, ondan sonrakı hadisələrə siyasi qiymət verək. Beləliklə, bu hadisələrə siyasi qiymət verməməyimiz, bu gün insan hüquqlarının, demokratiyanın pozulması, çox yüksək vəzifələrdə olan bəzi adamların respublikada yaranmış gərginliyi daha da gərginləşdirməsi üçün aqressiv şəkildə kampaniya aparması dediyim bu səbəblə bağlıdır.

İkinci səbəb, indiki hakimiyyət özünü təsdiq etməyini əvvəlkinin inkarı üzərində qurubdur. Bu, keçmiş kommunist rejiminə məxsus olan metoddur. Biri hakimiyyətə gəlirdi, o birini tənqid eləyirdi, o biri hakimiyyətə gəlirdi, özündən əvvəlkini tənqid eləyirdi və beləliklə, özünü təsdiq elətdirmək üçün əvvəlkini inkar eləyirdi. Bu dəqiqə bu prinsip əsasında hakimiyyətin möhkəmlənməsi, təbii ki, burada nə siyasi sabitliyin formalaşmasına, nə insan hüquqlarının qarşısının alınmasına, nə də demokratik prinsiplərin gözlənməsinə şərait yaratmayacaqdır. Özü də kimlər deyir bunu, 74 il müddətində respublikanı bu vəziyyətə salan, həmin indiki hakimiyyətdə əyləşən, 10 illərlə, nə bilim, 20 illərlə yüksək vəzifələrdə çalışan adamlar bu gün 1 il müddətində fəaliyyət göstərən iqtidarı tənqid eləməklə bütövlükdə 74 il müddətində yığılıb qalmış bütün problemləri birillik iqtidarın boynuna yıxmaqla... Bu, səmimi deyil. Bu, yaxın müddət üçün qazanılan reytinqdir. Keçmiş iqtidarı bir ay, iki ay, üç ay, dörd ay, beş ay, altı ay söymək olar. Bir müddətdən sonra artıq xalq bunu qəbul eləməyəcək, yəni bu cür özünü təsdiq edib əvvəlkini inkar eləməklə biz dediyimiz o demokratik dövləti, hüquqi dövləti qura bilməyəcəyik. Bu ən başlıca səbəblərdən biridir.

Mən indi əsas məsələnin mahiyyətinə keçmək istəyirəm. İcraiyyə Komitəsinin sədri kimi namizədliyim veriləndən sonra Ali Məclis sədri tərəfindən AXC ali məclisinin sədri ilə bir yerdə rayon şöbələrini gəzib, təşkilatdaxili yığıncaqlar keçirib rayon şöbələrinin icra komitələrinin sədrləri ilə həm tanış olurdum, həm də təqdim olunurdum. Belə bir vaxt – sentyabrın birinci ongünlüyündə mən Suraxanı rayon şöbəsinin yığıncağında iştirak eləyərkən Vaqif Novruzovun göstərişi ilə rayon polis rəisi içəri daxil oldu, mənə çox kobud şəkildə; Siz kimsiniz? Burada nə

edirsiniz? – dedi. Dedim ki, millət vəkiliyəm, AXC İcraiyyə Komitəsinin sədriyəm. Mən rayon şöbəsi ilə tanış olub özümü təqdim eləyirəm. Dedi ki, mənə yuxarıdan göstəriş verilib, Vaqif Novruzovdan göstəriş verilib ki, Siz həbs olunmalısınız. Dedim, Sizin məni həbs eləmək səlahiyyətiniz yoxdur. Çünki mən Milli Məclisin üzvüyəm. Buna baxmayaraq, həbs olundum, 3 gün müddətində saxlanıldım. Əgər xatirinizdədirsə, Sizə Moskvada bu barədə sual verildi.

Sonradan mən hüquqlarımın pozulması ilə bağlı məhkəməyə müraciət etdim. Son dövrlərdə Azərbaycan Xalq Cəbhəsinə qarşı başlanmış kütləvi repressiya, fiziki, mənəvi təqiblər, təzyiqlər sentyabrın birinci ongünlüyündə məndən sonra başladı. AXC-nin binasında işığı keçirdilər, telefonları kəsdilər. Səbail və Nərimanov rayon polis idarələrinin işçiləri mülki formada gəlib daxil olurdular, heç nə demədən Vaqif Novruzovun göstərişidir deyib orada həbslər keçirirdilər.

Vaqif Novruzov deyir ki, kimsə polisə tabe olmayıbdır. Nə üçün polisə tabe olmayıb? Polis daxil olub, heç bir order olmadan – nə həbs olunma, nə saxlanma orderi, bu adamı həbs edir, o da ona tabe olmaq istəmir.

Beləliklə, mən ayın 17-də Lalə xanımla əlaqə saxlayıb onun nəzərinə çatdırdım ki, Lalə xanım, AXC İcraiyyə Komitəsinin binasında işıqlar, telefonlar kəsilibdir. Biz hara müraciət eləyiriksə, deyirlər ki, yuxarıdan göstəriş veriblər. Biz Sizdən xahiş edirik, bu məsələlərlə maraqlanın, bizə birköməklik göstərin.

Mən bilmirəm, Lalə xanım nə dərəcədə o işlə maraqlandı, nə dərəcədə köməklik göstərdi. Təqribən iki həftədən sonra AXC-nin işıqları da yandı, telefonları da işlədi.

Ayın 14-də AXC mitinq keçirdi. Mən ayın 23-də Milli Məclisdə mitinqin keçirilməsinin səbəbini izah elədim. Yəni biz Azərbaycanın Müstəqil Dövlətlər Birliyinə daxil olmasına etiraz əlaməti olaraq mitinq keçirdik. Bəli, biz bilirdik ki, "Fövqəladə vəziyyət haqqında" Qanunu pozuruq. Bunun müqabilində də cəzamızı alırıq. Yaxşı, alaq cəzamızı.

Təqribən həmin müddətdə kütləvi şəkildə həbslər başladı. Həbslər haqqında prokurorun heç bir sanksiyası yox idi. Çünki biz rəsmi şəkildə deputat sorğusu vermişdik. Həbs orderi, axtarış orderi olmadan həbs olunanların evlərində axtarışlar aparmağa başladılar. Beləliklə, bütün əlaqələrimiz ətraf şöbələrdən kəsildiyinə görə məcbur oldum ki, AXC qərargahının şöbə üzvlərini buraxıb, özüm tək gecə-gündüz, təqribən 14 gün bir dəfə də olsun gecə evə getmədən qərargahda qalım.

Ayın 21-də mətbuat konfransı keçirdim. Bizə gələn məlumatlara görə, Səbail rayonu ərazisində baş verən hadisə birbaşa Nərimanov rayon polis rəisinə tapşırılmışdı. Niyə? Ona görə ki Vaqif Novruzov uzun müddət Nərimanov Rayon Polis İdarəsində işləyib, yəni onun iş metodu da yoxlanmalı idi. Keçmiş iqtidarın günahı ondadır ki, bu cür adamların eybəcərliklərini, törətdikləri nöqsanları ortalığa qoymadı. Bəli, bu, keçmiş iqtidarın ən böyük günahıdır.

Orada uzun müddət işlədiyinə görə, ətrafına antipodlar, aqressiv, dövlət mənafeyini düşünməyən adamlar yığdığına görə göstəriş vermişdi, Səbail rayon ərazisində baş vermiş hadisə Nərimanov Rayon Polis İdarəsində aparılırdı. Orada nələr baş verib? Bu adamların başları qırxılıb, qadınlar döyülüb, başlarına əleyhqaz keçirilib. Bunları 4 saat döyüblər. Məqsədləri nə olub? Vaqif Novruzov göstəriş verib ki, İbrahim İbrahimov haqqında faktlar toplamaq lazımdır, Milli Məclisdə onun məsələsini qoyub həll eləmək lazımdır.

Vaqif Novruzov, bu gün həbsdən azad olunanları yenidən polis idarələrinə çağırıb onlardan əlavə izahat alıblar, yazın ki, bizi təhqir eləməyiblər, bizə işgəncələr verməyiblər. Qadınların qoluna qandal salıblar, başlarına əleyhqaz keçiriblər, yanlarında nələr danışıblar, nələr deyiblər. Tağı Xalisbəylinin üstünə 15 nəfər düşüb bu adamın saçını, saqqalını qırxıb. Bunlar müsəlman əxlaqına yaraşmayan şeylərdir.

Bütün bunların müqabilində mən ayın 21-də mətbuat konfransı keçirdim. Milli Məclisin nəzərinə çatdırdım ki, sonra təkzib verilib. Təkzibdə göstərildi ki, həbs olunanların sayı 100 nəfərə qədər, işdən çıxarılanların sayı isə 1000 nəfərə qədərdir.

Biz bir məsələ qoyduq. Bu işgəncələrin verilməsini dəqiq şəkildə aydınlaşdırmaq üçün Daxili İşlər Nazirliyinə müraciət elədik. Dedik, sizin qrupla bir yerdə həmin təcridxanada həbs olunanlarla görüşümüz təşkil edilsin. Vaqif Novruzov qəti şəkildə bunun əleyhinə getdi və bu görüşü təşkil eləmədi. Burada məntiq ondan ibarətdir ki, bəli, onlara dəhşətli dərəcədə işgəncə verildiyinə görə Vaqif Novruzov onların o görüşünün baş tutmasına şərait yaratmadı.

Respublikada sabitliyin qarşısını almaq üçün bu gün rəhbərlikdə bir qrup adam fəaliyyət göstərir. Bunlar 74 il müddətində hər biri 10-15 il hakimiyyətdə olub işləyiblər, iqtisadiyyatın müxtəlif gizli sahələri ilə bağlıdırlar. Özlərinə keçmiş iqtidardan, bəlkə, 30 dəfədən artıq yığıblar.

Amma dövlət səviyyəsində AXC-yə qarşı bu cür aqressiv münasibətin aparılması qəbul olunmayan bir haldır.

AXC 5 il müddətində fəaliyyət göstərib. Özünü həm daxildə, həm də xaricdə demokratik qüvvə kimi tanıtdırıb. Belə bir demokratik qüvvə kimi tanınmış insanlara qarşı bu cür həmlələr, hücumlar, terrora məruz qoymağın özü indiki hakimiyyətin demokrat köynəyini çıxarması deməkdir.

Burada AXC İcraiyyə Komitəsinin sədrinin mövqeyini açıq şəkildə görüblər, sizin kimi gündə 100 sifətə düşən olmayıbdır. AXC göstərdi ki, biz referendumun əleyhinə gedirik, boykot eləyirik. Bəli, bununla bağlı biz təbliğat aparırdıq. Amma bu gün AXC Prezident seçkilərinə heç bir müdaxilə eləmir. AXC heç bir namizəd verməyə-verməyə nə dəxli var ki, qapı-qapı düşüb ərizə yığsın ki, seçkiyə getməyin. Bu sizin öz marağınızdır. İçinizdə başqa maraq gizlənir. O marağı saxlayırsınız və Azərbaycanda yeni bir hakimiyyət dəyişməsi üçün o taktiki gedişləri eləyirsiniz. Beləliklə, rəhbərliklə demokratik qüvvələr arasında mübarizə müstəvisini yaratmaq istəyirsiniz. Bu sizin məqsədinizdir. Burada sizin bir çox şəxsi maraqlarınız var, kooperativ maraqlarınız var. Ümumi milli maraq heç vaxt sizi maraqlandırmayıb.

Binanın AXC-nin əlindən alınması. Məgər AXC, doğrudan da, Sizin fikirləşdiyiniz kimi o qədər primitiv təşkilatdır ki, özünün sənədləşdirmə işlərini aparmayıbdır? AXC qanuni şəkildə o binanı icarəyə götürüb, o binanın icarə haqqını verir. Buyurun, gəlin, binanı alın, AXC Sizi məhkəməyə verəcək, öz haqqını tələb eləyəcək. Sizin deməyinizlə bu məsələlər həll olunmayacaqdır.

Heydər bəy, Siz də bunun üçün şərait yaradırsınız. Yadınızdadırmı, mən Sizə sual verdim. Dedim ki, Heydər bəy, Siz seçilirsiniz, demokratiyaya təminat verirsiniz, yoxsa yox? Siz özünüz proqram çıxışınızda göstərdiniz ki, respublikada demokratik prinsiplər qorunacaqdır. Milli Məclisə dəxli olmayan adamların tribunaya çıxarılması, Əbülfəz Elçibəy haqqında müxtəlif, çox aşağı səviyyədə, yəni bu Milli Məclisə yaraşmayan təhqirlərin deyilməsi, AXC haqqında müxtəlif fikirlərin söylənməsi, bu heç vaxt nə bizim Milli Məclisə, nə də bizim rəhbərliyə hörmət gətirməyəcəkdir.

Son anda fikrimi belə izah eləmək istəyirəm ki, heç kim məni Milli Məclisin üzvlüyündən çıxara bilməz, yüz Vaqif Novruzov kimi adam olsun, mənim deputat haqqım, deputat səlahiyyətim var. Mən Vaqif Nov-

ruzov deyiləm ki, geri çəkiləm, qaçam, gündə bir simaya girəm, gündə bir mövqe dəyişəm. Məni heç kim Milli Məclisin tərkibindən çıxara bilməz. Bu mənim deputatlıq səlahiyyətimdir, deputatlıq haqqımdır.

Bütövlükdə respublikada yaranmış bu gərginliklə bağlı yeganə çıxış yolu var. Ölkədə qütbləşmə gedir. Bu gün bu qütbləşməni kəskinləşdirənlər var. Bu gün AXC üzvlərinin həbs olunması, onlara işgəncə verilməsi, sabah hakimiyyət dəyişəndə o qüvvənin yenidən aqressivləşib özünün acığını, qərəzini çıxması siyasi qarşıdurmanın çox dərin ziddiyyətlərə, vətəndaş müharibəsi həddinə gəlib çıxmasına səbəb olacaqdır. Mən Milli Məclisin üzvü kimi təşkilatın mövqeyindən bir daha bəyan eləyirəm ki, AXC siyasi səhnədən getməyə hazırlaşmır. AXC mərhələyə yeni hərəkat kimi daxil olubdur. AXC öz daxilində kəmiyyət, keyfiyyət dəyişiklikləri eləmək istəyir və AXC ardıcıl şəkildə olaraq respublikada pozulan insan hüquqlarına, demokratik prinsiplərə qarşı həmişə mübarizə aparacaqdır. AXC-ni elə-belə danışıqlarla siyasi səhnədən uzaqlaşdırmaq qeyri-mümkündür. Diqqətinizə görə sağ olun, təşəkkür edirəm.

**Sədrlik edən.** Hüseynağa Qəniyev buyursun. O əvvəldən yazılmışdı, qalanları sonra yazılıblar.

**Hüseynağa Qəniyev.** Hörmətli millət vəkilləri. Mən əvvəlcədən çıxış etmək fikrində deyildim. Lakin burada insan hüquqlarından söhbət düşdü, mən də İnsan hüquqları komissiyasının üzvü kimi bu məsələyə biganə qala bilmədim. Burada çıxış eləyən həmkarlarıma bir neçə məsələni xatırlatmaq və soruşmaq istəyirəm. Deyəndə ki, bəzi yoldaşların neçə üzü var, bəs insan hüquqlarının qorunmasının neçə üzü var? Mən bu parlamentdə sizinlə birlikdə insan hüquqlarının dövlət səviyyəsində dəfələrlə pozulmasının və bunun alqışlanmasının şahidi olmuşam. Yəqin, siz də şahidi olmusunuz. Şahidi olmusunuz ki, jurnalistlər döyülüb. Hətta jurnalisti maşının yük yerində aparmaq istəyiblər. Şəxsən insan hüquqları haqqında düşünən hər bir adam o jurnalist orada aparılarkən özünü onun yerində hiss eləməli idi. Lakin çox adam bunu hiss eləmirdi. Deyəndə ki, biz tankla, silahla gəlmişik, tankla da, silahla da gedəcəyik. Məgər bu, demokratiyadırmı? Bu, insan hüquqlarının qorunmasıdırmı?

Milli Məclisin iclaslarında siz hamınız yaxşı xatırlayırsınız. Bir dəfə Fərəc Quliyev çox mülayim şəkildə, ona elə gəlirdi ki, bu, qanuni bir şeydir, dedi, Xalq Cəbhəsi qərara alıb ki, Məclis qurtarandan sonra bir neçə deputat ki var, onları biz girov saxlayarıq, onlarla bir balaca işimiz olacaq və sonra evə gedə bilərsiniz. Məgər bu insan hüquqlarının qo-

runması idimi? O yoldaşlar ki indi belə danışırlar, bəs onda niyə danışmırdılar? Mən dəhşətə gəldim ki, bu nədir, parlamentə ictimai təşkilat tərəfindən ultimatum verilir. Mən onda başa düşdüm, bu, ümumiyyətlə, demokratiya deyilən bir şey deyil. Diktatura adını çəkmək istəmirəm, çox adlar var qoymağa. Bu belə bir təşkilatdır.

Mən yoldaşlara xatırlatmaq istəyirəm ki, millət vəkillərini bu binaya buraxmırdılar. Mən Milli Məclisin üzvlərini demirəm, millət vəkillərini Ali Sovetə buraxmırdılar. Hara şikayət edirdilərsə, heç kim buna əhəmiyyət vermirdi. Sessiya çağırmaq üçün imza edən deputatların haqqında cinayət işi qaldırırdılar. Bu, deputatın öz səlahiyyətidir, tələb eləyə bilər, imza edə bilər, sessiya çağırılsın, yaxud çağırılmasın. Bunun üçün cinayət işinin qaldırılmasının bir mənası varmı? Ali Sovetin və Bakı Soveti deputatlarının bir qrupu, Heydər müəllim, gecə ikən polis idarələrinə çağırılmışdı və səhərə qədər orada saxlanmışdılar. O adamların bəziləri xəstəlik də tapmışdılar.

Milli Məclisdə yoldaşlar – ad çəkmək istəmirəm – prinsipial bir söz deyəndə küçə söyüşləri ilə təhqir olunublar. Mən xəcalət çəkmişəm ki, orada iştirak edirəm. O adamlar o cür söyüşlərlə Milli Məclisin üzvlərini təhqir edirdilər. Bəs o vaxt bu yoldaşlar niyə durub insan hüquqlarından danışmırdılar? Mən deyirdim ki, insan hüquqlarından danışmaq üçün gərək ətrafımda 20 nəfər cangüdən olsun. Danışmaq mümkün deyildi. Bu nə demokratiya idi? Görkəmli alimlərimiz küçədə gözümüzün qarşısında döyüldü, söyüldü, istədikləri kimi onlarla rəftar elədilər. Bu foyedə bir neçə nəfər gəlib bizə nalayiq sözlər dedilər və bildirdilər ki, bir də belə hərəkətlər eləsəniz, sizin ağlınızı başınıza gətirərik. Deputat nə eləməlidir? Deputat özü üçün top-tüfəng almalıdır, qoşun saxlamalıdır? Əgər bu adamın daxilində dövlət təfəkkürü yoxdursa və bu adamda, ümumiyyətlə, insan hüquqlarına münasibət yoxdursa, onu nə təşviqat yarada bilər, nə də başqa təsir vasitələri ilə yaratmaq mümkün deyildir.

Dövlət səviyyəsində elan olunurdu ki, xalqın 95 faizi bizdən üz döndərsə də, biz hakimiyyətdən getməyəcəyik. Necə ola bilər ki, xalqın 95 faizi üz döndərsə, biz getmərik. Məgər bu, demokratiyadırmı? Alışanlının qayçısı bizi daha boğaza yığmışdı. Şəxsən bu parlamentdə bir ildən artıq danışmışam, bir sözüm belə efirə getməyib. Alışanlı deyib ki, orada elə millət vəkilləri var ki, onların sifətlərini görəndə xoşlamıram, allergiya oluram. Adi insanlıq ləyaqətini də bu adam yerinə yetirmirdi.

Hələ rayonlarda nələr baş verib. Bir gündə neçə minlərlə adam işdən çıxarılıb. Mən ondan soruşmaq istərdim ki, bax bu demokratiyanın neçə üzü var? Bu insan hüquqlarının neçə üzü var? Onda durub deyərdin də.

Mən Milli Məclisə üzv seçiləndə, adını çəkmirəm, deyirdi ki, bu, partokratdır da. Yenə sağ olsun Tahir ki, onu başa saldı ki, partokratam, ya partokrat deyiləm. İnsanları cəbhələrə bölmüşdülər, qarşı-qarşıya qoymuşdular. Yaxşı, indi nə təhər oldu ki, həmin yoldaşlar demokratiyanın adından danışırlar.

Biz o qanunsuzluqlara baxıb qanunlara əməl eləməliyik. Əgər müxalifət konstruktivdirsə, əgər xalqa xidmət edirsə, əlbəttə, o müxalifətə biz hamımız kömək eləməliyik. Müxalifət dağıdıcı olanda, intriqaya, xalqın əleyhinə çevriləndə, mən, əlbəttə, o müxalifətin əleyhinə olaram. Müxalifət sağlam, konstruktiv müxalifət olmalıdır. O müxalifətin cəmiyyətə xeyri var. Dağıdıcı müxalifət, xalqın ziddinə olan müxalifət heç vaxt xalqa fayda verə bilməz və elə müxalifət heç lazım da deyil.

Burada çox yaxşı dedilər ki, milli barışıq. Mən həmişə milli barışığın tərəfdarı olmuşam. Amma gəlin, milli barışığı eləyək, bu addımı ataq və reallığı dərk eləyək ki, reallıq hansı tərəfdədir. O barışığa tərəf gəlmək lazımdır. Yoxsa sən əvvəlki yolunla gedirsən, 95-98 faiz əhali də sənə tərəf gəlməlidir ki, biz barışıq eləyək. Əgər reallığı görürsənsə, sən özün barış. Xalqın adından danışmaq lazım deyil, xalq öz sözünü deyib. Ona görə bu milli barışığın özünə də bir az real yanaşmaq lazımdır.

Mən hesab edirəm ki, Heydər müəllim, biz demokratiya deyəndə qanunların diktaturasını başa düşməliyik. Qanunçuluq hər bir adama şamil edilməlidir. Mən bir şeyi də başa düşə bilmədim ki, Xalq Cəbhəsi ictimai-siyasi təşkilatdır. Bunu aydınlaşdırmaq lazımdır. Bu, ictimai təşkilatdır, ya siyasi təşkilatdır? Bizim ictimai təşkilatımız haqqında, siyasi partiyalarımız haqqında qanunumuz var. Hansı formasını götürür-götürsün, ümumiyyətlə, mən hesab edirəm ki, haqq-ədalət qalib gəlməlidir. Qanunların diktaturasına biz tam əməl eləməliyik. Çox sağ olun.

**Sədrlik edən.** Çox adam yazılıb. Davam eləmək lazımdırmı? Rafael Allahverdiyev arayış versin. Bakı şəhər icra hakimi.

**Rafael Allahverdiyev.** Hörmətli sədr, hörmətli millət vəkilləri. İbrahim bəy İbrahimovun çıxışına bir arayış vermək istəyirəm. Dövlət katibinin tapşırığı ilə biz Xalq Cəbhəsinin binasında işıq olmamasını araşdırdıq, tam məsuliyyətlə deyə bilərəm ki, bu üç ay ərzində texniki səbəblərə görə cəmi 6 saat o binada işıq olmayıb. O ki qaldı telefon

rabitəsinin olmamasına, Rabitə Nazirliyindən aldığımız məlumata görə təxminən 10 gün orada kabel xarab olduğuna görə rabitə kəsilmişdi.

**Sədrlik edən.** Yaxşı, mənə belə gəlir ki, bu məsələni artıq müzakirə etməyə o qədər də ehtiyac yoxdur. Bir neçə kəlmə də mən demək istəyirəm. Bu məsələni Milli Məclis səviyyəsinə qaldırmaq və daxili işlər nazirinin, milli təhlükəsizlik nazirinin, Baş prokurorun birinci müavininin burada məlumatını dinləməyin özünü əgər bu işə ədalətlə yanaşan adamlar qiymətləndirə bilsələr, elə bu, demokratiyanın çox güclü bir təzahürüdür. Siz təsəvvür edin, başqa bir yerdə imkanınız olmadığı sözləri siz burada deyirsiniz və bu imkanı da sizə mən yaradıram. Bütün respublika bunu eşidir.

Siz mətbuat konfransı keçirmisiniz. Tutaq ki, 30-40 jurnalistə demisiniz bunu. Xarici ölkələrə vermisiniz. İndi bütün dünya eşidir bunu. Dünyadakı hansı xarici müxbir, hansı xarici ölkənin səfiri bu məlumatı almaq istəyirsə, alır. Məsələn, əgər mən başqa fikirdə olsaydım, bu məsələni müzakirəyə niyə çıxarırdım? Biz srağagün yığışmışdıq, nazirin də məlumatını dinlədik, sonra çağırdım daxili işlər nazirini də, milli təhlükəsizlik nazirini də, Baş prokuror yox idi, onun birinci müavinini də, yazılı məlumatları da verdilər, burada var. Bunlarla qane olub müəyyən göstərişlər vermək olardı. Əgər bu məsələni biz belə geniş şəkildə müzakirəyə çıxarırıqsa və bütün əhaliyə imkan yaradırıqsa ki, bu məsələyə münasibətlərini bildirsinlər, demək, bu özü ən böyük demokratiyadır. Ancaq bəla burasındadır, Xalq Cəbhəsinin ən böyük bəlası da budur ki, bizim Məclis üzvü İbrahim bəy kimi adamlar elə hesab edirlər ki, onlar Azərbaycanda demokratiyanın Allahıdırlar, onların dediyi söz “Quran” ayəsidir, ancaq onlar adam ola bilərlər, başqaları ola bilməz və onların etdiyi işlər hamısı demokratikdir. Bu Sizin bədbəxtliyinizdir, İbrahim bəy. Mən Sizə dəfələrlə demişəm. Bəzən mənim Sizə yazığım gəlir. Nə oldu ki, 7 milyonluq Azərbaycanda bir Siz oldunuz demokrat. Qalanlar hamısı antidemokrat adamlardır. Təkcə siz özünüz qanun tərəfdarları, qalanları hamısı bədbəxt antikonstitusion adamlardır. Axı belə olmaz. Bu iddialardan əl çəkin.

Mən Ali Sovetin sədri kimi, Məclisin iclasını aparan şəxs kimi şərait yaradıram ki, burada hərə öz fikrini desin. Amma bu o demək deyil ki, burada da böhtanlar deyəsiniz, başqa adamların haqqında hökmlər çıxarasınız. Daxili işlər naziri çıxış edir, onun fikridir, o deyir ki, Xalq Cəbhəsi bağlanmalıdır. Siz də sübut edin ki, bağlanmamalıdır. Budur fikir müxtəlifliyi. O deyir ki, İbrahim İbrahimov Məclis üzvlüyündən çıxmalıdır. Bu onun haqqıdır, o deyə bilər. Siz özünüzü müdafiə edin, amma

Siz durub deyirsiniz ki, heç kəs məni Milli Məclisin üzvlüyündən çıxara bilməz. Nəyə arxayınsınız, başa düşmürəm. Əgər Məclis üzvləri səs versələr, Siz Məclisin üzvlüyündən çıxacaqsınız. Siz deyirsiniz ki, heç kəs məni çıxara bilməz. Mən bunları niyə deyirəm? Çünki Siz bu ifadələri işlədəndə düşünmürsünüz. Ona görə də yazığım gəlir Sizə. Düşünsəniz, belə söz deməzsiniz. Yenə Sizə də deyirəm, başqalarına da deyirəm, Siz sözünüzü başladınız ki, burada hakimiyyət antikonstitusion yolu ilə dəyişilib. Nə qədər böhtançılıqla məşğul olacaqsınız? Gedən proseslərə siyasi qiymət verilməyib. Nə qədər bu böhtançılıqla məşğul olacaqsınız? Əl çəkin bunlardan! Mən bu məsələni müzakirəyə çıxarmışam ki, burada, həqiqətən, milli barışıq elan edək. Gördünüz, çıxış edən kimi iki adam haqqında mən öz səlahiyyətimdən istifadə edib göstəriş verdim. Amma Siz burada nə iddialar qaldırırsınız. Burada nə qədər demək olar ki, 74 il buranı dağıdıblar. Siz düzəltdiniz buranı? Yaşadığınız torpaq da, yer də, ev də, eşik də, o işlədiyiniz məktəb də, bu bina da, filan da hamısı 74 ilin içərisində yaranıb. Siz nə yaratmısınız? Hər şeyə düzgün qiymət vermək lazımdır. 74 il bizim Azərbaycan xalqının tarixidir. 74 il bir neçə nəsil yaşayıb, yaradıb, gedib. İndi Sizin nə haqqınız var ki, bu 74 ilə qara xətt çəkəsiniz. Nə haqqınız var? Hansı xidmətlərinizə görə? Siz də, Sizin başçınız Əbülfəz Elçibəy də hansı ağacı əkmisiniz? Bir dəfə demişəm Sizə. Hansı arxa su gətirmisiniz? Hansı evi tikmisiniz? Hansı binanı yaratmısınız? Belə şey olmaz axı. Sözünüzü deyin, amma bu iddialardan əl çəkin. Özünüzü hesab eləməyin ki, necə deyərlər, Allah tərəfindən xüsusi yaranmış təbəqəsiniz. Siz bu xalqın içindən çıxmış adamlarsınız. Bu xalqın həyatının içində yaşamış adamlarsınız. Sizin fikriniz belədir, başqasının fikri belədir. Mən gərək hər dəfə sübut edəm ki, İbrahim İbrahimov demokratik adamdır, mən antidemokratik adamam. Mən demokratiya ilə məşğul olanda sən hələ, necə deyərlər, kənddə ayaqyalın gəzirdin. İndi sən gəlmisən, Azərbaycanda demokratiyanın banisi olmusan, demokratiyanın hakimi olmusan, demokratiyaya sən qiymət verirsən ki, kim demokratiya tərəfdarıdır, kim qeyri-demokratiya tərəfdarıdır. Yaramaz axı, qardaş. Belə olmaz. Bu cür milli barışığa getmək olmaz. Nə haqla Siz deyirsiniz ki, antikonstitusion yolla hakimiyyət dəyişib? Bu, böhtandır. Mən bunu rədd edirəm və hesab edirəm ki, bütün Məclis bunu rədd edir. Məsələlər müzakirə olunub. İyulun 15-16-da burada Gəncədə baş vermiş hadisələr uzun-uzun müzakirə edilib, ona siyasi qiymət verilib və Milli Məclis qərar qəbul edib. Siz o qərarın əleyhinə səs vermisiniz. Amma əgər Siz demokratik adamsınızsa, Siz Milli

Məclisin qəbul etdiyi qərara tabesiniz. Siz müxalifətdə ola bilərsiniz, Siz o qərarın əleyhinə səs verə bilərsiniz, amma Siz Milli Məclisin qanununa... Bu Məclisi Siz yaratmısınız, mən yaratmamışam. Bunu Xalq Cəbhəsi yaradıb. Bu sizin təşkilatdır. Sizin həmin təşkilat iyulun 16-da Gəncə hadisələri haqqında qərar qəbul edib.

Siz deyirsiniz, referendumu boykot edirsiniz, ona görə də mitinq çağırmışdınız. Bu, demokratik hərəkətdir? Sizin nə ixtiyarınız var ki, referendumu boykot edirsiniz? Milli Məclis referendum haqqında qərar qəbul etdiyini bildirib. Nə ixtiyarınız var? Siz referendumda gedib öz səsinizi verə bilərsiniz, təbliğat apara bilərsiniz, amma boykot etməyə ixtiyarınız yoxdur. Siz özünüz qanunları pozursunuz, insan hüquqlarını pozursunuz, Konstitusiyanı pozursunuz, hamısını pozursunuz. Özünüz də deyirsiniz ki, Siz demokratiya tərəfdarısınız və vaxt gələcək, bunlar hamısı dağılacaq və Siz yenə burada demokratiyanı bərpa edəcəksiniz.

Bəli, referendum dünya təcrübəsində dövlət səviyyəsində mühüm məsələlərin həll olunması məqsədilə ümumxalq rəyini toplamaq üçün ən demokratik bir yoldur, ən demokratik bir tədbirdir. Ondan demokratik tədbir yoxdur. Bu referenduma da biz birdən-birə getmədik ki. Əgər Azərbaycan Prezidenti Əbülfəz Elçibəy öz iş yerini qoyub qaçdısa – bunları dəfələrlə demişəm, artıq necə deyərlər, heç bu sözləri təkrar etmək istəmirəm, yoruldum bu sözləri deməkdən, ancaq siz məcbur edirsiniz məni – çıxıb gedibsə, respublikanı başsız qoyubsa, nəsə etmək lazımdır. Əbülfəz Elçibəy Peyğəmbər idi ki, onsuz yaşaya bilmirdik? Ya gəlib Prezidentliyini edəydi, ya da bu xalqı bu vəziyyətdə qoymayaydı. İyunun 17-də qaçıb getdi, avqustun 29-da referendum keçirildi. Siz təsəvvür edin, 2 ay yarım xalq belə vəziyyətdə qaldı. Siz deyirsiniz ki, antikonstitusion yolla hakimiyyətə gəldilər. Heç kəs burada antikonstitusion yolla hakimiyyətə gəlməyib. Əgər məni deyirsinizsə, məni bura siz özünüz gətirmisiniz. Nə istəyirsiniz məndən? Nə qədər bu sözləri təkrar eləmək olar? Ayıb deyilmi sizə? Mən də bütün səylərimi qoydum ki, Əbülfəz Elçibəy qayıdıb gəlsin bura. Qayıdıb gəlmədi. Bütün dünya təcrübəsindən istifadə etdik biz. Hamı dedi ki, referendum olmalıdır. Getdik referenduma. Referendumdan sonra Prezident seçkiləri təyin olundu. Mən müraciət elədim Xalq Cəbhəsinə. Əbülfəz Elçibəyə televiziya ilə müraciət elədim ki, yenə də Prezident seçkilərində iştirak eləsin. Siz də, İbrahim bəy, Ədalət Rəhimov da iştirak eləsin, başqası da iştirak eləsin. Kim istəyirsə, iştirak edin. Bunu dəfələrlə deyiblər. Niyə iştirak etmirsiniz? İndi də başlamısınız ki, bəli, biz Prezident seçkilərini pozmaq istəyirik,

filan, beşməkan. Ayıb deyilmi sizə? Ona görə də mən Ali Məclisin sədri kimi, Ali Sovetin sədri kimi, bir vətəndaş kimi bir daha qeyd edirəm ki, demokratiyanın bərqərar olması üçün əlimdən gələni bundan sonra da edəcəyəm. Ancaq demokratiyanı təhrif etmək, özünü demokratik adam hesab edib qalanlara pis gözlə baxmaq, bunlar demokratiya prinsiplərinə ziddir, insan haqlarının pozulmasına ziddir.

Fövqəladə vəziyyət şəraitində mitinq keçirilməməli idi. Amma siz hesab edirsiniz, necə ki, ailədə ərköyün uşaq olur, nə istəyir eləyir, siz elə bir vəziyyətdəsiniz. Bu vəziyyətdən çıxın artıq. Siz özünüzü ərköyün uşaq kimi aparırsınız. Nə istəyirik, onu edirik, fövqəladə vəziyyət şəraitində mitinq də edə bilərik, qanunu da poza bilərik, hər bir şey edə bilərik.

Burada bəzi Məclis üzvləri düz dedilər ki, bu salonda Xalq Cəbhəsinin adamları insanları döyüblər, söyüblər, təhqir ediblər, qanunsuz həbs ediblər. İndi siz siyahı çıxarmısınız ki, 1000 nəfər adam işdən çıxarılıb. Mən bilmirəm, bu, düzdür, ya düz deyil, inanmıram. Xalq Cəbhəsinin adamlarının bəziləri indi öz vəzifələrini dondurublar, belə bir şeyi ortaya atıblar, onların öz işləridir. Dondurublar. Hələ indiyə qədər buzun içindədirlər, yəqin. O öz işləridir. Ancaq əksəriyyəti iş başındadır. İşləyir. Ancaq siz hakimiyyətə gəlib nə işlər gördünüz? Adamların başına nə işlər gətirdiniz? İşdən də çıxardınız, həbs də elədiniz, döydünüz də, söydünüz də. Mən demirəm ki, indi onları təkrar etmək lazımdır, yaxud da kimsə onu təkrar edib, mən ona bəraət qazandırım. Xeyr, mən ona nifrət edirəm. İndi kim qanunu pozursa, ona da nifrət edirəm. Onun da əleyhinəyəm, bunun da əleyhinəyəm. Amma Siz hesab edirsiniz ki, etdiklərinizin hamısı qanuni idi. Sizin buna haqqınız var idi, sizin hüququnuz var idi.

Amma indi sizin qeyri-qanuni hərəkətlərinizi bir balaca qanun çərçivəsinə qoymaq istəyəndə dünyanı dağıdırsınız ki, yox, burada insan haqları pozulur, qanun pozulur, demokratiya pozulur. Siz nə edirsiniz, edin, mən qanun pozulmasının əleyhinəyəm, insan haqlarının pozulmasının əleyhinəyəm. Ancaq siz də bilin ki, qanun haradadır, qanunun hüququ haradadır, insan haqlarının hüdudu haradadır. Bunları bilin və özünüzü ərköyün uşaq kimi aparmayın. Özünüzə istisna bir səlahiyyət tələb etməyin, bunlar doğru deyildir.

Burada təkliflər oldu, Xalq Cəbhəsini bağlamaq, İbrahim İbrahimovu Məclisdən çıxarmaq, Xalq Cəbhəsinin binası haqqında. Bilirsiniz, ye-

nə də deyirəm, hər adamın burada təklif vermək ixtiyarı var. Mən belə təkliflərin müzakirəyə çıxarılmasının tərəfdarı deyiləm. Ona görə yox ki, İbrahim İbrahimov burada deyir ki, məni heç kəs Məclisdən çıxara bilməz. Hamını çıxara bilərlər. Məclis istəsə, çıxara bilər. O cümlədən Sizi də çıxara bilərlər, bu, Məclisin səlahiyyətindədir. Ancaq mən hesab edirəm ki, bu məsələləri müzakirə etməyə ehtiyac yoxdur. Çünki bunlar bizim Məclisə xeyir gətirməz. Biz bir-birimizlə fikir mübadiləsi aparmalıyıq. Əgər istəsəniz gəlin, fikir mübarizəsi aparaq, amma zor mübarizəsi yox, qol mübarizəsi yox, bağışlayın, üzr istəyirəm, həyasızlıq mübarizəsi yox. Amma təəssüf ki, Xalq Cəbhəsinin adət-ənənələrində – mən bunu tam cəsarətlə deyirəm – qanun pozğunluğu, insanları təhqir etmək, insanlara təzyiq göstərmək, insanlara müxtəlif nalayiq sözlər demək mühüm yer tutub. Mən Naxçıvanda bunun hamısını görmüşəm. Siz də bilirsiniz, İbrahim İbrahimov, Sizinlə birlikdə görmüşük bunları. Hələ burada baş verənləri demirəm. Mən onları televiziya ilə görmüşəm. Ona görə də hesab edirəm ki, bu məsələləri müzakirə etməyə ehtiyac yoxdur.

Ancaq burada bir fikirdə müəyyən qədər məntiq var. Bu da ondan ibarətdir ki, Xalq Cəbhəsi siyasi partiyadırmı? Biz çoxpartiyalılıq tərəfdarıyıq. Partiyalar çoxdur. 40 dənədir, olsun 45 dənə. Əgər Xalq Cəbhəsi istəyirsə, doğrudan da, Azərbaycanın siyasi həyatında yer tutsun... Mən bir neçə dəfə demişəm, yarandığı dövrdən Xalq Cəbhəsinin fəaliyyətinə, onun Azərbaycan Respublikasının tarixində tutduğu yerə və Azərbaycanda azadlıq hərəkatında iştirakına mən hörmətlə yanaşıram. Mən bir neçə dəfə demişəm, bu mənim fikrimdir. Nemət Pənahovun başçılığı altında Azadlıq meydanında yarım milyonluq mitinqlər qalxanda o mitinqlər xalqın iradəsini bildirən mitinqlər idi. O, Xalq Cəbhəsi deyildi. Xalq Cəbhəsi ondan sonra yarandı. Bunlar hamısı xalq içindən gələn, xalqın ürəyindən gələn duyğular idi, fikirlər idi, istəklər idi. Xalq onda ayağa qalxırdı. Bəli, Qarabağ hadisəsi ilə əlaqədar olaraq, torpaqlarımızın qorunması ilə əlaqədar olaraq, Azərbaycanın ərazi bütövlüyünün qorunması ilə, müdafiəsi ilə əlaqədar olaraq qalxan duyğular idi. Yaxud da 1990-cı ilin yanvar hadisələrini götürsək, bəli, o zaman xalqın ovaxtkı rejimə nifrəti, ovaxtkı rejimə qarşı olan etirazı xalqı bu meydanlara toplamışdı. Burada Xalq Cəbhəsinin də rolu var idi, xidməti var idi. Bunlar inkarolunmazdır. Amma siz özünüz-özünüzü içinizdən yediniz. Nemət Pənahov kimi adam xalqı qaldırırdı, siz onu özünüzə düşmən elədiniz. Nə var, nə var ki, o sizin bəzi fikirlərinizlə razı deyildi. Bu, de-

mokratiya idimi? Demokratiya deyildi axı. Mən öz fikrimi deyirəm. Bəlkə, Məclis üzvlərinin bəzilərinin başqa fikri ola bilər. Ancaq hərənin öz fikri var. Mən bunların hamısını bir Azərbaycan vətəndaşı kimi Azərbaycan tarixində böyük hadisələr kimi qiymətləndirirəm və hesab edirəm ki, bunlar inkarolunmaz faktlardır. Ancaq bunlar nə tək Əbülfəz Elçibəyin, nə İbrahim İbrahimovun, nə də başqasının fəaliyyəti deyil, bu, xalqın milli-azadlıq hərəkatının təzahürü idi və bunlar da Azərbaycan xalqının tarixində qalacaq. Buna şübhə yoxdur.

Ancaq iş burasındadır ki, Xalq Cəbhəsini yaradan adamlar dağılıbdır. Bir hissəsi partiya qurub özünə, məsələn, Etibar Məmmədov Xalq Cəbhəsini yaradanlardandır, o, indi Milli İstiqlal Partiyasının başçısıdır. Rəhim Qazıyev də Xalq Cəbhəsini yaradan adamlardandır. İndi qaçıbdır, orada-burada gizlənib. Qəhrəman idi axı, burada gecə-gündüz, nə bilim, şərəfdən, namusdan, qeyrətdən danışırdı, hamını da qorxudurdu. İndi günahın yoxdursa, niyə qaçıb gizlənirsən? Gəl, burada ədalət qarşısında cavab ver! Qaçıb gizlənir. Bəzi adamlar da ona havadarlıq edir, təəssüf ki, gizlədirlər. Ancaq bunun sonu yoxdur, o da Xalq Cəbhəsini quran adamlardandır. Nemət Pənahov da Xalq Cəbhəsini quran adamlardan idi. Əbülfəz Elçibəy də Xalq Cəbhəsini quran adamlardandır. İbrahim İbrahimov, onlar hamısı sonra meydana gəliblər. Sabir Rüstəmxanlı da o mitinqlərdə çıxış edirdi, indi baxıb deyir, Heydər Əliyev niyə mənim adımı çəkmir? Onun da xidmətləri var idi. İndi hərə bir partiya yaradıb. Sabir Rüstəmxanlının da partiyası var, Etibar Məmmədovun da partiyası var, Sizin də partiyanız var. Heç kəs etiraz etmir, amma Xalq Cəbhəsi öz tarixi mərhələsini keçib. Siz bunu anlamalısınız. Ya siz indi bir siyasi partiya şəklində olmalısınız, yaxud da özünüz düşünməlisiniz neyləmək lazımdır. Xalq Cəbhəsi əvvəlki kimi fəaliyyət göstərə bilməz. Mən nə Xalq Cəbhəsinin bağlanmasının tərəfdarıyam, nə onun ləğv olunmasının tərəfdarıyam. Demokratik bir adam kimi mən bütün demokratik təşkilatların fəaliyyət göstərməsinin tərəfdarıyam və buna şərait yaradacağam. Ancaq Xalq Cəbhəsi düşünməlidir. Xalq Cəbhəsi özünü ləkələyib. Ona görə ki ictimai-siyasi təşkilat kimi özünə böyük silahlı dəstələr düzəldib. Bu, Xalq Cəbhəsi üçün ən böyük ləkədir. Çünki ictimai-siyasi təşkilatın silahlı dəstəsi ola bilməz. Tarixdə ancaq faşist partiyasının silahlı dəstəsi var idi. Heç bir partiyanın silahlı dəstəsi olmayıb. Əgər siz faşist partiyasının yanında durmaq istəyirsinizsə, öz işinizdir, baxın. Amma mən sizə bunu məsləhət bilməzdim. Ona görə də fikirləşin. Mən, şübhəsiz ki, bu təkliflərin heç birinin tərəfdarı deyiləm və bunları müzakirəyə qoymaq fikrində də deyiləm. Ancaq özünüz

fikirləşin və bilin ki, qanun hamı üçün qanundur. Xalq Cəbhəsi də o qanuna tabe olmalıdır, hər bir partiya da o qanuna tabe olmalıdır, mən də, sən də, o birisi də, bu birisi də. Heç kəs üçün müstəsna şərait yaradılmayacaq. Heç kəs üçün. Heç kəs bundan sonra ailənin ərköyün oğlu olmayacaqdır. Heç kəs ailədə şıltaq uşaq vəziyyəti iddiasında olmamalıdır. Hamı bərabər hüquqludur. Bütün təşkilatlar bərabər hüquqludur. O cümlədən siz də bu bərabər hüquqa Konstitusiya çərçivəsində gəlin, hərəkət edin və böhtanlar da atmayın. O rəqəmləri deyib, şişirdib fikir yaratmaqdan heç bir şey çıxmaz. Bununla özünüz-özünüzü ləkələyirsiniz. Burada daxili işlər naziri də, prokuror da məlumat verdi, milli təhlükəsizlik naziri də dedi ki, heç bir şey yoxdur. Fövqəladə vəziyyət şəraiti ilə, mitinqlər keçirməklə bağlı 15-20 gün, bir ay məhkum olunanlar ki var, onların hamısı bu gün buraxılsın. Araşdırılmadan buraxılsın. Bir nəfər də adam qalmasın. Mənim belə səlahiyyətim var, yoxsa yox? Varmı? Hə? Var? Əgər varsa, mən deyirəm ki, buraxılsın hamısı, heç bir şeyi də araşdırmaq lazım deyil.

Ancaq prokuror dedi, kimlər ki məsuliyyətə cəlb olunublar, istintaq işi gedir, bu onlara aid deyil. Qanun-qaydanı pozduqlarına görə, fövqəladə vəziyyət şəraitini pozduqlarına görə, qanunsuz mitinqlər keçirdiklərinə görə, o cümlədən Xalisbəylidir, Arif Rəhimovdur və digərləri, bunların hamısı bu gün buraxılsınlar. Əgər mənim belə bir hüququm varsa, bundan istifadə edərək belə bir qərar qəbul edirəm. Xahiş edirəm, bunu bu gün həyata keçirəsiniz və İbrahim İbrahimovdan və Xalq Cəbhəsinin başqa fəallarından xahiş edirəm, bilsinlər ki, qanuna riayət etmək lazımdır və indi xüsusən Prezident seçkiləri vaxtında əgər kim qanunu pozsa, şübhəsiz ki, ona qanuni tələblər tətbiq olunsun. Mən sizi xəbərdar edirəm, bilin ki, heç kəs qanunu pozmamalıdır. Təşkilati işinizdir, təbliğat işinizdir, bu öz işinizdir, aparın. Siyasi plüralizm var və olacaqdır, buna arxayın olun.

Ali Sovetin sədri seçilərkən demişəm. Bəli, o mövqeyimin üzərində dayanıram. Prezident seçkiləri ərəfəsində də bunu deyirəm. Mövqeyim ondan ibarətdir ki, Azərbaycan Respublikasında demokratik dövlət qurulmalıdır, Azərbaycan Respublikasında hüquqi dövlət yaranmalıdır. Azərbaycan Respublikası demokratiya yolu ilə getməlidir. Heç vaxt totalitar sistemə, kommunist rejiminə qayıtmamalıdır. Azərbaycan Respublikasında siyasi partiyaların fəaliyyət göstərməsinə şərait yaranmalıdır və siyasi plüralizm hökm sürməlidir. Demokratiyaya imkan yaradılmalıdır və insan azadlığı, söz azadlığı, din azadlığı, dil azadlığı, bunlar hamısı bərqərar olunmalıdır. İnsan hüquqlarının qorunması bizim əsas məqsədlərimizdən biridir, dövlət orqanlarının, hüquq-müha-

fizə orqanlarının əsas vəzifələrindən biri olmalıdır. Dövlət hüquqları qorunmalıdır. Biz ancaq və ancaq bu yolla getməliyik.

İqtisadiyyatda güclü bir islahat keçirib bazar iqtisadiyyatına keçməliyik, yalnız bazar iqtisadiyyatı yolu ilə, sərbəst iqtisadiyyat yolu ilə biz, şübhəsiz ki, gələcəkdə müstəqil Azərbaycan Respublikasının iqtisadiyyatını yüksəldə bilərik.

Ancaq burada indiyə qədər mövcud olan pozğunluqlar, dağıntılar, Azərbaycanın iqtisadi potensialının dağıdılması, bu, bir ildə dağıdılmayıb, İbrahim bəy, bu, son 4-5 ildə dağıdılıb. Mən dünən Kondisionerlər Zavoduna getdim. Sevindim ki, o zavod, heç olmasa, dağılmayıb, qalıb. Çünki o zavodu nə qədər çətinliklərlə tikmişdik. O vaxtlar həmin o sizin daim söydüyünüz sovet dövlətinin büdcəsindən 100 milyon dollar alıb dünyanın ən yüksək firmalarından birindən texnologiyanı, bütün o zavodu alıb Azərbaycan üçün gətirib tikdik. O vaxtın 100 milyon dolları indikindən bir on qat da qiymətli idi. İki ilin içərisində tikildi və bir ilin içərisində tam istehsal gücünə çatdı. 450 min kondisioner istehsal olunurdu. Mən ondan sonrakı illərdə – Moskvada işləyərkən Afrikanın cənubunda, Mozambikdə, Anqolada, yaxud da Asiyanın cənubunda, Laosda, Vyetnamda, Koreyada olarkən Bakıdan gətirilib orada istifadə olunan kondisionerləri görəndə ürəyim dağa dönürdü ki, nəhayət, Azərbaycan Respublikasının, Azərbaycan xalqının da istehsal etdiyi belə məhsullar var ki, dünya miqyasına çıxıb.

Ancaq indi o zavod heç 50 faiz gücündə də işləmir. Yaxşı ki onu saxlayıblar, heç olmasa, dağıtmayıblar. O vaxt kondisionerin birini 400 manata satırdılar. Onu da hələ hər adam ala bilmirdi. Amma indi dünən soruşuram, neçədir onun qiyməti? 180 min rubl. Budur son illərin nəticəsi. Ona görə də biz bazar iqtisadiyyatına keçərkən, şübhəsiz ki, yaranmış iqtisadi potensialı dağıtmaq, oğruların, əliəyrilərin əlinə vermək, xalqın malı ilə, dövlətin pulu ilə, xalqın əziyyəti ilə yaranmış şeyləri onların şəxsi malı etmək, bunlara biz yol verə bilməyəcəyik. Mümkün deyil. Ancaq bunların hamısını siz etdiniz. Siz dağıtdınız, siz bir şey qurmadınız. Amma İsgəndər Həmidov nə pulun, nə malın, nə filanın, nə beşməkanın miqyasını, həcmini bilmədi, haradan nə istədi götürdü. Rəhim Qazıyev kimi adam və başqaları da. Sizin o vəzifəyə qoyduğunuz adamlar o zavodları, o fabrikləri dağıtdılar, binaları dağıtdılar. Amma siz dağıtmadınız, sizdən qabaq da dağıldı. Ona görə də bizim iqtisadiyyatda yolumuz bazar iqtisadiyyatıdır. Demokratik islahatlar yoludur və bu yolla da biz getməliyik və gedəcəyik.

Bir sözlə, mən Ali Sovetin sədri kimi, bir Azərbaycan vətəndaşı kimi, müəyyən hüquqlara malik olan bir şəxs kimi bu yolu seçmişəm. Bütün imkanlarımdan istifadə eləyib bu yolla gedəcəyəm. Kim də bu yola maneçilik edəcəksə, şübhəsiz ki, mən onunla bərabər gedə bilməyəcəyəm. Ancaq indi kimlərsə, bəziləri iddia edəcəklər ki, yox, onlardır ancaq bu yolun sahibləri, başqa adamlar bu yolla gedə bilməzlər, onlar çox böyük səhv ediblər və xahiş edirəm ki, bu səhv yoldan çəkilsinlər. Bizim borcumuz bütün Azərbaycanın simasını dəyişməkdir, Azərbaycanı inkişaf etmiş, sivilizasiyalı, demokratik prinsiplər əsasında yaşayan dövlət, cəmiyyət kimi təqdim etməkdir. Azərbaycan vətəndaşlarının gələcək həyatını hürriyyət yolu ilə, azadlıq yolu ilə, demokratiya yolu ilə təmin etməkdir. Biz bu yolun yolçusuyuq. Bu yolla gedəcəyik. Bu yol da nə Əbülfəz Elçibəyin yoludur, nə İbrahim İbrahimovun yoludur, nə Məmməd Əmin Rəsulzadənin yoludur. Bu yol xalq yoludur. Bu yol dünya demokratiyasının açdığı yoldur. Bu yolla da biz gedirik və gedəcəyik.

Mən güman edirəm ki, bu məsələ barəsində daxili işlər naziri, milli təhlükəsizlik naziri, Baş prokurorun müavininin məlumatı nəzərə alınsın. Hesab edilsin ki, indi verilən göstərişə görə Xalq Cəbhəsindən bu qanun pozuntusuna görə saxlanılmış adamlar hamısı azad olunur və bu gündən bir nəfər də həbsdə adam yoxdur. Ancaq cinayət etmiş adamlar haqqında, şübhəsiz ki, istintaq getməlidir. Bununla da bu məsələnin müzakirəsi qurtarsın. Etirazınız yoxdur ki? Gündəlikdə olan bütün məsələlər bitdi.

Bir kiçik məsələ. Bizim Milli Məclis 51 nəfərdən ibarətdir. Ancaq bir yer boşdur. Mən təklif edirəm ki, boş yerə Baş prokuror Əli Ömərov seçilsin. Çünki əvvəl də Baş prokuror həmişə Milli Məclisin tərkibində olub, necə bir qanunçuluq orqanının başçısı kimi onun Milli Məclisin tərkibində olması, mənə belə gəlir ki, vacibdir. Etiraz yoxdur? Onda xahiş edirəm, münasibət bildirilsin.

***(Səsvermə)***

Qəbul edildi. Bununla da bugünkü bütün məsələlər qurtardı. Sağ olun, gələn iclasa qədər.

## 15 İYUN GÜNÜNÜN AZƏRBAYCAN XALQININ MİLLİ QURTULUŞ GÜNÜ ELAN EDİLMƏSİ HAQQINDA

# AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN QƏRARI

XX əsr Azərbaycan xalqının tarixində xüsusi bir mərhələ təşkil edir. Bu əsrdə Azərbaycan xalqı iki dəfə – 1918-ci il mayın 28-də və 1991-ci il oktyabrın 18-də imperiya əsarətinə qarşı mübarizə nəticəsində milli azadlığına, dövlət müstəqilliyinə nail olub.

Lakin Azərbaycanın ilk dövlət müstəqilliyini bir sıra tarixi, ictimai-siyasi səbəblər üzündən, o cümlədən dünyanın yenidən bölüşdürülməsi ilə bağlı imperialist dairələrin yürütdüyü siyasətin və bolşevik işğalının nəticəsində qoruyub saxlamaq mümkün olmamışdır. Milli dövlətçilik ənənələrinin formalaşmaması və digər amillər də öz rolunu oynamış, nəticədə bütün müsəlman şərqində ilk demokratik respublika olan Azərbaycan xarici və daxili düşmənlərə qarşı mübarizələrlə dolu 23 aylıq mövcudluqdan sonra öz dövlət müstəqilliyini itirmişdir.

Azərbaycan xalqı yetmiş ildən artıq Sovet rejimi şəraitində yaşasa da, itirilmiş azadlığını qaytarmaq, dövlət müstəqilliyini bərpa etmək amalından heç vaxt dönməmişdir. Uzun illər boyu imperiya idarəçiliyinin siyasi və ideoloji təzyiqinə məruz qalmasına baxmayaraq, Azərbaycan xalqı dilini və dinini qorumuş, milli mədəniyyətini inkişaf etdirmiş, müttəfiq respublika şəklində də olsa öz dövlətçiliyini saxlamışdır.

Xüsusilə 1960–1980-ci illərdə bu proseslər daha geniş vüsət almış, ölkə iqtisadiyyatının möhkəmləndirilməsi, dövlət quruculuğu, mədəni və mənəvi yüksəliş sahəsində mühüm işlər görülmüşdür.

Bu dövrdə milli gəlir 2,5 dəfə artmış, eyni zamanda sənaye istehsalı 2,7 dəfə artaraq əvvəlki 30 ildə istehsal olunan məhsulun həcmindən təqribən 2 dəfə çox olmuşdur. Kənd təsərrüfatında ümumi məhsul 2.7 dəfə çoxalmışdır. İqtisadiyyatın inkişaf etdirilməsinə əvvəlki 50 ildə olduğundan 1,4 dəfə çox əsaslı vəsait qoyulmuş, 250 iri zavod və fabrik tikilib işə salınmışdır. Minlərlə azərbaycanlı gənc keçmiş Sovet İttifaqının aparıcı elm və tədris ocaqlarına göndərilmiş və yeni istehsal sahələri ilə bağlı ixtisaslara yiyələnmişdir. Milli kadr korpusu yaradılmış, dövlət idarəçiliyi

təsisatları möhkəmləndirilmiş, elm, səhiyyə, təhsil, mədəniyyət və incəsənət sahələrində ciddi uğurlar qazanılmışdır. Azərbaycanın paytaxtı Bakı həmin dövrdə dünya miqyasında tanınan mədəniyyət mərkəzinə çevrilmiş, azərbaycanlılar özünəməxsus tarixi, mədəniyyəti, ənənələri olan bir millət kimi tanınmışlar.

1960–1980-ci illərdə Azərbaycanda sözün həqiqi mənasında böyük quruculuq və yaradıcılıq epoxası, həyatın bütün sahələrində güclü inkişaf və tərəqqi dövrü yaşanmışdır. Bütün bunların nəticəsi idi ki, keçmiş SSRİ məkanında yalnız iki respublika – Rusiya Federasiyası və Azərbaycan keçmiş ittifaq büdcəsindən heç bir dotasiya almadan yaşayırdı. Bu isə Azərbaycanın siyasi müstəqilliyə aparan yolda ən mühüm və həlledici mərhələ olan iqtisadi müstəqilliyə tam nail olduğunu göstərirdi. Müstəqil daxili siyasət yeridilməsi nəticəsində Azərbaycanın siyasi, iqtisadi və milli-mədəni inkişafı üçün son dərəcə böyük işlər görülmüş, ən başlıcası isə xalqın milli mənlik şüurunun inkişaf etdirilməsi, tarixi ənənələrinin qorunması, dilinin, mədəniyyətinin, ədəbiyyatının tərəqqisi, milli özünəməxsusluqlarının, adət-ənənələrinin yaşadılması istiqamətində mühüm irəliləyişlər əldə olunmuşdu.

Bu illərdə Azərbaycanda milli özünüdərk prosesi xüsusilə qüvvətlənmişdi. Həmin proses ölkə rəhbəri tərəfindən həssaslıq və uzaqgörənliklə idarə olunur və tənzimlənirdi. O dövrdə keçmiş SSRİ-nin bir çox respublikalarında aramsız “dissident ovu” aparıldığı halda, Azərbaycanda yaradıcı ziyalılar üçün sərbəst düşüncə və iş şəraiti hökm sürürdü. Ölkədə güclü iqtisadiyyat və işgüzr kadr potensialı yaradılmış, əhalinin rifah halı daha da yaxşılaşdırılmış, bunlar isə yaxın gələcəkdə Azərbaycanda müstəqil dövlət qurulması üçün əsaslı zəminə çevrilmişdi. Azərbaycan xalqı XX əsrdə ilk dəfə Heydər Əliyevin şəxsində özünün güclü ümummilli liderini yetişdirmiş və onun ətrafında sıx birləşmişdi.

Lakin 1980-ci illərin ikinci yarısında fitnəkar və ikiüzlü Mixail Qorbaçovun hakimiyyətə gəlişi ilə keçmiş SSRİ-nin türk-müsəlman xalqlarına, ilk növbədə isə bu xalqların şəksiz lideri olan Heydər Əliyevə qarşı məkrli planlar hazırlanmağa və həyata keçirilməyə başlandı. Sovet rejimi şəraitində türk-müsəlman xalqlarına bəslənən ənənəvi ögey münasibət Qorbaçov hakimiyyəti dövründə daha da gücləndi. Keçmiş Sov.İKP rəhbərliyi və SSRİ hökuməti müsəlman respublikalarının iqtisadi və mədəni inkişafına şərait yaratmır, bu respublikaların xalqları ilə ikinci dərəcəli vətəndaşlar kimi rəftar edirdilər. Həmin dövrdə SSRİ-nin ali rəhbərliyində təmsil olunan Heydər Əliyevin bu məsələdə tutduğu prinsipial, humanist

və qətiyyətli mövqe onun Sov.İKP MK Siyasi Bürosunun və SSRİ hökumətinin tərkibindən istefası ilə nəticələndi.

Bunun ardınca Mixail Qorbaçovun və onun ətrafındakı millətçi erməni dairələrinin Azərbaycana təzyiqləri daha da gücləndi. Azərbaycanı parçalamaq, onun inkişafının qarşısını almaq, əhalini sonu görünməyən etnik münaqişəyə cəlb etmək məqsədilə qondarma Dağlıq Qarabağ problemi ortaya atıldı. Milli qeyrətdən və mənlikdən uzaq olan, Azərbaycanın düçar edildiyi müsibəti sona qədər dərk etməyən kosmopolit Əbdürrəhman Vəzirovun Moskvanın canişini kimi Azərbaycana göndərilməsi problemi daha da dərinləşdirdi. Onun hakimiyyəti dövründə Azərbaycan torpaqlarının işğalının əsası qoyuldu. Azərbaycan xalqının milli və tarixi maraqlarını qorumağa, ölkə vətəndaşlarını müdafiə etməyə qadir olmayan ozamankı Azərbaycan KP MK və Azərbaycan hökuməti mərkəzin bir çox hallarda Azərbaycanın ziyanına olan qərarlarını kor-koranə yerinə yetirməkdən başqa bir iş bacarmırdılar.

Keçmiş SSRİ rəhbərliyinin Azərbaycana münasibətdə yol verdiyi tarixi ədalətsizlik, respublika rəhbərliyinin fərsizliyi, Dağlıq Qarabağ probleminin həllində yol verilən kobud səhvlər xalqın səbir kasasını doldurdu. Xalq meydanlara axışaraq həm sovet rəhbərliyinə, həm də onun yerlərdəki canişinlərinə öz kəskin etirazlarını bildirdi. Azərbaycanda keçmiş SSRİ rəhbərliyinə etimadsızlıq, eləcə də milli-azadlıq hərəkatının ilk rüşeymləri Qarabağ problemi ilə bağlı meydana çıxdı. Problemin həll edilməməsi bu etimadsızlığı və mübarizə əhvali-ruhiyyəsini daha da artırdı.

Xalq hələ 1988-ci ilin ilk mitinqlərindən başlayaraq, Azərbaycanın üzləşdiyi ciddi problemləri həll etməyə qadir siyasətçini görür və onun yenidən Azərbaycan rəhbərliyinə qayıtmasını arzulayırdı. Yüzlərlə adamın mitinq və nümayişlərə Heydər Əliyevin portretləri ilə çıxması bu arzunun ümumxalq miqyasında, açıq şəkildə ifadəsi idi. Bu arzu münaqişə zonasında – Dağlıq Qarabağın və ətraf rayonların azərbaycanlı əhalisi arasında daha kəskin surətdə və qətiyyətlə ifadə olunurdu. Bütün Azərbaycan xalqı öz böyük oğluna – Heydər Əliyevə qarşı yerli və mərkəzi mətbuat səhifələrində aparılan qərəzli kampaniyaya qəti etirazını dönə-dönə bildirmişdi.

Lakin həmin dövrdəki satqın respublika rəhbərliyi, mərkəzin etimadını qazanmaq üçün dəridən-qabıqdan çıxan Vəzirov-Mütəllibov alyansı milli birlik haqqında, xalqı düşdüyü ağır vəziyyətdən qurtarmaq haqqında düşünmürdülər. Onların xalqın taleyinə tam laqeydliyi, o zamankı

SSRİ rəhbərliyinə yarınmaq naminə yol verdikləri milli xəyanət, fəaliyyətsizlik və prinsipsizlik 1990-cı il yanvarın 20-də Bakıya sovet qoşun hissələrinin yeridilməsinə və Azərbaycan xalqının ədalətli, haqlı tələblərinin qan içində boğulmasına gətirib çıxarmışdı.

Həmin dövrdə Moskvada yaşayan Heydər Əliyev sülhsevər Azərbaycan xalqına qarşı silah tətbiq edilməsini qətiyyətlə pisləyən bəyanatla çıxış etmiş və Azərbaycanın haqq səsini dünyaya yaymışdı. Moskvada verdiyi bəyanatlarla 20 yanvar cinayətinin mahiyyətini və onu törədən qüvvələrin niyyətlərini aydın şəkildə göstərmişdi.

Sovet qoşunlarının Bakıda törətdikləri vəhşiliklərə baxmayaraq, Azərbaycan xalqını öz yolundan döndərmək mümkün olmadı. 20 yanvar şəhidlərinin qanı bahasına hakimiyyətə gələn Mütəllibov rejimi Əbdürrəhman Vəzirovun yeritdiyi milli xəyanət və təslimçilik siyasətini daha geniş miqyasda davam etdirirdi.

Moskvanın təzyiqlərinə və Mütəllibov rejiminin törətdiyi bütün təhlükəli maneələrə baxmayaraq, 1990-cı ilin yayında Heydər Əliyev Vətənə döndü. Azərbaycanda kommunist ideologiyasının hələ də dövlət səviyyəsində davam etdirildiyi bir şəraitdə o artıq milli və bəşəri inkişaf yolunda sipərə çevrilmiş bu ideologiyadan qətiyyətlə imtina etdi. Xalq öz böyük oğluna etimad göstərərək onu yekdilliklə Azərbaycan Ali Sovetinə deputat seçdi. Heydər Əliyev Ali Sovetin iclaslarında Dağlıq Qarabağ probleminin həlli, respublikanın gələcək siyasi və iqtisadi müstəqilliyi ilə bağlı proqram mahiyyətli nitqlərlə çıxış etdi. Lakin təəssüf ki, burnunun ucundan uzağı görməyən ozamankı iqtidar bu fundamental, uzaqgörən təklifləri dərk edib qiymətləndirə bilmədi.

1991–1993-cü illərdə H.Əliyevin Naxçıvana rəhbərlik etməsi Azərbaycanın bu qədim guşəsinin erməni işğalından xilas olmasında mühüm rol oynadı. Bu dövrdə Naxçıvan əvvəlcə Azərbaycan KP-nin, sonra isə AXC-nin yaratdığı antidemokratik rejimlərdə demokratiyanın qorunub saxlandığı yeganə yer idi. Həmin dövrdə Azərbaycan Respublikasının üçrəngli bayrağı ilk dəfə Naxçıvan Ali Məclisi üzərində qaldırılmışdı.

1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edildi. Bu sənədlə Azərbaycan hüquqi baxımdan müstəqillik əldə etsə də, əslində, xalqın mandatı olmadan hakimiyyəti ələ keçirmiş Mütəllibov rejimi imperiyaya yarınmaq siyasəti yeridirdi. Ermənistanın Azərbaycana qarşı açıq təcavüzünün qarşısını almaq, Dağlıq Qarabağda yaşayan azərbaycanlıların təhlükəsizliyi-

ni təmin etmək, ordu quruculuğuna başlamaq və digər bu kimi tədbirləri həyata keçirmək əvəzinə Ayaz Mütəllibov yalnız öz şəxsi hakimiyyətini qorumağa çalışırdı.

Xalq hərəkatı dalğasında siyasi səhnəyə gələn naşı, səriştəsiz AXC liderləri ilə Mütəllibov güruhu arasında hakimiyyət davası gedirdi. Ölkədə xaos, özbaşınalıq hökm sürürdü. Ayrı-ayrı şəxslərə, siyasi qruplara mənsub qanunsuz silahlı dəstələrin yaradılması Azərbaycanı vətəndaş müharibəsinə sürükləyirdi. Yaranmış vəziyyətdən istifadə edən Ermənistan Azərbaycan torpaqlarının işğalını genişləndirirdi. AXC ilə Ayaz Mütəllibov arasında hakimiyyət davası Azərbaycanda XX əsrin ən böyük faciələrindən olan Xocalı soyqırımı ilə nəticələndi. Hakimiyyətdən rüsvayçılıqla uzaqlaşdırılan Mütəllibov rejimini heç bir dövlət idarəçiliyi təcrübəsi olmayan, mitinq tribunalarından gələn və tezliklə Azərbaycanı daha böyük problemlərlə üz-üzə qoyan AXC iqtidarı əvəz etdi.

AXC-nin meydan qəhrəmanları özlərini iddialı şəkildə milli azadlıq hərəkatının liderləri adlandırsalar da, əslində, ölkədə gedən proseslər, milli azadlıq hərəkatının, müstəqillik meyillərinin güclənməsi bütün keçmiş SSRİ məkanında, hətta dünya miqyasında cərəyan edən proseslərlə sıx bağlı idi.

Belə bir şəraitdə Azərbaycan xalqı sınanmış lideri Heydər Əliyevin hakimiyyətə qayıdışını daha böyük təkid və qətiyyətlə tələb etməyə başladı. Əslində, xalqın bu tələbi hələ 1988-ci il mitinqlərindən başlayaraq, mütəmadi şəkildə irəli sürülürdü. Yüz minlərlə adam millət və dövlət üçün belə böhranlı məqamda Heydər Əliyev təcrübəsindən, siyasi fəhmindən və uzaqgörənliyindən istifadə olunmasını, onun yenidən siyasi hakimiyyətə qayıtmasına imkan verilməsini tələb edirdi. Lakin nə sovet imperiyasının sadiq buyruqçuları olan yerli kommunist “rəhbərlər”, nə də silahlı çevrilişlər yolu ilə müəmmalı şəkildə hakimiyyətə gəlmiş yalançı demokratik qüvvələr milli dövlət quruculuğunda, milli həmrəylik və birlik yolunda son dərəcə mühüm amil olan Heydər Əliyev fenomenindən faydalanmaq istəmirdilər. Çünki birincilər üçün öz ağalarının əmr və tapşırıqlarını sədaqətlə yerinə yetirmək, ikincilər üçün isə əllərinə keçirdikləri hakimiyyət kürsüsünü nə yolla olursa olsun qoruyub saxlamaq hər şeydən vacib idi. Xalqın və dövlətin taleyi onlar üçün o qədər də əhəmiyyətli deyildi. Onlar Heydər Əliyevin necə böyük bir qüvvə olduğunu, Azərbaycanı düşdüyü bəlalardan yalnız onun çıxara biləcəyini kifayət qədər başa düşürdülər. Lakin hakimiyyət hərisliyi, hədsiz ambisiyalar və milli maraqlara tam laqeydlik bu imperiya buyruqçularına və əyalət siyasətçilərinə layiq

olmadıqları halda, tutduqları yeri ümummilli mənafelər naminə xalqın həqiqi liderinə, müdrik rəhbərinə və yolgöstəricisinə qaytarmağa imkan vermirdi. İstər Əbdürrəhman Vəzirov, Ayaz Mütəllibov və onların ətrafı, istər Əbülfəz Əliyev və onun AXC qaragüruhu, istərsə də qəfil zühur etmiş digər başabəla "siyasi liderlər" və onların öz ətrafına topladığı qruplar xalqın yeganə ümid yeri olan Heydər Əliyevi hər vəchlə siyasi meydandan sıxışdırıb çıxarmağa, onu xalqdan təcrid etməyə can atır və bu yolla da özlərini güclü şəxsiyyətdən qorumaq istəyirdilər. Bu adamlar vəzifə iddiası ilə adi bir həqiqəti belə dərk etmək istəmirdilər ki, konkret ictimai-siyasi şəraitdə hakimiyyətin əldə edilməsi mümkün olsa da, onun idarə edilməsi çox-çox çətindir. Belə bədnam "siyasətçilərin" üzdəniraq fəaliyyəti nəticəsində Azərbaycan qısa müddət ərzində 1960–1980-ci illərdə qazanılmış bir sıra nailiyyətlərdən məhrum oldu. 1990-cı ilin yanvar faciəsindən sonra şok vəziyyətinə düşmüş Azərbaycan xalqı yeni, daha böyük fəlakətlərə düçar olmaq məcburiyyətində qaldı.

Qarabağ problemini həll etmək və ölkədə demokratik dəyişikliklər aparmaq vədi ilə hakimiyyəti ələ keçirən qüvvələr nəinki öz vədlərinə əməl etmədilər, hətta qısa müddət ərzində ölkəni fəlakət girdabına, vətəndaş müharibəsi və parçalanma həddinə gətirib çıxardılar. Onların birillik hakimiyyəti dövründə Azərbaycanın strateji cəhətdən əhəmiyyətli əraziləri itirildi, yeni ərazi itkiləri üçün real təhlükə yarandı. Ordu quruculuğu sahəsində konkret heç bir iş görülmədi. Dövlət quruculuğu kimi son dərəcə mühüm sahə başlı-başına buraxıldı, xalqın mənafeyi unudularaq ayrı-ayrı şəxslərin istək və iddialarına meydan açıldı. Xarici siyasət xəttinin müəyyənləşdirilməsində yol verilən kobud səhvlər və ifrat subyektivizm halları Azərbaycanın dünya miqyasında təklənməsinə, bir sıra region dövlətləri ilə qarşılıqlı münasibətlərinin gərginləşməsinə gətirib çıxardı. Ölkədə dövlətə deyil, ayrı-ayrı şəxslərə xidmət edən silahlı dəstələr yarandı. Bu isə həmin şəxslərin Konstitusiyaya zidd yolla hakimiyyətə gəlmələri, qeyri-sabitlik və hərc-mərclik üçün zəmin yaratdı, Azərbaycanın bir müstəqil dövlət kimi varlığını təhlükə altına aldı.

Özlərini demokrat adlandıran və xalq adından danışmaq səlahiyyətinin yalnız onlara məxsus olduğunu iddia edən bir qrup siyasətbazın hakimiyyəti dövründə ölkədə iqtisadi böhran dərinləşdi, xalqın həyat səviyyəsi xeyli pisləşdi. Hakimiyyətin bütün pillələrindəki fərsizlik, təcrübəsizlik və naşılıq, kadr siyasətində neobolşevizm meyilləri və kobud səhvlər yalançı "demokratik" iqtidarın bütün mahiyyətini, onun xalqdan uzaqlığını, sosial dayaqlardan məhrum olduğunu aşkara çıxardı. Beş ildən artıq

davam edən böhran 1993-cü ilin əvvəllərindən başlayaraq daha kəskin xarakter aldı. Daxildəki pozucu qüvvələrin və xaricdəki təhrikçilərin fəal əməkdaşlığı sayəsində Azərbaycanın parçalanmasının əsası qoyulur, etnik qarşıdurmalar və vətəndaş müharibəsi üçün zəmin hazırlanırdı. Artıq Azərbaycanda hökumət böhranı deyil, dövlət böhranı yaranmışdı. AXC–Müsavat rejimi bu qorxulu prosesin qarşısını almaqda aciz idi.

Nəhayət, 1993-cü ilin birinci yarısında Ermənistanın silahlı qüvvələri tərəfindən Kəlbəcərin işğalı Azərbaycanda böhranı son həddə çatdırdı. Bununla bir sırada ölkə daxilində hərc-mərclik, quldurluq, korrupsiya, banditizm baş alıb gedirdi, cəzasızlıq mühiti yaranmışdı, addımbaşı insanların hüquqları tapdalanırdı. AXC iqtidarının dövləti idarəetmədə səriştəsizliyi, ciddi siyasi səhvləri, taleyüklü məsələlərdə düzgün qərarlar qəbul edə bilməməsi, xalqdan ayrılması və onun etimadını tamamilə itirməsi hakimiyyəti iflic vəziyyətinə gətirdi. Ölkə idarə edilmir, hər kəs öz başının çarəsini qılmağa çalışırdı. Öz ətrafında qanunsuz silahlı hərbi birləşmələr yaratmış siyasi qruplar hakimiyyət uğrunda çəkişməni yenidən qızışdırmağa başlamışdılar.

AXC–Müsavat iqtidarı bir daha öz fərsizliyini nümayiş etdirərək Gəncədə son dərəcə uğursuz əməliyyat keçirdi. Nəticədə Surət Hüseynov kimi satqının başçılıq etdiyi hərbi dəstələr xalqdan dəstək görməyən AXC–Müsavat iqtidarının istefasını tələb edərək Gəncədən Bakıya yürüş edib, yolüstü rayonlarda yerli hakimiyyəti öz əllərinə alırdılar. Digər tərəfdən Azərbaycana arxadan zərbə vuraraq “Talış–Muğan Respublikası” elan edən Əlikram Hümbətov və onun ətrafında birləşən separatçı quldur dəstələri cənub bölgəsində ağalıq edirdilər. AXC–Müsavat iqtidarının özünü qorumaq, Surət Hüseynov və Əlikram Hümbətovun isə hakimiyyət uğrunda mübarizədə qüvvələrini səfərbər etmək məqsədilə Milli Ordu hissələrini cəbhə bölgəsindən çıxarmaları nəticəsində erməni təcavüzkarlarının Azərbaycanın yeni-yeni yaşayış məntəqələrini işğal etməsinə şərait yaranırdı. Müstəqilliyini yenicə əldə etmiş Azərbaycan bir dövlət kimi dağılmaq, dünyanın siyasi xəritəsindən silinmək təhlükəsi qarşısında qalmışdı. Ölkə ərazisi etnik parçalanma, xalqımız vətəndaş müharibəsi kimi real təhlükə qarşısında qalmışdı.

Belə bir vəziyyətdə səbri tükənmiş Azərbaycan xalqı Heydər Əliyevin siyasi hakimiyyətə qayıtması tələbini daha qətiyyətlə irəli sürdü. Hər gün Azərbaycanın müxtəlif yerlərindən Naxçıvana nümayəndələr yollanır, teleqramlar göndərilir, Heydər Əliyev hakimiyyətə, çətin vaxtda xalqın hayına çatmağa dəvət edilirdi. Xalq yeganə çıxış yolunu öz böyük oğlu-

nun şəxsiyyətində, qətiyyət və zəkasında görürdü. Xalq və tarix qarşısında məsuliyyət hissindən qorxuya düşən, o biri tərəfdən özünün yaratdığı problemlər məngənəsindən çıxış yolu tapa bilməyən AXC–Müsavat rejimi xalqın bu haqlı tələbinin qarşısında davam gətirə bilmədi. İyunun 9-da Heydər Əliyev Bakıya gəldi, artıq ilk təzahürləri meydana çıxmış vətəndaş müharibəsi alovunu söndürmək üçün Gəncəyə getdi, böyük çətinliklər və iradi qüvvə bahasına böhranın səngidilməsinə nail oldu. 1993-cü il iyunun 15-də müstəqil Azərbaycanın siyasi tarixinin ən məsul və şanlı günlərindən biri yaşandı. Azərbaycan Respublikası Milli Məclisinin iclasında Heydər Əlirza oğlu Əliyev Ali Sovetin sədri seçildi.

Azərbaycan xalqının azadlığının, müstəqil dövlətçiliyinin müqəddəratının həll edildiyi ən ağır günlərdə Heydər Əliyevin öz xalqının iradəsinə tabe olaraq ölkə rəhbərliyinə qayıtması, əslində, onun müstəqil Azərbaycan Respublikasını, Azərbaycan xalqını, milli-azadlıq hərəkatında qazanılmış tarixi nailiyyətləri məhv olmaqdan xilas etmək kimi çox çətin və şərəfli bir missiyanı könüllü olaraq öz üzərinə götürməsi idi. Bu, sözün əsl mənasında, “ömrümün qalan hissəsini də xalqıma qurban verirəm” deyib, meydana atılan böyük ürəkli Vətən oğlunun öz xalqı, öz Vətəni qarşısında misilsiz fədakarlığı idi.

Lakin AXC–Müsavat rejimindən Heydər Əliyevə son dərəcə ağır miras qalmışdı. Siyasi oyunlara və hakimiyyət çəkişmələrinə cəlb edilmiş ordu çaşbaş düşüb öz döyüş qabiliyyətini itirmişdi. Naşılıq və səriştəsizlik nəticəsində dövlət aparatı, demək olar ki, dağılmış, idarəetmə və nəzarət funksiyasından məhrum olmuşdu. Belə bir şəraitdə legitim dövlət hakimiyyətinin təmsilçisi olan keçmiş prezident Əbülfəz Əliyev öz komandasının fəlakət həddinə gətirdiyi ölkəni böhranlı vəziyyətdən çıxarmaqda Heydər Əliyevə kömək etmək əvəzinə gizli olaraq, qorxaqcasına paytaxtdan qaçıb Azərbaycanın ucqar dağ kəndlərindən birinə sığınmağı daha üstün tutdu. 1993-cü ilin iyun günlərində Azərbaycan təkcə siyasi, hərbi, iqtisadi deyil, həm də mənəvi böhran içərisində idi. Cəmiyyətdə ümidsizlik və inamsızlıq əhvali-ruhiyyəsi kök atmağa başlamışdı. Heydər Əliyevin qarşısında yalnız ölkəni böhran vəziyyətindən çıxarmaq deyil, həm də xalqın geniş təbəqələrini Azərbaycan dövlətçiliyi ideyası ətrafında birləşdirmək, ona ümid və inam aşılamaq, qətiyyət və mübarizlik təlqin etmək vəzifəsi dayanırdı.

Azərbaycan dövlətçiliyinin xilaskarı kimi yenidən siyasi hakimiyyətə qayıdan Heydər Əliyev öz sarsılmaz iradəsi, əzmi, zəngin dövlətçilik təcrübəsi və siyasi fəhmi ilə tezliklə bu mühüm vəzifələrin öhdəsindən

gəlməyə tam qadir olduğunu göstərdi. 1993-cü ilin avqustunda Azərbaycanın ərazi bütövlüyünü cənubdan təhdid edən oyuncaq "Talış–Muğan Respublikası" iddiasına xalqın iradəsi ilə silah işlədilmədən son qoyuldu.

Digər tərəfdən, gənc müstəqil Azərbaycan Respublikasının demokratik əsaslar üzərində qurulması naminə Heydər Əliyev 1993-cü il iyunun 24-də Milli Məclisin qərarı ilə Əbülfəz Əliyevin prezidentlik səlahiyyətlərinin ona həvalə edilməsinə baxmayaraq, 1993-cü il avqustun 29-da prezidentə etimad məsələsinə dair referendum keçirilməsinin təşəbbüskarı oldu. Həmin referendumda Azərbaycanın səsvermə hüququna malik vətəndaşlarının 92,2 faizi iştirak etdi, onların 97,5 faizi Əbülfəz Əliyevə və onun başçılıq etdiyi AXC–Müsavat iqtidarına etimadsızlıq göstərmək barədə öz tarixi hökmünü verdi.

Böyük çətinliklərə baxmayaraq, xalq güclü şəxsiyyətin, böyük dövlət xadiminin, Qarabağ problemi də daxil olmaqla Azərbaycan xalqı və dövlətçiliyi qarşısında duran mühüm problemləri həll etməyə qadir şəxsiyyətin siyasi hakimiyyətə qayıdışından sonra sabaha daha böyük ümid və inamla baxmağa başladı. Məhz bu ümid və inamla Azərbaycan xalqı 1993-cü il oktyabrın 3-də yekdilliklə Heydər Əlirza oğlu Əliyevi Azərbaycan Respublikasının Prezidenti seçdi.

Siyasi hakimiyyətə qayıtdığı ilk gündən Heydər Əliyev elə bir dövlət qurmağa başladı ki, bu dövlət həm özünü, həm də vətəndaşlarını qorumağa tam qadir olduğunu dönə-dönə sübut etmişdir. Elə buna görə də Azərbaycan dövlətçiliyinə qarşı Surət Hüseynovun başçılığı ilə 1994-cü ilin oktyabrında, onun məkrli niyyətinin davamçıları olan Cavadov qardaşlarının başçılığı ilə 1995-ci ilin mart ayında qaldırılan qiyamlar Prezidentin və xalqın yekdil iradəsi ilə dərhal yatırıldı. Xüsusilə 1995-ci ilin martında Mahir və Rövşən Cavadov qardaşlarının xüsusi təyinatlı polis dəstəsindən istifadə etməklə daxildəki barışmaz müxalifətin və xaricdəki havadarlarının fəal yardımı ilə Heydər Əliyev hakimiyyətini devirmək, Azərbaycanda oyuncaq Dövət Şurası qurmaq və ölkənin müstəqilliyinə son qoymaq cəhdləri prezident tərəfindən Azərbaycanın siyasi tarixində bənzəri olmayan soyuqqanlılıq və qətiyyətlə dəf olundu. Prezidenti suiqəsd yolu ilə aradan götürmək və beləliklə də onun yürütdüyü Azərbaycanın dövlət müstəqilliyi siyasətinə son qoymaq istəyən qara qüvvələrin əl atdığı qeyri-insani üsullar heç bir nəticə vermədi və xalq tərəfindən sonsuz nifrətlə qarşılandı. 1988-ci ildən bəri dəfələrlə özünün dövlət və hökumət başçılarına qarşı mitinqlər, nümayişlər, piketlər düzəldən xalq ilk dəfə Heydər Əliyevin Prezidentliyi dövründə legitim dövlət hakimiy-

yətini, legitim Prezidenti müdafiə üçün izdihamlı mitinqə toplaşdı. Heydər Əliyev xalqın Prezidenti olduğunu, xalq isə ona olan dərin hörmət və məhəbbətini sözdə deyil, əməldə nümayiş etdirdi.

1993-cü ilin sonu – 1994-cü ilin əvvəllərində Azərbaycan ordusunun cəbhədəki uğurları, 1994-cü ilin mayında atəşkəs haqqında razılığın əldə edilməsi, həmin ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə "Əsrin müqaviləsi"nin bağlanması, dövlət aparatının təkmilləşdirilməsi və Milli Ordunun qurulması, ölkədaxili vəziyyətin sabitləşməsi, dünya miqyasında Azərbaycana marağın artması və dünyanın iri dövlətlərinin Azərbaycanın haqq işini dəstəkləməyə başlaması, mahir siyasətçinin Lissabon sammitində siyası qələbəsi, Azərbaycan Prezidentinin uğurlu xarici səfərləri bu inamı daha da qüvvətləndirir. Son dərəcə mürəkkəb və qarışıq bir şəraitdə siyasi hakimiyyət sükanı arxasına keçən Heydər Əliyev qısa müddət ərzində Azərbaycanı öz vətəndaşları üçün sakitliyin, vətəndaş həmrəyliyinin, əmin-amanlığın hökm sürdüyü, demokratik təsisatların fəaliyyəti üçün geniş şərait yaradıldığı bir ölkəyə, xarici sərmayəçilər üçün isə əlverişli imkanlar açan, hərtərəfli əməkdaşlığa hazır olan bir tərəfdaşa çevirdi. Fəlakət qarşısında qalan Azərbaycan güclü ümummilli liderin əzmi və iradəsi ilə düşdüyü ağır vəziyyətdən qurtardı, qısa müddət ərzində beynəlxalq birliyin tamhüquqlu üzvlərindən birinə çevrildi. Dünya siyasətçiləri arasında öz yeri olan Azərbaycan Prezidenti böyük nüfuzu və siyasi iradəsi sayəsində rəhbəri və qurucusu olduğu dövlətə də belə bir nüfuz qazandırmağa nail oldu. Bir əsrdə ikinci dəfə milli dövlətçiliyi dağılmaq təhlükəsi qarşısında qalan Azərbaycan xalqı yalnız Heydər Əliyev dühasına arxalanaraq öz dövlətini qorudu, qurdu və möhkəmləndirdi. Xalq öz böyük, sınanmış liderinin sayəsində milli qurtuluşa nail oldu.

Heydər Əliyev dövlət quruculuğu sahəsində başladığı böyük işi məntiqi şəkildə davam etdirərək müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının hazırlanmasına rəhbərlik etdi. Azərbaycanın siyasi tarixində yeni bir era açan və onun dövlət müstəqilliyinin, cəmiyyətdə insan azadlığının və demokratik dəyərlərin əsas qarantına çevrilən bu Konstitusiya 1995-ci il noyabrın 12-də referendum yolu ilə qəbul edildi. İlk dəfə olaraq demokratik şəraitdə çoxpartiyalılıq əsasında Azərbaycan parlamenti – Milli Məclisi seçildi. Azərbaycan Respublikası dünyanın azad, suveren, müstəqil dövlətləri arasında özünə layiq yerini tutdu.

Yaxın tarixi keçmişin bütün çətinlik və məhrumiyyətlərini öz gözləri ilə görmüş Azərbaycan xalqı 1993-cü il iyunun 15-dən sonra ölkəsi və özü üçün tamamilə yeni bir tarixin yazıldığını və yaşandığını görür və bu

onun öz liderinə olan inamını, sevgisini qat-qat artırır. Bu da təsadüfi deyildir ki, Heydər Əlirza oğlu Əliyevin siyasi hakimiyyətə qayıdışının hər ildönümü tarixində ölkəmizin bütün bölgələrindən Azərbaycan Respublikasının Milli Məclisinə, Prezident Aparatına, başqa dövlət orqanlarına, kütləvi informasiya vasitələrinə göndərilən məktublarda, müraciətlərdə 1993-cü il 15 iyun gününün Azərbaycan xalqının milli qurtuluş günü elan edilməsi ilə bağlı çoxsaylı təkliflər verilir. Xalqın bu istəyi milli qurtuluşu üçün öz Prezidentinə minnətdarlığının ifadəsidir.

Azərbaycan Respublikasının Milli Məclisi yuxarıda göstərilənləri nəzərə alaraq, Heydər Əliyevin 1993-cü il iyunun 15-də ölkə rəhbərliyinə qayıdış gününü Azərbaycan xalqının və müstəqil Azərbaycan dövlətinin qurtuluşunun başlanğıcı kimi qiymətləndirərək **qərara alır:**

Azərbaycan Respublikasının Prezidenti möhtərəm Heydər Əliyev cənablarının ölkənin dərin ictimai-siyasi və iqtisadi böhrandan çıxarılmasında, vətəndaş müharibəsinin qarşısının alınmasında, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin qorunmasında və möhkəmləndirilməsində, dövlətimizin beynəlxalq aləmdə böyük uğurlar qazanmasında, Azərbaycan dövlətçiliyinin nailiyyətlərində müstəsna xidmətləri qeyd edilsin və 15 iyun günü Azərbaycan xalqının Milli Qurtuluş Günü elan edilsin.

**Azərbaycan Respublikası Milli Məclisinin sədri**
**Murtuz ƏLƏSGƏROV**

*Bakı şəhəri, 27 iyun 1997-ci il*

# FOTOŞƏKİLLƏRƏ DAİR İZAHLAR

**1-2.** Milli Məclisin iclasında müzakirələr zamanı.
**3-4.** Heydər Əliyev mətbuat konfransı keçirərkən.
**5.** Böyük Britaniya müşahidəçiləri Heydər Əliyevin qəbulunda.
**6.** Almaniyanın ölkəmizdəki səfiri Heydər Əliyevin qəbulunda.
**7-8.** Heydər Əliyev mətbuat konfransında.
**9-10.** Milli Məclisin iclasında.
**11-13.** Respublikanın Cənub bölgəsində yaranmış vəziyyətlə bağlı mətbuat konfransı.
**14.** Türkiyə xarici işlər nazirinin müavini ilə görüş.
**15.** Çin Xalq Respublikasının ölkəmizdəki səfiri ilə görüş.
**16.** Heydər Əliyev xarici ölkə nümayəndəsini qəbul edərkən.
**17.** İran İslam Respublikasının ölkəmizdəki səfiri ilə görüş.
**18.** İran İslam Respublikasının nümayəndə heyəti Milli Məclisdə.
**19.** ABŞ-ın ölkəmizdəki səfiri Heydər Əliyevin qəbulunda.
**20.** Türkiyənin ölkəmizdəki səfiri Altan Karamanoğlu ilə görüş.
**21.** ABŞ-ın İnsan Hüquqları Təşkilatının nümayəndələri Milli Məclisdə.
**22.** Gürcüstan Baş nazirinin birinci müavini Avtandil Marqnanini Heydər Əliyevin qəbulunda.
**23.** Heydər Əliyev ziyalılarla görüşdə.
**24.** Heydər Əliyev Milli Məclisdə Lənkəran hadisələri ilə bağlı çıxış edərkən.
**25.** Din xadimləri ilə görüş.
**26-27.** Milli Məclisdə gənclərlə görüş.

# MÜNDƏRİCAT

Stenoqramlar .......... 9

*1 sentyabr 1993-cü il* .......... *11*

*3 sentyabr 1993-cü il* .......... *104*

*13 sentyabr 1993-cü il* .......... *178*

*14 sentyabr 1993-cü il* .......... *250*

*20 sentyabr 1993-cü il* .......... *295*

*29 sentyabr 1993-cü il* .......... *387*

15 iyun gününün Azərbaycan xalqının Milli Qurtuluş Günü elan edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı .......... 453

Fotoşəkillərə dair izahlar .......... 464

**HEYDƏR ƏLİYEV –**
**ALİ SOVETİN SƏDRİ**
*3 cilddə*

**III cild**

Bakı – 2023

*Kitabın hazırlanmasında iştirak edənlər:*
**Fərid Hacıyev, Teymur Tağıyev, Hafiz Babayev, Ceyhun Quliyev, Hafizə Abdullayeva, Lətif Babayev, İlahiyyə Əliyeva, Nəzrin Əliyeva, Nuranə İmanova, Cəmil Musayev, Mübariz Əsgərov, Aytən Qurbanlı, Sevda Süleymanova**

*Korrektorlar:*
**Nigar İsmayılova, Gövhər Hüseynova, Şəhla Mustafayeva**

*Kitab Milli Məclisin arxiv materialları əsasında hazırlanmışdır.*

AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİNİN NƏŞRİ

Çapa imzalanmışdır: 27.03.2023
Format: 70x100
Fiziki çap vərəqi: 30,00
Sifariş: 519
Tiraj: 1000

“Azərbaycan Nəşriyyatı” MMC-də tərtib edilmiş
və nəşriyyatın mətbəəsində çap olunmuşdur.
AZ1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə.
Telefon: (+994 12) 538 00 10; Faks: (+994 12) 538 00 55
E-mail: info@neshriyyat.gov.az